AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

KƏMALƏDDİN HEYDƏROV

# GÖMRÜK İŞİNİN ƏSASLARI

*(Ali məktəblər üçün dərslik)*

*"II 030300 - Gömrük işinin təşkili"*

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının "İqtisadiyyat" bölməsinin 26 aprel 2004-cü il tarixli iclasında təsdiq edilmişdir.**

**Qanun - 2004**

Az2

*MsstəkM^:* Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin I müavini, gömrük xidməti general-mayoru A,Ə.Əltycv

*Reiahor:* Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin professoru C.Q.Nariyev

*RayçU»:* Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin rektoru, t.e.d., professor M.C.Atakişiyev Azərbaycan Dövlət İqtisadi Universitetinin elmi işlər üzrə prorektoru, əməkdar elm xadimi, professor A.Ş,Şəkərəlİyev

***Nayir:***
Şahbaz Xuduoğlu

K,F.Heydərov. ‘^Gömrük işinin əsaslan”. Ali məktəblər üçün dərslik. *Azerbaycan dilinde.* Bakı, Qanun, 2004, 568 səh.

Təqdim olunan *‘G6mrfik işinin əsaslan” dərsliyi ali məktəb tələbələri iiçüh nəzərdə tutulsa da, bu dərslikdən iş adam- lan, gömrük orqanlarında çalışan məmurlar, həmçinin bu sahə ilə maraqlanan elmi işçilər və mülki vətəndaşlar da istifadə - edə bilərlər.

Q 0100010006 04-108
AB022051

Az2
€> Qanun, 2004

REDAKTORDAN

**Azərbaycan Respublikasının iqtisadi həyatında göm~rük işinin xüsusi yeri vardır. Bildiyimiz kimi, milli iqtisadiyyat xarici iqtisadi əlaqələrin təşkilindən son dərəcə asılıdır. Nəzərə alsaq ki, Azərbaycan inkişaf etməkdə olan digər ölkələr kimi iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya məsələlərini eyni zamanda həll etməlidir, onda gömrük işinin təşkili və idarə edilməsinin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini görmüş olarıq. Azərbaycan Respublikasının Ümummilli lideri, möhtərəm Heydər Əliyev gömrük orqanlarının yaradılmasının 5 illik yubileyinə həsr olunmuş yığıncaqda söylədiyi dahiyana fikirləri ilə gömrük orqanlarının indiki və gələcək dövrləri üçün vəzifələrini müəyyənləşdirmişdir:**

**“Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, Vətəninə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ola, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da, sizin vəzifənizdir...*’ (“Azərbaycan” qəzeti, 31 yanvar 1997-ci ü).**

**Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin bu tapşırığına əməl edən Dövlət Gömrük Komitəsinin rəhbərliyi gömrük işinin təşkili və idarə edilməsi ilə əlaqədar çox iş görmüşdür. Belə ki, gömrük orqanlarının maddi-texniki bazasını gücləndirmək və müasirləşdirməklə bərabər, yüksək səviyyəli gömrük işçilərinin hazırlanması üçün də hər cür şərait yaradılmışdır. Daha**

**Önəmlisi isə bu sahə ilə bağlı olan dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasıdır. Məhz DGK sədri K.F. Heydərovun təşəbbüsü və rəhbərliyi altında 4 cildlik “Gömrük işinin əsaslan’% “Gömrük hüququ”, “Gömrük statistikası”, “Gömrük işinin təşkili və idarə edilməsi”, “Gömrük ekspertizası”, “Gömrük işi - iqtisadi suverenlik və təhlükəsizlik”, “Gömrük işi və dünya iqtisadiyyatının inkişafı” və s. hazırlanıb nəşr olunmuşdur.**

**Yeni hazırlanan dərslik də bu qəbildəndir. “Gömrük işinin əsasları”** 199S-2000-Cİ **illərdə nəşr olunsa da onu yeniləməyə ehtiyac vardı. Birincisi, kitab nəşr olunduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyində əsaslı dəyişikliklər olmuşdur. Belə ki, yeni Vergi Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, habelə yeni tariflər qəbul olunmuşdur. İkincisi, həmin kitablar daha çox professional səviyyə üçün nəzərdə tutulduğuna görə tələbələrə müəyyən problemlər yaradırdı. Dərslik həmin çətinlikləri aradan qaldırmaqla bərabər, həm də ali məktəbdə tədris olunan saatlara uyğun olaraq, fənnin proqramına əsasən hazırlanmışdır.**

**Dərslik 25 mövzudan ibarət olmaqla məntiqi ardıcıllıqla şərh olunmuşdur. Bu mövzularda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Azərbaycan Respublikasında gömrük siyasətinin formalaşdırılmasındakı əvəzolunmaz rolu, Azərbaycan Respublikasında gömrük işinin təşkili, gömrük nəzarəti və gömrük rejimləri, gömrük rəsmiləşdirilməsi, xarici iqtisadi fəaliyyətin gömrük- tarif tənzimlənməsi, gömrük dəyəri və onun təyin edilməsi üsulları, gömrük ödənişləri, valyuta nəzarəti, gömrük statistikası, gömrük sistemində iqtisadi təhlil, gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti, gömrük orqanlarının idarə edilməsi, gömrük orqanlarında xidmət və göm-**

**rük sisteminin inkişaf etdirilməsində Azərbaycan Respubiikasının yeni seçilmiş prezidenti İlham Əliyevin rəh> bərliyi altında qəbul olunmuş qanun və fərmanlann əhəmiyyəti məsələləri yüksək professionallıqla, hərtərəfli və asan başa düşülən dildə izah olunmuşdur.**

**Qeyd etmək lazımdır ki, gömrük işi sahəsində hazırlanan dərsliklərdə ilk dəfə olaraq K.F. Heydərovun təklifi ilə ümummilli lider H.Ə. Əliyevin bu sahənin inkişaf etdirilməsi üçün göstərdiyi titanik zəhmət yüksək qiymətləndirilmişdir. Belə ki, dərsliyin birinci mövzusu H. Əliyevin gömrük işinin təşkili və idarə edilməsi ilə bağlı verdiyi fərman və sərəncamlara, onun tapşırığı və rəhbərliyi altında hazırlanmış qanun və qərarlara, həmçinin onun tapşırığı ilə aparılan işlərə geniş şərh verilmişdir. Bu cür yanaşma həm Böyük insan və siyasi lider olan H.Ə. Əliyevə olan sevgi və ehtiramı, həm də onun Azərbaycan Respublikasının müstəqilliyinin qorunması sahəsindəki əvəzsiz xidmətlərini göstərən tarixi bir qiymətdir.**

**Dərslik ali məktəblərin tələbələri, gömrük işi sahəsində çalışan dövlət məmurları və bu sahə ilə maraqlanan bütün şəxslər üçün nəzərdə tutulmuşdur.**

*Elm v3 Təhsil Msrkəzi 'Təfəkkür**
Universitetinin professoru
C.Q. Nuriyev*

# TARİXİ ARAYIŞ

**Bakı gömrüyü ilk dəfə Rusiya İmperiyası Senatının 25 yanvar 1807-ci il tarixli fərmanı ilə 1809-cu ildə təsis edilmiş, Həştərxan gömrük dairəsinin tərkibinə daxil edilmişdi. “Zaqafqaziya ölkəsində gömrük idarəetməsi barədə Əsasnamə”yə görə o, 31 iyul 1831-ci ii tarixdən Zaqafqaziya gömrük dairəsinin tabeliyinə verilmiş və 1832-ci ildən etibarən “Bakı anbar gömrükxanası adını almışdı.**

*4* **may 1847-ci ildən Bakı gömrüyü Zaqafqaziya Karan-tin-Gömrük dairəsinin tabeliyində olan Bakı Karantln-GÖmrük idarəçiliyinə çevrilir. Qafqaz canişini tərəfindən 31 mart 1861-ci il tarixdə təsdiq edilmiş “Qafqaz və Zaqafqaziyada Karantin-GÖmrük hissəsinin yenidən təşkili barədə Əsasnamə**yə görə bn İdarə Bakı Karantin-Göm- rük kontoruna çevrilmiş və yeni Bakı Karantin-Gömrok dairəsinin idarəsinə tabe edilmişdi. 1897-ci il dekabr ayının 8-də “Rusiyanın Avropa hissəsi və Qafqazda gömrük təşkilatlarının ştatları” barədə qanuna əsasən Bakı Ka- rantin-Gömrük kontoru Bakı Gömrük Dairəsi idarə heyəti tabeliyində Bakı Gömrükxan asına çevrilir və 1 iyun 1911-ci ildə TİflİsdəkiQafqaz Gömrük dairəsinin idarəsinə tabe edilir.**

**1911-d ildən 1918-ci İlə qədər Bakı Gömrüyü Senat tərəfindən 21 yanvar 1911-d ildə təsdiq edilmiş “Rusiya İmperiyası Gömrüklərinin Nizamnaməsi” əsasında fəaliyyət göstərmişdir.**

**Bu dövrlərdə gömrükxana idxal və ixrac mallarının gömrük müayinəsini, gömrük rüsum və yığımlarının tutulmasını, gömrük anbarlarında gömrük sərhədini keçən malların müvəqqəti saxlancını, malların keçirilməsinə**

**xucu xəstəliklərin müəyyən edildiyi təqdirdə bütün səmi-şiniərin və gəmi heyətinin sahildə müəyyən olunmuş müddətlərdə təcrid edilməsi də daxil idi.**

**1918-20-ci illərdə gömrükxana Azərbaycan Demokratik Respublikasının Maliyyə Nazirliyinin tabeçiliyində fəaliyyət göstərmi; və onun funksiyalarında əhəmiyyətli dəyişiklik baş vermişdir.**

**1921-ci ilin əvvəlində Bakı gömrükxanası aşağıdakı struktura malik idi:**

1. **Dəftərxana;**
2. **Müsadirə şöbəsi;**
3. **Mühasibat;**
4. **Gəmi kontoru.**

**1929-cu ildən gömrükxananın fəaliyyəti Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarlan Şurasının 19 dekabr 1928-ci il tarixli müvafiq qərarı ilə tənzimləndi və əsas məsələlər kimi aşağıdakılar nəzərdə tutuldu:**

**- sərhədi keçən sərnişinlərin, baqajın, yüklərin və nəqliyyat vasitələrinin müayinəsi və onların buraxılması;**

**- xarici ticarət monopoliyası haqqında qanunun yerinə yetirilməsində faktiki nəzarət;**

**- qaçaqmalçılığın müəyyən edilməsi və tutulması, qaçaqmalçılıq barədə işlərin çözülməsi;**

**- yük və sərnişinlərin dövlət sərhədini keçdiyi anda gömrük rüsum və yığımlarının hesablanıb tutulması.**

**1946-cı ilin əvvəlində Bakı gömrükxanasının strukturu genişləndirildi. Yeni strukturda aşağıdakı şöbələr nəzərdə tutuldu:**

1. **Ümumi şöbə;**
2. **Mühasibat;**
3. **Məhkəmə-müsadirə şöbəsi;**
4. **Yük şöbəsi;**
5. **Poçt-sərnişin şöbəsi;**
6. **Gəmi şöbəsi.**

**1955-cİ H gəmi və yuk şöbələri vahid gəmi-yük şöbəsinə çevrildi^ məhkəmə-müsadirə şöbəsi İsə bəzi repressiv funksiyalarını itirərək, qaçaqmalçılığa qarşı mübarizə qrupuna çevrildi. Sonralar - 1956-88-ci illərdə də Bakı gömrülocanasının strukturunda, funksiyalarında, adında və tabeçiliyində bir sıra dəyişikliklər edildi.**

**1989-cu il yanvann 27-də SSRİ Nazirlər Soveti yanında Dövlət Gömrük Nəzarəti Baş İdarəsinin 17 saylı əmri ilə Bakı gömrükxanası əsasında Azərbaycan Respublikası Gomrfikxanası yaradıldı və respublikadakı digər göm-rökxanalar (Culfa və Astarada) onun tabeçiliyinə verildi.**

**Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra 1992-ci ilin yanvarında prezident fərmanı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı.**

**Bakı gömrükxanasının mövcud olduğu müddətlərdəki fəaliyyətini əks etdirən sənədli materiallar hazırda iki dövlət arxivində saxlanılır. 1809-1919-cu illəri əhatə edən materiallar 4397 qovluqda (fond N-202), 1920-1935-ci illəri əhatə edən materiallar 244 qovluqda (fond N-363) Azərbaycan Respublikasının Baş Dövlət Arxiv İdarəsində saxlanılır.**

# I BÖLMƏ. GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ TEXNOLOGİYASI

## Mövzu 1. Heydər Əliyev Azərbaycan Respublikasında gömrük siyasətinin banisidir

Azərbaycan Respublikası ikinci dəfə müstəqillik əldə etdikdən sonra (18 oktyabr I991-ci il) dövlətçiliyin mühüm atributlarından biri olan Elövlət Gömrük Komitəsi 30 yanvar 1992-ci ildə yaradıldı.

Ölkəmizin seçdiyi dövlət quruluşu və inkişaf istiqamətləri iqtisadiyyatımızı xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyini təmin edə biləcək orqanın yaradılmasını, ilk növbədə təsis edilməli olan dövlət idarəetmə sisteminin aparıcı elementlərindən birinin təşkilini labüdləşdirdi.

Xarici iqtisadi fəaliyyətin dövlət inhisarında saxlanıldığı SSRİ-nin tərkibində olmuş Azərbaycan üçün bu sahədəki strateji və taktiki tədbirlər tamamilə yenİ olmaqla demək olar ki, sıfır səviyyəsindən başlanılmalı idi. Bu tədbirlər kompleks xarakterli olmalı və onlann həyata keçirilmə mərhələləri müəyyənləşdirilməli idi. Lakin, o zaman Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət, eləcə də Dövlət Gömrük Komitəsi rəhbərliyinin səriştəsiz fəaliyyəti nəticəsində köklü tədbirlər planının işlənib hazırlanmasına, mütərəqqi və səmərəli gömrük siyasətinin aparılmasına nail olunmadı. Ölkə daxilində və sərhəddə iş qabiliyyətli gömrük orqanları şəbəkəsinin yaradılması vo onlann texniki təminatı, gömrük xidməti kadrlanmn hazırlanması, gömrük qanunvericiliyinin hazırlanması, qəbul edilməsi və tətbiqi, gömrük işçilərinin sosial məsələlərinin həlli kimi mühüm tədbirlər ön plana çəkilmədi,

1993- cü ilin iyun ayında Azərbaycanda yaranmış gərginliyi aradan qaldırmaq, ölkəni parçalamnaqdan qurtarmaq, vətəndaş müha-

rtbəsinin qarşısını almaq, ölkonin müstəqilliyini vo suverenliyini itirmək təhlükəsini aradan qaldınnaq, ümumiyyətlə, Azərbaycanın bir dövlət kimi mohv olmasının qarşısını almaq üçün xalqımız öz böyük oğlunu - Azorbaycanın milli simvolu və lideri olan Heydər Əlirza oğlu Əliyevi ikinci dəfə hakimiyyətə təkidlə dəvot etdi. Xalqın çağırışlarını və müraciətlərini cavabsız qoymayan o böyük insan ikinci dəfə hakimiyyətə qayıtmağa razılıq verdi.

Ölkədəki problemləri zorgər dəqiqliyi ilə bir-bir həll edən möhtərəm H. Əliyev cənablan, 1995-ci ildən başlayaraq gömrük orqanlarının işinin yenidən qurmağa başladı. Əvvəlcə Dövlət Gömrük Komitəsinin rəhbərliyini dəyişdirdi. Gömrük sistemi və in&astrukturu yenidən quruldu. Bütövlükdə gömrük işinin məzmununa yenidən baxıldı. İnkişaf etmiş ölkələrin gömrük təcrübəsinin öyrənilməsi, beynəlxalq tolobləro cavab verən gömrük qanunvericiliyinin yaradılması və tətbiqi, Azərbaycan Respublikası gömrük xidmətinin digər ölkələrin gömrük xidmətləri ilə sənədlərin və gömrük əməliyyatlarının unifıkasiyası (vahid sistemə gətirilməsi) əsasında yaxınlaşması kimi mühüm prinsiplər bu yeniləşmənin əsasını təşkil etdi.

Təşkilatı tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasəti də formalaşdırıldı. Ölkənin gömrük qanunvericiliyi təkmilləşdirildi. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və “Gömrük Tarifi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Məcəllədə gömrük orqanlarının qarşısında qoyulan vəzifələrdən çıxış edilərək gömrük işinin əsas prinsipləri müəyyənləşdirildi. Məhz gömrük orqanlan bu Məcəllənin müddəalarına görə, hüquq-mühafizə orqanı statusu aldı.

Gömrük tarifi və valyuta tənzimlənməsi haqqında qəbul edilən qanunlar, gömrük orqanlanna valyuta nəzarətim həyata keçirmək hüququnu verdi, habelə gömrük rüsumlarının dəqiq hesablanması və vaxtında yığılaraq dövlət büdcəsinə köçürülməsi tələbini qoydu.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 27 oktyabr 1998-ci il tarixli 6 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında” Əsasnamə mühüm yer tutur. Əsasnaməyə

görə Dövlət Gömrük komitəsi Azorbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən Mərkəzi İcra Hakimiyyəti orqanıdır.

Heydər Əliyevin təklifi ilə gömrük siyasətinin strateji məsələlərinin müəyyən edilməsi mərhələsində Dövlət Gömrük Komitəsinə önəmli yer verildi. Belə ki, vahid gömrük sisteminin yaradılması: xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi; milli bazann xarici rəqabətin zərərli təsirindən qorunması; keyfiyyətsiz malların idxalının qarşısının alınması; ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi; qaçaqmalçılıq vo gömrük qaydalarının pozulması hallarının qarşısının alınması və aradan qaldırılması; Azərbaycan xalqının bədii və arxeoloji sərvətlərinin, intellektual mülkiyyətinin, nadir flora və fauna nümunələrinin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması; valyuta əməliyyatlarına mükəmməl nəzarət sisteminin yaradılması; müasir mərhələdə gömrük siyasətinin hazırlanması və s. məsələlərdə Dövlət Gömrük Komitəsinə verilmiş səlahiyyətlər Heydər Əliye vin nə qədər uzaqgörən, bacarıqlı və əvəzolunmaz dövlət xadimi olmasını bir daha sübut edir.

Gömrük orqanlarının yaradılmasının beş illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev gömrük sisteminin inkişafı vo təkmilləşdirilməsi problemlərinə toxunaraq, Dövlət Gömrük Komitəsinin qarşısında duran birinci dərəcoti məsələlori belə xarakterizə etmişdir. “Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azorbaycamn müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Bizim Azərbaycanda nə gömrük məktəbi, nə gömrük universiteti, nə də gömrük akademiyası olubdur...

Gömrük işçilərinin əksəriyyəti, cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alan adamlar çox azdır. Siz bu tohsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gömrük elmi-

nin va gömıük biliklorinin mənimsəniltnosi sahosində özünüzü təhsil ləndirasiniz, təkmilləşdirərsiniz. Şübhəsiz ki, Gömrük Komitəsinin gərək xüsusi iş planı olsun. Gömrük Komitəsinin Öz işçilərini təkmilləşdimıok, onlara xüsusi gömrük təhsili vermək, onların təcrübəsini artırmaq üçün gərək birillik, ikiillik, üçillik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən on çox lazımdır. Ona görə də siz bunu etməlisiniz.

Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənirasonıiş adam olsun, mənoviyyatca təmiz olsun, öz işinə sadiq olsun. Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq tazımdır. Bu da sizin vəzifənizdir...” (“Azərbaycan” qəzeti, 31 yanvar 1997-ci il).

Dövlət Gömrük Komitəsinin rəhbərliyi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu çıxışını özünün fəaliyyət Proqramı kimi qəbul edərək, bu dahi insanın fikirlərim ardıcıl olaraq həyata keçirməyə başladı.

Prezidentin tapşırığına uyğun olaraq gömrükxanalann maddi-texniki bazası müasirloşdir i İməklə bərabər, milli dildə ilk tədris vəsaitləri hazırlanmağa başlanıldı. Qısa müddət ərzində 4 cildlik “Gömrük işinin əsaslan” (l998-2000-ci illər) “Azərbaycan gömrük xidməti yeni dünya təsərrüfat münasibətləri şəraitində” (1998), “Gömrük işi iqtisadi suverenlik və təhlükəsizlik” (1999), “Gömrük statistikası” (2000), “Gömrük işi və iqtisadiyyatın inkişafı” (2002), “Gömrük hüququ” (2002), “Gömrük işinin təşkili və idarə edilməsi” (2003) və “Gömrük ekspertizası (2003) adlı dərsliklər, dərs vəsaitləri və tədris proqramları nəşr olundu.

**Gömrük işinin təşkil edilməsi və gömrük siyasətinin formalaşdırılması ilə bağlı Ümummilli liderimiz H.Ə. Əliyevin imzası ilə aşağıdakı sənədlər qəbul edilmişdir:**

I. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanunu, 1995.

2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, 1997.
3. "Əməliyyat-axtanş fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 11 noyabr l999-cu İl.
4. "Məhkəmə və hüquq-mühafizə orqanları İşçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 11 dekabr 1998-ci il.
5. "Gömrük orqanlarında xidmət haqqında əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999-cu il.
6. "Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu. 1 iyun 2001-ci il, N- 135-lİQ.
7. "Azərbaycan Respublikası gömrük orqanlarının tanınma nişanı haqqında" Azərbaycan Respublikasının Qanunu, l iyun 2001-ci il. T-I34-İİQ.
8. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25.07.1997-ci il tarixli, 616 saylı Fərmanı.
9. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 1998-ci il tarixli 7 saylı Fərmanı.
10. "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında Azerbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 1999-cu il tarixli Formanı.
11. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 1999-cu il tarixli Fərmanı.
12. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi vo bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2000-ci il tarixli, 389 saylı Fərmanı.

13. “Azerbaycan Respublikası Cinayət-Prosessual Məcolləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcolləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fəmıanı.

**Ölkə prezidenti olarkən bütün türk dünyasının lideri səviyyəsinədək yüksəlmiş, İslam aləminin liderlərindən biri olan H. Əliyevin təklifi və təşəbbüsü ilə həyata keçirilmiş, Azərbaycan Respublikasının iqtisadi və siyasi həyatında mühüm əhəmiyyət kəsb edən aşağıdakı xidmətləri qeyd etmək lazımdır:**

1. H. Əliyevin indi adının verildiyi Binə aeroportunun tikilməsi. Burada gömrük işi dünya standartları səviyyəsində qurulmuşdur;
2. Naxçıvanda beynəlxalq stadartlara cavab verən hava limanının tikilməsi vo orada müasir tələblərə cavab verən gömrük işinin təşkili;
3. Bakı. Naxçıvan, Biləsuvar, Astara, Xaçmaz, Tovuz, Lənkəran, Qusar, Qazax və Balakəndo müasir standartlara cavab verən gömrük orqanlarının binalarının keçidlərinin tikilməsi və ya rekonstruksiyası;
4. İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti ilə sərhədyanı vizasız gediş-gəliş üçün sazişin imzalanması;
5. Qəzet kağızlarının əlavə dəyər vergisi vo gömrük rüsumlarından azad edilməsi;
6. Ölkəyə gətirilən qəzet və jumallann əlavə dəyər vergisindən azad olunması;
7. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında Astara-Astara dəmir yolunun çokilməsinə razılığın alınması;
8. Gömrük sisteminin təmərküzləşməsi, vahid uniforma və digər atributların hazırlanıb, qəbul edilməsi;

9. Dövlot Gömrük Komitəsinin dünya arenasında özünəməxsus yer tutması və Ümumdünya Gömrük Təşkilatında aparıcı gömrük orqanlarından birinə çevrilməsi;
10. Azərbaycan sərhədlərinin möhkəmləndirilməsi ilə bağlı gördüyü tədbirlərin nəticəsində qaçaqmalçılığın və narkotik vasitolo- rin öiko ərazisindən keçirilməsinin tamamilə qarşısının alınması;
11. Gömrük terminallarının yaradılması;
12. Mütərəqqi gömrük siyasətinin yaradılması;
13. MDB məkanında ən yaxşı müasir texniki təchizatı olan gömrük sisteminin yaradılması;
14. Dövlətin mühüm atributlanndan biri olan gömrük sisteminə sərbəst fəaliyyətin qazandıniması və onun mühüm ideologiyaya çevrilməsi;
15. Azərbaycan Respublikasının müstəqilliyinin və suverenliyinin qorunması sahəsində Dövlət Gömrük Komitəsinin mühüm nailiyyətlər qazanması.

## Mövzu 2. Azərbaycan Respublikasında gömrük işinin təşkili

### *I. I. Gömrük işinin mahiyy9Ü və gömrük qanunvericUiyi*

Bütün şəxslər mal və nəqliyyat vasitələrini bərabər əsaslarla Azərbaycan Respublikası əsazisino gətirmək və bu ərazidən apara bilmək hüququna malikdirlər. Malların və nəqliyyat vasitələrinin Respublikaya gətirilməsi və apanİması, o cümlədən xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi hüququ Azərbaycan Respublikası Konstitusiyası (ARK) ilə təsdiq edilmişdir:

Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Azərbaycan Respublikası vətəndaşının hor zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır (ARK, maddə 28 b. 3,4).

Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüququndan ibarətdir (ARK, maddə 29 b. 3).

Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlanndan, qabiliyyətindən və əmlakından səıbost istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər (ARK, maddə 59).

Eyni zamanda hor bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli..., qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək məsuliyyətdən azad etmir (ARK, maddə 72 b, 2,3). Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur (ARK, maddə 73 b. 1).

Mallann normal şəraitdə bir ölkədən başqa ölkəyə aparılıb gətirilməsi beynəlxalq hüququn ümumiliklə qəbul edilmiş bir sıra normaları ilə sıx bağlıdır: Beynəlxalq insan hüquqları Bəyannaməsinin 13 və 17-ci maddələri, mülki və siyasi hüquqlar haqda Beynəlxalq Paktın 12-ci maddəsi və s. Bu hüququn təmin edilməsi beynəlxalq humanitar əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Gömrük Məcəlləsi və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, heç kəsin Azərbaycanın gömrük ərazisinə mal və nəqliyyat vasitələri gətirməsi və ya aparması hüququ əlindən alına və ya məhdudlaşdırıla bilməz.

Qanunvericilik aktı malların və nəqliyyat vasitələrinin aparılıb-gətirilməsi hüququnun reallaşdırılmasına münasibətdə müəyyən məhdudiyyətlər nəzərdə tuta bilər. Belə məhdudiyyətlər, bir qayda olaraq, ictimai asayişi və cəmiyyətin əxlaqi dəyərlərinin müdafiəsi məqsədini güdür. Cəmiyyətə və onun fərdlərinə zərər verən və hüquqlannı pozan hər hansı hərəkət yolverilməzdir.

"Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir".'

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin (idxal və ixracın həcmi, strukturu və şərtləri) gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük rejimləri müəyyən edilməsi vasitəsi ilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində

*I. H. Əliyev. Dünya tecrübəsi Azarbaycan iqtisadiyyatında islahatların optimal yolunun axtarışına kömək edəcəkdir. Müstəqillik yollarında. B.: Azərbaycan, 1997, c. 2, 11*

metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi metodlarını n istifadə qaydası gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.

Gömrük siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilo müəyyən edilir;

• Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi vahid xarici ticarət siyasəti;

- xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata keçirilməsinə nəzarət;

- vahid valyuta nəzarəti siyasəti;

- Azərbaycanın gömrük ərazisinin bütövlüyü;

- xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;

• xarici ticarət fəaliyyəti iştirakçılannm bərabərliyi və hər hansı formada ayrı-seçkiliyə yol verilməsi;

- xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

- dövlətin və onun orqanlarının xarici ticarət fəaliyyətinə rü- zumsuz müdaxiləsinin, onun iştirakçılarına və bütünlükdə ölkə iqtisadiyyatına zərər vurulmasının İstisna edilməsi.

Gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət etməlidir. İqtisadi təhlükəsizlik məsələləri iqtisadiyyatın Azərbaycan Respublikasının sosial, siyasi, müdafiə qabiliyyətinin və mütərəqqi inkişafının kifayət edəcək səviyyəsini təmin edə bilən vəziyyətim, tarazlaşdırma problemlərinin həlli yollarını, mümkün xarici və daxili təhlükələrə, onun iqtisadi maraqlarının xarici təsirlərdən asılı olmaması və kifayət qədər xətərdən qorunması qabiliyyətim nəzərdə tutur.

Gömrük siyasəti, onun həyata keçirilməsi üçün başlıca zəmin olan gömrük xidmətinin fəaliyyətinə arxalanır. Eyni zamanda, gömrük tənzimlənməsini yalmz gömrük orqanlarının fəaliyyəti ilə eyniləşdirmək yanlış fikirdir. Gömrük siyasətinin formalaşdınlma- sı və həyata keçirilməsi mürəkkəb proses olub, hakimiyyətin hər üç qanadının - qanunvericilik, icra və məhkəmə hakimiyyətinin və

həmçinin bu işdə maraqlı olan təsərrüfatçılıq və sahibkarlıq dairələrinin bilavasitə iştirakı ilə reallaşa biləcək bir məsələdir.

Azərbaycan Respublikasında vahid gömrük siyasətinin tələb və vəzifələri Prezident, Milli Məclis və Hökumət tərəfindən Gömrük Məcəlləsi və Gömrük hüququnun digər mənbələri əsasında müəyyən edilir və respublikanın gömrük ərazisində mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən effektiv istifadə edilməsi ilə daxili bazann müdafiəsi üçün ticarət-siyasi məsələlərin həlli, milli iqtisadiyyatın İnkİşafının stimullaşdınimaması, dövlətin iqtisadi siyasətinin əsas məsələlərinin həllinə təkan ventıək məqsədi güdür.

Gömrük siyasətinin mahiyyəti öz əksini gömrük-tarif qanunvericiliyində, müxtəlif istiqamətli beynəlxalq gömrük birlikləri və münasibətləri yaradılmasında, sərbəst gömrük və ticarət zonalannın təşkil edilməsində tapır. Gömrük siyasəti dövlətin iqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsidir və buna görə də hökumətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi və daxili istehsalçıların beynəlxalq rəqabət qabiliyyətindən asılı olaraq xarici iqtisadi-siyasətin, o cümldən də gömrük siyasətinin nisbətən dəqiq konturlara malik 4 növü müşahidə edilir:

- proteksionizm (himayədarlıq),
- yumşaq proteksionizm,
- yumşaq sərbəst ticarət,
- sərbəst ticarət (fritrederçilik).

Bu istiqamətlər, eyni zamanda ölkə iqtisadiyyatının xarici iqtisadi müdaxilələrə açıqlıq dərəcəsini nümayiş etdirir.

Proteksionist gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilib. Onun əsas məqsədləri idxal edilən mallara gömrük vergiqoymasımn daha yüksək səviyysi- ni tətbiq etməklə əldə edilir.

Proteksionist siyasətdən fərqli olaraq sərbəst ticarət siyasəti gömrük rüsumlarının daha aşağı - minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük rüsumları, yığımları (tarif və ya iqtisadi tənzimləmə), gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırıİması (qeyri-tarif və ya inzibati tənzimləmə) təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləri və rəsmiyyətdir.

Gömrük siyasəti müxtəlif hüquq normalan və gömrük qaydaları əsasında həyata keçirilməlidir və bu da gömrük hüququ məfhumunu meydana çıxarır.

Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırılmaları ilk növbədə ona görə vacibdir ki, sahibkarlıq fəaliyyətinin bu və ya digər istiqamətlərinin imperativ tənzimləyərkən onun həyata keçirmə vasitələri istər-istəməz mülkiyyət münasibətləri sferasına müdaxilə etmiş olur. Bundan başqa gömrük siyasətinin xarici münasibətlərə təsiri dövlət üçün beynəlxalq-hüquqi xarakterli öhdəliklər yaratdığından onun normalaşdırı İması zərurətini doğurur. Gömrük Məcəlləsi gömrük işini - gömrük siyasəti və həmçinin, bu siyasəti həyata keçərəcək vasitələr; mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qayda və şərtləri, gömrük ödənclərinin tutulması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və s. kimi xarakterizə edir.

Konstitusiyanın 94-cü maddəsinin birinci bəndinin 25-ci hissəsinə görə gömrük işinin ümumi qaydalarını Azərbaycan Respublikası Milli Məclisi müəyyənləşdirir.

Gömrük işinin inkişaf istiqaməti Gömrük Məcəlləsinin 2-ci maddəsinin 3-cü bəndi ilə müəyyən olunmuş və hamıhqla qəbul edilmiş beynəlxalq normalar və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirmə istiqamətində inkişaf etdirilir. Gömrük Məcəlləsi 4-cü maddəsinə əsasən Azərbaycan Respublikası beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün digər dövlətlərlə gömrük ittifaqları, sərbəst iqtisadi zonalan yaradır, gömrük məsələləri üzrə beynəlxalq hüquq normalanna uyğun sazişlər bağlayır.

Gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsi prinsiplərini nizama salan və rəsmiləşdirmə əməliyyat lari m n yerinə yetirilməsi üçün mövcud qanunvericiliyə əməl olunmasını təmin edəcək olan dövlət tərəfindən müəyyənləşdirilmiş hərəkət qaydaları gömrük-hüquq nonnaları adlanır. Belə qaydaların məcmusu gömrük hüququnu əmələ gətirir kİ, bu da Azərbaycan Respublikası qanunvericiliyinin mühüm tərkib hissələrindən biridir.

Gömrük qaydalarının rəsmi nonna olması üçün onlar müəyyən hüquqi formaya və ya mənbəyə malik olmalıdır. Gömrük hüququnun mənbələri və yaxud fomıalan dedikdə, nəticəsində gömrük hüququ normaları müəyyən edilən dövlətin hüquqyaratma fəaliyyətinin təcəssüm fonnalan başa düşülür.

Gömrük hüququnun mənbəyini ixtiyari hüquqi akt deyil, yalnız elə akt təşkil edir ki, gömrük işinin ümumi qaydalannı əks etdirə bilsin. Beləliklə, gömrük hüququnun mənbəyi normativ xarakter daşımalıdır. İndividual aktlar hüquqi fakt xarakterinə malik olmalıdır.

Konstitusiyalılıq, yəni əsas qanunun müddəalarına tam şəkildə uyğunluq və qanunilik gömrük hüququ mənbələrinin əsas quruluş prinsipləridir. Gömrük hüququnun mənbələri sistem xarakterli olub aşağıdakı əsas elementlərdən ibarətdir:

a) daxili gömrük qanunvericiliyi;

b) gömrük münasibətlərinə aid olan və Azərbaycan Respublikasının tərəf-müqabil olduğu beynəlxalq hüquqi müqavilə və sazişlər.

Bəzi hallarda gömrük sahəsində ənənə xarakteri daşıyan normalardan da istifadə edilir. Belə normalar iki cürdür:

a) dəniz nəqliyyatı ilə daşınan yüklərin gömrük rəsmiləşdirilməsində istifadə olunan normalar;

b) gömrük dəyərinin təyin edilməsində istifadə olunan normalar.

Gömrük işi haqqında Azərbaycan Respublikasınm Qanunvericiliyi

Gömrük Məcəlləsindən, Gömrük tarifi haqqında” qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlanndan ibarətdir.

ri əhatə edir. Hüquqi qüvvəsinə görə onlar yalnız Konstitusiyadan geridə qalır vo əsasında bütün gömrük qanunvericiliyinin qurulduğu və inkişaf etdirildiyi hüquqi bazanı təşkil edirlər. Bu gömrük qanunlarının əlahiddə nonnalannın tətbiq edilmə xüsusiyyətləri Azərbaycan Respublikası Prezidentinin 25 iyul 1997-ci it tarixli 616 saytı fərmanı ilə müəyyən edilmişdir.

Gömrük qanunvericiliyinin kompleks xarakteri hüququn digər mənbələrində - Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, Mülki Məcəllədə, Mülki-Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində və s.-də əksini tapmış ayn-ayn noraıalann istifadə edilməsini nəzərdə tutur.

Gömrük-hüquq tənzimləmə mexanizmində qanun qüvvəli aktlar mühüm rol oynayır. Belə aktların qanun qüvvəsi o deməkdir ki, onlar qanunların icrası və inkişafı, yəni davamı kimi qəbul edilir və həmin qanunlara uyğun olmalıdırlar. Bunun toşkilati-hüquqi zəmanəti normativ qanun qüvvəli aktlann Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsi tələbidir. Ədliyyə Nazirliyi isə öz növbəsində vətəndaşların hüquqlarına təsir edən təşkilati normaların qanunların tələblərinə uyğun olmasına nəzarət edir. Qanunun və qanun qüvvəli aktların müddəaları arasında uyğunsuzluq müəyyən edildiyi hallarda onun aradan qaldınimasma qədər qeydiyyatdan imtina edilir. Qanun qüvvəli akt Ədliyyə Nazirliyində qeydiyyat nömrəsi almamış qüvvəyə minə bilməz. Qanun qüvvəli aktlar kəmiyyətinə göro gömrük hüququ mənbələrinin ən İri həcmlisidir. Buna başlıca səbəb gömrük qanunlarının mətnlərdəki digər hüquqi mənbələrdə əsaslanma qeydləridir.

Hal-hazırda gömrük münasibətlərini tənzimləyən qanun qüvvəli aktlann aşağıdakı əsas növləri tətbiq edilməkdədir:

*1.* Konstitusiyanın 99-cu maddəsinə əsasən Azərbaycan Respublikasında İcra hakimiyyətinin prezidentə mənsub olması ile əlaqədar olaraq:

Xarici siyasətin, o cümlədən də onun tərkib hissəsi olan xarici iqtisadi və gömrük siyasətinin strateji istiqamətlərinin müəyyənləşdirilməsi prezidentin fərman və sərəncamlan ilə öz həllini

Gömrük sahəsində totbiq edilən normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin qüvvədə olan beynəlxalq müqavilələrin müddəalarına uyğunsuzluq hallannı istisna etməyə İmkan verir.

Gömrük Məcəlləsinin 6-cı maddəsinə görə Azərbaycan Respublikasının dövlətlərarast müqavilələrində müəyyən edilən qaydalar bu Məcəllə və gömrük işi haqqında Azərbaycan Respublikasının digər qanunvericilik aktları üə nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, dövlətiərarası müqavilələrin qaydaları tətbiq

## *2. L Gömrük qanÜHvericliyinin zamana vB mBkana görə qüvvəsi*

Gömrük sahəsində tənzimləmə münasibətlərinin beynəlxalq təcrübədə qəbul edilmiş ümumi qaydasına görə, gömrük orqanı tərəfindən gömrük bəyannaməsinin və digər sənədlərin qəbul edildiyi gün qüvvədə olan qanunvericilik aktlan tətbiq edilir.

Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən qeyri-qanuni keçirilməsi hallan müəyyən edildikdə meydana çıxan münasibətlərin tənzimlənməsi üçün mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən faktiki keçirildiyi gün qüvvədə olan qanunvericilik aktlan tətbiq edilir.

Gömrük tənzimlənməsinin ərazi aspektini səciyyələndirən əsas anlayış - gömrük ərazisi anlayışıdır. Gömrük ərazisi dedikdə həmin Ölkənin gömrük qanunvericiliyinin tam həcmdə fəaliyyət göstərdiyi ərazi başa düşülür.

Gömrük Məcəlləsinin 3rCÜ maddəsində deyilir:

“Azərbaycan Respublikasının gömrük ərazisi - Azərbaycan Respublikasının quru ərazisindən, daxili sulardan. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən onda yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onlann üzərindəki hava məkanından ibarətdir. Azərbaycan Respublikası ərazisində sərbəst gömrük zonalan və sərbəst anbarlar yerləşə bilər. Bu məcəllədə və gömrük işİ üzrə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında müəyyən edilən

2. Nazirləp Kabinetinin qərarları ilə, adətən, gömrük siyasəti və gömrük hüququnun mühüm məsələləri tənzimlənir və daha yüksək statusa malik aktların icra mexanizmi müəyyən edilir.

Azərbaycan Respublikası prezidenti və Nazirlər Kabineti tərəfindən verilən sərəncamlar, bir qayda olaraq, hüquq normaları xarakterli deyil vo birdəfəlik tətbiqlə mahiyyətini sərf etmiş olur.

3. Bir neçə dövlət orqanı tərəfindən birgə qəbul edilən qanun qüvvəli aktlar. Bu qəbildən olan aktlara nümunə kimi Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və Vergilər Nazirliyinin birgə təsdiq etdikləri, MDB ölkələri hüdudları kənarından respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisinin tətbiqi qaydaları haqqında 27 iyun 1996-cı il tarixli təlimatı göstərmək olar.

4. Dövlət Gömrük Komitəsinin normativ aktlan, Gömrük Məcəlləsinin 9-cu maddəsinə əsasən Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük orqanları, bütün başqa dövlət orqanları, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq ilk növbədə poçt göndərişlərinə gömrük nəzarəti: dəniz, dəmir yolu, hava, avtomobil yollan itə və qarışıq daşımalarda gömrük qaydalarının ey-niləşdirüməsini; daimi yaşamaq üçün başqa ölkələrə gedən şəxslərin hüquqi statusunu, sərnişinlərdən ayrı gedən müşayiət olunmayan baqajın gömrük rejimini əhatə edir.

Azərbaycan Respublikasının gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsas 4 istiqamətdə inkişaf edir:

1) Beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıq;

2) MDB gömrük rəhbərləri şurası çərçivəsində əməkdaşlıq;

3) İqtisadi Əməkdaşlıq təşkilatı çərçivəsində əməkdaşlıq;

4) İkitərəfli münasibətlər əsasında ayn-ayrı dövlətlərin gömrük orqanları ilə əməkdaşlıq.

İstisna edilməklə sərbəst gömrük zonalannm və sərbəst anbarlan- nın əraziləri Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda yerləşən ərazidir”.

Gömrük ərazisi anlayışının bu cür şərtləndirilməsi o deməkdir ki, digər xarakterli zonalar, məsələn, xüsusi iqtisadi zonalar və s. gömrük ərazisinin bir hissəsidir. Belə xüsusi xarakterli zonaların fəaliyyətinin tənzimlənməsi müvafiq hüquqi qüvvəyə malik aktla- nn qəbul edilməsi ilə həyata keçirilməlidir.

Gömrük-hüquq normalarının tətbiq edilməsinin məkan hüdudla- nnm təyini üçün gömrük sərhədi məfhumundan istifadə edilir.

Gömrük sərhədi dedikdə gömrük ərazisinin perimetri - bu ərazinin kopturlanm hüdudlandıran xətt başa düşülür. Bİr sözlə gömrük sərhədi dövlətin qanunvericiliyinin qüvvədə olduğu məkan hüdudlannı müəyyənləşdirir və ərazicə bitişik ölkələrin gömrük ərazisini aymr.

Gömrük sərhədi həndəsi bölgü xarakterli, yer üzərindəki real xətt olan dövlət sərhədindən fərqli olaraq hüquqi fıksiya (təsəvvür edilən xətt) hesab edilir. Belə təsvir bəzi hallarda gömrük sərhədinin dövlət sərhədi ilə üst-üstə düşməyə biləcəyi variantlann mümkünlüyünü göstərir.

Gömrük Məcəlləsinin 3-cü maddəsinin 3-cü bəndinə görə “Azərbaycan Respublikasının Gömrük ərazisinin hüdudlan, həmçinin sərbəst gömrük zonalannm və sərbəst anbarların perimetrləri Azərbaycan Respublikasının gömrük sərhədidir”. Beləliklə, daxili və xarici gömrük sərhədi anlayışları meydana çıxır. Belə ki, gömrük ərazisinin ətraf büdudlannm xarici gömrük sərhədi olduğu anlaşılır.

Xarici gömrük sərhədi bilavasitə qonşu olan dövlətlərin gömrük ərazisini ayırır və adətən dövlət sərhədi ilə üst üstə düşür. Xarici gömrük sərhədində dövlət sərhədi barədə qanunvericilikdə nəzərdə tutulmuş inzibati-hüquqi rejim tətbiq edilir. Xarici gömrük sərhədinin qorunması gömrükçülər tərəfindən sərhəd qoşunlan itə birgə həyata keçirilir.

Daxili gömrük sərhədi gömrük ərazisinin daha içərilərində təşkil edilir. Daxili gömrük sərhədi zərurəti sərbəst gömrük zonası və sərbəst gömrük anbar rejimlərinin tətbiqi zamanı meydana çıxır.

Hüquqi statusuna görə daxili gömrük sərhədi xarici sərhədə bəra- bot tutulur; azad zonanın ərazisi sərhəd zonası kimi baxılır və oraya girişə xüsusi nozarət buraxılış ınəntoqələrindən və icazə vərə- qələri tətbiq edilməklə icazə verilir. Daxili gömrük sərhədi gömrükçülər tərəfindən azad gömrük zonasının hakimiyyət orqanları ilə birgə qorunur.

## *2.2. Gömrük orqanlarwm vahid sistemi*

Gömrük işinə bilavasitə rəhbərlik Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən həyata keçirilir. Başqa sözlə Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanıdır.

Gömrük orqanları hüquq-mühafizə orqanı olub (GM, maddə 7) vahid sistem təşkil edir. Bu sistemə aşağıdakılar daxildir:

- Dövlət Gömrük Komitəsi;
- məhəlli, ixtisaslaşmış idarələr;
- gömrükxanalar;
- gömrük postları.

Gömrük sisteminə daxil olmayan, lakin Dövlət Gömrük Komitəsinin tabeçiliyində olan qurumlar aşağıdakılardır:

- gömrük məqsədləri üçün malların ekspertizasım və tədqiqini aparmaqdan ötrü yaradılan gömrük laboratoriyalan;
- gömrük işi sahəsində elmİ-tədqiqat işlərinin apaniması, kadr hazırlığı və onların ixtisasının artırılması məqsədi ilə yaradılan elmi-tədqiqat müəssisələri, peşəyönümlü təhsil-tədris müəssisələri (məsələn, tədris mərkəzi);
- gömrük fəaliyyətinin yerinə yetirilməsinə kömək edən hesablama mərkəzləri, poliqrafiya: tikinti-istismar idarələri və digərləri (məsələn, gömrük anbarları və ya müvəqqəti saxlanc anbarlan).

Gömrük orqanlarının, gömrük laboratoriyalanmn, elmi tədqiqat və tədris müəssisələrinin, idarə və təşkilatların mülkiyyəti dövlət mülkiyyətidir.

Gömrük orqanları digər dövlət orqanları, müəssisələr, qurumlar, toşkiiatlar vo vətəndaşlarla qarşılıqlı münasibətlər qurur. Bəzi hallarda qanunvericilik gömrük orqanlarının səlahiyyətinə aid edilmiş məsələlərin digər orqanlar və müəssisələr tərəfindən yerinə yetirilməsinə yol verir. Bu zaman gömrük orqanları bu fəaliyyətə nəzarət etmək hüququna malikdirlər (məsələn, şəxsi (fərdi) müvəqqəti saxlanc anbarının sahibi, gömrük daşıyıcısı və s.).

Dövlət orqanlan və vəzifəli şəxslər Azərbaycan Respublikası gömrük orqanlanna onlara həvalə edilmiş vəzifə və funksiyalann yerinə yetirilməsinə kömək etməyə borcludurlar.

Gömrük Məcəlləsinin 10-cu maddəsinə görə Azərbaycan Respublikasının gömrük orqanları 19 əsas funksiyanın yerinə yetirilməsini təmin edirlər. Onlardan:

- Azərbaycan Respublikasının gömrük siyasətinin işlənib hazırlanmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;
- öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təmin etmək, iqtisadi mənafeyini qorumaq, gömrük sərhədindən keçirilən mallar barəsində iqtisadi siyasət tədbirlərinin hazırlanmasında iştirak etmək və bu siyasəti həyata keçirmək;
- gömrük işi sahəsində cinayətlərə, həmçinin, gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparmaq, narkotik vasitələrin, silahın, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyətin və s. gömrük sərhədindən keçirilməsinin qarşısını almaq;
- öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçimıək;
- gömrük işinə aid beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər funksiyaları göstərmək olar.

DGK-nin idarəçilik fəaliyyəti ilk növbədə tabeli gömrük orqan lari ilə qarşılıqlı münasibətlərdə öz əksini tapır. Bəzi hallarda DGK fiziki şəxslər və vəzifəli şəxslərlə bilavasitə ünsiyyətdə olur.

Gömrük orqanlannın ümumi məsələləri gömrük sisteminin bütün hallarında həll edilir və bu zaman DGK apancı rol oynayır. Bu ümumi məsələlərdən başqa DGK gömrük xidmətinə rəhbərlik və gömrük işinin inkişafı ilə əlaqədar olan spesifik məsələləri bəli edir.

Azərbaycan Dövlət Gömrük Komitəsi:

- tabeIi orqanların, müəssisələrin, qunımlann mülkiyyətinin idarə edilməsində mülkiyyətçi hüquqlarım həyata keçirir;

- gömrük orqanlannın vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq, gömrük qaydalannın və vergi qanunvericiliyinin pozulması hallan barədə işlərin icraatında prosessual normalara əməl edilməsinə nəzarət edir, belə pozuntular barədə verilmiş şikayət və protestlərə baxır.

DGK vəzifəli şəxsləri digər hüquq-mühafizə orqanian, naz-trlik və baş idarələrlə əməkdaşlığı təşkil edir, xarici ölkələrin göinrük orqanları ilə qarşılıqlı münasibətlər qurur. DGK əmr, sərəncam və tapşırıqlar verir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə Azərbaycan Respublikasının Prezidenti tərəfındəti təsdiq edilir. Gömrük orqanlannın vahid sisteminin müəyyən olunması, gömrük orqanlannın yaradılması, yenidən təşkili və ləğv edilməsi səlahiyyəti Prezidentə moxsusdr (GM, maddə 7 b. 2,4).

Gömrük rejimlərinin tətbiqinin ayn-ayn məsələlərini tənzimləyən, lakin Gömrük Məcəlləsində nəzərdə tutulmayan müddəalar üzrə Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının qəbul edilmosinə qədər olan müddət ərzində nəzərdə tutulmuş gömrük rejimlərinin hüquqi tənzimlənməsi və Gömrük Məcəlləsi ilə nəzərdə tutulmayan gömrük rejimlərinin tətbiq edilməsi Respublika Prezidentinin müəyyən etdiyi normativ aktları ilə həyata keçirilir (GM, maddə 26).

Prezident, həmçinin, gömrük orqanının vəzifəli şəxslərinə xüsusi rütbələrin müəyyən edilməsi və onların verilməsi qaydalanm təsdiq edir (GM, maddə 414 b.5).

Azərbaycan Respublikasının gömrük işini bilavasitə həyata keçirən orqanlar DGK-nin təsdiq etdiyi əsasnamələrə uyğun fəaliyyət göstərirlər. DGK-nin fəaliyyətinə Sədr rəhbərlik edir. Respublika prezidenti Komitə sədrini vəzifəVxƏ təyin və vəzifədən azad edir.

Gömrük işinə rəhbərliyin mühüm məsələləri DGK Kollegiyasının iclaslarmda müzakirə edilir. Kollegiyanın işinə DGK sədri rəhbərlik edir, onun tərkibinə isə sədrin müavinləri və gömrük xidmətinin bəzi rəhbər işçiləri daxil edilirlər. Kollegiyada qəbul edilmiş və sədrin əmri ilə təsdiq edilmiş qərarlann icrası bütün gömrük orqanları və gömrük əməkdaşlan üçün məcburidir. Adətən gömrük İşini aparan icra hakimiyyəti orqanlannda Gömrük-Tarif Şurası vo ya komissiyalan fəaliyyət göstərir.

DGK-nin mərkəzi aparatı, əsasən, operativ tədbirlər həyata keçirir, gömrük sisteminin işləmə mexanizmini yaradır, müvafiq normativ aktların hazırlanmasım təmin edir, məlumatların yığılması və analizi, idarəetmə qərarlarının mərhələlərinin hazırlanması və yerli gömrük orqanlanmn fəaliyyətinin əlaqələndirilməsini təşkil edİr.

DGK-nin idarə və şöbələri gömrük xidmətinin mərkəzi orqanı səviyyəsində qərarlar qəbul edilməsini təmin edir və bu qərarlann yerlərdə yerinə yetirilməsini təşkil edir. DGK-nin idarə və şöbələri öz səlahiyyətləri çərçivəsində gömrük işinin bəzi məsələlərini müstəqil həll edir və yerli gömrük orqanlanmn fəaliyyətinin konkret sahələrini istiqamətləndirirlər.

DGK-nin idarə struktur bölmələrinin iş prinsipinin əsasını funksional fəaliyyət təşkil edir, yəni hər bir idarə və şöbənin fəaliyyəti DGK-nə həvalə edilmiş funksiyaların yerinə yetirilməsini təmin etmək məqsədi güdür.

Gömrükxanalar öz fəaliyyətlərini DGK-nin ümumi rəhbərliyi altında həyata keçirirlər. DGK gömrükxananın fəaliyyət zonasinm hüdudlannı müəyyən edir. Görarükxanmın tabeçiliyində işin xarakterindən və həcmindən asılı olaraq gömrük postlan yaradılır. Gömriikxanalarm fəaliyyət zonalırmın sərhədləri respublikanın ərazi-bölgü prinsipi ilə müəyyən edilmiş bölgələrin inzibati sərhədləri ilə üst-üstə düşməyə bilər. Ehtiyac olduğu hallarda ixtisaslaşmış gömrükxanalann yaradılmasına gedilə bilər.

Gömrükxanalara, onlara həvalə edilmiş vəzifə və funksiyala- nn yerinə yetirilməsini təmin etmək üçün, geniş profilli hüquqlar verilmişdir:

- mal vo noqliyyat vasitəlorinin müəyyən edilmiş gömrük rejimi altında yerloşdirilməsinə icazə vermək;
- gömrük müayinəsi və gömrük nəzarətinin müxtəlif foımalan- nı həyata keçirmək;
- mal vo nəqliyyat vasitələrinin gömrük nəzarəti altında eyniləş-dirilməsini aparmaq;
- gömrük nəzarəti vo gömrük rəsmi ləşdirilməsinin aparılması üçün nəqliyyat vasitələrinin dayanacaq yerinin vo müddətinin müəyyən edilməsi vo dayanacaq yerlərindən yola düşmolerinə icazə verilməsi;
- Azərbaycan Respublikasının gömrük ərazisini gömrük orqanlarının icazəsi olmadan tərk etmiş nəqliyyat vasitələrini dayanmağa məcbur etmək, hava və dəniz gomilərini geriyə qaytarmaq (xarici gəmilər və digər dövlətlərin ərazisində olan gəmilərdən başqa);
- gömrük məqsədləri üçün prob və nümunələrin götürülməsi və tədqiqatı (ekspertizası);
- deklarant və gömrük daşıyıcılarından gömrük rəsmiləşdirilməsi icraatında və gömrük nəzarətinin keçirilməsində köməklik göstərilməsini tələb etmək;
- mal vo nəqliyyat vasitələri buraxıldıqdan sonra gömrük nəzarəti həyata keçimıək;
- öz səlahiyyətləri daxilində gömrük ödəncləri müddətinin uzadılması barədə qərar qəbul etmək;
- gömrük qaydalarının pozulmasına görə şəxsləri məsuliyyətə cəlb etmək;
- ödənilməmiş gömrük ödənclərini mübahisəsiz almaq;
- gömrükxananın struktur bölmələrinin fəaliyyət yerini, onlann iş vaxtını müəyyən etmək.

Gömrük postları öz fəaliyyətini gömrükxananın bilavasitə rəhbərliyi altında həyata keçirir. Ehtiyac olduqda bilavasitə DGK-nə tabe olan gömrük postları da yaradıla bilər.

Qəbul edilmiş ümumi qaydalara görə gömrük postları, adətən, hüquqi şəxs statusuna malik olmur, amma DGK-nin qərarı ilə belə status müəyyən edilə bilər. Bu halda gömrük postunun müstəqil

balansı, banklarda hesablaşma və digər hesablan yaradılır və post dövlət mülkiyyəti olan, ona verilmiş mülkiyyət üzərində operativ idarəetmə hüququ alır.

Gömriikxanalar üçün, əsasən, aşağıdakı vəzifələr və funksiyalar müəyyən edilir:

- gömrük rəsmiləşdir ilməsinin və gömrük nəzarətinin həyata keçirilməsi;
- qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma və cinayətlərə qarşı mübarizə aparılması.

Mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsini təmin etmək üçün ixtisaslaşdınimış gömrük postları yaradıla bilər. Məsələn, Komitə sədrinin 20 fevral 1998-ci il tarixli 002 saylı əmri ilə Respublika Nazirlər Kabinetinin 22 mart 1997-ci il tarixli 24 saylı qərarının tələblərinə müvafiq olaraq, respublika ərazisinə idxal edilən aksizli malların mərkəzləşdirilmiş qaydada gömrük rəsmiləşdirilməsini təmin etmək, aksiz markalarının tətbiqinə nəzarəti gücləndirmək, aksiz vergilərinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada düzgün hesablanıb tutulmasını və vaxtında dövlət büdcəsinə köçürülməsini təmin etmək məqsədi ilə, Dövlət Gömrük Komitəsinə bilavasitə tabe olmaqla, Bakı şəhərində, fəaliyyət zonası bütövlükdə Azerbaycan Respublikasının gömrük ərazisi olan - Aksiz gömrük postu yaradılmışdır.

Gömrük Məcəlləsinin 11-ci maddəsinə görə “Azərbaycan Respublikası gömrük orqanlarının və onların sərəncamında olan dəniz VQ çay gomilərinin bayrağı vardır. Azərbaycan Respublikası gömrük orqanlarmm sərəncamında olan nəqliyyat vasitələri və hava gəmilərinin tanınma nişanları vardır”.

Tanınma nişanı gömrük orqanlarının bina və digər tikililərində, nəqliyyat vasitələrində, kollegiyanın iclas zalında, gömrük orqanları rehbərlerinin kabinetlərində yerləşdirilə bilər.

## *2.3. Gömrük infrastrukturu, onun gömrük işinin toşkili vo inkişaf etdirilməsində rolu*

Həlli vacib olan təşkilati və idarəetmə problemləri arasmda Azərbaycanın gömrük sisteminin bu gün üçün və uzunmüddətli perspektiv keyfiyyətcə yüksəlişini nəzərdə tutan şaxələnmiş, mürəkkəb gömrük infrastrukturunun yaradılması xüsusi maraq doğurur. Bu bir çox faktorlarla bağlıdır. Faktorlann əsasında bazar iqtisadiyyatının inkişafı durur. Şübhəsizdir ki, inkişaf etmİş bazar infrastrukturu və onun digər tərkib hissələri, o cümlədən xarici iqtisadi əlaqələr sektoru olmadan bazar iqtisadiyyatı normal fəaliyyət göstərə bilməz.

Gömrük infrastrukturunun getdikcə artan rol və əhəmiyyətinə təsir göstərən digər şərait və tələblər də mövcuddur: birincisi, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi prosesində funksiyalannm, səlahiyyətlərinin və məsuliyyətlərinin artması ilə əlaqədar olaraq, gömrük orqanlarının fəaliyyətinin çətinləşməsi; ikincisi, gömrük rəsmiləşdirilməsi və mallara gömrük nəzarəti üzrə işlərin həcminin əhəmiyyətli dərəcədə artması, onlann yerinə yetirilməsinin yeni texnologiyanın və texniki vasitələrin tətbiqindən birbaşa asılılığının güclənməsi; üçüncüsü, gömrük orqanlanntn hüquq-mühafizə orqanı kimi yeni hüquq və vəzifələri, o cümlədən ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi; dördüncüsü, gömrük təşkilatlarının kadr heyətinin keyfiyyətcə yaxşı laşdınİması və möhkəmləndirilməsi tələbatı, onların peşəkarlığının, bilik səviyyəsinin yüksəldilməsi, yüksək əxlaqi-etik keyfiyyətlərin tərbiyə edilməsi; beşincisi, sosial sahənin geriliyinin aradan qaldmlmasmm vacibliyi, gömrük əməkdaşlarının sosial müdafiəsinin, normal həyat fəaliyyətinin təmin edilməsi; altıncısı, gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi və dərinləşməsi prosesinin Azərbaycan gömrük orqanlarının infrastruktur təminatının beynəlxalq *S9*- viyyəyə qaldınimasmı tələb etməsi.

Qeyd edilməlidir ki, gömrük infrastrukturunun təşkili və inkişafı - gömrük orqanları vahid sisteminin aynimaz atributu, gömrük

İşinin həyata keçirilməsində, onun səmərəli olmasını şərtləndirən əsas amillərdən biridir. Belə ki, infrastruktura təminatı bu və ya digər səviyyədə mövcudluğu ilə gömrük işinin həyata keçirilməsinin prosedura və mərhələlərini müşayiət edir.

Ənənəvi olaraq gömrük infrastrukturu məfhumunun müəyyən edilməsində əsas diqqət ona yönəldilir kİ, inhastruktur dedikdə gömrük işinin həyata keçirilməsinlə, gömrük orqanlannm vəzifələrinin yerinə yetirilməsində tabeli, köməkçi rol oynayan gömrük müəssisələrinin şəbəkəsi nəzərdə tutulur.

Belə təşkilatlara göıhrük laboratoriyalan, tədris müəssisələri, elmi tədqiqat müəssisələri, hesablama mərkəzləri, poliqrafiya, tikinti, istismar, təchizat və s. müəssisələr aid edilir.

“İnfrastruktura” latm sözü olub (infıa - altında, strUictura” - quruluş, təşkilat) “yardımçı quruluş” mənası daşıyır.

Beləliklə, infrastruktura - orqanın normal fəaliyyət göstərməsini təmin edən istehsal, qeyri-istehsal, elmi sahələr kompleksidir.

Gömrük inöastrukturuna xas olan ümumi və əlahiddə xüsusiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar;

- Birincisi, o, bütövlükdə milli iqtisadiyyatın infrastrukturundan təcrid olunmur, onun tərkibində yaradılır və fəaliyyət göstərir;
- İkincisi, gömrük sistemi bütövlükdə tənzimetmə, hüquqi, idarəetmə xarakterli institutlarla sıx bağlı olan ümumi infrastrukturun tərkib hissəsidir. Bu keyfiyyətdə o xarici iqtisadi fəaliyətin tənzimlənməsi sahəsində və beləliklə də iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir.
- Üçüncüsü, gömrük İnfrastrukturunun gömrük sisteminin fəaliyyətinin təmin edilməsi kimi sahədaxili təyinatı var.

Bu baxımdan, gömrük sisteminin noımal fəaliyyətim təmin edən infrastruktura təminatı elementlərini üç əsas qnıpa ayırmaq olar.

Birinci qrupa mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbar emalı üçün, həmçinin sərnişinlərə xidmət etmək üçün şərait yaradan elementlər daxil edilir. Başqa sözlə bu, gömrük orqanlannm maddi-texniki bazası (inzibati binalar, keçid-buraxılış məntəqələri, anbar təsəırüfatı; nəqliyyat vasitələri, sosial təyinatlı

obyektlər, vağzal va hava limanlannda gömrük nəzarəti zonalan və s.) hesab edilir.

İkinci qrupa gömrük əməliyyatlarının apanimasım, prosesin gedişi və alınmış nəticələr barədə məlumatın ötürülməsini təmin edən sistem, vasijə və fəaliyyət növləri (gömrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahid avtomatlaşdınimış məlumat sistemi, digər EHM və kompüter avadanlığı və s.) daxildir.

Üçüncü qrupa gömrük orqanları kadrlarının normal həyat fəaliyyətinin bərpası üçün maddi, məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrastruktura aid edilir. Bu sfera gömrük işçisinin peşə hazırlığının və hərtərəfli inkişafının təmin edilməsi üçün qeyri-istehsal xarakterli tələbatm ödənilməsini təmin etməlidir.

Beləliklə, gömrük infrastrukturu dedikdə, xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi şərtlərini, gömrük sisteminin bütövlükdə fəaliyyət göstərməsini təmin edən, gömrük nəzarəti, ekspertizası, rabitəsi, məlumat sistemi, gömrük orqanlarının maddi-texniki bazası, texniki vapsitələri, institusional, sosial struktur və fəaliyyət növləri kompleksi başa düşülməlidir.

# Mövzu 3. Gömrük nəzarəti

## *3.1. Gömrük nəzarati antcyışı*

Gömrük nəzarəti gömrük hüququnun ən mühüm institutlanndan biridir. Gömrük Məcəlləsinə görə gömrük nəzarəti - gömrük İşi üzrə Azərbaycan Respublikası Qanunvericiliyinə, həmçinin, icrasına nəzarətin Azərbaycan Respublikası gömrük orqanlanna həvalə olunduğu Azərbaycan Respublikasının digər qanunvericiliyinə və beynəlxalq müqavilələrinə riayət olunmasını təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlərin məcmusudur.

Mal və nəqliyyat vasitələrinə gömrük nəzarəti bir-birindən seçilir. Nəqliyyat vasitələrinə gömrük nəzarəti onların növündən asılı olaraq aşağıdakı kimi təsnifatlandırılır:

a) dəniz gəmilərinə gömrük nəzarəti;
b) çay gəmilərinə gömrük nəzarəti;
c) dəmiryol qatarlanna gömrük nəzarəti;
ç) hava gəmilərinə gömrük nəzarəti;
d) avtonəqliyfyat vasitələrinə gömrük nəzarəti.

Mallara gömrük nəzarəti dedikdə, idxal (gətirilən), ixrac (aparılan) və tranzit mallanna gömrük nəzarəti növləri nəzərdə tutulur.

Gömrük nəzarətinin həyata keçririlməsində malların ayn-ayn mühüm xassələri böyük əhəmiyyət kəsb etdiyindən gömrük nəzarətinin yanmnövləri kimi əl yükünə, müşayiət olunan və olunmayan baqaja gömrük nəzarətini göstərmək olar.

Əməkdaşlıq edən ölkələrin gömrük orqanlannın gömrük nəza-, rətində iştirakının xarakterindən asılı olaraq:

1) ikitərəfli gömrük nəzarəti (hər ölkənin gömrük orqanı ayrılıqda gömrük müayinəsi həyata keçirir);

2) birtərəfli gömrük nəzarəti (ölkələrdən birinin gömrük orqanı gömrük nəzarəti (müayinəsi) həyata keçirir);

3) birgə gömrük nəzarəti (hər iki dövlətin gömrük orqanlarının birgə gömrük nəzarəti (müayinəsi) həyata keçirilir) seçilir.

Gömrük nəzarəti birdəfəlik və təkrar ota bilər.

Birdəfəlik gömrük nəzarəti o vaxt nəzərdə tutulur ki, gömrük sərhədi ancaq bir istiqamətdə keçilir və gömrük nəzarəti (müayinəsi) bir dəfə keçirilir. Əgər mal və nəqliyyat vasitələri nisbətən qısa müddət ərzində gömrük sərhədini iki dəfə keçirsə, onlar təkrar gömrük nəzarəti altına düşür. Təkrar gömrük nəzarətinin həyata keçirilməsi üçün gömrük sərhədinin bir neçə dəfə keçilməsi hər vaxt tələb olunmur. Belə ki, xaricə üzən dəniz gəmisi təyinat limanına gələndə gömrük məntəqəsini keçərkən gömrük müayinəsinə cəlb edilmişsə, bir qayda olaraq təkrar gömrük nəzarəti həyata keçirilmir. Lakin qaçaqınalçılıq barədə məlumat olduqda gömrük or- qanlannın gəmini liman suları hüdudunda və limanda dayanarkən təkrar gömrük müayinəsini təşkil etmək hüququ var. Analoji qaydalar digər nəqliyyat vasitələrinə də şamİl edilir.

Gömrük nəzarətinin həyata keçirilmə formalarına görə aşağıdakı növləri var;

1) mal və nəqliyyat vasitələrinin sənədlərinin yoxlanılması;
2) mal və nəqliyyat vasitələrinə gömrük baxışı;
3) mal və nəqliyyat vasitələrinin gömrük müayinəsi.

Gömrük nəzarətinin birinci forması sənədli, ikinci və üçüncü formaları faktiki nəzarət kimi xarakterizə edilir.

Gömrük nəzarəti, onun həyata keçirilməsinin qayda və metodlarının məcmusudur. Bu metodlardan aşağıdakılan göstərinək olar:

- mal və nəqliyyat vasitələri gömrük məntəqəsinə gətirilərkən həyata keçirilən adi gömrük nəzarəti;
- nəqliyyat vasitəsinin hərəkəti zamanı həyata keçirilən gömrük nəzarəti;
- gömrük nəzarətinin müəyyən formalarında azad etmə hallan istisna olmaqla, nəzarətin bütün formalanmn istifadə olunduğu tam nəzarət;
- seçmə gömrük nəzarəti.

Gömrük nəzarətinin növ, forma və metodları onlann praktiki tətbiqində bir-birİ ile sıx bağlıdır. Tarixən gömrük nəzarəti qaydaları

Müasir şəraitdə dövlətlər gömrük rəsmiləşdiıilməsinin sadələşdirilməsinə və eyni zamanda böyük sərnişin - yük axını böyük kütlələrinin hərəkətini sürətləndirmək məqsədi ilə gömrük nəzarətinin səmərəliliyinin artınimasına çalışaraq, gömrük nəzarəti prosedurlannı tənzimləyən beynəlxalq hüquqi razılaşmalar gömrük prosedurlannın sadələşdirilməsi və razılaşdınlması barədə 1973-cü il Kyoto konvensiyası, hava gəmilərində gömrük nəzarətinin keçirilməsi qaydalanna aid olan, beynəlxalq mülki aviasiya barədə 1944- cü il Çikaqo konvensiyası və i.a. yolu İlə gedirlər.

### *3.2. Gömrük nszarəti məqsadlari üçün təhb olunan sonod* va *məlumatlar*

Mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirən, yaxud gömrük orqanlannın nəzarət sahəsinə aid fəaliyyətlə məşğul olan şəxslər gömrük nəzarəti üçün tələb olunan sənəd və məlumatları təqdim etməlidirlər.

Gömrük nəzarəti üçün tələb olunan məlumatlan gömrük orqanlan vergi və digər nəzarət orqanlarından da ala bilərlər. Qanunvericilik gömrük orqanlarına bank və digər kredit idarələrindən mal və nəqliyyat vasitələrini gömrük sərhədindən keçirən şəxslərin, gömrük brokerlərinin, yaxud nəzarəti gömrük orqanlanna həvalə edilmiş sahələrdə fəaliyyət göstərən digər şəxslərin apardığı əməliyyatlar, hesablarının vəziyyəti barədə arayış və melumatlar almaq hüququ verir.

Gömrük nəzarəti üçün tələb olunan sənədlər təyinatına görə aşağıdakı qruplar üzrə təsnifatlandınhr.

1. Ticarət sənədləri. Bu sənədlərə müqavilə, hesab, faktura, spesifikasiya, İnvoys, qablaşdınima sənədləri və s. aiddir. Gömrük nəzarətinin həyata keçirilməsi üçün müqavilələrin hər hansı, o cümlədən faksimil surəti və həmçinin, belə müqavilələrdən çıxa- nşlar da qəbul edilə bilər. Lakin müqavilələrin surətləri və onlardan çıxarışlar müqaviləni bağlayan təşkilatın rəhbərliyinin ipızası və bu təşkilatın möhürü ilə təsdiqlənməlidir. Bununla belə təqdim

edilən sənədlərdə məlumatlann dəqiq olmadığını güman etməyə kifayət qədər əsas olarsa, gömrük orqanının **vəzifəli** şəxsləri müqavilələrin orijinal nüsxələrini tələb edə bilərlər. Müqavilə tərəfləri barədə məlumatların təsdiqi üçün, qeydiyyat və bank rekvizit- ləri göstərilmiş təşkilatın rəhbəri və baş mühasibi tərəfindən imzalanmış, möhürlə təsdiq edilmiş məktub-ərizə qəbul edilə bilər.

2. Nəqliyyat sənədləri. Sadalanan nəqliyyat sənədlərinə əsasən mallar gömrük sərhədindən keçirilir; konosament, qaimə, dəmiryol nəqliyyatı üçün - yol-daşrma cədvəlləri, vaqon vərəqi, təhvil cədvəlləri, baqaj qəbzləri.

3. Gömrük sənədləri. Belə sənədlər gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən verilir və şəhadətləndirilir. Gömrük bəyannamələri, təyinat gömrükxanasma təqdim edilməsi tələb olunan digər sənədlər (çatdırılmaya nəzarət sənədləri), gömrük təminatları altında daşınmaya buraxılmış nəqliyyat vasitələrinin şəhadətnaməsi, gömrük orqanları tərəfindən verilən müxtəlif lisenziyalar, ixtisas attestatlan və s. gömrük sənədləridir.

4. Gömrük nəzarəti üçün tələb olunan digər sənədlər. Belə sənədlərə xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququ verən təsisat sənədləri: uyğunluq və keyfiyyət sertifikatları; digər dövlət nəzarət orqanlan tərəfindən verilən karantin, icazə sənədləri; sərhəd buraxılış vərəqələri və s. aid edilə bilər.

Sadalanan sənədlər mal və nəqliyyat vasitələrinin seçilmiş rejimin tələblərinə uyğun olaraq buraxılması və istifadə olunmasına qədər gömrük orqanının vəzifəli şəxsləri tərəfindən diqqətlə yoxlanılır. Sənədlərin yoxlanılmasmın məqsədi, onların mövcud qanunvericilik qaydalanna uyğun olması və sənədləşməm tam əhatə etməsinə əmin olmaqdır.

Gömrük orqanının vəzifəli şəxsinin deklarantdan gömrük məqsədləri üçün əlavə sənədlər tələb etmək hüququ var. Belə sənədlərin siyahısı gömrük orqanlan tərəfindən gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin məqsədlərindən asılı olaraq müəyyən edilir, deklarantlar və digər maraqlı şəxslərin nəzərinə çatdınhr.

Gəmilərdə gömrük nəzarətinin həyata keçirilməsi üçün lazım olan sənədlərə xüsusi tələblər qoyulur. Xaricdən gələn gəminin kapitanı “Kapitanın yazılı ifadəsi”ni təqdim edir. Bu sənəddə gəminin adı, onun bayrağı, limanın adı, gəlmə tarixi, kapitanın soyadı, ekipaj üzvlərinin sayı, sərnişin və baqajın miqdan, yola düşmə limanı, valyuta, yüklərin adı və miqdan, konosamentlər, mani- festlər göstərilir.

Gəmi şəhadətnaməsi, ekipajın siyahısı, səmişinlərio və baqajın siyahısı (sərnişinin soyadı, adı, atasının adı, onun sənədinin adı və nömrəsi, vətəndaşlığı, haradan gəldiyi, əl yükünün miqdan), gəmi təchizatının (ərzaq da daxildir) siyahısı və daşınan yükün sənədləri “Kapitanın yazılı ifadəsi”nə əlavə edilir.

Hava gəmilərinə Gömrük Nəzarəti Beynəlxalq mülki aviasiya barədə 1944-cü il Çikaqo Konvensiyası ilə reqlamentləşdirilir. Konvensiyanın 16-cı maddəsinə əsasən hər bir üzv ölkənin səlahiyyətli hökumət dairələri əsaslandırılmamış gecikməyə yol vermədən digər üzv ölkələrin hava gəmilərinə onların gəlməsi və getməsi zamanı gömrük nəzarətini həyata keçirə bilər, həmçinin, bu Konvensiya ilə nəzərdə tutulan vəsiqə və digər sənədlərin yoxlanmasını təşkil edə bilər. Konvensiyanın 29-cu maddəsinə görə belə sənədlərə ekipajın hər üzvünə şəhadətnamə, yollanış və təyinat məntəqəsi göstərilməklə bütün sərnişinlərin soyadlanmn siyahısı, yük üçün manifest vo ətraflı bəyannamə, bort jurnalı, bort radiostansiyası üçün icazə aid edilİr.

Bununla bərabər Konvensiya hava gəmilərinə Gömrük Nəzarətinin daha geniş beynəlxalq-hüquqi reqlamentasiyasını nəzərdə tutur. Bu aktın 23, 37 və 38-ci maddələri razılaşan tərəflərdən onun mümkün hesab etdiyi qədər, gömrük əməliyyatlarım Mülki aviasiya beynəlxalq təşkilatının (İKAO) qəbul etdiyi beynəlxalq standartlar və tövsiyə edilən qaydalara uyğun müəyyən etsin.

İlk dəfə beynəlxalq daşımalarla məşğul olan hava gəmilərinə aid gömrük və digər proseduraların beynəlxalq standartlan və tövsiyə olunan təcrübəsi 25 mart 1949-cu ildə İKAO şurası tərəfindən bəyənilib və “Beynəlxalq hava daşımalannda rəsmiləşdirilmənin

sadələşdirilməsi" adlı Konvensiyaya 9 saylı əlavə şəklində təsdiq edilmişdir. Bu sənədin hava gəmisinə gömrük nəzarətinin təşkili və tələb olunan sənədlərə aid edilən bir sıra müddəalan xüsusilə qeyd edilməlidir.

Birincisi, tövsiyə olunur ki, hava gəmilərinə gömrük nəzarətində tətbiq edilən qayda və proseduralar digər nəqliyyat vasitələrinə tətbiq edilənlərdən əlverişsiz olmasın.

İkincisi, nəzərdə tutulur ki, tərəfdaşlar elə şərait yaratmalıdır ki, rəsmiləşdirmə prosedurаları hava nəqliyyatma xas olan sürət üstünlüyünə xələl gətirməsin.

Üçüncüsü, aşağıdakı sənədlərin vahid formalan müəyyən edilir:

a) əsas (baş) bəyannamə. Bu bəyannamədə digər məlumatlarla birgə hava gəmisinin istismarçısı, onun milli mənsubiyyəti, qeydiyyat nişanlan, reysin nömrəsi, tarix, uçub getmə məntəqəsi, uçub gəlmə məntəqəsi, uçuş marşrutu, ekipaj üzvlərinin ümumi sayı, verilmiş bu uçuş mərhələsində sərnişinlərin sayı göstərilir;

b) yük cədvəlləri. Bu cədvəllərdə hava gəmisinin istismarçısı, onun milli qınsubiyyət və qeydiyyat nişanlan, reysin nömrəsi, tarix, yüklənmə məntəqəsi, yükü boşaltma məntəqəsi, qaimə nömrəsi, yerlərin sayı, yükün növü qeyd olunur;

c) sərnişinlərin hava gəmisinə mindirilme, düşürülmə kaıtlan;

ç) ekipaj üzvünün şəhadətnaməsi.

9-cu əlavədə qeyd edilmiş Beynəlxalq standartlar nəzərdə tutur ki, tərəf-dövlətlər məlumatın digər münasib yolla alınması mümkün olan hallarda əsas bəyannamənin təqdim edilməsini tələb etmirlər. Həmçinin, hava gəmisində qalan azuqə ehtiyatı barədə yazılı bəyannamə tələb olunmur. Hava gəmisinə yüklənən və boşaldılan ehtiyatlara gəlincə, yazılı bəyannamə tələb edən tərəf dövlətlər öz tələblərini lazım olan məlumatlar barədə minimuma endirir və mümkün qədər gömrük rəsmiləşdirilməsini sadələşdirirlər. Bu balda hava gəmisi qəbul edildiyi zaman səlahiyyətli agent, yaxud gəmi kapitanından səlahiyyətli dövlət orqanlanna aşağıdakı hədlərdən çox olmayaraq sənəd təqdim edilməsi tələb olunur:

a) əsas bəyannamənmin üç nüsxəsi;
b) yük cədvəlinin üç nüsxəsi;
c) bort ehtiyatlarının sadə siyahısının iki nüsxəsi;
uçuşa hazırlaşdıqda isə:
a) əsas bəyannamənin iki nüsxəsi;
b) yük cədvəlinin iki nüsxəsi;
c) bort ehtiyatlanam sadə siyahısının iki nüsxəsi.

Sərnişin daşıyan avtonəqliyyat vasitələrinə gömrük nəzarəti həyata keçirilərkən, onlan idarə edənlər gömrük orqanlanna daşıma üçün müvafiq icazə sənədi təqdim etməlidirlər. Bu sənədlər: daşıyıcının adı və yerləşdiyi yeri; avtobus xəttinin adını; icazənin verildiyi dövlətin ərazisində avtobus xətti trassı göstəricilərini, icazə verən dövlətin ərazisində sərnişinlərin mindirildiyi və endirildiyi dayanacaqlann adı; daşınma müddəti və avtobuslann hərəkət cədvəlini; əgər icazə verən dövlətin ərazisində sərnişinlərin mindirilməsi və endirilməsi üçün dayanacaqlar nəzərdə tutulmuşsa, sərnişinlərin və baqajın daşınması üçün müəyyən edilmiş tarif ödənclə- rini; daşıyıcının vəzifələrini; icazənin qüvvədə olan müddətini; avtobus xəttinin istismara verilmə tarixini özündə əks etdirməlidir.

Avtomobillə yük daşımaları gömrük orqanlarına qaimə təqdim edilməsi ilə müşayiət olunur. Bu qaimələrdə: onlann tərtib edilmə yeri və tarixİ; mal göndərənin adı və ünvanı; daşıyıcının adı və ünvanı; yükün daşınmaya qəbul edildiyi yer, tarixi və təhvil verilməsi nəzərdə tutulan yer; alıcının adı və ünvanı; yükün qəbul edilmiş şərti işarəsi və qablaşdınna üsulu, təhlükəli yüklər daşındıqda isə, oDİarm, adətən, istifadə olunan şərti işarəsi; yük yerlərinin sayı, onlann markalanma işarələri və nömrələri; yükün brutto və ya başqa cür ifadə edilmiş kütləsi; daşınma xərcləri göstərilməlidir. Lazım olan hallarda: boşaldılıb-yüklənmənin qadağan olunduğunu göstərən tapşınq; alıcının öz öhdəsinə götürdüyü xərclər; əlavə olunan xərclərin məbləği (yük tebvil verildikdə geri qaytarılan); yükün elan edilmiş qiyməti; yükün sığorta edilməsi üzrə təlimat; daşınmanm razılaşdınlmış müddəti, daşıyıcıya verilmiş sənədlərin siyahısı; sərhəd keçid məntəqələri də qaimədə əks etdirilə bilər.

Bundan başqa sürücünün doldurulmuş yük vərəqəsi olmalı, gömrük orqanları tələb etdikdə o təqdim olunmalıdır.

Beynolxalq Yük Daşımaları kitabçası ilə yük daşımalan zamanı gömrük orqanlarına bu kitabçalar (kametlər) təqdim olunur. Gömrük orqanlarının yükü gömrük sərhədindən keçirən şəxslərin, gömrük brokerlərinin, yaxud nəzarəti gömrük orqanlarına həvalə olunmuş fəaliyyətlə məşğul olan digər şəxslərin barəsində bank və di- gor kredit idarələrindən məlumat və arayış almaq hüququ Gömrük Məcəlləsi ilə təsbit edilmişdir.

Gömrük nəzarəti üçün lazım olan melumatların mənbələri kimi vergi və digər nəzarət orqanları öz təşəbbüsləri ilə və gömrük orqanlarının sorğusu osasında çıxış edə bilərlər.

Gömrük Nəzarəti üçün istifadə olunan sənədlər üç ildən az olmayaraq saxlanılmalıdır. (GM, 179-cu maddə).

### *3.3 Gömrük nəzarəti formalan və onların tətbiqinin əsas xüsusiyyətləri*

Gömrük nəzarətini gömrük orqanlarının vəzifəli şəxsləri həyata keçirir. Gömrük Məcəlləsinə gömrük nəzarətinin formaları: gömrük məqsədləri üçün lazım olan sənəd və məlumatlann yoxlanılması; gömrük müayinəsi (yoxlanması) (mal və nəqliyyat vasitələrinin müayinəsi, şəxsi müayinə - gömrük nəzarətinin xüsusi forması); mal və nəqliyyat vasitələrinin uçotu; fiziki və vəzifəli şəxslərin şifahi sorğusu; uçot və hesabat sisteminin yoxlanılması; müvəqqəti saxlanc anbarlarına, gömrük anbarlarma, sərbəst anbarlara, sərbəst gömrük zonalanna, rüsumsuz ticarət mağazalarına, mal və nəqliyyat vasitələri yerləşən digər ərazilərə, tikililərə gömrük baxışıdır.

Bu siyahı gömrük nəzarətinin digər formaları: müşahidə, tədqiqat, təhqiqat, proqnozların hazırlanması və başqa bu kimİ nəzarət funksiyalarını obyektlə bilavasitə təmasdan çıxarmağa ve kənardan yerinə yetirməyə imkan verən sair formalardır.

Gömrük nəzarətinin həyata keçirilməsinin əsası yük gömrük bəyannaməsidir (YGB). Gömrük nəzarətinin həyata keçirilmə prosedurası bütövlükdə şərti olaraq beş mərhələyə bölünür.

Birinci mərhələdə YGB-də göstərilən məlxımatlara formal-məntiqi nəzarət heyata keçirilir. Bunun üçün yük şöbəsi tərəfindən bəyannamənin bütün qrafalarının doldurulmasının düzgünlüyü yoxlanılır, bəyan edilmiş gömrük rejimi və malların adına müvafiq olaraq gömrük nəzarəti üçün tələb olunan sənədlərin mövcudluğu müəyyən edilir. YGB yoxlanıldıqdan sonra ona nömrə verilir və aşkar edilmiş səhvlərin düzəldilməsi üçün dekİaranta qaytarılır.'

İkinci mərhələdə YGB-də göstərilən xarici valyutada ödənc-hesablaşma əməliyyatları nəzarət predmeti olur. Eyni zamanda xarici-iqtisadi fəaliyyət iştirakçısı tərəfindən valyuta nəzarəti qanunvericiliyinə riayət olunması yoxlanılır.

Üçüncü mərhələdə gömrük ödənclərinin hesablanma dəqiqliyi, gömrük güzəştləri verilməsinin qanunamüvafiqliyi yoxlanılır, ödənclərin gömrük orqanlarının hesabına daxil olmasına nəzarət edilir.

Dördüncü mərhələdə statistika şöbəsi gömrük statistikası üçün mühüm olan qrafalann doldurulmasını yoxlayır.

Nəhayət, beşinci mərhələdə yük şöbəsinin səlahiyyətli vəzifəli şəxsi malın gömrük müayinəsi (yoxlaması) barədə qərar qəbul edir.

Gömrük nəzarətinin bütün mərhələləri bitdikdən sonra yük sənədino '"Buraxılışa icazə verilir" ştanıpı vurulur. Bu ştamp və YGB-nin nömrəsi (yük sənədinin yuxan sağ küncündə) şəxsi nömrəli möhürlə təsdiqlənir.

Gömrük nəzarəti gedişində insan əzalarının İstifadəsinə əsaslanan (görmə, eşitmə, qoxulama, lamisə) orqanoleptik metoddan istifadə oluna bilər. Müxtəlif ölçü cihazları və digər vasitələr də tətbiq edilə bilər.

Lazım gəldikdə müxtəlif kimyəvi cihazlar və reaktivlər vasitəsi ilə götürülmüş prob və nümunələrin xassə və xarakteristikaları təsdiq oluna bilər.

Gömrük Məcəlləsi gömrük nəzarəti zamanı xüsusi texniki vasitələrdən də istifadə olunmasını nəzərdə tutur. Texniki vasitələrdən istifadə edilməsi əmək sərfinin azaldılmasına, sərnişin və yük axı

***I. Yük gömrük b9yannam»hrinm quruluşu, doldurulma .qaydalan vs s. açıqlanması sokkizinci əlavədf.***

nına gömrük nəzarəti müddətinin qısaldılmasına gətirib çıxanr; mal və nəqliyyat vasitələrinin əlçatmaz yerlərinin müayinəsinə imkan verir; gömrük rəsmiləşdirilməsi əməliyyatlannın və gömrük nəzarətinin sadələşdirilməsinə xidmət edir. Bu texniki vasitələr qaçaqmalçılıqla mübarizədə xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Hər bir operativ məsələnin həlli gömrük nəzarətinin xüsusi texniki vasitələrindən istifadə olunmasını tələb edir:

a) gömrük sənədlərinin və gömrük təminatlannın yoxlanması üçün optik böyüdücü cihazlar (işıqlandınlan lupa, mikroskop) ultrabənövşəyi və infraqırmızı dalğalı cihazlar;

b) gömrük nəzarəti obyektinin daxilindəkilər barədə uzaq məsafədən məlumat alınması, qaçaqmalçılıq obyektlərinin axtarışı və aşkar edilməsi üçün - rentgenetelevizor konveyer müayinə aparatları, birbaşa müşahidə flüoroskoplan, müayinə endoskoplan dəsti, müayinə milləri dəsti, metalaxtaran və metallodetektorlar (silah, döyüş sursatı, qiymətli metallar və s. aşkar edilməsi üçün) və i.a.;

c) gömrük nəzarəti obyektinin tərkibinin identifıkasiya (eyniləşdimə) ekspres-analizi üçün - müxtəlif analizatorlar, ekspres-identifıkatorlar və s.;

ç) gömrük zonalannda operativ şəraitin vizual müşahidəsi üçün - optik və optik'televizion müşahidə-texniki vasitələrlə uyğunlaşdınlmış radiolokasiya tİplİ avadanlıq, optik uzaqdanölçmə aparatları (mono-, və stereobonilar, dəniz binokilan, infraqırmızı müşahidə cihazları, telekameralar və s.);

d) audio-video məlumat daşıyıcılarına nəzarət üçün - müxtəlif növlü diktofon, audiopleyer, maqnitofon, fotokinoplyonkalann aşkarlanması üçün qurğular, slayd və mikrofilmlər, videopleyer ve vidomaqnitofonlar və s.;

ğ) gömrük müayinəsi zamanı texnoloji əməliyyatlann yerinə yetirilməsi üçün - əl yükünün, baqajın, poçt göndərişlərinin, həmçinin, irihəcmli yüklərin tarasmm açılması zamanı fərdi və qrup üçün xüsusi alətlər dəsti;

e) gömrük təminatları qoymaq üçün - plombiratorlar, marka işaroli yapışdıncı lent rulonları, müxtəlif işarəqoruyucular və s. Bun

lardan başqa gömrük nəzarəti gedişində müxtəlif köməkçi texniki vasitələrdən (qidalanma mənbeleri, gərginlik doldurucu qurğular, çəki cihazlan, ölçü cihazlan, dozimetrik nəzarət cihazlan və s.) istifadə olunur,

Azərbaycan Respublikası gömrük orqanları gömrük nəzarətini həyata keçirərkən, bir qayda olaraq, icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş Azərbaycan Respublikasının gömrük işi haqqında qanunvericiliyinə, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və beynəlxalq müqavilələrinə riayət edilməsini təmin etmək üçün kifayət edən gömrük nəzarəti formalanndan istifadə edə bilər.

Azərbaycan Respublikasının gömrük orqanları lazım olduqda. Gömrük Məcəlləsinin 185-ci maddəsində göstərilən hallar istisna edilməklə, bu Məcəllədə nəzərdə tutulan gömrük nəzarətinin bütün formalanndan istifadə edə bilərlər.

Bu maddə gömrük orqanlanmn gömrük nəzarəti formalannın verilmiş hal üçün daha məqsədəuyğun olanım seçmək və istifadə etmək hüququnu müəyyən edir.

Gömrük nəzarəti formasının seçilməsi, gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin müvəffəqiyyətlə həyata keçirilməsinin yetərliliyi (kifayət etməsi) prinsipi ilə aparılır.

Ayn-ayrı formaların kifayət edib-etməməsİ qanunvericiliklə (maddə 185) ve ya Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə nəzərdə tutula bilər.

Konkret hal üçün kifayət etmə prinsipi normativ aktlarda öz əksini tapmırsa, yetərli gömrük nəzarəti forması gömrük orqanının vəzifəli şəxsləri tərəfindən seçilir. Gömrük orqanlan əməkdaşlan- na belə səlahiyyətlərin verilməsi Dövlət Gömrük Komitəsinin normativ aktları ilə reallaşdırılır. Gömrük nəzarəti formalarının seçilməsinə dövlət təhlükəsizliyinə və ictimaiyyətin maraqlarına zərər vurmadan yol verilə bilər. Bununla əlaqədar, gömrük orqanlanmn səlahiyyətli şəxsləri gömrük sərhədindən silah, narkotik maddə, əntiq əşyalar və s.-nin qanunsuz keçirilməsi cəhdlərinin qarşısının alınması üçün tədbirlər görülməsinə xüsusi diqqət yetirməlidirlər.

Digər tərəfdən gömrük nəzarətinin kifayət etmə prinsipi insan hüquq vo azadlığı normalarını pozmamalıdır. Elə buna görə də şəxsi müayinə qanunvericilikdə “Gömrük nəzarətinin müstəsna forması” kimi nəzərdə tutulur.

Amma bununla belə, gömrük nəzarətinin digər foımalannın tətbiq edilməməsi və ya onlardan azad etmə heç də şəxsləri bu Məcəllənin müddəalarına, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və beynəlxalq müqavilələrinə riayət etmək vəzifəsindən azad etmir. Gömrük Məcəlləsinin bu müddəası vəzifeli şəxsin gömrük nəzarətinin bu və ya digər formasının tətbiqinin yetərli olub-olmayacağı məsələsini həll etdiyi zaman gömrük sahəsində qanunçuluq prinsipinin reallaşdınimasmm hüquqi təminatıdır.

Qeyd edildiyi kimi, gömrük xidmətinin vəzifə və Aınksiyalan- mn yerinə yetirilməsini təmin edərkən, gömrük orqanlan, lazım gəldikdə gömrük nəzarətinin 177-ci maddədə nəzərdə tutulmuş bütün formalarından istifadə edə bilərlər.

Gömrük orqanları gömrük məqsədləri üçün təkrar gömrük baxışı keçirə bilər, sənədlərdə göstərilən məlumatları yenidən yoxlaya bilərlər.

Şəxsi əşyalan gömrük baxışından azad edilən şəxslərin gömrük sərhədindən buraxılması zamanı gömrük nəzarəti sadəcə olaraq belə güzəşt verilmiş şəxslərin sənədlərinin yoxlanılmasından ibarət olur.

Bəzi hallarda gömrük nəzarəti mal və nəqliyyat vasitələrinin sərhəddən keçirilməsinin qanuniliyini müəyyən etmək üçün gömrük təminatları pozulmadan həyata keçirilən gömrük baxışından ibarət ola bilər.

Gömrük baxışından fərqli olaraq, gömrük müayinəsi tikililərin, nəqliyyat vasitələrinin, tara və qablaşdın İmaların açılması ilə müşayiət olunur. Gömrük müayinəsi zamanı mallann adı və keyfiyyəti, həmçinin miqdarı müəyyən edilir. Mallann gizli keçirilməsinin müəyyən olunması üçün də gömrük müayinəsindən istifadə edilir.

Baxış mərhələsində gömrük müayinəsinin tətbiq edilməsinin məqsədəmüvafiqliyi - mal və nəqliyyat vasitələrinin yük bölmələrinin, malın tarası və qablamalannın açıhb-açılmaması məsələsi həll edilir.

Şəxsi yoxlama (müayinə) barədə qərar gömrük orqanının rəisi və ya onu əvəz edən şəxs tərəfindən qəbul olunur. Müayinədən əvvəl gömrük orqanının vəzifəli şəxsi qəbul edilmiş qərarı fiziki şəxsə elan edir, ona hüquq və vəzifələrini başa salır və həmçinin gizlədilmiş mallann könüllü olaraq verilməsini təklif edir.

Şəxsi müayinə gömrük orqanının müayinə edilən şəxslə eyni-cinsli səlahiyyətli şəxsi tərəfindən sanitar-gigiyena tələblərinə cavab verən otaqda apanlır. Digər fiziki şəxslərin həmin otağa girməsi və müayinə prosesinin onlar tərəfindən müşahidə oluna bilmə ehtimalı istisna edilməlidir. Nəzarətə götürülən şəxsin bədən üzvlərinin müayinəsi tibb işçisi tərəfindən aparılmalıdır.

Şəxsi müayinənin apaniması barədə protokol tərtib edilir. Həmin protokol gömrük orqanının vəzifəli şəxsi, hal şahidləri, müayinə edilən şəxs və bədən üzvləri müayinə edildikdə isə həmçinin tibb əməkdaşı tərəfindən imzalanır. Müayinə edilən şəxs öz rəyini protokola qeyd edə bilər.

*Gömrük n»zar9Ünin mÜ9yyən formalanndan azad etmə*

Qanun və ya beynəlxalq müqavilələrlə mal və nəqliyyat vasitələrinin ayn-ayn növlərinin gömrük nəzarəti sferasından çıxanlma- sının konkret hallan müəyyən edilə bilər. Məsələn, Azərbaycan Respublikası Prezidentinin və onunla birlikdə gedən ailə üzvlərinin şəxsi baqajı, xidməti vəzifələrinin icrası ilə əlaqədar gömrük sərhədindən keçən Milli Məclis deputatlarının və Nazirlər Kabineti üzvlərinin şəxsi baqaj lan gömrük yoxlamasından azaddır ,^yəni azad etmə şərtləndirilir).

Öz yoluna davam edən xarici hərbi gəmilərin, hərbi və hərbi nəqliyyat hava gəmilərinin, eləcə də hərbi texnikanın gömrük yoxlamasından azad edilməsi dövlətlərarası müqavilələrlə tənzimlənir.

Gömrük nəzarəti həyata keçirilərkən mal və nəqliyyat vasitələrinə və şəxslərə qeyri-qanuni zərər və ziyan vurulması istisna edilməlidir.

## *3,4. Gömrük Mzarstinin həyata keçirilməsi prosesində gömrük orqanlarının fəaliyyətinin əsas İstiqamətləri*

### *Gömrük nəzarəti zonaları*

Gömrük sərhədinə bitişik ərazi gömrük nəzarəti zonası adlanır. Gömrük nəzarəti zonaları gömrük sərhədi boyu, gömrük rəsmiləşdirilməsi aparılan, gömrük orqanlan yerləşən və həmçinin Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi digər yerlərdə yaradılır.

Gömrük nəzarəti zonasının rejimi yüklərin yer dəyişdirilməsi və onlarla davranışda qaydaların daha ciddi reqlamentasiyası ilə fərqlənir. Bu zonalarda istehsal və kommersiya fəaliyyəti, həmçinin malların, nəqliyyat vasitələrinin, digər dövlət oıqanlannın vəzifəli şəxsləri də daxil olmaqla bütün şəxslərin hərəkəti yalnız gömrük orqanlarının icazəsi və onlarm nəzarəti altında həyata keçirilə bilər. Gömrük nəzarəti zonası rejiminin pozulmasına görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cəza tətbiq edilir.

Gömrük anbarlarının, müvəqqəti saxlanc anbarlarının, rüsumsuz ticarət mağazalarının əraziləri və xüsusi gömrük rejimlərinin təsir göstərdiyi digər ərazilər də gömrük zonası hesab edilir.

Gömrük zonasında tikilən və qurulan anbar və digər funksional sahələrə nəzərdə tutulan əsas tələb - müəyyən gömrük rqimi altında yerləşdirilmiş mallann gömrük nəzarətindən kənar götürülməsi və ya gətirilməsini istisna etməkdir. Belə sahələrin qumluşu və təchizatı kənar şəxslərin daxil olmasına imkan verməməlidir. Gömrük nəzarəti gedişində gömrük nəzarəti zonasındakı operativ şəraitə vizual müşahidə mühüm əhəmiyyət kəsb edir.

Vizual müşahidə - gömrük zonalannm konkret şəraitində müəyyən və qeyri-müəyyən şəxslərin davranışı barədə məlumat əldə edilməsini təmin etmək üçün tətbiq edilir. Məqsəd: gömrük nəzarətindən predmet və malların gizlədilməsi, hər hansı predmetlərin digər şəxslərə verilməsi, müəyyən şəxslərin (liman, aeroport, dəmiryol işçilərinin, yükləyicilərin) gömrük nəzarəti proseduralanna

qeyri-adi marağı faktlanm və s. aşkar etməkdir. Vizual müşahidənin köməyi ilə ərazi və məhəlli sularda panoram nəzarəti kənar gəmilərin qeyri-qanuni olaraq xaricə gedən və gələn gəmilərə yanalmasının, həmçinin, gəmidən yüklərin alınmasının, gömrük nəzarəti əməliyyatı bitdikdən sonra gəmiyə qaldınlmasmm qarşısı alına bilər. Vizual müşahidə, həmçinin, gömrük ərazilərinin operativlik sandan mühüm əhəmiyyət kəsb edən sahələrində - gəmi dayanacaq lannda, dəmiryol qovşaqlarında, konteyner terminallannda, baqaj və yük sahələrində də aparılır.

Operativ şəraitdə vizual müşahidənin beynəlxalq hava limanlarında, dəniz və çay vağzallarında, avtostansiya və dəmiryol vağzallarında, bəzi yük anbarlannda xüsusi əhəmiyyəti var. Belə yerlər daxili gömrük zonaları adlanır.

Beynəlxalq səmişindaşmma məntəqələrindəki gömrük nəzarəti zonalarında ikikanallı gömrük nəzarəti tətbiq edilə bilər.

“Yaşır və “Qırmızı” dəhlizlərin quruluşu və fəaliyyət göstərməsi prinsipi Ümumdünya Gömrük Təşkilatının (əvvəllər Gömrük Əməkdaşlıq Şurası) 8 iyun 1971-ci ildə qəbul edilmiş “İkikanallı sistem əsasında aviasəmişinlərə sadələşdirilmiş gömrük nəzarəti barədə” tövsiyələrində öz əksini tapmışdır. Bu tövsiyələrin meydana çıxması zərurəti beynəlxalq turizmin dinamik inkişaf etdiyi bir dövrdə səmərəli gömrük nəzarətinin və artan sərnişin axınının sərhəddən qısa müddətdə buraxılmasını təmin etmək vəzifəsindən irəli gəlirdi.

İkikanallı metodla gömrük nəzarətinin təşkili sərnişinlər tərəfindən gömrük zonasının “yaşıl” və “qırmızı” dəhlizlə tərk edilməsini nəzərdə tutur. “Yaşıl” dəhlizdən istifadə etməyə o şəxslərə icazə verilir ki, yanında apardığı əşyalar rüsumsuz rəsmiləşdirilə bilsin, xüsusi icazə tələb olunmasın və $. Qalan digər hallarda sərnişinlər “qırmızı” dəhlizi seçməli və gömrük bəyannaməsi təqdim etməlidirlər. İki dəhlizdən hansının seçilməsi barədə qərarı sərnişin özü qəbul edir. Belə seçim bəyanetmə aktı mənasını daşıyır və əgər gömrük nəzarəti həyata keçirilərkən, “yaşıl” dəhlizin seçilməsinin qeyri-qanuni olduğu aşkara çıxarsa, sərnişin hüquqi məsuliyyətə cəlb edilə bilər.

Əgor “yaşıl” və ya “qırmızı” dəhlizin seçilməsi mərhələsində sərnişində şübhə, sual yaranarsa, o, "qırmızı” dəhlizi seçməli və orada bəyanetmə anınadək lazım olan məlumatı almalıdır.

“Yaşıl” dəhlizin seçilməsi və istifadə olunması bu dəhlizdən keçən sərnişinlərə gömrük nəzarətinin həyata keçirilməsinin mümkün olmaması demək deyildir. Bu halda gömrük nəzarəti diferensial olaraq həyata keçirilir vo seçmə xarakter daşıyır. Nəzarət subyektləri gömrük əməkdaşı tərəfindən praktik təcrübə əsasında seçilir.

“Yaşıl" və “qırmızı” dəhlizlərin tətbiqi sistemi sərnişinlərin gömrük qanunvericiliyinin tələbləri barədə kifayət qədər məlumatlandırılmasım nəzərdə tutur.

*Gömrük nəzarətinin həyata keçirilməsinə köməkgöstərilməsi üçün mütəxəssis və ekspertlərin cəlb edilməsi*

Elm və texnikanın müxtəlif sahələrində xüsusi biliklərə malik olmadan Gömrük nəzarətinin ayrı-ayrı forma və metodlanndan (şoxsi müayinə, uçot və hesabat sisteminin yoxlanması) istifadə olunması, bəzi mal növlərinin və nəqliyyat vasitələrinin (xammal, minerallar, hərbi texnika vo i.a.) yoxlanmasının həyata keçirilməsi mümkün deyil. Nəzərə alsaq ki, gömrük əməkdaşlan bəzi hallarda lazımi xüsusi biliklərə malik olmaya bilərlər. Bu halda müəyyən sahələrdə peşəkar olan mütəxəssislərin xidmətinə müraciət edilməsi təbiidir.

Qanunvericilik gömrük orqanlanna gömrük nəzarətinin həyata keçirilməsinə kömək üçün ekspertlərin və digər nəzarət və hüquq-mühafizə orqanlannın, mülkiyyət forması və tabeçiliyindən asılı olmayaraq müəssisə və təşkilatların mütəxəssislərinin cəlb edilməsi hüququnu verir. Gömrük orqanının mütəxəssis və ya ekspertin cəlb edilməsi barədə müraciəti, bu mütəxəssisin çalışdığı qurumun rəhbərliyi üçün məcburi xarakter daşıyır.

Mütəxəssis və ekspertlərin cəlb edilməsi ilə bağlı xərclər, gediş-gəliş, otaqların kirayəsi, sutkalıq xərclər və zəhmət haqqı, əgər

bu İŞ mütəxəssislərin xidnnəti vəzifələrinə daxil deyilsə, gömrük orqanlan tərəfindon ödənilir. Gömrük orqanının çağırışı ilə dövlət mütəxəssislərinin ekspert sifətində çalışdığı müddətdə, orta aylıq əmək haqqı saxlanılır.

*Azerbaycan Respublikası gömrük orqanlannut vezifeli şMshrinin gömrük nəzaretini heyata keçirmek üçün erazi ve binalara daxil olması*

Gömrük orqanlannın vəzifəli şəxsləri xidməti vəsiqə əsasında istənilən əraziyə və istənilən bağlı sahəyə - əgər bu yerlərdə gömrük nəzarətinə cəlb ediləcək ma! və nəqliyyat vasitələri, gömrük nəzarəti üçün lazım olan sənədlər yerləşirsə, yaxud nəzarəti gömrük orqanlanna həvalə olunmuş fəaliyyət göstərilirsə, - daxil olmaq hüququna malikdirlər.

Məsələn, gəminin gömrük yoxlaması zamanı gömrük orqanı nümayəndələrinin tələbi ilə həmin gəminin kapitanı (onu əvəz edən şəxs) gəmidə olan bütün sahələri, bölmələri, otaqları açmağa borcludur.

Gömrük əməkdaşlan - gömrük anbarlanna, müvəqqəti saxlanc anbarlanna, rüsumsuz ticarət mağazalanna və s. maneəsiz girə bilərlər.

Bir sıra hallarda gömrük orqanlarının vəzifəli şəxslərinin gömrük nəzarətinə cəlb edilən fəaliyyət həyata keçirilən yerlərdə bilavasitə iştirakı normativ aktlarda birbaşa nəzərdə tutulur.

*Mtdlann, neqliyyat vasitelerinin, binaların ve başqa yerlerin eynileşdirümesi (identifikasiyası)*

Gömrük nəzarətinə cəlb ediləcək mal və nəqliyyat vasitələrinin olduğu yerlər və həmçinin gömrük nəzarəti altında olan yerlər, gömrük nəzarəti predmctlərinin özləri gömrük orqanlan tərəfindən eyniləşdirilə bilər. Plomb, möhür qoyulması, rəqəmli, hərfli və digər növ markalanma, eyniləşdi ri imə işarələri, ştamp vurulması,

prob və nümunələrin götürülməsi, mal və nəqliyyat vasitələrinin təsvir edilməsi, çertyojların, miqyaslı görünüşlərin hazırlanması, fotoqrafıya, illüstrasiya tətbiq edilməsi, mal-müşayiət sənədlərindən istifadə edilməsi və s. əsas eyniləşdirmə vasitələri hesab edilir.

Beynəlxalq təcrübədə “eyniləşdirmə vasitələri” əvəzinə “gömrük təminatı atributlan” məfhumundan istifadə edilir.

Gömrük nəzarəti bitdikdən sonra gömrük orqanının vəzifəli şəxsləri gömrük, nəqliyyat və mal müşayiət sənədlərinə müvafiq İmza, ştamp, möhür qoymaqla, mal və nəqliyyat vasitələrinin gömrük sərlıədindən keçirilərək yoluna davam etməsinə icazə vermiş olurlar.

Ayn-ayrı yük bağlamalarına, nəqliyyat vasitələrinin yük hissələrinə, konteynerlərə gömrük təminatı atributlan qoyulmalıdır.

Gömrük təminatları aşağıdakı tələblərə cavab verməlidir:

a) möhür, ştamp, markalanma, imza izlərinin saxtalaşdırılması qeyri-mümkün olmalıdır;

b) gözlə görünən izlər qoyulmadan gömrük təminatlarının tamlığının pozulması mümkün olmamalıdır;

c) ştempellər, izqoyan materiallar, yazı vasitələri (pasta, mürəkkəb, möhür, yapışqan örtük) xarici iqlim təsirlərinə davamlı olmalıdır;

ç) gömrük təminatları atributlarının izləri və qeyd edilən yazılar aydın olmalıdır;

d) sənəd və bağlamalara gömrük təminatı atributlarının vurulması və qeydlər edilməsi minimum vaxt almalıdır.

Yuxanda qeyd olunanları bir qədər do açıqlamağa çalışaq.

Daxili gömrük tranziti prosedurası üzrə mallann daşınması zamanı plomblann, möhürlərin və digər gömrük təminatlanmn mövcudluğu ümumi tələblər sırasındadır. Mallar elə bağlamalarda, nəqliyyat vasitələrində və ya konteynerlərdə daşınmalıdır ki, onlann daşındığı vasitələrdən çıxarılması, yaxud həmin vasitələrə nəyinsə qoyulması iz qoymadan, gömrük təminatlarını zədələmədən mümkün olmasın, Malgöndərən və daşıyıcının plomblarmdan da istifadə edilməsinə müəyyən şərtlərə yol verilir,

Eyniləşdirilmə vasitələri yalnız gömrük orqanlan tərəfindən,

və nəqliyyat vasitələrinin məhv edilməsi, itirilməsi üçün real təhlükə olduqda və kifayət qədər xarab olması hallarına şamil edilmir.

Eyniləşdirilmə vasitələrinin dəyişdirilməsi (formaca), qoparılması, yaxud məhv edilməsi barədə təxirəsalmmadan gömrük orqanlarına məlumat verilir. Bu məlumat təhlükənin olduğu barədə sübutlarla möhkəmləndirilir.

BYD tətbiq edilməklə yük daşınması zamanı gömrük orqanlarının qoyduğu möhür və plombların zədələnməsi, həmçinin yol boyunca malların zədələnməsi və ya məhvi zamanı avtonəqliyyat vasitəsinin sürücüsü bu barədə gömrük orqanlarına təcili məlumat verməlidir. Yaxınlıqda gömrük orqanı olmazsa, baş vermiş hadisə barədə protokol tərtib etmək hüququ olan digər dövlət orqanlarına məlumat verilməlidir.

Müvafiq orqanlann nümayəndələri avtonəqliyyat vasitəsinə baxış keçirdikdən, lazım olduqda isə müayinə apardıqdan sonra, BYD kitabçasının nömrəsi, daşıyıcının adı, zədələnmənin xarakteri və səbəbləri, həmçinin yükün qorunması barədə görülmüş tədbirlər qeyd edilməklə protokol tərtib edirlər.

Əgər gömrük orqanı özü yükün daşınma qaydalannın pozulduğunu müəyyən edirsə, bu halda da protokol tərtib olunur. Protokol onu tərtib edən orqanın nümayəndəsi və sürücü (arzu edərsə müvafiq izahat verməklə) tərəfindən imzalanır.

*Xarici iqtisadi fəaliyyət iştirakçılartmn maliyy^'təssrriifat fəaliyyətinin yoxlanılması*

Mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirən şəxslərin, gömrük brokerlərinin, yaxud nəzarəti gömrük orqanlarına həvalə olunmuş fəaliyyətlə məşğul olan digər şəxslərin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması - gömrük məqsədləri üçün lazım olan sənəd və məlumatların yoxlanılması kimi gömrük nəzarəti formalarından biridir.

İcrasına, nəzarətinin gömrük orqanlarına həvalə olunduğu Azərbaycan Respublikası Qanunvericiliyinin və Azərbaycanın

sı olduğu beynəlxalq müqavilələrin şərtiorinin riayət edilmədiyini güman etməyə kifay.n qndər əsas olduqda maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmaMiKİan istifadə olunur.

Qanunvericilik maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması zamant gömrük orqanının vəzifəli şəxslərinə aşağıdakı səlahiyyətləri verir;

a) gömrük işinə və gömrük orqanlarının funksiyalanna aid olan xarici iqtisadi və digər təsərrüfat fəaliyyəti barədə istənilən sənədlər (bank sənədləri daxil olmaqla) və məlumatın əvəzsiz təqdim edilməsini tələb etmək və onlarla tanış olmaq;

b) vəzifəli şəxslərdən və digorlərindən arayış, yazılı və şifahi izahat almaq;

c) tikililəri möhürləmək;

ç) müəyyən edilmiş formada tərtİb edilən akt əsasında sənədləri - əgər onların yoxlanılması başqa bir yerdə həyata keçiriləcəksə - götürmok.

Lazım olduğu təqdirdə gömrük orqanlannm vəzifəli şəxsləri sənədlər və məlumatla tanış olmaq üçün yer və vaxt müəyyən edə bilərlər. Götürülmüş sənədlər mümkün qədər qısa müddətdə qaytarılmalıdır.

Gömrük orqanının vəzifəli şəxsləri maliyyə-təsərrüfat fəaliyyətinin yoxladıqları subyektlərə qanuna zidd hərəkətləri ilə ziyan vunnamalıdırlar. Yoxlama nəticəsində əldə edilən bütün məlumatlar gizli sayılır. Bu məlumatlara münasibət Gömrük Məcəlləsinin 16-cı maddəsi ilə müəyyən edilir.

### *3.5,* Aarıcı *şaxshrin ayn-ayn kateqoriyaları üçün gömrük güz9ştl»ri*

Bu güzəştlər Azərbaycan Respublikasının ərazisində qanuni fəaliyyət göstoron xarici dövlətlərin nümayəndəliklerindo çalışan əcnəbi şəxslərə aid edilir. Xarici münasibətlərlə məşğul olan orqanlar, adətən, daimi və müvəqqəti olmaqla iki qrupa bölünür. Daimi orqanlara diplomatik nümayəndəliklər, konsul nümayəndəlikləri.

beynəlxalq təşkilatlarda daimi nümayondəlikiər aid edilir. Müvəqqəti diplomatik orqan dedikdə konqres, konfrans, xüsusi beynəlxalq komissiyalarda, danışıqlarda iştirak edən nümayəndə heyətləri, xarici dövlətlərin xüsusi missiyalı təmsilçi qrupları nəzərdə tutulur.

Diplomatik orqanlara gömrük güzəştləri verilməsi qaydalarının hüquqi tənzimlənməsinin əsas xüsusiyyəti beynəlxalq-hüquqi (konvension) normalann üstün tutulmasıdır. Belə universal konvensiyalara diplomatik münasibətlər barədə 1963-cü il Vyana Konvensiyası, universal xarakterli beynəlxalq təşkilatlarda dövlətlərin təmsilçiliyi barədə 1975-ci il Vyana Konvensiyası, xüsusi missiyalar barədə 1969-cu il Konvensiyası, Birləşmiş Millətlər Təşkilatının üstünlük və immunitetlər barədə 1946-cı il Konvensiyası, Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış təşkilatlarının üstünlüyü və immunitetləri barədə 1947-ci il Konvensiyası aiddir.

Universal Konvensiyalardan başqa hüquq mənbəyi kimi digər beynəlxalq təşkilatların üstünlüyü və immunitetləri barədə konvensiyalar, diplomatik münasibətlərin yaranması və təmsilçiliklərin təsis edilməsi barədə ikitərəfli müqavilələr də götürülə bilər. Ayn-ayn dövlətlər öz aralarında diplomatik üstünlüklər və immunitetlərin qarşılıqlı olaraq genişləndirilməsi barədə xüsusi sazişlər də imzalaya bilərlər.

Diplomatik münasibətlər barədə 1961 -ci il Vyana Konvensiyasında diplomatik nümayəndəliklərin başçılannm təsnifatı verilmişdir.

Xarici ölkələrin diplomatik nümayəndəlikləri üçün gömrük güzəştləri diplomatik immunitetin bir növüdür.

Dövlətin xarici-siyasi vəzifələrini həll etmək üçün onun təlimat və tapşırıqları ilə başqa ölkələrdə olan orqanlarına xarici münasibətlər üzrə xaricdəki dövlət orqanları deyilir, özünün əhəmiyyətinə, fəaliyyət xarakterinə, vəkalət müddətinə görə, adətən, bu orqanlar diplomatik və qeyri-diplomatik, müvəqqəti və daimi olurlar. Siyasi vəzifələr daşıyan və ona görə də siyasi nümayəndəlik xarakterində olan, diplomatik immunitetdən istifadə edən orqanlar diplomatik orqanlar hesab olunurlar.

Dövlətlərin diplomatik nümayəndəlikləri, beynəlxalq diplomatik

İştirak edən nümayəndələr, ümumi siyasi-universal xarakterli, siyasi xarakterli müxtəlif beynəlxalq komissiyalarda, dövlət təntənələrində və s. iştirak edən müvəqqəti nümayəndələr, habelə xüsusi missiyaların və komissiyalann üzvləri diplomatik orqanlara aiddirlər.

Prinsip etibarı ilə siyasi vəzifələr daşımayan, adətən, siyasi nümayəndəlik xarakterində olmayan, immunitetdən istifadə etməyən vo ya ondan məhdud istifadə edən orqanlar qeyri-diplomatik orqanlar hesab olunurlar. Konsul nümayəndələri, müxtəlif texnika və mədəniyyət, radio, nəqliyyat, poçt, teleqraf, səhiyyə, ədliyyə və s. sahələr üzrə beynəlxalq saziş və müqavilə bağlamaq məqsədilə keçirilən konfrans və qurultaylara göndərilən nümayəndələr, habelə beynəlxalq sərgi, pavilyon və yarmarkaların komissarları qeyri-diplomatik orqanlara aiddirlər. Bəzən bunlara konvensiya orqanla- n da deyilir, çünki onların səlahiyəti və fəaliyyəti iştirakçı dövlətlərin arasında bağlanmış müqavilə və sazişlərlə müəyyən edilİr. Həm də bu orqanlar yalnız dövlətin razılığı olduqda və ya müvafiq dövlət orqanı tərəfindən təsdiq edildikdə fəaliyyət göstərə bilərlər.

Müəyyən konkret diplomatik və qeyri-diplomatik tapşınqla, adətən, qısa müddətə xaricə göndərilən nümayəndəliklərə müvəqqəti orqanlar deyilir. Belə orqanlardan həm diplomatik, həm də qeyri-diplomatik xarakterli beynəlxalq qurultaylara, konfranslara və müşavirələrə göndərilən, müxtəlif beynəlxalq komissiyalarda, dövlət təntənələrində və s. iştirak edən nümayəndələri göstərmək olar.

Müəyyən olunmuş qaydada başqa dövlətlərə göndərilib, orada öz dövlotmi təmsil edon, öz ölkəsinin vətəndaşlarının hüquq və mənafelərini qorumaq məqsədilə xarici münasibət məsələləri ilə məşğul olan orqana diplomatik nümayəndəlik deyilir.

Diplomatik nümayəndəliklər səfirlərin başçılıq etdiyi səfarətxa-nalara və digər diplomatik rütbəli nümayəndələri (elçilər vo işlər müvəkkillərinin) başçılıq etdiyi missiyalara bölünürlər, Diplomatik müəssisələrin bu cür bölgüsü şərti xarakter daşıyır, onlann səlahiyyətləri və vəzifələrinin həcminə, fəaliyyət qaydasına mahiyyətcə təsir göstəmir. Öz xidməti təyinatının xarakteri üzrə diplomatik nümayəndəliklərin tərkibində diplomatik dərəcəsi olub rəsmi dip-

lomatik vəzifələr daşıyanlardan ibarət diplomatik heyət, inzibati-texniki xidmət göstərən inzibati-texniki heyət, habelə xidmətçi-yardımçı heyətlər fərqlənirlər.

Diplomatik nümayəndəliyin başçılan, müşavirlər, ticarət üzrə nümayəndələr, habelə, hərbi dəniz və hərbi hava attaşeləri, katiblər, diplomatik attaşelər, arxiv katibi və s. diplomatik heyətə daxil edilirlər.

Diplomatik nümayəndəliklər dedikdə xaricdə olub, yerləşdiyi ölkənin hökuməti qarşısında öz dövlətini təmsil edən, öz ölkəsinin hüquqi və fiziki şəxslərinin mənafeyini müdafiə edən, habelə yerləşdiyi ölkənin siyasi vəziyyəti barədə öz hökumətinə məlumat verən vəzifəli şəxslər nəzərdə tutulur.

Diplomatik immunitet. Latınca immunitas (güzəşt) sözündən əmələ gələn immunitet, şəxsin müəyyən vəzifələrdən azad edilməsi deməkdir. Hələ Roma hüququnda immunitet şəxsin müəyyən ümumi hüquqi vəzifələrdən (hərbi xidmətdən, vergidən və s.) azad edilməsi mənasında işlədilmişdir.

Beynəlxalq hüquqda məlum olan immunitetin mühüm növlərindən biri də diplomatik immunitetdir. Buna əsasən, diplomatlara, Öz vəzifələrinin həyata keçirilməsini təmin etmək üçün, yerləşdiyi ölkənin ərazisində bir sıra xüsusi hüquq və üstünlüklər verilir. Diplomatik immunitet və üstünlüklərin təsnifində diplomatik nümayəndəliyin, onun başçısının və qalan diplomatik heyətin immunitet və üstünlükləri fərqlənir.

Diplomatik nümayəndəliyin immunitet və üstünlüklərindən aşağıdakıları göstərmək olar:

a) Xidmət binasının toxunulmazlığına əsasən, nümayəndəlik başçısının xahişi vo ya razılığı olmadan həmin binalara yerli hakimiyyət daxil ola bilməz. Həmin binalann mühafizəsi də yerli hakimiyyətin vəzifəsidir. Bu binalar, oradakı əşyalar, habelə nəqliyyat vasitələri toxunulmazdır. Bu binalarda axtanş, bəbs və s. əməliyyat keçirilə bilməz. Lakin yerli hakimiyyətin təqibindən gizlənmək üçün diplomatik binada sığınmaq hüququ verilə bilməz. Latın Amerikası ölkələri arasında qüvvədə olan "Diplomatik

sazişə əsasən, yerli hökumət torofindən izlənən siyasi canilərə diplomatik binada qısa müddətlərdə sığınmaq hüququ verilir.

b) Fiskal immunitetə əsasən nümayəndəliyin bütün binaları, o cümlədən kirayə alınmış binalar da, dövlət vergilərindən və yerli vergilərdən, hər cür rüsumlardan və xərclərdən azad olunur.

c) Yerindən asılı olmayaraq, bütün arxiv və sənədlər toxunulmazdır.

ç) Maneəsiz əlaqə saxlamaq hüququ. Buna əsasən məxfi yazışma (şifr), məktub göndərilməsinə nəzarət edilməməsi, diplomatik kuryerin toxunulmazlığı təmin olunmalıdır.

Şəxsi diplomatik immunitet aşağıdakılardan ibarətdir;

1. Diplomatik nümayəndənin şəxsi toxunulmazlığı;
2. Onun şəxsi mənzilinin toxunulmazlığı;
3. Məhkəmə immuniteti, yəni diplomatik nümayəndənin yerli məhkəmə aidiyyatından kənar olması;
4. Maliyyə immuniteti, yəni onun vergi, gömrük və digər rüsumlar verməkdən azad edilməsi;
5. Məxfi yazışma (şifr) və s. istifadə edərək, maneəsiz əlaqə saxlamaq hüququ, diplomatik yazışma və göndərişlərin toxunulmazlığı.

Diplomatın şəxsi toxunulmazlığı prinsipinə əsasən, diplomatik nümayəndələrin başçısının və üzvlərinin saxlanılmasına və ya həbsə alınmasına qəti olaraq yol verilmir. Onların şəxsiyyətinə, azadlıq və mənliyinə qarşı qəsd edilməməlidir.

Diplomatların yerləşdiyi ölkənin hökuməti xarici nümayəndələrin şəxsi toxunulmazlığını təmin etməli, onlann təhlükəsizliyini mümkün ola biləcək hər hansı bir zorakılıqdan, hədə və təhlükədən qorumalıdır. Diplomatik nümayəndələrin mənzillərinin toxunulmazlığı da diplomatların şəxsi toxunulmazlığı prinsipindən irəli gəlir. Buna əsasən, xüsusi icazə olmadan heç bir halda yerli hakimiyyət orqanlarının diplomatik nümayəndələrin mənzillərinə daxil olmaq hüququ yoxdur. Lakin diplomatların xidmət binası və mənzillərinin toxunulmazlığı, bundan sui-istifadə edilməsinə, məsələn, yerli hakimiyyət tərəfindən izlənən şəxslərin diplomatik

Məhkəmə toxunulmazlığı dedikdə, diplomatik nümayəndənin yerli cinayət və mülki mühakimə aidiyyətindən tamamilə kənar olması, habelə onun yerli inzibati hakimiyyətə tabe olmaması nəzərdə tutulur. Diplomatik nümayəndələrin belə hüquqi vəziyyəti öz məzmunu etibarı ilə hər hansı bir iş üstündə dipiomatlann saxlanılmasına, axtanimasma və həbsə alınmasına yol vermir. Özlərinin razılığı olmazsa, onlan şahid kimi də məhkəməyə çağırmaq olmaz, onlara qarşı mülki tələb də irəli sürülə bilməz. Məhkəmə toxunulmazlığı diplomatın şəxsiyyəti üçün deyil, xarici dövlətin rəsmi bir nümayəndəsi olmaq etibarı ilə onun xidmət mənafeyi üçün müəyyən edilir. Məhz ona görə do nümayəndənin şəxsən diplomatik immunitetdən könüllü surətdə imtina etmosino yol verilmir. Diplomatik immunitetdən könüllü imtina etmək barədə bəyanat vennək yalnız diplomatı göndərən dövlət başçısına aiddir. Diplomatik nümayəndənin təqsiri üzündən cinayət baş verdikdə və ya qayda-qanun pozulduğu hallarda belə, yerlİ məhkəmə və işgüzar orqanlar bu işlərə baxmamalıdır. Həmin İşlər üzrə təqsirkar sayılan diplomatik nümayəndələr diplomatik qaydada geri çağırılmalı və öz ölkəsinin qanunları əsasmda məsuliyyətə alınmalıdırlar.

Fiskal (maliyyə) toxunulmazlığına əsasən, diplomatik nümayəndələr yerləşdikləri ölkədə müstəqil vergilərdən, müxtəlif rüsumlardan, habelə qarşılıqlı prinsipinə əsasən gömrük xərclərindən azad olunurlar.

Diplomatik immunitetin mühüm bir ünsürü də nümayəndələrin şifr, diplomatik yazışma və s. vasitələrlə öz dövləti ilə, onun nümayəndələri ilə senzor nəzarəti olmadan azad əlaqə saxlamaq hüququdur. Diplomatik kuryerin müşayiəti ilə göndərilən diplomatik poçt toxunulmazdır. Bu poçt, yük və kuryerin daşınması üçün haqq verilməsi şərti ilə, sərhədlərdən azad buraxılmalıdır.

Beləliklə, diplomatik immuniteti diplomatların yerləşdiyi ölkələrin ərazisində onlann xüsusi hüquqi rejimini müəyyən edən hüquq Vo üstünlüklərin məcmuyu təşkil edir. Bu hüquqlar ərazidən-karalıq adlanır. Diplomatik nümayəndələrin hüquqi vəziyyəti beynəlxalq hüquq, beynəlxalq adətlər və daxili qanunvericilik aktları əsasında nizama salmır.

Göstərilən hüquq və üstünlüklərindən istifadə etməklə yanaşı, diplomatlar həm öz dövləti qarşısında, həm də olduğu dövlətin qarşısında müəyyən vəzifələr də daşıyırlar. Diplomatın öz dövləti qarşısında daşımalı olduğu vəzifələr barədə yuxanda danışılmışdır. Burada ISO onun yerləşdiyi dövlət qarşısında daşıdığı vəzifələri göstərmək lazımdır. Bu vəzifələr, əsasən, diplomatın yerləşdiyi ölkənin suverenliyinə hönnət etmokdən, onun qanun-qayda və adətlərini gözləməkdən, həmin ölkənin daxili işlərinə qanştnamaqdan ibarətdir.

iConsuHarın hüquqi vəziyyəti və fəaliyyətini nizama salan qayda və hüquqi normaların məcmuyuna konsul hüququ deyilir. Son illərə kimi konsul hüququnun mühüm mənbələri dövlətin daxili qanunlarından, konsul nizamnamələrindən, təlimatlarından və beynəlxalq adətlərdən ibarət idi. Lakin 1963-cü i i aprelin 24-də konsul hüququnun məcəUələşdirilməsi sahəsində yeni bir addım atılaraq. Vyana sazişi qəbul edilmişdir. Burada konsul münasibətləri yaradılması, konsulların rütbələri, hüquq və vəzifələri və s. məsələlər haqqında mövcud qaydalar rəsmən məcəlləşdiriİmişdir.

Konsulları diplomatik nümayəndələrdən fərqləndirən əsas cəhətlər onların siyasi nümayəndəlik xarakterinə malik olmasından, yerləşdiyi ölkənin hökuməti ilə bilavasitə deyil, yerli orqanların vasitəsilə əlaqə saxlamasından, immunitetdən məhdud dərəcədə istifadə etməsindən ibarətdir. Hər bir konsulun fəaliyyət göstərdiyi rayona konsul dairəsi deyilir. Konsul dairələri konsulları göndərən və qəbul edən dövlətlərin arasındakı sazişlərlə müəyyən edilir. Konsul təyin edilən şəxslər Öz ölkəsinin Xarici İşlər Nazirliyindən vo ya digər səlahiyyətli orqanlardan onların konsul vəzifəsinə təyin edilməsini təsdiq edən xüsusi sənəd - konsul patenti alırlar. Bu sənəddə konsulluq təyinatı, konsul dairəsi, onun rütbəsi və adı göstərilir. Konsul, təyin olunduğu ölkəyə gələrək, ona verilmiş konsul patentini öz dövlətinin diplomatik nümayəndəliyi vasitəsilə həmin ölkənin müvafiq səlahiyyətli orqanına təqdim edir və ondan xüsusi sənəd-ekzekvatura alır.

Beynəlxalq təşkilatlar və ya orqanlar dedikdə, minlərcə müxtəlif

İctimai xarakterli təşkilatları deyil, beynəlxalq hüquq üçün daha mühüm olan dövlətlərarası (hökumotlərarası) təşkilatlan və orqan- lan başa düşmək lazımdır.

Beynəlxalq konqres, konfrans və müşavirələr müəyyən məsələlərin birgə müzakirəsi və həlli üçün keçirilən, rəsmi nümayəndələri iştirak edən subyektlərin müvəqqəti xarakterli ümumi kollektiv beynəlxalq orqanları hesab olunur.

Daimi beynəlxalq təşkilatlardan fərqli olaraq, beynəlxalq konqres, konfrans və müşavirələr iştirakçı dövlətlərin nümayəndələrinin müvəqqəti xarakterli yığıncaqlarıdır. Qarşıda qoyulmuş məsələlərin müzakirəsinin başa çatması ilə onların fəaliyyəti bitir.

Beynəlxalq yığıncaqlar (konqres, konfhıns və müşavirələr), adətən, dövlətlərin müvəqqəti xarakterli orqanları olub, müəyyən hadisə ilə əlaqədar, yəni *ad hoc* qaydasında keçirilir.

BMT və onun vəzifəli şəxslərinin üstünlükləri və immunitetləri. Nizamnaməyə əsasən, təşkilata daxil olan dövlətlərin ərazisində BMT öz məqsədlərinə nail olmaq üçün zəruri üstünlüklərdən və immunitetlərdən istifadə edir; BMT-dəki dövlətlərin nümayəndələri və təşkilatın vəzifəli şəxsləri də öz vəzifələrini icra etmək üçün onlara zəruri lazım olan üstünlük və İmmunitetlərdən istifadə edirlər. Bu qaydalar BMT üstünlükləri və immunitetləri haqqında 1946-cı il sazişində təsdiq edilmişdir.

BMT-nin ixtisaslaşdırılmış təşkilatlan iqtisadi, ictimai, elmi, texniki, mədəni, maarif, hüquqi, inzibati və sair sahələrdə dövlətlər arasındakı münasibətləri tənzim edən çoxtərəfli sazişlər əsasında təsis edilir və fəaliyyət göstərirlər. Bu ittifaq və təşkilatların rəhbər orqanlan məclis, konqres və konfrans adlandırılan ür -umi iclaslardan, idarə heyəti, büro, komitə, komissiya adlanan icraiyyə orqanianndan ibarət olur.

Beynəlxalq münasibətlər sahəsində mövcud olan inzibati ittifaqlardan Ümumdünya Poçt İttifaqını, Beynəlxalq Elektrik-Rabitə İttifaqını, Ümumdünya Səhiyyə Təşkilatını, Beynəlxalq Əmək təşkilatmı, Ümumdünya Meteroloji Təşkilatlarını, Maarif, Elm və

Dəniz Təşkilatını, Atom Enerjisi Üzrə Beynəlxalq Agentliyi, Beynəlxalq Mülki Aviasiya Təşkilatmı və s. göstərmək olar.

Azərbaycan Respublikası ərazisinə gətirilən və ya bu ərazidən aparılan diplomatik nümayəndəliklərin rəsmi istifadəsi üçün nəzərdə tutulmuş mallar gömrük ödəncləri ödənilməsindən azad edilir. Avtonəqliyyat vasitələri, mebel, ofis texnikası, tikinti materialları, dəftərxana ləvazimatı və s. belə mallara aid edilir. Bu malların təyinatı diplomatik nümayəndəlik başçısının rəsmi məktubu ilə müəyyən olunmuş qaydada təsdiq olunmalıdır.

Malların təyinatı müqavilədə və ya başqa bir yolla da göstərilə bilər. Diplomatik nümayəndəliklər tərəfindən gətirilməsinə icazə verilən avtomobillərin miqdarı adətən Xarici İşlər Nazirliyi tərəfindən müəyyən edilir.

Xarici dövlətlərin diplomatik nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan mallar adi qaydada gömrük rəsmiləşdi- rilməsindən keçir.

Diplomatik nümayəndəliklərin rəsmi istifadəsi üçün gətirilən mallar gömrük nəzarətindən azad edilmir. Gömrük güzəştləri yalnız gömrük ödənclərinin ödənilməsindən azad etməkdən ibarət olur. Lakin bu halda da:

1) saxlanca gÖrə gömrük yığımı;

2) gömrük orqanlarının müəyyən edilmiş iş yerindən kənarda və ya iş vaxtından kənarda gömriik rəsmiləşdirilməsi üçün gömrük yığımı;

3)məlunıatlandırma və məsləhət verməyə görə, ilkin qəbul edilmiş qərara görə ödənclər ödənilməlidir.

Diplomatik nümayəndəliklərə gömrük güzəştləri Azərbaycan Respublikasının gömrük sərhədindən keçərkən mövcud qanunvericiliyə tara əməl edildiyi təqdirdə verilir.

Diplomatik güzəştlərdən qazanc məqsədi ilə istifadə olunmasına yol verməmək üçün, diplomatik təmsilçiliyin kommersiya fəaliyyəti ilə bir araya sığmazlığı prinsipindən (196l-ci il Vyana Konvensiyasının 42-ci maddəsi) çıxış edərək. Gömrük Qanunvericiliyi diplomatik təmsilçiliklərin rəsmi istifadəsi üçün

Diplomatik heyətin üzvləri müvafiq təmsilçiliyin diplomatik dərəcəsi olan üzvlərinə deyilir. Müşavirlər, ticarət nümayəndələri, hərbi, hərbi-dəniz, hərbi-hava, gömrük attaşeləri, birinci, ikinci, üçüncü katiblər, diplomatik attaşelər, təsərrüfat sahələri üzrə attaşelər, antivçi-katiblər diplomatik dərəcəsi olan heyət hesab edilir.

Diplomatik heyətin tərkibinə, həmçinin, ticarət nümayəndələrinin müavinləri, attaşelərinin köməkçiləri də daxildirlər.

1961-ci il Vyana Konvensiyasının “diplomatik agent” termini diplomatik təmsilçiliyinin başçısı və üzvlərini nəzərdə tutur.

Gömrük Məcəlləsinin 197-ci maddəsi gömrük güzəştlərini diplomatik təmsilçiliyin başçısının və diplomatik heyət üzvlərinin ailə üzvlərinə də şamİl edir. Bu hüquqi nomıa 1961-ci il Vyana Konvensiyasının 37-ci maddəsinin 1-ci bəndinə uyğun gəlir. “Diplomatik agentin onunla birlikdə yaşayan ailə üzvləri, əgər onlar qaldıqları ölkənin vətəndaşı deyillərsə, diplomatik agent üçün nəzərdə tutulmuş 29-36-cı maddəİordo göstərilən üstünlük və immunitetlərdən istifadə edirlər”. Ailə üzvləri dedikdə arvad (ər), həddi-bülluğa çatmamış uşaqlar və öhdəsində olan digər şəxslər başa düşülür.

Diplomatik təmsilçiliyin rəsmi istifadəsi üçün nəzərdə tutulmuş mallar kimi, diplomatik agentin vo onun ailə üzvlərinin şəxsi istifadəsi və həmçinin, ilkin təsərrüfat üçün lazım olan mallar da daxil olmaqla, gömrük rüsumları və yığımlarından azaddırlar. Bu güzəşt saxlanc, riisumlan və yığımlarından azaddırlar. Bu güzəşt saxlanc, gömrük orqanlannm iş yerindən və iş vaxtından kənarda gömrük rəsmiləşdirilməsi, məlumatlandırma və məsləhət verməyə görə tələb olunan ödənclərə və s. şamil edilmir.

Diplomatik agentin şəxsi baqajı dedikdə diplomatın şəxsi jtifa-dəsi üçün əşyalar olan baqaj nəzərdə tutulur. Adətən belə baqaj diplomatik agentlə birgə hərəkət edir.

Şəxsi baqajın gömrük müayinəsindən azad edilməsi mütləq xarakter daşımır. 1961-ci il Vyana Konvensiyasının 36-cı maddəsinə (2-ci bənd) görə diplomatın vo onun ailə üzvünün baqajında şəxsi istifadə üçün nəzərdə tutulmayan vo yaxud yerli qanunvericilikdə

olduğunu güman etməyə kifayət qədər əsas varsa, həmin baqaj gömrük müayinəsinə cəlb oluna bilər.

Gömrük orqanının səlahiyyətli şəxsi nəinki sorğu-sual, həmçinin, sərnişin bəyannaməsinin doldurulmasım təklif edə bilər. Eyni zamanda baqaj və əl yükünün gömrük müayinəsini keçirə bilər. Diplomatın şəxsi baqajına gömrük nəzarəti (müayinəsi) gömrükxana rəisi, yaxud onu əvəz edən şəxs tərəfindən sanksiyalandmlır. Əgər gömrük nəzarəti nəticəsində gömrük qanunvericiliyinin pozulması faktı aşkar edilərsə, gömrük orqanının səlahiyyətli şəxsi xüsusi akt tərtib edir. Bu halda protokol tərtib edilmir, belə ki, diplomatik agent məhkəmə immunitetinə malikdir və qaldığı ölkənin qanunlarına görə hüquqi məsuliyyətə cəlb oluna bilməz.

Adətən Xarici İşlər Nazirliyi diplomatik agentin işlədiyi səfirliyə müvafiq təqdimat göndərir. Bu təqdimatda diplomatik statusdan sui-istifadə faktı göstərilir. Gömrük müayinəsi zamanı aşkar edilmiş şəxsi istifadəyə aid olmayan mallar geri göndərilməlidir.

Qeyd etmək lazımdır ki, diplomatın şəxsi baqajı onun və ya səlahiyyətli nümayəndəsinin iştirakı olmadan gömrük baxışma (müayinəsinə) cəlb edilə bilməz.

*Xarici dövlətlərin diplomatik poçtunun və konsul valizinin Azorbaycan Respubtikasmin gömrük sərhədindən keçirilməsi*

Beynəlxalq hüquq diplomatik və konsul poçtunun gömrük sərhədindən keçirilməsinin xüsusi xarakterini müəyyən edir.

Diplomatik və konsul poçtu toxunulmazdır.

Müasir beynəlxalq ictimai hüquqi ümumiliklə qəbul edilmiş bu prinsipi diplomatik təmsilçiliyin təmsil etdiyi ölkə ilə münasibətlərin sərbəstliyinin təmin edilməsinə zəmanət verir. Diplomatik poçtun köməyi ilə xidməti istifadə üçün rəsmi yazışmalar, sənədlər və əşyalar çatdırılır. Onlar diplomatik valizə (çantaya) qablaşdınlır. Diplomatik valiz dedikdə müəyyən olunmuş qaydada bağlanmış, möhürlənmiş və ya plomblanmış, onun xarakterini göstərən gözlə

görünə bilinən zahiri əlamətləri olan qab (kisə, çanta, paket, zərf və s.) nəzərdə tutulur. Diplomatik poçtun ayrı-ayn subyektləri ölçülərinə və çəkisinə görə məhdudlaşdırılmır. Qarşılıqlı razılaşmaya əsasən diplomatın poçtun ümumi çəkisi məhdudlaşdırıla bilər. Tranzit diplomatik poçtun çəkisi məhdudlaşdırılmır. Diplomatik poçtun tərkibində yalnız rəsmi istifadə üçün nəzərdə tutulmuş sənəd və mallar ola bilər.

Hər diplomatik valiz diplomatik poçtun bir yeri sayılır və ünvana diplomatik kuryerin müşayiəti ilə, yaxud belə müşayiət olmadan adi rabitə kanalı ilə çatdınla bilər.

Əgər diplomatik poçtun bütün baqajlan (yerləri) onlan fərqləndirən və diplomatik poçta aid olduğunu müəyyən etməyə imkan verən əlamətlərə malikdirlərsə, belə poçt açıla və ya yubadıla bilməz.

Belə hallarda gömrük orqanının vəzifəli şəxsləri zahiri baxış keçirir və poçtanın markalanmasının tələblərə və kuryer vərəqində yazılanlara uyğun olmasına nəzarət edir.

Diplomatik poçtu maneəsiz göndərmək və almaq hüququ olanlar aşağıdakılardır;

a) Azərbaycan Respublikasının diplomatik və konsul münasibətləri yaratdığı dövlətlərin Xarici İşlər Nazirlikləri;

b) Bu dövlətlərin üçüncü ölkələrdəki diplomatik və konsul təmsilçilikləri;

c) Azərbaycan Respublikası ərazisindəki beynəlxalq təmsilçilikləri;

ç) Beynəlxalq təşkilatlann Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə müəyyən edilmiş qaydada ölkədə yerləşən təmsilçilikləri.

Azərbaycan Respublikasının diplomatik və konsul münasibətləri yaratmadığı dövlətlərin diplomatik poçtu ölkə ərazisindən tranzit qaydada maneəsiz keçmək hüququna malikdir.

Konsul valizi məfhumunun açıqlanması Konsul münasibətləri barədə 1963-cü il Vyana konfensiyasının 35-ci maddəsində verilmişdir.

liklori ilə mümkün olan bütün vasitələrdən, konsul valizi daxil olmaqla, istifadə edə bilərlər. 1963-cü il Vyana Konvensiyasının 35-ci maddəsinin 2-ci hissəsi müəyyən edir ki, konsul təşkilatının rəsmi yazışması toxunulmazdır.

Diplomatik poçtun ünvanına çatdırılması tapşınlan şəxslərə diplomatik kuryer deyilir. Diplomatik kuryer vəzifəsi 196l-ci il Vyana Konvensiyası, konsul kuryeri vəzifəsi isə 1963-cü il Vyana Konvensiyası ilə təsbit edilmişdir.

Diplomatik (konsul) kuryerləri daimi və müvəqqəti (ad hoc), yalnız verilmiş diplomatik poçtun daşınması üçün təyin edilmiş ola bilərlər.

Axırıncılara güzəştlər yalnız xidməti vəzifələrini yerinə yetirdikləri müddətdə şamil edilir.

Diplomatik poçta bilavasitə mülki təyyarənin ekipajının komandirinə həvalə edilə bilər. Bu halda diplomatik (konsul) təmsilçilik öz nümayəndəsini diplomatik (konsul) poçtun bilavasitə və maneəsiz olaraq təyyarə komandirindən alınması üçün göndərə bilər. Nəzərə almaq lazımdır ki, belə hallarda təyyarə komandiri diplomatik kuryer sayılmır. Diplomatik kurycrin müvafiq statusa malik olduğunu təsdiq edən əsas sənəd kimi ona verilən kuryer vərəqi götürülür. Kuryer vərəqində diplomatik kuıyerin statusu göstərilir və ona bu vərəqdə göstərilən qədər diplomatik poçtun maneəsiz keçirmə hüququ bildirilir.

Kuryer vərəqinin doldurulması və təsdiq olunması qaydaları dövlətlərarası qarşılıqlı razılaşmaya əsasən müəyyənləşdirilir və bu barədə gömrük orqanları xəbərdar edilir. Diplomatik (konsul) kuryerin şəxsi baqajı gömrük baxışından azad edilir. Lakin, baqajda kuryerin şəxsi istifadəsi üçün nəzərdə tutulmayan mallar, yaxud gətirilməsi (apaniması) mövcud qanunvericiliklə qadağan edilən malların olması gümanına əsas varsa, o zaman kuryerin baqajı həmin kuryerin və ya səlahiyyətli nümayəndəsinin iştirakı ilə göm-rükxanada müayinə edilə bilər.

Diplomatik agent üçüncü ölkə ərazisindən xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı keçərkən, bu ölkədən bütün immunitetləri

Bu noımanm təsiri onun ailə üzvlərinə de şamil edilir.

Maneəsiz tranzit keçidi hüququ diplomatik kuıyerlərə və diplomatik poçta aid edilir.

Beynəlxalq təşkilatlann əməkdaşları üstünlük və immunitetlər barədə çoxtərəfli və ikitərəfli müqavilələrə əsasən, xidməti vəzifələrini yerinə yetirdikləri müddətdə funksional üstünlük və immunitetlərə malik olurlar.

Bir qayda olaraq beynəlxalq təşkilatlann rəhbər vəzifəli şəxsləri diplomatik şəxslərə bərabər üstünlük və immunitetlərə malik olurlar.

İkitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrlə gönunik güzəştləri əsasən aşağıdakı təşkilatlann və onlann təmsilçiliklərinin heyətinə, həmçinin onlann ailə üzvlərinə nəzərdə tutulur:

- Birləşmiş Millətlər Təşkilatı;
- Birləşmiş Millətlər Təşkilatının təhsil, elm, mədəniyyət təşkilatı (UNESCO);
- Birləşmiş Millətlər Təşkilatının sənaye inkişafı məsələləri təşkilatı (UNIDO);
- Beynəlxalq Valyuta Fondu;
- Beynəlxalq Rekonstruksiya və İnkişaf Bankı;
- Beynəlxalq Maliyyə Korporasiyası;
- Beynəlxalq İnkişaf Assosiasiyası;
- Avropa Cəmiyyətləri Komissiyası;
- Avropa Rekonstruksiya və İnkişaf Bankı;
- Beynəlxalq Elmi-Texniki Mərkəz;
- Beynəlxalq Miqrasiya Təşkilatı;
- Beynəlxalq Qırmızı Xaç Komitəsi;
- Elmi-Texniki İnformasiya Beynəlxalq Mərkəzi;
- Beynəlxalq İnvestisiya Bankı;
- Beynəlxalq İqtisadi Əməkdaşlıq Bankı;
- Digər beynəlxalq təşkilatlar (Nazirlər Kabineti tərəfindən müəyyən edilir).

# Mövzu 4. Azərbaycan Respublikasının gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsinə gömrük nəzarətinin təşkilinin əsas xüsusiyyətləri. Gömrük rejimləri

## *4.1. Əsas prinsiphr*

Gömriik Məcəlləsi ma! və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsinin və Azərbaycan Respublikasından aparılmasının qadağan edilməsinin hüquqi əsaslarını müəyyən edir (maddə 19).

Bu əsaslar aşağıdakılardır:

1) dövlət təhlükəsizliyi;
2) ictimai asayişin qorunması;
3) əhalinin əxlaqi təmizliyinin qorunması;
4) insanların həyat və sağlamlığının qorunması;
5) ətraf mühitin qorunması (ekologiya);
6) heyvan və bitkilərin qorunması;
7) Azərbaycan xalqının və digər dünya xalqlannın bədii, tarixi və arxeoloji dəyərlərinin qorunması;
8) mülkiyyətçilik, o cümlədən intellektual mülkiyyət obyektlərinin qorunması;
9) istehlakçılarm mənafeyinin müdafiəsi.

Azərbaycanın mövcud yerli qanunvericiliyi və Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə əlaqədar olaraq bu siyahı digər müddəalarla tamamlana bilər.

“Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdınlması haqqında” Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli 609 saylı fərmanı ilə;

1) İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında aparılan malların siyahısı müəyyən edilmişdir. Bunlar;

• silah və hərbi texnika, onlann istehsalı üçün zəruri olan ehtiy- yat hissələri;

- bant, partlayıcı maddələr, partlayış və pirotexnİka vasitələri;
- nüvə materialları, texnologiyaları, avadanlıqlan və quığulan, xüsusi qeyri-nüvə materiallan, radiaktiv tullantılar da daxil olmaqla, radioaktiv şüalanma mənbələri;
- narkotik və psixotrop vasitələr, kimyəvi zəhərlər;
- silahlanma və hərbi texnikanın yaradılması üçün istifadə olunan elmi-texniki məlumatın və texnologiyalann, material və ava- danlıqlann ayn-ayrı növləridir.

2) İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla apanlan spesifik mallann (xidmətlərin və əqli mülkiyyətin) siyahısı müəyyən edilmişdir

- çöl heyvanlan, yabanı bitkilər və qazıntılar zamanı tapılmış heyvan sümükləri;
- vəhşi heyvanlardan və yabanı bitkilərdən dərman istehsalı üçün alman xammal; ilan, böyə və əqrəb zəhərləri;
- Azərbaycan Respublikası ərazisində quruda və dəniz iqtisadi zonası hüdudlannda yerləşən istilik enerji və mineral xammal yaraqlan haqqında və rayonlar üzrə məlumat;
- ixtiralar, “Nou Hau” və elmi-tədqiqat işlərinin nəticələri;
- incəsənət əsərləri, kolleksiya əşyalan və əntiq mallar;
- bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələr;
- baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatlan;
- dərman preparatlan və tibbi ləvazimatlar;
- Azərbaycan Respublikası ərazisində xidmətlərin göstərilməsi:

a) inşaat fəaliyyəti (mühəndis axtanş, layihə, tikinti quraşdırma və buraxılış sazlama işləri);

b) yük və sərnişin daşınması, nəqliyyat-ekspeditor xidmətləri;

c) rabitə xidmətləri (beynəlxalq, şehərlərarası, şəhər, kənd sel- lülar, reysinq, radiotrank, kabel televiziyasının qurulması və istismarı, sürətli poçt xidmətlərinin göstərilməsi);

ç) vəkillik və digər hüquqi xidmətlər.

3) MüvaHq dövlət orqanları tərəfindən verilən lisenziya əsasında idxal-ixrac olunan mallann siyahısı müəyyən edilmişdir:

- etil spirti (yeyinti)
- alkoqollu içkilər (pivə istisna olmaqla)
- tütün məmulatı

Bu məhdudiyyətlər müxtəlif xarakter daşıyırlar:

- ayn-ayn mallara ticarətdə məhdudiyyətlər və ya mal-nomenklatura məhdudiyyətləri;

- ayrı-ayrı ölkələrlə, ölkələr qrupu ilə ticarətdə məhdudiyyətləp vo ya coğrafi məhdudiyyətlər;

- müəyyən müddət ərzində fəaliyyət göstərən məhdudiyyətlər və ya müddət məhdudiyyətləri.

Məhdudiyyətlər daxili qanunvericiliklə və beynəlxalq hüququn mənbələri ilə müəyyən edilə bilər (məsələn, beynəbcalq sanksiyalar).

Yerli qanunvericilikdə nəzərdə tutulan məhdudiyyətlər, qüvvəyə minmə barəsində digər qaydalar müəyyən edilmiş qanunlar istisna olunmaqla onlann qüvvəyə minməsindən (10 gündən az olmayaraq) əvvəl rəsmi surətdə nəşr edilməlidir. Milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə beynəlxalq hüquqla tapılmış iqtisadi sanksiyaları, hərbi-texniki sahədə əməkdaşlığın tənzimlənməsini, daxili bazann müdafiəsini nəzərdə tutan qadağa ve məhdudiyyətlər nəzərdə tutula bilər.

## *4.2. Gömrük rejimi anlayışr. Gömrük rejimfsrinin xususfyy^tlari*

Mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasmm gömrük sərhədindən keçirilməsi bəyan edilən gömrük rejiminin tələblərinə uyğun olaraq icra edilməlidir. Gömrük rejimi anlayışı xarici iqtisadi əlaqələrin inkişafına dövlət təsirinin həyata keçirildiyi gömrük tənzimlənməsi vasitələrinin kompleks şəkildə tətbiqinə kömək edən xüsusi tədbirlər sistemi və metodlann məcmusu kimi başa düşülməlidir. Deyilənləri qısaca səciyyələndirsək - gömrük rejimi gömrük məqsədləri üçün gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin statusunu təyin edən qaydaların məcmusudur.

Gömrük rejimi gömrük qanunvericiliyinin əsas kateqoriyalann-dan biridir və aşağıdakıları müəyyən edir:

- keçirilməsi məqsədindən asılı olaraq mallann konkret yerdəyişmə qaydasını;
- gömrük ərazisində və ondan kənarda mallann yerləşdirilməsi və onlardan istifadənin mümkünlüyü şərtlərini;
- gömrük qanunvericiliyinə görə mallardan istifadə və onlar üzərində sərəncam vermək səlahiyyəti olan şəxslərin (belə şəxslərə benefisiar deyilir) hüquq və vəzifələrini;
- mal və nəqliyyat vasitələrinə və şəxslərin hüquqi statusuna tələbləri.

Gömrük Məcəlləsinin 25-ci maddəsinə görə "Gömrük tənzimlənməsi məqsədi ilə gömrük rejimlərinin aşağıdakı növləri müəyyən olunur:

1) sərbəst dövriyyə üçün buraxılış;
2) təkrar idxal;
3) tranzit;
4) gömrük anban;
5) rüsumsuz ticarət mağazası;
6) gömrük ərazisində emal;
7) gömrük nəzarəti altında emal;
8) müvəqqəti idxal (ixrac);
9) sərbəst gömrük zonası;
10) sərbəst anbar;
11) gömrük ərazisindən kənarda emal;
12) ixrac;
13) təkrar ixrac;
14) məhv etmə;
15) dövlətin xeyrinə maldan imtina.

Öz roluna və yerinə görə ümumi təsərrüfat fəaliyyətində gömrük rejimlərini şərti olaraq iki əsas qrupa bölmək olar:

Birinci qrupa tənzimləmə metodları və gömrük vasitələrinin tam həcmdə tətbiq edildiyi ümumi xarakterli rejimlər daxil edilir. İqtisadiyyat baxımından bu gömrük rejimləri nisbətən müstəqil və

bitmiş kommersiya əməliyyatları kimi fəaliyyət göstərir (sərbəst dövriyyə üçün buraxılış, ixrac, təkrar ixrac).

İkinci qrupa tənzimlənmənin gömrük-hüquq normalarından daha çevik istifadə edilməsi ilə fərqlənən və bir növ onlann xarici-iqtisadi fəaliyyət iştirakçılanmn tələblərinə uyğunlaşdınlmasımn nəticəsi kimi səviyyələnən gömrük rejimləri aiddir. Bu gömrük rejimləri (rüsumsuz ticarət mağazası, sərbəst anbar, sərbəst gömrük zonası, gömrük ərazisində emal, tranzit, gömrük anbarı ve digər yerdə qalan rejimlər) müəyyən iqtisadi mənfəət müəyyənləşdirməklə malların yalnız ciddi müəyyən edilmiş məqsədlərlə istifadəsinə yol verir. Belə rejimlərin tətbiqinə icazə yalnız nəzərdə tutulmuş əməliyyatların keçirilməsinin iqtisadi əsaslan olduqda verilə bilər. Beləliklə, gömrük rejimlərinin tətbiqinə icazə verilməsi məqsədli və fərdiləşdirümiş xarakter daşıyır.

Gömrük rejimlərinin istifadəsinin hüquqi mexanizmi gömrük orqanlarına obyektiv olaraq kifayət qədər səlahiyyət verilməsini nəzərdə tutur. Bu ilk növbədə Öz əksini gömrük orqanı tərəfindən konkret malın müəyyən edilmiş gömrük rejimi altında yerləşdirilməsi barədə qərar verməsində tapır. Yəni gömrük orqanı hər bir konkret halda xarici-iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin ümumi konsepsiyası baxımından bu əməliyyatın mümkünlüyü və məqsədə-uyğunluğu nəzərə alınmaqla arzu edilən gömrük rejiminə icazə verilməsinə və ya icazə verilməsindən imtina edilməsinə qərar verir.

İqtisadi gömrük rejimləri, onlann benefisiarlanna qabaqcadan müəyyən edilmiş, gömrük rüsum və vergilərindən tam və ya qismən azad edilməsi (və ya əwəl Ödənilmişlərin qaytaniması), iqtisadi siyasət tədbirlərinin tətbiq edilməməsi (miqdar məhdudiyyətləri, lisenziyalaşdırma və XİF-in digər qeyri tarif tənzimləmə vasitələri) kimi iqtisadi güzəşt və üstünlüklər verir.

Malların təyinatı və məqsədlərindən asılı olaraq aşağıdakı iqtisadi gömrük rejimləri qruplanm göstərmək olar:

**a)** anbarlaşma rejimləri (gömrük anban, sərbəst anbar)

Bu rejimlərdə mallar istifadə edilmədən (saxlanmam təmin edən əməliyyatlardan - yenidən qablaşdırma, növlərə ayırma və s.), başqa gömrük təyinatı alana qədər dəyişilməz halda saxlanılır;

**b) emal rejimləri (gömrük ərazisində emai, gömrük nəzarəti altında emal, gömrük ərazisindən kənarda emal)**

**Bu rejimlərdə malların əvvəlcədən müəyyən edilmiş şərtlər və tələblər daxilində o, malların mövcudiyyət halının tam və ya qismən dəyişdirilməsi məqsədi ilə işlənilməsi və emal edilməsi üçün bəzi əməliyyatlarda istifadə oluna biləf;**

**c) malların istifadəsini nəzərdə tutan rejimlər (müvəqqəti idxal və ixrac)**

**Bu rejimdə məhdud nomenklaturalı mallar öz təyinatı üzrə istifadə edilə bilər, bu zaman müvəqqəti aparılan və ya gətirilən malların istifadəsi onlann işlənməsini və emalını istisna edir və təbii itkilərdən başqa malların mövcud halının digər formalarda dəyişdirilməsinə gətirib çıxarmamalıdır.**

**Gömrük rejimlərinin belə təsnifatı ilk öncə gömrük tənzimləmə mexanizmində və onlann hüquqi reqlamentləşdirilməsindəki müxtəlif aspektlərində - gömrük rejimlərinin seçilməsi və dəyişdirilməsi (GM, maddə 27), gömrük nəzarətinin və gömrük rəsmiləşdi- rilməsinin xüsusiyyətləri, mallar və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilmə yeri və vaxtı (GM, maddə 28), gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrindən istifadə edilməsi və onlar üzərində sərəncam verilməsi aspektlərində rolunun ay- dınlaşdmlması üçün praktik əhəmiyyət daşıyır.**

**Gömrük rejimlərinin tətbiqi qaydalarına aid olan qanunvericilik bəzi xüsusiyyətləri ilə seçilir. Qanunvericiliklə müşahidə edilən boşluqlar bəzi gömrük rejimlərinin tam gücü ilə işləməsinə mane olmaqdadır.**

**Təkrar idxal, gömrük anbarı, məhv etmə, rüsumsuz ticarət mağazası, dövlətin xeyrinə maldan imtina rejimləri kompleks hüquqi tənzimləmə ilə əhatə olunmuşlar. Adı çəkilən gömrük rejimlərindən İstifadə edilməsi təcrübədə xüsusi əsasnamələr və təlimatlarla müəyyən edilir. Konkret gömrük rejimi barədə əsasnamə (təlimat) Gömrük Məcəlləsinin müvafiq maddəsi əsasında hazırlanır və bir qayda olaraq, mallann və nəqliyyat vasitələrinin bu gömrük rejimi altında yerləşdirilməsi təcrübəsi ilə bağlı meydana çıxan bütün mə-**

sələləri əhatə edir. Buna baxmayaraq gömrükxana ilə deklarant (boyannaməçi) arasında münasibətlərdə qanunvericiliyin əhatə edə bilmədiyi sahələr qalmış olur.

Bu hallarda gömrükxananm vəzifəli şəxsləri diskresİon səlahiyyətlər əsasında, başqa sözlə öz bildiyi kimi hərəkət edir. Bir çox ölkələrin təcrübəsi göstərir ki, gömrük əməkdaşlannın məntiqli səviyyədə diskresİon səlahiyyətlərə malik olmasına yol verilir və bu da deklarantın gömrük orqanlarının qərarından qanunla nəzərdə tutulmuş qaydada şikayət verə bilməsi hüququ ilə kompensasiya edilir. Ümumilikdə gömrük işinin lazımi səviyyədə apaniması gömrük rejimlərinin tətbiqinə dair yetkin təlimatların, əsasnamələrin, qaydaların və s. vaxtında hazırlanmasından çox asılıdır. Bir çox hallarda gömrük işi üzrə qanun qüvvəli normativ aktların hazırlanmaması səbəbi ilə gömrük qanunvericiliyi normalannın sərbəst interpretasiyası yolverilməz haldır. Sistemləşdirilmiş qanunvericiliyin olmaması gömrük sahəsində qanunçuluq rejiminin möhkəmləndirilməsində başlıca əngəldir.

Gömrük rejimlərinin tətbiqinin ayn-ayrı məsələlərini tənzimləyən, lakin Gömrük Məcəlləsində nəzərdə tutulmayan müddəalar üzrə Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının qəbul edilməsinə qədər olan müddət ərzində nəzərdə tutulmuş gömrük rejimlərinin hüquqi tənzimlənməsi və Gömrük Məcəlləsi ilə nəzərdə tutulmayan gömrük rejimlərinin tətbiq edilməsi Respublika Prezidentinin müəyyən etdiyi normativ aktlan ilə həyata keçirilir (GM, maddə 26).

Gömrük rejimlərinin hüquqi əsaslarını araşdırmağa çalışaq.

### *4.2,1. Sərbast äövriyya üçün buraxılış*

Sərbəst dövriyyə üçün buraxılış rejiminin hüquqi normalan Gömrük Məcəlləsi ilə bərabər “Gömrük tarifi haqqında” qanunda da öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılmış xarici mallara da Azərbaycan malları kimi baxılır.

Sərbəst dövriyyə üçün buraxılış digər gömrük rejimləri kimi, bu rejimdən istifadə edilməsi barədə maraqlı şəxsin qabaqcadan bu barədə ərizə verməsini nəzərdə tutur.

Bu əməliyyat mallann yerdəyişməsi üçün məqsədin elan edilməsi və bəyanetmə yolu ile, gömrük orqanı tərəfindən malların gömrük rəsmi ləşdirilməsinin və sərbəst dövriyyəyə buraxılmasına icazə verilməsi və ya bundan imtina edilməsi ilə həyata keçirilir.

Mallann sərbəst dövriyyə üçün buraxılış rejimində gömrük rəsmiləşdirilməsi üçün (kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan mallardan başqa Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Mallann sərbəst dövriyyə üçün buraxılış gömrük rejimi altında yerləşdirilməsi şərtləri bu rejimdə mallann Azərbaycan Respublikası ərazisinə gətirilməsinin tənzimləmə vasitələrindən istifadə etmə sisteminin mürəkkəb mexanizmini nəzərdə tutur. Bu vasitələrdən isti&de edilməsi nəinki təkcə gömrük qanunvericiliyi noımalanna, həmçinin qanunvericiliyin digər sahələrinə aid normalara əsaslanır.

Müxtəlif tənzimləmə vasitələri Gömrük Məcəlləsi qəbul edilməmişdən əvvəl də tətbiq edilirdi. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra xarici ticarətin tənzimlənməsi üzrə bir sıra mühüm qərarlar qəbul edildi. Respublika Prezidentinin xarici ticarətin liberallaşdın İması barədə fərmanları və Nazirlər Kabinetinin müvafiq qərarlan bu sahədə ilkin və əsaslı qanun qüvvəli aktlar kimi idxal və ixracın tənzimlənməsi mexanizminin yaradılması üçün hüquqi baza rolunu oynadı.

Sərbəst dövriyyə üçün buraxılış gömrük rejimindən istifadə qaydasına sistemli şəkildə baxılması;

a) tarif və vergi tənzimləmə metodlannm;
b) qeyri-tarif məhdudiyyətlərinin araşdınlmasım tələb edir.

Tarif tənzimlənməsi dedikdə, xarici ticarət dövriyyəsinə qiymət faktorunun təsirindən istifadə olunmasına əsaslanan tədbirlər (metodlar) kompleksi nəzərdə tutulur. Gömrük-tarif tənzimlənməsi sistemi idxal gömrük rüsumunu və gətirilən mallann sərbəst dövriyyə üçün gömrük rejimində yerləşdirilməsinin başlıca şərti olan

digər vergiləri əhatə edir. İdxal gömrük rüsumlarının tətbiqi qaydası “Gömrük tarifi haqqında” Qanunla reqlamentləşdirilir.

Qeyri-tarif tənzimlənməsi dedikdə miqdar məhdudiyyəti, kvotalaşdırma, lisenziyalaşdırma və sertifikatlaşdırma tədbirləri nəzərdə tutulur. Müstəsna tədbirlər kimi onlar:

- milli təhlükəsizliyin təmin edilməsi;
- daxili bazardakı vəziyyəti nəzərə almaqla beynəlxalq öhdəliklərin yerinə yetirilməsi;
- milli maraqlardan irəli gələn daxili bazarın qorunmasının təmin edilməsi məqsədləri ilə qanunvericilikdə müəyyən edilmiş qaydada tətbiq edilə bilər.

### *4.2,2. Takrar idxal*

Rejimin tətbiq sahəsini araşdırmağa çalışaq. Bu rejim altında yerləşdirilən maliann kateqoriyalan rejimin tələbləri ilə məhdudlaşdırılır.

Aşağıdakı mal kateqoriyalan təkrar idxal rejimi ilə rəsmiləşdirilə bilməz:

- xarici mallar;
- Azərbaycan Respublikasının gömrük ərazisindən ixrac rejimindən başqa rejimlərin şərtləri İlə çıxanlan Azərbaycan mallan;
- ixrac rejimi şərtləri ilə çıxarılmış, lakin geriyə qaytarılması təkrar idxal üçün müəyyən edilmiş zaman hüdudlan bitdikdən sonra geriyə qaytanlan Azərbaycan mallan;
- Azərbaycan qanunvericiliyi normalan ilə idxalı və ixracı qadağan olunmuş mallar.

Təkrar idxal rejimində yerləşdirilən mallar, həmçinin, aşağıdakı tələblərə cavab verməlidir:

- bu mallar onlann ixrac müddətinə qədər mənşəyinə görə Azərbaycan mallan və ya gömrük ərazisində bütün gömrük ödənişləri ödəməklə sərbəst dövriyyəyə buraxılmış xarici mallar olmalıdır;
- çıxanidığı müddətdən 10 il ərzində Azərbaycan gömrük ərazisinə qaytanlan mallar olmalıdır. Bu zaman maliann Azərbaycan

bul edildiyi gün (bunu müəyyən etmək mümkün olmadıqda - gömrük sərhədinin keçildiyi gün) hesab edilir, mallann Azərbaycan gömrük ərazisinə gətirilməsi gün isə, gömrük orqanı tərəfindən gömrük məqsədləri üçün zəruri olan axınncı sənədin qəbul edildiyi gün hesab edilir;

- bu mallar Azərbaycan gömrük ərazisindən apanidığı anda olan halda olmalıdır, yəni mövcudluq vəziyyəti dəyişdirilməməlidir. Təkrar idxal edilən malların vəziyyəti (halı) yalmz təbii aşınma və ya normal daşınma şəraitində təbii itkilər hesabına, həmçinin mallann qorunub saxlanılması, kiçik təmiri və s. nəticəsində, lakin bu zaman həmin mallann qiymətinin çıxanima anma nisbətən artma- ması şərti ilə dəyişmiş ola bilər. İtkinin təbii olması, daşınma şəraitinə tələblər qüvvədə olan normativ aktlarla müəyyən edilir, apa- nlma və gətirilmə zamanı mallann gömrük dəyərinin müqayisəsi üçün onlann ABŞ dolları ilə ifadəsi əsas götürülür.

Qəza və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində zədələnmiş və ya digər xassələri pisləşmiş mallar da, təkrar idxal rejimində yerləşdirilə bilər. Amma bu zaman gömrük orqanının vəzifəli şəxsində həqiqiliyi və dəqiqliyi şübhə doğurmayan üsullarla bu faktı təsdiq edəcək sənədlərin təqdim edilməsi vacibdir. Eyni üsulla əvvəllər ixrac rejimi şərtləri ilə çıxarılmış və təkrar idxal gömrük rejimi altında yerləşdirilən mallann eyniliyi və onların Azərbaycan mallan olduğu müəyyən edilməli, yəni təsdiqlənməlidir.

Bu şərtlərin təsdiqlənməsinin sübutu maraqlı şəxslər tərəfindən təqdim edilməlidir.

Təkrar idxal gömrük rejimi altında yerləşdirilən mallar gömrük rəsmiləşdirilməsindən keçməlidir. Bu əməliyyatı malın altc'sının və ya struktur bölməsinin fəaliyyət zonasında yerləşdiyi gömrük orqanı həyata keçirir.

Rejimin şərtləri ilə müəyyən edilən qaydada doldurulmuş gömrük yük bəyannaməsindən başqa bəyanetmə zamanı aşağıdakı sənədlər təqdim olunmalıdır:

- təkrar idxal edilən mallann əvvəllər İxrac gömrük rejimi şərtləri ilə çıxanidığı faktını və gününü təsdiq edən gömrük yük bəyannaməsinin bir nüsxəsi;

- tələb olunduğu hallarda, əgər təkrar idxal edilən mallara digər dövlət orqanlannm nəzarəti labüddürsə, onların icazəsi;

- gömrük rəsmiləşdirilməsi üçün tələb olunan digər sənədlər.

Əgər mallar Azərbaycan Respublikasının büdudlanndan kənarda yerləşdiyi zaman, onlann mövcudluq halı dəyişilərsə, deklarant müvafiq sənəd təqdim etməlidir ki, bu da təkrar idxal olunan malların gömrük rəsmiləşdirilməsi aparılan gömrük yük bəyannaməsinin ayrılmaz tərkib hissəsi və əlavəsi olur. Bu sənəddə deklarant tərəfindən mallar və onlara aid olan sənədlər haqqında bütün əsas məlumatlar göstərilir, gömrük orqanının vəzifəli şəxsi bu mallann təkrar idxal gömrük rejimi altında yerləşdirilməsinə icazə verilməsi barədə qeydlər edir.

Mallann təkrar idxal gömrük rejimi altında gömrük rəsmiləşdirilməsinə görə ümumi qaydada gömrük yığımı tutulur.

### *4.2.3. Tranzit Rejimin tayinau. Ondan istifadə etminin hüquqi əsası*

Tranzit - beynəlxalq mal mübadiləsinin obyektiv zərurətindən doğan və ölkələrin coğrafi mövqeyi, geosiyasi ve iqtisadi münasibətləri ilə şərtlənən zəruri nəqliyyat-əlaqə kateqoriyası olub beynəlxalq ticarət qədər qədim tarixə malikdir.

Tranzitin hüquq mexanizmində nəqliyyat vasitələrinin tranzitində və mallann tranzitində meydana gələn iki növ münasibət nəzərdə tutulur.

Xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsində nəqliyyat vasitələrinin tranzitinin reqlamentləşdirilməsi özünəməxsus yer tutur, çünki nəqliyyat vasitələri beynəlxalq mal mübadiləsi sistemində aralıq təsir həlqəsidir və bir qayda olaraq xarici ticarət tənzimlənməsinin bilavasitə obyekti deyil. Bu səbəbdən Gömrük Məcəlləsinin gömrük tranzit rejiminə həsr edilmiş müddəlalan, yalnız mallara aid edilir. .

Tarixdən bəllidir ki, gömrük erazilərindən tranzitlə daşman mallar uzun müddət müxtəlif ölkələrdə vergiqoyma obyekti olmuşdur. Kom-

munikasiya və nəqliyyat vasitələrinin inkişafı, beynəlxalq yük daşımaların həcminin artması ilə gömrük tranzit rejimi yaranmağa başladı. Bu da gömrük nəzarəti altında gömrük ərazisində daşınan mallara protek- sionist tədbirlərin təsirim aradan götürməyə imkan verdi.

Araşdınlan rejimin iqtisadi xarakteri mahiyyətcə;

• beynəlxalq daşımaların inkişafı və asanlaşdmlmast (xarici aspekt),

- yüklərin işlənilməsi və daşınması xidmətləri sahəsində fəaliyyətin stimullaşdınİması (daxili aspekt) xüsusiyyətləri ilə müəyyən edilir. Bu rejimin inkişafında həm də mallann tranziti şərtlərinin tənzimlənməsi və yüngülləşdirilməsinə yönəldilmiş, onların eyni- ləşdirilməsini (unifıkasiyasım) nəzərdə tutan müxtəlif beynəlxalq - hüquqi sənədlərin hazırlanması mühüm rol oynadı. Ölkələr daxilində inkişaf etmiş nəqliyyat şəbəkəsinin olması milli (yerli) səviyyədə də tranzit daşımaların inkişafına təkan verən spesifik faktordur.

Şərh edilən rejimin əsas xüsusiyyətləri aşağıdakılardır:

- mallar Azərbaycan Respublikasının iki gömrük orqanı arasında, gömrük nəzarəti altında daşınır və bu zaman onların xarici dövlətin ərazisindən keçməsinə yol verilir (məsələn, Rusiya sərhədin- dəki Xaçmaz gömrükxanası ilə Naxçıvan Respblikasmdakı, eyni zamanda Türkiyə ilə sərhəddə yerləşən Sədərək gömrükxanası arasında tranzit xarakterik misaldır).

- tranzit gömrük rejimində malların yerdəyişmə hərəkəti gömrük rüsumlan və vergilər tutulmadan həyata keçirilir, bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

Tranzit gömrük rejiminin nizamlanma qaydalan, həmçinin, Azərbaycan Respublikasının beynəlxalq sazişləri, Nazirlər Kabi .etinin qərarları, DGK-nin normativ aktlan ilə de müəyyən edilə bilər.

DGK-nın normativ aktlan qanunvericiliyin müxtəlif normalan- nın konkret tətbiqi qaydalarını müəyyən etdiyindən və yerli gömrük orqanlannda bilavasitə rəhbər tutulduğundan rejimin tənzimlənməsində mühüm rol oynayır. Bundan başqa DGK öz

Hüquqi tənzimləmə mənbələrinin və gömrük tranzit rejiminin tətbiqi sahəsinin xarakterindən asılı olaraq onun aşağıdakı formaları seçilir:

-beynəlxalq konvensiyaların müddəaları ilə və ya beynəlxalq sazişlərin (məxsusi bu məsələyə aid olmayan) ayn-ayn müddəaları ilə istifadəsi reqlamentləşdirilən beynəlxalq tranzit.

-milli qanunvericilik əsasında həyata keçirilən tranzit. Tranzit gömrük rejiminin Gömrük Məcəlləsi ilə müəyyən edilən interpretasiyası benefisiarlann konkret kateqoriyalarının, nəqletmənin müxtəlif üsullannm spesifikasiyasının, ayn-ayn malların xüsusi xassələrinin nəzərə alınması şərti ilə rejimin tətbiqi üçün kifayət qədər çevik əsas yaratmağa imkan verir. Bu da öz növbəsində ümumi əlamətlər üzrə rejimdən istifadə formalanm təsnifatlandırmaq üçün şərait yaradır;

-xüsusi sənədlərdən istifadə edilməsi (bəyannamələr, beynəlxalq gömrük sənədlərinin vahid formaları);

-gömrük təminatlarının, zəmanətlərin şərtlərinin və həmçinin ümumi üsullarından istifadə;

-gömrük nəzarətinin həyata keçirilməsinin spesifik formalarından istifadə

*Tranzit rejimindən istifadənin*
*sahə və şərtləri*

Tranzit gömrük rejimi bu rejim altında yerləşdirilə bilən malla- nn nomenklaturasına, miqdanna və təyinatına aid olan heç bir xüsusi məhdudiyyət müəyyən etmir. Tranzit rejimində də o biri rejimlərin tətbiqində nəzərdə tutulan. Gömrük Məcəlləsinin 19-cu maddəsi ilə müəyyən edilən, gömrük sərhədindən keçirilən malların ayn-ayn kateqoriyalanna qadağan və məhdudiyyət nəzərdə tutulur. Gömrük Məcəlləsi tranzit gömrük rejimi altında yerləşdirilmiş mallann daşınma formalanndan istifadəni məhdudlaşdıran xüsusi şərtlər müəyyən etmir və eyni zamanda, əksi qanunvericilikdə nəzərdə tutulmayan hallarda yol və istiqamətlərin seçilməsində

sorbostlik verir. Bununla bərabər Gömrük Məcəlləsi malların tranzitinin məhdudlaşdırılması hallarını da nəzərdə tutur və bu xüsusiyyəti “Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlər ve onların ittifaqlarının Azərbaycan şəxslərinin mənafeyinə toxunan aynseçkilik və ya digər aksiyalarına qarşı cavab tədbiri kimi” müəyyən edir.

Təcrübədə tranzit rejiminin müəyyən edilməsinin prinsip vo şərtləri iki qrupa ayrılır ki, bunlar da aşağıdakılara aid edilir:

- rejimin benefisiarı tərəfindən qəbul edilən öhdəliklər və ya rejimdən istifadə edilməsinə icazə verilməsinə görə onun üçün müəyyən edilən şərtlərə;
- rejimin reqlamentas iy asına riayət edilməsinin təmin etmək üçün gömrük orqanları tərəfindən istifadə edilən gömrük nəzarətini həyata keçirmək vasitələrinə.

Məcəllə tranzit gömrük rejiminin tətbiq edilməsinin İcazə qaydasını müəyyən edir. Ümumi qaydaya görə rejimdən istifadə edilməsinə müraciət ve icazənin verilməsi mallar barədə bütün lazımi məlumatlan, onların daşını İmasında məqsədi və s. özündə cəmləşdirən doldurulmuş gömrük bəyannaməsinin gömrük orqanına təqdim edilməsi yolu ilə həyata keçirilir.

Gömrük bəyannaməsinin qəbul edilməsi bu halda rejimdən istifadəyə icazə kimi başa düşülür. Gömrük yük bəyannaməsinin rəsmiləşdirilməsi müəyyən edilmiş qaydada apanlır.

Malların kateqoriyasından asılı olaraq və müəyyən daşınma üsullarından istifadə zamanı YGB-dən İstifadə edilməklə aparılan gömrük rəsmi ləşdirİlməsinin ümumi qaydası tətbiq edilməyə bilər. Bəzi hallarda YGB əvəzinə digər sənəd formalarından istifadə edilməsinə yol verilir. Beynəlxalq Yük Daşımalan Konvensiyasının müddəaları əsasında daşınan mallar üzrə bu konvensiya ilə müəyyən edilmiş beynəlxalq gömrük sənədləri fonnalan - BYD kitabçaları (TİR kametləri) istifadə olunur. Məcəllənin 35-ci maddəsi malların tranzit gömrük rejimi altında yerləşdirilməsi üçün ümumi tələblər müəyyən edir. Bu tələblərə malların həmin rejimdə yerləşməsinin şərtləri kimi baxıla bilər. Şərti olaraq onları iki qrupa bölmək olar;

- matlara, daha doğrusu onlann bu rejimdə vəziyyətinə aid olan şortlor və daşıyıcıya, yaxud onun nəqliyyat vasitəsinə aid olan şərtlər. Maddənin birinci bəndinə görə tranzit rejimində daşman mallar:

• dəyişilməz halda qalmalı (təbii aşınma və təbii itkilərdən başqa);

- tranzitindən başqa digər məqsədlər üçün istifadə olunmamalı;

- göndərən, gömrük orqanının daşınmanın şərtlərindən asılı olaraq müəyyən etdiyi müddət ərzində təyinat gömrükxanasına çatdırmalıdırlar (bir ay ərzində iki min kilometr keçilməklə yuxan hədd müəyyən edilir. Hazırda DGK-nin Təlimatı ilə bu müddət Azərbaycan ərazisində iki gün müəyyən edilir).

Malların tranziti üçün "daşıyıcı" - faktiki olaraq malları keçirən şəxs və ya nəqliyyat vasitələrinin istifadəsi üçün məsul olan şəxsdir. Tranzit gömrük rejiminin xarakteri və iqtisadi məqsədləri nəzərə alındıqda, bu hal tamamilə qanunauyğundur. Digər tərəfdən, bu imkan verir ki, daşınan malın sahibinin, göndərəninin və alıcısının kim olmasından asılı olmayaraq daşıyıcıya bilavasitə be- nefısiar kimi baxılsın. Daşıyıcının belə statusunu nəzərə alaraq gömrük qanunvericiliyi bəzi əlavə tələblər irəli sürür. Belə ki, gömrük orqanlannda daşıyıcının vo ya onun nəqliyyat vasitələrinin məcəllə ilə nəzərdə tutulan şərtləri yerinə yetirilməsinə riayət olunmasına zəmanət verə bilməyəcəyi fİkri yaranarsa, mallann tranzit gömrük rejimi altında yerloşdirilməsinə icazə nəqliyyat vasitəsinin müəyyən olunmuş qaydada təchiz edilməsindən sonra verilə bilər. Bu zaman daşıyıcının çəkdiyi xərclər dövlət orqanları tərəfindən ödənilmir.

*Mallann tranzitin3 gömrük nazarəü*

Mallar tranzit daşınmasının bütün müddəti ərzində gömrük nəzarəti altında olur. Ümumi qaydaya görə (GM, l88-ci maddə) tranzit gömrük rejimi altında yerləşdirilmiş mallara gömrük nəzarəti:

- mallar Azərbaycan Respublikasına gətirildiyi zaman onların Azərbaycanın gömrük sərhədini keçdiyi andan;

- mallar Azərbaycan Respublikasından apanidığı zaman gömrük orqanı tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi andan başlayır.

Gömrük nəzarətinin bu və ya digər formasından istifadə edilməsi, tətbiq edilən tədbirlərin genişiiyi və müxtəlifliyi gömrük qanunvericiliyinə riayət edilməsinin təmin edilməsi zərurətindən və hər bir konkret halda bu məsələnin şərtlərindən asılıdır.

Gömrük nəzarətinin həyata keçirilməsinə təsir edə biləcək mühüm faktorlar kİmi aşağıdakıları göstərmək olar:

- tranzitin tipi (beynəlxalq, milli);
- nəqliyyat vasitəsinin növü (daşınma növü - dəmir yolu, avtomobil, su yolu və s.);
- malların xarakteri (növü);
- daşıyıcının statusu;
- tranzit qaydalarının pozulması imkanı (riski).

Sənədli gömrük nəzarəti başlıca olaraq malların tranzit rejimi altında yerləşdirilməsi və rejimin bitməsinin rəsmiləşdirilməsi prosesində apanlır. Məcəlləyə görə "təyinat gömrük orqanına verilməli olan sənədlər aid olduqlan mallarla birlikdə təyinat gömrük orqanına çatdırılır". Mallar barəsində məlumatlara və faktiki göstəricilərə nəzarət, bir qayda olaraq, mallara gömrük baxışı və inven- tarizasiya aparılması yolu ilə hoyata keçirilir (GM, maddə 192). Tranzit rejimi altında olan malların eyniləşdirilməsi (identifİkasiya- $ı) plomb, möhür qoyulması və digər eyniləşdirilmə işarələrinin qeyd edilməsi yolu ilə reallaşdmla bilər. Bəzi hallarda tranzit daşımanı həyata keçirən nəqliyyat vasitələri de eyniləşdirilməlidir. Belə ki, BYD konvensiyasına əsasən tranzit daşımalarını həyata keçirən avtomobillər TİR lövhosi ilə təchiz olunur. Bundan başqa gömrük orqanı tələb edə bilər ki, nəqliyyat vasitəsi tələblərə cavab verə bilən qaydada təchiz edilsin. Azərbaycan Respublikası Prezidentinin BYD kitabçası tətbiq edilməklə "Beynəlxalq Yük Daşı malan haqqında" Gömrük Konvensiyasının (əlavə olunur) Azərbaycan Respublikası ərazisində tətbiq edilməsi haqqında 31 mart 1997-ci il tarixli 527 saylı Sərəncamı ilə əlaqədar olaraq, Dövlət Gömrük Komitəsinin 8 sentyabr 1997-ci il tarixli 825 saylı Əmri ilə:

*1)* "Noqliyyat vasitələrinin (konteynerlərin) gömrük möhürləri və plombları ilə yük daşımalarına buraxılması qaydaları haqqında "Təlimat";

*2)* gömrük möhürləri və plombları ilə yüklərin daşınmasından ötrü nəqliyyat vasitələrinin (konteynerlərin) təchizatı Qaydaları təsdiq edilmişdir (əlavə olunur).

*Tranzit rejiminin bitməsi*

Tranzit gömrük rejimi mallann və nəqliyyat vasitələrinin (və onların sənədlərinin) müəyyən edilmiş müddətdə təyinat gömrükxanasma çatdırıldıqdan və müvafiq gömrük əməliyyatları apanldıqdan sonra başa çatmış hesab edilir. Tranzit rejimi bitdikdən sonra mallar öz ilkin məqsədlərindən asılı olaraq, ya Azərbaycan Respublikasının gömrük ərazisindən kənara çıxarılmalı, yaxud da digər gömrük rejimi altında yerləşdirilməlidir.

Malların tranzitinə görə məsuliyyət daşıyıcının üzərinə qoyulur. Əgər tranzit zamanı mallar:

- gömrük orqanının icazəsi olmadan kiməsə verilmişsə;
- tranzit daşınması zamanı itirilmişsə;
- təyinat gömrükxanasına çatdırılmamışsa, daşıyıcı sərbəst dövriyyəyə buraxılma və ya idxal gömrük rejimi altında rəsmiləşdirilən mallar üçün nəzərdə tutulmuş məbləğdə gömrük ödəncləri ödəməlidir.

Daşıyıcı o zaman bu ödəncləri ödəməkdən azad edilə bilər ki, malların tamamilə itirilməsi vo ya əksikliyi: qəza və ya qarşısıalınmaz qüvvə sayəsində, mallann normal daşınma və saxlanma şərtləri altında təbii aşınma və ya itkisi, xarici dövlətin orqan və ya vəzifəli şəxslərinin mövcud yerli qanunvericiliklə təfsir edilən qeyri-qanuni hərəkətləri nəticəsində baş vermiş olsun.

*4.2,4. Gömrük anbarı*
*Gömrük anbarı anlayışı*

Gömrük anbarı - gətirilən mallann gömrük nəzarəti altında gömrük rüsum və vergiləri (ƏDV, aksiz) tutulmadan saxlanmasını

nozərdə tutan gömhik rejimidir. Saxlanma müddətində mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

Gömrük anbarı rejiminin tətbiqi - gömrük anbarı haqqında Əsasnamə və gömrük anbarlarının təsis edilməsi qaydalan hazırlanmaqla həyata keçirilir.

Digər ölkələrin gömrük işi təcrübəsi göstərir ki, dövlətlər gömrük anbarları yaradılması işinə faydalı bir sahə kimi baxmışlar, çünki digər mənfəətlərlə yanaşı, bu iş dövlət ərazisində mal ehtiyatlarının yaradılması məsələsində mühüm rol oynayır. Bu daİmi ehtiyatın yaranması dövlət üçün əlavə xərclər tələb etmir, bununla belə sosial, iqtisadi və siyasi çətinliklər (müharibə, qıtlıq, iqtisadi kri- zis, embarqo və s.) dövründə xüsusilə vacibdir.

Gömrük anbarlaşdmlması rejiminin təsiri inzibati fıksiyaya əsaslanır və hesab edilir ki, gömrük anbarına yerləşdirilmiş mallar milli ərazidən (gömrük, vergi) kənarda qalır.

Diqqət etmək lazımdır ki, gömrük anbarı və gömrük anban rejimi (anbarlaşdmlması) anlayışları qarışdırılmasın.

Gömrük anbarı - müəyyən gömrük rejimi altında və müəyyənləşdirilmiş qaydada malların yığılmasına imkan verən yerdir. Hərçənd ki, çox zaman bu, elə gömrük anbarlaşdınİması rejiminin özü olur. Bununla belə, bəzi hallarda bu cür anbarda başqa gömrük rejimləri altında yerləşdirilmiş mallar və ümumiyyətlə gömrük rejimi tətbiq edilməyən mallar da saxlana bilər (məsələn, gömrük orqanları tərəfindən təsis edilmiş anbarlarda xarici ticarət obyekti olmayan mallar saxlamla bilər).

*Gömrük anbarlaşdtrdmasınm*
*iqtisadi faydası*

Sahibkarlıq və xarici ticarət fəaliyyəti üçün gömrük anbarının əhəmiyyəti ondadır ki, bir tərəfdən bu rejimdə yerləşdirilmiş mallar tamamilə gömrük və vergi tənzimləmələrinin təsiri altma düşmüş olur, digər tərəfdən xüsusi gömrük əməliyyatları ılə gömrük rüsumunun tutulması və y? qeyri-tarif tənzimlənməsi tədbirləri

(kvotalaşdırma, lisenziyalaşdırma, xüsusi icazələr) yalnız konkret sövdələşmə faktı üzrə mümkün olur. Xarici ticarət təcrübəsində bəzi hallarda malların idxalı anında hələ məlum olmur ki, gətirilən mallarla necə rəftar ediləcəkdir. Malların gömrük anbarına yerləşdirilməsi xarici ticarət əməliyyatlarının aparılmasını asanlaşdınr. Çünki kommersanta imkan verir ki, uyğun mal bazan konyukturası ilə digər faktorlar arasında seçim imkanı əldə etməklə, xarici malın sərhəddən kənara göndərilməsi və ya milli bazarda satılması şərtlərini araşdırsın.

Gömrük anbarı rejimindən istifadə edilməsi imkan verir ki, xarici bazardakı təklif daha çox mənfəət vəd etdiyi zaman irihəcmli alqı (tədarük) əməliyyatı aparıtsın, xarici bazarlarda satışı isə, tələbatın yüksək olduğu zaman həyata keçirilsin. Bu mənfəət - qanunvericiliyin malın son təyinatını müəyyən etmək üçün sahibkara qərar qəbul etməyə imkan verən möhlət ilə müəyyən edilir.

Gömrük anbar rejiminin həm idxalatçt, həm də ixracatçı üçün Öz üstünlükləri var. İxrac zamanı mal sahibi malın ölkədən çıxanima- sı ilə əlaqədar olan gömrük əməliyyatlarını, xarici bazann tələbatı vo nəqliyyat vasitələri imkanı nəzərə almaqla, qabaqcadan aparmaq imkanı ətdə edir.

İdxal zamanı gömrük anbarlaşdırılması rejimİ mal sahibinə imkan verir ki, mal sahibi İri partiyalar gətirərkən gömrük Ödənclərinin tam həcmdə birdəfəlik verilməsindən azad ola bilsin. Bu rejimdə gətirilmiş mallar üçün gömrük ödənclərinin nəzərdə tutulmaması imkan verir ki, sahibkar, az müddətdə satışa zəmanət olmadan, bəzi hallarda kifayət qədər böyük məbləğdə vəsaiti (gömrük rüsum və yığımları üçün) dondurulmuş vəziyyətdə saxlamaqdan

*Gömrük anbarlarının növhri*

Gömrük anbarı Dövlət Gömrük Komitəsindən lisenziya alınmaqla təsis edilə bilər. Əgər gömrük anbarının təsisçisi gömrük or- qanıdırsa, lisenziya tələb olunmur. Anbann təsisçisindən və təsis məqsədindən asılı olaraq gömrük anbarları açıq və qapalı tipli ola bilərlər.

**Azərbaycan Respublikası gömı-ük orqanları tərəfindən təsis edilən gömrük anbarları açıq tipli gömrük anbarlarıdır.**

Gömrükxananın fəaliyyət zonasında yerləşən gömrük anbarları həmin gömrükxananın struktur bölməsi hesab edilir.

Azərbaycan Respublikasının gömrük orqanlan ve ya Azərbaycan vətəndaşian gömrük anbarlannın sahibi ola bilərlər.

Qapalı gömrük anbarlan - təşkilatlar, müəssisələr, digər hüquqi şəxslər, hüquqi şəxs statusu olmayan birliklər, fərdi, ailəvi müəssisələr, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təsis edilə bilər.

Xidmət edilən müştərilərin dairəsindən asılı olaraq gömrük anbarlan açıq və ya qapalı tipli olur (GM, maddə 42).

Açıq tipli gömrük anban istənilən şəxslərin istifadəsi üçün İmkan yaradır.

Qapalı tipli gömrük anbarları yalnız müəyyən şəxslərin mallarının saxlanılması üçün nəzərdə tutulur. Belə anbarlar:

1) bilavasitə peşə fəalİ3fyəti üçün nəzərdə tutulmuş, malların saxlanılmasında ixtisaslaşmış şəxslər;

2) öz matlarının saxlanılması, əgər təsisçi eyni zamanda gömrük daşıyıcısı isə - daşman mallann saxlanılması üçün müraciət etmiş şəxslər;

3) anbar sahibinin müəyyən etdiyi üçüncü şəxslərin mallarının saxlanılmasım təşkil etmək istəyən şəxslər tərəfindən - müəyyən edilmiş qaydada təsis edilə bilər.

Anbarın sahibi qapalı tipli gömrük anban təsis edilməsinin məqsədə uyğunluğunu əsaslandırmalıdır.

Gömrük orqanlarının razılığını aldığı təqdirdə, anbarın sahibi - gömrük anbarlaşdınlması rejimi altında saxlanılması nəzərdə tutulan mallann siyahısını müəyyən edir və tələb olunduqda gömrük orqanının müəyyən etdiyi həcmdə bank zəmanəti təqdim edir.

### *4.2.5. Rüsumsnz ticarat mağazası rejiminin xususiyyatİari*

Bu rejimin istifadə edilməsi imkan verir ki, xarici malların ölkənin gömrük ərazisində, gömrük nəzarəti altında, gömrük vergiləri və iqtisadi siyasət tədbirləri tətbiq edilməmək şərti ilə satışı təşkil edilsin. (GM, 5I-ci maddə). Rüsumsuz ticarətin spesifikası o biri rejimlərlə müqayisədə aşkarlanır. Rüsumsuz ticarət mağazası rejimi gömrük anbarı rejimindən ilk növbədə onunla fərqlənir ki, bu rejimdə məqsəd maltann müəyyən müddət ərzində saxlanması deyil, onlann tezliklə satılmasıdır. Xarici mallann Azərbaycan Respublikasının gömrük ərazisində, gömrük ödəncləri ödənmədən və iqtisadi siyasət tədbirləri tətbiq etmədən satılması halı rüsumsuz ti- cafvƏt mağazası rejimini idxal gömrük rejimindən fərqləndirən başlıca xüsusiyyətdir. Potensial alıcıları belə mağazalara cəlb edən əsas şərt gömrük vergilərini malın satış qiymətinə əlavə edilməməsidir. Gömrük vergiləri xarici malların qiymətini yerli mallara nisbətən nozorə çarpacaq dərəcədə yüksəldir, xüsusilə də aksizlə- rin tətbiq edilməsi daxili bazarda onlann rəqabət qabiliyyətini azaltmış olur.

Rüsumsuz ticarət mağazasının obyekti kimi bom xarici mallar, həm də yerli mallar ola bilər. Hər iki tip mallar Azərbaycan gömrük ərazisini tərk edən fiziki şəxslər üçün nəzərdə tutulmuşlar. Beləliklə, rüsumsuz ticarət mağazasından alınmış malların Azərbaycan gömrük ərazisindən kənara aparılması bu gömrük rejiminin başlıca şərtidir. Bu şərtə riayət edilməsinə nəzarət məqsədi ilə belə mağazanın işçiləri malların alınması barədə müştərilərin gediş- gəliş sənədlərində qeydlər apara bilərlər. Bu cür qeydlərin fonna- sı gömrük orqanları ilə razılaşdırılmaqla mağazanın sahibi tərəfindən müəyyən edilir.

Bu rejim üzrə gömrük orqanlannın fəaliyyəti gömrük nəzarətinin iki istiqamətini nəzərdə tutur:

a) ticarət prosesində gömrük qanunvericiliyinə riayət edilməsinə nəzarət;

b) rüsumsuz ticarət mağazasından alınmış malların faktiki olaraq apan İmasına nəzarət.

Bir qayda olaraq rüsumsuz ticarət mağazaları xaricə gedən sərnişinlər üçün nəzərdə tutulan gözləmə zallarında, beynəlxalq sərnişin daşınması üçün açıq olan hava və dəniz limanlanndakı tranzit sərnişinlər üçün zallarda, fiziki şəxslərin dövlət sərhədini keçdiyi buraxılış məntəqələrində yaradılır. Ticarət zalları gömrük nəzarəti xəttinin arxasında, yəni fiziki şəxslər Azərbaycan gömrük sərhədini keçərkən malların gömrük rəsmiləşdirilməsi aparılan yerlərin hüdudlarından kənarda yerləşməlidir. Eyni zamanda ticarət zallarının yerloşdirilmo prinsipi Azərbaycan ərazisinə gələn şəxslərin daxil olması imkanını istisna etməlidir.

Ticarət zallarının, köməkçi otaqları və mağazanın anbarının quruluşu malların gömrük nəzarətindən kənar gətorilmosino və aparılmasına imkan verməməli, kənar şəxslərin daxil olma imkanını istisna etməlidir. Gömrük orqanı - onun fəaliyyət zonasında yerləşən rüsumsuz ticarət mağazasının quruluşuna, avadanlığına və bölmələrinin yerinə görə konkret tələblər müəyyən edə bilər.

Rüsumsuz ticarət mağazası gömrük rejimi altında yerləşdirilən malİann gömrük rəsmiləşdirilməsi icraatının yeri, yalnız mağazanın anbarı ola bilər. Bu anbara mallar gömrük orqanının vəzifəli şəxsinin iştirakı və ya icazəsi ilə yerləşdirilə bilər. Malların rüsumsuz ticarət mağazası gömrük rejimi altında yerloşdirilməsinə görə müvafiq gömrük yığımı tutulur.

### *4.2.6. Gömrük arazisinda malların emalı*

Mallar, beynəlxalq mübadilə obyekti olduğundan, bəzən xarici ticarət əməliyyatının bitməsindən əvvəl, ya da sonra müəyyən işlənmə (emal) tələb edir. Bu zaman bir sıra səbəblər üzündən (iqtisadi, texnoloji və s.) istehsal və ya sənaye xarakterli belə əməliyyatlar bir dövlətin gömrük ərazisində həyata keçirilə bilmir. Məhz bu məqsədlər üçün “emal rejimləri” nəzərdə tutulur. Bu rejimlər çərçivəsində xüsusi hüquqi mexanizmin tətbiq edilməsi imkan verir ki:

-gömrük tənzimlənməsinin adi vasitə və tədbirləri tətbiq edilmədən xarici mallar gətirilsin və emal edilsin;

-Azərbaycan mallan respublikanın gömrük ərazisindən emal məqsədi ilo çıxarılsın və dəyişilmiş (emal edilmiş) halda geriyə gətirilsin;

-xarici mallar Azərbaycanın gömrük ərazisinə gətirilsin, emal (yenidən emal) edilsin və emal məhsulları geriyə qaytarılsın və ya Azərbaycan ərazisində istifadə edilmək üçün saxlanılsın.

Gömrük Məcəlləsi malların emalı üzrə əməliyyatlann keçirilmə qaydalarına xaric i-iqtisadi fəaliyyətin gömrük-hüquqi tənzimləmə sisteminin nisbətən müstəqil elementi kimi baxır. Məcəllə bunun üçün üç növ gömrük rejimi müəyyən edir:

- gömrük ərazisində malların emalı;
- gömrük nəzarəti altında malların emalı;
- gömrük ərazisindən kənarda malların emalı.

Xarici ölkələrin, xüsusən Avropa Birliyinin qanunvericiliyində həmçinin, beynəlxalq gömrük sazişlərində (məsələn, gömrük rejimlərinin tətbiq edilməsi qaydalannm uniükasiyası və harmoniza-siyası məsololərinə həsr edilmiş Kyoto Konvensiyası) malların emalı üzrə aparılan əməliyyatların yeri və emal edilən malların mənşə ölkəsindən asılı olaraq, emal rejimləri, adətən, iki tipə ayrılır - aktiv və passiv emal tipləri. Birinci tip xarici malların milli gömrük orazisihdə istifadə olunmasına imkan verən halları, ikincisi - milli malların dövlətin gömrük ərazisindən kənarda istifadəsini nəzərdə tutan hallar.

Gömrük Məcəllosi ilə müəyyən edilən rejimlərdən birinci tipə (aktiv emal) gömrük ərazisində malların emalı və gömrük nəzarəti altında malların emalı rejimləri aid edilir; ikinciyə passiv emal - gömrük ərazisindən kənarda malların emalı rejimi aid edilir.

Gömrük Məcəlləsi ilə müəyyən edilən emal rejimlərinin reqlamentləşdir! İməsinin mühüm elementi, ontann benefisiarlanna yönəlmiş tələblərdir. Bu rejimlərin tətbiq spesifikasını və qüvvədə olan normativ-hüquqi bazanın əsaslarını nəzərə alaraq, qeyd etmək lazımdır ki, “benefisiar” anlayışı bu halda kifayət qədər şərti xarakter daşıyır. Bu məfhumla emal üçün icazə (lisenziya) almış şəxslər

vo həmçinin mallann emalında maraqlı olan. Ölkəyə gətirilən və çıxarılan mallann, məhsulların ve s. sahibləri başa düşülür. Bu rejimlər üzrə benefısiar statusunun alınmasını şərtləndirən əsas tələblər benefisiann birincisi, Azərbaycan vətəndaşı olması, ikincisi müəyyən edilmiş qaydada Azərbaycan Respublikasmm gömrük ərazisində qeydiyyatdan keçməsidir.

*Gömrük araıisinäa mallann emalı rejiminin məzmunu və istifadə edilməsinin hüquqi əsası*

Gömrük Məcəlləsinə görə gömrük ərazisində mallann emalı gömrük rejimində xarici mallar, Azərbaycan Respublikasının gömrük ərazisində müəyyən edilmiş qaydada emal üçün və emal məhsullarının ixrac gömrük rejiminin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması şərti ilə istifadə olunur. Xarici malların idxalı (gətirilməsi) zamanı ödənilmiş gömrük rüsum və vergiləri, həmin mallann emalından alınmış məhsullar gömrük ərazisindən çıxarılarkən, geri qaytanl- malıdır. Deməli, hesablaşmalar faktiki olaraq rejimin fəaliyyəti bitdikdən və emal məhsulları ixrac rejimi ilə müəyyən edilən qaydada çıxan Idıqdan sonra başa çatmış olur. Bundan başqa gömrük ərazisində mallann emalı rejiminin reqlamentasiyası ilə xarici mallann və ya onlann emal məhsullarının geriyə aparılması benefisiann bilavasitə vəzifəsi kimi müəyyən edilməmişdir, yəni mallar geriyə aparılmaya da bilər. Beləliklə, vergi güzəştlərinin əldə edilməsi - imkanı rejimin reqlamentasiyasına əməl edilməyə zəmanət kimİ çıxış edir və nəticədə mallann geriyə apanimasına təhrik edir.

*Rejimin istifadə sahəsi*

Rejimin istifadə sahəsi dedikdə onun reqlamentasiyasının iki mühüm aspekti nəzərdə tutulur: rejim çərçivəsində yerinə yetirilə biləcək əməliyyatlar və rejimdə istifadəsi nəzərdə tutulan mallar, daha doğrusu bu rejim altında yerləşdirilməsinə icazə verilən mallar.

Emal rejimlorinin iqtisadi xarakterini vo lobii ki, onlann istifadəsi zamant əlverişsiz iqtisadi nəticələr verə biləcəyini nəzərə almaqla, onların tətbiq sahəsinə qanunvericiliklə müəyyən edilən bəzi məhdudiyyətlər qoyulur. Bu məsələ xüsusilə aşağıdakı neqativ amillərlə şərtlənir;

• təbii ehtiyatlann çıxarılması sənayesinin inkişafı zərərinə xarici xammalın ölkəyə gətirilməsi;

- rejimin benefısiarlan üçün ümumi əsaslarla fəaliyyət göstərən analoji və ya oxşar malların istehsalçıları ilə müqayisədə, özünü doğrultmayan daha güzəştli şəraitin yaradılması;

- ölkə daxilində yüksək texnologiyalı istehsal sahələrinin inkişaf etdirilməsi və onlann məhsullarının ixracı əvəzinə tez başagələn, xammal vo yanmfabrikatların istehsalına istiqamətlənmiş “yanm-sənayelorin” genişlənməsi.

Gömrük Məcəlləsi ilə müəyyən edİlən hər üç emal gömrük rejimi çərçivəsində aşağıdakı əməliyyatların aparılmasına icazə verilir;

- quraşdırılma, yığılma vo başqa mallara uyğunlaşdırılma da daxil olmaqla malın hazırlanması (düzəldilməsi);

- malın emalı və təkrar emalı;

- borpa olunma vo qaydaya salınma da daxıl olmaqla malın təmiri;

- emal məhsullarının istehsalına xidmət edən və ya istehsalı asanlaşdıran bəzi mallardan tamamilə və ya qismən istifadə edilməsi.

Ümumi qaydaya gÖrə, gömrük ərazisində mallann emalı rejimi altında yerləşdirilməsi qadağan edilən mallara, digər gömrük rejimlərində olduğu kimi, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qadağan olunan mallar aid edilir.

Məcəllə emal rejimlərindən istifadə edilməsinin mümkün müddətini təyin etmo prinsipini aydınlaşdınr: müddətin müəyyən edilməsi, malların emal prosesinin iqtisadi cəhətdən özünü doğrulda bilən davamiyyətinə, həmçinin, xarici malların emal məhsullan üzərində sərəncam verməyə əsaslanmalıdır.

Ümumi qaydaya rejimdən istifadənin məqsədləri əldə edildikdə və qanunvericilikdə müəyyən edilmiş bütün tələb və şərtlər yerinə yetirildiyi təqdirdə, gömrük ərazisində malların emalı gömrük reji-

mi kompensasiya mallarının çıxarılmasının (İxracının) və ya digər gömrük rejimi altında yerləşdihimosinin gömrük rəsmiləşdirilmesindən sonra, bitmiş olur. Əgər emal üçün gətirilən mallar və ya kompensasiya mallan Azərbaycan Respublikasının gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılırsa, onlar gömrük rüsum və vergilərinə cəlb edilirlər.

### *4.2,7, Gömrük nazarsH alttnda malların emalu Rejimin məzmunu və istifadəsinin hüquqi əsaslan*

Gömrük nəzarəti altında malların emalı gömrük rejimi - xarici mallann - müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının gömrük ərazisində, onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən istifadə edilməsi imkanını nəzərdə tutur. Gömrük ərazisində malların emalı rejimindən fərqli olaraq bu halda:

- gətirilən mallardan gömrük rüsum və vergiləri tutulmur;
- gətirilən mallann emalı gömrük nəzarəti altında məhsullann sonradan sərbəst dövriyyəyə buraxılma və ya digər gömrük rejimləri altında yerləşdirilməsi şərti ilə həyata keçirilir.

Gömrük nəzarəti altında malların emalı rejimi də gömrük ərazisində mallann emalı rejimi kimi xarici mallann emal məqsədi ilə milli gömrük ərazisinə müvəqqəti buraxılmasını nəzərdə tutan aktiv emal tipinə aiddir.

Gömrük ərazisində mallann emalı rejimində ödənmə (qaytanlma) prinsipindən İstifadə edilir: xarici mallar gətirilərkən ödənmiş gömrük rüsum və vergiləri, emal mohsullan çıxanlarkən qaytanlraa^dır.

Gömrük nəzarəti altında mallann emalı rejiminin tətbiq edilməsinin əsasında azadetmə prinsipi durur, çünkİ bu halda xarici mallar emal üçün gətirilərkən gömrük rüsum və vergiləri tutulmur.

Gömrük ərazisində mallann emalı rejimi tutulmuş gömrük rüsum və vergilərinin qaytanlmasını rejimin fəaliyyəti bitdikdən və emal məhsullarının ixrac rejimi üzrə çıxanimasından sonra nəzərdə tutduğu halda, gömrük nəzarəti altında mallann emalı rejimi

vergi güzoştlərinin xarici maUann bu rejim altında yerləşdirilməsi ilə eyni vaxta verilməsini nəzərdə tutur. Bunun əvəzində isə gömrük nəzarəti altında emal rejimi müəyyən edir ki, gömrük orqanları rejimin benefisiarı tərəfindən qanunvericiliyə riayət edilməsini təmin etmək məqsədi İlə: malların gömrük müayinəsini və uçotunu həyata keçirə, eyniləşdirilmə vasitələrindən istifadə edə, inven- tarizasiya apara, emal üzrə əməliyyatların konkret şərtlərini və onların aparılma qaydasını müəyyən edə bilərlər.

*Rejimin istifadə sahəsi*
*və icazə verilməsi şərtləri*

Gömrük nəzarəti altında malların emalı gömrük rejiminin istifadə sahəsi, yəni malların bu rejim altında yerləşdirilə bilməsi üçün aparılan əməliyyatların siyahısı - faktiki olaraq gömrük ərazisində malların emalı gömrük rejiminin müəyyən etdiyi əməliyyatlarla eynidir. Bundan başqa hər iki emal gömrük rejimi - onların tətbiqinin çox hallarda ümumi hüquqi əsasına malikdirlər. Bu oxşarlığı onların reqlamentasiyasının aşağıdakı şərtləri müəyyən edir;

- bu rejimlərdə malların emalına lisenziyanın alınması;
- verilmiş lisenziyanın ləğv edilməsi və ya geri alınması;
- rejimə icazə verilməsində və bitməsində gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin həyata keçirilməsinin ümumi qaydası;
- rejimlərin benefisiarlarına tələblər;
- bu rejimlər altında yerləşdirilmiş mallar üzərində sərəncam verilməsi;
- iTiailann emal müddətlərinin müəyyən edilməsi və uzadılması qaydalan;
- kompensasiya mallarının məcburi hasilat miqdanmn müəyyənləşdirilməsi qaydaları;
- bu rejimlər altında yerləşdirilmiş malların və onların emal məhsullannm itirilməsi hallarında məsuliyyətdən azad edilməsi şərtləri.

Gömrük Məcəlləsində gömrük nəzarəti altında mallann emalı rejiminin istifadə sahələrinə aid olan xüsusi məhdudiyyətlərə yol

verilməsi nəzərdə tutulur. Bu rejimdən "İqtisadi siyasət tədbirlərinə riayət edilməsindən və malların mənşə ölkəsinin müəyyənləşdirilməsi qaydalarından yayınma üçün istifadə oluna bilməz". Eyni zamanda DGK bu rejimin tətbiq edilməsinə yol verilinəsi hallarmı müəyyən edir.

Gömrük təcrübəsi göstərir ki, aşağıdakı şərtlər daxilində bu rejimə icazə verilməsi məqbul hesab edilə bilər;

1)mallar, emal üçün, bilavasitə emal üzrə əməliyyatları aparan müəssisə tərəfindən gətirilir;

2)malları emal üçün gətirən müəssisə hüquqi şəxs statusuna malikdir;

3)emal əməliyyatlan müəssisənin adi texnoloji proseslərinə uyğun apanlır;

4)müəssisə gömrük orqanına malların emal üçün gətirilmə vo emal məhsullarının çıxarılma qrafik ini təqdim edir. Qrafikdə malların gətirilmə və aparılma tarixi, miqdarı və dəyəri göstərilməlidir;

5) müəssisə gömrük nəzarəti altında emal rejimində yerləşdirilmiş mallann uçotunu aparır vo dövrİ olaraq, lakin ayda bir dəfədən az olmayaraq, mallar haqqında emala lisenziya venniş orqana, bu orqan tərəfindən müəyyən edilmiş fornıa və müddətlərdə hesabat təqdim edir. Uçot və hesabat sənədlərində malların adı, miqdarı, emal əməliyyatlan, hesabat gününə mallann emal mərhələləri, emal məhsullarının adı vo miqdan barədə məlumatlar və nəzarətin həyata keçirilməsi üçün gömrük orqanlarına lazım olan digər məlumatlar öz əksini tapmalıdır;

6)gömrük orqanlannın vəzifəli şəxsləri mallann emalı və saxlanması proseslərinə faktiki (vizual və sənədli) nəzarət etmək üçün real imkana malik olmalıdırlar;

7) emal üçün gətirilən mallar aksizli mallar olmalıdır;

8) emal üçün gətirilən malların vergiqoyma səviyyəsi onlann 100%-İi dəyərindən artıq olmamalıdır;

9) emal müddəti 6 aydan çox olmamalıdır;

10)müəssisə gömrük orqanlanna emal məhsullarmm ixrac gömrük rejiminə uyğun olaraq gerİ apanlacağı barədə öhdəlik təqdim etməlidir.

Emal üçün gotirilmiş xarici mallar vo ya onların emal məhsxılla-n gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılırsa, onlar idxal gömrük rüsum və vergilərinə cəlb edilir.

Gömrük nəzarəti altında malların emalı gömrük rejimi bitdikdə və emal məhsulları milli gömrük ərazisində sərbəst dövriyyəyə buraxıldıqda, onların dövlət standartları ilə müəyyən edilmiş təhlükəsizlik tələblərinə cavab verdiyi müəyyən edilmiş qaydada təsdiq edilməlidir.

*4.2.8. Müvəqqati idxal (İxrac) rejimin iqtisadi mazmunu*

Müvəqqəti idxal (ixrac) rejimi elə tələblər müəyyən edir ki, onlara riayət edilməsi xarici malların Azərbaycan gömrük ərazisində, Azərbaycan mallarının isə ondan kənarda müvəqqəti istifadəsinə, iqtisadi siyasət tədbirləri tətbiq etmədən və gömrük rüsum və vergiləri ödəmədən yol verilmiş olsun.

Müvəqqəti idxalın (ixracın) müstəqil gömrük rejimi kimi əhəmiyyəti beynəlxalq əməkdaşlığın ticarət və digər formalarının inkişafina olan tələblərlə müəyyən edilir.

Bu gömrük rejimİ altında yerləşdirilmiş malların statusu və eləcə do rejimin məzmunu, malların gömrük ərazisində və kənarda yerləşməsi və istifadəsinin müvəqqəti xarakteri ilə müəyyən edilir. Həmçinin müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsum və vergilərindən tamamilə və ya qismən azad edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu hal təbii olaraq baxılan rejimin tətbiq edilməsi sahəsinə müəyyən sərhədlər qoyulmasını tələb edir. Elə sərhədlər ki, onlardan kənarda rejimin tətbiqi ölkə iqtisadiyyatı üçün monfı nəticələrə gətirib çıxara bilər. Belə ki, xarici malların gömrük ərazisinə, hətta zamanla məhdudlaşdırılmış buraxılışı, məsələn, emal əməliyyatlannda istehsal vasitəsi və ya komplektləşdiri- ci kimi istifadə edilməsi - istehsalçıİann mənafeyinə zərbə vuraraq iqtisadiyyat daxili konyunkturaya hiss olunacaq dərəcədə təsir göstərə bilər.

Belə əməliyyatlann aparılması qanunvericiliklə qadağan olunmur. Lakin onlar, bu iş üçün məxsusi müəyyən edilmiş rejimlər - aktiv emal rejimləri çərçivəsində nəzərdə tutulur.

Müvəqqəti İdxal (ixrac) rejiminin tətbiqi müəyyən güzəştlər verməklə, xarici ölkələrlə iqtisadi, mədəni, humanitar əlaqələrin inkişafı üçün əsaslandırılmamış əngəlləri aradan qaldırmağa imkan verir. Eyni zamanda milli iqtisadiyyatın müdafiəsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi mosolələri bu rejimdən istifadə edilməsinin dəqiq hüquqi qəliblərinin müəyyən edilməsini tələb edir.

### *Muv9qq3ti idxal (ixrac) gömrük rejiminin hüquqi reqiamentasiyası*

Gömrük Məcəlləsinin müddəaları şərh edilən gömrük rejiminin hüquqi tənzimlənməsinin əsasım təşkil edir.

Müvəqqəti idxal (ixrac) rejiminin daha müfəssəl reqlamentasiyası üçün qanun qüvvəli digər aktlar da qəbul edilməlidir.

Nazirlər Kabineti;

1) müvəqqəti idxalına (ixracına) icazə verilməyən mallann kateqoriyalarını;

2) müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsumları və vergilərinin ödənilməsindən tamamilə və ya qismən azad edilməsi qaydalarını müəyyən edir.

Dövlət Gömrük Komitəsi bu rejim üzrə aşağıdakı səlahiyyətləri yerinə yetirir:

- geri aparılma barədə öhdəliklər verilməsi və gömrük ödənclərinİn ödənilməsinin təmin edilməsi hallarını müəyyən edir;
- müvəqqəti idxal (ixrac) əməliyyat!anna icazə verilməsi qaydalarını müəyyən edir;
- bezi kateqoriyalı mallar üçün müvəqqəti idxalın (ixracın) hüdud müddətlərini dəyişdirir.

*Müvəqqəti idxalın (ixracın) müddatləri*

Gömrük Mocəllesinə görə müvəqqəti idxalın (ixracın) müddəti iki ildən artıq olmamalıdır (maddə 70). Gömrük orqanları malların bu gömrük rejimi altında yerləşdirilməsinə icazə verərkən, konkret müddət müəyyən edir. Bu müddət ərzində mallar onların daşınsmasında məqsədləri və şəraiti nəzərə alınmaqla, müvəqqəti otaraq gömrük ərazisində (və ya ondan kənarda) qala bilərlər. Bununla birlikdə məcəllədə müvəqqəti idxal (ixrac) üçün müddətin uzadılması İmkanı nəzərdə tutulur. Müddətin uzadılması qaydası Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən olunur.

DGK ayrı-ayrı mal kateqoriyaları üçün daha az və daha çox müddət müəyyən edə bilər.

Gömrük Məcəlləsi müvəqqəti idxal (ixrac) rejiminin iki tipini müəyyən edir: gömrük rüsum və vergilərindən tam azad edilməklə və qismən azad edilməklə tətbiq edilən gömrük rejimi.

İqtisadiyyat nöqteyi-nəzərindən baxıldıqda, müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsum və vergilərindən tam azad edilməsi, bəzi hallarda belə mallardan istifadə edənlər üçün analoji mallardan ümumi əsaslarla istifadə edən şəxslərlə müqayisədə, əsassız olaraq, daha güzəştli şərait yaradır. Belə ziddiyyətlərin, baxılan gömrük rejiminin tətbiq sahəsim məhdudlaşdırmadan, aradan qaldırılması üçün qanunvericilikdə gömrük rüsum və vergilərindən qismən azad edilməklə müvəqqəti idxal (ixrac) rejimindən istifadə edilməsi nəzərdə tutulmuşdur.

Müvəqqəti idxal (ixrac) rejiminin bu tipi aşağıdakı hallarda tətbiq edilir:

- müvəqqəti idxal (ixrac) edilən mallara gömrük rüsum və vergilərindən tam azad etmə tətbiq oluna bilmədikdə;
- müvəqqəti idxal (ixrac) gömrük rejiminin benefisian tərəfindən gömrük rüsum və vergilərindən tam azad edilmənin şərtlərinə riayət edilmədikdə;
- gömrük rüsum və vergilərindən tam azad edilməklə müvəqqəti idxal rejiminin müəyyən edilmiş müddət həddinin uzadılması barədə məsələ qaldırıldıqda;

-başqa əsaslarla müvəqqəti idxal (İxrac) rejimində yerləşdirilmiş mallar üçün verilmiş, gömrük rüsum və vergilərindən azad edilmə kimi güzəştlərin təsir müddəti bitdikdə.

Gömrük rüsum və vergilərindən qismən azad edilməni nəzərdə tutan ikinci tip müvəqqəti idxal (ixrac) gömrük rejimi milli iqtisadiyyatın maraqlarının qorunması üçün müəyyən təminatlar yaratmağa İmkan verir. O, həmçinin rejimdən istifadənin Özünəməxsus iqtisadi məhdudiyyətlərini müəyyən edir. Belə ki, bu halda gömrük vergiqoyma həcmi malların gömrük ərazisində (ondan kənarda) müvəqqəti istifadə müddətinin davamiyyəti İlə mütənasibdir.

Müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsum və vergilərindən qismən azad edilməsinin mexanizmi aşağıdakıları nəzərdə tutur:

-hər ay (natamam ay) ümumi məbləğin, yəni, əgər müvəqqəti idxal rejimi ilə rəsmiləşdirilmiş mal sərbəst dövriyyə üçün buraxılma gömrük rejimi altında yerləşdirildiyi zaman olsaydı, benefısia- nn ödəməli olduğu gömrük rüsum və vergilərinin yekun miqdarının 3 faizi qədər (dövri ödənc) ödənilir;

-göstərilən məbləğ idxal (ixrac) gününə qüvvədə olan vergi-qoyma stavkalanna əsasən müəyyən edilir;

-müəyyən edilmiş gömrük ödəncləri ödənc gününə olan kursa görə ABŞ dolları ilə hesablanır və qabaqcadan, müvəqqəti idxala (ixraca) icazə verən gömrük orqanının müəyyən etdiyi müddətdə, lakin 3 aydan artıq olmayaraq, ödənilir;

-dövri ödənilən (hər ay 3 faiz) gömrük ödəncləri müəyyən müddətdən sonra sərbəst dövriyyəyə buraxılış gömrük rejimi üçün nəzərdə tutulmuş ödonclərin məbləği ilə bərabərləşsə vo əgər, müvəqqəti idxal (ixrac) rejimində rəsmiləşdirilmiş mallar iqtisadi siyasət tədbirləri tətbiq edilməsi nəzərdə tutulmursa, həmin mallar avtomatik olaraq sərbəst dövriyyə üçün buraxılmış sayılır;

-dövri gömrük ödənclərinin ödənilməsinə görə məsuliyyəti mallan gətiron (aparan) şəxs daşıyır.

*Malların mävaqqəti idxal (ixrac)*
***rejimi altında yerl9şdirilm9si***

Bu rejim altiuda yerləşdirilon mallar elə istifadə edilməlidir ki, rejim bitdikdə onlar, qeyd edildiyi kimi, təbii aşınma vo itkilər nəzərə alınmaqla, dəyişilməmiş halda olsun. Bu tələb müvəqqəti gətirilən (aparılan) mallardan istifadəni məhdudlaşdırır, onların işlənilməsi və emal edilməsi əmoliyyatlannı istisna edir.

Müvəqqəti idxal (ixrac) rejimi altında yerləşdirilən mallar rejimin benetlsiarmın sərəncamında qalır.

Rejimin beneflsiarma onun hüquqları ilə bərabər, statusunu təyin edən, gömrük rejimi ilə müəyyən edilən əlavə öhdəliklər nəzərdə tutulur. Müvəqqəti gətirilən (aparılan) mallardan istifadə edilməsinə onların müvəqqəti idxalına (ixracına) verilmiş icazədə nəzərdə tutulmuş qaydada yol verilir. Benefisiar, bir qayda olaraq, bu mallardan mənfəət götürmək üçün istifadə edə bilməz. Bu məhdudiyyət müvəqqəti idxalına (ixracına) icazə verilən malların bütün nomenklaturasına aid edilir.

Gömrük orqanlannın icazəsi olmadan bu mallar ödənc və özgə-ləşdinnə predmeti ola bilməz. Mallar bu rejim altında yalnız müəyyən edilmiş müddətdə qala bilər. Bu müddətin uzadılması müstəsna hal kimi baxılır. Müddət qurtardıqdan sonra, malları müvəqqəti idxal (ixrac) edən şəxs, rejimin bitməsi üzrə müəyyən edilmiş proseduraları yerinə yetirməlidir.

YGB-də göstərilmiş müvəqqəti idxal (ixrac) müddətinin uzadılmasına, deklarantın yazılı müraciəti ilə baxılır. Adətən bu halda yeni YGB tənib edilmir. Qəbul edilmiş qərar gömrük orqanının səlahiyyətli şəxsi tərəfindən deklarantın ərizəsində qeyd edilir. Müsbət qərar qəbul edildikdə müvafiq qeydlər YGB-yo daxil edilir.

*Rejimin tssirinin hUməsi*

Müvəqqəti idxal (ixrac) rejimi müəyyən edilmiş müddətlər qurtardıqda vo bu rejimdə yerləşdirilmiş mallar geri apanidıqda

dikdə), yaxud müddətlər bitməmiş mallar digər gömrük rçjimiəri altında yerləşdirildikdə bitmiş olur Rejimin bitməsi üzrə proseduralar müəyyən edilmiş qaydada yerinə yetirildikdən sonra, mallan müvəqqəti idxal (ixrac) edən şəxs rejimin benefısian kimi onun üzərinə qoyulmuş vəzifələrdən azad olur. Əks halda, o, gömrük rejimindən istifadə edilməsi qaydalannın pozulmasına görə məsuliyyət daşıyır.

Əgər müvəqqəti idxal (ixrac) edilmiş mallar müddətin bitməsinə qədər geri qaytarılmamışsa, onlar gömrük orqanlanna məxsus müvəqqəti saxlanc anbarlanna və ya gömrük orqanlan tərəfindən müəyyən edilən digər yerlərə yerləşdirilməlidirlər (GM, maddə 72).

Geri qaytanimamış mallar, müvəqqəti idxal (ixrac) rejimi altındakı mallar kimi, səlahiyyətli şəxsin (benefisiann) müraciəti ilə digər gömrük rejimi altında yerləşdirilə bilər.

Belə rejimlər aşağıdakılar ola bilər:

a) müvəqqəti idxalda - sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, tranzit, gömrük anbarı, lüsumsuz ticarət mağazası, gömrük ərazisində emal, sərbəst gömrük zonası, sərbəst anbar, təkrar ixrac, məhvetmo, dövlətin xeyrinə maldan imtina;

b) müvəqqəti ixracda - ixrac, gömrük ərazisindən kənarda emal.

Müvəqqəti idxal (ixrac) edilən mallara gömrük rüsum və vergilərindən qismən azadetıno tətbiq edildikdə, ödənmiş dövri gömrük ödənclori mallar geri aparıldıqda (qaytarıldıqda) geri ödənilmir. Qeyd etmək lazımdır ki, bu halda müvəqqəti idxal (ixrac) rejimi bitmiş, mallar isə əgər ödənilmiş dövri ödənciər tələb olunan məbləğə çatmışsa, sərbəst dövriyyə üçün buraxılmış və ya ixrac rejimi altında yerləşdirilmiş hesab olunurlar.

Əgər müvəqqəti idxal (ixrac) rejimi ilə gətirilmiş (apanhnış) mallar sərbəst dövriyyə üçün buraxılış və ixrac rejimi ilə rəsmiləşdirilirsə:

- göstərilən rejimlər boyan edilməklə, YGB-nin qəbul edildiyi günə qüvvədə olan gömrük rüsum və vergiləri tətbiq edilir (eyni metod valyuta kursuna da aid edilir);

- müvəqqəti idxal (ixrac) anına müəyyən edilən gömrük dəyəri

- gömrük rüsum və vergilərinin ödənilməsinin təxirə salma müddəti üçün Milli Bankın verilmiş kreditlər üçün stavkalarına uyğun faiz tutulur.

Rejimin bitməsinin rəsmiləşdirilməsini, bir qayda olaraq, müvəqqəti idxala (ixraca) icazə vermiş gömrük orqanı həyata keçirir.

Rejimdən istifadə edilməsinin qayda və şərtlərini pozmaqla müvəqqəti idxal (ixrac) etmiş şəxs pozuntunun xarakterinə görə inzibati hüquqi və ya cinayət hüquqi məsuliyyətə cəlb edilə bilər.

Müvəqqəti idxal (ixrac) edilmiş malların məhv edilməsi, qaytarılması mümkün olmayan itirilməsi, qarşısıalınmaz qüvvənin təsiri altında və ya aşınma nəticəsində çatışmazlıq vo digər hallar rejimin müəyyən olunmuş qaydada başa çatdırılmasını qeyri-mümkün edir. Müvəqqəti idxal (ixrac) etmiş şəxs bu halda o şərtlə məsuliyyətdən azad edilir ki, hadisələr qarşısı alınması mümkün olmayan (təbii fəlakət, müharibə və s.) faktorlann təsiri altında baş vermiş olsun. Bu zaman rejimin benefisiarı rejimə icazə vermiş gömrük orqanına lazım olan və müəyyən olunmuş qaydada sənədləşdirilmiş fors-ma- jor faktını təsdiq edən bütün sənədləri təqdim etməlidir (Azərbaycan Respublikasının xarici ölkələrdəki Konsulluq tdarətərinin təs- diqedici sənədi, ticarət sənaye palatasının şəhadətnaməsi və i.a.). Bu məqsədlə fors-major şəraitinin baş verməsi üzrə sübuttann təmin edilməsi üçün notarial hərəkətlər icra oluna bilər (şahidlərin dindirilməsi, ekspertizaya göndəriş və s.).

*Malların müv^qqati* iı£ca/ımft *(ixracının)*
*beynalxalq hüquqi reqİamentasiyası*

Müvəqqəti idxalın (ixracın) hüquqi tənzimlənməsində beynəlxalq müqavilə və sazişlərin normalan mühüm yer tutur. Bu aktlarda şərh edilən rejimin tətbiqinin müxtəlif məsələlərinin kompleks req- lamentasiyası Öz əksini tapır. Müvəqqəti idxalm (ixracın) beynəlxalq hüquqi tənzimlənməsinin əsas forması dövlətlərarası ticarət- iqtisadi, elmi-texniki əməkdaşlıq və s. münasibətlərdir. Xarici ticarətin inkişaf tələbatı, beynəlxalq daşımaların həcminin artması, öl

kələr arasında mədəni, humanitar əlaqələrin genişlənməsi malların müvəqqəti idxalına (ixracına) aid əhəmiyyətli dərəcədə eyniləşdirilmiş (unifikasiyalaşdınlmış) beynəlxalq qaydalann yaradılması və tətbiqi üçün lazım olan şəraitin yaranmasına gətirib çıxardı.

Ümumdünya Gömrük təşkilatı eqidası altında gömrük işi üzrə müxtəlif konvensiyalar qəbul edilmişdir. Onlardan: gömrük proseduralarının sadələşdirilməsi və harmonizasiyası haqqında beynəlxalq konvensiya (1973-cü il Kyoto konvensiyası), mallann müvəqqəti idxalı üçün ATA kamet haqqında Gömrük konvensiyası (1961- ci il ATA konvensiyası) və müvəqqəti idxal haqqında İstanbul konvensiyasını (1990) misal gətirmək olar.

K.yoto konvensiyasının E5 saylı əlavəsi bilavasitə müvəqqəti idxal rejiminin tətbiqi qaydalarının sadələşdirilməsi və unifıkasiyası məsələlərinə həsr olunmuşdur. Bu əlavədə baxılan rejimin iqtisadi əhəmiyyəti, onun elmi, mədəni, humanitar əlaqələrin inkişafında rolu qeyd edilmiş, müvəqqəti idxal rejiminin tətbiqinin eyniliyini təmin edən hüquqi tövsiyələr verilmişdir.

ATA konvensiyası hazırlanarkən, milli qanunvericiliklər tərəfindən müvəqqəti rüsumsuz idxala icazə verilən mallann gətirilməsinə şərait yaratmaq məsələsi qoyulmuşdu. Bu məsələnin həlli üçün konvensiyada mallann müvəqqəti idxalı beynəlxalq gömrük sənədi - ATA kametindən istifadə edilməsinin hüquqi mexanizmi təklif edilmişdir. Adı çəkilən sənəd milli gömrük sənədləri əvəzinə istifadə edilə bilər və eyni zamanda idxal rüsum və vergiləri ödənilməsi üçün zəmanət öhdəliyi rolunu oynaya bilər. Təklif edilən tənzimləmə mexanizminin səmərəli fəaliyyəti üçün ticarət palatalarının beynəlxalq məlumat bürosu başda olmaqla, beynəlxalq zəmanət sistemi yaradılmışdır. Konvensiya iştirakçıları olan ölkələrin ticarət palataları ATA kametləri verir və milli gömrük orqanlarına mallann müvəqqəti rüsumsuz idxalı üçün vacib olan təminat təqdim edərək onların nəzərdə tutulmuş qaydada istifadəsinin zamini (qarantı) kimi çıxış edirlər.

ATA konvensiyası ilə müəyyən edilmiş beynəlxalq gömrük sənədlərinin istifadə mexanizmi çevikliyi ilə seçilir, bu da öz növbə

sindo onun iştirakçılarının tərkibinin genişlonmosinə vo konvensiyanın müddəalarının təcrübədə həyata keçirilmosino təkan verir.

ATA karnetinin məcburi tətbiqi o hal üçün müəyyən edilir ki, ölkə ATA - konvensiyasının iştirakçısı, hom də peşəkar avadanlığın müvəqqəti idxalı barədə Gömrük konvensiyasının (1961) iştirakçısı olmuş olsun və ya sərgilərdə, yannarkalarda, konqreslərdə və başqa tədbirlərdə nümayiş vo istifadə olunan malların gətirilməsi zamanı verilən güzəştlərə aid Gömrük konvensiyasının (1961) iştirakçısı olmuş olsun. ATA konvensiyası iştirakçılan birtərəfli qaydada onun müddəalarını mallann müvəqqəti gətirildiyi başqa **beynəlxalq** sazişlər və ya **yerli** qanunvericiliklə müəyyən edilmiş **hallar** üçün do tətbiq edə bilərlər.

1990'Ci ildə imzalamnış müvəqqəti idxal barədə İstanbul konvensiyası malların müvəqqəti idxalı gömrük rejiminin tətbiqinə aid milli qaydaların sadətəşdirilmə və harmonizasiyası prosesində mühüm addım oldu. Beynəlxalq ticarətin vo beynəlxalq mübadilənin digər fonnalarının inkişafı naminə, bu Konvensiya müvəqqəti idxal barədə əvvəllər qəbul edilmiş müxtəlif beynəlxalq sazişləri bir sənəddə birləşdirdi.

Gömrük qanunvericiliyinin təkmilləşdirilməsi işində toplanmış beynəlxalq gömrük tənzimlənməsi təcrübəsindən tam istifadə edilməsi, tətbiq edilən gömrük rəsmiləşdirilməsi sənədlərinin beynəlxalq praktikaya uyğunlaşdınlması və tanıdılması üçün Azərbaycan Respublikasının mühüm beynəlxalq gömrük sazişlərinin

### *4,2.9. Sərbəst gömrük zonası. Sərbəst anbar*

Sərbəst gömrük zonası və sərbəst anbar gömrük rejimlərinin əsas qayəsi ondan ibarətdir ki, bu rejimlərdə xarici mallar müəyyən edilmiş ərazi sərhədləri daxilində və ya binalarda (yerlərdə) gömrük rüsum və vergiləri alınmadan, həmçinin bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən, Azərbaycan malları isə ixrac

gömrük rejimi ilə müəyyən edilən şərtlər daxilində yerləşdirilir vo istifadə edilir.

Bu gömrük rejimləri altında Azərbaycan Respublikası ərazisinə gətirilməsi və aparılması qadağan olunmamış mallar yerləşdirilə bilər.

Azərbaycan Respublikası qanunvericiliyinə riayət edilməsini təmin etmək məqsədi ilə, malların xarakterindən asılı olaraq, sərbəst gömrük zonalannda və sərbəst anbarlarda mallarla apanlan əməliyyatlara qadağanlar vo məhdudiyyətlər qoyula bilər.

Gömrük-tarif tənzimləmələri tədbirləri baxımından sərbəst gömrük zonası və sərbəst anbar, xarici mənşəli nıallann gömrük rüsum və vergiləri Ödənilmədən saxlanılması, satılması və alınması mümkün olan rüsumsuz ticarət və anbar ərazisi kimi qəbul edilir. Belə ki, vergi rejİmi nöqteyi-nəzərindən mallara gömrük sərhədindən kənarda yerləşdirilmiş kimi baxılır. Belə ərazidən kənarlıq təkcə gömrük-tarif tənzimləmələrinə - yəni vergi rejiminə deyil, həm də xarici ticarət münasibətlərinin inzibati rejiminə - yəni qeyri-tarif tənzim ləmolənnə də aiddir. Gömrük anban rejimindən fərqli olaraq sərbəst gömrük zonası və sərbəst anbar rejimləri malların saxlanılma müddətini məhdudlaşdırmır. Sərbəst gömrük zonası və sərbəst anbarların gömrük ərazisindən kənar hesab edilməsi Gömrük Məcəlləsinin 3-cü maddəsinin ikinci hissəsində öz əksini tapır:

“Azərbaycan Respublikası ərazisində sərbəst gömrük zonaları və sərbəst anbarlar yerləşə bilər. Məcəllədə və gömrük işi üzrə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında müəyyən edilən hallar istisna edilməklə, sərbəst gömrük zonalarının vo sərbəst anbarların əraziləri Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda yerləşən ərazidir”.

Göründüyü kİmi, sərbəst gömrük zonalarının və sərbəst anbarların pcrimetri gömrük sərhədidir (daxili gömrük sərhədi məfhumu əvvəllər açıqlanmışdır). Öz inzibati-hüquqi statusuna görə daxili sərhədlər xarici sərhədlərə bərabər tutulur: sərbəst zonanın ərazisi sərhəd zonası kimi baxılır və oraya gİrİş-çıxış xüsusi nəzarət-buraxılış məntəqələrindən buraxılış vərəqələri əsasında həyata keçirilir. Daxili sərhədlərin qorunması gömrükçülərlə sərbəst zona və

sərbəst anbar rəhbərliyinin birgə səyləri ilə təmin edilir. Sərbəst gömrük zonası rejiminin cəlbediciliyi ondadır ki, bu fəaliyyət sərbəst iqtisadi zonaların yaradılmasında ilk mərhələ kimi təqdirə layiqdir. Sərbəst gömrük zonalannın fəaliyyəti imkan verir ki, sərbəst iqtisadi zonalann idarə edilməsi məsələsi üçün təcrübə toplasın və eyni zamanda xarici investorlar bu məsələlərdə hökumətin iqtisadi siyasətinin əsas prinsipləri İlə tanış olub ölkəyə kapital qoyuluşunun təminatı aspektlərini dəqiqləşdirsinlər.

Hər hansı sərbəst zona üçün əlverişli coğrafi mövqe mühüm əhəmiyyət kəsb edir. Adətən sərbəst gömrük zonaları xarici ticarət foaliyyoti ilə bağlı xidmətlərin ixracı üzrə ixtisaslaşırlar. Sərbəst gömrük zonalarının yaradılması yerli istehsalçılann xarici iqtisadi tbaliyyətə cəlb edilməsinə təkan verə bilər.

Sərbəst gömrük zonası vo sərbəst anbar gömrük rejimlərinin yaxın məzmunu bir çox məsələlər üzrə bu rejimlərin hüquqi tənzimlənmələrində oxşarlıq göstərir:

- malların sərbəst gömrük zonası və sərbəst anbarda saxlanma müddətləri;
- belə mallann uçot qaydası;
- gömrük rüsum və vergilərinin tutulması qaydası;
- iqtisadi siyasət tədbirlərinin tətbiqi;
- gömrük ödənclərinin ödənilməsi üzrə məsuliyyət.

Rejimləri bir-birindən ayıran spesifik xüsusiyyətlər isə sərbəst gömrük zonası və sərbəst anbarın təsis edilməsi və ləğv edilməsi məsələlərində özünü bünızo verir.

*Sərbəst gömrük zonalarında və sərbəst anbarlarda mallatia apardan əməliyyatlar*

Qanunvericilik bu gömrük rejimləri altında yerləşdirilmiş mallardan pərakəndə satış istisna edilməklə, istehsal və digər kommersiya oməliyyatiarmda istifadə etməyə yol verir. Bu rejimlər altında yerləşdirilmiş mallann xarakterindən asılı olaraq, ayn-ayn qadağan və məhdudiyyətlər tətbiq edilə bilər. Bu cür qadağan və

diyyotləri sərbəst gömrük zonası barəsində Nazirlər Kabineti, sərbəst anbar barəsində DGK müəyyən edir.

Gömrük orqanları istehsal və digər kommersiya fəaliyyəti məsələlərini hər bir konkret hal üçün tənzimləyə bilərlər. Onlar GM 77-ci maddəsinin 3-cö bəndinə əsasən, belə əməliyyatlann aparılmasını - gömrük və digər qanunvericilik normalannı pozmuş şəxslərə qadağan edə bilər, həmçinin, şəxslərə sorbət gömrük zonalanna və sərbəst anbarlara girişi qadağan edə bilər.

Sərbəst gömrük zonası və sərbəst anbar hüdudlannda baş verən hər hansı dəyişikliklər uçot sənədlərində öz əksini tapmalıdır.

*Gömrük-^rif tanzlmhməhrinin xüsusiyyRlhri*

Bu gömrük rejimlərindən istifadə etdikdə, gömrük ödənclərinin ödənilməsi üçün məsuliyyəti, malların sərbəst gömrük zonasına gətirən və ya sərbəst anbara yerləşdirən şəxs daşıyır.

Rejimlərin təyinatından göründüyü kimi, xarici və Azərbaycan mallarının yerləşdirilməsi üçün gömrük rüsum vo vergiləri mtul- mur. Əgər mallar sərbəst gömrük zonası və sərbəst anbarlardan Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilirsə və ya Azərbaycan Respublikasının hüdudlarından kənara apanlırsa nəzərdə tutulmuş rüsum və yığımlar ödənilməlidir.

Sərbəst gömrük ərazisinə və sərbəst anbara yerləşdirilərkən, mallar ixrac üçün nəzərdə tutulmuşsa, gömrük rüsum və vergilərindən azad edilir və ya ödənilmiş məbləğlər geri qaytanlır. Bu şərtlə ki, mallar vergi və rüsumlann azad edildikdən və ya tutulmuş məbləğlər qaytanidıqdan sonra 6 ay ərzində mallar faktiki çıxarılmış olsun.

Əgər ixrac üçün nəzərdə tutulmuş mal sərbəst gömrük zonası və sərbəst anbardan respublikanın gömrük ərazisinə qaytaniarsa, gömrük rüsum və vergiləri, həmçinin Milli Bank tərəfindən müəyyən edilmiş kreditlər üzrə stavkalara görə faiz ödənilir.

Bu qayda, müəyyən edilmiş 6 ay ərzində ixrac üçün nəzərdə tutulmuş mallar faktiki olaraq aparılmadığı hal üçün də keçəriidir.

### *4.2.10. Gömrük erazisindən kənarda mallann emalı rejiminin məzmunu və istifadə edilməsinin hüquqi əsast*

Gömrük orazisindon konarda malların emalı rejiminin digor emal rejimlori kimi iqtisadi xarakteri daha böyük əhəmiyyot kəsb edir, amma onlardan fərqli olaraq passiv tipo aid edilir.

Bu halda da ödünclərin təxirə salınması prinsipi tətbiq edilir: mallar emal üçün gömrük ərazisindən kənara aparılarkən ödənmiş gömrük rü.sum vo vergiləri kompensasiya mallarının gömrük ərazi* sində sərbəst dövriyyə üçün buraxılması ilə rejimin fəaliyyəti bitdikdən sonra, geri qaytarılmalıdır. Bu halda vergi güzəştlərindən istifadə edilmosi məhdud xarakter daşıyır.

Bu hal əlbəttə ki, təbiidir, çünki milli iqtisadiyyatın emal sahələrinin inkişaf etdirilməsinin obyektiv tələbatı, ixraca meylli istehsal sahələrinin stimullaşdırıiması üçün mühüm olıəmiyyət kəsb edir.

Gömrük orazisindon konarda malların emalı gömrük rejiminin tətbiqim müəyyən edən Gömrük Məcəlləsi, digər emal rejimlərində olduğu kimi bu rejimdə də onun hüquqi reqlamentasiyasının ümumi əsasını müəyyən edir. Bu müddəaların detallaşdınİması vo küiıkretləşdirilmosi Nazirlər Kabinetinin, Dövlət Gömrük Komitəsi ilo digor dövlət orqanlarının birgə nonnativ aktlan və DGK-nm öz aktları ilə həyata keçirilir.

Nazirlər Kabineti malların gömrük ərazisindən konarda emal edilməsi üçün lisenziya verilməsi qaydalarını müəyyən edir (GM, maddə 92).

Nazirlər Kabineti Respublikanın mənafeyini nəzərə alaraq müstəsna hal kimi gömrük ərazisindən kənarda emal edilən mallardan alınan moh.suIların xarici mallarla əvəz edilməsi qaydasını müəyyən edir (GM, maddə 92).

Azərbaycan E>övlət Gömrük Komitəsi mallann emalı üzrə ayn-ayrı omoliyyatların məhdudlaşdınimasım, Azərbaycan mallanndan istifadə edilməsinin mümkünlüyü və qaydaları da daxil olmaqla emal

əyyən edir. DGK həmçinin gömrük məqsədləri üçün emal mohsul-lannın məcburi hasilat miqdarlanm təyin etmək qaydalarını İqtisadiyyat Nazirliyi ilə razılaşdıraraq müəyyən edir.

Dövlət Gömrük Komitəsi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla artıq Ödənilmiş və ya alınmış gömrük Ödənişlərinin qaytarılması qaydalarım müəyyən edir.

*Rejimdən istifada sahəsi vs şərtləri*

Hər üç emal gömrük rejimindən istifadənin əsasını vahİd baza prinsipləri təşkil etdiyindən, malların bu rejimdə emalının hüquqi reqlamentasiyası digər emal rejimləri ilə müəyyən edilən müddəalarla analoji xarakter daşıyır. Bu xüsusiyyət lisenzİyalann alınması, onların ləğvi və ya geri çağınıması, rejimin benefısiarlanna qoyulan tələblər, mallann emal müddətləri və şairəyə aiddir.

Bununla belə gömrük ərazisindən kənarda mallann emalı gömrük rejiminin digər emal rejimlərindən fərqləndirən hüquqi reqla-mentasiyasmın əsas aspektləri, rejimin tətbiqi mexanizmində özünü büruzə verir.

Gömrük Məcəlləsi bu rejimdə gömrük ərazisində malların emalı rejimində istifadə edilən omoliyyatlann aparılmasına icazə verir:

- montaj, yığma və digər mallara uyğunlaşdırma da daxil olmaqla, mallarm hazırlanması;
- mallann işlənilməsi və emalı;
- bərpası və qaydaya salınması da daxil olmaqla, mallann təmiri;
- emal prosesində tam və ya qismən sərf olunması ilə emal məh-sullannm istehsalına kömək edən və yüngülləşdirən bəzi köı..əkçi mallann istifadəsi.

Gömrük Məcəlləsi digər emal rejimləri üçün nəzərdə tutulmuş məhdudiyyətlərdən başqa, bu rejim üçün əlavə məhdudiyyətlər nəzərdə tutur.

Mallann gömrük ərazisindən kənarda emalı zamanı rejimin fəaliyyəti, kompensasiya mallannın Azərbaycan Gömrük ərazisində sərbəst dövriyyə üçün iqtisadi siyasət tədbirləri tətbiq etmədən,

homçinin, gömrük rüsum vo vergilərindən tamamilə, yaxud qismən azad edilməklə buraxıldıqda bitir.

Ental məhsulları idxal gömrük rüsum və vergilərindən o zaman azad edilir ki, onlar emal üçün lisenziya atmış şəxs, yaxud onun göınKik brokeri tərəfindən bəyan edilmiş olsun. Bu azadetmə iki formada tətbiq edilir. Tam azadetmə o zaman mümkündür ki, Gömrük orqanı;

- malların emalında məqsədin yalnız təmir olduğuna;
- bu təmirin müqavilə və ya qanunvericiliyə görə təmənnasız aparıldığına əmin ola bilsin.

Əgər malların sərbəst dövriyyə üçün ilkin buraxılışında çatışmazlıqlar nəzərə alınmışsa, tam azadetmə tətbiq edilə bilməz.

İdxal gömrük rüsum və vergilərindən qismən azadetməyə aşağıdakı hallarda yol verilir:

- çıxarılmış ınallann təmiri təmənna ilə aparılır;
- çıxarılmış mallarla rejimin reqlamentasiyası ilə müəyyən edilmiş emal əməliyyatları aparılır.

Qismən azadetmə yol verilən hallarda gömrük vergiləri təmirin və emal üzrə oməliyyatlarmm dəyəri nəzərə alınmaqla hesablanır. Başqa sözlə çıxarılmış mallann emalı prosesində əlavə edilmiş dəyər nəzərə alınır.

Əgər mallar gömrük ərazisindən kənara emal üçün apanlanda gömrük rüsum və vergiləri ödənilmişsə, rejim bitdikdə, onun leqlamenta- siyasma uyğun olaraq, onlara faiz hesablanmadan geri qaytarılır.

Qabaqcadan ödənilmiş məbləğlərin qaytarılması kompensasiya mallarının idxal edilməsi və onlann gömrük rəsmiləşdirilmosindon sonra həyata keçirilir.

Ödənilmiş məbləğlərin maksimum saxlanılma müddəti DGK tərəfindən müəyyən edilir. Bu müddət bitdikdən sonra onlar büdcəyə köçürülür və geri qaytanimır.

Əgər emal üçün aparılmış Azərbaycan malları emala məruz qalmamışlarsa, rejimin benefisianmn xahişi ilə gömrük orqanları belə mallann əvvəl ödənilmiş gömrük vergiləri məbləğinin geri qayta-nlması ilə idxalına icazə verə bilərlər.

Gömrük ərazisindən kənarda malların emalı rejimindən istifadə edilməsi ile emal üçün aparılmış, mallar uyğun olaraq, Azərbaycan gömrük ərazisinə qaytarılmamışsa və ya vaxtında qaytarılmamışsa, emal üçün lisenziya almış şəxs azad edildiyi gömrük ödənişlərini ödəməklə bərabər, qanunvericiliyə əsasən hüquqi məsuliyyət də daşıyır. Belə halda məsuliyyətdən azad olmaq o zaman mümkün ola bilər ki, aparılmış mallann geri qaytarılması, mümkün olmayan itirilməsi, malların və ya emal məhsullannm qəza, qarşısıalınmaz qüvvə, mallann normal şəraitdə saxlanılması və daşınması zamanı təbii daşınma və itki nəticəsində, Azərbaycan qanunvericiliyinə görə xarici dövlətin orqanları və vəzifəli şəxslərinin hərəkətləri nəticəsində baş vermiş olsun. Sadalanan hallarda məsulİyyətdon azad olunmaq üçün malların itirilmə və ya mohvedilmə faktı Azərbaycan Respublikasının xaricdəki konsul idarələri tərəfindən təsdiq olunmalıdır.

### *4.2.11. Mallann ixract rejiminin* ***mazmunu va istifadə şartiari***

Mallann ixracı Gömrük Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunvericilik aktları İlə müəyyən olunan tələblərə uyğun olaraq həyata keçirilir. Digər gömrük rejimlərindən fərqli olaraq İxrac rejimində malların “rejim altında yerləşdirilməsi şərtləri" deyil, “rejimə irəli sürülən tələblər" məfhumu tətbiq edilməsi, bilavasitə ixrac rejiminin hüquqi reqlamentasiyasından irəli gəlir.

Gömrük Məcəlləsi İlə müəyyən edilən bu tələblər aşağıdakılardır:

- ixrac gömrük rüsumlanmn və digər gömrük ödənclərinir jdənilməsi;
- iqtisadi siyasət tədbirlərinə riayət edilməsi;
- ixrac rejimi altında buraxılmış malların, gömrük bəyannaməsinin qəbul edildiyi günə olan vəziyyətində, normal saxlama və daşıma şəraitində onlann məruz qaldığı aşınma və təbii İtkisi nəzərə alınmaqla, Azərbaycan Respublikasının gömrük ərazisindən kənara çıxaniması;

- Gömrük Mocollosi vo Azərbaycan gomnik qanunvericiliyinin digər aktları ilo nozordo tutulmuş tələblərin yerinə yetirilməsi. (GM, 96-9S-Cİ maddələr).

İxnıc gömrük rejimi altında yerləşdirilən mallar, bu rejimin xüsusiyyətləri nəzərə alınmaqla, ümumi qaydada boyan edilməli vo gömrük rəsmiloşdirilməsindən keçməlidir.

Malların ixrac rejiminə uyğun olaraq çıxan İması xarici iqtisadi fəaliyyətin ümumi sisteminə daxil olan müxtəlif vasitə və mexanizmi ərlə tənzimlənir.

İxracın əsas dövlət tənzimləmə vasitələrinə aşağıdakılar aid edilir:

- tarif-vergi tənzimlənməsi;
- qeyri-tarıf vasitələri;
- valyuta nəzarəti.

*4.2.İ2. Matların tıkrar ixracı*

Mallann təkrar ixracı gömrük rejimində xarici mallar Azerbaycanın gömrük ərazisindən gömrük rüsum vo vergilori alınmadan və ya alınmış rüsum və vergilər qaytanimaqla, iqtisadi siyasət tədbirləri tətbiq etnu>don Gömrük Məcəlləsinə və Azərbaycan gömrük qanunvericiliyinin digər aktlarına uyğun olaraq çıxanlır (GM. 99-cu maddəsi).

Bu gömrük rejimi iqtisadiyyat baxımından təkrar idxal rejiminin “geri əks olunmasıdır". Rejimlərin məzmunu onlann isti&do olunma mexanizmində bəzi prinsipial fərqlər olduğunu nəzərə çarpdırır.

Təkrar ixrac rejiminin reqlamentasiyası, təkrar ixrac edilən mat-tann Azorbaycan gömrük ərazisində olması faktına əsaslanır ki, bu da gömrük nəzarətini həyata keçirməyə, rejimin şərtlərinə riayət olunmasını tomin etməyə yönəlmiş əlavə tədbirlər görməyə imkan verir. Əvvəllər qeyd edildiyi kimi, təkrar idxalın hüquqi reqlamen-tasiyasında prosedura məsələləri mühüm yer tutur vo əsas fikir nəzarətin sənədli fonnalanna yönəldilir.

Malların təkrar ixracına Dövlət Gömrük Komitəsinin müəyyən

cilik aktlan, Azərbaycan hökumətinin aktları və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində müəyyən edilmiş hallarda isə malların təkrar ixracına Ticarət Nazirliyinin razılığı ilə icazə verilir.

Təcrübədə mallann təkrar ixracı gömrük rejiminin iki tipindən istifadə edilir;

- bəyan edilmiş təkrar ixrac;
- faktiki təkrar İxrac.

Bəyan edilmiş təkrar ixracda mallar ilk dəfə Azərbaycanın gömrük ərazisinə gətirilərkən, gömrük orqanlarına bilavasitə ve yalnız təkrar ixrac üçün gətirildiyi bəyan edilir. Bu halda idxal rüsum və vergiləri tutulmur, iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

Faktiki təkrar ixrac tipində Azərbaycanın gömrük ərazisinə gətirilən mallann bilavasitə təkrar ixrac üçün gətirilmiş olması bəyan edilmir. Onlar əvvəlcə digər gömrük rejimləri altında yerləşdirilə bilər, bir şərtlə ki, onlar xarici mallar olaraq qalırlar. Mallann milli gömrük ərazisinə bu cür gətirilməsi zamanı gömrük rüsum və vergiləri ödənilmişsə, bu məbləğlər təkrar ixrac zamanı aşağıdakı şərtlər daxilində geri qaytanlır:

- təkrar ixrac olunan mallar, təbii aşınma və normal şəraitdə daşınma zamanı ola biləcək təbii itkilər nəzərə alınmaqla, gətirilmə anındakı halda olmalıdır;
- təkrar ixrac gətirilmə anından keçən iki il müddətində həyata keçirilməlidir;
- təkrar ixrac edilən mallar qazanc məqsədi ilə istifadə edilməmiş olmalıdır.

Adətən, təkrar ixraca icazə gömrük ödənclərinin, mal və nəqliyyat vasitələrinin girov qoyulması, bank və digər kredit təşkilatlarının zəmanəti, tələb olunan məbləğin depozitə qoyulması yolu ilə ödənməsinin təmin edilməsi şərti ilə verilir.

Azərbaycanın gömrük ərazisinə gətirilən, gömrük rəsmiləşdirilməsi zamanı təkrar ixrac məqsədləri üçün gətirildiyi bəyan edilən mallann təkrar ixrac gömrük rejimi altında yerləşdirilməsinə aşağıdakı tələblərə riayət edilməsi şərti ilə icazə verilə bilər

- mallann bilavasitə və yalnız təkrar ixrac məqsədi ilə gətirildiyini təsdiq edən müqavilələrin gömrük orqanına təqdim edilməsi (iki xarici ticarət kontraktı - idxal və ixrac üçün);

- maraqlı şəxsin (deklarantın) mallann gömrük ərazisindən çıxarılacağı barədə Öhdəliyi;

- təkrar ixrac məqsədi ilə mallan gətirən təşkilatın həmin malların müəyyən edilən müddətdə çıxanlacağı, mallann Azərbaycanın gömrük ərazisində qalacağı təqdirdə tələb edilən rüsum və vergilərin ödəniləcəyi barədə zəmanət məktubunun gömrük orqanına təqdim edilməsi (zəmanət öhdəliyi forması əlavə edilir).

Təkrar ixrac məqsədi ilə gətirilməsi bəyan edilmiş mallar, onlann təcili aparılması mümkün olmayan hallarda - yalnız gömrük anbarlannda və gömrük anban rejiminin tələbləri yerinə yetirilməklə saxlanıla bilər.

Təkrar ixrac məqsədilə gətirilmiş mallann gömrük rəsmiləşdirilməsi zamanı malı gətirən şəxs müvafiq gömrük orqanına müraciət etməlidir.

Təkrar ixrac üçün respublikaya gətirilmiş alkoqollu içkilər, etil (yeyinti) spirti, tütün məmulatının təkrar ixrac rejimində yerləşdirilməsi Dövlət Gömrük Komitəsində qeydə alındıqdan sonra həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük ərazisinə təkrar ixrac üçün gətirilmiş mallann bu ərazinin hüdudlanndan kənara apanıması DGK tərəfindən “İcazə vərəqəsi” verildikdən sonra rəsmiləşdirilir.

“İcazə vərəqəsi” almaq üçün Dövlət Gömrük Komitəsinə edilmiş müraciətlə birgə aşağıdakı sənədlər təqdim edilməlidir:

- təkrar ixrac məqsədilə gətirilmiş mallann idxal yük-gÖmrük bəyannaməsi;
- yol-nəqliyyat sənədləri (qaimə);
- invoys;
- bağlanmış müqavilə;
- malın keyfiyyət və mənşə sertifikatları;
- malın dəyərinin qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə bank sənədi;

- təkrar ixrac məqsədilə gətirilmiş malı rəsmiləşdirilmiş gömrük əməkdaşının şəxsi nömrəli möhürü ilə təsdiq olunmuş yazılı rəyi;
- malların təkrar ixracına icazə verilməsi üçün lazım olan digər sənədlər.

Təkrar ixrac üçün edilmiş müraciətə 10 gün müddətində baxılmalıdır. Müsbət cavab verildiyi təqdirdə, üç nüsxədən ibarət, “icazə vərəqəsi” tərtib edilir. Bir nüsxə DGK-də qalır, digər nüsxələr ərizəçiyə qaytarılır. İcazənin bir nüsxəsi ərizəçi tərəfindən malla- nn rəsmiləşdirildiyi gömrük orqanına təqdim edilməlidir.

### *4,2A3. Mallann m9hv edilməsi və dövlətin xeyrinə maldan imtina*

Xarici ticarət təcrübəsində mallann məhv edilməsi və dövlətin xeyrinə maldan imtina edilməsi rejimlərindən tez-tez istifadə edilir.

Mallann məhv edilməsi rejiminin seçilməsi, çox ballarda mallann gömrük sərhədindən keçirilməsindən sonra keyfiyyətini itirməsi və ya saxlama müddətinin (istifadəyə yararlılıq) bitməsi ilə bağlıdır (gömrük anbannda mallar uzun müddət qalanda da belə hallar olur).

Belə malları gömrük nəzarəti altında məhv edərək, kommersant eyni zamanda bu mallann gömrük ərazisindən çıxarılması üçün çəkiləcək nəqliyyat xərclərindən və gömrük rüsum və vergilərinin ödənilməsindən azad olur.

Mallann məhv edilməsi gömrük rejimi sərgi işlərində də tətbiq edilir: stendlərin geri apanima xərcləri onlann Özünün, reklam avadanlığının və hətta bəzi eksponatlann dəyərindən çox ola bilir ki, bu da onlann gömrük nəzarəti altında məhv etməyə ve ya dövlət mülkiyyətinə verməyə təhrik edir.

Bu əşyalan sərgi, yaxud yarmarka iştirakçısı sadəcə olaraq qoyub gedə bilməz, çünki onları Azərbaycan gömrük ərazisinə gətirərkən, geri apanlacağı barədə öhdəlik vermiş olur. Buna görə də əgər yüklər Azərbaycan gömrük ərazisindən geri apanimazsa, onların sahibi (deklarant) tələb olunan gömrük rüsum və yığımlarını ödəməlidir. Yükün geri apan İma ması və həm də bu zaman gömrük

rüsum və vergilərinin ödənilməməsinin yeganə qanuni yolu gömrük orqanına müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş mallann məhv edilməsi barədə aktın, yaxud dövlət xeyrinə maldan imtina edilməsi barədə aktın təqdim edilməsidir.

Dövlətin xeyrinə maldan imtina və mallann məhv edilməsi, gömrük rejimlərindən istifadə edilməsi birbaşa xarici mallann Azərbaycan bazarında satılmasının mümüknsüzlüyü və ya səmərəsizliyi ilə bağlıdır. Xarici ticarət təcrübəsi idxal gömrük rüsumlarının yüksək olması səbəbi ilə dövlətin xeyrinə maldan imtina edilməsi faktları ilə üzləşir.

İdxal gömrük ödənclorinin kəskin artımı xarici mallann daxili bazarda rəqabət qabiliyyətini yerli məhsullarla müqayisədə heçə endirir. Bundan başqa dəniz və dəmir yolu daşımalannda nəzərdə tutulmamış boşdayanmalar da belə nəticələrə gətirib çıxara bilir. Dəmir yoluna və limana ödənilən cərimələr mallann əhəmiyyətli dərəcədə bahalaşmasına gətirib çıxanr. Dəyişilmiş şəraitdə xarici ticarət bağlaşmasının rentabelliyini hesablayaraq (yeni gömrük tarifləri, cərimələr və s. nəzərə alınmaqla) idxalçı öz malının Azərbaycan baza- nnda satılmasının məqsədəuyğun olmadığını müəyyən edo bilər.

Əgər mallann Azərbaycan gömrük ərazisindən çıxarılması da sərf eləmirsə, kommerşant malın itirilməsi itə banşaraq, maddi zərəri minimuma endirməyə və gömrük ödənclərindən azad olmağa səy göstərir. Bunun üçün o, mallann məhv edilməsi və dövlətin xeyrinə imtina gömrük rejimlərinin birini seçə bilər. İkinci variant bir qayda otaraq daha üstün görünür. Malların təmənnasız olaraq dövlətin mülkiyyətinə verilməsi idxalçının İşgüzar reputasiyasına müsbət təsir edə bilər. Bundan başqa, mallann məhv edilməsi maraqlı şəxsin hesabına həyata keçirildiyindən, digər bərabər şərtlərdə, onun üçün əlavə xərclərə gətirir.

Bu rejimlərin hüquqi tənzimlənməsi bir çox ümumi və xüsusi prinsiplər üzərində qurulur

- birincisi, bu rejimlərin istifadəsi dövlət üçün hər hansı xərclərə gətirib çıxarmamalıdır;
- ikincisi, hər iki rejimin tətbiqi gömrük orqanlannm icazəsi ilə

- üçüncüsü, hər iki rejimin bəyan edilməsinin qanuniliyi üçün deklaıant məsuliyyət daşıyır.

Malların məhv edilinəsi rejiminin fərqləndirici prinsipləri aşağıdakılardır:

a) rejimin gəlir əldə etmək məqsədi ilə istifadəsinin qadağan olunması;

b) mallarını gömrük sərhədindən keçirən şəxsin rejimin şərtlərinə riayət edilməməsinə görə (nəqliyyat vasitələrinə görə daşıyıcı cavab verir) məsuliyyət daşıması;

c) ətraf mühitin qorunması üzrə qanunvericiliyə riayət edilməsi;

ç) məhv edilən malların və əmələ gələn tullantıların (qalıqların} hökmən gömrük nəzarəti altında yerləşdirilməsi;

d) dövlətin xeyrinə maldan imtina edilməsinin daha məqbul olması prinsipi.

Mallann və ya nəqliyyat vasitələrinin dövlətin xeyrinə maldan imtina gömrük rejimi altında yerləşdirilməsi mümkündürsə, gömrük orqanları deklaranta bu rejimdən istifadə edilməsini təklif etməyə borcludurlar. Gömrük orqanları mallann məhv edilməsinə o zaman İcazə verir ki, mal və nəqliyyat vasitələrinin dövriyyədən çıxanimasma əsaslı səbəb olsun.

Mallann məhv edilməsi rejimində aparılan əməliyyatlann qanuniliyi bütün ümumi və xüsusi prinsiplərə riayət olumnası ilə təsbit edilir. Əgər hər hansı prinsip pozulursa, bu sahədə edilən hərəkətlər qeyri-qanuni xarakter alır. Məsələn, əgər gömrük orqanının mal və nəqliyyat vasitələrinin faktiki məhv edilməsinə nəzarəti həyata keçirmək imkam yoxdursa, bu rejimdən istifadə edilməsinə icazə verilə bilməz. Yaxud da “v” prinsipində göstərildiyi kİmi, əgər ətraf mühitə kifayət qədər zərər vurula bilərsə, mallan gömrük nəzarəti altında məhv etməyə icazə verilmir. Mallann məhvinin ətraf mühitə zərər vurmayacağının təsdiq edilməsi üçün gömrük orqanı deklarantdan dövlət ekoloji nəzarət orqanının rəyini tələb edə bilər.

Bundan başqa, əgər malların məhv edilməsi zərərli, təhlükəli, toksik və radioaktiv tullantıİann meydana çıxması ilə müşayiət oluna bilərsə (basdınıması, su daşqını və i.a.), rejimin tətbiqinə yalnız

Ətraf mühitin qorunması üzrə dövlət orqanlarının və sanitar-epidemioloji nəzarət orqanlannm icazəsi ilə yol verilir.

Dövlətin xeyrinə maldan İmtina rejiminin aşağıdakı xüsusi prinsipləri mövcuddur:

a) dövlətin xeyrinə maldan imtina rejiminin hər hansı digər rejimlə əvəz olunmasının qadağan edilməsi;

b) imtina rejimindən istifadə edilməsinin dövlət üçün maddi sərfəliliyi prinsipi;

c) gömrük orqanlarının deklarantın dövlətin xeyrinə və imtina etdiyi mal və nəqliyyat vasitələrinə görə üçüncü şəxslər tərəfindən irəli sürülə biləcək hər hansı mülkiyyət tələblərindən azad olması.

Maddi sərfəlilik prinsipi o deməkdir ki, gömrük orqanı aşağıdakı şərtlər daxilində dövlətin xeyrinə imtina rejimindən istifadəyə icazə vermir:

1) mal və nəqliyyat vasitələrinin dəyəri onların satılması üçün gömrük orqanının çəkdiyi xərci ödəmir;

2) gömrük orqanlan tərəfindən mal və nəqliyyat vasitələrinin satılması imkanı məhduddur.

*MohvetmB rejiminin hüquqi*
*tanzimhnmasinin xüsusiyyəthri*

Malların məhv edilməsi - xarici malların gömrük nəzarəti altında gömrük rüsum və vergiləri alınmadan, həmçinin mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən məhv edildiyi gömrük rejimidir (GM, 101-ci maddə). Məhv edilmə prosesinin özü malların tam məhv edilməsi, yəni yandınıması, dağıdılması, asdınlraası və s. yolu ilə, həm də onlann istifadəyə yararsız hala gətirilməsi, yəni sökülməsi, parçalanması, mexaniki zədələnməsi və s. yolu ilə həyata keçirilə bilər.

Axırıncı halda, gömrük orqanları diqqət etməlidirlər ki, mexaniki zədələməler məhv edilən mallann yenidən bərpası və ilkin halında istifadə edilməsi imkanını istisna etsin. Rejimin Özünün tətbiqinə o zaman yol verilir ki, mallann məhv edilməsi üçün seçilmiş

Üsul sayəsində onlar öz istehlak qabiliyyətlərini (xassələrini) və dəyərini itirmiş olsun.

Məhvctmə rejiminin əsas xüsusiyyəti odur ki, bu rejitn altında yalnız Azərbaycan gömrük ərazisinə faktiki olaraq gətirilmiş xarici mallar və nəqliyyat vasitələri yerləşdirilə bilər. Qeyd etmək lazımdır ki, məhvetmə rejimindən fərqli olaraq, dövlətin xeyrinə maldan imtina rejimi xarici mallarla birgə Azərbaycan mallanna da şamil edilə bilər.

Məhvetmə rejimini malın sahibi, yaxud gömrük brokeri bəyan edə bilər. Nəqliyyat vasitəsinin məhv edilməsi barədə yalnız daşıyıcı elan edə bilər.

Qanunvericilik Azərbaycan ərazisinə gətirilməsi qadağan edilən, gömrük orqanları tərəfindən girov olaraq qəbul edilən (müddəti qurtarana qədər), gömrük orqanının və ya məhkəmənin qəran ilə qaçaqmalçılıq və gömrük sahəsində digər cinayətlər, gömrük qaydalarmın popilması faktları işləri üzrə konüskasiya (müsadirə) qərarı ilə götürülən mallar, həmçinin xalqların bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların məhv edilməsini qadağan edir.

Məhvetmə rejimi altında mallann yerləşdirilməsi üçün maraqlı şəxs gömrük orqanına YGB, ərizə və lazım olduqda diger (qaimə- lər, konosament, hesab-faktura və s.) sənədlər təqdim edir. Bu rejimin tətbiqində maraqlı şəxs ərizəsində məhv edilməsi gərəkən predmeti (malın adı, miqdan və yeri) dəqiq müəyyən etməli, malın dövriyyədən çıxanimasmın səbəbini, məhvetmənin üsulunu, gününü və yerini bildirməli, məhvetmə nəticəsində əmələ gələn qalıq və tullantılar barədə məlumat təqdim etməlidir. Bundan başqa ərizəçi məhvedilmə barədə aktın müəyyən edilmiş müddətdə gömrük orqanına təqdim edilməsi üçün öhdəlik götürür. Məhvedilmə aktı YGB ilə birlikdə gömrük orqanında qalır. Məhvedilmə aktı sərbəst formada tərtib edilir, lakin aşağıdakı məlumatlann əhatə edilməsi məcburidir:

1) tərtib edilmə tarixi;
2) mal və nəqliyyat vasitələrinin adı, fərdi əlamətləri, miqdan;
3) məhvedilmənin üsulu, tarixi və yeri;

4) əmələ gələn qalıqların (tullantıların) adı, tərdi əlamətləri və miqdan;

5) məhvetmə zamanı iştirak edən şəxslərin siyahısı.

Gömrük orqanı məhvetmənin yalnız gömrük orqanının vəzifəli şəxsinin iştirakı ile apanla bilməsi barədə qərar qəbul edə bİlər. Bu halda deklarantın ərizəsində xüsusi qeydlər edilir.

Məhvetmə aktı mallan keçirən şəxsin səlahiyyətli nümayəndəsi, həmçinin gömrük orqanının vəzifəli şəxsi tərəfindən imza və möhürlə təsdiq edilir.

Məhvetmə rejimində gömrük rəsmiləşdirilməsinin yeri:

a) gömrük anbarı, rüsumsuz ticarət mağazası, gömrük ərazisindən kənarda emal, gömrük nəzarəti altında emal, müvəqqəti idxal, sərbəst gömrük zonası, sərbəst anbar, təkrar ixrac rejimləri altında yerləşdirilmiş mallar üçün - bu malları şəxsin sərəncamına seçilmiş rejimə uyğun olaraq vermiş gömrük orqanının yerləşdiyi yer;

b) Azərbaycanın gömrük ərazisinə gətirilən mal və nəqliyyat vasitələri, gətirilmiş və tranzit gömrük rejimi altmda yerləşdirilmiş və ya gömrük nəzarəti altında daşınma qaydalan ilə gömrük ərazisində bir yerdən djgərinə apanlan mallar üçün - bu tip malların və nəqliyyat vasitələrinin xidmət zonasında olduğu gömrük orqanımn yeri.

Mal və nəqliyyat vasitələrinin məhvetmə gömrük rejimi altında yerləşdirilməsi üçün icazə verilməsi qərarım müvafiq gömrük orqanının rəisi və ya onu əvəz edən şəxs qəbul edir. Belə qərann qəbul edilməsində gömrük orqanının rəhbəri gömrük qanunvericiliyini əsas tutur.

Məhvetmə rejiminin hüquqi tənzimlənməsinin spesifikası tullantılann (qalıqların) əlahiddə gömrük rəsmiləşdirilməsi qaydasında özünü büruzə verir. Bütün tullantılar (qalıqlar) bu vəziyyətdə Azərbaycanın gömrük ərazisinə gətirilmiş xarici mallar kimi gömrük rəsmiləşdirilməsindən keçməlidir.

Tullantıların gömrük rəsmiləşdirilməsinin yerini məhvetmə rejiminə icazə vermiş gömrük orqanı öz mülahizələrinə görə müəyyən edir. O müəyyən edə bilər ki, tullantılar müvəqqəti saxlanc anbarında yerleşdirilsin. Gömrük bəyannaməsinin təqdim edilmə

müddəti, adətən, mallann faktiki mohv edilmə tarixindən 7 günədək müəyyən edilir.

Aşağıdakı hallarda gömrük rüsumu, vergisi və s. tutulmur;

1) əgər tullantılann (qalıqlann) sonrakı istifadəsi mümkün deyilsə, yəni onlar basdınlıbsa (batırılıb, yandırılıb);

2) tullantıların gömrük dəyəri cüzidirsə (məsələn, 20 ABŞ dollarından azdırsa).

Hər iki halda bəyanetmə tullantılar barədə məlumatın ərizədə və məhvetmə aktında qeyd edilməsi yolu ilə həyata keçirilir.

*Dövhtin xeyrinə maldan imtina gömrük rejiminin hüquqi təntimlənməsinin xüsusiyyətləri*

Gömrük Məcəlləsinə görə bu rejimdə mallann sahibi gömrük rüsum və vergiləri ödəmədən, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən mallardan dövlətin xeyrinə imtina edir (GM, 103-cü maddə).

Malından dövlətin xeyrinə imtina edən şəxs mallan öz vəsaiti hesabına gömrük orqanı tərəfindən müəyyən edilmiş yerə çatdırmalıdır.

Malın mülkiyyətçisinin dəyişilməsi faktını təsdiq edən sənəd tehvilverilmə aktıdır. Bu sənəd ciddi maliyyə hesabat sənədidir və deklarantın xahişi ilə iki nüsxədə tərtib edilir. Bir nüsxə gömrük orqanında, digəri isə maldan dövlətin xeyrinə imtina edən şəxsdə qalır.

Aktda aşağıdakı məlumatlar əks etdirilməlidir:

1) sənədin tərtib edilmə tarixi;

2) malı təhvil verən təşkilatın, müəssisənin adı;

3) mah qəbul edən gömrük orqanının adı;

4) təhvil verilən mallann adı, fərdi əlamətləri və miqdar xarakteristikaları.

Akt təhvil verən və qəbul edən tərəflərin imza və möhürləri ilə təsdiq edilir. Gömrük orqanı adından aktı maddi-məsul vəzifə tutan

Qamınvericiliyo görə, dövlətin xeyrinə imtina rejimində gömrük yığımı tutulmur.

Rejimin maliyyə-hüquqi xüsusiyyətlərini deklarantın bəzi məbləğləri geri qaytarılmasını tələb etmək hüququ təşkil edir:

- Birincisi, gömrük orqanının depozitinə gömrük rüsum və vergilərinin ödənilməsinin təminatı kimi qoyulmuş məbləğlər qaytanhr;

- İkincisi, malların təkrar ixrac və gömrük ərazisində emal rejimləri altında yerloşdirilərkən ödənilmiş idxal rüsumları, əlavə dəyər vergisi və aksizlər deklaranta qaytarılmalıdır;

-Üçüncüsü, mallar gömrük ərazisindən kənarda emal gömrük rejimi altında yerloşdirilərkən ödənilmiş ixrac gömrük rüsumlan (əgər qanunvericilikdə nəzərdə tutulmuşsa) qaytarılmalıdır.

İxrac və müvəqqəti ixrac rejimləri bəyan etmişsə və əgər mallar faktiki olaraq Azərbaycanın gömrük ərazisindən çıxanlmamış- sa, deklarant ödəmiş olduğu ixrac rüsumlarını geri ala bilər.

Müvəqqəti idxal edilmiş mallara görə ödənmiş idxal gömrük rüsumu, ƏDV vo aksizlər sonradan dövlət xeyrinə maldan imtina

### *4,3, Azerbaycan Respublikasının gömrük serhedinden nəqliyyat vasitələrinin* va *malların ayn-ayn növlərinin keçirilməsi*

Gömrük Məcəlləsi müəyyən edir ki, nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi gömrük bəyannaməsində göstərilən konkret gömrük rejiminə uyğun olaraq reallaşdınlır (GM, 105-ci maddəsi).

Həm əmtəə kimi gömrük sərhədindən keçirilən nəqliyyat vasitələri, həm də sərnişin vo yüklərin beynəlxalq daşınmalannda istifadə edilən nəqliyyat gömrük qanunvericiliyi tənzimlənməsinin predmetidir.

Gömrük Məcəlləsinə göre nəqliyyat vasitələrinin daşıyıcısı;

l) gömrük sərhədinin keçilməsi vaxtını və yerini gömrük orqanları ilə razılaşdırmalıdır;

2) sərhəddən keçirilən nəqliyyat vasitəsini gömrük orqanlarının müəyyən etdiyi yerdə saxlamalıdır. Bu vəzifənin yerinə yetirilməməsi gömrük orqanlarına həmin nəqliyyat vasitəsinin məcburi saxlanılması hüququnu verir;^

3) nəqliyyat vasitəsinin dayanacaq yerini yalnız gömrük orqahiannın icazəsi ilə tərk etməlidir.

Gömrük rəsmiləşdirilməsi və nəzarəti apanlarkən nəqliyyat vasitəsinin dayanmaq müddəti daşıyıcı ilə razılaşdınimaqla gömrük orqanı tərəfindən müəyyən edilir. Bu zaman gömrük rəsmiləşdir ilməsinin bütün məsələləri nəzərə alınmalıdır.

Valyuta qanunvericiliyinin əsas mənbələrindən biri 21 oktyabr 1994- cü il tarixli 910 saylı “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanunudur,

Bu qanun Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, hüquqi və fİzİki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istiva- də etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir.

### *4.4. Beynalxatq poçt göndorişhrina gömrük nozarəti*

Poçt mübadiləsinin təşkili və inkişafı çox qədimdən bütün dövlətlərin maraq dairəsinə daxil edilir.

İlk dəfə beynəlxalq poçt əlaqəsinin nizama salınması məsələsi ABŞ tərəfindən 1862-ci ildə qaldırılıb.

İlk poçt Konqresi 1874-cü üdə İsveçrədə çağırılıb. 1878-ci ildən Ümumdünya Poçt İttifaqı (ÜPİ) fəaliyyət göstərir. ÜPİ üç əsas prinsipi öz fəaliyyətində rəhbər tutur:

- ərazilərin birliyi, yəni onun işində bütün ölkələr iştirak edə bilər;
- tranzit azadlığı - heç bir ölkə poçtun öz ərazisindən daşınmasına

- vahid tariflər - tariflər Ümumdünya Poçt Konvensiyasına əsasən müəyyən edilməlidir.

Ümumdünya Poçt İttifaqının (ÜPİ) orqanlan Konqres, İcraiyyə Şurası, Poçt Öyronişləri Məşvərət Şurası və Beynəlxalq bürodur. ÜPİ-nin ali orqanı Konqresdir.

Ümumdünya Poçt Konvensiyası (ÜPK) və onun icraiyyə reqlamenti, beynəlxalq poçt xidmətində tətbiq edilən ümumi qaydaları və yazışma poçt xidmətləri barədə əsasnaməni özündə cəmləşdirir.

ÜPİ nizamnaməsində milli qanunvericiliklərin prioriteti öz əksini tapmışdır. Belə ki, 24-cü maddəyə görə: "... İttifaqın qərarları heç bir ölkənin qanunvericiliyini poza bilməz"...

Gömrük nəzarətinə cəlb olunan göndərişlərin qəbulu və göndərilməsi şərtləri ÜPK-nm 116-cı maddəsi ilə tənzimlənir:

i. Gömrük nəzarətinə cəlb edilməli olan göndərişlər, yapışdın- lan yaşıl yarlika malik olmalıdırlar.

Yapışdırılmış Sİ yarlıklı ünvan tərəfində, mümkün olduqca yuxan sol küncdə, lazım gəldikdə isə göndərənin soyadı və ünvanının altında yerləşdirilir. Əgər göndərən şəxs göndərişinin dəyərinin 91 8,3 qızıl frankdan baha olduğunu elan edirsə, onun arzusu ilə göndərişlərə bundan başqa, S2/SR3 formasına uyğun gömrük bəyannaməsi də əlavə edilə bilər.

Beynəlxalq poçt göndərişləri gömrük nəzarətinə beynəlxalq poçt mübadiləsi yerlərində, sahiblərinin iştirakı olmadan cəlb edilir. Beynəlxalq poçt mübadiləsi yerləri Azərbaycan ərazisindən gedən və xaricdən ölkəyə gələn, həmçinin tranzit poçtun emalının və gömrük nəzarətinin aparıldığı rabİte müəssisələrinə deyilir. Beynəlxalq poçt mübadiləsi yerlərinin müəyyən edilməsi, yaxud də- yişdirilmosi Rabitə Nazirliyi tərəfindən Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmalıdır.

Beynəlxalq poçt mübadiləsi yer və məntəqələri öz fəaliyyətində aşağıdakı normativ aktlan rəhbər tuturlar:

- Ümumdünya Poçt ittifaqının aktlan;
- Beynəlxalq poçt mübadiləsi yerlərində beynəlxalq poçtun emalı və göndərilməsi qaydaları;

~ Beynəlxalq poçt mübadiləsi yerlərində və poçt v^onlannda beynəlxalq poçtun emalı, başqa yerə göndərilməsi və uçotu qaydalan;

- Beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti qaydaları.

Rabitə müəssisələri poçt göndərişlərini onlar tərəfindən bu iş üçün ayrılmış və işin həcmi nəzərə alınmaqla təchiz edilmiş yerlərdə Azərbaycan Respublikasının nəzarətinə təqdim edirlər.

Poçt göndərişlərinin açılması, çəkilməsi və qablaşdıniması rabitə müəssisəsinin işçiləri tərəfindən gömrük əməkdaşlarının iştirakı ilə apanlır. Göndərilən predmetlərin sayılması, ölçülməsi və çəkilməsi gömrük işçiləri tərəfindən rabitə müəssisəsinin əməkdaşları ilə birgə həyata keçirilir.

Ayn-ayrı fiziki şəxslər tərəfindən göndərilən və alman beynəlxalq poçt göndərişlərində o adresatlann şəxsi tələbatına aid əşyaların göndərilməsinə yol verilir.

Poçt rabitəsi kanalı, həmçinin, gömrük rəsmiləşdirilməsi qaydalarının tələblərinə uyğun olaraq hüquqi şəxslər tərəfindən yük gömrük bəyannaməsi doldurulmaqla və tətbiq edilən tariflərə uyğun olaraq gömrük ödəncləri ödənilməklə istifadə edilə bilər.

# Mövzu 5. Gömrük rəsmiləşdirilməsi

## *5.1. Əsas prinsiplər*

Gömrük rəsmiləşdirilməsi - mal və nəqliyyat vasitələrinin Gömrük Məcəlləsinin tələblərinə uyğun olaraq müəyyən gömrük rejimi altında yerləşdirilməsi və bu rejimin təsirinin (fəaliyyətinin) bitirilməsi əmoliyyatlannın məcmusudur.

Gömrük rəsmiləşdirilməsi, həmçinin, mal və nəqliyyat vasitələrinin Azərbaycanın gömrük sərhədindən keçirilməsinə gömrük nəzarətinin təmin edilməsi və belə keçirilməyə dövlət tənzimləmə vasitələrinin tətbiq edilməsi məqsədi ilə gömrük orqanmın vəzifəli şəxsləri tərəfindən apanlan əməliyyatlann məcmusu kimi də anlaşıla bilər.

Gömrük rəsmiləşdirilməsi qaydaları həm Gömrük Məcəlləsinin müddəaları, həm də Azərbaycan Respublikası qanunvericiliyinin digər aktları ilə müəyyən edilə bilər. Qanunvericilik dedikdə, təkcə qanunlar deyil, hom də Azərbaycan Respublikasının icra hakimiyyəti orqan tannın, ilk növbədə Dövlət Gömrük Komitəsinin qanun qüvvəli aktları nəzərdə tutulur.

Məsələn, “Azərbaycan Respublikasının gömrük buraxılış məntəqələrindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsi qaydaları üzrə təlimat”.

Gömrük rəsmi ləşdirilməsinin hüquqi tənzimlənməsi qanunvericilik aktlan ilə yanaşı beynəlxalq konvensiyalarla nəzərdə tutulmuş normalarla da həyata keçirilə bilər. BYD kitabçaları tətbiq edilməklə Beynəlxalq yük daşımaları Konvensiyası avtonəqliyyat vasitələri və konteynerlərlə daşınan yüklərin gömrük rəsmiləşdirilməsinin qayda və şərtlərini tənzimləməklə ümumilikdə qəbul edilmiş normalar kimi mühüm əhəmiyyət kəsb edir.

*Gömrük r9smilaşdirilm3si icraatının yeri V3 vaxtı*

Gömrük Məcəlləsinə görə gömrük rəsmiləşdirilməsi, bu iş üçün gömrük orqanının fəaliyyət göstərdiyi, mal göndərən və ya müəssisənin, yaxud onun struktur bölməsinin yerləşdiyi ərazidə, xüsusi müəyyən edilmiş yerlərdə həyata keçirilir. Gömrük rəsmiləşdirilməsi gömrük orqanının müəyyən edilmiş iş vaxtı ərzində həyata keçirilməlidir. Gömrük orqanlarının iş rejimi DGK ilə razılaşdırılmalıdır. Bununla belə, Gömrük Məcəlləsi gömrük rəsmiləşdiril- məsinin digər yerlərdə və gömrük orqanının iş vaxtından kənar vaxtlarda da həyata keçirilməsini mümkün sayır. Bunun üçün maraqlı şəxs gömrük rəsmiləşdir ilməsini aparan gömrük orqanının razılığını almalıdır və bu halda meydana çıxan bütün xərclər maraqlı şəxs tərəfindən ödənilir. Başqa yerlərdə və iş vaxtından kənar vaxtda da aparılan gömrük rəsmiləşdirilməsi əməliyyatları üçün ikiqat haqq almır.

Dövlət Gömrük Komitəsi ayn-ayn kateqoriyalı mallann və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin apanimasmı müəyyən gömrük orqanlanna həvalə edə bilər. Məsələn, DGK-nm 20 fevral 1998-ci il tarixli 002 saylı əmri ilə idxal edilən aksizli malların mərkəzləşdirilmiş qaydada gömrük rəsmiləşdirilməsini təşkil etmək, aksiz markalannm tətbiqinə nəzarəti gücləndirmək məqsədi ilə fəaliyyət zonası bütövlükdə Azərbaycan Respublikasmm gömrük ərazisi olan yeni struktur vahidi - Aksiz gömrük postu yaradılmışdır.

Xarici iqtisadi fəaliyyət İştirakçıları tərəfindən, idxal olunan və gömrük ərazisindən keçirilən eti! (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatlannın gömrük rəsmiləşdirilməsini bu post həyata keçirir.

Gömrük rəsmiləşdirilməsinin yerinin və vaxtının müəyyən edilməsi bir sıra faktorlardan asılıdır;

1) keçirilən malın xarakter və xassələri (məsələn, aksizli malların gömrük rəsmiləşdirilməsinin xüsusiyyətləri və s.);

2) mallann daşındığı nəqliyyat növü (gəmi, qatar (vaqon), avtomobil);

3) keçirilən malların rəsmiləşdirildiyi gömrük rejimləri;
4) keçirilən malların mənşə ölkəsi;
5) malların göndəricisinin, yaxud alıcısının yerləşdiyi yer.

Gömrük rəsmiləşdirilməsi yerləri müvajfiq gömrük rejimləri üzrə hazırlanan təlimatlarla da müəyyən edilə bilər.

"Azərbaycan Respublikası gömrük sərhədindən boru kəməri nəqliyyatı və elektrik ötürücü xətləri üzrə keçirilən malların gömrük rəsmiləşdirilməsi haqqında" təlimat Gömrük Komitəsinin 03 iyun 1997-ci il tarixli 561 saylı əmri ilə təsdiq edilmişdir.

Əgər mallar gömrük sərhədindən keçənədək birdən artıq nəqliyyat növündən istifadə edilirsə (boru kəməri - dəmiryol, gemi-dəmiryol və s-), ixracatçı yükləmə-boşaltma əməliyyatlarının yerinə yetirildiyi zonaya nəzarət edən gömrük orqanına, gönMäik nəzarətini həyata keçirən gömrük orqanı tərəfindən rəsmiləşdirilmiş gömrük bəyannaməsinin bu orqan tərəfindən təsdiq edilmiş surətini təqdim etməlidir.

Əgər mallar gömrük sərhədindən keçənədək iki vo daha çox nəqliyyat növündən istifadə edilirsə, gömrük rəsmiləşdirilməsi malların doldurulub-boşaldıldığı son yerin fəaliyyət zonasına daxil olduğu gömrük orqanı tərəfindən həyata keçirilir.

Əgər faktiki ixrac (idxal) dəniz nəqliyyatı ilə həyata keçirilirsə, gömrük rəsmiləşdirilməsi dəniz nəqliyyatının yükləndiyi əraziyə nəzarət edən gömrük orqanı tərəfindən həyata keçirilməlidir.

Mal vo nəqliyyat vasitələrini gömrük sərhədindən keçirilən şəxslər, daşıyıcı, anbar sahibi, eləcə do mal və nəqliyyat vasitələrinə münasibətdə səlahiyyətlərə malik digər şəxslər gömrük rəsmiləşdirilməsi yerinə daxil olmaq hüququna malikdirlər. Gömrük orqanı onlann iştirakını tələb etdikdə bu hüquq vəzifəyə çevrilir, belə ki, bu mərhələdə adı çəkilən şəxslər gömrük rəsmiləşdirilməsi zamanı bu orqanın vəzifəli şəxslərinə kömək etməlidirlər. Belə kömək dedikdə, GM-nin 132-ci maddəsində göstərilən əməliyyatlar, prob və nümunələrin götürülməsi nəzərdə tutulur.

Gömrük rəsmiləşdirilməsi Azərbaycan dilində aparılır. Bununla belə Gömrük Məcəlləsinin 141-cİ maddəsinin 3-cü bəndinə və

171-ci maddəsinin 3-cü bəndinə və 171-cİ maddəsinin 5-ci bəndinə əsasən Dövlət Gömrük Komitəsinin icazəsi ilə rəsmiləşdirməni aparan gömrük orqanına bu orqanın vəzifəli şəxslərinin bildiyi xarici dildə tərtib edilmiş sənədlər təqdim oluna bilər.

Bir dövlətin ərazisində verilmiş və hüquqi qüvvəsi olan sənədlər digər dövlətin ərazisində, beynəlxalq müqavilə və sazişlərdə başqa hal nəzərdə tutulmamışsa, yalnız müəyyən edilmiş qaydada təsdiq edildikdən (şəhadətləndirildikdən) sonra istifadə oluna bitər. Məsələn, mülki, ailə-cinayət işləri üzrə hüquqi münasibətlər və hüquqi yardım barədə 22 yanvar 1993-cü ildə qəbul edilmiş Beynəlxalq Konvensiyaya görə, bu konvensiyanın üzvü olan Ölkələrin birinin ərazisində sənədlər ona verilmiş səlahiyyətlər daxilində və müəyyən edilmiş formada xüsusi səlahiyyətli orqan və ya təşkilat tərəfindən hazırlanmış, yaxud şəhadətləndirİlməsi (leqallaşdırılması) tələb olunmur. Belə sənədlərə təkcə notarius təsdiqi yetərli olur.

Təcrübədə xarici sənədlərin şəhadətləndirilməsinin daha çox iki üsulunda istifadə edilir; konsul leqallaşdınıması, apostil qoyulması.

Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən, baytarlıq fitosanitar, ekoloji və digər dövlət nəzarəti növlərinə cəlb edilməsi gərəkən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi, yalnız belə keçirilməyə səlahiyyətli dövlət orqanları tərəfindən verilmiş icazənin gömrük orqanlanna təqdim edilməsindən sonra həyata keçirilə və bitirilə bilər.

### **5.2.** *Xarici ticarət əmaliyyatlarının t9nütnhnməsinin spesifik xüsusiyy9tiəri*

İxrac əməliyyatlan üzrə:

Respublikada istehsal, emal, təkrar emal olunan mallann ixracı

Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan mallann İxracında Rezidentlər sərbəstdirlər və Qaydalarda nəzərdə tutulmuş hallar istisna olmaqla onların fəaliyyətinə məhdudiyyət qoyula bilməz.

Bu qaydalann 7 və 8-ci bəndlərində göstərilən mallardan başqa Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan bü

tün digər malların ixracı gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

*Kreditə ixrac əməliyyatları*

Kreditə ixrac faktiki mal (xidmət və əqli mülkiyyət) ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixrac əməliyyatlanm nəzərdə tutur.

Dövlət müəssisələri və əmlakında dövlətin yekun payı 50%-dən yuxarı olan digər müəssisələr tərəfindən mallann (xidmət və əqli mülkiyyətin) kreditə ixracı, bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə aparılır.

Digər şəxslər tərəfindən mallann kreditə ixracı gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş mallar həmin mallann deyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

*Təkrar ixrac (reeksport) əməliyyatları*

Təkrar ixrac əməliyyatlan Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan xarici mənşəli mallann yenidən işlənmədən digər xarici ölkələrə ixrac əməliyyatlanm nəzərdə tutur.

Təkrar ixrac əməliyyatlan üzrə bağlanmış müqavilələr, Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərində tələb olunan hallarda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər hallarda isə gömrük orqanlannda bəyan edilməklə ixrac olunur.

Təkrar İxrac məqsədilə gətirilmiş mallann gömrük rəsmiləşdirilməsi zamanı təşkilat müvafiq gömrük orqanına müraciət etməlidir.

Təkrar ixrac üçün respublikaya gətirilmiş alkoqollu içkilər, etil (yeyinti) spirti, tütün məmulatının təkrar İxrac rejimində yerləşdirilməsi Dövlət Gömrük Komitəsində qeydə alındıqdan sonra həyata keçirilir.

Gömrük qanunvericiliyinə əsasən təkrar ixrac üçün gətirilmiş

raadığı təqdirdə gömrük rüsumlarının, aksiz və əlavə dəyər vergilərinin ödəyəcəyi barədə təşkilat tərəfindən gömrük orqanına zəmanət məktubu və müvafiq bank zəmanəti təqdim edilir.

YGB-nin 44-cü qrafasmda malların gömrük ərazisindən çıxarılmasının son günü (gömrük bəyannaməsi qəbul edildiyi gündən altı aydan gec olmayaraq) qeyd olunmaqla və təşkilatın səlahiyyətli nümayəndəsinin imzası, həmçinin möhürü ilə təsdiq edilir.

Təkrar ixrac üçün gətirilmiş mallar xüsusi olaraq aynimış və hazırlanmış binalarda və ya müvəqqəti saxlanc anbarlarına yerləşdirilir.

Azərbaycan Respublikasının gömrük ərazisinə təkrar ixrac üçün gətirilmiş malların bu ərazinin hüdudlarından kənara aparılması Dövlət Gömrük Komitəsi tərəfindən “İcazə vərəqəsi" verildikdən sonra rəsmiləşdirilir.

Naxçıvan Muxtar Respublikasında malların təkrar ixracına icazəni Naxçıvan MR Gömrük Komitəsi verir.

“İcazə vərəqəsi” almaq üçün Dövlət Gömrük Komitəsinə (Naxçıvan MR Gömrük Komitəsinə) edilmiş müraciət ilə birlikdə aşağıdakı sənədlər təqdİm edilməlidir.

- təkrar ixrac məqsədilə gətirilmiş mallann idxal yük-gömrük bəyannaməsi;
- yol nəqliyyat sənədləri (qaimə);
- invoys əmtəə dəyərini əks etdirən sənəd;
- bağlanmış müqavilə;
- malın keyfiyyət və mənşə sertifikatları;
- malın dəyərinin qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə bank sənədi;
- təkrar ixrac məqsədilə gətirilmiş mah rəsmiləşdirilmiş gömrük əməkdaşının şəxsi nömrəli möhürü ilə təsdiq olunmuş yazılı rəyi;
- mallann təkrar ixracına icazə verilməsi üçün zəruri olan digər sənədlər.

Təkrar ixrac üçün edilmiş müraciətə 10 (on) gün müddətində baxılmalıdır.

Təkrar ixrac üçün edilmiş müraciətə baxan inspektor sənədlərin düzgünlüyünə görə tam məsuliyyət daşıyır.

“İcazə vərəqəsi" üç nüsxədə verilir. Bir nüsxə Dövlət Gömrük Koınitosində saxlanılır, digor nüsxələr ərizəçiyə qaytarılır (bir nüsxə malı rəsmiləşdirən gömrük orqanına ərizəçi tərəfindən təqdim edilir).

Azərbaycan Respublikasının Qanunvericilik aktlarında və dövlətlərarası müqavilələrdə müəyyən edilən hallarda bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçdikdən vo Dövlət Gömrük Komitəsindən (Naxçıvan MR Gömrük Komitəsindən) “İcazə vərəqəsi” verildikdən sonra rəsmiləşdirilir.

Təkrar ixrac məqsədilə gətirilmiş malların Azərbaycan Respublikasının hüdudlarından kənara apanimasını rəsmiləşdirən gömrük orqanı sərhəd çıxış gömrükxanasma məlumat verir. Sərhəd çıxış gömriikxanası həmin malın gömrük ərazisindən çıxanhb-çıxanlma- ması barədə 3 (üç) gün müddətində malı rəsmiləşdirən gömrük oranına cavab vennəlidir. Göstərilən müddət ərzində təkrar ixrac məq- sədilo gətirilmiş mallann Azərbaycan Respublikasının ərazisindən çıxarılması faktı təsdiq edilmədikdə (və ya molumat daxil olmadtq- da) mah rəsmiləşdirən gömrük orqanı müvafiq tədbirlər görməlidir.

Mallann təkrar ixracı zamanı YGB-in doldurulması “Yük gömrük boyannamələrinin doldurulması” Qaydalarına uyğun olaraq həyata

*Konsiqnasiya yolu itə ixrac əməliyyatları*

Konsiqnasiya yolu ilə ixrac əməliyyatlan xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı müəyyən müddət ərzində aparılan mallann ixracını nəzərdə tutur.

Konsiqnasiya ticarəti üçün aynlan müddət mallann gömrük orqanlarında bəyan edildiyi gündən etibarən 180 günə qədər müəyyən olunur. Satışda əldə edilən vəsaitlər, mallar satıldıqca 10 bank günündən gec olmayaraq ixracatçının Azərbaycan Respublikasındakı bank hesabına daxil olmalıdır. Mallar yuxanda göstərilən müddətdə satılmadıqda 30 gün ərzində Azərbaycan Respublikasına

Dövlət müəssisələri tərəfindən maIIunn konsiqnasiya yolu ilə ixracı bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə aparılır.

Dövlət müəssisəsi olmayan digər rezidentlər tərəfindən malların konsiqnasiya yolu ilə ixracı gömrük orqanlannda bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş mallar həmin malların dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilor.

### *Müvəqqəti ixrac dm^liyyattan*

Müvoqqəti ixrac əməliyyatları xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə, yannarkalarda iştirak və s. üçün malların yenidən işlənmədən Azərbaycan Respublikasına qaytarılması şərtilə ixrac əməliyyatlarını nəzərdə tutur.

Dövlət müəssisələri tərəfindən müvəqqəti ixrac əməliyyatları üzrə bağlanmış müqavilələr Ticarət Nazirliyində qeydiyyatdan keçirilməklə, digər rezidentlər tərəfindən isə gömrük orqanlarında bəyan edilməklə icra olunur.

Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göndərilmiş mallar bağlanmış müqavilələrlə nəzərdə tutulmuş müddətlər bitdikdən sonra 30 gündən gec olmayaraq Azərbaycan Respublikasına qaytarılmalıdır. Həmin mallar İqtisadi İnkişaf Nazirliyinin icazəsi ilə istifadə olunduqları ölkələrdə satıla bilər. Bu satışda əldə olunan valyuta ixracatçının Azərbaycan Respublikasındakı bank hesabına 10 gün müddətində daxil olmalıdır.

Dövlət müəssisəsi olmayan digər rezidentlər tərəfindən müvəqqəti ixrac olunmuş mallar bu Qaydalara və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müvafiq gömrük rüsumları ödonilmoklo istifadə olunduqları ölkələrdə satıla bilər. Digər halda bağlanmış müqavilələrlə nəzərdə tutulmuş müddətlər bitdikdən sonra həmin mallar 30 gündən gec olmayaraq Azərbaycan Respublikasına qaytarılmalıdır.

*İDXAL ƏMƏLIYYATLARI ÜZRƏ:*

## *Rezidentlərin öz vəsaitləri hesabına idxal*

Rezidentlər tərəfindən öz vəsaitləri, konsiqnasiya və ya dövlət zəmanətinə əsaslanmayan kreditlər hesabına aparılan idxal əməliyyatları üzrə bağlanmış müqavilələr (Nazirlər Kabinetinin sərəncamları və müvafiq dövlət orqanlanndan rəy və lisenziya alınmaqla aparılan idxal və ixrac əməliyyatları istisna olmaqla) gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

Rezidentlərin idxal etdikləri malların gömrük dəyərlərinə nəzarət gömrük orqanları tərəfindən həyata keçirilir.

Konsiqnasiya ticarəti yolu ilə mal idxal edən bütün Rezidentlər bu malların satışından əldə olunmuş vəsait (manat) ilə valyuta bir-jalanndan valyuta alıb konsiqnatorlarla hesablaşa bilərlər.

*DÖVLƏT TƏNZIMLƏNMƏSİ NƏZƏRDƏ TUTULAN*
*DİGƏR İXRAC-İDXAL ƏMƏLİYYATLARI ÜZRƏ:*

*Nazirlər Kabineti tərəfindən aparılan*
*ixrac-idxal əməliyyatları*

İdxalı və ixracı müstəsna olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sərəncamları əsasında apanlan mallar aşağıdakılardır;

- silah və hərbi texnika, onların istehsalı üçün zəruri olan ehtİy-yat hissələri;
- bant, partlayıcı maddələr, partlayış və pirotexnika vasitələri;
- nüvə materialları, texnologiyalan, avadanhqlan və qurğulan, xüsusi qeyri-nüvə materialları, radioaktiv tullantılar da daxil olmaqla radioaktiv şüalanma mənbələri;
- narkotik və psıxotrop vasitələr, kimyəvi zəhərlər;
- silahlanma və hərbi texnikanın yaradılması üçün istifadə olunan elmi-texniki məlumatın və texnologiyalann, material və

Həmin malların kreditə, konsiqnasiya yolu ilə, həmçinin, sərhədyanı ticarət çərçivəsində ixracına yol verilmir.

*Müvafiq dövlət orqanlarından rəy*
*və lisenziya alınmaqla aparılan*
*idxal-ixrac əməliyyatları*

Aşağıdakı spesifik malların və əqli mülkiyyətin idxalı və ixracı bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində ekspertizadan və qeydiyyatdan keçirilməklə həyata keçirilir. İqtisadi İnkişaf Nazirliyi bu mallar üzrə ekspertiza keçirərkən onların idxalı və ya ixracı barəsində müvafiq dövlət orqanlarının rəyini və tələb olunduqda, razılığını almalıdır:

I.- çöl heyvanları, yabanı bitkilər və qazıntılar nəticəsində tapılmış heyvan sümükləri - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin;

-vəhşi heyvanlardan və yabanı bitkilərdən dərman istehsalı üçün xammal; ilan, böyə və əqrəb zəhərləri - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin;

-Azərbaycan Respublikası ərazisində, quruda və dəniz iqtisadi zonası hüdudlarında yerləşən istilik eneıji və mineral xammal yataqlan haqqında yə rayonlar üzrə məlumat - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin;

-İxtiralar, “Nou Hau" və elmi-tədqiqat işlərinin nəticələri, incəsənət əsərləri, kolleksiya əşyaları və əntiq mallar - Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəyi nəzərə alınmaqla ixrac edilə bİlər;

II.- bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələr baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatları Azərbaycan Respublikası Kənd Təsənüfatı Nazirliyinin;

-dərman preparatları və tibbi ləvazimatlar - Azerbaycan Respublikası Səhiyyə Nazirliyinin;

Azorbaycatı Respublikası orazisİndo xidmətlərin göstərilməsi;

- inşaat fəaliyyəti (mühəndis-axtarış, layihə, tikinti-quraşdırma və buraxılış-sazlama işləri) - Dövlət Tikinti və Arxitektura Komitəsinin, Ekologiya vo Təbii Sərvətlər Nazirliyinin;

- yük vo sərnişin daşınması, nəqliyyat ekspeditor xidmətləri - Azərbaycan Nəqliyyat Nazirliyinin;

- rabitə xidmətləri (beynəlxalq, şohərlorarası, şəhər, kənd, şanvari (sellülar), reysinq, radiotrank, kabel televiziyasının qurulması vo istismarı, sürətli poçt xidmətlərinin göstərilməsi xidmətlərinin göstərilməsi) - Rabitə Nazirliyinin;

- vəkillik və digər hüquqi xidmətlər - Ədliyyə Nazirliyinin razılığı ilə idxal oluna bilər.

Yuxarıda göstərilən malların kreditə, konsiqnasiya yolu ilo, həmçinin sərhodyanı ticarət çərçivəsində ixracına yol verilmir.

Etil (yeyinti) spirti, alkoqollu içkilərin, tütün məmulatlarının idxalını (ixracını) həyata keçirən rezidentlor Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyindən lisenziya almalıdırlar.

*Barter s^ıaliyyatlan*

Barter əmoliyyatlan dəyəri ödənilınodon ekvivalent məbləğdə qarşılıqlı mal (xidmət və əqlİ mülkiyyət) mübadiləsini nəzərdə tutur.

Barter əməliyyatlarında ekvivalent mobləğdə mallann göndərilməsi və alınması müddəti 90 gün qədər müəyyən olunur. Ekvivalent məbloğdo qarşılıqlı mal mübadiləsi bü müddətdə başa çatmazsa hesablaşma müqavilodə göstərilən valyuta ilo 10 bank günü ərzində yerinə yetirilməli və vəsait ixracatçının Azərbaycan Respublikasındakı bank hesabına köçürülməlidir.

Barter əmoliyyatlan üzrə göndərilən və gətirilən mallann gömrük bəyannamələrinin bir nüsxəsi mal bəyan olunduğu tarixdən etibarən 7 gün ərzində gömrük orqanları tərəfindən müvəkkil banklara və İqtisadi İnkişaf Nazirliyinə göndərilir.

Dövlət müəssisələri və əmlakında dövlətin yekun payı 50 faizdən yuxarı olan digər müəssisələr tərəfindən bağlanmış barter mü-

qavilolori İqtisadi İnkişaf Naziri iyindo qeydiyyatdan keçirilməklə, digər rezidentlər tərəfindən bağlanmış barter müqavilələri gömrük orqanlarında boyan edilmoklo həyata keçirilir.

90 gün ərzində ekvivalent məbləğdə mal alınmadıqda vo qarşılıqlı hesablaşma aparılmadıqda alınmayan malın dəyəri gizlədilmiş gəlir hesab edilir vo mal göndərən rezidentlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

*Kooperasiya amaliyyatları*

Kooperasiya əməliyyatları xammal, yarımfabrikatlar və məhsulların bu vo ya digər (təmir, emal, son məhsul şəklinə gətirmə, qablaşdırma və s.) məqsədlə müvəqqəti olaraq ixracım (və ya idxalını) nəzərdə tutur.

Dövlət müəssisələri tərəfindən malların kooperasiya əməliyyatları ilə ixracım (və ya İdxalım) nəzərdə tutan müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər Rezidentlər tərəfindon isə gömrük orqanlannda boyan olunmaqla icra olunur.

*S^rhadvanı ticarM*

Sərhədyanı ticarət, müstəsna olaraq müvafiq sərhədyanı ərazi çərçivəsində istehsal olunan, eləcə do müvafiq sərhədyanı ərazi çərçivəsində istehlakı nəzərdə tutulan mallara münasibətdə yerli ehtiyacların Ödənilməsi üçün Azərbaycan Respublikasının sərhədyanı ərazisində daimi yaşayış yeri olan bütün rezidentlər tərəfindən Azərbaycan Respublikasının homhüdud dövlətlərlə beynəlxalq müqavilələrində müəyyən olunmuş müvafiq sərhədyanı ərazidə xarici şəxslərlə həyata keçirilə bilər.

Sərhədyanı ərazilər və sərhədyanı ticarət qaydaları İqtisadi İnkişaf Nazirliyinin rəyi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

Dövlətlorarası Sazişlərlə nəzərdə tutulmuş ixrac-idxal əməliyyatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq

rar vo sərəncamları ilə gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

### *5.3. Xarici ticarətdə hesablaşma və məsuliyyət*

*XÄRIcI TİCARƏTDƏ HESABLANMA*

*İxracda hesablaşmalar*

Mal (xidmət və əqli mülkiyyətin) satışı bir qayda olaraq yalnız onların haqlarının qabaqcadan ödənilməsi, yaxud geri çağniraayan akkreditiv açılması yolu ilə və ya birinci dərəcəli bankların zəmanəti əsasında həyata keçirilir. Banklann birinci dərəcəlilik əlamətləri beynəlxalq kredit reytinq agentlərinin təminatlanoa əsasən Azərbaycan Respublikasının Millİ Bankı tərəfindən müəyyən edilir.

Bütün Rezidentlər tərəfindən satılan mallann (xidmət və əqli mülkiyyətin) Azərbaycan Respublikasının ərazisindən çıxarılmasına gömrük orqanlan tərəfindən yalnız onlann haqqının Ödənildiyi, yaxud akkreditiv və ya birinci dərəcəli bankların zəmanəti təqdim edildiyi barədə Azərbaycan Respublikasında valyuta əməliyyatlarının aparılması üçün icazəsi olan müvafiq müvəkkil bankların bunu təsdiqləyən sənədi təqdim olduqda icazə verilir.

*İdxalda hesablaşmalar*

Bütün Rezidentlər tərəfindən xarici ölkələrdən mal alınması və xidmət göstərilməsi ilə bağlı olan hesablaşmalar Azerbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aparılır. Hesablaşmalar nəzarət müvəkkil banklar tərəfindən həyata keçirilir.

*Qaydaların müddəalarının pozulmasına görə məsuliyyət*

Rezidentlər bu Qayda lann pozulmasına görə Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.

Xarici ticarət əməliyyatlanmn malların Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılmasını və gətirilməsini nəzərdə tutan hissəsinə gömrük orqanları, hesablaşmaları nəzərdə tutan hissəsinə müvəkkil banklar nəzarət edirlər. Mövcud qanunvericiliyin və qaydaların pozulması hallan barədə aidiyyatı üzrə gömrük or- qanlan və müvəkkil banklar müvafiq tədbirlər görülməsi üçün ai- diyyatı dövlət orqanlanna təqdimatlar verməlidirlər.

*5.4. Xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi*

*S.4.I. Ümumi müddəalar*

Qaydalarda nəzərdə tutulan hallarda xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi üçün Rezidentlər Ticarət Nazirliyinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

İxrac əməliyyatları üzrə:

- xarici şəxslərlə bağlanmış müqavilə;
- istehsalçı və ixracatçı arasında bağlanmış müqavilə (istehsalçı ixrac etmədikdə);
- ixrac qiymətini əsaslandırma arayışı;
- Azərbaycan Respublikasına başqa ölkələrdən gətirilən mallar haqqında sənədlər.

İdxal əməliyyatları üzrə:

• xarici şəxslərlə bağlanmış müqavilə;
- əməliyyatın maliyyələşdirilmə mənbəyi haqqında məlumat;
- idxal qiymətini əsaslandırma arayışı.

İqtisadi İnkişaf Nazirliyi müvafiq sənədlərin qəbul olunması barədə rezidentləri yazılı surətdə xəbərdar etməlidir,

Bu Qaydalarda ıiozordo tutulmuş hallarda İqtisadi İnkişaf Nazirliyində bağlanmış müqaviloləhn ekspertizası keçirilorkan onlann Azərbaycan Respublikasının qanunvcriciliyino vo beynəlxalq hüquq qaydalarına uyğunluğu araşdırılmalı vo Azərbaycan Respublikasının iqtisadi maraqlarının gözlənilməsi yoxlanılmalıdır.

Bu qaydalarda nəzərdə tutulan hallarda xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi üçün rezidentlər gömrük orqanlarına aşağıdakı sənədləri təqdim etmolidirlur:

*İxroc amaHyyatları iizra:*

- hüquqi şəxsin Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş kodu;
- xarici şəxslərlə bağlanmış müqavilə;
- ixrac olunan malların mənşəyi haqqında sənədlər;
- ixrac olunan malların haqqının qabaqcadan ödənilməsi vo ya akkreditiv açılması barədə müvəkkil bankın sənədi;
- bu Qaydalarda nəzərdə tutulan hallarda Nazirlər Kabinetinin sərəncamı vo ya İqtisadi İnkişaf Nazirliyinin müsbət royi;
- gömrük yük bəyannaməsi.

*İdxal amatiyyaüan üzra:*

- bağlanmış müqavilə;

' gömrük yük bəyannaməsi;

- invoys - idxal olunan malların əmtəə dəyərini müəyyən edən sənəd;
- yol-nəqliyyat sənədləri;
- **malın mənşəyini təsdiq edən sənəd;**
- **malın keyfiyyət sertifikatı;**
- malın uyğunluq sertitıkatı:
- bu Qaydalarda nəzərdə tutulan hallarda Nazirlər Kabinetinin **sərəncamı və ya İqtisadi İnkişaf Nazirliyinin ekspertizasının** müsb**ət royi,**

Lazımi sonədlər təqdim olunduqdan sonra müqavilolorin qeydiyyatı İqtisadi İnkişaf Nazirliyində 3 iş günü ərzində həyata keçirilir.

İxrac və idxal əməliyyatları üzrə tələb olunan sənədlər təqdim olunduqdan sonra gömrük orqanları həmin sənədləri rəsmiləşdirib 24 saat əızində malların buraxılmasını tomin etməlidir.

Rezidentlər təqdim etdikləri sənədlərin vo həmin sənədlərdə olan məlumatlann həqiqiliyinə cavabdehdirlər.

Dövlət Gömrük Komitəsi bütün ixrac-idxal əməliyyatları üzrə hər ay hesabat dövründən sonrakı ayın 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Milli Banka müəyyən edilmiş formada məlumat verir.

Malların təhlükəsizliyini və onlann müəyyən edilmiş tələblərə uyğun olduğunu təsdiq edən sənəd - sertifıkasiya sistemi qaydalarına əsasən verilmiş sertifikat hesab edilir. Sertifikat bir nüsxədə verilir. O həmçinin xarici sertifikatın tanınması barədə şəhadətnamə rolunu oynayır.

Bir qayda olaraq Azərbaycan ərazisinə gətirilən malların təhlükəsizlik tələblərinə uyğun olması zərurəti və bunun təsdiqi olaraq mallann sertifikatlaşdırılması xarici ticarət müqavilə və sazişlərinin tərtibini nəzərdə tutmalıdır.

Sertifıkatİaşdınlması məcburi olan mallar sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, gömrük nəzarəti altında mallann emalı (emal məhsullanmn sərbəst dövriyyə üçün buraxılması üçün), gömrük ərazisindən kənarda mallann emalı (emal məhsullanmn geri gətirilməsi üçün) gömrük rejimləri altında yerləşdirilmiş mallar yalnız sertifikatlar gömrük orqanlarına təqdim edildikdən sonra buraxılır. Seçilmiş gömrük rejimindən asılı olmayaraq aşağıdakı mallar sertifıkatsız buraxılır:

1)xarici dövlətlərin təmsilçiliklərinin və beynəlxalq dövlətlərarası toşkilatlannm və onlann personallanmn rəsmi istifadəsi üçün nəzərdə tutulmuş mallar;

2)fiziki şəxslər tərəfindən gətirilən, istehsalat və kommersiya fəaliyyəti üçün nəzərdə tutulmamış (müəyyən edilmiş hədlərdən artıq olan mallar istisna olmaqla) mallar

Qanunvericilik, həmçinin, vahid miqdarda gətirilən və yalnız gətirən şəxsin istifadəsi üçün nəzərdə tutulan mallann sertifikat təqdim edilmədən buraxılmaq imkanını nəzərdə tutur.

Aşağıdakı hallarda mallar şərti olaraq buraxıla bilər:

a) mallar - sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, gömrük nəzarəti altında emal və gömrük ərazisindən kənarda emal rejimlərində bəyan edilmək üçün hazırlanır;

b) gömrük orqanına müəyyən Öhdəliklə müraciət edildikdə (mallar özgəninkiləşdirilərkon müəyyən edilmiş qaydada sertifikatlaşdırılmalıdır).

Gömrük rəsmiləşdirilməsi zamanı aşağıdakılar yoxlanılmalıdır:

- sertiflkatdakı (surətindəki) imza və möhürlər;
- sertifikatı vermiş orqanın səlahiyyəti;
- gətirilən malın sertifikata uyğun olması;
- sertifikatın etibarlılıq müddəti;
- gömrük rəsmiləşdirilməsi üçün digər məlumatlar.

Heyvandarlıq məhsullarının bütün növləri hər hansı nəqliyyat vasitəsi ilo idxal və ixrac olunduqda məcburi baytarlıq nəzarətindən keçməlidir. Heyvanların, heyvandarlıq məhsullarının və yemlərin, hərbi nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılmasına, yalnız sərhəd baytarlıq nəzarət məntəqələri təşkil edilmiş yerlərdə yol verilir.

Bütün nəqliyyat və göndəriş növləri ilə, o cümlədən əl yükləri daxil olmaqla keçirilən: bütün növ heyvan və quşlar (heyvanlann rüşeym və spermaları, mayalanmış kürü də daxil olmaqla); heyvan mənşəli məhsullar (ət və et məhsullan, süd və süd məhsullan, balıq, yumurtalar, ançılıq məhsullan); heyvan mənşəli xammal (dəri, yun, xəz, tük, lələk, qan, sümük və diger məhsullar); heyvanlar üçün yemlər; baytarlıq preparatları, bioloji materiallar və heyvan mənşəli kolleksiya əşyalan dövlət sərhəd baytarlıq nəzarətindən keçməlidir. Sərhəd nəzarət-baytarlıq məntəqələri baytarlıq sertifikatı və baytarlıq şəhadətnamələri verirlər, həmçinin mallann sərhəddən idxal, ixrac və tranziti üçün digər sənədlər rəsmiləşdirilir.

Bu funksiyalann yerinə yetirilməsi üçün sərhəd baytarlıq nəzarəti orqanlarına aşağıdakı hüquqlar verilir:

~ xarici dövlətlərdən daxil olan və sərhəddən kənara çıxarılan nəzarətə cəlb edilməli olan yüklərə baxış keçirmək və onlann daşım Imasma davam edilməsinin mümkünlüyü və şərtləri barədə qərar qəbul etmək;

- nəzarətə cəlb edilməli olan yüklərin tədarükü, saxlanılması, emalı və daşınması ilə məşğul olan dəniz və çay limanlarmm, aeroportlann, dəmir yol stansiyalannm, poçtamtlann, müəssisələrin ərazisinə maneəsiz girmək;

- gömrükxana, dəniz və çay limanları (körpüləri), aeroport, dəmiryol stansiyaları və i.a. müəssisələrin rəhbərliyindən gətirilən, saxlanılan və göndərilən heyvan mənşəli yüklər barədə məlumatlar və müvafiq sənədlər almaq;

- Kənd Təsərrüfatı Nazirliyinin müvafiq icazəsi olmadan Azərbaycan ərazisinə gətirilən, nəzarətə cəlb edilməli olan yüklərin boşaldılmasım, bu yüklərin yüklənməsini və tranzitini onlann göndərilməsinin baytarlıq şərtlərinin pozulduğu təqdirdə saxlamaq və ya qadağan etmək;

- nəzarətə cəlb edilməli olan yüklərin daşınması zamanı aşkar edilmiş pozuntuların aradan qaldın İması üçün icrası məcburi olan göstərişlər vermək;

- müayinə və laboratoriya ekspertizası məqsədi ilə prob və nümunələr götürmək.

Azerbaycanın gömrük sərhədindən bitkilər keçirilərkən, xarici ölkələrdən karantin və digər zərərvericilərin, həmçinin, bitki xəstəliklərinin daxil olmasının qarşısım almaq məqsədi ilə dövlət nəzarəti təşkil edilir.

Karantin xidmətinin əsas vəzifələri aşağıdakılardır:

- xarici ölkələrdən gətirilən bitki mənşəli məhsullann, o cümlədən baqaj, poçt göndərişləri və sərnişinlərin əl yükü ilə daxil olan digər materialların karantin müayinəsi və laboratoriya ekspertizasının aparılması;

- digər ölkələrdən gələn bitki mənşəli məhsullann və digər materiallann, həmçinin nəqliyyat vasitələrinin sağlamlaşdınıması və karantin zərərsizləşdirilməsinin təşkil edilməsi;

(Tonırük ifinin nsaslan

- İxrac edilun bitki monşoli mohsullar vo dİgor materiallara karantln baxışının keçirilmosi.

Karantin xidmoti orqanlarına verilən hüquqlar, baytarlıq xidməti orqanlarına verilən hüquqlarla əsasən uyğun gəlir.

Karantin nəzarətinə cəlb edilən mallar aşağıdakılardır:

1) kənd tə.sorrüfatı, meşə və dekorativ bitkilərin toxumları, əkin materiallan və onların hissələri (çubuqlar, soğanlar, köklor, gül kəsimləri, dibçəkdə güllər və s.);

2) təzə meyvə, tərəvəz və giləmeyvələr;

3) ərzaq, məqsədli furaj və texniki taxıl, maya, jmıx, pambıq, kətan və digər lifli-toxuma bitkilərinin lifi, dərman-bitki xammalı, dəri xammalı və yun;

4) düyü, hər növ qoz, araxis, un, yarma, dənəvər kofe və kakao, qurudulmuş meyvə və tərəvəz, xam tütün, yeyinti xarakterli ətriyyat vo ədviyyatlar;

5) canlı göbələk, bakteriya, virus və törədiciləri;

6) həşərat, toxum, herbari kolleksiyaları;

7) tara, oduncaq, bİtki monşəli ayn-ayn sənaye malları, qablaşdırma materiallan vo məmulatlar;

8) monolitlər vo əkin (torpaq) süxurlan nümunələri;

9) lüraj (quru ot, saman, kombi edilmiş yem və s.), həmçinin heyvanlar keçirilərkən təmizlik üçün altlıq (salma, toxuma və s.);

10) gömrük nəzarətinə cəlb edilməli yükləri daşıyan və xaricdən gələn nəqliyyat vasitələri;

11) bitki mənşəli idxal məhsullarının saxlanıldığı anbarlar.

Karantin nəzarətinə cəlb edilən malların ixracı yerli karantin müfəttişliyi tərəfindən verilən fıtosanitar sertifikatların müşayiəti ilo aparılır.

Karantin nəzarətinə cəlb edilən malların idxalı üçün əsas olaraq aşağıdakı sənədlər tələb olunur:

• idxal karantin icazəsi;

- ixrac ölkəsinin karantin üzrə dövlət orqanlarının verdiyi fıtosanitar sertifikatı.

**İdxal montoqolərİndo bitkİ karantin üzro dövlət müfəttişlorinin fıtosanitar müayinəsindən sonra müəyyən olunmuş qaydada rəsmiləşdirilmiş sertifikat verilir.**

### 5.5. *BYD (Beynəlxalqyük daşımaları) kitabçası tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının tətbiqi*

**BYD (Beynəlxalq Yük Daşımaları) kitabçası (BYD Konvensiyası 1975-cİ il) tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının Azərbaycan Respublikası ərazisində tətbiqinə Azərbaycan Respublikası Prezidentinin 31 mart 1997-ci il tarixli 527 saylı Sərəncamı ilə başlanılmışdır.**

**BYD kitabçası tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının Azərbaycan Respublikası ərazisində tətbiqi qaydaları haqqında Əsasnamə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 25 may 1998-ci il tarixli 024 saylı əmri ilə təsdiq edilmiş, 26 may 1998-ci il tarixdə Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası (ABADA) ilə razılaşdırılaraq, 30 may 1998-cİ İl tarixdə Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir (qeydiyyat nömrəsi - 104).**

**BYD konvensiyasına qoşulmuş Azərbaycan Respublikasında malların aralıq boşaltma-yükləmələri həyata keçirilmədən yol nəqliyyat vasitələrində, nəqliyyat vasitələrindən ibarət qatarlarda və konteynerlərdə müqavilə tərəflərindən birinin göndərilmə gömrükxanasından bir və ya bir neçə sərhəddən keçməklə digər müqavilə iştirakçısı tərəfindən təyinat gömrükxanasına daşınmasına aiddir, bir şərtlə ki, BYD əməliyyatının başlanğıcı və sonu arasındakı müəyyən bir hissəsi avtomobil nəqliyyatı ilə həyata keçirilir.**

**Azərbaycan Respublikasında BYD prosedurasına əməl olunmaqla daşman mallar aralıq gömrükxanalarında (idxal zamanı giriş, tranzit zamanı giriş və çıxış) idxal və ya ixrac rüsum və vergilərinin ödənilməsindən və depozitə qoyulmasından azad edilir. Həmin gömrükxanalarda BYD kitabçalarının rəsmiləşdirilməsi üçün yığımlar tutulmur.**

BYD prosedurasına omol olunmaqla plomblanmış yol nəqliyyat vasitəlorindo, plomblanmış yol noqliyyat vasitolori qatarında vo ya plomblanmış konteynerlordo daşman mallar bir qayda olaraq aralıq gömrükxanalarmda gömrük baxışından azad olunurlar. Gömrük baxışı müstəsna hal kimi noqliyyat vasitələrinin plomblanmış bölmolorində və ya konteynerlərdə BYD kitabçasının yük manifestindo göstəriImoyən əşyalar olmasını güman etməyə kifayət qədər əsaslar olduğu təqdirdə həyata keçirilə bilər.

BYD Konvensiyasının müddəaları Azərbaycan Respublikasında ictimai mənəviyyat, ictimai asayiş, səhiyyə və ya gigiyena, eləcə də baytarlıq və ya fıtosanitar nəzarət mülahizələrindən irəli gələn məhdudiyyətlərin tətbiq olunması üçün maneçilik törədilməsinə xidmət etməməlidir.

BYD proseduraSı Azərbaycan Respublikasında o şərtlə tətbiq olunur ki, mallar:

- BYD Konvensiyasına vo təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq doldurulmuş və sənədləşdirilmiş BYD kitabçası ilə müşayiət olunsun;
- zəmanotverici birliyin zəmanəti (təminatı) ilə təmin olunsun;
- əvvəlcədən gömrük möhür və piombları altında (ağırçəkili və irihəcmli malların daşınması istisna olmaqla) daşınmaya buraxılmış (ıcazo verilmiş) avtomobillərdə, yol nəqliyyat vasitələrindən ibarət qatarlarda (karvanlarda) və ya konteynerlərdə daşınsın.

Nəqliyyat vasitələrinə “TİR” yazısı olan düzbucaqlı lövhəcik qabaqda yerləşdirilir, digər bu cür lövhəcik isə yol nəqliyyat vasitələrinin qatarının arxasına elə bərkidilir ki, onlar aydın görünsün. Bu lövhəciklər çıxanla bilən olmalıdırlar.

Göndərilmə gömrükxanalan yalnız bir ölkədə, təyinat gömrükxanalan isə ikidən artıq olmayan ölkələrdə yerləşməlidirlər. Göndərilmə və təyinat gömrükxanalarının ümumi sayı dörddən artıq olmamalıdır. Azərbaycan Respublikasının giriş və çıxış gömrükxanalan malların müvafiq olaraq Azərbaycan Respublikasının təyinat və ya çıxış gömrükxanalanna çatdırılma müddətini müəyyən edə və noqliyyat vasitələrinin hərəkət marşrutunu təyin edə bilərlər.

Daşınan mallar üçün ödonilməli olan gömrük rüsum və yığımlarının məbləği verilmiş təminatın məbləğindən çox olduğu və ya daşıyıcının Azərbaycan Respublikası gömrük qanunvericiliyinin müddəalarına əməl olunmasına zəmanət verə bilməyəcəyini güman etməyə kifayət qədər əsas olduğu halda, malların gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən müşayiət edilməsi tətbiq oluna bilər.

BYD kitabçası tətbiq edilməklə daşınmanın bir hissəsi BYD Konvensiyası və ya BYD prosedurasının müqavilə tərəfi olmayan ölkənin ərazisindən keçən zaman daha güzəştli nəqliyyat sistemləri ilə aparılırsa, bu zaman BYD əməliyyat yolun bu hissəsində dayandınlır. BYD prosedurasına əməl olunmaqla daşıma gömrük möhürləri və plombları və digər identifikasiya (eyniləşdinnə) vasitələrinin zədələnmədiyi təqdirdə yenidən davam etdirilir.

BYD kitabçası 4 səhifəli üz qabığından, kəsilməyən (qoparılmayan) 1/2 nömrəli san vərəqdən və 1/2 nömrəli kötükdən, l nömrəli (kəsilən) vərəqlərdən və 1 nömrəli kötüklərdən (ağ rəngli), 2 nömrəli kəsilən vərəqlərdən və 2 nömrəli kötüklərdən (yaşıl rəngli) və yol nəqliyyat hadisəsinə dair protokollardan (san rəngli) ibarətdir.

Kəsilən vərəqlərin və onların kötüklərinin (1 və 2) birləşməsi (kombinasiyası) bir qayda olaraq hər bir ölkədə (göndərilmə ölkəsində və giriş gömrükxanalarında), 2 nömrəli kəsilən vərəq və 2 nömrəli kötük isə çıxış və təyinat gömrükxanalarında istifadə olunmaq üçün nəzərdə tutulmuşlar.

Hal-hazırda istifadə edilən BYD kitabçalan 14 vo ya 20 vərəqdən (yəni 7 və ya 10 komplektdən) ibarətdir və müvafiq olaraq 7 və ya 10 dövlətin ərazisindən keçməklə daşıma üçün nəzərdə tutulmuşdur.

BYD kitabçasına çoxnövlü (qarışıq) daşımalar (nəqletmə əməliyyatı bir neçə nəqliyyat növündən istifadə edilməklə həyata keçirilən zaman) nəzərdə tutulmuş xüsusi vərəq əlavə edilə bilər. Göstərilən vərəq müstəsna olaraq daşıyıcıların ehtiyacları üçün nəzərdə tutulmuşdur, gömrük orqanları tərəfindən doldurulmur və ona nəzarət edilmir, ancaq onlar tərəfindən əlavə məlumat almaq məqsədilə, zəruri olduqda, istifadə edilir.

BYD prosedurasına əməl olunmaqla daşınmanı həyata keçimıə- yo yalnız BYD kitabçasının sahibinin hüququ vardır. BYD kitabça- laıı 1975-ci il BYD Konvensiyasının iştirakçı dövlətlərinin zəmanət birlikləri tərəfindən verilir.

Azərbaycan Respublikasında BYD kitabçaları ABADA tərəfindən verilir. Bu cür kitabçalar ingilis və rus dillərində çap olunan birinci kəsilməyən san vərəqi çıxmaq şərti ilə fransız dilində çap olunur.

BYD kitabçasının üz qabığının, I nömrəli və 2 nömrəli kəsilməyən vərəqlərinin, 1 nömrəli və 2 nömrəli kəsilən vərəqlərinin vo 1 nömrəli və 2 nömrəli kötüklərinin doldurulma nümunələri göstərilmişdir.

BYD kitabçasında pozmalara və ləkələmələrə yol verilmir. Bütün düzəlişlər yanlış məlumatların üstündən xətt çəkilmə,si yolu ilə aparılır. Düzgün məlumatlar yuxarıdan yazılır və müvafiq olaraq BYD kitabçasının sahibi (gömrük rəsmiləşdirməsinədək), yaxud da gömrükxana tərəfindən təsdiq edilir.

Zəmanət birliyi BYD kitabçasının etibarlılıq müddətini müəyyən edir vo üz qabığının birinci səhifəsində 1 qrafada göstərilir. Bu müddət bitdikdən sonra BYD kitabçası göndərilmə gömrükxanası tərəfindən rəsmiləşdirmə üçün qəbul edilə bilməz. Əgər BYD kitabçası, onun etibarlılıq müddətinin sonuncu günü və ya tarixədək göndərilmə gömrükxanası tərəfindən rəsmiləşdirmə üçün qəbul edilmişsə, onda BYD kitabçası proseduraya əməl edilməklə daşıma başa çatanadək etibarlıdır. BYD kitabçasının etibarlılıq müddəti yalnız BYD kitabçalarını verən zəmanət birlikləri tərəfindən uzadıla bilər. Müddətin uzadılmasına dair məlumatlar BYD kitabçasının 1 qrafasında göstərilir və zəmanət birliyinin möhürü ilə təsdiqlənir.

BYD kitabçaları qeyd-şərtlərlə vo qeyd-şərtlərsiz rəsmiləşdirilə bilər. Qeyd-şərtlər BYD prosedurasına əməl edilməklə malların çatdırılmasını və tranziti zamanı qayda pozuntularına aid olmalıdırlar. Qeyd-şərtlər kəsilən vərəqin 27-ci qrafasında və BYD kitabçasının, kötüyünün 5-ci qrarfasında göstərilir. Bu zaman həmin qrafa- larda “R'' simvolu qoyulur və qayda pozulmasının rus dilində qısa təsviri verilir.

**BYD kitabçası qeyd-şərtsiz rəsmiləşdirilmişsə, həyata keçirilmiş gömrük rəsmiləşdirilməsinə dair şəhadətnamə qeyri-qanuni və ya aldatma yolu ilə alındığı və ya malların təyinat gömrükxanalan- na və ya çıxış gömrükxanalarına çatdırılmadığı hallar istisna olunmaqla, gömrük orqanları zəmanət birliyindən gömrük rüsum və vergilərinin ödənilməsini tələb edə bilməzlər.**

**Azərbaycan Respublikasına gətirilən BYD kitabçalarının blanklan gömrük rüsumları və vergilərinin ödənməsindən azad edilir və gətirilmə və ya aparılma zamanı hər hansı bir məhdudiyyətə məruz qalmırlar.**

**BYD prosedurasına əməl olunmaqla malların gömrük nəzarəti altında Azərbaycan Respublikasına çatdırılması və tranziti zamanı zəmanət assosiasiyası - Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Birliyi Assosiasiyasıdır. Zaminlik barədə müqaviləyə uyğun olaraq ABADA, Azərbaycan Respublikasının qanunvericiliyi pozulduğu halda daşıyıcılar tərəfindən ödənilməli olan gömrük rüsum və ya vergilərini ödəməlidir. ABADA-nın məsuliyyəti, BYD kitabçasının hansı maddi zəmanət assosiasiyası tərəfindən verilməsindən asılı olmayaraq, BYD prosedurasına əməl edilməklə malları Azərbaycan Respublikası ərazisi üzrə daşıyan həm Azərbaycan, həm də əcnəbi daşıyıcılarına şamil edilir.**

**ABADA, BYD kitabçası sahibi və həmin tədiyəlori ödəməli olan, daşımanın yerinə yetirilməsi də iştirak edən digər şəxslərlə birlikdə əsasnamə ilə müəyyən edilmiş sənədlər təqdim edildikdən sonra gömrük rüsum və vergilərinin Ödənilməsini təmin edir.**

**Hər bir BYD kitabçası üçün 50.000 (əlli min) ABŞ dolları həddində gömrük rüsum və vergilərinin ödənilməsinə təminat verilir. Göstərilən məbləğ Milli Bankın ödəmə günündən əvvəlki gündə qüvvədə olan məzənnəsi üzrə manatla ödənilir. Hər bir BYD kitabçası üzrə ən yüksək məbləğin məhdudlaşdırılması Əsasnamənin 1 bölməsində göstərilən alkoqollu içkilər və tütün məmulatlarına şamil edilmir.**

**BYD prosedurası ilə hər daşıma əməliyyatı üzrə ABADA-nın məsuliyyəti göndərilmə gömrükxanasında (gömrükxanalarında) BYD**

kitabçası üzrə məsuliyyəti üzərinə götürdüyü andan başlanır və təyinat gömrükxanasında (gömrükxanalannda) gömrük pİomblannın çıxarıldığı vo ya digər rejimin müəyyən edildiyi anda sona çatır.

ABADA təkcə BYD kitabçasında sadalanan mallar üçün yox, hom do kitabçada sadalanmayan, lakin yol nəqliyyat vasitosinin plomblanmış yük bölmosində və ya plomblanmış konteynerdə olan istonilən mallar üçün do məsnliyyot daşıyır.

Yol nəqliyyat vasıtolori və konteynerlər BYD konvensiyasının texniki toləblorino uyğun olmalıdırlar. Yəni, yol noqliyyat vasitələri buraxılış (icazə) şəhadətnaməsi ilə müşayiət olunmalıdır, konteynerlərdə isə buraxılışa icazə verilməsi barədə lövhəciklər olmalıdır. Buraxılmaya (icazo verilmosino) dair şəhadətnamə gömrük rəsmiləşdirilmosi zamanı Azərbaycan Respublikasının müvafiq göınrükxanasına təqdim edilir.

Azərbaycan nəqliyyat vasitələrinə icazə verilməsinə dair şəhadətnamələr mütləq qaydada Azərbaycan Respublikasının göndərilmə göınrükxanasına təqdim olunur. Digər hallarda icazəyə dair şəhadətnamələr təqdim olunmaya bilər, buna baxmayaraq yol nəqliyyat vasitolori (konteynerlər) BYD Konvensiyasının texniki toləblo- rinə uyğun olmalıdır və nəqliyyat vasitələrinin (konteynerlorin) gömrük möhür vo plomblan altında daşımaya bir dofə üçün verilmiş icazo prosedurasından keçməlidirlor. Belo icazə barədə qeyd BYD kitabçasının “Xidməti istifadə üçün” qrafasında edilir.

İcazoyo dair şohadətnamolər həmçinin ağırçokili və ya irihəcmli malların daşınması halında da təqdim edilmir.

### *5.6. Gömrük rximihşdinImasmdB ilkin əmaliyyatların rolu*

#### *İlkin omaUyyatların mahiyyəti*

İlkin əməliyyatlar mal vo noqliyyat vasitələrinin gömrük rəsmi- ləşdırilmosinin asanlaşdınıması və sürətləndirilməsi məqsədi ilə aparılır. Onlar əsas gömrük rəsmiləşdirilməsi icraatına qədər aparılır vo hazırlıq mərhələsi hesab edilir.

**İlkin omoliyyatlar gömrük sürhodinin Azorbaycan ərazisinə gətirilməsi qadağan edilmiş mal vo nəqliyyat vasitələrinin keçirilməsindən müdafiə edilməsini təmin edir. Bu mərhələdə mallar gömrük məqsədləri üçün identifıkasiya edilir.**

**İlkin əməliyyatlara aşağıdakılar aiddir:**

**- Azərbaycan Respublikasının gömrük sərhədindən keçmə barədə və ya malların, nəqliyyat vasitələrinin gömrük ərazisindən kənara aparılması niyyəti barədə Azərbaycan Respublikası gömrük orqanlarına məlumat verilməsi;**

**- malların, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin gömrük orqanının müəyyən etdiyi yerlərə çatdırılması;**

**- malların və nəqliyyat vasitələrinin çatdırıldığı yerlərdə gömrük nəzarətinə təqdim edilməsi.**

**Xarici ticarət praktikasında elə hallar olur ki, fors-major şəraitin təsiri altında zədələnmiş mallar, sanitar-gigiyena və bəzi digər mülahizələrdən (məsələn, .xarab olmuş meyvə və tərəvəz, konservlər və s.) təxirə salmadan məhv edilməli olur. Maraqlı olan kos, fors- major şəraitin təsiri altında malların məhv edilməsinin sübut olunmasını təmin etməlidir. Belə ki, birincisi, mülki-hüquqi məsuliyyətdən yaxa qurtarmaq (əgər yük sahibi daşıyıcıya, nəqliyyat şirkətinə iddia irəli sürürsə), ikincisi isə tələb olunan gömrük rüsumundan azad olunmaq mümkün olsun. Bu halda notarius lazım gələn köməyi göstərə bilər.**

### *Dəniz protesti*

**Dəniz daşımalarının xüsusiyyətləri gəmi sahiblərinin hüquqlannın və qanuni maraqlarının müdafiəsi üçün sübutlar təmin edilməsinin əlahiddə pro.sedurasından istifadə olunmasını nəzərdə tutur.**

**Bu məqsədlərlə notarius gəmi kapitanından gəmi üzən və ya dayanan müddətdə baş vermiş fövqəladə hadisə barədə ərizə qəbul edir. Bu ərizə kapitana və ya gəmi sahibinə əmlak tələbləri, o cümlədən də daşınan mallara görə gömrük rüsum və yığımlarının ödənilməsi üzrə tələblər üçün əsas sayıla bilər. Belə ərizə dəniz ticarət təcrübəsində dəniz protesti adlanır.**

Gömrük ödonclərindən azad olmaq məqsədi ilo kapitana məsləhət görülür ki, təbii fəlakət zamanı ekipajın zəruri tədbirlərin görülməsi hərəkətlərini təfsilatı ilə göstərsin. Gəmi kapitanı, həmçinin, gəmi jurnalından təsdiq edilmiş çıxarışı notariusa təqdim etməlidir. Gəmi kapitanının ərizəsi, gəmi jumalındakı qeydlər və dörd nəfərdən az olmayan şahidlərin sorğu-sual (iki nəfər gəmi heyəti, iki nəfər komanda heyəti) əsasında notarius dəniz protesti aktı tərtib edir. Bu akt dəniz daşımalannda gömrük Ödənclərinin ödənilməsindən azad edilmək üçün hüquqi əsas ola bilər.

*Malların* va *naqliyyat vasitshrinin çatdmiätğt yerds gömrük n9zar9tin9 t9qdim edilm9si*

Bir qayda olaraq, yalnız faktiki gömrük ərazisinə daxil olmuş yüklər boyan edilməlidir. Deklarant mal göndərişinin bir hissəsini - liətta bu hissə tam göndərişin digər hissələri ilə bir vaxtda və eyni xarici ticarət müqaviləsi əsasında göndərilmiş və ünvana tez çatmış olsa belə, gömrük rəsmiləşdirilməsinə elan edə bilməz.

Holo gəlib çatmamış malların bəyan edilməsini istisna etmək məqsədi ilə yüklərin gömrük rəsmiləşdirilməsinin ilkin əməliyyatlarına mal və nəqliyyat vasitələrinin gömrük nəzarətinə təqdim edilməsi prosedurası daxil edilir. Belə təqdim etmə daşıyıcı tərəfindən malların və nəqliyyat vasitələrinin çatdırıldığı barədə gömrük orqanlarının xəbərdar edilməsi ilə ifadə olunur. İş vaxtından sonra gəlmiş mal və nəqliyyat vasitələri gömrük nəzarəti zonasında yerləşdirilməlidir.

Gömrük orqanı gətirilmiş mal və nəqliyyat vasitələrinin faktiki olaraq təqdim edilməsim tələb edə bilər. Mallann idxalı zamanı təqdim etmə - malları keçirən şəxsə, yaxud daşıyıcı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən mal və nəqliyyat v^itələrinin gömrük ərazisinə, ya da təyinat gömrükxanasına çatdırılması barədə xəbər verilməsi kimi ifadə edilir.

Mal və nəqliyyat vasitələri gömrük orqanına təqdim edildiyi andan buraxılana qədər gömrük nəzarəti altında müvəqqəti saxlancda

*Qısa bəyannamə*

**Qısa boyannamo toqdim edilmosi, gömrük sorhədinin keçilməsi barədə gömrük orqanlarına məlumat verilməklə iki halda zərurdir;**

**a) xarici gömrük ərazisindən Azərbaycanın gömrük ərazisinə mal və nəqliyyat vasitələrinin gətirilməsi zamanı;**

**b) Azərbaycanın gömrük ərazisi hüdudlarında - sərbəst gömrük zonası və sərbəst anbarlardan mallar və nəqliyyat vasitələrinin gömrük ərazisinin qalan hissəsinə çıxarılması.**

**Belə məlumatın verilməsi daşıyıcının vəzifəsidir. Mal və nəqliyyat vasitələrinin gömrük ərazisindən çıxarılması niyyəti barədə məlumat - onlan çıxaran şəxs tərəfindən verilməlidir. Əgər malları çıxaran şəxs bu məlumatı verməmişsə, bu vəzifə daşıyıcıya həvalə olunur.**

**Mal və nəqliyyat vasitələri müəyyən edilmiş gömrük rejimi altında yerləşdirilənə qədər qısa bəyannamə tətbiq edilə bilər. Qısa bəyannamə gömrük rəsmiləşdirilməsi üçün məcburi atribut hesab edilmir.**

**Qısa bəyannamə daşıyıcı tərəfindən maliann və nəqliyyat vasitələrinin təqdim edilməsi ilə bir vaxtda, yaxud təqdim edilmədən sonrakı iş günü ərzində verilir. Axırıncı halda gömrük orqanının xüsusi icazəsi tələb olunur.**

**Əgər mallar təqdim edilmə ilə eyni vaxtda və ya göstərilən müddətdə müəyyən gömrük rejimi altında yerləşdirilirsə, qısa bəyannamə verilmir. Qısa bəyannamədə aşağıdakı məlumatlar öz əksini tapmalıdır;**

- **mal göndərən şəxs, mal göndərən ölkə;**
- **malı alan şəxs, təyinat ölkəsi;**
- **daşıyıcı;**
- **nəqliyyat vasitəsi barədə məlumat;**
- **nəqliyyat sənədlərinin nömrələri;**
- **malın adı;**
- yerlərin sayı;
- **brutto çəkisi;**
- **plomblar və digər identifikasiya vasitələri;**
- **digər məlumatlar.**

Əgər gömrük daşıyıcısı torəfindon qısa bəyannamə vermək üçün səlahiyyətli şəxs müəyyən edilməmişsə, yaxud gəlməmişsə, gömılik məqsədləri üçün beio şəxs gəmi kapitanı, sürücü ola bilər.

Gömrük Məcəlləsi gömrük orqanlarının icazəsi ilə qısa bəyannamə kimi, nəqliyyat, kommersiya vo digər sənədlərin istifadə editmosino yol verir, bu şərtlə ki, bu soııodlor qısa bəyannamədə tələb olunan məkımatları özündə əks etdirmiş olsun.

Gömrük rəsmiləşdirilməsi zamanı qısa bəyannamə kimi əmtəə və nəqliyyat sənədləri istifadə olunur. Bu sənədlər, bir qayda olaraq göndərilmə montoqəsindon təyinat montoqosinodək yükü müşayiət edir və ona görə də mal-müşayiot sənədləri adlanır.

Əmtəə sənədləri malın dəyər, keyfiyyət və miqdar xassələri barədə məlumatı əks etdirir.

*5.7. Gömrük hrakeri*

l^azar iqtisadiyyatına keçid dövrünün müasir mərhələsində peşəkar \ asitüçihk fəaliyyəti ilo məşğul olan fiziki vo hüquqi şəxslərin maraq göstordiyi sahələrdən biri do gömrük İşi sahəsində özünəməxsus yer tutan gömrük brokeri peşəsidir. Mövcud qanunvericiliyə uyğun olaraq yaradılmış və DGK-dan lisenziya almış hüquqi şəxslər gömrük brokeri ola bilərlər.

Gömrük brokeri ilo onun təmsil etdiyi şəxs arasındakı qarşılıql nulnasibətlor, notarius tərəfindən təsdiq edilmiş müqavilə iiə tən' zimlonir. Belə müqaviioiər ikitorotlİ olub, konsensual müqavik növünə aid edilir və ödənc xarakterlidir.

Broker xidməti üzrə müqaviləyə görə gömrük brokeri təmsil et diyi şo.xsin tapşırığı və onun hesabına öz adından gömrük rəsmiləş dirilməsi üzrə istənilən əməliyyatı və digər vasitəçilik əməliyyat lari apara bilər.

Gömrük nəzarəti və gömrük rosmiloşdirilməsi əməliyyatları za mam, o malların əsil sahibi qədər onun vəzifələrini yerino yetiri vo mosuliyyot daşıyır.

Nozərə alaq ki, gömrük brokeri təmsil etdiyi şəxsin tapşırığın yerinə yetirərkən təmsilçinin deyil, öz adından çıxış edir, bu hald

broker xidməti göstərilmosi barədə müqavilədən doğan üç növ hüquqi münasibətlərin şahidi olmuş oluruq:

1) gömrük brokeri ilə tomsil etdiyi şoxs arasında;
2) gömrük brokert ilo üçüncü şəxslər arasında;
3) təmsil olunan şoxslo üçüncü şəxslər arasında (məsələn, broker lisenziyasının fəaliyyəti dayandırıldıqda).

Gömrük brokerinin gömrük orqanları qarşısında hüquqları, vozifbİori Vo məsuliyyəti təmsil etdiyi şəxslə bağladığı müqavilə ilə məhdudlaşmır.

Gömrük brokerinin fəaliyyəti lisenziyalaşdırılır. Brokerlik lisenziyası almaq istəyən hüquqi şəxs Gömrük Məcəlləsinin 156-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulan tələblərə cavab verməlidir.

Göınrük brokeri fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyanın verilmə qaydasını Azərtiaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Lisenziya verilməsi məsələsini DGK həll edir vo onun fəaliyyət müddətini müəyyənləşdirir. Gömrük Məcəlləsi broker lisenziyasının geri çağınıması və ləğv edilməsi hallarını müəyyən edir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin l may 1998- ci il tarixli 101 saylı qoran ilo "Gömrük brokeri haqqında" Əsasnamə və gömrük brokeri fəaliyyətinə lisenziya verilməsi qaydaları təsdiq edilmişdir.

Lisenziyanın ləğv edilməsi qərarı lisenziyanın verilməsi tarixindən başlanan fəaliyyətə şamil edilir. Lisenziyanın geri alınma qə- ran qəbul edildiyi gündən qüvvəyə minir.

Ləğvetmə və gerialma lisenziyanın fəaliyyətinə xitam verir. Bununla belə onlar lisenziya sahibini yeni lisenziya alınaq hüququndan məhrum etmir.

Lisenziya verilməsi barədə təkrar müraciətə DGK tərəfindən ləğvetmə, yaxud geriçağırma qərarı verilən vaxtdan iki il keçdikdən sonra bu qərarı meydana çıxaran sobəbİorin aradan qaldırılması şərti ile baxıla bilər.

Bundan başqa gömrük orqanları, brokerin vəzifəsindən suı-istifado etdiyini güman etməyə kifayət qədər əsas olduqda, lisenziyanın fəaliyyətini üç ay müddətinə dayandıra bilər.

**Dövlot Gömrük Komitosi gömrük brokerinin reyestrini aparır vo bu reyestrin nəşrini təmin edir.**

*5.8. Gömrük daşıyıcısı*

*Gömrük daşıyıcısı anlayışı*
»V7 *hüquqi statusu*

**Gömrük daşıyıcısı Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılan. Dövlot Gömrük Komitosi tərəfindən gömrük nəzarəti altındakı yüklərin daşınması üçün lisenziya verilmiş hüquqi şəxsdir. Qeyd etmək lazımdır ki, o mallan gömrük müşayiəti olmadan və gömrük ödəncləri ödəmədən daşıyır.**

**Gömrük daşıyıcısından istifadə həm könüllü, həm də məcburi ola bi lor. Gömrük daşıyıcısından könüllü istifadə o zaman olur ki, marağı olan şəxs gömrük daşıyıcısının xidmətindən gömrük orqanını xəbərdar etməklə şəxsi təşəbbüsü əsasında istifadə etsin.**

**Gömrük orqanının vəzifəli şəxsi daşınan malların xarakteri və statusu barədə məlumata əsaslanaraq, gömrük qanunvericiliyinin pozulmasının mümkünlüyünü güman etdikdə, daşınmanın spesifikasını nəzərə alaraq gömrük rəsmiləşdirilməsi mərhələsində həmin malların gömrük daşıyıcısı tərəfindən daşınması barədə qərar qəbul edə bilər. Belə daşınma məcburi xarakter daşıyır, çünki mal üzərində sərəncam vermək hüququ olan şəxs gömrük orqanının qəbul etdiyi qərara etinasız qala bilməz.**

**Gömrük orqanının gömrük daşıyıcısından istifadə edilməsi barədə qərarı həm daşıyıcı, həm malgöndərən və malalan, həm də gömrük daşıyıcısının özü üçün məcburidir. Belə qərar adi daşıyıcının, malgöndərən və malalanın tərəfindən gömrük daşıyıcısının istifadəsi ilə meydana çıxmış xərclərinin ödənməsi üçün əsas ola bilər.**

**Aşağıdakı mallar barədə gömrük orqanı, hətta gömrük ödəncləri ödənməsinin təminatı olduqda belə, gömrük daşıyıcısından istifadə edilməsi üçün qərar verə bilər:**

**a) Azərbaycan Respublikası ərazisinə gətirilməsi və ölkədən çıxarılması qadağan olunmuş mallar (gömrük orqanları arasında daşınması zərurəti yarandıqda);**

**b) lisenziyalaşdınimalı, sertifikatlaşdırılmalı və digər orqanların nəzarətinə cəlb edilməli (əgər belə nəzarət həyata keçirilməmişsə) mallar.**

**BYD kitabçaları tətbiq edilməklə və gömrük müşayiəti ilə yük daşınması zamanı gömrük daşıyıcısından istifadə edilməsi məcburiyyəti tətbiq edilmir.**

**Gömrük daşıyıcısı ödəmə qabiliyyətli olmalıdır. Onun maliyyə imkanlan tələb olunan bütün gömrük ödənclərinin təxirəsalınma- dan ödəniləcəyinə zəmanət vennəlidir. Gömrük daşıyıcısı öz fəaliyyətini sığortalamaq üçün müvafiq müqavilə bağlamalıdır.**

**Texniki tələblərə gəlincə, gömrük daşıyıcısının nəqliyyat vasitələri gömrük orqanlan tərəfindən müəyyən edilmiş "Gömrük möhür və plombları altında malların daşınması üçün nəqliyyat vasitələrinin təchiz edilməsi və onların yük daşınmasına buraxılması qaydalarına" uyğun olmalıdır.**

**Malgöndərən və gömrük daşıyıcısı arasındakı münasibətlər müqavilə əsasında qurulur. Bağlanmış müqavilədə digər müddəalarla bərabər, gömrük nəzarəti altında malların daşınması ilə bağlı gömrük daşıyıcısının xərclərinin ödənilməsi də tənzimlənir. Müqavilə ilə təsbit edilmiş hüquq və vəzifələrdən başqa gömrük daşıyıcısı aşağıdakı öhdəlikləri də yerinə yetirməlidir:**

1) **malları təyinat gömrükxanasına onların tarası və ya mövcud halı dəyişilmədən çatdınimalı;**
2) **gömrük orqanları tərəfindən müəyyən edilmiş çatd..ılma müddətlərinə və hərəkət marşrutuna riayət etməli;**
3) **malları və sənədləri təyinat gömrükxanasına yetirməli, lazım gəldikdə təqdim etməli;**
4) **gömrük nəzarəti altında olan mallarla birgə digər mallar daşımamalı;**
5) **gömrük nəzarəti altındakı daşımaların uçotunu aparmalı, gömrük orqanlarına müvafiq hesabat verməli;**

6) mal göndorondən alınmış kommersiya, bank, qanunla qorunan dİgor sirləri açıqlamamalı;

7} mallan tuyinat gömrükxanasına çatdırdıqdan sonra, onları nəzarətsiz qoymamalı, dayanacaq yerini dəyişdirmomoli, mallan boşaltmamalı vo başqa nəqliyyat növüno yükləməməli, qablaşdırılmanı pozmamalı, gömrük eyniləşdirmə vasitələrini qoparmamalı, yaxud məhv etməməlidir.

Bu öhdəliklərin pozulmasına görə o zaman məsuliyyət müəyyən olunmur ki, gömrük daşıyıcısı nəqliyyat vasitəsi ekipajının həyatı və sağlamlığı üçün, həmçinin, mal və nəqliyyat vasitəsinin məhv edilməsinə güro real təhlükə yarandığını sübut etmiş olsun.

Gömrük daşıyıcısı malların çatdırıldığı yerdə müvəqqəti saxlanca və ya mallara görə səlahiyyətli şəxsə verilənə qədər gömrük ödoıiclorinin ödənilməsinə məsuliyyət daşıyır. Əgər gömrük daşıyıcısı malları gömrük orqanının icazəsi olmadan vermişsə, gömrük ödəndərinin ödənməsi sərbəst dövriyyə üçün buraxılış və ya ixrac gömrük rejimində {məbləğ ondan az deyilsə) tələb olunan məbləğdə gömrük daşıyıcısına həvalə olunur.

# II BÖLMƏ. GÖMRÜK ORQANLARININ İQTİSADİ FƏALİYYƏTİ

## Mövzu 6. Gömrük rəsmiləşdirilməsi əməliyyatlarında xarici İqtisadi fəaliyyətin mai nomenklaturasınm rolu

### *6.1. Mal nomenklaturası anlayışı və mallann təsnifatı*

Xarici iqtisadi fəaliyyətin mal nomenklaturasmtn apanıması, mallann təsnifatlandırılması və kodlaşdırılmast gömrük işinin mühüm tərkib hissələrindəndir.

Malların dəyərinin obyektiv meyarlar əsasında müəyyən edilməsi və gömrük ödənc lorinin tutulması onların düzgün təsnifatlandınlmasından çox asılıdır. Mallann düzgün təsnifatlandırılması, həmçinin, xarici ticarətin gömrük statistikasının obyektivliyinin yüksəldilməsi, mallann və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlara gömrük nəzarəti proseslərində ölkənin gömrük siyasətinin həyata keçirilməsi üçün konkret tədbirlər görülməsində də mühüm əhəmiyyətə malikdir. Buna görə də gömrük işinin səmərəliliyinin artırılması gömrük orqanı əməkdaşlarından mallann təsnifatlandırılması nəzəriyyələrim və əsas təsnifat sistemlərini dərindən bilməyi, bu sistemlərin köməyi ilə nəzəri və təcrübi məsələləri həll etmək bacarığına yiyələnməyi tələb edir.

“Mal nomenklaturası” anlayışının əsas elementləri “m^t” və “nomenklatura” ifadələridir.

Nomenklatura (lat. nomenclatura - siyahı) - elm, texnika və fəaliyyətin digər sahələrində işlədilən adlar, anlayışlar göstəricisinin sistemidir (məcmusudur).

Bu mənada mal nomenklaturası anlayışı elm və təcrübənin “malşönaslıq”, “gömrük işi”, “istehsalat”, “istehlak”, “xarici-iqtisadi fəaliyyət” sahələri ilə, bir sözlə mal və malların adlan ilə əlaqə

dar saholorlo sıx bağlıdır. Bdoliklo, ma! nomenklaturası gömrük orqanlarının vozifoli şoxslorinin vo deklarantlann öz peşokar foa-liyyotlərində qarşılaşdıqları malların adlarının mocmusudur.

Gömrük sorhodindon keçirilon malların başlıca xarakterik xüsu-siyyotlori onların maddi-mövcudluq forması vo daşınma qabiliy-yotliliyidir. Bu xüsusiyyotlər Gömrük Mocoliosində istifado edilən osas anlayışlar sistemində Öz oksinİ tapır.

Mallar (mallar monasında) xarici ticarot əmoliyyatiarınm əsasını təşkil etdiyindən Gömrük Məcəlləsinin I7-ci maddəsi ilo müəyyən edilən anlayışların böyük əksəriyyəti bu mətlıumla bağlıdır.

Elmi-texniki tərəqqi vo texnologiyaların təkmilləşdirilməsi ilə sənayenin müxtəlif sahələrində və kənd təsərrüfatında istehsal edilən malların çeşidi çox genişlənmiş və bu proses daim inkişafdadır. Yüz minlərlə müxtəlif növ və çeşiddə mallar mövcuddur. Onların ayrı-ayrılıqda öyrənilməsi çox çətin olduğundan onlar müxtəlif xassələrinə görə yığcam çoxluqlar halında bir yerə cəmlənə bilər. Bu çoxluqlar isə öz növbəsində bölmə, qrup, yarımqruplar şəklində sistemləşdirilə bilər. Xarici ticarətdə yük dövriyyəsinin gömrük tənzimlənməsi zamanı malların sistemləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə məsələlərin həllində malların təsnifatlandı- rılmasından istifadə edilir.

“Təsnifat" anlayışı obyektlərin verilmiş böyük çoxluqlarının müəyyən kiçik çoxluqlara (sinif, yarıınsinif, qrup, yanmqrup, növ vo s.) bölünməsi mənasını verir. Bu zaman yaranan sistem təsnifat- landımıa adlanır.

Qarşıda qoyulmuş məsələnin mahiyyətindən asılı olaraq təsni-fatlandınnanı bir neçə istiqamətdə apannaq olar. Məsələn, istehsal sahələri, hazırlandığı materiallar, emal dərəcəsi, funksional təyinatına görə mallar qruplaşdtrıla bilər.

Təsnifatlandınnanın qəbul edilən sisteminə uyğun olaraq bütün mallara və mal bölmələrinə xüsusi şifrlər verilir.

Obyektlərin verilmiş böyük çoxluqlan müəyyən təsnifat sisteminə uyğun olaraq kiçik çoxluqlara (yarıınçoxluqlara) bölündükdən sonra sistemləşdirilmiş çoxluq uyğun obyektlərin təsnifatlandı- rıcısı (klassifİkatoru) kimi baxıla bilər.

Beləliklə, təsnifaüandıncı (klassifikator) - təsnifetlandınlan obyektlərin sistemləşdirilmiş siyahısıdır. Bu siyahıda hər obyektin öz yeri olur və bundan sonra ona kod adlandırılan şərti işarə təyin edilir.

Kod rəqəm, hərf, yaxud rəqəm-hərf ardıcıllığından ibarət şifrə malikdir.

Xarici ticarət əməliyyatlarının gömrük tənzimlənməsində “mal nomenklaturası” məfhumundan geniş istifadə edilir. Əmtəə nomenklaturası faktiki olaraq mallann tesnifatlandmcısıdır. Buna görə də mal nomenklaturası dedikdə təsnifat sisteminə uyğun olaraq yerləşdirilən mallann geniş siyahısı nəzərdə tutulur.

Mallann kodlaşdınıması isə, təsnifatlandırılan obyekti həmin təsnifat sistemi ilə müəyyən edilmiş qaydada işarə, yaxud işarələr qrupu şəklində təsəvvür etməyə imkan verən texniki üsuldur.

Mal nomenklaturasının kod sistemi ondan ötrü yaradılır ki, məlumat gömrük orqanına onun yığımı, yoxlanılması, ötürülməsi və analizi üçün əlverişli formada təqdim edilə bilsin.

Beləliklə, mal nomenklaturasının köməyi ilə mallann təsnifatlandırılması: mallan kodlaşdırmağa; iqtisadi xarakterli gömrük əməliyyatlannı aparmağa (rüsum tutulması, gömrük dəyərinin təyini və s.); xarici ticarətin mal strukturunu öyrənməyə imkan verir.

### *Beyn9İxalq təcrubad^ istifadə edilən təsnifat sistemləri və mal nomenklaturaları*

Sənayenin tərəqqisi ilə xarici ticarətin də sürətlə inkişaf etdiyi zamanlardan başlayaraq ticarət edən ölkələr uçot, qiymət, texniki standartlar və s. əngəllərin aradan qaldırılması üçün müqayisə oluna biləcək standartlar və təyinatlann yaradılması və mal nomenklaturalannm uyğunlaşdırılması zərurəti ilə qarşılaşdılar.

İlk dəfə bu problemlər 1853-cü İldə Brüsseldə keçirilən Beynəlxalq Statistika Konqresində müzakirə edildi. Konqres, gömriik tənzimlənməsi və xarici ticarətin statistikası məqsədləri ilə mal nomenklatuıalaruım uyğunlaşdmlması üzrə tövsiyələr qəbul etdi. 1890-cı ildə Parisdə keçirilmiş Gömrük qaydalan üzrə Beynəlxalq Konqrem da nomenklaturalann uyğunlaşdmlması zərurətini təsdiq etdi.

Keçən əsrin əwəlinədək müxtəlif ölkələrdə nəşr edilən xarici ticarət üzrə informasiya məcmuələrində yalnız bu və ya digər ölkə üçün mühüm əbəmiyyət kəsb edən mallar göstərilirdi. Bəzi ölkələr mallann təsnifatlandırı imasında onlann adlannın əlifba sırası ilə düzülüşü, digərləri istehsal mənşəyi (kənd təsərrüfatı, sənaye, peşə və s.) əlamətlərini əsas götürürdülər.

1913-cü il dekabrın 31-də Brüsseldə 29 ölkə Beynəlxalq Konvensiya imzaladı. Bu konvensiyanın əsas müddəalannın istiqamətinə görə öz ərazilərində milli təsnifat və mal nomenklaturasından istifadə etməklə bərabər, həmin ölkələr Beynəlxalq xarici ticarət statistikası bürosuna vahid təsnifat və mal nomenklaturası üzrə məlumatlar təqdim etmək barədə öhdəlik götürmüş oldular.

Beləliklə, ilk Brüssel mal nomenklaturası yarandı. O, 186 bazis mal mövqeyini birləşdirən 5 bölmədən ibarət İdi.

L Canlı heyvanlar 1-7 mal mövqeləri (7)

II. Ərzaq malları və içkilər 8-49 mal mövqeləri (42)

III. Xammal və yanmfabrikatlar 50-98 mal mövqeləri (49)

IV. Hazır məhsullar 99-182 mal mövqeləri (84)

V. Qızıl və gümüş, qızıl və gümüş sikkələr 183-186 (4) mal mövqeləri

Lakin çox tez bir zamanda Brüssel mal nomenklaturasmm qoyulan tələbləri ödəmədiyi və çox nöqsanlı olduğu aşkara çıxdı. Nomenklatura detallaşdınimadığmdan ondan dünya standartı kimi istifadə edilməsi qeyri məqbul sayıldı. Ona görə də İkinci dünya müharibəsi ərəfəsində yeni mal nomenklaturası - Beynəlxalq Ticarət Statistikası üçün mallann minimal siyahısı yaradıldı.

Bu nomenklatura hazırlandıqları materialın növündən asılı olaraq mallann yanmçoxluqlara bölünməsini, yəni təsnifatlandmlma- sını nəzərdə tuturdu. İstisna hallarda mallar onlardan istifadə prinsipinə əsasən də təsnifatlandınla bilərdi.

Yeni nomenklatura tam şəkildə 1938-ci ildə dərc edildi. Bütün mallar 17 bölmədə yerləşdirildi. Bölmələr də öz növbəsində 50 qrup

L Ərzaq, içkilər, tütün (13 qrup)

II. Piy və yağlar, heyvani və bitki mənşəli mumlar (2 qrup)

III. Kimyəvi və onlara oxşqr məhsullar (4 qrup)

IV. Kauçuk (1 qrup)

V. Meşə materialları və mantar (1 qrup)

VI. Kağız (1 qrup)

VII. Deri və ondan hazırlanan məmulatlar (3 qrup)

VIII. Toxuculuq məhsullan (4 qrup)

IX. Paltar, o cümlədən alt paltarı (4 qrup)

X. Yanacaq, sürtgü materialları, oxşar məhsullar (1 qrup)

XI. Qeyri metal minerallar, onlardan hazırlanan məhsullar (4 qrup)

XII. Qiymətli metallar və qiymətli daşlar, mirvari və ondan hazırlanan bəzəklər (1 qmp)

Xni. Qara və əlvan metallar, onlardan hazırlanan məhsullar (4 qmp)

XIV. Maşınlar, aparatlar və onlann ləvazimatı, nəqliyyat vasitələri (3 qrup)

XV. Digər mallar (2 qrup)

XVI. Xüsusi əməliyyatlann obyekti olan təkrar idxal malları (1 qmp)

XVII. Emal edilməmiş qızıl və sikkələr (1 qmp)

Bu noraenklaturada bölmələr Brüssel mal nomenklaturası ilə müqayisədə hiss ediləcək dərəcədə genişləndirilmiş və detallaşdı-nlmışdı.

Sonrakı illərdə “Beynəlxalq ticarət statistikası üçün mallann minimal siyahısı” dəfələrlə yenidən işlənərək təkmilləşdirilmişdi.

90-cı illərin əvvəllərinə qədər ölkələrin əksəriyyətində xarici ticarət fəaliyyəti və gömrük tənzimləmələrində əsasən 3 təsnifat sistemi geniş yayılmışdı.

- Gömrük əməkdaşlığı şurası (hal-hazırda Ümumdünya Gömrük Təşkilatı adlanır) nomenklaturası GƏŞN, yaxud Brüssel Gömrük Nomenklaturası BGN;

- Qarşılıqlı İqtisadi Yardım Şurası üzvlərinin Xarici Ticarətin Vahid Mal Nomenklaturası QİYŞ XTVMN;

Bu beynəlxalq nomenklaturalar müxtəlif təsnifat prinsipləri üzərində qurulduğundan və mal dövriyyəsini müxtəlif səviyyələrdə detallaşdırdığından ölkələrin idxal və ixracının mal strukturu barəsində məlumatların müqayisəsini çətinləşdirirdi. Bəzən, hətta mal qruplarının adlan uyğun gəldiyi halda belə mahiyyətcə fərqlənirdilər.

### *6.3. Malların təfsiri və koälaşäıntmasımn ‘ ahəngdar sistemi*

Əsas beynəlxalq mal nomenklaturasında müxtəlif təsnifat prinsiplərinin tətbiq edilməsindən irəli gələn çətinliklərin aradan qaldırılması üçün vahid beynəlxalq təsnifatlandıncmın yaradılması zərurəti meydana çıxdı. Bu elə bir təsnifatlandıncı olmalı idi ki, bütün ölkələrdə xarici iqtisadi fəaliyyət iştirakçılan tərəfindən xarici ticarət əməliyyatlannın gömrükxanalarda rəsmiləşdirilməsində istifadə edilə bilsin. Bundan başqa belə təsnifatlandıncı həm də ay- rı-ayn mallar, mal qruplan və mövqeləri üzrə xarici ticarətin analizini aparmağa imkan verməli idi.

Müxtəlif vaxtlarda hazırlanmış beynəlxalq nomenklaturalann heç biri ayrı-ayn ölkələrin və beynəlxalq təşkilatlann tələblərinə tam cavab verə bilmirdi. Müxtəlif ölkələr və təşkilatlann nöqteyi nəzərincə nomenklaturalannın hər biri üstünlüklərlə bərabər, müəyyən qüsurlara malik idi.

Beləliklə, beynəlxalq ictimaiyyətin qarşısında ticarət sənədlərinin göstəricilərinin səmərəliləşdirilməsi və ahəngdarlaşdın İması məsələsi öz həllini tələb edirdi. Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (AİK) Gömrük Əməkdaşlığı Şurasına vahid beynəlxalq mal təsnifat sisteminin yaradılmasının mümkünlüyünü araşdırmaq tapşmğı verdi. Bu sistem mallann təsviri və kodlaşdınimasınm ahəngdar (harmonik) sistemi adını aldı. Hazırlanan nomenklatura həm gömrük, həm də statistika məqsədləri üçün yararlı olmalı İdi. Bu zərurət də Öz növbəsində elmi-texnİki tərəqqi şəraitində beynəlxalq ticarətdə mallann nomenklaturasımn hiss

olunacaq dərəcədo genişlənməsi və mürəkkəbləşməsi ilə bağlı idi. Beləliklə, ahəngdar sistem çoxməqsədli mal nomenklaturası kimi nəzərdə tutulurdu.

Xarici ticarətin milli və beynəlxalq göstəricilərinin müqayisə edilə bilinməsi prinsipi sistemin əsas prinsiplərindən biri oldu.

Ahəngdar Sistemin Mal Nomenklaturası (ASMN) 21 bölmədən və 99 qrupdan ibarətdir. 3 qrupun, o cümlədən 77, 98, 99-cu qrupların gələcək üçün ehtiyat saxlanması nəzərdə tutulur. Bununla belə bu qruplar müxtəlif ölkələrin mal nomenklaturalannda spesifik malların qeydiyyatı üçün istifadə edilə bilər. ASMN-in 21 bölməsi üzrə malların təsnifatının özəyini təşkil edən müxtəlif əlamətlərin əsaslan aşağıdakılardır;

- mənşə (I, II, V);
- funksional təyinat (IV, XI, XII, XVII, XVIIl, XIX, XX, XXI)
- kimyəvi tərkib (III, VI, VII);
- malın hazırlandığı material (VIII, IX, X, XIII, XIV, XV).

ASMN-də qruplar əmələ gələrkən mallann emal ardıcıllığı prinsipi - xammaldan yanmfabrikat və hazır məhsul alınması - istifadə olunur, mallann qruplaşdınıması mövqe və submövqe səviyyəsində apanlır. Bir qayda olaraq, mövqe və submövqedən xarici ticarətdə geniş dövriyyəyə olan bir və ya bir neçə məhsul növü seçilir, qalan növləri üçün isə ümumiləşdirilmiş "digərlər" təsnifat qruplaşması nəzərdə tutulur.

Mal yarımqruplan, mövqeləri və submövqelərinin quruluşunda öz əlamət dəstindən istifadə edilir. Bu əlamətlər aşağıdakılardı: malın təyinatı onun emal dərəcəsi, hazırlandığı material növü, dünya ticarətində xüsusi çəkisi.

ASMN-in müxtəlif səviyyələrini təşkiledən elementlərə nəzər salaq (cədvəl 1)

*Cədvəl 1*

### *ASMN-in quruluşu xüsusiyyəti*

| *Səviyyənin adı* | *Elementlərin sayı* |
|---|---|
| Bölmə | 21 |
| Qrup | 99 (o cümlədən: 96 fəaliyyətdə 3 ehtiyat) |
| Yarımqrup | 33 |
| mal mövqeyi | 1241 |
| submövqe | 5019 |

Ahəngdar sistemdə bölmə və yarımqrupların işarələnməsi üçün rum rəqəmlərindən, qrup, mal mövqeyi və submövqelərin işarələnməsi üçün ərəb rəqəmlərindən istifadə edilir (cədvəl 2).

*cədvəl 2*

### *ASMN-in strukturu*

| *Bölmə* | | *Qruplar* | *Yarım-qruplar* | *Mal* | |
|---|---|---|---|---|---|
| *Kod* | *Adı* | | | *Mövqeyi* | *Submövqeyi* |
| *1* | *2* | *3* | *4* | *5* | *6* |
| I | Diri heyvanlar və heyvandarlıq məhsulları | 35 | - | 44 | 194 |
| II | Bitki mənşəli məhsullar | 9 | - | 79 | 270 |
| III | Heyvan və bitki mənşəli piylər və yağlar, onların parçalanma məhsulları, hazır yeyinti piyləri, heyvan və bitki mənşəli mumlar | 1 | - | 22 | 53 |
| IV | Yeyinti sənayesi məhsulları; spirtli və spirtsiz içkilər, sirkə, tütün və onun əvəzediciləri | 9 | - | 56 | 181 |
| V | Mineral maddələr | 3 | - | 67 | 151 |
| VI | Sənayenin kimya və onunla bağlı sahələrinin məhsulları | 11 | 19 | 176 | 759 |
| VII | Plastmasslar və onlardan hazırlanan məhsullar, kauçuk və rezin məmulatlar | 2 | 2 | 43 | 189 |
| VIII | Gön-dəri xammalı, dəri, yumşaq xəz, xəz xammalı və məmulatlar; sərraclıq məmulatları, yol ləvazimatı, çanta və oxşar əşyalar, bağırsaqlardan düzəldilən məhsullar (ketqutdan başqa) | 3 | - | 21 | 74 |
| IX | Oduncaq və oduncaq məmulatları; ağac kömürü; mantar və məhsulları, saman, həsir və digər toxuma üçün materiallar, səbət və digər oxşar toxunma məhsulları | 3 | - | 27 | 79 |

| | | | | | |
|---|---|---|---|---|---|
| X | **Kağız kütləsi (oduncaq, yaxud digər lifli bitki mənşəli materiallardan), kağız və karton tullantıları və makulatura; kağız, karton və onlardan hazırlanan məhsullar** | **3** | **-** | **41** | **149** |
| XI | **Toxuculuq məhsullan (tekstil) və onlardan hazırlanan məmulat** | **14** | **3** | **149** | **809** |
| XII | **Ayaqqabh baş geyimləri, çətirlər, osa, qamçı, tatan və his.səlari, quş tükü, lələk, pərğu məmulatlar, süni güllər, tük məmulatlan** | **4** | **-** | **20** | **55** |
| XIM | **Daş, gips, sement, asbest, siyuda və bu kimi materiallardan hazırlanmış məhsullar; keramika məhsullan; şüşə və ondan olan məmulatlar** | **3** | **2** | **49** | **138** |
| X1V | **Təbii və ya yetişdirilmiş mirvari, qiymətli və azqiymətli daşlar, qiymətli metallar, qiymətli metallarla örtülmüş qeyıi-necib metallar və onlardan hazırlanmış məmulatlar, sikkələr, bijuleriya** | **1** | **3** | **Ik** | **52** |
| XV | **Qara və əlvan metallar, onlardan hazırlanan məmulatlar** | **11** | **4** | **157** | **587** |
| XV! | **Maşınlar, avadanlıqlar və mexanizmler; elektrik avadanlığı: onlann hissələri; səsyazan və səsləndirici aparatlar; televiziya təsvirlərinin və səslərinin yazılması və canlandın İması üçün aparatlar, onlann hissələri və iəvazimatlan** | **2** | **-** | **133** | **762** |
| XVn | **Yerüstü, hava və su nəqliyyatı vasitələri, onlann hissələri və ləvazimatları** | **4** | **-** | **38** | **132** |
| XVIII | **Optik, fotoqranya, kincmatoqrafiya, nəzarət, ölçü, tibbi və cərrahi cihaz və aparatlar; saatlar; musiqi aletlori; onlann hissələri və ləvazimatları** | **3** | **-** | **56** | **230** |
| XIX | **Silah və döyüş sursatları; onlann hissələri və ləvazimatları** | **1** | **-** | **7** | **17** |
| XX | **Müxtəlif sənaye mallan** | **‘3** | **.** | **32** | **131** |
| XXI | **İncəsənət əsərləri, kolleksiya əşyaları və əntiq əşyalar** | **1** | **-** | **6** | **7** |
| | **V'ekun** | **96** | **33** | **1241** | **5019** |

Ahəngdar sistem mal nomenklaturasmda altırəqəmli kodlaşdırmadan istifadə olunur.

ASMN-də altırəqəmli mal kodunun strukturu onluq sistemə əsaslanır. Birinci iki rəqəm mal qrupunu, dörd rəqəm mal mövac yini, beşinci və altıncı rəqəmlər submövqeləri əks etdirir

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | mal submövgevt | |
| mal mövqeyi | | | | | |
| mal qrupu | | | | | |
| x | x | x | x | x | X |
| 4 | 0 ■ | 1 | 1 | I | 0 |
| kauçuk, rezin məmulatlar | | | | | |
| təzə pnevmatik rezin şinlər | | | | | |
| I | | | | minik avtomobilləri üçün şinlər | |

Ahəngdar sistemin təcrübədə istifadəsini təmin etmək məqsədi ilə 1983-cü ilin iyun ayının l4-də Brüsseldə Ahəngdar Sistem Haqqında Beynəlxalq Konvensiya imzalanmışdır. Konvensiyada Ahəngdar sistemin yaradılmasının məqsədi, tətbiqi sahəsi və hüquqi mexanizmi öz əksini tapmışdır. Ahəngdar sistemin hazırlanıb qəbul edilməsi beynəlxalq təsnifat sistemlərinin standartlaşdınlma- sı tarixində yeni mərhələni başlatdı. 1998-ci ilə qədər bu Konvensiyaya 86 dövlət qoşuldu və onun əsasında öz mal nomenklaturala- nnı və gömrük tariflərini yenidən qurdular. AS hər ölkə tərəfindən submövqelərin genişləndirilməsinə və detallaşdınlmasına imkan verdiyindən təcrübədə geniş istifadə edilir. Konvensiyanın irəli sürdüyü əsas tələb odur ki, müli nomenklaturalann yanmbölmelə- ri ASMN-də göstərilən altırəqəmli kodun artıq olmaqla tamamlana və kodlaşdırda bilər.

Məsələn, Avropa Birliyinin Kombinə Edilmiş Nomenklaturası (ABKN) Ahəngdar sistem əsasında qurulur, AS üzrə altırəqəmli kod yeddinci və səkkizinci işarələrlə tamamlanır. Nəticədə ABKN submövqelərin səkkizrəqəmli kodunu nəzərdə tutur.

### *6.4. Xarici iqtisadi fəaliyydtin vahid mal nomenklaturası*

Hal-hazırda Azərbaycan Respublikasımn gömrük orqanlarmda MDB ölkələrinin vahid mal nomenklaturasından (MDB XİFMN) istifadə edilir. Bu sənəd dövlətlərarası təsnifatlandıncı kimi MDB hökumət başçılannm qəran ilə 3 noyabr 199S-ci ildə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti 22 dekabr 2003-cü il tarixli 161 saylı qəran ilə “Mallann tesviri və kodlaşdınıması

Üzrə Harmonikləşdirilmiş sistem haqqında” Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə” AR Qanununa əsasən XİF MN üzrə kodlann Beynəlxalq Harmonik sistemin yeni variantına uyğunlaşdın İması məqsədilə 10 rəqəmdi sistemi qəbul etmişdir.

MDB XtFMN dünya təcrübəsində istifadə edilən mallann təsviri və kodlaşdınıması Ahəngdar (harmonik) sistemin əsasında qurulmuşdur. Harmonik sistemin yaradılmasının özünəməxsus tarixi vardır.

İlk öncə onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında hal-hazırda tətbiq edilən xarici iqtisadi fəaliyyətin mal nomenkla- turası Ahəngdar sistem və Avropa Birliyinin kombinə edilmiş mal nomenklaturasının əsasında və onlara uyğun tərtib edilmişdir.

XLFMN tətbiq edilən malın İşarə kodu 8 rəqəmdən ibarətdir: 1-6-cı rəqəmlər ASN qəbul edilmiş kod işarəsinə, 7-8-ci rəqəmlər Avropa Birliyinin Kombinə Nomenklaturasının koduna uyğun gəlir, 9 və 10-cu dərəcə isə ənənəvi milli mallara uyğun olaraq tətbiq edilir.

*MDB XİFSN, AS* va *ABKN üzrə*
*kodların münasibati*

| XİFMN üzrə malın kodu (10 işarə) | | |
|---|---|---|
| x 1 x 1 x 1 x 1 X 1 x | X i X | X |
| Ahəngdar sistemə görə malın kodu (6 işarə) | Avropa Birliyinin əlavə detallaşdınnası (7-ci və 8-çi işarələr) | |
| ABKN üzrə malın kodu | | 0 |

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 10-cu maddəsinin 12-ci bəndinə, eləcə də 210-212-ci maddələrinə görə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması və təkmilləşdirilməsi gömrük orqanlan tərəfindən həyata keçirilir.

1997-ci ildən fəaliyyətdə olan MDB ölkələrinin Xarici İqtisadi Fəaliyyət Vahid Mal nomenklaturasımn tamamlanmış ikinci nəşri gömrük sənədlərinin unifikasiyası və gömrük əməliyyatlanmn

rilməsi prosesini əks etdirir. Ahəngdar sistemdə baş vermiş dəyişikliklər nəzərə alınmış subtnövqe səviyyesindeki kod dəyişiklikləri nəzərə alınmış, bezi submövqelər ümumiyyətlə

MDB XİFMN uyğun olaraq malların
**kodunun təyininin texnologiyası**

Malların kodunun düzgün təyin edilməsi üçün MDB XİFMN-in üç tərkib hissəsindən: nomenklatura hissəsi, bölmə və qruplara qeydlər, MDB XİFMN-in əsas interpretasiya qaydalarından istifadə edilməlidir.

Əsas interpretasiya qaydalan kodun təyini üçün kompleks vasitə hesab edilir. Belə qaydalar altıdur. Birinci 5 qaydaya əsasən maİ mövqeyi (ilk 4 işarə), altıncı qaydaya əsasən submövqe (V və VI dərəcə) və yan m submövqe (VII, VIII və IX dərəcələr) tapılır.

*Birinci qayda*

Bölmələrin, qrupların və yanraqruplann adlan MDB XİFMN işdə rahat istifadə edilməsi üçün nəzərə alınır: hüquqi məqsədlər üçün XİFMN-də malların təsnifatı mal mövqelərinin mətnindən, bölmə və qruplara qeydlərindən çıxış edilməklə həyata keçirilir.

*İkinci qayda*

a) Mal mövqeyinin adındakı hər hansı qeyd şərti belə malın komplektləşdirilməmiş, yaxud tamamlanmamış şəklinə də aid edilməlidir, bu şərtlə ki, komplektləşdirilməmiş və tamamlanmamış halda da bu mal bitkin malın əsas xüsusiyyətlərini özündə əks etdinniş olsun.

Təcrübədə bir çox mallar komplektləşdirilməmiş və ya bitirilməmiş, yaxud yığılmamış (sökülü) vəziyyətdə göndərilir. Belə halda göndərilən mal komplekt və bitkin malın xassələrinə malik olmalıdır. Yəni göndərilən mal dərhal istifadəyə hazır deyil, amma hazır məmulatın təqribi formasına malikdir və bəzi əməliyyatlar ■^ayəsində tamamlana bilər.

Bu qaydanın əsas ideyası ondan ibarətdir ki, baxılan mallar bitkin mallarla eyni mövqedə yerləşir.

b) Mal mövqeyinin adındakı hor hansı qeyd-şərt belə malın qanşıq və birləşməsinə də aid edilməlidir. Hər hansı materialdan əmələ gələn mala aid olan qeyd-şərt tamamilə, yaxud qismən bu materialdan ibarət olan mala da şamil edilir.

*Üçüncü qayda*

Əgər ikinci qaydanın b) bəndinə, yaxud bu və ya digər səbəbdən malın iki və ya daha artıq mal mövqeyinə aid edilməsi mümkündürsə, belə mallann təsnifatı aşağıdakı kimi həyata keçirilir:

a) O mal mövqeyinə üstünlük verilir ki, malın daha konkret təsvirini müəyyən edir. Bununla belə, əgər iki, yaxud daha çox mal mövqeyindən hər biri çoxkomponentli məmulatın, yaxud qanşiğın yalnız bir hissəsinə aiddirsə, onlardan birinin daha dəqiq təsvir verdiyinə baxmayaraq, belə mal mövqeləri bərabər əhəmiyyətli hesab edilir.

b) Müxtəlif materiallardan ibarət, yaxud müxtəlif komponentlərdən hazırlanmış qanşıq və çoxkomponentli məmulatlar və bu qaydanın a) bəndi ilə təsnifatlandınla bilməyən mallar həmin mallann əsas xüsusiyyətini səciyyələndirən material və tərkib hissəsinə görə təsnifatlandınimalıdırlar (əgər bu meyar tətbiq edilə bilirsə).

c) təsnifatı 3 a) və b) qaydalarına görə təsnifatlandınla bilməyən mallar mal mövqeləri içərisində kodun böyüməsi qaydasında axınncı mövqedə təsnifatlandınimalıdır.

*Dördüncü qayda*

İlk üç qayda ilə təsnifatlandınla bilməyən mallar baxılan mallarla on uyğun (yaxm) olan mallann mövqeyində təsnifatlandınimalıdırlar.

*Beşinci qayda*

Müəyyən məmulatların, yaxud məmulatlar qrupunun saxlanılması üçün nəzərdə tutulan və ya xüsusi forması olan qab-tara mənsub olduğu mallarla birgə təqdim ediljrsə, qablaşdırdığı məmulatlarla

***AIüttct qt^da***

Hüquqi məqsədlər üçün hər hansı mal mövqeyinin submövqe-yindəki malların təsnifatı submövqelərə və onlara aid qeyd-şərtlə- rə uyğun olaraq bir səviyyədəki submövqelərin müqayisə ediləbi- lən olması şərti ilə həyata keçirilə bilər. Bu qaydanın məqsədləri üçün, həmçinin, bölmə və qruplara qeyd-şərtlər, əgər başqa şey nəzərdə tutulmamışsa, tətbiq edilə bilər.

Bu qaydanın bir səviyyədəki submövqelərin müqayisəsi baxımından şərhə ehtiyacı var. Məsələ bundadır ki, Ahəngdar sistemin xüsusiyyətlərindən biri də “defis sisteminin” mövcudluğudur. De- fıs sistemi detallaşdınlan submövqelərin və yanmsubmövqelərin adlarının qarşısında müəyyən sayda xətlərin (defislərin) qoyulmasını nəzərdə tutur.

Defislərin sayı submövqenin səviyyə nömrəsinə bərabər olur. Müxtəlif sayda derislərin qoyulması detallaşdınimanın dərinliyini göstərir və müəyyən edilmiş aiqoritra üzrə (azdan çoxa) uyğun malların axtarışım asanlaşdırır.

# Mövzu 7. Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi

*7.1.* Gömrük tarifinin mahiyyati xarici ticarətdə gömrük-tarif tənzimləmələrinə üstünlük verilməsi həyata keçirilməkdə olan iqtisadi islahatlann başlıca xüsusiyyətlərindən biri kimi səciyyələndirilir.

Müasir mərhələdə səmərəli fəaliyyət göstərə bilən gömrük-tarif tənzimləmə mexanizmi fəal və çevik gömrük siyasətinin həyata keçirilməsinin, həmçinin Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi və iqtisadi maraqlarının qorunması üçün əsas şərtdir.

Gömrük tarifi - xarici ticarətin dövlət tənzimlənməsinin qiymət-əmələgətirmə mexanizmi ilə fəaliyyət göstərən əsas vasitəsidir.

Gömrük tarifi həm proteksionist, həm de tiskal funksiyalar daşıyır.

Proteksionist funksiya milli istehsalçıların mənafeyinin müdafiəsi ilə bağlıdır. İdxal mallarından gömrük rüsumu tutulması, onla- nn daxili bazarda satışı zamanı dəyərinin artmasına və bununla da milli sənaye və kənd təsərrüfatında istehsal edilən analoji mallann rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxanr.

Gömrük tarifinin fİskat funksiyası gömrük rüsumları tutulması hesabına dövlət büdcəsinin mədaxil hissəsinə vəsait yığılmasını təmin edir.

Göstərilənlərdən başqa, gömrük tarifi daxili qiymətlərə təsir etməklə, müəyyən dərəcədə milli istehsalın və ixracın inkişafına xidmət edir.

İdxal mallarmm daxili bazarda bahalaşmasının nəticəsi oıaraq, belə mallann qiymətlərinin ümumi səviyyəsi qalxır, milli istehsalçılar əlavə gəlir əldə edir ki, bu da öz növbəsində iqtisadiyyata investisiya, yaxud ixrac qiymətlərinin aşağı düşməsi ilə yaranan itkilərə kompensasiya və xarici bazarda ölkənin mallannın rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə istifadə edilə bilər.

İqtisadi və siyasi güzəştlər əldə etmək üçün istifadə edilir. Belə güzəştlər bu və ya digər mallann idxalına tətbiq edilən rüsumlann cavab tədbiri kimi aşağı salınması, həcminin idxala tətbiq edilən qeyri-tarif məhdudiyyətlərin zəiflədilməsi hesabına ola bilər.

İkitərəfli və çoxtərəfli razılaşmalar əsasında belə güzəştlərin əldə edilməsi milli istehsal mallannın xarici bazarlara çıxarılmasını əhəmiyyətli dərəcədə asanlaşdıra bilər.

Gömrük tarifi bir sıra hallarda, birtərəfli qaydada ixrac məhsullarının istehsalına tələb olunan mallara aşağı və hətta sıfır dərəcəli idxal rüsumu tətbiq etməklə milli istehsalın və ixracın stimullaşdı- rılması üçün istifadə edilə bilər.

Gömrük tarifinin xarici-ticarət münasibətlərinin və bütövlükdə İqtisadiyyata təsirinin xüsusiyyətləri dövlət orqanlanndan rüsum stavkalanmn təyin edilməsi prosesində xüsusi məsuliyyət tələb edir. Bu sahədə oxşar inkişaf yolu keçmiş ölkələrin təcrübəsindən istifadə edilməsi bir sıra yanlışlıqlardan qaçmağa imkan verər. Belə ki, müxtəlif ölkələrin tətbiq etdiyi tarif tənzimləmələrində ümumi cəhətlər çoxdur.

Ölkə təsərrüfatının inkişaf səviyyəsi ilə gömrük rüsumu stavkaları arasında müəyyən asılılıq mövcuddur. Belə ki, təsərrüfat inkişaf etmiş olduqca, gömrük rüsumlannın dərəcələri aşağı olur. Yüksək inkişaf etmiş ölkələrdə kifayət qədər rəqabət qabiliyyətinə malik məhsul buraxılır və elə buna görə də daxili bazarın yüksək rüsumlar hesabına qorunmasına, ixracın əlavə tədbirlərlə stimullaşdır! İmasına və büdcənin gəlir hissəsinin gömrük ödəncləri hesabına doldurulmasına ehtiyac qalmır.

Qeyd edilən asılılıq inkişaf etmiş ölkələrlə inkişafda olan ölkələrin gömrük tariflərini müqayisə etdikdə daha qabanq nəzərə çarpır. Əgər birinci qrup ölkələrdə bu rüsumların dərəcələri 10%-dən aşağıdadırsa, ikinci qrup ölkələrdən adətən 20-50% arasında olur. Bununla belə, inkişaf etməkdə olan ölkələrdə bəzi mal növlərinə tətbiq edilən rüsumlar 50, bəzən də 100%-den artıq olur.

Qeyd etmək lazımdır ki, xarici ticarətin inkişaf tendensiyası göstərir ki, beynəlxalq mal mübadiləsinin artırılması üçün rüsumlann

azaldılması, bəzi hallarda isə, onlardan tamamilə imtina edilməsi tələb olunur.

*7.2. Gömrük tarif tffitziatlamoisrinin hüquqi asaslan*

Azərbaycan Respublikasının Gömrük Tarifi Azərbaycan Respublikasının gömrük səıııədindən keçirilən və Xarici-İqtisadi Fəaliyyətin Mal Nomenklaturasına (XİFMN) əsasən sistemləşdirilmiş mallara tətbiq edilən gömrük rüsumu dərəcələrinin (stavkalannm) məcmusudur. Gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydası 20 iyun 1995-ci il tarixli Azərbaycan Respublikasının “Gömrük tarifi haqqmda” qanunu ilə müəyyən edilmişdir.

Bu qanuna görə gömrük tarifinin əsas məqsədləri aşağıdakılardır:

-Azərbaycan Respublikası üzrə idxalın mal strukturunu səmərəliləşdirmək;

-Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxanlmasının, valyuta gəlirinin və xərclərinin əlverişli nisbətini təmin etmək;

-valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək;

-Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;

-Azərbaycan Respublikasının İqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;

-Azərııaycan Respublikası iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük rüsumunun dərəcələri vahid olub, malları gömrük sərhədindən keçirən şəxslərdən, əqdlərin növlərindən, “Gömrük tarifi haqqında” qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla digər faktorlardan asılı olaraq dəyişdirilə bilməz.

Azərbaycan Respublikasının ərazisinə gətirilən, gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən

rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir ("Gömrük tarifi haqqında" Qanun, maddə 3, b. 3).

İxrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı, həmçinin xarici iqtisadi tənzimləmənin qeyri- tarif tədbirləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin mallan üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi Azərbaycan Respublikasmm Milli Məclisi tərəfindən təyin olunur.

### *7,3, Gömrük rüsumları və rüsum dərəcələrinin növləri*

Yuxanda qeyd edilən ümumiliklə tətbiq edilən rüsumlarla yanaşı mallann idxal və ixracını operativ tənzimləmək məqsədi ilə mövsümi rüsumlar tətbiq edilə bilər. Bu halda gömrük tarifi ile müəyyən olunmuş rüsum dərəcələri tətbiq edilmir. Qanunvericiliyə görə mövsümi rüsumlann qüvvədə olduğu müddət altı aydan artıq ola bilməz.

Azərbaycan Respublikasının iqtisadi maraqlannm müdafiəsi məqsədi İlə idxal edilən mallara eyni zamanda gömrük rüsumlan- nm əlahıddə növləri, o cümlədən xüsusi, antidempinq, kompensasiya rüsumları tətbiq edilə bilər.

1.Əgər Azərbaycan Respublikasının gömrük ərazisinə xarici mallar oxşar, yaxud bilavasitə rəqabət aparan mallann istehsalçıla- nna zərər vuran və ya vura biləcək miqdarda, həmçinin belə şərtlər daxilində gətirilirsə, eləcə də digər dövlətlərin və onların qmplan- nın Azərbaycan Respublikasının maraqlanna toxunan diskrinimasi- ya və ya bu kimi başqa hərəkətlərinə cavab tədbiri kimi xüsusi rüsumlar tətbiq edilir.

2.Əgər Azərbaycan Respublikasmm gömrük ərazisinə xarici mallar gətirildiyi ölkədəki və gətirilmə ərəfəsindək! normal qiymətlərdən daha aşağı qiymətə daxil edilirsə, həmçinin belə idxal

xud həmin mallann istehsalının təşkilinə ve genişləndirilməsinə mane olursa, o zaman antidempinq rüsumları tətbiq edilir.

3. Əgər Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən xarici mallann mənşə ölkəsində istehsalı, yaxud kracında bilavasitə və ya dolayısı yolla subsidiyalardan istifadə edilmişsə, həmçinin əgər belə idxal bu cür mallann milli istehsalçılarına maddi zərər vura bilərsə, yaxud həmin mallann istehsalmın təşkilinə və genişləndirilməsinə mane olursa, o zatnan kompensasiya rüsumlan tətbiq edilir.

Milli istehsalın müdafiəsi məqsədi ilə əlahiddə növ rüsumlardan başqa digər tədbirlər də müəyyən edilə bilər. Belə tədbirlərin bir növü kimi qeyri-tarif məhdudiyyətləri barədə növbəti fəsillərdə ətraflı

### *7,4, Gömrük rüsumunun hesablanmastnda **mMŞ9 ölkBsi" anlayişı*

Malın mənşə ölkəsinin müəyyən edilməsinin hüquqi əsasları "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu İlə (24-32-ci maddələr) təsbit edilmişdir. Onlar gömrük əməliyyatlarının sadələşdirilməsi və unifikasiyası barədə Kyoto Konvensiyasında öz əksini tapmış beynəlxalq təcrübəyə əsaslanır.

Gömrük qanunvericiliyi "mənşə ölkəsi" anlayışının daha geniş mənada, yəni mənşə yeri mənasında İstifadəsinə yol verir.

Beləliklə, malın "mənşə ölkəsi" məfhumu malın istehsal edildiyi ölkələr qrupu, gömrük ittifaqlan, dövlətin bir hissəsi, yaxud mahalı kimi başa düşülə bilər.

2000-ci il noyabr ayının 30-da MDB hökumət başçıları şurasının qəran ilə təsdiq edilmiş mənşə ölkəsinin təyinedilmə qaydalan "mənşə ölkəsi" məfhumu kimi ölkələr qrupunu da nəzərdə tutur. Bu qaydalar mənşəyi MDB üzv-dövlətlərindən olan və bu dövlətlər arasında ticarət dövriyyəsində olan mallara aid edilir. MDB üzv dövlətlərin gömrük ərazisinə üçüncü ölkələrdən gətirilən və bu dövlətlərdən üçüncü ölkələrə apanlan mallann mənşə ölkəsinin təyin edilmə qaydası MDB üzv-dövlətlərinin milli qanunvericiliyi ilə müəyyən edilir.

MDB Üzv-dövlətlərin qeyd edilən qaydalarında nəzərdə tutulan "mənşə ölkəsi" termini malın tamamilə istehsal edildiyi, yaxud kifayət qədər emal edildiyi ölkə başa düşülür. Bununla bərabər qeyd edilir ki, kifayət qədər emal edilmə meyarı kimi mənşənin kumul-yativ prinsipi, yəni mallar ardıcıl olaraq MDB-nin bu və ya digər ölkələrində emal edildikdə bu dövlətlər mənşə ölkəsinin təyini məqsədləri üçün bir ölkə kimi baxılır.

*Malın mənşs ölkssinin* tayı/ıı *meyarları*

Beynəlxalq gömrük hüququnun mühüm mənbələrindən biri olan gömrük əməliyyatlarının sadələşdirilməsi və harmonikləşdi- rilməsi barədə Kyoto Konvensiyasında mənşə ölkəsinin təyini üçün beynəlxalq ticarət təcrübəsində istifadə edilən üç əsas meyar müəyyən edilmişdir.

1. Ematedilmə meyarı idxal malının verilmiş ölkələrin ərazisində elə yenidən emal dərəcəsini nəzərdə tutur ki, malın mal təsnifatında mövqeyini dəyişir, yəni gömrük tarifinin tətbiq edildiyi bir mal mövqeyindən digərinə keçirir. Malın onu yeni təsnifat mövqeyinə keçirən (emalı) yenidən emalı əsas verir ki, emalın (yenidən emalın) həyata keçirildiyi ölkənin ərazisindən çıxmış yeni mal kimi baxılması və bu ölkənin mənşə ölkəsi kimi hesab edilməsi mümkün olsun.
2. Faiz tərkibi meyarı hazır məhsulun axır dəyərində xarici material və komponentlərin son hədlərini müəyyən edir.
3. Mənşə ölkəsinin yalnız matın tam istehsal edildiyi ölkə hesab ediləcək malların siyahısının müəyyən edilməsi. Belə mallara faydalı qazıntılar, canlı heyvanlar, heyvan mənşəli məhsullar, balıq və balıqçılıq məhsulları, həmin ölkədə alınmış təkrar xammal, həmçinin sadalanan məhsullardan istehsal edilən bütün mallar aiddir. Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qaıiımunun 26-cı maddəsində tamamilə həmin ölkədə istehsal edilmiş sayılan malların siyahısı verilmişdir.

Müasir elmi-texniki tərəqqinin reallığının tərənnümü kimi tamamilə verilmiş ölkədə istehsal edilmiş mallann siyahısına həmin öl

kəyə məxsus, yaxud onun icarəyə götürdüyü kosmik gəmilərdə və onlann vasitəsilə açıq kosmosda alınmış yüksək texnologiya məhsuUan da aid edilir.

Malın mənşəyinin təyin edilməsində kifayətedici emal meyarından malın istehsalında iki və daha artıq ölkə iştirak etdikdə istifadə edilir. Bu meyara görə malın mənşəyi onun axırıncı kifayət qədər emala məruz qaldığı, yəni mala səciyyəvi xassələr verilə bildiyi qədər emala məruz qaldığı ölkə hesab edilir.

Kifayət qədər emal edilmə meyarının ifadə formaları aşağıdakılar ola bilər:

1) mal mövqeyinin dəyişilməsi qaydası - emal nəticəsində mal nomenklaturası üzrə təsnifat kodunun hər hansı ilk dörd rəqəm səviyyəsində dəyişməsi;

2) advalor hissə qaydası - malın dəyərinin istifadə edilən malların və ya əlavə edilmiş dəyərin faiz payının qiymətin müəyyən hissəsinə çatdığı səviyyədə dəyişməsi (ad valorem - qiymətdən (malın qiymətindən müəyyən qədər) deməkdir).

3) malın müəyyən mənşə ölkəsindən olduğunu hesab etməyə kifayət edən, yaxud kifayət etməyən istehsal və ya texnoloji proseslərin siyahısının tərtib edilməsi.

Qeyd etmək lazımdır ki, mal mövqeyinin dəyişilməsi qaydasından istifadə edildikdə, istisna, yəni istehsal, yaxud texnoloji əməliyyatlan əks etdirən siyahılar tətbiq edilə bilər. Bu əməliyyatlar mal mövqeyinin dəyişilməsinə gətirib çıxarsa da, kifayətedici emal əlamətləri hesab edilmir, ya da yalnız müəyyən şərtlər daxilində belə hesab edilir.

Advalor hissə qaydasından kifayətedici emal meyan kimi istifadə edildikdə dəyər göstəriciləri aşağıdakılar üzrə hesablanır:

a) idxal edilmiş materiallar üçün - gömrük dəyəri üzrə və yaxud onlann mənşəyi məlum deyilsə, istehsal ölkəsi ərazisində ilk satış üzrə müəyyən edilmiş qiymətlərlə;

b) hazır mallar üçün - franko-zavod, yaxud satıcının ixrac qiymətləri üzrə.

Əgər konkret mallar üzrə onlann mənşəyinə görə əlahiddə meyarlar müəyyən edilmirsə ümumi qayda tətbiq edilir və bu da o de

məkdir ki, mal o zaman kifayət qədər emal edilmiş hesab edilir ki. mal mövqeyi mal nomenklaturasında hər hansı İlk dörd rəqəm səviyyəsində dəyişilmiş olsun.

K-ifayətedici emal meyarının tələblərinə aşağıdakı əməliyyatlar aid edilə bilməz:

a) mallann saxlanması və nəql edilməsi zamanı onlann mühafizəsini təmin edən əməliyyatlar;

b) mallarm satışa və nəql etməyə hazırlanması əməliyyatlan;

c) sadə yığma əməliyyatlan;

ç) ilkin mallardan seçilməyən dərəcədə mallann xassələrini dəyişən qanşdırma əməliyyatları;

d) mal-qaranın kəsilməsi.

İstehsal və' nəqletme şəraitinə görə bir partiya ilə göndərilə bilməyən sökülmüş, yaxud yığılmamış halda olan əşyalar bir neçə partiya halmda göndərilirsə, mənşə ölkəsi nöqteyi-nəzərindən vahid əşya kimi baxılmalıdır.

Bu qaydanın tətbiq şərtləri aşağıdakılardır:

1) müvafiq gömrükxananın malın bir neçə partiyaya bölünməsi, partiyanın müfəssəl spesifikasiyası, malın dəyəri və mənşə ölkəsi barədə xəl^ərdar edilməsi;

2) bütün partiyalann bir ölkədən, bir idxalatçı tərəfindən göndərilməsi;

3) bütün partiyaların bir gömrükxanadan keçirilməsi;

4) bütün mal partiyalarının göndərilməsi 6 aydan artıq vaxt almamalıdır.

Malın mənşə ölkəsinin təyini məqsədləri üçün istehsalda istifiıdə olunan enerji, maşm və avadanlıqlarm mənşəyi əhəmiyyət kəsb etmir.

Malın hər hansı ölkənin gömrük ərazisindən mənşələndiyinin təsdiqi kimi gömrük orqanlanna malın mənşə sertifikatı təqdim edilməlidir.

Bu sənəd malın mənşəcə mənsub olduğu ölkənin səlahiyyətli orqanı tərəfindən verilir.

Bu sertifikatların nümunələri İ saylı əlavədə göstərilir.

MDB üzv dövlətlər sertifıkatlan təsdiq etmək səlahiyyəti olan orqanlann imza və möhür nümunələrini müqayisə məqsədilə mü

badilə edirlər. Bu nümunələr təqdim edilmədikdə sertifikatlar etibarsız hesab edilir və bu mallara tarif və vergi preferensiyalan tətbiq edilmir.

Sertifikat verildiyi mal barədə aşağıdakı vacib məlumatlan özündə əks etdirməlidir.

a) ixracatçının adı və ünvanı;

b) idxalatçmm adı və ünvanı;

c) daşınma vasitəsi və gediş istiqaməti (məlum olduğu qədər);

ç) yerlərin sayı və növü, malın təsviri, malın eyniləşdirilməsi üçün vacib olan bütün məlumatlar;

d) brutto və netto çəkisi (bu göstəricilər malı daha dəqiq xarakterizə edən ölçü vahidləri ilə də göstərilə bilər).

Sertifikat malın sənəddə göstərildiyi ölkədən mənşələndiyini birmənalı şəkildə şəhadətləndiıməlidir.

Sertifikat gömrük orqanlanna Yük Gömrük Bəyannaməsi və gömrük rəsmiləşdirilməsi üçün tələb olunan digər sənədlərlə birgə təqdim edilməlidir. Sertifikat itirildikdə təsdiq edilmiş surəti təqdim edilir.

Müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş mənşə sertifikatının və ya malın mənşəyi barədə məlumatların təqdim edilməməsi malın gömrük sərhədindən buraxılmaması üçün əsas ola bilməz. Bunun üçün ölkənin beynəlxalq sazişləri və dİgər öhdəlikləri, yaxud qanunvericiliklə müəyyən edilmiş müddəalar əsas götürülə bilər.

## Mövzu 8. Gömrük dəyəri və onun təyin edilməsi üsulları

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının qanunu Azərbaycan gömrük nəzarəti təcrübəsində gətirilən mallann gömrük dəyərinin təyin edilməsinin başlıca prinsip və normalarının hüquqi əsasım müəyyən edir. Bu prinsip və normalar mütəxəssislər arasında “Gömrük dəyər kodeksi” adlandınlan, tarif və ticarət üzrə Baş Sazişin - GATT (General Agreement on Tariffsand Trade) VII maddəsinin tətbiqi üzrə sazişin müddəalan ilə təsbit edilmişdir.

Barəsində söhbət gedən və dövlətlərin əksəriyyətinin qoşutdu- ğu sazişin məqsədi göydəndüşmə və saxta gömrük dəyərindən istifadənin qarşısım ala bİlən, mallann gömrük dəyərinin təyin edilməsinin vahid və neytral sisteminin bərqərar edilməsidir.

Beləliklə, gömrük dəyərinin təyin üzrə Azərbaycan qanunvericilik aktlarının beynəlxalq prinsiplər əsasında formalaşması Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat əlaqələrinə inteqrasiyasının mühüm şərti, milli gömrük qanunvericiliyinin inkişafının keyfiyyətcə yeni mərhələsidir.

Azərbaycan iqtisadiyyatının keçid dövründəki xüsusiyyətləri, Azərbaycanın təsərrüfat hüquqi sisteminin inkişaf etmiş ölkələrin sistemindən fərqli cəhətləri gömrük dəyərinin təyin edilməsi sisteminin tətbiqində müəyyən çətinliklər yaradır, normativ-hüquqi bazanın real şəraitə uyğunlaşdın İmasını tələb edir. Bununla birgə Azərbaycan Respublikasının yaxın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına (GATT) daxil olmaq marağı beynəlxalq prinsip və normaların maksimum dərəcədə tətbiqini, onların gömrük dəyərinin təyini üzrə normativ sənədlərdə və ümumilikdə gömrük orqanlarının fəaliyyətində nəzərə alınmasını obyektiv məcburiyyət kimi qarşıya qoyur.

## *8.1. Gömrük dəyəri anlayışı* vd *onun funksional təyinatı*

Gömrük tariflərinin tətbiqi, tarif tənzimləmələri tədbirləri, onlann beynəlxalq norma və qaydalara uyğunluğu, həmçinin tarif əhatəsinin real səviyyəsi gömrük rüsumlan və ödənclərinin bazasının hesablanma formasım müəyyən edən qaydalardan asılıdır.

Malların gömrük sərhədindən keçirilməsi zamanı vergiqoyma bazasının təyin edilməsi qaydalarının müəyyən edilməsində həm dövlət, həm də kommersiya dairələri maraqlıdır. Belə ki, dövlət büdcəsinin gəlir hissəsinin iyirmi faizindən çoxu gömrük rüsum və vergiləri hesabına formalaşır. Kommersiya dairələri üçün keçirilən mallara vergiqoyma qaydalan barədə bilgilər xarici iqtisadi fəaliyyətin real səmərəsini, konkret əqdlərin gəlir və çıxarışı hesablamağa imkan verir.

Məsələn, idxal rüsumu və vergilərin dərəcələrini dəyişmədən, gömrük rüsumlannm hesablandığı təyinetmə bazasının dəyişməsi hesabına onlarm məbləğini əhəmiyyətli dərəcədə artınb-azaltmaq olar. Bu isə vergitutma bazasına hər hansı məsrəf elementlərini əlavə etmək, yaxud çıxarmaq yolu ilə əldə edilə bilər.

Artıq aydın olur ki, beynəlxalq ticarət təcrübəsində gömrük dəyərinin müxtəlif milli metodika əsasında təyini, adətən, qeyri-tarif məhdudiyyətlər kimi qəbul edilir.

Bəs onda hansı gömrük dəyəri gömrük ödəncləri üçün baza kimi qəbul edilməlidir?

Aydındır ki, malın istehsalçıdan istehlakçıya doğru hərəkətinin müxtəlif mərhələlərində onun dəyəri müxtəlif olacaqdır, belə ki, müxtəlif dəyər komponentlərini özündə cəmləşdirəcəkdir və bu dəyərlərin hər biri özünəməxsus qaydada hesablanacaqdır.

Malların gömrük sərhədindən keçirilməsi zamanı gömrük ödənclərinin hesablanması üçün istifadə olunan dəyəri, malın satıcıdan alıcıya qədər müəyyən hərəkət mərhələsində formalaşır, bu mərhələyə uyğun komponenrtlori (xərc və gəlirləri) Özündə cəmləşdirir və malın gömrük dəyəri kimi baxılır.

Başqa sözlə, gömrük dəyəri malın o dəyəridir ki, gömrük vergitutma məqsədi ilə istifadə olunur, yəni advalor gömrük ödəncləri- nin (rüsum, aksiz, ƏDV, gömrük rəsmiləşdirilməsi üçün yığımlar) hesablanma bazası kimi qəbul edilir.

“Mallann gömrük dəyəri” kateqoriyasının fonksional təyinatı da elə bundan, yəni gömrük ödənclərinin hesablanma bazası obnağmdadır.

Bundan başqa gömrük dəyərinin hesablanması bilavasitə və dolayı yollarla digər gömrük məqsədləri üçün, məsələn, gömrük statistikası, barter əməliyyatlarmda malların qiymətlərinin reallığının yoxlanması, gətirilən mallann ekvivalent olmasına nəzarət, idxal-ixrac əməliyyatlanna valyuta nəzarəti və s. üçün də mühüm əhəmiyyət kəsb edir.

İstənilən vergitutma sisteminin tətbiqi onun səmərəliliyinin təminatı üçün ən azı iki tədbiri zəruri edir: birincisi, vergitutma bazasının hesablanmasının dəqiq qaydasının müəyyən edilməsi, yəni bu bazanın əsas struktur elementlərinin təyini və bu təyinatın qaydasını; ikincisi, dövlətə müəyyən olunmuş qaydalara riayət edilməsini yoxlamağa imkan verən zəruri nəzarət mexanizmindən istifadə.

“Mallann gömrük dəyəri” məfhumu və onun təyininin sərt reqlamentasiyası bu məqsədlərə xidmət edir.

Bu məsələlər gömrük dəyərinin təyin edilməsi metodikasının zəruriliyini bir daha nümayiş etdirir.

Bir tərəfdən aydın, dəqiq nonna və qaydalann müəyyən edilməsi gömrük dəyərinin konkret səviyyəsini qeyd etməyə İmkan verir ki, bu da Özbaşına hesablamalarla gömrük rüsum dərəcələri ilə manipulyasiyanın qarşısı alsın. Digər tərəfdən hammın istifadə edə biləcəyi metodikanın və müəyyən edilmiş qaydalann olması XİF iştirakçılan qarşısında eyni, ədalətli şərtlər qoyur və xarici ticarət əməliyyatlannın müəyyənliyi səviyyəsini yüksəltməyə, bağlaşmaların iqtisadi parametrlərini qabaqcadan hesablamağa imkan verir.

Bir halda ki, söhbət xarici ticarət fəaliyyətindən gedir ticarət edən tərəflərin gömrük qanunvericiliyinin unİfikasiyası mühüm əhəmiyyət

“Gömrük dəyəri” göstəricisinin funksional əhəmiyyəti onun təyin edilmə metodikasını, həmçinin təyin edilmənin əsaslı olduğuna nəzarətin məsələ və texnologiyasını şərtləndirir.

### *8,2. Malların gömrük dayarinin iayin edilməsinin normativ-hüquqi bazası*

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanunu mallann qiymətləndirilməsinin ədalətli, vahid və neytral sisteminin təmin edilməsinin əsasını təşkil edir. Bundan başqa, qanun gömrük dəyərinin strukturunu dəqiq müəyyən edir: gömrük dəyəri, faktiki olaraq Ödənilmiş, yaxud ödənilməli olan qiymət və üstə- gel ona hesablanmalı əlavələr deməkdir.

Qanunla müəyyən edilmiş qiymət əlavələrinin və onlann siyahısının gömrük orqanlan və iqtisadi fəaliyyət iştirakçıları tərəfindən dəyişdirilməsinə yol verilmir.

Qanunda qeyd edilir ki, mallann gömrük dəyərləndirmə sistemi Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar şamil edilir. Bu şərt gömrük dəyərinin təyin edilmə üsullarmda nəzərə alınmalıdır.

Müəyyən edilmiş gömrük qiymətləndirmə sisteminin dəyişdirilmədən tam həcmdə ixrac əməliyyatlarında analoji məqsədlə tətbiq edilməsi bir sıra obyektiv səbəbdən (satıcı və alıcının məsrəflərində fərqlər, həmçinin idxal və ixracda gömrük vergiqoymasmm məqsəd və şərtlərinin fərqləri) mümkün deyil. Bununla belə qanunla müəyyən edilmiş mal qiymətləndirilməsinin ümumi prinsipləri ixrac əməliyyatlarında da istifadə edilə bilər.

Gömrük dəyərinin təyin edilməsi və ona nəzarətin bir sıra vacib müddəaları Azerbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmişdir.

Gömrük dəyərinin və vergitutma bazasının ayn-ayn rejimlər üzrə təyin edilməsinin xüsusiyyətləri məcəllədə öz əksini tapmışdır.

Gömrük Məcəlləsi İlə müəyyən edilmiş gömrük orqanlannın hüquqları gömrük dəyərinin təyin edilməsinə nəzarət üçün mühüm əhəmiyyət kəsb edir. Bu hüquqlar aşağıdakılardır:

- gömrük nəzarətinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası gömrük sərhədindən malları və nəqliyyat vasitələrini keçirən şəxslərin, gömrük brokerlərinin və ya belə fəaliyyətlə məşğul olan digər şəxslərin, icrasına nəzarət edilməsi Azərbaycan Respublikası gömrük orqanlanna həvalə olunmuş əməliyyatları və bank hesablarının vəziyyəti haqqında banklardan və digər kredit teşkilatla- nndan məlumatlar və arayışlar almaq hüququ (GM, maddə 179);
- gömrük nəzarətini həyata keçirmək məqsədi ilə xidməti vəsiqə əsasında gömrük orqanı əməkdaşlarının gömrük nəzarətindən keçiriləcək mallar və nəqliyyat vasitələri, gömrük nəzarəti üçün zəruri sənədlər olan, yaxud icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlanna həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi ərazilərə və binalara daxil olmaq hüququ (GM, maddə 181);
- gömrük orqanlan öz səlahiyyətləri daxilində nəzarəti gömrük orqanlarına həvalə edilmiş fəaliyyət göstərən şəxslərin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanması üçün müvafiq icra hakimiyyəti orqanlan qarşısında vəsatət qaldırmaq hüququ (GM, maddə 183).

Bu hüquqi nonnalarm mallann gömrük dəyərinin təyin edilməsinə nəzarətin təşkilində praktik əhəmiyyəti nəzarət sisteminin iki pilləli olması zərurətindən irəli gəlir.

Birinci pillə malların gömrük rəsmiləşdirilməsi zamanı həyata keçirilən nəzarət, ikinci pillə gömrük orqanlanna bəyan edilmiş məlumatlann doğruluğunun onların sorğular da daxil olmaqla əlavə sənədli yoxlanması.

Yaxud xarici iqtisadi fəaliyyətlə məşğul olan şəxslərin maliyyə təsərrüfat fəaliyyətinin yoxlanması.

“Gömrük tarifi haqqında” Qanun gömrük dəyərinə nəzarətin birinci pilləsini, Gömrük Məcəlləsi isə ikinci pilləsini reqlamentləşdirir. Ona görə də qanunla müəyyən edilən gömrük dəyərinin təyin edilməsi üsul və qaydaları Gömrük Məcəlləsinin “Gömrük tarifi haqqında” qanunun müddəalarım göstərilən istiqamətlərdə tamamlayan uyğun maddələri ilə qarşılıqlı əlaqədə baxılmalıdır.

çıxarsa Gömrük Məcəlləsinə görə belə hal gömrük qaydalarının pozulması kimi qiymətləndirilir

ödənilməmiş gömrük ödənişləri ödəməmə faktının aşkar edilməsi vaxtından asılı olmayaraq gömrük orqanlan tərəfindən tutulur (GM, maddə 122).

Gömrük dəyərinin təyin edilməsində gömrük qaydalannın pozulmasına görə sanksiyalar Gömrük Məcəlləsi ilə tənzimlənir

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədi ilə Nazirlər ICabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qəran ilə "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydalan" təsdiq edilmişdir.

Dövlət Gömrük Komitəsinin 25 dekabr 1997-ci il tarixli 1106 saylı əmri ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında əsasnamə təsdiq edilmişdir.

Gömrük dəyərinin bəyan edilməsi üçün xüsusi bəyanetmə formalan:

- KDB-1 - birinci üsul üçün
- KDB-2 - ikinci-altıncı üsullar üçün.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş gömrük dəyərinin təyin edilməsi sistemi GATT/ÜTT sazişində olduğu kimi onu nəzərə alır ki, malların qiymətləndirilməsi üçün əsas kimi geniş tətbiq edilməkdə olan gətirilən mallann sövdələşmə qiyməti götürüləcəkdir.

### *S.3, Gömrük day^rinin tsyin edilmasi üzrə dünya təcrübəsi*

Müasir beynəlxalq hüquqi standartlar GATT çərçivəsində (Bu sazişin yeddinci maddəsi gömrük məqsədləri ilə dəyərin təyin edilməsi problemlərinə həsr olunmuşdur.) formalaşmışdır. Hazırda gömrük dəyərinin təyin olunması üzrə iki beynəlxalq sistem möv

cuddur. 1953-cü ilin iyul ayının 28-dən qüvvəyə minmiş birinci sistem gömrük məqsədləri üçün mallann qiymətləndirilməsi üzrə Brüssel Konvensiyası ilə (1950-ci il 15 dekabrda qəbul edilmişdir) müəyyən edilmişdir. İkinci sistem l979-cu il GATT sazişinin VII maddəsinin tətbiqi qaydasını müəyyən edən sazişlə reqlamentleşdirilmişdir. Hər iki sistemin əsasını GATT sazişinin VII maddəsi təşkil etdiyindən onlar arasında prinsipial fikir aynlığı yoxdur.

Bunlar arasındakı fərq əsas anlayışlara münasibətdə meydana çıxır. Brüssel Konvensiyasına əsasən gömrük dəyərinin təyin edilməsi üçün əsas olaraq, malın sərbəst rəqabət şəraitində müstəqil alıcı və satıcı arasındakı qiyməti kimi başa düşülən normal qiymət götürülür. Hesab edilir ki, normal qiymət hər iki tərəfi qane edən və həm müqavilədə göstərilən, həm də göstərilməyən heç bir komraereiya, maliyyə və digər münasibətlərin təsir etmədiyi yeganə meyidir. 1979-cu il Sazişində isə "normal qiymət" anlayışı əvəzinə "sövdələşmə qiyməti" anlayışı istifadə edilir. Sövdələşmə qiyməti dedikdə ödənilmiş və ya Ödəniləcək faktiki qiymət başa düşülür. Bu qiymətə komission ödənclər, konteynerlərin, taranın, xidmətlərin dəyəri daxil edilir. Lakin bu zaman mal üzərində sərəncama, bağlaşmaya və onun qiymətinə heç bir məhdudiyyət olmamalıdır, eyni zamanda satıcı ilə atıcı arasında qarşılıqlı əlaqə olmamalıdır.

### *8,4. Gömrük dəyərinin təyin edilməsi sistemi*

Mövcud gömrük qanunvericiliyi GATT çərçivəsində hazırlanmış gömrük dəyərinin təyin edilməsi üsullarını əsas götürür. Azərbaycan Respublikasına idxal edilən mallann gömrük dəyərinin təyin edilməsi üsullanndan hazırda qüvvədə olan gömrük tarifi haq- tpnda qanuna əsasən aşağıdakı ardıcıllıqla istifadə olunur.

| AŞ ? | *Üsulun adı* | *GATT sazişi üzrə maddə* | *"Gömrük tarifi haqqında" Qanunun maddəsi* |
|---|---|---|---|
| 1 | Gətirilon mallann sövdələşmə qiyməti ilə | 1 | 18 |
| 2 | Eyni mallann sövdələşmə qiyməti ilə | 2 | 19 |
| 3 | Eynicinsli mallann sövdələşmə qiyməti ilə | 3 | 20 |
| 4 | Dəyərin çıxılması üsulu | 5 | 21 |
| 5 | Dəyərin toplanması üsulu | 6 | 22 |
| 6 | Ehtiyat üsul | 7 | 23 |

**Üsulların tətbiq ardıcıllığı dəyişdirilə bilməz (deklarantın seçdiyi 4-cü və 5-ci üsullar İstisna təşkil edir).**

**Alqı-satqı sövdələşmələri üçün gömrük dəyərinin təyin edilməsinin əsas üsulu gətirilən mallann sövdələşmə qiyməti ilə təyin edilməsi üsuludur. Buna görə də qiymətləndirmə bu üsulun tətbiq edilməsinin mümkünlüyünün araşdınıması ilə başlanılmalıdır.**

**Əgər əsas üsul bu və ya digər səbəbdən tətbiq edilə bilməzsə, qalan beş üsuldan biri tətbiq edilir.**

**Hər bir sonrakı qiymətləndirmə üsulu o zaman tətbiq edilir ki, ondan əvvəlki üsul gözlənilən səmərəni verməsin.**

**İkinci və üçüncü üsullar gömrük dəyərinin təyin edilməsində ilkin baza kimi eyni malların və eynicinsli mallann sövdələşmə qiymətlərinə əsaslanır. Bu halda həm gömrük orqanlannda olan məlumatlar, həm də deklarant tərəfindən sənədli təsdiq tapmış ,ıiəlu- matiar istifadə oluna bilər. Məlumatın seçilməsində əsas meyar dəyərləndirilən sövdələşmənin şərtlərinə yaxınlıq dərəcəsidir.**

**Dəyərin çıxılması və toplanması üsullan (4 və 5-ci üsullar) gömrük dəyərinin hesablanmasının prinsipcə fərqli bazasını nəzərdə tutur.**

**4-cü üsul malların dəyişilmədən (yaxud emal edilmiş şəkildə, bu emalın malın qiymətinə təsirini müəyyən etmək mümkün ol**

duqda) satıldığı qiymətə əsaslanır. 5-ci üsul malın istehsalına çəkilən məsrəflər barədə məlumata əsaslanır.

6-cı üsul ehtiyat üsuludur və o zaman tətbiq edilir ki, ilk 5 üsuldan istifadə etmək mümkün olmasın.

***Gömrük dəyərinin təyin edilməsi üsullarının sistemi***




### *8.4.1. Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi üsulu (I üsul)*

Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi üsulu dəyər əsasına malik (alınan mala görə hesablaşma pul ödənclən vasitəsilə həyata keçiriləndə) olan alqı-satqı xarici ticarət bağlaşmalarına uyğun olaraq gətirilən mallara tətbiq edilir. Hesablaşma forması (inkasso, bank köçürməsi, akkreditiv) prinsipial əhəmiyyət kəsb etmir. Gömrük rəsmiləşdirilməsi anına ödəniş sənədlərinin olmaması I üsulun tətbiqindən imtina edilməsinə və digər üsullardan istifadə edilməsinə əsas ola bilməz. Əgər faktu-

rada göstərilən və deklarant tərəfindən bəyan edilən gömrük dəyəri gömrük orqanlan tərəfindən ödənc sənədləri olmadan qəbul edilmirsə, bu zaman şərti buraxılış rejimindən istifadə edilə bilər.

Gömrük dəyərinin müəyyən edilməsinin sadələşdirilməsi və unifıkasiyası məqsədi ilə şərti dəyər bağlaşmalan (pul vəsaitlərinin real hərəkəti olmayan) ilə gətirilən mallann gömrük dəyərinin I üsulla təyininə yol verilir. Belə bağlaşmalara mübadilə, kompensasiya göndərişləri, zəmanət hesabına və əvəzsiz göndərişlər (məsələn, bağışlamalar) aid edilə bilər. Bu halda, müvafiq sənədlərdə (müqavilə, saziş), preforma hesablarda, gətirilən ölkənin gömrük bəyannaməsində bu əməliyyat üzrə mallann hər birinin dəyəri göstərilməlidir.

Eyni zamanda müqavilə - komissiya və ya konsiqnasiya əsasında gətirilən mallara bu üsul tətbiq edilməməlidir. Çünki bu halda malm mütləq alqı-satqısı deyil, yalnız satış üzrə xidmətlər göstərilməsindən danışıla bilər.

Gömrük tarifi haqqında qanunun 18-ci maddəsinin birinci bəndinə görə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malm gömrük dəyəri malm gömrük sərhədindən keçirildiyi anda bu ma' üçün faktiki ödənilmiş və ya ödəniləcək sövdələşmə qiymətidir.

Sövdələşmə qiyməti müəyyən edilmiş əlavələr və hesabda; çıxmalar nəzərə alınmaqla dəqiqləşdirilir.

*Gömrük dəysri*

| |
|---|
| *G^tirihtt mala göra ödmiimış və ya ödənilməli olan sövdələşmə qiyməti* |

Sövdələşmə qiymətinə qabaqcadan daxil edilməmiş komponentlər:

- *malm hava və dəniz limanmadək, yaxud respublikanın gömrük ərazinə daxil olduğu digər yerə qədər çəkilən xərclər:*
- *nəqliyyat xərcləri;*
- *mabn yüklənmə, boşaldılma və yenidən yüklənmə xərcləri;*
- *sığorta xərcləri*

Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət alıcının satıcıya idxal malları üçün ödədiyi, yaxud ödəyəcəyi, lakin gömrük rəsmiləşdirilməsi anmadək hələ ödəməmiş olduğu ödənc məbləğlərinin cəmidir. Ödənc köçürmə, akkreditiv, inkasso, qarışıq və digər qanuni hesablaşma formasında ola bilər.

Gətirilən malların sövdələşmə qiymətinə əsaslanan üsulun tətbiqinə bir sıra şərtlər daxilində yol verilir.

Onlardan biri qiymətləndirilən mala münasibətdə idxalatçmın hüquqlarının məhdudiaşdırılmamasıdır. Aşağıdakı məhdudiyyətlər istisna təşkil edir:

- milli qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlər;
- malın qiymətinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər.

Əgər qiymətə əhəmiyyətli dərəcədə təsir göstərə bilən məhdudiyyətin olduğu bəyan edilirsə və bu səbəbdən qiymətin kəmiyyət dəyişməsi sənədli qaydada müəyyən edilirsə, birinci üsulun tətbiqinə yol verilir. Əgər qiymətə kəmiyyət təsirini müəyyən etmək və sənədli qaydada təsdiq etmək mümkün deyilsə, gömrük dəyərinin təyin edilməsinin digər üsullanna müraciət edilməlidir.

Gətirilən malların sövdələşmə qiymətinə əsaslanan üsul təsirinin müəyyən edilməsi mümkün olmayan şərtlərdən asılı olan satış və qiymətlər üzrə tətbiq edilə bilməz. Məsələn, satıcı müqavilədə idxal edilən malın qiymətini müəyyənləşdirərkən şərt qoyur ki, alıcı ondan müəyyən miqdar digər mal almalıdır və s. Xarici ticarət müqavilələri təcrübəsində malın gömrük dəyərinin təyin edilməsini mürəkkəbləşdirən şərtlər barədə kifayət qədər misallar var.

Məsələn, alqı-satqı niüqaviləsi matın yalnız bir satıcıdan alınması şərtini müəyyən edə bilər. Başqa bir misal: gömrük dəyərləndirilməsi tələb edilən mal yanmfabrikat ola bilər və o şərtlə göndərilə bilər ki, əvəzində müəyyən miqdar hazır məhsul verilmiş olsun.

Belə misallarda aydınlaşdırılmalıdır ki, müqavilənin “incə mətləbləri” sövdələşmə dəyərinə təsir edir, yoxsa yox.

Bu halda belə təsirin kəmiyyət tərəfini müəyyən etmək mümkün olmazsa l üsul tətbiq üçün yararsızdır.

Əgər konkret şərtin sövdələşmə qiymətinə kəmiyyət təsimi təyin etmək mümkündürsə I üsuldan istifadə etmək olar.

Xarici ticarət müqaviləsində ümumiliklə qəbul edilmiş göndəriş şərtləri (o cümlədən inkotermslə müəyyən edilmiş) öz əksini tapmışsa, gətirilən mallann gömrük dəyərinin sövdələşmə qiyməti osasmda təyin edilməsi üsulu tətbiq edilə bilər.

Birinci üsul, həmçinin, xarici ticarət müqavilələrinin ümumilikdə qəbul edilmiş və sövdələşmə qiymətinə təsir etməyən aşağıdakı şərtləri üçün də keçərli ola bilər:

- "ekspert rəyi əlavə edilməklə alqı-satqı";
- "müəyyən tarixə qədər mal göndərişi";
- "alıcıya daimi müştəri kimi güzəşt verilməsi".

I üsuldan istifadə etməyə yönəlmiş ən mühüm tələblərdən biri gömrük dəyərinin təyin edilməsi məqsədi ilə deklarant tərəfindən təqdim edilən məlumatların sənədli təsdiqidir. Gömrük dəyəri birinci üsulla o zaman təyin edilə bilər ki, onun gömrük deyər bəyannaməsində göstərilən bütün elementləri müvallq sənəd lərlə təsdiq edilmiş olsun. Sövdələşmə qiyməti - hesab-faktura (in-voys), şərti dəyər bağlaşmaları üçün - hesab preforma, bank ödəniş sənədləri və alqı-Satqı müqaviləsi ilə təsdiq edilməlidir.

Qiymətə əlavələr və ya çıxarışlar müvafiq ödəniş, mal-müşayi- ət, sığorta, gömrük və digər sənədlərlə təsdiq edilməlidir.

Müqavilə iştirakçıları qarşılıqlı asılı şəxslər olduqda I üsul istifadə edilə bilməz.

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu sövdələşmə iştirakçıları arasında qarşılıqlı asılılığını 1979-cu il GATT sazişinin VII maddəsinin tətbiqi barədə Sazişlə müəyyən edilmiş qaydada reqlamentləqdirir, 18-ci maddəsinin 2) bəndində göstərilən əlamətlərdən heç olmazsa birinə malik olan müqavilə iştirakçıları bir-birindən qarşılıqlı asılı hesab edilir.

Satıcı və alıcının qarşılıqlı asılılığı barədə məlumat gömrük dəyər bəyannaməsində göstərilməlidir. Gömrük orqanı qarşılıqlı asılılığın olub-olmaması barədə bəyan edİlən məlumatİan yoxlama və təhqiqat nəticəsində əldə etdiyi, həmçinin nəşr edilmiş məlumatla-

nn analizi nəticəsində əldə etdiyi məlumatlarla tutuşduraraq qərar qəbul edir. Əgər gömrük orqanına bəyan edilməmiş belə əlaqə müəyyən'edirsə, bu barədə idxalatçtya xəbər verir, ona əksini sübut etməyə və bəyan edilmiş dəyəri sənədli təsdiq etməyə imkan yaradır.

Bu zaman qarşılıqlı asılılığın xüsusi yoxlama zərurəti yükün saxlanılmasına əsas vermir. Yük ädi qaydada göndərilir, keçirilən yoxlamanın nəticələrinə əsasən gömrük dəyəri yenidən hesablanır, rüsumun və digər vergilərin ödənilməmiş miqdan tutulur.

. Konkret şübhə olduqda xarici ticarət bağlaşmasımn məlumatlan xüsusi nəzarətə götürülür. Gömrük orqanlan keçirdikləri yoxlamanın gedişində tərəflər arasında əvvəllər həyata keçirilən bağlaşmaların olub-olmadığı, yaxud onlara nöqsanlar tutulub-tutulmadığı aşkarlanır.

Gömrük orqanı müstəqil olaraq qarşılıqlı asılılığı olmayan kontragentlərin eyni və oxşar mallar üzrə müqavilələri ilə belə bağlaşmaları müqayisə edə bilər.

Əgər yoxlama nəticəsində müəyyən edilsə ki, tərəflər arasındakı qarşılıqlı asılılıq sövdələşmə qiymətinə təsir göstərməmişdir, təhqiqatı davam etdirməyə gərək qalmır. Bu halda I üsulun tətbiqinə yol verilir.

Deklarant tərəflərin qarşılıqlı asılılığının sövdələşmə qiymətinə təsir göstərmədiyini sübut etmək hüququnu reallaşdıırmaq üçün 10 gün müddətində müvafiq sənədlərlə təsdiq etməlidir ki, həqiqətən bəyan edilmiş qiymət ödənilmişdir, yaxud gömrük dəyəri müəyyən edilən malların qiyməti bir-birindən asılılığı olmayan kontra- gentlər arasındakı alış-satış əməliyyat! anndakı eyni və oxşar malların 4-cü və 5-ci üsulla hesablanmış qiymətindən çox fərqlənmir.

Birinci üsuldan istifadənin mümkünlüyü müəyyən edildikdən sonra sövdələşmə qiyməti dəqiqləşdirilir, “Gönuiik tarifi haqqında”

## *Satıcı və alıcı arasındakı qarşılıqlı asılılığın aşkar edilməsi və gömrük dəyərinin təyin edilməsində I üsuldan istifadənin müəyyənləşdirilməsi Sxemi*



Sövdələşmə qiymətinin dəqiqləşin Iməsi üçün birinci komponent malm gömrük ərazisindəki hava, dəniz limanına və ya digər gətirilmə yerinə qədər çatdırılmasına çəkilən xərclərdir.

Gömrük dəyərinin təyin edilməsi məqsədləri ilə gətirilmə yeri dedikdə aşağıdakılar başa düşülür:

- aviadaşımalar üçün malları daşıyan təyyarənin onlann boşaldılması üçün endiyi təyinat və ya ilk hava limanı;
- dəniz daşımalan üçün Azərbaycan Respublikası ərazisində birinci yükboşaltma limanı (daşınma faktı bu limanda fəaliyyət göstərən gömrük orqanı tərəfindən təsdiq edilməlidir);
- diger nəqliyyat vasitələri ilə daşımalar üçün gömrük sərhədindəki buraxılış məntəqəsi;
- poçt göndərişləri üçün beynəlxalq poçt mübadiləsi məntəqəsi.

Daşınma xərcləri, malların boşaldılması, yüklənməsi, yenidən yüklənməsi və başqa yerə daşınması xərcləri, sığorta məbləğləri malın çatdırılma məsrəflərinə daxil edilir.

Ölkənin gömrük ərazisinə gətirilən mallann gömrük dəyərinin təyin edilməsi zamanı həmin malın müəyyən edilmiş gətirilmə yerinədək çatdırılması üçün faktiki olaraq meydana çıxan xərclər də nəzərə alınır. Daşınmanın dəyərinə fraxt, mal müşayiət sənədlərinin rəsmi ləşdirilmosinə çəkilən xərclər, daşınma müddətində malın keyfiyyətinin və tamlığının müəyyən səviyyədə saxlanılması üçün (müvafiq temperatur rejimi, nəmlik və s. səviyyələri üçün) çəkilən xərclər də daxil edilir.

Malın gömrük ərazisinə əvəzsiz qaydada malgöndəren tərəfindən və alıcının öz nəqliyyat vasitəsi ilə çatdırıldığı hallarda sərbəst, lakin eyni nəqliyyat növü İlə daşınmanın tarif qiymətlərinə əsasən müəyyən edilən məbləğ gömrük dəyərinə daxil edilir. Əgər belə məlumatlar yoxdursa, nəqliyyat xərcləri mühasibat uçotunda kalkulyasiya hesablamaları qaydasında mühüm elementlər nəzərə alınmaqla müəyyən edilir.

Əgər daşınma sənədləri gömrük orqanına təqdim edilməmişsə, birinci üsuldan istifadə edilmir və digər üsullara müraciət olunur.

Gömrük məqsədləri üçün istifadəyə ən rahat olan malgöndərmə şərtləri GIF (dəyər, sığorta və fraxt) hesab olunur. GIF qiyməti

gömrük dəyərinin strukturuna uyğun gəlir. Digər göndəriş şərtlərində müəyyən dəqiqtəşdirmələrin aparılması labüddür. Məsələn, DAF baza şərtlərində (sərhədə qədər göndəriş) sığorta və göndəriş yerinə qədər olan xərclər qiymətə əlavə edilməlidir. EXW (zavoddan), FAS (gəmidə sərbəst) şərtlərində daşınma xərclərində alıcının ixrac ölkəsindən malların çıxarılmasına görə çəkilən gömrük xərcləri də nəzərə alınır.

Alıcının məsrəflərinə:

- komission və broker haqları (mal tədarükündəki komission xərclərdən başqa);
- konteynerlərin və digər çoxdövriyyəli taranın dəyəri (əgər mal nomenklaturası nəzərdə tutursa);
- qablaşdırma xərcləri, o cümlədən qablaşdırma materiallannın dəyəri və qablaşdırma işlərinin dəyəri aid edilir.

Beləliklə, gömrük dəyərinə komission və dİgər vasitəsi haqları da daxil edilir. Özü də gömrük dəyərinə yalnız malın satılması üzrə komission haqlan, yəni alıcının tapılıb malın ona satılması üçün Ödənən haqlar daxil edilir. Bİr qayda olaraq, onlar malın qiymətində öz əksini tapır. Lakin əgər hər hansı səbəbdən bu xərclər malın qiymətində əks etdirilməmişsə, müvafiq sənədlər əsasında bu əlavələr edilməlidir. Malın satılması üzrə xərcləri malın alınması üçün çəkilən xərclərdən ayırmaq lazımdır, çünki sonuncuları alıcı ödəyir və gömrük rüsumuna cəlb olunmur.

Çoxdövriyyəli taradan istifadə edildikdə onun deyəri çoxdefəlik mal göndərişlərində hər partİyadakı malın miqdanna mütənasib olaraq bölüşdürülür.

Belə mütənasib bölgü gömrük orqanı tərəfindən o zaman qəbul edilir ki, müqavilədə və ya digər sənədlərlə təsdiq edilmiş olsun.

Çoxdövriyyəli taranın geri qaytan İmasına gÖrə çəkilən məsrəflər tara xərclərinə aid edilmir.

Sövdələşmə qiymətinin dəqiqləşdirilməsinin üçüncü komponenti 1 üsulda qiymətləndirilən malların istehsalı və ya satışı ilə bağlı olaraq, istifadə üçün alıcı tərəfindən pulsuz, yaxud aşağı qiymətə bilavasitə və ya dolayı yolla təqdim edilən mal və xidmətlərin dəyərinin müəyyən hissəsidir.

Bu dəyər aşağıdakı kimi paylaşdınlır:

1) xammal, material, detal, yanmfabrikat və digər komplektləşdirici hissələr;

2) alətlər və digər yardımçı avadanlıq (ştamp, forma və s.);

3) dəyərləndirilən mallann istehsalı prosesində sərf edilmiş materiallar (sürtgü yağlan, yanacaq və i.a.);

4) mühəndis və təcrübə-konstmktor layihələri, dizayn, çertyoj və s.

I üsulda sövdələşmə qiymətinin dəqiqləşdir! İməsinin dördüncü komponenti alıcının dəyərləndirilən malların satış şərti kimi bilavasitə və ya dolayısı ilə həyata keçirməli olduğu intellektual mülkiyyətdən istifadəyə görə lisenziya və digər ödənctərdir.

Gömrük dəyərləndirilməsi məqsədi ilə lisenziya və digər ödənclər aşağıdakılardan istifadəyə görə ödənən haqlar başa düşülür:

- gətirilən mallann, o cümlədən onlann sənaye nümunələrinin hazırlanması, nou-hau və s.;

- gətirilən mallann ixracda satılması, o cümldən mal nişanları və nümunələri;

- patent, müəlliflik hüququ (ədəbiyyat, kino, elmi əsərlər və s.), istehsal texnologiyası da daxil olmaqla gətirilən mallann istifadəsi və ya başqasına satılması.

Lisenziya və analoji digər ödənclərin sövdələşmə qiymətinə əlavə edilməsi o vaxt gerçəkləşdirilir ki, bu ödənclər gətirilən mala aid olsun, alıcı ilə satıcı arasmda bağlanan müqavilənin şərtləri ilə müəyyən edilmiş olsun. Bu zaman alıcmm ödədiyi lisenziya haqlan satıcıya, yaxud onun nəfmə üçüncü bir şəxsə ödənmiş olmalıdır.

Sövdələşmə qiymətinin I üsulda dəqiqləşdirilməsinin beşinci komponenti Azərbaycan Respublikası ərazisində qiymətləndirilən mallann istifadə olunmasmdan, verilməsindən və ya təkrar satışından satıcının birbaşa, yaxud dolayı yolla əldə etdiyi gəlirin bir hissəsidir.

Bir qayda olaraq satıcının gəlirinin bu hissəsi xarici ticarət müqaviləsində təsbit edilir. Belə ki, əgər müqavilə ilə nəzərdə tutulmuşsa ki, alıcmm gəlirinin 10%-i satıcıya qaytanimahdır, gəlirin bu hissəsinə uyğun məbləğ gömrük dəyərinə əlavə edilir və dəyər bəyannaməsində göstərilir.

Əgər gömrük rəsmiləşdirilməsinə qədər gəlirin məbləği bəlli deyilsə, gömrük dəyər bəyannaməsində gözlənilən təqribi məbləğ yazılır, onun təyini üçün müstəqil ekspert cəlb edilməsinə imkan verilir. Gözlənilən gəlirin miqdarı gönnük orqanı tərəfindən təsdiq edilməlidir. Əgər gəlirin'məbləği müəyyən oluna bilmirsə, gömrük dəyərinin I üsulla təyininə yol verilmir.

Sadalanan komponentlər “Gömrük tarifi haqqında” Qanunla əlavə ödəmələr kimi müəyyən edilir.

Gömrük dəyəri təkcə əlavə Ödənclər hesabına deyil, həmçinin müəyyən məbləğlərin çıxılması hesabına da dəqiqləşdirilə bilər. Azərbaycan Respublikası gömrük ərazisi daxilində gətirilmə məntəqəsindən çatdırılma yerinə qədər çəkilən xərclər müvafiq sənədlərlə təsdiq edilməklə sövdələşmə qiymətindən çıxılır.

Bu məsrəflər aşağıdakılardır:

1) mallar gətirildikdən sonra quraşdırma, yığma, sazlama və ya texniki köməyə görə xərclər;

2) gətirilmə yerindən təyinat yerinə qədər çəkilən nəqliyyat xərcləri; •'

3) idxal gömrük rüsum, vergi və yığımlannın ödənilməsinə görə Xərclər.

Lakin qeyd etmək lazımdır ki, bu xərclər sövdələşmə qiymətindən o zaman çıxılır ki, bütün işlər müqavilədə əks etdirilmiş olsun və hesab-fakturada bu xərclər aynca göstərilsin.

Əgər hesab-fakturada nəqletmənin müxtəlif mərhələlərində xərclər aynca göstərilmirsə, “idxal yeri-təyinat məntəqəsi” sahəsindəki nəqliyyat xərclərini yalnız gömriik orqanına müvafiq sənədlər təqdim edildikdən sonra çıxmaq olar. “Franko-sərhed” xərcləri “fran- ko-təyinat yoi” xərclərindən çox aşağı olduğu sübut edilməlidir.

Əgər xarici ticarət müqaviləsi ilə DDP və DEQ göndəriş şərtləri müəyyən edilmişdirsə, idxal gömrük rüsumu, digər vergi və gömrük yığımlan şəklində ödənilmiş məbləğlər malın qiymətindən çıxılmalıdır.

### *8.4.2. identik (eyni) malların sövdəhşms qiyməti üsulu (II üsul)*

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi, gətirilən malların sövdələşmə qiymətinə əsaslanan üsuldan istifadə edilməsi mümkün olmayan hallarda II üsul - identik (eyni) malların sövdələşmə qiymətinə əsaslanan üsul tətbiq edilir.

İdentik mallar dedikdə əsas eyniləşdirilmə əlamətləri eyni cür olan mallar başa düşülür. Belə əlamətlərə aşağıdakılar aid edilir:

- fiziki xüsusiyyətlər;
- keyfiyyət və bazardakı reputasiyası;
- mənşə ölkəsi;
- istehsalçı.

Qanunla müəyyən edilmişdir ki, xarici əlamətlərindəki cüzi, əhəmiyyətsiz fərqlər mallara eyni mallar kimi baxılmasından imtina etməyə əsas vermir, bir şərtlə ki, bu mallar yuxanda göstərilən əsas xüsusiyyətlərə görə eyni cür olmalıdır.

Baxılan malın istehsalçısı tərəfindən istehsal edilən eyni mallar barədə məlumatlar olmadıqda müxtəlif şəxslər tərəfindən istehsal edilmiş mallar o zaman identik (eyni) hesab edilə bilər.

İdentik mal kimi sökülmüş (yığılmamış) halda olan mallar da baxıla bilər, çünki yığıldıqdan (quraşdırıldıqdan) sonra eyni olacaqdır.

Əgər mallar eyni ölkədə istehsal edilməmişsə, həmçinin onlann layihəsi, təcrübə sınaq işləri və $. həmin ölkədə yerinə yetirilməmişsə, belə mallar qiymətləndirilən mallarla identik hesab edilə bilməz.

II üsuldan istifadə edildikdə gömrük dəyər bəyannaməsində bu üsuldan istifadə əsaslandırılmalı, I üsuldan imtinanın səbəbləri və məlumat mənbələri göstərilməlidir.

Aşağıdakı şərtlər daxilində gömrük orqanı identik mallar üzrə gömrük dəyər bəyannaməsini II üsul üzrə qəbul edə bilər:

1) bu mallar Azərbaycan Respublikası ərazisinə gətirilmək üçün satılmış olmalı;

2) qiymətləndirilən mallarla eyni vaxtda və ya 30 gündən çox

3) qiymətləndirilən mallarla təqribən eyni miqdarda və ya eyni kommersiya şərtlən daxilində gətirilmiş olmalıdırlar.

Beləliklə, qiymətləndirilən mallarla identik (eyni) kimi qəbul ediləcək mallar arasındakı keyfiyyət xüsusiyyətlərinə və göndəriş kommersiya şərtlərinə görə fərqlərin olması ikinci üsuldan imtina etməyə əsas vermir. Belə hallarda malın qiyməti bu fərqlər nəzərə alınmaqla təshih edilir. Təshih hesablamaları gömrük orqanına təqdim edilən və belə təshihin məqsədə uyğunluğu və dəqiqliyini təsbit edən sənədli sübutlar əsasında aparılır.

Bundan başqa gömrük dəyərinin ikinci üsulla dəqiqləşdirilməsi zamanı I üsulda (gətirilən mallann sövdələşmə qiyməti üsulu) araşdırdığımız xərclər də nəzərə alınmalıdır. Təshihlər GDB-2-nin 12 və 13-cü qrafalannda əks etdirilir.

İkinci üsul tətbiq edlərkən eyni mallar üzrə birdən artıq sövdələşmə qiyməti aşkar edilərsə, gömrük dəyəri kimi ən aşağı olan götürülür.

### *8,4.3. Eynicinsli malların sövdələşm9 qiyməti üsulu (III üsul)*

Eynicinsli mallann sövdələşmə qiymətinə əsaslanan III üsulun mahiyyəti gətirilən mallann gömrük dəyərinin təyini üçün bu mallarla eynicinsli olan mallara aid sövdələşmələrdəki qiymətin əsas götürülməsidir. Gömrük qanunvericiliyində eynicinsli mallar olaraq, bütün xassələri ilə eynicinsli olmasa da, ümumi xüsusiyətlərə malik olan, tərkibi oxşar komponenrtlərdən ibarət olub dəyərləndirilən mallarla eyni funksiyaları yerinə yetirən və kommersiya nöqteyi-nəzərindən qarşılıqlı əvəzedilə bilən mallar nəzərdə tutulur.

Beləliklə, mallann eynicinsli olmasını müəyyən edən əsas meyarlar aşağıdakılardır:

1) texniki (oxşar xassə və komponentlərə malik olması);
2) funksional (eyni funksiyalar yerinə yetirmələri);
3) ticari (ticarətdə qarşılıqlı əvəzedilə bİlən olmaları).

Təcrübədə mallann eynicinsliyinin təyini üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

- keyfiyyət, mal nişanı və bazardakı reputasiyası;
- mənşə ölkəsi;
- istehsalçı.

Misal üçün, iki müxtəlif mal eyni keyfiyyətə malikdir, eyni standartlara cavab verir, bazarda eyni reputasiyaya malikdir və eyni funksiya yerinə yetirirlər, amma müxtəlif ticarət markaları var. Ticarət markasının fərqliliyi ona gətirir ki, bu mallan eyni (identik) qəbul etməyə, 2-ci üsulu tətbiq etməyə imkan vermir, amma onlar eynicinsli hesab edİlir və 3-cü üsul tətbiq edilir.

İdentik mallarda olduğu kimi, qiymətləndirilən mallarla eyni ölkədə istehsal olunmayan mallar eynicinsli hesab edilə bilməz. Bundan başqa, digər, yəni, həmin malın bilavasitə istehsalçısı olmayan şəxslər tərəfindən istehsal olunan mallar o zaman eynicinsli hesab edilə və 3-cü üsul totbiq edilə bilər ki, bilavasitə istehsalçının eynicinsli mallar istehsal etdiyi bəlli olmasın.

3- cü üsuldan istifadə zamanı da gömriik tarifi haqqında qanunun 19-cu maddəsinin 2-4-cü bəndlərindəki qaydalar tətbiq edilir.

### *8.4.4. D9yərin çıxılması üsulu (IV üsul)*

Dəyərin çıxılmasına əsaslanan dördüncü üsul özündən əvvəlki üsulların tətbiq edilməsinin mümkün olmadığı hallarda tətbiq edilir.

Məsələn: birinci üsulda baxılan sövdələşmə qarşılıqlı asılılığı olan şəxslər arasında bağlanmış və bu asılılıq malın qiymətinə təsir etmişdir, lakin bu təsirin dəyər kəmiyyətini aşkar etmək mümkün olmamışdırsa; ikinci üsulda gömrük orqanı və deklarant baxılan identik mallara aid məlumata malik deyillərsə; üçüncü üsulda eynicinsli mallara aid kifayət qədər məlumat yoxdursa; dördüncü - dəyərin çıxılması üsulundan istifadə edilir. Bu zaman ümdə şərt - qiymətləndirilən, identik və ya eynicinsli malİann ilk vəziyyəti dəyişdirilmədən Azərbaycan Respublikası ərazisində satılması şərtidir. Beləliklə 4-cü üsul gətirilən malın idxalçı ölkənin daxili bazannda alqı-satqı əqdlərinə yönəlmişdir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, gömrük dəyərinin təyin edilməsi üçün əsas olaraq

mallann ilkin vəziyyəti dəyişilmədən daxili bazarda satıldığı qiymətlər götürülür. Bu halda gömrük dəyərinin hesablanma bazası kimi qiymətləndirilən malların gətirilmə anına yaxın müddətdə satıldığı böyük partiyalardakı mal vahidinin qiyməti götürülür. Eyni zamanda, alıcıiun satıcıdan asılı olmaması şərtinə riayət olunmalıdır.

Qiymətləndirilən identik və ya eynicinsli mallann daxili bazarda gətirilmə anındakı halda satılması faktlan yoxdursa, deklarantın xahişinə əsasən emal prosesi keçilmiş və əlavə dəyər düzəlişi verilmiş mal vahidinin qiyməti götürülə bilər. Bu halda emal prosesində əlavə edilmiş dəyərin əsas dəyərdən çıxılması, belə emalın dəyəri barədə obyektiv ve kəmiyyətcə müəyyən edilə biləcək məlumat əsasında aparılmalıdır.

4- cü üsuldan istifadə edildikdə gömrük dəyərinin əsaslandırılması üçün məlumat mənbəyi kİmi müqavilələri əvvəllər idxal edilmiş və ya dəyərləndirilmiş malların qiyməti barədə məlumatlardan, yaxud mallann daxili bazarda iri partiyalarla satıldığı qiymətləri təsdiq edə biləcək digər sənədlər yararlı ola bilər.

*Daygrin çıxiimtısma asaslanan*
*gömrük dəyarinin tayini üsulunun sxemi*

*Mal vahidinin gömrük dayari*

*Dayariandirilan, identik vaya eynicinsli*
*malların mümkün qadar iri partiyalarla*
*Azarbaycan arazfsinda satıldığı mal vahidinin qiymati*

*Komission haqlar, galira adi alavalar va Azarbaycanda bela*
*matların satılması amaliyyatlanna çakilan xarclar*

*İdxal gömrük rüsumlarının, digar ödanclarin mablaği*

### *8.4.S. Dəyarin toplanması üsulu (V üsul)*

Döyərin toplanmasına əsaslanan 5-ci üsuldan istifadə zamanı gömrük dəyərinin təyin edilməsi üçün baza olaraq malın aşağıdakı üç komponentin cəmlənməsi yolu ilə hesablanan qiyməti götürülür:

- materialların və qiymətləndirilən matın istehsalı ilə əlaqədar olan digər məsrəflərin dəyəri;
- ixracatçı ölkədən Azərbaycana malın satılması üçün səciyyəvi olan eyni növ mallara görə çəkilən ümumi xərclər, o cümlədən, nəqliyyat, yükləmə-boşaltma, sərhədi keçənədək sığorta və s. xərclər;
- ixracatçının, adətən, Azərbaycana belə mal göndərməsinə görə əldə etdiyi gəlir.

5- ci üsuldan istifadə edildikdə gömrük dəyər bəyannaməsində gömrük dəyərinin təyini üçün istifadə edilən məlumatların mənbəyi göstəri Imolidir.

5-Cİ üsulla gömrük dəyəri həm idxal ölkəsində əldə edilən məlumat, həm də dəyərləndirilən mallann istehsal məsrəfləri barədə üçüncü ölkələrdən əldə edilən məlumatlar əsasında həyata keçirilir.

Bu üsuldan istifadədə, adətən, istehsalçı gömrük orqanlanna lazım olan məlumatı təqdim edir. Yalnız istehsalçının təqdim etdiyi məlumat məsrəflərin hesablanması üçün əsas götürülə bilər. Bu məlumat ticarət hesablarına əsaslanmalı və mallann istehsal edildiyi ölkədə tətbiq edilən uçot prinsiplərinə uyğun olmalıdır.

İdxal ölkəsində həyata keçirilən elementlərin dəyəri yalnız bu xərclərin istehsalçı tərəfindən ödənildiyi həcmdə nəzərə alınmalıdır.

Dəyərin toplanmasına əsaslanan üsulla gömrük dəyəri təyin edilərkən heç bir məsrəf iki dəfə hesablana bilməz.

İxracatçının Azərbaycana mal göndərdiyinə görə əldə etdiyi gəlir, ixracatçının verdiyi məlumata əsasən də müəyyən edilə bilər. Gömrük orqanları bu məlumatı eyni sinfə və ya növə məxsus malların satışım səciyyələndirən digər məlumatlarla müqayisədə istifadə edirlər.

Gətirilən malların tərkib elementlərinin dəyərlərinin cəmlənməsi ilə hesablanmış dəyəri, GDB-2-də U-ci qrafada əks etdirilir.

### *8.4.6. Ehtiyat üsul (VI üsul)*

Əvvəlki 5 üsul gömrük dəyərini təyin etməyə imkan vermirsə axırıncı - altıncı üsuldan istifadə olunur. Bu üsul ehtiyat üsul adlandırılır və qiymətləndirilən malların gömrük dəyərinin dünya təcrübəsi nəzərə alınmaqla təyin edilməsinə əsaslanır. Baxmayaraq ki, 6- cı üsul köməkçi üsuldur və müstəsna hallarda tətbiq edilməlidir, təcrübə göstərir ki, bu üsul 2-5-ci üsullardan daha çox istifadə olunur. Bir çox hallarda yerli gömrük orqanları identik və eynicinsli mallar, xarici istehsalçının istehsal və satış məsrəfləri barədə kifayət qədər melumata malik olmurlar.

Diqqət edilməlidir kİ, 6-cı üsulla gömrük dəyərinin təyin edilməsində istifadə edilən ilkin qiymət göstəricilərinə başlıca tələb onların konkretliyi və ya ünvanlı olmasıdır. Yəni qiymət konkret mala uyğun olmalı və ümumi məlumat çətinlik çəkmədən və birmənalı şəkildə eyniləşdirilməyə İmkan verməlidir (malın ticari adı, təsviri, İstehsalçı barədə məlumat, material, texniki parametrlər və s.).

Əvvəlki 5 üsulda gömrük dəyərinin təyini üçün istifadə olunan bazalann təsviri verilmişdir. Bununla bərabər elə hallar olur ki, qiymətləndirmə variantlarından heç biri əsas baza kimi götürülə bilmir.

Ümumi şəkildə bu hallar aşağıdakılardır:

- müvəqqəti idxal;
- birinci üsulun tətbiq oluna bilmədiyi barter əməliyyatları;
- icarə müqaviləsi və muzdlu xidməti nəzərdə tutan bağlaşmalar;
- təmir və ya forması dəyişildikdən sonra təkrar idxal edilən mallar;
- nadir məhsullar və incəsənət əsərləri;
- identik və eynicinsli mallann gətirilmədiyi hallar;
- idxal ölkəsində mallann təkrar satılmaması;
- istehsalçının naməlum olması və ya tələb olunan məlumatı təqdim etməməsi.

Bu hallar üçün 6-cı üsul yeganə vasitə olur. “Gömrük tarifi haqquıda” Qanunun 23-cü maddəsi bu üsulda dünya təcrübəsindən istifadəni nəzərdə tutur. Nəzərə alsaq ki, dünya təcrübəsi dedikdə bi

lavasitə GATT/ÜTT-nin gömrük dəyəri barədə Sazişi başa düşülür, bu anda Sazişin VII maddəsinin əhəmiyyəti bir daha aydın olur.

6-cı üsul malın gömrük dəyərinin müəyyən edilməsində xüsusi vasitə müəyyən etmir, amma bu üsul çərçivəsində qiymətləndirmədə bir sıra prinsiplərin nəzərə alınmasını tələb edir.

Baş Sazişin və VII maddənin 6-cı üsulda nəzərə alınması prinsiplərinə aşağıdakıları aid etmək olar:

- qiymətin maksimum dərəcədə gətirilən mallann dəyərinə əsaslanması, faktiki qiymətləndirməyə əsaslanan dəyərdən istifadə edilməsi;
- qiymətin unifikasiyalaşdınlması, gömrük qiymətləndirilməsinin eyni üsulla aparılması;
- qiymətlərin həqiqi və neytral olması;
- qiymətləndinnə meyariannm sadəliyi və ayn məqsəd güdməməsi;
- ticarət təcrübəsinə uyğunluq, yad üsullardan isti&də edilməməsi;
- yaxın ekvivalent (alternativ) dəyərlərdən istifadə edilməsi;
- yerli və məchul qiymətlərdən istifadə edilməməsi.

Belə çevik münasibətə misallar göstərək.

6-cı üsul gömrük dəyərinin təyin edilməsinin 1-5-ci üsullannın çevik tətbiqi yolu ilə istifadə edilir.

Sövdələşmə qiyməti barədə məlumat varsa, lakin mallann çatdın İmasında məsrəflərin sənədli təsdiqi yoxdursa, yaxud “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin tələbləri pozulduğu və s. hallarda 6-cı üsul birinci üsulun çevik tətbiqinə əsaslanır. Bu halda GDB-1 istifadə edilə bilər. Əvvəlki üsullardan istifadə edilməməsinin səbəbləri GDB-1 foıması- mn arxasında göstərilir, bu formanın üz tərəfində yuxarıda isə “6- cı üsul” yazılır.

2-5-ci üsullardan çevik istifadədə GDB-2 doldurulur. GDB-2- nin 8-ci qrafasında (məlumat mənbələri) gömrük dəyərinin hesablanma bazası kimi dünya və müqavilə qiymətləri barədə sorğu rəqəmləri, gömrük orqanının məlumat bazasının rəqəmləri, həmçinin baxılan əqd üzrə bu üsulda istifadə oluna biləcək digər məlumat göstərilir. Bu halda məlumatın mənbəyi göstərilməlidir ki, lazım olduqda yoxlanıla

2 VƏ 3-cü üsullann çevik tətbiqi ilk növbədə identik və eyni-cİnslİ maltann gətirilmə müddətlərinə, başqa ölkələrdə istehsal edilmiş identik və eynicinslİ malların gömrük dəyərinin təyinində əsas kimi istifadə edilməsinə yönəlir.

Dəyərin çıxılması üsuluna (IV üsul) münasibətdə mallarm daxili bazarda satış müddətlərinə, qiymətləndirilən mallann ilkin (dəyişilməmiş vəziyyətdə) olmalarına tələblərin çevik şərhinə yol verilə bilər. Yəni müddətlər geniş götürülə, müəyyən dərəcədə emala yol verilə bilər.

“Gömrük tarifi haqqında” Qanunun 23-cü maddəsinin 2-ci hissəsində gömrük dəyərinin təyinində istifadəsinə yol verilməyən qiymətlər göstərilir:

- malın daxili bazardakı qiyməti;
- daxili bazardakı Azərbaycan mənşəli malın qiyməti;
- ixrac edən ölkənin üçüncü ölkələrə göndərdiyi mallann qiyməti;
- malm kortəbii müəyyən edilmiş və ya dəqiqləşdirilməmiş qiyməti.

Axırıncı bəndin dəqiqləşdiri iməyə ehtiyacı var. Belə ki, gömrük dəyərinin təyini üçün əsas olaraq kortəbii müəyyən edilmiş və ya dəqiqləşdirilməmiş qiymətin götürülməsi ona görə baş verir ki, qiymətləndirilmə üçün götürülən mal analoqu konkretləşdirilmir. Buna görə də 6-cı üsulla gömrük dəyərinin təmin edilməsində orta qiymətlərdən istifadə etmək olmaz. 6-cı üsul sənədli təsdiqə də digər üsullardan çevik yanaşır.

Dünya qiymətlərini və daxili bazar qiymətlərini, ümumilikdə qəbul edilmiş komission, güzəşt, gəlir, nəqliyyat tarifləri və i.a. əks etdirən bülleten ve məlumat kitabçalanndan istifadəyə yol verilir. Gömrük orqanlan bu məlumatlardan istifadə etmək üçün yardım göstərirlər. Gömrük orqanlarının məlumat bazasının əsasını konkret GYB və GDB-lər təşkil etməlidir.

Məlumat qiymətlərindən istifadə dəyərləndirilmənin göndəriş şərtlərinə görə dəqiqləşdirilməsini tələb edir.

Ən böyük çətinlik onda yaranır ki, 6-cı üsuldan istifadə edildikdə ilk beş üsulla müəyyən edilmiş qiymətləndirmə bazasından istifadə etmək mümkün olmasın.

Məsolon, bu o zaman baş verə bilər ki, mallar lizinq əsasında gətirilsin, sərgi eksponatlan, sınaq nümunələri şəklində müvəqqəti gətirilsin, təmir və müasirləşdinnə İşlərindən sonra təkrar idxal edilsin.

Belə hallarda malın sığortalanmış qiyməti götürülə, yaxud mal-dəyər ekspertizası təşkil edilə bilər. Elə ola bilər ki, ekspertizadan

*Malın gömrük dəyarinin 6-cı ehtiyat üsulla* **t9yini**

*Qiym^thndirilən malların gömrük dəysrim l-5-ci üsullarla çevik təyini mümkündürmü ?* YOX

*Gömrük dəyəri qiymətləndirilən malların sövdləşmə qiyməti əsasında və ya əvvəl qəbul edilmiş identik, yaxud, eynicinsli malların* gömrüft *dəyəri əsasında müəyyən edilir, (6-ct üsul l, 2,3-cä üsulların çevik istifadəsi bazasında) ya da daxili bazarda satılan identik və eynicinsli malların qiymətinə əsasən, həmçinin dəyərin çıxılması və toplanması üsulları ilə dəyərləndirilən malların qiymətinə əsasən (6-cı üsul 4,5-ci üsulların çevik istifadəsi bazasında) təyin edilir.*

*Neytral* ***mənbələrin qiymət barədə məlumatlarından istifadə*** *etmək* ***mümkündürmä*** *(GJ 23-cü* ***maddənin 2-Cİ hissəsi nəzərə alınmaqla)?***

*^ YOX*

*Gömrük dəyəri müstəqil ekspertiza yolu ilə təyin edUir*

**I**

*Deklarant tərəfindən sövdələşmə qiymətinin IS-ci maddənin 1-ci bəndində göstərilən məsrəflər nəzərə alınmaqla dəqiqləşdirilməsi zərurəti yoxlanılır*

*6-cı OSUL*

### *8,5, Azerbaycan Respublikasmm erazisinə gətirilən mallann gömrük dəyərinin bəyan edilməsi*

Azərbaycan Respublikası ərazisinə gətirilən mallan bəyan edən şəxslərə (kommersiya məqsədi üçün nəzərdə tutulmayan malları idxal edən fiziki şəxslər istisna olmaqla) malların gömrük dəlyəri- nin müəyyən edilməsi üçün Azerbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı “Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxanlan malların gömrük qiymətləndirməsi sisteminin tətbiqi qaydaları” məcburi hesab edilir.

Bu qaydalar:

-deklarantlarüçün - gətirilən malların gömrük dəyərinin müəyyən edilməsi və bəyan olunması zamanı;

-gömrük orqanlan üçün - gətirilən mallann deklarantlar tərəfindən bəyan edilən gömrük dəyərinə nəzarət etmək üçün istifadə olunur.

Gömrük orqanlarında mallann buraxılmasının əsassız olaraq ge- cikdirilməsinin qarşısını almaq üçün gömrük dəyərinə nəzarət prosesi qısa müddətdə həyata keçirilməlidir. Malın gömrük rəsmiləşdirilməsi müddətində deklarant tərəfindən bəyan edilmiş gömrük dəyərini təsdiq etmək mümkün olmadıqda, qüvvədə olan qanunvericiliyə müvafiq qaydada malın şərti olaraq buraxılmasına gömrük orqanı göstəriş verə bilər. Malın şərti olaraq buraxılması dedikdə, onun gömrük dəlyərinin şərti olaraq müəyyən edilməklə buraxılması başa düşülür, yəni gömrük dəyərinin tam və dəqiq müoyyon edilməsi prosesi deklarant tərəfindən təqdim edilmiş məlumatlar əsasında müəyyən edilməklə başa çatır. Bu zaman şərti buraxılan mal üçün bəyan edilmiş gömrük rejimi əsas götürülür.

Respublikaya gətirilən malların gömrük dəyəri mövcud qanunvericilikdə nəzərdə tutulmuş (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qəran ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxanlan mallann gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları”, 2-ci bənd) üsullarla:

I üsul - gətirilən malların sövdələşmə qiyməti ilə;

II üsul - eyni malların sövdələşmə qiyməti ilə;

III üsul ‘ eynicinsli malların sövdələşmə qiyməti ilə;

IV üsul - dəyərin toplanması üsulu İlo;

V üsul - dəyərin çıxılması üsulu ilo;

VI üsu! - ehtiyat üsulu ilo deklarant tərəfindən bəyan edilir.

Gətirilən malın gömrük rəsmiloşdirilmosini həyata keçirən gömrük orqanı isə, seçilmiş metoda uyğun olaraq deklarant tərəfindən təqdim edilmiş sənədlər də daxil olmaqla gömrük dəyərinin düzgün müəyyən edilməsinə nəzarəti həyata keçirir.

Gətirilən mallann gömrük dəyərinin bəyan edilməsi üçün GDB- 1 və GDB-2 formada gömrük dəyəri bəyannaməsi tətbiq edilir (Bəyannamə formaları 3 saylı əlavədə göstərilmişdir).

GDB-1 gətirilən malların gömrük dəyəri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 1106 saylı 25 dekabr 1997-ci il tarixli əmri ilə təsdiq edilmiş Əsasnamənin 1.4-cü bəndində nəzərdə tutulmuş l-ci üsulla, GDB-2 gətirilən malların gömrük dəyəri bu Əsasnamənin 1.4-cü bəndində nəzərdə tutulmuş 2-6-cı üsullarla müəyyən edildikdə tətbiq edilir.

Azərbaycan Respublikasına gətirilən mallann gömrük dəyəri müəyyən edilmiş qaydada deklarant tərəfindən GDB-nə uyğun olaraq bəyan edilir. Gətirilən mallar bəyan edilmiş gömrük dəyəri əsasında gömrük rüsumlanna və vergilərinə cəlb edilir. Boyan edilən rejim üzrə gətirilən mal gömrük vergi və rüsumlanna cəlb olunmursa (gömrük rəsmiləşdirilməsi üçün rüsum istisna olmaqla), gömrük dəyəri YGB-si ilə boyan edilir. Bəyan edilmiş gömrük dəyərinə gömrük orqanında əsaslandırılmış şübhə yarandıqda, dekla- rantdan gömrük dəyəri bəyannaməsini doldurmağı tələb edə bilər.

Gömrük deyəri bəyannaməsi gömrük sənədi hesab olunur.

Deklarant gömrük dəyəri bəyannaməsində və gömrük dəyərini təsdiq edən sənədlərdə göstərilən bütün məlumatlara görə Azərbaycan Respublikasının müvafiq normativ-hüquqi aktlara uyğun olaraq məsuliyyət daşıyır.

Gömrük doyəri bəyannaməsi yük gömrük bəyannaməsi və müvafiq gömrük orqanı tərəfindən gömrük məqsədi üçün tələb olunan digər sənədlərlə birlikdə təqdim olunur.

Deklarant (alıcı) malın gömrük dəyərinin müəyyən edilməsi haqqında gömrük orqanının qəbul etdiyi qərardan narazılıq edərsə mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Gömrük Məcəlləsinə müvafiq olaraq şikayət etmək hüququna malikdir.

Deklarant gömrük dəyəri üzrə bəyan edilmiş məlumatı təsdiq etmək üçün gömrük dəyəri haqqında bəyannamə ilə yanaşı aşağıdakı sənədləri təqdim etməlidir:

- malı gətirən hüquqi və fiziki şəxsin təsis sənədləri;
- müqavilə (kontrakt) və ona əlavə olunan razılaşma sənədləri (əgər onlar nəzərdə tutulmuşsa);
- hesab-faktura (invoys) və bank ödəniş sənədələri (əgər ödəniş apanlıbsa) və ya hesab-proformu, həmçinin malın dəyərini təsdiq edən başqa ödəniş və ya mühasibat sənədləri;
- nəqliyyat və sığorta sənodləri (əgər göndəriş şərtində nəzərdə tutulubsa);
- yükləmə-boşaltma üçün hesab və ya nəqliyyat xərci üzrə rəsmi təsdiq edilmiş kalkulyasiya (hesab-fakturaya nəqliyyat xərci daxil edilməyibsə);
- göndərən tərəfdən gömrük bəyannaməsi (əgər varsa);
- qablaşdırma vərəqləri;
- idxalı müəyyən edilmiş qaydada lisenziya əsasında həyata keçirilən mallar üçün lisenziya;
- malın mənşə ölkəsi haqqında sertifikat, keyfiyyət sertifikatı, təhlükəsizlik sertifikatı.

Bu sənədlər gömrük dəyərini təsdiq etmək üçün ki&yət etmədikdə gömrük orqanının tələbi üzrə deklarant zəruri olan əlavə məlumatları təqdim etməlidir. Gömrük orqanı tərəfindən əlavə məlumat kimi aşağıdakı sənədlər tələb oluna bilər:

- sövdələşməyə aidiyyatı olan üçüncü şəxslə müqavilə (kontrakt);

- satıcının xeyrinə üçüncü şəxslərin tədiyə üçün hesablaşma sənədi;
- qiymətləndirilən malın sövdələşməsinə aidiyyatı olan komisyon, broker xidməti üçün hesablaşma sənədi;
- mühasibat sənədləri;
- lisenziya və ya müəlliflik sazişi;
- ixrac (idxal) lisenziyası;
- anbar qəbzləri;
- malı daşımağa dair sifariş;
- kataloqlar, spesifikasiya, fırma-istehsalçınm qiymət preyskurantı;
- qiymətləndirilən mala fırma-istehsalçınm kalkulyasiyası;
- gömrük dəyəri bəyannaməsində bəyan olunan gömrük dəyərini təsdiq edəcək digər sənədlər.

Malın gömrük dəyərini qiymətləndirmək və deklarant tərəfindən bəyan edilmiş gömrük dəyərini yoxlamaq üçün istər deklarant tərəfindən təqdim olunan, istərsə də gömrük orqanında olan məlumatdan istifadə oluna bilər.

Məlumat inandırıcı və tam olmaqla bəyan edilmiş gömrük dəyərinin təsdiqini təmin etməlidir.

Deklarant əvvəllər gətirilən eyniadlı və ya eynicinsli malların gömrük dəyəri, ya da onların daxili bazarda qiyməti, istehsalçının gömrük orqanlarında olmayan kalkulyasiyası və preyskurantı haqqında məlumat əldə edə bilər. Belə məlumatdan müvafiq təsdiqedici sənədlər təqdim edildiyi halda istifadə oluna bilər (məsələn, eyniadlı və eynicinsli mallann sövdələşməsinə aid olan kommersiya, gömrük və Ödəniş sənədləri).

Maltn gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanı deklarantda olmayan məlumatlara malik ola bilər. Belə məlumatlara xarici ticarət dövriyyəsində olan mallann məlumat qiyməti, habelə əvvəllər gömrük rəsmiləşdirilməsindən keçən eyniadlı və ya eynicinsli mallar haqqında məlumatlar daxil edilir. Deklaran- ta gömrük orqanında orta kontrakt qİymətİ, məxfilik saxlanılmaqla ayrı-ayrı sövdələşmə üzrə gömrük dəyəri haqqında məlumat təqdim

Deklarant gömrük dəyəri bəyannaməsinin (GDB-1 və ya GDB- 2) bütün qrafaiannı Təlimata uyğu olaraq sərbəst doldurur (gömrük qeydiyyatı üçün nəzərdə tutulan qrafadan başqa).

Deklarant tərəfindən gömrük dəyəri bəyannaməsi düzgün doldurulduğu, gömrük dəyərinin müəyyən edilməsi üsulu düzgün seçilib tətbiq olunduğu, bəyan edilən məlumatlar tələb olunan sənədlərlə təsdiq olunduğu hallarda GDB-nin bütün vərəqələrində “Gömrük qeydiyyatı üçün" qrafasında “Gömrük dəyəri qəbul edildi” qeydiyyatı apanlır və GDB-nİ yoxlayan vəzifəli şəxsin imzası və şəxsi nömrəli möhürü ilə təsdiq edilir.

GDB-ni sənədləşdirən və onun düzgünlüyünü yoxlayan gömrük orqanının vəzifəli şəxsinin öz şəxsi təşəbbüsü, deklarantm tapşın- ğı və ya xahişi ilə deklarant tərəfindən doldurulan gömrük dəyəri qrafalannda hər hansı bir məlumatda dəyişiklik etmək, bu qrafala- ra əlavələr etmək hüququ yoxdur.

Sənədlər gömrük rəsmiləşdirilməsinə qəbul edildikdən sonra deklarant tərəfindən bəyan edilən gömrük dəyərində gömrük orqanı tərəfindən edilən bütün düzəlişlərə mallann gömrük qiymətləndirilməsi kimi baxılır və deklarant tərəfindən müəyyən edilmiş qaydada şikayət verilə bilər.

Deklarant tərəfindən apanlan hesablamaya gömrük orqanının vəzifəli şəxsi tərəfindən düzəliş aparmaq zərurəti yarandıqda, onda GDB-nin “gömrük qeydiyyatı üçün və ya blankın əks üzündə “Gömrük qeydiyyatı” başlığı altında qeydiyyat apanlır.

Gömrük orqanının vəzifəli şəxsinin apardığı bütün qeydiyyatlar onun imzası və şəxsi nömrəli möhürü ilə təsdiq edilməklə tarix göstərilir.

Gömrük orqanının hesablamasına uyğun olaraq deklarant GDB-nin müvafiq qrafasında dəyişiklik edir, onu imza və möhürlə təsdiq etməklə tarixi göstərilir.

GDB-də çoxsaylı düzəliş edildikdə köhnə blankda qeyd apanimaqla yeni blank doldurula bilər. Hər iki blank gömrük orqanında saxlanılır. Gömrük orqanının apancı düzəlişə deklarant tərəfindən razılıq olduqda bəyannamənin 0 b” qrafası ümumi qaydada doldurulur.

Gömrük dəyəri dəqiqləşdİrildikdon sonra gömrük orqanının vəzifəli şəxsi YGB-də “Gömrük dəyəri dəqiqləşdirilmişdir” qeydiyyatını aparır. Deklarant və ya gömrük orqanının vəzifəli şəxsi tərəfindən gömrük doyorinin dəqiqləşdirilməsinə dair GDB və YGB-nin ayrılmaz hissəsi hesab olunan forma-blank doldurulur.

Deklarant gömrük orqanının apardığı dəqiqləşmə ilə razı olmadıqda, GDB-də müvafiq düzəliş aparmaqdan və ya GDB-ni imzalamaqdan imtina edə bilər. Bu halda deklarant gömrük orqanından yazılı formada onların bəyan edildiyi gömrük dəyərinin qəbul edilməsinə dair izahat (aydınlıq gətirmək üçün) tələb edə bilər.

Deklarant tərəfindən gömrük orqanına gömrük dəyərinin qiymətləndirilməsi və ya gömrük orqanı tərəfindən qəbul edilmiş qərardan şikayət verməsi müəyyən edilmiş gömrük dəyərinə uyğun olaraq gömrük todiyəsi ödəməkdən azad etmək hüququ vermir.

Deklarant tərəfindən bəyan edilmiş gömrük dəyəri dəqiqləşdirilənədək bəyan olunmuş mal haqqında mövcud gömrük qanunvericiliyinə uyğun olaraq qərar qəbul edilir

Gömrük rəsmiləşdirilməsi zamanı deklarantda bəyan edilmiş gömrük dəyərini təsdiq edən sənədlər, istifadə edilən məlumatlan təsdiq edən dəlillər olmadıqda, həmçinin müqavilə şərtlərində malın satışı ilə əlaqədar olaraq qiymətlərə yenidən baxılmaqla son qiymətin müəyyən edilməsi halı olduqda gömrük orqanı, deklaran- ta maldan istifadə etmək haqqında qoran ancaq gömrük tədiyyələ- rini tam həcmdə ödədikdən sonra vermək hüququna malikdir.

Gömrük orqanı deklarantın yazılı ərizəsinə əsasən bəyan edilmiş mala mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada əmlak girovu və ya müvəkkil bankın zəmanət məktubu əsasında möhlətdən istifadə etmək icazəsi verə bilər.

Əmlak girovunun dəyəri və ya bank zəmanəti məbləği gömrük dəyərinin gözlənilən düzəliş həddi zamanı yarana biləcək gömrük tədiyəlorinin Ödənişini təmin etməlidir. Gömrük rəsmiləşdirilməsi zamam gömrük tədiyələrinin ödənişi həyata keçirildikdə, əmlak girovunun dəyəri və ya bank zəmanətinin məbləği gömrük orqanı tərəfindən müəyyən edilmiş qaydada malın şərti müəyyən edilmiş

gömrük dəyəri ilə deklarant tərəfindən bəyan edilmiş gömrük dəyəri arasındakı fərqə müvafiq olaraq müəyyənləşdirilir.

### *8.6. Gömrük d^yar bsyannamssinin doldurulması qaydası*

Gömrük dəyər bəyannaməsi (GDB) mövcud olan yük gömrük bəyannaməsinin (YGB) əlavəsidir və onsuz etibarsız sayılır.

GDB mallann gömrük rəsmüəşdirilməsini aparan gömrük orqanlarına YGB ilo eyni vaxtda təqdim edilir. GDB-nin rəsmiləşdirilməsi Təlimatın II bölməsinə və qiymətləndirilən sövdələşmələrin konkret şərtlərinə uyğun olaraq gömrük orqanı tərəfindən həyata keçirilir.

GDB Təlimabn 1.3 bəndində nəzərdə tutulmuş hallar istisna olunmaqla, Azərbaycan Respublikası ərazisinə idxal olan və gömrük orqanları tərəfindən gömrük rüsumu, aksiz və əlavə dəyər vergisi alınan bütün mallar üçün doldurulur.

GDB aşağıdakı hallarda doldurulmur:

- bir kontrakt çərçivəsində bİr neçə dəfə göndərilmə ve həmçinin müxtəlif kontraktlar üzrə eyni malın bir göndərən tərəfindən eyni ünvana və eyni alıcıya göndərilməsi istisna olunmaqla, əgər idxal olunan mallann dəyəri 1000 ABŞ dollanna ekvivalent məbləği keçmirsə;
- fiziki şəxslər tərəfindən kommersiya məqsədləri üçün nəzər- do tutulmayan mallann İdxalında;
- idxal zamanı mallara gömrük vergİ və rüsumları alınmadığı (gömrük rəsmiləşdirilməsino görə gömrük yığımlan istisna olmaqla) hallarda;
- gömrük vergi və rüsumlanna cəlb olunmayan mallann idxalında.

GDB-nin məcburi doldurulması müəyyən olunmayan bütün hallarda, fiziki şəxslər tərəfindən kommersiya məqsədi üçün nəzərdə tutulmayan mallar istisna olmaqla, gömrük orqanı, lazım gələrsə, deklarantdan YGB-də bildirdiyi gömrük dəyərini təsdiq etmək üçün GDB-ni təqdim etməsini tələb etmək hüququ vardır.

"Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük **dəyərinin bəyan** edilməsinin qayda və şərtləri haqqında Əsasnamə''nin 2.4-cü bəndində nəzərdə tutulan sənədlərin (müəyyən olunmuş tələblərdən asılı olaraq - əsli və ya təsdiq olunmuş surətləri) məcburi qaydada GDB-yə əlavə olunmalıdır.

GDB 3 nüsxədə doldurulur və:

- birinci nüsxə gömrük orqanında qalır;
- ikinci nüsxə deklaranta (alıcının nüsxəsi) verilir;
- üçüncü nüsxə Dövlət Gömrük Komitəsinə göndərilir.

GDB-1 və GDB-2 formalan iki əsas vərəqdən ibarət olur: birinci - üz vərəqi, gömrük dəyəri və onun elementləri haqqında məlumat verilən - ikinci vərəq.

GDB-nin qalan vərəqləri əlavə vərəqlərdir. Əlavə vərəqlərin nömrələnməsi üçüncü nömrədən başlanır (yəni 1-ci və 2-ci vərəq - foraıa- nın əsas vərəqləri, 3-cü və növbəti vərəqlər - əlavə vərəqlərdir).

GDB-1 və GDB-2 (əsas vərəqlər) formalanna aid bəyannamələr üç ada qədər mallar üçün doldurulur. Partiyada üç addan artıq mal olarsa, əlavə vərəqlərdən istifadə olunur ki, onlarda da 1-3 adda malın adı doldurula bilər.

Əlavə vərəqlər yalnız o hallarda istifadə otuna bü^r ki, əgər GDB-l və ya GDB-2 formalarının üz tərəfində verilən bütün məlumatlar tam şəkildə əlavə vərəqlərdə göstərilmiş mallara aid olsun.

Əlavə vərəqlər kimi GDB-1 və GDB-2 formalarının ikinci vərəqi istifadə edilir.

Bəyannamə və ona aid olan əlavə vərəqlər makinada və ya kompüterdə Azərbaycan dilində doldurulur.

Bəyannamədə və ona aid olan əlavə vərəqlərdə düzəlişlər və qaralamalar olmamalıdır. Deklarant tərəfindən bildirilən bütün düzəlişlər ancaq deklarant tərəfindən səhv məlumatların pozulması və lazımi məlumatların əlavə edilməsi kimi üstdən çap olunmaq və ya üstündən göy, yaxud qara yazan diyircəkli qələmlə yazmaq yolu ilə icra edilir. Hər bir düzəliş deklarantın imzası itə təsdiq olunmalıdır.

Dolaşıq yazılmış, bəyannamə sahibləri tərəfindən təsdiq edilməmiş düzəlişləri olan gömrük dəyər bəyannamələri və onlara

Gömrük dəyər bəyannaməsinin hər vorəqi {GDB-1 ve GDB-2) deklarant tərəfindən mütləq imzalanmalıdır.

Deklarant tərəfindən bildirilən gömrük dəyərinin təshihi və ya təkrar hesablanması (o cümlədən, müvəqqəti (şərti) gömrük qiymətləndirilməsi məqsədilə) gömrük orqanının vəzifəli şəxsi tərəfindən yerinə yetirilə bilər.

Əsasnamədə nəzərdə tutulan hallarda gömrük dəyəri deklarant və ya gömrük orqanı tərəfindən yenidən hesablanan zaman GDB formasının yeni vərəqləri doldurula bilər.

Gömrük orqanı GDB-ni YGB ilə eyni vaxtda qeydiyyata alır. Bu vaxt GDB-yə YGB-nin qeydiyyat nömrəsi əlavə kimİ verilir (999 99/99 99 9/999999). GDB-nin yoxlanılması başa çatdıqdan sonra bəyannamənin əsas və bütün əlavə vərəqlərinin "Gömrük qeydləri üçün" qrafasmda GDB-nın qeydiyyat nömrəsi, yoxlayan inspektorun şəxsi nömrəlİ möhürü və imzası qoyulur. Üz vərəqində gömrük dəyəri və malın deklarasiya sahibinin istifadəsinə təqdim edilən forması haqqında gömrük orqanının qəran qeyd edilir.

GDB-nin əsas və ya ona aid olan əlavə vərəqlərinin hər hansı bir qrafasmda deklarant tərəfindən tələb olunan lazımi məlumatların göstərilməsi üçün yer çatışmadığı ballarda onların göstərilməsi üçün GDB-nin əsas və ya ona aid olan əlavə vərəqlərinin arxa səhifəsində əlavə qeydlər edilməsinə (aid olduğu qrafa göstərilməklə) icazə verilir. Belə qeydlər bəyannamə sahibi tərəfindən təsdiq olunur, müvafiq qrafalarda isə "arxa tərəfinə bax" qeydiyyatı aparılır.

GDB-nin GDB-1 forması üzrə doldurulma qaydaları

GDB-1 forması üzrə gömrük dəyər bəyannaməsi o hallarda doldurulur ki, onda malların Azərbaycan Respublikası gömrük ərazisinə idxalı, qiyməti göstərilən və ya şərti-qiymətli (Əsasnamənin 1.4-cü bəndi) alqı-satqı sövdələşmələri, dəyişmələr və əvəzsiz mal göndərmələri çərçivəsində yerinə yetirilir. Bu malların gömrük dəyərinin müəyyən edilməsi Əsasnamə ilə müəyyən edilmiş 1-ci üsula uyğun olaraq icra edilir.

GDB-1 forması həmçinin o hallarda doldurula bilər ki, gömrük dəyərinin müəyyən edilməsi 6-cı üsula uyğun olaraq yerinə yetiri 1-

sin vo hesablama asası kimi, qiymotlandirilən malların dəyəri haqqında məlumatlardan **İstifadə** olunsun **(məsələn, sövdələşmənin** qiyınoti var, amma malın çatdınimasına aid xərcləri təsdiq edən sənədlər yoxdur, sövdələşmənin qiyməti var, amma 1-ci üsulun istifadə edilməsi üçün şərtlər icra edilmir və s., yəni 6-cı üsul I-ci üsulun çevik tətbiqinə əsaslandığı hallar). Bundan əwolki üsullann qəbul edilməməsi səbəbləri GDB-1 formasının arxa tərəfində göstərilir: GDB-1 formasının üz vərəqinin yuxarısında "Üsul 6" yazılır.

Deklarant tərəfindən aşağıdakı qrafalar doldurulur: 1, 2a, 2b, 3,4, 5,6, 7a, 7b, 8a, 8b, 9a, 9b, lOa, lOb, 1 la, İ Ib, 12,13a, 13b, 14a, 14b, 14v, 15. 16, 17a, 17b, I7v, 18, 19, 20, 21, 22, 23a, 23b, "Q" sahəsi.

Gömrük orqanı tərəfindən gömrük dəyəri bəyannaməsinin əsas

# MÖVZU 9. Gömrük ödənişlərinin hesablanması və Ödənilməsi

Gömrük ödənişlərinin hesablanması və ödənilməsi qaydaları Azərbaycan Respublikasının Gömrük MəcollosİnƏ, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununa, gömrük vergi və rüsumlarının hesablanması vo ödənilməsini tənzimləyən digər qanunvericilik aktlarına əsasən hazırlanmış, Azərbaycan Respublikası ərazisinə gətirilən və bu ərazidən apanlan mallara gömrük vergi və rüsumlannın hesablanması və alınması qaydalanm müəyyən edir.

## *9.1. Gömrük ödsnishrİnİn növhri*

Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər qanunvericilik aktlan ilə müəyyən edilmiş hallarda aşağıdakı gömrük ödənişləri almır:

1) Gömrük rüsumu;
2) Əlavə dəyər vergisi;
3) Aksizlər;
4) Azərbaycan Respublikasınm gömrük işini aparan icra hakimiyyəti orqanı (Dövlət Gömrük Komitəsi) təfəllndən lisenziyalann verilməsi və lisenziyalann fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;
5) Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlannın verilməsi və attestatlann fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;
6) Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımlan;
7) Mallann saxlancına görə gömrük yığımları;
8) Mallann gömrük müşayiətinə görə gömrük yığımlan;
9) Məlumatlandırma və məsləhət verməyə görə haqq;
10) İlkin qərarlann qəbuluna görə haqq;
11) Gömrük auksionlarında iştirak etməyə görə haqq;

Malların rəsmiloşdirüməsi ilə əlaqədar olan gömrük vergi vo rüsumları yük gömrük bəyannaməsi qəbul edilənə qədər və ya onun qobul edilməsi ilə eyni vaxtda ödənilir.

Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən, gömrük ödənişləri gömrük bəyannaməsinin qəbul edilməsi ilə eyni vaxtda ödənilir.

Gömrük bəyannaməsi müəyyən edilmiş müddətdə verilmədikdə gömrük ödəmələrinin ödənilmə müddətləri bəyannamənin verilməsi üçün müəyyən edilən müddətin keçdiyi gündən hesablanır.

Müstəsna hallarda gömrük ödənişlərinin ödənilməsi üçün möhlət verilə və ya vaxt uzadıla bilər. Gömrük orqanlan tərəfindən lisenzi-yalanıı verilməsinə və lisenziyalann fəaliyyətinin bərpa edilməsinə göro, eİoco do gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatın qüvvəsinin bərpasına görə hesablanmış rüsumlar gömrük orqanları tərəfindən lisenziyanın və ixtisas attestatının verilməsi, yaxud bərpası anına qədər ödənilir.

Malların gömrük anbarında saxlanmasına görə gömrük rüsumları anbar şəhadətnaməsi verilən anda və ya verilənə qədər ödənilir.

Malların gömrük müşayiətinə görə gömrük rüsumlannın ödənilməsi malların gömrük müşayiətinin həyata keçirilməsi barədə qərar gömrük orqanı tərəfindən qobul edildikdən sonra, lakin onun faktiki icra olunması anına qədər həyata keçirilir.

Məlumatlandırma və məsləhət verməyə, həmçinin ilkin qərarların qəbulu və gömrük auksionlarında iştirak etməyə görə haqq gömrük orqanı tərəfindən xidmətlərin göstərilməsi anına qədər ödənilir.

Gömrük rüsumunun, aksizlərin və gömrük yığımlannm hesablanması üçün “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq müəyyən edilən mallann və nəqliyyat vasitələrinin gömrük dəyəri əsas götürülür.

Əlavə dəyər vergisinin hesablanması üçün malın gömrük dəyərinin və gömrük rüsumunun cəmi, aksizli mallar üçün isə, həmçinin, aksiz məbləğinin cəmi əsas götürülür.

Saxianca görə gömrük yığımları saxlanca verilmiş mallann və nəqliyyat vasitələrinin orta dəyərindən asılı olaraq Azərbaycan

Respublikası Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən edilən miqdarda hesablanır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən lisenziyalann və ixtisas attestatlarının verilməsi və onlann fəaliyyətinin bərpa edilməsinə görə alınan yığımların məbləği Respublika Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Digər gömrük ödənişlərinin hesablanması zamanı əsas kimi Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə razılaşdınimaqla Dövlət Gömrük Komitəsi tərəfmdən müəyyən məbləğlər əsas

## *9.2, Gömrük ödmişhnnin hesablanması*

Mal qismində Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən nəqliyyat vasitələri də daxil olmaqla malların, o cümlədən müşayiət olunmayan baqajda, beynəlxalq poçt göndərişlərində keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malla- nn və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük rəsmiləş- dirilməsinə görə gömrük dəyərinin O.IS faizi miqdannda (həmin tarixə Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə 10 ABŞ dollarından az olmayaraq) gömrük yığımı hesablanır.

AR-in Dövlət Neft Şirkəti xarici neft şirkətləri arasında hasilatın pay bölgüsü haqqında sazişlərə əsasən, AR-in payına düşən mənfəət karbohidrogentlərinin neft vasitəsi ilə ixracı, habelə dövlət zəmanətli kreditlər hesabına alınmış uçuş aparatlannın, eləcə də pasport və şəxsiyyət vəsiqələri blanklarmın idxalı üzrə hər bir gömrük bəyannaməsi üçün malın dəyərindən asılı olmayaraq 775 ABŞ dollan miqdannda AR-in Milli Bankı tərəfindən müəyyən edilən məzannəye görə manatla gömrük yığımı alınır.

Bir neçə adda olan malların bəyan olunması zamanı əsas YGB-nin aynimaz hissəsi olan əlavə vərəqlərdən istifadə olunur. Bu zaman YGB-nin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dollan məbləğində Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənc hesablanır.

Azorbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiloşdirilmasinə 30 ABŞ dolları, hər əlavə tranzit YGB-ləri üçün 10 ABŞ dollan miqdarında Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımlan hesablanır.

Fiziki şəxslər tərəfindən Azerbaycan Respublikasının gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə:

- yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün - 20 ABŞ dolları;
- digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində Milli Bank tərəfindən müəyyən edilən məzənnəyə uyğun olaraq manatla ödənc hesablanır.

Malların vo nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük orqanlannm iş vaxtından kənar vaxtda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımlan ikiqat miqdarda hesablanır.

‘Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq Azorbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar gömrük rüsumuna cəlb olunur.

Gömrük rüsumlarının məbləği Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Gömrük rüsumlannın dərəcələri vahiddir və Azərbaycan Respublikasının “Gömrük tarifi haqqında” Qanununda nəzərdə tutulan hallar istisna olmaqla, gömrük rüsum və dərəcələri gömrük sərhədindən ma! keçirən hüquqi və fiziki şəxslərdən, sövdələşmə növlərindən və digər amillərdən asılı olaraq dəyişdirilə bilməz.

Azorbaycan Respublikası Nazirlər Kabinetinin 22 dekabr 2003-cü il tarixli 161 saylı qərarına müvafiq olaraq ixrac olunan mallar, onların növlərindən asılı olaraq gömrük İxrac rüsumuna cəlb olunur. Belə ki, 72, 74, 76, 78, 79 və 80-ci mal qrupuna daxil olan bəzi mallar ixrac edilərkən, ixrac gömrük rüsumlanna cəlb olunur.

### 9.2.1. Aksizlsrin hesablanmast qaydası

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən bir qrup mallardan Azərbaycan Respublikasının "Vergilər Mocolləsi"nə vo Nazirlər Kabinetinin müvafiq qərarlanna uyğun olaraq aksiz vergisi tutulur.

Azərbaycan Respublikası ərazisinə gətirilən aksizli mallann siyahısı Milli Məclis tərəfindən müəyyən edilir. Büdcənin icrası prosesində gözlənilməyən hallar ortaya çıxdıqda Azərbaycan Respublikası Nazirlər Kabineti aksiz tutulmalı mallann siyahısını genişləndirir (və ya ixtisar edir), aksiz dərəcələrini dəyişdirir.

İdxal olunan mallara aksiz dərəcələri Azərbaycan Respublikasmuı bütün ərazisində eynidir və o, idxal olunan mallann mənşə ölkəsindən, sövdələşmə xarakterindən vo s. asılı olaraq dəyişdirilə bilməz.

Aşağıdakılar vergitutma obyekti hesab olunur:

- bəyanedilmə tarixindən asılı olmayaraq MDB üzvü olan dövlətlərin (Gürcüstan, Qazaxıstan, Özbəkistan respublikaları istisna olmaqla) hüdudlarından kənarda istehsal edilmiş, Azərbaycan Respublikasına gətirilən, istehsalburaxılış tarixindən bir ilə qədər keçmiş minik avtomobillərinin gömrük dəyəri;
- MDB üzvü olan ölkələrin istehsalı (mənşə sertifikatı) olub MDB dövlətləri büdudlanndan gətirilən istehsal buraxılış tarixindən bir ilə qədər keçmiş minik avtomobillərinin (tarixindən asılı olmayaraq) gömrük dəyəri;
- mənşə və gətirildiyi ölkədən asılı olmayaraq Qaydalann 2 N- İi Əlavəsində göstərilən neft mohsullanmn gömrük dəyəri;
- MDB dövlətlərinin istehsalı olmayan, Qaydalann 2N-İİ Əlavəsində göstərilən spirtli içkilər və tütün məmulatlannın gömrük dəyəri. Bu zaman nəzərə alınmışdır ki, MDB dövlətlərinin istehsalı olan spirtli içkilər və tütün momulatlan MDB dövlətləri hüdudlan kənanndan gətirildikdə ümumi qaydada aksiz vergisinə cəlb olunur.

Azərbaycan Respublikası ərazisinə idxal olunan mallara aksiz vergisi onlann gömrük dəyərindən müəyyən edilmiş faizlərlə hesablanır. Aksizli mallann siyahısı və aksiz dərəcələri Qaydalann 2 N-li Əlavəsində göstərilir.

Spirtli İçkilər, tütün məmulatı və neft məhsullarına aksiz vergisi dolayı yolla, minik avtomobillərinə isə onların gömrük dəyərindən müəyyən edilmiş faizlə birbaşa hesablanır.

### 9.2,2. *Əlava dayar vergisinin tutulması xiisusiyyathri*

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallara əlavə dəyər vergisinin tətbiqi Gömrük Məcəlləsi və “Vergi Məcəlləsi”no müvafiq olaraq həyata keçirilir.

İdxal olunan mallara əlavə dəyər vergisi 18 faiz dərəcəsi ilə ödənilir. Əlavə dəyər vergisinin dərəcəsi Azərbaycan Respublikasının gömrük ərazisində vahiddir və o müxtəlif faktorlardan asılı olaraq dəyişdirilə bilməz.

Azərbaycan Respublikası ərazisinə gətirilən MDB üzvü olan ölkələrin (Gürcüstan, Ukrayna, Qazaxıstan və Özbəkistan respublikalan istisna olmaqla) hüdudlarından kənarda istehsal edilmiş malların gömrük dəyəri əlavə dəyər vergisinin vergitutma obyekti hesab edilir. Bu zaman nəzərə alınmalıdır ki, MDB üzvü olan dövlətlərin istehsalı olan (mənşə sertifikatı) mallar MDB dövlətləri hüdudları kənarından gətirildikdə əlavə dəyər vergisinə cəlb olunur.

Azərbaycan Respublikası ərazisinə gətirilən MDB üzvü olan dövlətlərin hüdudlarından kənarda istehsal edilmiş, habelə MDB üzvü olan dövlətlərin istehsalı olub MDB hüdudları kənarından gətirilən mallara əlavə dəyər vergisinin hesablanması üçün malın gömrük dəyəri, gömrük rəsmiləşdirilməsinə görə yığımın və gömrük rüsumunun cəmi, aksizə düşən mallar üçün isə həmçinin aksiz məbləğinin cəmi əsas götürülür.

Malların gömrük rəsmiləşdirilməsi zamanı onun gömrük dəyərini D, gömrük rəsmiləşdirilməsinə görə yığımın məbləğini Y, gömrük idxal rüsumunu R, aksiz məbləğini A hərfi ilə işarə etsək, onda əlavə dəyər vergisinin məbləği aşağıdakı kimi hesablanacaqdır;

$$(D+Y+R+A)x20:100$$

## *9.3. Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi və Ödənilməsi*

Gömrük Ödənişlərinin ödənilməsi:

- mallarin və nəqliyyat vasitələrinin girovu;
- Dövlət Gömrük Komitəsində reyestrə salınmış bankm zəmanəti;
- ödənilməli olan məbləğin gömrük orqanının depoziti hesabına və ya nağd qaydada kassasına ödənilməsi yolu ilə təmin edilə bilər.

Gömrük ödənişlərinin girov qoyulması yolu ilə təmin edilməsi zamanı girovun rəsmiləşdirilməsi və ödənişin girov predmetinə yönəldilməsi girov haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə və Dövlət Gömrük Komitəsinin 25 dekabr 1997-ci il tarixli 1102 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası gömrük orqanlarında girovdan istifadə qaydalan haqqında" Əsasnamənin tələblərinə müvafiq qaydada həyata keçirilir. Bu zaman girovqoyanla gömrük orqanı arasında qarşılıqlı münasibətlər tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir. Girov haqqında müqavilənin bir nüsxəsi gömrük orqanının maliyyə-tarif şöbəsində saxlanılır, ikinci nüsxə girovqoyana verilir.

Girov predmeti kimi avtomobil, mülki hava, həmir yol, dəniz və çay nəqliyyatı vasitələrinin qəbul edilməsinə müstəsna hallarda - gömrük orqanları qarşısında öhdəliklərin yerinə yetirilməsinin digər təmin olunma imkanları olmadıqda və ancaq Dövlət Gömrük Komitəsi ilə razılaşdınimaqla yol verilir.

Gömrük ödəmələrinin girovla təmin edilməsinin mümkünlüyü baqqmda qəran girovqoyanm yazılı müraciəti əsasında gömrük orqanının rəisi (onu əvəz edən şəxs) qəbul edir.

Gömrük orqanı adından girov haqqında müqaviləm rəis (onu əvəz edən şəxs) və maliyyə-tarif şöbəsinin rəisi, girov qoyan adından isə onun səlahiyyətli nümayəndələri imzalayır.

ödəniş girovla təmin edilmiş ödəmələrin girov müqaviləsində göstərilmiş məbləğin düzgünlüyünə hami inspektor və maliyyə-ta- rif şöbəsinin rəisi məsuliyyət daşıyır.

Girov predmetinin saxlanma yerinin müvafiqliiyi (saxlama şəraiti, gömrük təminatı qoyulmasının mümkünlüyü və s.) maliyyə-ta

rif VƏ yük şöbələrinin hami inspektorlan tərəfindən müəyyən edilir. Girov predmeti məsuliyyətli saxlanc qaydasında möhürlənir.

Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsinin təmin edilməsi zamanı Dövlət Gömrük Komitəsində reyestrə salınmış bankın zəmanətindən istifadə oluna bilər. Bank zəmanəti gömrük orqanına gömrük bəyannaməsinin verüməsino qədər, yaxud onunla eyni vaxtda təqdim edilir. Bank zəmanəti onda göstərilmiş məbləğdən artıq olan gömrük ödəmələrinin ödənişinə təminat verə bilməz.

Verilmiş zəmanətdə göstərilən məbləğlər zəmanət müddətində ödənilmədikdə borcun bütün məbləği, eləcə də zəmanətin vaxtının keçməsinə görə faizlər müəyyən edilmiş qaydada gömrük orqanı tərəfindən tutulur. Gömrük orqam zəmanət öhdəliyini pozan bankların reyestrdən çıxarılması haqqında məsələ qaldınr.

Hər bir gömrük orqanında bank zəmanətlərinin uçot jurnalı aparılır. Bu jurnalda təşkilatın və zəmanət verən bankın adı, zəmanət məbləği və onun müddəti, zəmanətin yerinə yetirilməsi haqqında qeydlər və s. öz əksini tapır

Ödənilməli olan məbləğin gömrük orqanının depozit hesabına köçürülməsi və ya nağd qaydada kassas ma ödənilməsi yolu ilə təmin edilməsi zamanı, əvvəlcə maliyyə-tarif şöbəsinin hami inspek- toru YGB-nin aşağıdakı qrafalarında göstərilən rekvizitlərin düzgünlüyünü və onun təqdim olunan sənodloro uyğunluğunu yoxlayır: 1-3; 8-9; 16-16; 20; 22-24; 28; 31-39; 41-42; 44-49. Əgər heç bir nöqsan yoxdursa, ödənişlərin ödənilməsi haqqında müvafiq hesab yazır, onu yazılan hesabların qeydiyyatı jurnalında qeydiyyatdan keçririr vo imza edərək idxalçının nümayəndəsinə təqdim edir. Ödəyici öz istəyi ilə gömrük ödənişlərini nağd qaydada gömrük orqanının kassasına, yaxud köçürmo yolu ilə ödəyə bilər. Ödənişlərin gömrük orqanının kassasına ödənilməsi zamanı ınspektor (kassir) müvafiq məbləğlərə mədaxil orderi yazır və təqdim olunan hesabın vo mədaxil orderinin üzərində vəsaitin ödənilməsi haqqında qeyd edir. İdxalçının nümayəndəsi isə üzərində kassirin qeydi olan hesabı maliyyə-tarif şöbəsinin hami inspektoruna təqdim edir.

Vəsaitin köçürmo yolu ilə ödənilməsi zamanı isə maliyyə-tarif şöbəsinə vəsaitin köçürülməsi haqqında üzərində bankın qeydi

olan “Ödəmo tapşırığı” təqdim edilir. Hami inspektor yenidən ödənişin yazılan hesaba uyğunluğunu yoxlayır və YGB-nin müvafiq qrafalarında qeydiyyat apanr.

Gömrük ödəmələrini ödəyən öz arzusu və gömrük rəsmi) əşdihlməsini aparacaq gömrük orqanının razılığı ilə göstərilən gömrük orqanının hesabına gələcək gömrük ödəmələrinə görə pul vəsaitlərini qabaqcadan (avans olaraq) köçürə bilər.

Avans ödəmələri ödəmənin konkret növü üzrə, yaxud konkret növlər göstərilməklə köçürülə bilər.

Avans ödəmələri sonradan idxalçı tərəfindən rəsmiləşdirilən yük gömrük bəyannamələrinə uyğun olaraq silinir, ödəyən yazılı sorğu verdikdə gömrük orqanı avans olaraq köçürülmüş gömrük ödəmələrinin xərclənməsi və qalığı haqqında məlumat verməlidir.

Hər bir hami inspektor avans olaraq köçürülmüş vəsaitlərin xərclənməsi və qalığının uçotunu müəyyən olunmuş formada aparmalıdır.

Avans ödəmələri gömrük orqanının hesabında bir ildən çox olmayaraq xərclənmədən qala bilər. Bu müddət sona çatana qədər ödəyən gömriik orqanına avans olaraq ödənilmiş vəsaitin qalığının qaytarılması haqqında müraciət edə bilər.

Yuxanda göstərilən müddət başa çaldıqdan sonra qabaqcadan ödənilmiş pul vəsaiti tələb olunmamış kimi büdcə hesabına silinməlidir.

Gömrük orqanının hesabına müəyyən olunmamış şəxslərdən ödəmələr daxil olduğu halda da, bir il keçdikdən sonra həmin pul vəsaiti tələb olunmamış hesab edilir və büdcə hesabına silinir.

### *9.4, Gömrük ödBttişlərinin öthnüməsi üçün möhlət verilməsi və vaxtın uzadılması*

Gömrük ödənişlərinin ödənilməsi üçün müstəsna hallarda Ödəyiciyə möhlət verilə və ya vaxt uzadıla bilər.

Gömrük ödənişlərinin ödənişinə fiziki şəxslərə vaxtuzatma və ya möhlət verilmir.

Gömrük ödəmələrinin ödənişində möhlət verilməsi və ya vaxtın uzadılması haqqında qərar ödəyicinin sərbəst formada tərtib et

diyi yazılı ərizəsino əsasən gömrük resmilaşdirilmesini aparan gömrük orqanının rəisi tərəfindən qəbul edilir. Göstərilən ərizə YGB-si ilə eyni vaxtda gömrük orqanına təqdim edilir.

Gömrük ödənişlərinin ödənilməsi üçün verilən möhlət və uzadılan vaxt gömriik bəyannaməsinin qəbul edildiyi gündən etibarən iki aydan artıq olmamalıdır.

Möhlət verilməsinə və vaxtın uzadılmasına görə Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlər üzrə həmin bankın verdiyi dərəcələrə uyğun olaraq faizlər alınır və dövlət büdcəsinə köçürülür.

Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlərə görə müəyyənləşdirdiyi dərəcələr haqqında məlumat Dövlət Gömriik Komitəsi tərəfindən yerli gömrük orqanlarına çatdırılır. Gömriik ödəmələrinin ödənişində vaxtın uzadılması və möhlət verilməsinə görə hesablanmış faizlər ödəyici tərəfindən gömrük ödəmələrinin məbləğinin ödənişi ilə eynİ vaxtda ödənilir.

Gömrük ödəmələrinin Ödənişinə möhlət verilərkən və vaxt uzadılarkən ödəyici vaxtuzatmanm sonuncu günündən gec olmayaraq borcunu və faizləri Ödəməlidir. Bu zaman pul vəsaitinin köçürülmə tarixi bank əməliyyatının həyata keçirilməsi haqqında Ödəmə sənədindəki bankın qeyd tarixi sayılır.

Vaxtı uzadılmış gömrük ödəmələrinin ödənişini təsdiq edən ödəmə sənədinin surəti müəyyən edilmiş müddətlərdə gömrük orqanına təqdim edilmədiyi hallarda, ödəniş günü pul vəsaitinin gömrük orqanının hesabına faktiki daxil olma tarixi sayılır.

Aşağıdakılar borc hesab olunur:

- gömrük ödəmələri məbləğinin, verilmiş vaxtuzatmaya və ya möhlətə görə faizlərin müəyyən edilmiş müddətlərdə ödənilməsi və vaxtuzatmanm bitdiyi gündən sonrakı və ya möhlət üzrə ödəmə müddətindən sonra üç təqvim günü ərzində lazımİ pul vəsaitlərinin köçürülməsinə dair bank tərəfindən icra olunmuş ödəmə sənədinin gömrük orqanına təqdim olunmaması;
- təqdim edilmiş sənəd üzrə pul vəsaitlərinin bank əməliyyatlarının aparılması haqqında apanimış qeyd tarixindən on dörd təqvim günü müddətində gömrük orqanının hesabına daxil olmaması

Borc məbləğinin gömrük orqanlan tərəfindən tutulması bu təlimatın XI bölməsinə müvafiq olaraq həyata keçirilir.

Gömrük ödənişlərinin ödənilməsindən yayınmaya cəhd göstərən şəxslərə bu cür ödənişlərin ödənilməsi üçün möhlət verilmir və ya vaxt uzadılmır.

9.5. *Gömrük ödənişhrindən azad olunma*

Aşağıda göstərilənlər gömrük rəsmi ləşdirilməsinə görə alınan gömrük yığımlarının ödənilməsindən azad edilir;

-Azərbaycan Respublikasının gömrük sərhədindən humanitar və texniki yardım məqsədilə, habelə elektrik eneqisinin qarşılıqlı ötürülməsi üzrə, Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərinin rəsmi və onlann heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar vo nəqliyyat vasitələri.

Gömrük idxal rüsumundan azadedilmə:

Azərbaycan Respublikası Nazirlər Rabinetinin 22 dekabr 2003-cü il 161 saylı qəranna, ona edilmiş dəyişiklik və əlavələrə müvafiq olaraq aşağıdakılar gömrük idxal rüsumuna cəlb olunmur:

-birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus olan müəssisənin yaradılması üçün gətirilən əmlak;

-xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak, habelə işə götürənin arayışı gömrük orqanlarına təqdim olunmaqla);

-beynəlxalq təşkilatlann, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xadcİ hüquqi və fiziki şəxslərin maliyyə və texniki yardımları, qrantlar, kreditlər və borclar hesabına idxal olunan mallar;

-təmənnasız paylanılması üçün humanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar.

Dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatlann, hüquqi və fiziki şəxslərin xətti ilə təmənnasız paylanması üçün humanitar yardım kimi gətirilən mallann gömrük rosmİləşdirilməsində həmin

malları gətirilon humanitar təşkilatlar Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçməsi barədə sənədi, digər hüquqi və fiziki şəxslər isə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının razılığını gömrük orqanlarına təqdim etməlidirlər.

Azərbaycan Respublikasının xarici dövlətlərlə azad ticarət və kooperasiya haqqında sazişlərində mallann idxalına gömrük idxal rüsumunun qarşılıqlı surətdə tətbiq edilməsi nəzərdə tutulduqda, idxal olunan mallara gömrük idxal rüsumu tətbiq edilmir

Yuxarıda qeyd edilən, gömrük idxal rüsumuna cəlb edilməyən, güzəştli şərtlərlə Azərbaycan Respublikası ərazisinə gətirilən malların sərbəst tədavülə buraxılması üçün, həmin mallar yenidən bəyan olunmalı vo gömrük idxal rüsumları ödənilməlidir. Əks təqdirdə, malları satanlara qarşı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməlidir.

Əlavə dəyər vergisindən azadediiraə:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 124 saylı qərarına müivafiq olaraq aşağıda göstərilən mallar əlavə fləyor vergisindən azad olunurlar:

-Koud təsərrüfatı üçün toxum, gübrə, yem, damazlıq heyvanlar, dənnan preparatları, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatlan;

- Qablaşdırılmış uşaq yeməkləri, şprislər, əczaçılıq məhsulları;

-xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına daxil olan bütün növ avtonəqliyyat vasitələri istisna olmaqla fiziki şəxslər tərəfindən AR ərazisinə gətirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, ümumi dəyəri 1000 ABŞ dollarına ekvivalent və ya çəkisi 50 kq-dan artıq olmayan mallar;

-Azərbaycan Respublikasında təmsil olunan diplomatik nümayəndəliklərin və onlara bərabər tutulan təşkilatların yalnız rəsmi istifadəsi, habelə bu nümayəndəliklərin diplomatik vo inzibati-texniki heyəti üzvlərinin, o cümlədən onlarla birgə yaşayan ailə üzvlərinin yalnız şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və əmlak;

-Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin Beynəlxalq Humani

tar Yardım üzrə Respublika Komissiyasının razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;

- Beynəlxalq təşkilatların xətti ilə təmənnasız texniki yardım kimi gətirilən mallar;

- Əlilliyin profilaktikası və müalicəsi məqsədləri üçün istifadə olunacaq (avtonəqliyyat vasitələri istisna olmaqla) müxtəlif texniki vasitələr və onlann istehsalı üçün xammal və komplektləşdirici məmulatlar;

• AR vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onlann fərdiloşdirilməsi, “giriş-çıxış” avtomatlaşdırılmış məlumat-axtarış sisteminin yaradılması və tətbiqi, əl-barmaq izlərinin müəyyən edilməsi üçün gətirilən avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar;

- qanunvericiliyə uyğun olaraq müəssisələrini idarə etmək hüququna dair təsdiq edilmiş müqavilələrin icrası ilə bağlı investisiya proqramında istehsalın təşkili üçün nəzərdə tutulmuş mallar;

- Birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus olan müəssisənin yaradılması üçün gətirilən əmlak;

Azərbaycan Respublikası ərazisinə müvəqqəti olaraq gətirilmiş və gətirilmə şərtlərinə görə müəyyən olunmuş müddətdə dəyişiklik edilmədən gətirildiyi ölkəyə aparılması mallar (gömrük orqanlarına mallann gətirildiyi Ölkəyə qaytarılacağı barədə öhdəlik təqdim edildiyi və yaxud əlavə dəyər vergisi ödənildiyi təqdirdə mallar Azərbaycan Respublikası ərazisindən çıxanidıqda ödənilmiş əlavə dəyər vergisinin məbləği ödəyicilərə geri qaytanlır);

- Tranzit mallar (gömrük orqanlarının nəzarəti altında);

- Rüsumsuz ticarət mağazaları üçün gətirilən mallar;

- Xarici İnvestisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin yalnız öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak;

- Maliyyə Nazirliyi və ya Milli Bankın təsdiqedici sənədi əsasında gətirilən qaliuni tədiyyə vasitələrindən olan valyuta, pullar, banknotlar (numizmatika məqsədilə istifadə olunanlardan başqa) rəsmi dövlət sənəd blankları, vətəndaş pasportları, habelə qiymətli kağızlar;

- Tokrar ixrac məqsədilə, həmçinin emaİ edilməsi üçün müvəqqəti olanıq Azərbaycan Respublikası ərazisinə gətiıilmiş mallar (malların təkrar ixrac üçün üçüncü ölkəyə dəyişdirilmədən aparılacağı, emaldan sonra ixracı barədə gömrük orqanlarına bank zəmanəti təqdim edildiyi və yaxud əlavə dəyər vergisi ödənildiyi təqdirdə. Həmin mallar Azərbaycan Respublikası ərazisindən çıxanlan zaman ödənilmiş əlavə dəyər vergisinin məbləği ödəyəcilərə geri qaytanlır).

### *9.6, Müxtalif gömrük rejimlərində vergi və rüsumların tətbiq edilməsinin xüsusiyyətləri*

- Sərbəst dövriyyə üçün buraxılış;

Sərbəst dövriyyə üçün buraxılış rejimində gömrük ərazisinə gətirilən mallar ümumi qaydada gömrük vergi və rüsumlanna cəlb olunur;

- Təkrar idxal;

Azərbaycan Respublikası ərazisindən ixrac olunmuş mallar qanunla müəyyən edilmiş müddətdə geriyə gətirildikdə həmin mallara vergi və rüsum hesablanmır, iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

Mallar aparıldığı andan üç il ərzində təkrar idxal edildikdə gömrük orqanı ödənilmiş ixrac gömrük rüsumlarının və vergilərin məbləğini qaytarır.

Mallann təkrar idxalı zamanı mallan keçirən şəxs mallann aparılması zamanı vergi güzəştləri nəticəsində əldə etdiyi bütün məbləğləri qaytarır.

- Tranzit:

Azərbaycan Respublikası ərazisindən tranzit qaydada keçən mallardan vergi və rüsumlar tutulmur (gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımlan İstisna olmaqla), onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmir. Azərbaycan Respublikası qanunvericiliyi və Azərbaycan Respublikasının dövlətlərarası müqavjilələrində nəzərdə tutulmuş hallar istisna edilir.

Daşıyıcı mallan gömrük orqanlannın İcazəsi olmadan verdikdə,

sərbəst dövriyyə üçün buraxılış vo ya ixrac gömrük rejimlərində olduğu kimi ödənilməsi olan gömrük ödənişlərini ödəməlidir. Malların qəza və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində çatışmazlıq yaranması və ya normal şəraitdə daşınma və saxlanc itkiləri, habelə Azərbaycan Respublikası qanunvericiliyi baxımından xarici dövlət orqanlarının vo ya vəzifəli şəxslərin hüquqa zidd hərəkətləri nəticəsində sahiblikdən çıxdığı hallar istisna edilir.

- Gömrük anban;

Gömrük anbarı rejimində yerləşdirilən mallardan saxlanc dövründə vergi və rüsumlar alınmır, onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

İxrac gömrük rejiminə uyğun olaraq apanimaq üçün nəzərdə m-tulan mallann gömrük anban rejimi altında yerləşdirilməsi zamanı, malların faktiki apanlması üçün vergi və rüsumlardan azadetmə və ya ödənişinin qaytaniması nəzərdə tutulubsa, həmin mallar gömrük rüsumlanndan, vergilərdən azad edilir və ya ödənən məbləğ qaytarılır. Gömrük rüsumlanndan, vergilərdən azad edilərkən və Ödənilən məbləğ qaytanlarkən mallar gömnik anban rejimi altında yerləşdiyi gündən başlayaraq üç aydan gec olmayaraq apaniraalıdır.

Müəyyən edilmiş müddətlərdə mallar faktiki olaraq apanlmadıqda, gömrük vergi və rüsumlan, həmçinin Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlər üzrə həmin bankın müəyyən etdiyi dərəcələrlə onlardan faizlər ödənilir.

- Rüsumsuz ticarət mağazası:

Rüsumsuz ticarət mağazalanna gətirilən mallardan gömrük vergi və rüsumlan aimmır, onlara İqtisadi siyasət tədbirləri tətbiq edilmir.

- Gömrük ərazisində mallann emalı;

Gömrük ərazisində mallann emalı gömrük rejimində yerləşdirilən mallar sonradan qaytarılmaq şərtilə vergi və rüsumlara cəlb olunur. Mallann Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildiyi gündən etibarən ən geci iki il ərzində emal məhsullan ixrac gömrük rejiminə uyğun olaraq apaniarkən idxal gömrük vergi və rüsumlanmn məbləği qaytarılır.

Gömrük ərazisində emal üçün istifadə edilmiş xarici mallar və onların mohsulları ixrac gömrük rüsumlarından və vergilərindən azad edilir

- Gömrük nəzarəti altında malların emalı:

Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti altında emal olunmaq üçün gətirilmiş mallardan gömrük vergi və rüsumları alınmır. Emal məhsulları sərbəst dövriyyə üçün buraxılış və digər gömrük rejimində rəsmiləşdirildikdə ümumi qaydada vergi və rüsumlara cəlb edilir.

- Müvəqqəti idxal:

Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxal olunan mallar gömrük vergi vo rüsumlarından tamamilə vo ya qismən azad edilir.

Malların tamamilə vo ya qismon azad edilməsi “Azərbaycan Respublikasında müvəqqəti idxal (ixrac) edilən mallann gömrük rüsumları və vergilərin Ödənilməsindən tamamilə vo ya qismən azad edilməsi" Qaydalarına müvafiq olaraq həyata keçirilir.

- Sərhost gömrük zonası. Sorbost anbar.

Xarici mallann vo Azərbaycan mallarının sərbəst gömrük zonalarına gətiriInıosi və onların sorbost gömrük zonalarında yerləşdirilməsi zamanı gömrük vergİ və rüsumları alınmır.

Mallar sorbost gömrük zonaları orazisindon və sərbəst anbarlarından Azərbaycan Respublikasının gömrük ərazisinin qalan hissəsinə gətirilərkən və ya sorbost gömrük zonalarının ərazisindən və sorbost anbarlardan Azərbaycan Respublikasının hüdudlarından konara topdan satış qaydasında apanlarkən malın mənşəyindən asılı olaraq gömrük vergi və rüsumları alınır.

İxrac zamanı mənşə haqqında sertifikat olmadıqda, ixrac gömrük vergi və rüsumlannın alınması məqsədi ilə mallar Azərbaycan malları, diger məqsədlər üçün isə xarici mallar hesab edilir.

İxrac gömrük rejiminə uyğun Azərbaycan Respublikasının hüdudlarından konara aparılması nəzərdə tutulan mallar sərbəst gömrük zonalarına gətirilorkon və ya sərbəst anbarlara yerləşdirilər-kon, əgər bu cür azadetmə və ya qaytarma mallann faktiki aparılması

gömrük rüsumlarının, vergilorin qaytarılması və onlardan azadetmə günündən başlayaraq, altı aydan gec olmamaqla həyata keçirilir.

- Gömrük ərazisindən kənarda malların emalı;

Malların gömrük ərazisindən kənarda emalı üçün lisenziya almış şəxs və ya onun gömrük brokeri tərəfindən emal məhsulları sərbəst dövriyyə üçün boyan edildikdə bu məhsullar tamamilə və ya qismən gömrük rüsumlanndan, vergilərdən azad edilə bilər.

Malİann sərbəst dövriyyə üçün ilkin buraxılışından çatışmazlığı nəzərdə tutulan ballar istisna edilməklə, emal məqsədilə aparılan mallann əvəzsiz təmir edilməsinə Azərbaycan Respublikasının gömrük orqanı əmin olarsa idxal gömrük rüsumlarından, vergilərdən tamamilə azad edə bilər.

Aparılmış mallar əvəzli tomİr edildikdə və ya emal üzrə digər əməliyyatlar həyata keçirildikdə, idxal gömrük rüsumlanndan, vergilərindən qismən azad etməyə yol verilir. Gömrük rüsumlannın, vergilərinin məbləği emal məhsuluna tətbiq edilən dərəcələrə, təmirin və ya emal üzrə digor əməliyyatların dəyəri artırılmaqla müəyyən edilir.

- Təkrar ixrac:

Mallar Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilərkən, bilavasitə və yalnız təkrar ixrac üçün gətirildiyi Azərbaycan Respublikası gömrük orqanına bəyan edildikdə onlardan idxal gömrük rüsumları, vergilər alınmır, iqtisadi siyasət tədbirləri tətbiq olunmur. Bu cür malların faktiki apan İması gömrük bəyannaməsi qəbul edildiyi gündən altı aydan gec olmayaraq həyata keçirilməlidir. Həmin müddətdə mallar faktiki aparılmazsa, gömrük rüsumla- n, vergilər, həmçinin Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlər üzrə həmin bankın müəyyən etdiyi dərəcələrlə onlardan faizlər alınır.

Təkrar ixrac edilən mallar apartlarkən, onlar üçün ödənilmiş idxal gömrük rüsumlan, vergilər aşağıdakı şərtlərlə qaytanlır:

- təbii aşınma nəticəsində dəyişikliklər və ya normal şəraitdə daşınma və saxlanc itkiləri istisna edilməklə, təkrar ixrac edilən mallar idxal olunduğu andakı vəziyyətdədirsə;

• malların təkrar ixracı idxal anından başlayaraq iki il müddətində həyata keçirilirsə;

- təkrar ixrac edilən mallar gətir əldə etmək məqsədi ilə istifadə edilməmişdirsə.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hallar istisna edilməklə, təkrar ixrac edilən mallar aparılarkon, aparma üçün qüvvədə olan ixrac gömrük rüsumları, vergilər alınmır, iqtisadi siyasət tədbirləri tətbiq edilmir.

- Malların məhv edilməsi:

Məhv edilən mallar gömrük vergi və rüsumlarına cəlb edilmir. Malların məhv edilməsi nəticəsində yaranan yararlı tullantılar gömrük nəzarətində olan xarici mal kimi müvafiq gömrük rejimi altında yerləşdirilir, vergi və rüsumlara cəlb olunur.

- Dövlətin xeyrinə maldan imtina:

Dövlətin xeyrinə imtina olunan mallardan gömrük vergi və rüsumları alınmır.

### 9.7. *Gömrük ödənişlərinin yiik gömrük bəyannaməiərində əks etdirilməsi*

Yük gömrük bəyannamələrinin rəsmiləşdirilməsi zamanı maliyyə-tarif şöbəsinin inspektoru aşağıdakı bölmələrdə göstərilən rekvi- zitləri yoxlayır: 1-3; 8-9; 15-16; 20; 22-24; 28; 31-39; 41-42; 44-49.

Yoxlama zamanı hami inspektor həmin bölmələrin aşağıda göstərilən qaydada doldurulmasına diqqət yetirməlidir:

Qrafa 2. “Göndərən”,

Qrafada malları göndərən haqqında aşağıdakı məlumatlar:

- sağ yuxarı küncdə hüquqi şəxslərə Etövlət Statistika Komitəsi (DSK) vo ya fiziki şəxslər üçün gömrük orqanları tərəfindən verilmiş identifikasiya kodlan göstərilir.

- hüquqi şəxsin adı və ünvanı, ya da fiziki şəxsin soyadı, adı, atasının adı, onun şəxsiyyətini təsdiq edən məlumat və ünvan göstərilir.

- sol aşağı küncdə hüquqi şəxslər üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən alınmış təşkilatın qeydiyyatı haqqında şəha-

dətnamənin verilmə tarixi və nÖmrosi, fiziki şəxslər üçün isə Vergi Müfettişliyindən alınmış sahibkarlıq fəaliyyəti ile məşğul olmağa səlahiyyət verən lİsenziyanuı nömrəsi və verilmə tarixi göstərilir.

Qrafa 3. “Əlavə vərəqlər”

Qrafa əlavə vərəqlər istifadə olunduqda doldurulur. Qrafanın birinci yarımbölməsində vərəqin sıra nömrəsi, ikincidə isə əlavə vərəqlər daxil olmaqla, təqdim olunmuş YGB vərəqlərinin ümumi sayı göstərilir.

Qrafa 8. “Malı alan”

Qrafada mallan alan haqqında aşağıdakı məlumat göstərilir:

- xarici müəssisənin adı, ünvanı, ya da fiziki şəxsin soyadı, adı, atasının adı və ünvanı.

Qrafa 9. “Maliyyə məsələlərinin tənzimlənməsində məsul şəxs”

Qrafada ödəniş əsasında xarici ticarət sövdələşməsi bağlanmış məsul şəxs haqqında melumatlar bildirilir:

- qrafanm aşağı hissəsində “N-” işarəsindən sonra hüquqi şəxslərə DSK tərəfindən verilmiş 7 rəqəmli və ya fiziki şəxslər üçün gömrük orqanları tərəfindən verilmiş identifıkasiya kodlan;
- hüquqi şəxsin adı və ünvanı, yaxud fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və onun şoxsiyyətini təsdiq edən sənəd haqqında məlumat;
- sağ yuxan küncdə Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinə verilmiş uçot nömrəsi.

Qrafa, ödənişsiz əsasda həyata keçirilən sövdələşmələr üzrə malların keçirilməsi hallannda doldurulur.

Qrafa 15. "Göndərən Ölkə”

Qrafada dünya Ölkələrinin Təsnifatına uyğun göndərən öU.unin qısa adı göstərilir.

Qrafa 16, “Mənşə ölkəsi”

Qrafada dünya ölkələrinin Təsnifatına uyğun olaraq malın mənşə ölkəsinin qısa adı göstərilir. Eyniadlı mallar (XİF MN üzrə 10- cu rəqəm səviyyəsində eyni cür təsnifləşdirilən və bu mallara münasibətdə eyni bir gömrük rejimi tətbiq edilən) müxtəlif ölkələrdə istehsal olunduqda qrafada “müxtəlif’ sözü yazılır.

Qrafa 20. “Göndərmə şərtləri”

Qrafanın birinci yarımbölmosindo göndərmə şərtlərinin Təsnifatına uyğun olaraq 7 saylı əlavə göndonnə şərtlərinin iki rəqəmli kodu göstərilir.

Qrafamn ikinci yarı mböl məsin in sol hissəsində coğrafi məntəqə göstərilməklə göndərmə şərtinin hərflə ifadə olunmuş qısa adı göstərilir.

Üçüncü yanınbölmodə qarşılıqlı hesablaşmanın tətbiq üsulundan asılı olaraq aşağıdakılar göstərilir:

“OOl" - qarşılıqlı hesablaşma vəsaitin köçürülməsi yolu ilə həyata keçirildikdə;

“002” - akkreditiv açılması yolu ilə;

“003” - malın dəyəri ödənilmədikdo.

Qrafa ödənişsiz əsasda həyata keçirilən sövdələşmələr üzrə malların keçirilməsi hallarında doldurulmur.

Qrafa 22. “Valyuta və malların ümumi faktura dəyəri”

Qrafanın sol yarımbölməsində 42-ci qrafada göstərilmiş malların faktura dəyərini ifadə edən valyutanın rəqəmli kodu valyutaların Təsnifatına uyğun olaraq göstərilir,

Faktura dəyəri bəyan olunan valyuta, milli qanunvericiliyə uyğun olaraq müəyyən olunur.

Qrafanın sağ yanmbölməsində göstərilən ümumi faktura dəyəri YGB-nin əsas və əlavə vərəqlərinin 42-ci qrafalannda göstərilən dəyərlərin toplanmasından alınır.

Qrafa 23. “Valyuta məzənnəsi”

Qrafada YGB gömrük rəsmi ləşdirilməsinə qəbul olunduğu tarixə Mərkəzi Milli Bank tərəfındon müəyyən olunan valyuta məzənnəsi üzrə bəyan olunan faktura dəyəri göstərilir.

Qrafada faktura dəyəri milli valyuta ilo bəyan olunan hallarda - “1” rəqəmi yazılır.

Qrafa 24. “Sövdələşmənin xarakteri”

Qrafanın sol yanmbölməsində sövdələşmənin xarakteri Təsnifatına uyğun olaraq sövdələşmə xarakterinin iki rə qəmli kodu göstərilir.

Bu qrafada sövdələşmo xarakterinin ikiroqəmli kodundan əwəl göndorİşlərin xüsusi şortini xarakterizə edon ola və üçüncü işarə göstərilir:

“1” - xarici kreditlər hesabına göndərişlər;

“2” - dövlət kreditləri hesabına göndərişlər;

“3” - kommersiya kreditləri hesabına göndərişlər;

“4” - birgə müəssisələrin, beynəlxalq birlik və təşkilatların nizamnamə fondunun vəsaiti hesabına həyata keçirilən mal göndərişləri;

“7” - yeni texnika və texnologiya nümunələrinin göndərişləri.

Qrafa 28. “Maliyyə və bank məlumatı”

Qrafada 9-cu qrafada göstərilən hüquqi və ya fiziki şəxs haqqında bank vo maliyyə molumatları, rekvizitlərdən hər biri yeni sətirdən başlanılmaqla və onlardan hor birinin qarşısına növbəti sıra nömrəsi qoyulmaqla göstərilir;

1 - valyuta nəzarəti sənədinin nömrəsi, ya da bankın identifikasiya nömrəsi;

2 - bankın qısaldılmış adı;

3- 9-cu qrafada göstərilən hüquqi və ya fiziki şəxsin milli valyuta hesabının nömrəsi;

4- 9-cu qrarfada göstərilən hüquqi və ya fiziki şəxsin valyuta hesabının nömrəsi;

5 - vergi ödəyicisinin Vergilər Nazirliyi tərəfindən verilmiş uçot nömrəsi.

Qrafa pul hesablaşmaları nəzərdə tutulmayan müqavilələr üzrə mal keçiriləcək hallarda doldurulmur. Bu qrafada mövcud qanunvericiliyə müvafiq olaraq valyuta nəzarəti məqsədi üçün lazım olan məlumatlar da göstərilə bilər.

Qrafa 33. “Malın kodu”

Birinci yanmbölmədə mallann XİF MN üzrə 10 rəqəmli kodla- n göstərilir.

Kod strukturuna görə hərf tərtibində boş yer buraxılmadan və digər ayırıcı işarələr olmadan yazılır. Bu mərhələdə müvəqqəti olaraq qrafanm kenanndakı sağ yanmbölmə ehtiyat qrafa kimi saxlanılır.

Qrafa 35. “Brutto çəki (kq)"

Qrafada malların qablaşdırma vasitəsilə birlikdə ümumi çəkisi kiloqramla göstərilir. Əgər ümumi çəki bir kiloqramdan çoxdursa, onda yuvarlaqlaşdırma qaydası üzrə həmin çəki tam ədədə qədər yuvarlaqlaşdırılır.

Qrafa 36. “Preferensiya” “İmtiyaz”

Qrafa gömrük tədiyyələrinin ödənişi üzrə xüsusiyyətlər, ya da güzəştlərə əsas verən milli Təsnifata 12 saylı əlavə uyğun olaraq doldurulur.

Qrafa 38, “Netto (kq)” “Çəki” “Xalis (kq) çəki”

Qrafada mallann qablaşdınima vasitəsi nəzərə alınmadan onların xalis çəkisi kiloqramla göstərilir. Əgər ümumi çəki bir kiloqramdan çoxdursa, onda yuvarlaqlaşdırma qaydası üzrə həmin çəki tam kəmiyyətə qədər yuvarlaqlaşdırılır.

Qrafa 39. “Kvota”

Miqdarına məhdudiyyət müəyyən olunmuş mallar üçün doldurulur.

Qrafada, alınmış lisenziyaya əsasən ayrılmış kvotanın qalığı ölçü valtidi ilə göstərilir. Kvota qalığının təyini zamanı bəyan olunan mal hissəsi nəzərə alınmır.

Qrafa 42. “Malın faktura dəyəri”

Qrafada mövcud qanunvericiliyə uyğun olaraq, 22-ci qrafada göstərilmiş, valyuta ilə 3l-ci qrafada bəyan olunmuş malların faktura dəyəri göstərilir.

Qrafa 44. “Əlavə məlumat/təqdim olunan sənədlər”

Qrafada hər rekvizit yeni sətirdən başlanmaqla, qarşısına sıra nömrəsi qoyulmaqla aşağıdakılar göstərilir:

1. - lisenziyanın nömrəsi və verildiyi tarix, habelə onun fəaliyyət müddəti;
2. - nəqliyyat sənədinin nömrəsi;
3. - daşınma cədvəlinin nömrəsi və tarixi;
4. - müqavilənin (kontraktın, sazişin vo s.) nömrəsi və tarixi;

Əgər mövcud qanunvericiliyə uyğun olaraq milli valyuta ilə beynəlxalq hesablaşmaları apannaq üçün xüsusi hesabın açılmas: tələb olunursa, müqavilənin tarix və nömrəsindən sonra xüsusi işa-

ra vә milli valyuta ilә xarci şәxslә hesablaşmanı aparan müvәk kil bankın spesifikasiya nömrәsi gösterilir.

5. - әsas kontrakt, müqavilә, saziş vә s. olan әlavәlәrin nömrәsi vә verildiyi tarix;

6. - digәr dövlәt orqanlannm (onlann adı göstәrilmәklә), bu orqanlann mallara nәzarәti lazım olan hallarda verdiyi icazәnin tarixi vә nömrәsi;

7. - mallann gömrük әrazisindәn xaricdә emalına verilәn lisenziyanın nömrәsi vә verildiyi tarix, habelә onun fәaliyyәt müddәti;

8. - mallann mәnşә sertifıkatlan haqqında mәlumat;

9. - gömrük ödәnişlәrinin alınmasından azad olmaq haqqında hökumәt, dövlәt qәrarlarmın adı, nömrәsi vә verildiyi tarix dә daxil olmaqla, verilәn lisenziyalann, digәr icazәlәrin nömrәlәri vә verildiyi tarix.

Bütün mәlumatları blankda göstәrmәk mümkün olmadıqda “arxaya bax” ifadәsi yazılmaqla, ona istinad edilir vә yuxarıdakı mәlumatlar YGB-nin birinci vә dördüncü vәrәqlәrinin arxasında göstәrilәrәk, bәyannamәçinin möhürü ilә tәsdiq olunur.

Qrafa 45. “Gömrük dәyәri”

Qrafada 31-ci qrafada bәyan olunan mallann gömrük dәyәri göstәrilir. Gömrük dәyәri göstәrilәn valyuta milli qanunvericiliyә uyğun olaraq müәyyәn olunur.

Qrafa 46. “Statistik dәyәr”

Qrafada bәyan olunan mallann statistik dәyәri ABŞ dolları ilә göstәrilir.

Qrafa 47. “Gömrük rüsumlan vә yığımlannm hesablanması”

Qüvvәdә olan mövcud qanunvericiliyә uyğun olaraq, heç bir gömrük ödәniş növünә cәlb olunmayan, bәyan olunan matlar istisna olunmaqla, qalan bütün hallarda YGB-nin rәsmilәşdirilmәsi zamanı 47-ci qrafa doldurulur.

YGB-nin 47-ci qrafasının bütün sütunlan doldurulur. Bu zaman sütunlarda yazılmış rәqәmlәr vә hәrflәr arasında hәrf tәrtibindә boş yer buraxılmalıdır. Әgәr sütunlarda eyni zamanda rәqәmli vә rәmzli

raxılmasına yol verilmir. Hesablanmış gömrük ödənişlərinin məbləği MDB iştirakçıları-dövlətlərinin milli banklarında tətbiq olunan qaydalara uyğun olaraq yuvarlaq laşdırıhr.

47-ci qrafanın ayn-ayrı sütunlannın doldurulması:

“Növ” sütununda gömrük ödənişlərinin Təsnifatına uyğun olaraq gömrük ödənişi növünün kodu göstərilir.

“Hesablamaya əsas” sütununda aşağıdakılar göstərilir:

- 38-ci qrafada və ya 31-ci qrafanın aşağı sağ küncündə və ya 41-ci qrafada miqdan göstərilən mala münasibətdə gömrük ödənişləri dərəcəsinə uyğun olaraq bir mal vahidi üo müəyyən edilmiş ölçüdə tətbiq olunan gömrük ödənişləri dərəcəsi;

- ixrac gömrük rüsumunun hesablanması üçün YGB-nin 45-ci qrafasında gömrük dəyəri göstərilən mala və ya gömrük rəsmiləş-dirilməsinə görə gömrük yığımlannın hesablanması üçün 12-ci qrafada ümumi gömrük dəyəri göstərilən mala münasibətdə tətbiq olunan gömrük dəyərindən faizlə gömrük ödənişləri dərəcəsi.

Bu sütunda yalnız rəqəmli işarələr göstərilir.

“Məbləğ” sütununda mallann gömrük dəyəri i&də olunan valyuta ilə hesablanmış, ödəniləcək gömrük Ödənişlərinin məbləği göstərilir.

“ÖÜ” ödəniş üsulu sütununda ödəniş üsulunun iki rəqəmli vo ya hərfi kodlan mövcud gömrük tədiyyələrinin ödəniş şərtləri və üsulundan asılılıq qaydalarına , uyğun olaraq göstərilir:

- 01, və ya “NH” - bank vasitəsilə nağdsız hesablaşma;
- 02, və ya “GK” - gömrük kassasına nağd ödənilmişdir;
- 03, və ya “ÖM” - ödənişə möhlət verilmişdir;
- 04, və ya “ÖMU” - gömrük ödənişlərinin ödənilməsi üzrə möhlət müddəti uzadılmışdır;
- 05, və ya “ŞH” - gömrük ödənişlərində şərti hesablaşma olunmuşdur;
- 06, və ya “QÖ” - ödəniş qarşılıqlı hesablaşma əsasında apanl-mışdır.

“Hesablamanın təfsilatı”

Qrafada hər bir gömrük ödəniş növünün kodu aynca qeyd edilir, YGB-nin əsas vərəqi və hər bir əlavə vərəqi üzrə ödənişlərdən

İbarət - ödəniş məbləği, habelə valyutaların və valyuta məzənnələrinin kodlan yazılır.

Gömrük Ödənişlərinin ödənilməsi, gömrük dəyəri göstərilən \al-yutadan fərqli olan hallarda ödənmiş gömrük ödənişlərinin məbləüi 47-ci qrafanm “Məbləğ” sütununda göstərilən məbləğin ödəniş \ :ıl-yutası mərannəsi YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gündən MDB dövlətlərinin Mərkəzi Milli Bankı tərəfındon müəyyən etdiyi valyutanın məzənnəsinə görə yenidən hesablanır.

Ödəniş valyutası əsasında yenidən hesablanaraq alınmış gömrük ödənişi məbləği MDB iştirakçıları - dövlətlərinin Mərkəzi (Milli) Banklarında tətbiq olunan yuvarlaqlaşdımıa qaydalarına uyğun oluraq aparılır.

Əgər 47-ci qrafanm “ÖÜ” (ödəniş üsulu) sütununda - “05” işarəsi göstərilərsə, belə hallarda bu gömrük ödənişi növü üzrə “\' qrafası doldurulmur.

“V” qrafasmın doldurulması zamanı bütün elementlər bir-birindən defıs işarəsi İlə ayrılır və elementlər daxilində rəmz tərii-bində boş yer qoyulmasına yol verilmir.

Qrafa 48. “Ödənişlərə möhlət”

Qrafada gömrük ödənişlərinin ödənilməsinin uzadılması vo ödənilməyə verilmiş möhlətin son müddəti altı rəqəmlə (99.99.99.) göstərilir. Nöqtələr vasitəsilə bir-birindən aynlan hər bir rəqəm cütü müvafiq olaraq - günü, ayı və ili bildirir.

Maliyyə-tarif şöbəsinin inspektoru müvafiq bölmələri yoxladıqdan sonra, heç bir nöqsan aşkar etməzsə, “S” qrafada “ödənilib" qeydiyyatı edir, bunu şəxsi möhürü və imzası ilə təsdiq edir vo tarix qoyur.

### *9.S. Gömrük mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük ödənişlərinin aimmast qaydalan*

Gömrük mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük ödənişlərinin alınması qaydaları haqqında Təlimat Dövlət

**Gömrük Komitəsinin 25 dekabr 1997-ci il tarixli 1İ05 saylı əmri ilə təsdiq edilmişdir.**

**Bu Təlimat gömrük mədaxil orderinin vo ona əlavələrin doldurulması, habelə gömrük mədaxil orderinin və ona əlavələrin tətbiqi ilə gömrük ödənişlərinin alınması qaydalarını müəyyən edir.**

**Gömrük mədaxil orderi (GMO) blankı ciddi hesabat blankı olmaqla, gömrük orqanının vəzifəli şəxsi (icraçı inspektor) tərəfindən üç nüsxədə tərtib olunur. Birinci nüsxə gömrük tədiyələrinin hesablanması qərarım qəbul etmiş gömrük orqanında, ikinci nüsxə digər ciddi hesabat blanklannın saxlanılması qaydasına uyğun olaraq gömrük orqanının mühasibatUğında saxlanır, üçüncü nüsxə isə tədiyəçiyə verilir.**

**GMO blankları özüəksetdİrən kağızda, ardıcıl nömrələri olmaqla mətbəə üsulu ilə hazırlanır, Rəsmiləşirilmiş blankların uçotu gömrük orqanlarının mühasibat uçotu və hesabatı şöbələrində (bu struktur olmayan göınrükxanalarda maliyyə-tarif şöbələrində) xüsusi jurnalda aparılır. Jurnalın doldurulması və saxlanılması, blankların verilməsi ciddi hesabat blankları üzərində işin mövcud qaydalarına uyğun olaraq həyata keçirilir. Rəsmiləşdirilmiş blankların uçotu jurnalı təqvim ili üzrə aparılır. Jurnal qabaqcadan nömrələnir, qaytanlanır, gömrük orqanının rəisi və baş mühasibi (maliyyə-tarif şöbəsinin rəisi) tərəfindən imzalanır və möhürlənir.**

**GMO hüquqi və fiziki şəxslər tərəfindən aşağıdakı ödənişlər üçün tətbiq oluna bilər:**

**- Azərbaycan Respublikasının gömrük işİni aparan icra hakimiyyəti orqanı tərəfindən lisenziyaların verilməsi və lisenziyaların fəaliyyətinin bərpa edilməsinə görə yığımların alınması üçün;**

**- gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatların fəaliyyətinin bərpa edilməsinə görə yığımların alınması üçün;**

**- malların saxlancına görə gömrük yığımlarının alınması üçün;**

**- malların gömrük müşayiətinə görə gömrük yığımlarının alınması üçün;**

**- məlumatlandırma və məsləhətverməyə görə haqqının ödənişi üçün;**

- vahid dərəcə ilə alınan gömrük Ödənişləri üçün;
- ilkin qərarların qəbuluna görə haqqın alınması üçün;
- gömrük auksionlarında iştirak etməyə görə haqqın alımnası üçün.

Gömrük rəsmiləşdirilməsi Gömrük Yük Bəyannaməsi ilə həyata keçirilərkən gömrük tədiyələrinin hesablanması və alınması üçün GMO-dan istifadə edilmir.

Malları və ya ödənişləri sadalamaq üçün yer çatışmadıqda GMO-nun əlavə vərəqələri doldurulur.

Gömrük mədaxil orderinin əlavə vərəqəsi (gələcəkdə ƏGMO) iki özüəksetdirən vərəqdən ibarət olub ciddi hesabat blankı hesab olunmur. ƏGMO gömrük orqanının vəzifəli şəxsi tərəfindən (icraçı inspektor) ikİ nüsxədə doldurulur və GMO-nun gömrük orqanında saxlanılan birinci və ikinci nüsxəsinə əlavə olunur. ƏGMO gömrük mədaxil orderinin ayrılmaz hissəsi hesab olunur və ancaq nömrə qoyulduqdan sonra GMO-nun əlavəsi kimi istifadə oluna bilər.

Doldurulmuş GMO və ƏGMO kargüzarlığın aparılması qaydalarına müvafiq olaraq üç il müddətində saxlanılır. ƏGMO rəsmiləşdirildiyi və GMO-dan ona məlumat nömrəsi köçürüldüyü andan ciddi hesabat sənədi hesab olunur.

GMO-nun tətbiqi ilə bütün ödəniş növü üzrə tədiyələr Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq manatla aparılır.

GMO üzrə hesablanmış gömrük tədiyələrinin ödənişi onun doldurulduğu tarixdən 3 iş günü ərzində həyata keçirilməlidir. Bu müddət keçdikdən sonra GMO ləğv edilir.

GMO üzrə ödəniş nağd fonnada gömrükxananın kassasına (beynəlxalq poçt göndərişləri üçün rabitə şöbəsinin kassasına) köçürülməklə həyata keçirilir. Bu halda icraçı (İnspektor) GMO-nu rəsmiləşdirməklə l-ci nüsxəni özündə saxlayır. İkinci və üçüncü nüsxələr gömrük orqanının kassasına (rabitə şöbəsinin kassasına) təqdim edilmək üçün tədiyəçiyə verilir. Tədiyə məbləğinin gömrük orqanının kassasına qəbulu müəyyən edilmiş qaydada kassa mədaxil orderi ilə həyata keçirilir və “Mədaxil və məxaric kassa sənədlərinin

qeydiyyatı kitabı”nda qeyd edilir. Sənədlər arasında uyğunluq yaratmaq üçün kassa mədaxil orderinin qeydiyyat nömrəsi kassir tə-rotlndən GMO-nun 8-ci qrafasının 7-ci sütununda qeyd olunur və lO-cu qrafada bütün nüsxələrə imza edilir. Bundan sonra, 2-ci nüsxəni mühasibat uçotu və hesabatı şöbəsinə (maliyyə-tarif şöbəsinə)ləqdim etmək üçün kassada saxlayır. Üçüncü nüsxə kassa mədaxil orderi əlavə olunmaqla tədiyəçiyə verilir. Tədiyəçi həmin sənədləri GMO-nun 1-ci nüsxəsini tam rəsmiləşdirmək üçün icraçıya (in.spektora) təqdim edir. İnspektr GMO-nun l-ci nüsxəsinin 8-ci qrafasının 7-ci sütununda 3-cü nüsxədə kassir tərəfindən apanlan qeydi əks etdirir.

Gömrük tədiyələri bilavasitə icraçı-inspektor tərəfindən qəbul edilərsə (onunla tam maddi-məsuliyyət haqqında müqavilə bağlanmalıdır), onda GMO gömrük tədiyələrinin hesablanılması və tutulmasının, habelə göstərilən inspektor tərəfindən tutulan tədiyənin kassaya ödənilməsi üçün mühüm sənəd hesab olunur. İnspcktor-ic-raçı toplanmış gömrük tədiyə məbləğini, GMO və ƏGMO-nun 2- ci nüsxəsini, habelə GMO-nun 1-ci nüsxəsini kassa mədaxil orderinin qeydiyyat nömrəsini qeyd etmək üçün kassirə təqdim edir. Kassir GMO-da göstərilən məbləğin təqdim olunan nağd pula uyğunluğunu yoxladıqdan sonra GMO-nun birinci nüsxəsində müva- tlq qeydiyyat aparır. Ödənişi təsdiq edən sənəd kimi tədiyəçiyə inspektor tərəfindən GMO-nun üçüncü nüsxəsi verilir.

Gömrük orqanı rəisinin göstərişi ilə gömrük tədiyələrinin qəbulunun eyni qaydası o halda tətbiq edilə bilər ki, kassir pulu GMO üzrə qəbul edir və iş gününün sonunda bir kassa orderi ile banka in-kassa edir.

GMO və ƏGMO blanklan gömrük orqanının vəkil edilmiş vəzifəli şəxsi (icraçı-inspektor) tərəfindən əllə və ya makina üsulu ilə doldurulur. Hər bir nüsxəyə şəxsi nömrəli möhür vurulur və iıispektorun imzası ilə təsdiq olunur.

GMO və ƏGMO-da bütün düzəlişlər sənədlər kassaya verilin, txdon ovvol inspektor (icraçı) tərəfindən edilir. Düzəlişlər səhv ıımlmıatın üstündən xətt çəkilməklə aparılır və edilən hər bir dü- /iiliş iıispcktt'rıın şəxsi nömrəli möhürü və imzası ilə təsdiq edilir.

GMO və ƏGMO-nun hər hansı bir qrafası doldurulmamışsa ona xətt çəkilir.

Tələb olunan məlumatı göstərmək üçün GMO-da yer çatışmadıqda onlan ƏGMO-nun müvafiq qrafalannda əks etdirmək olar.

Gömrük mədaxil orderinin hər bir nüsxəsi inspektorun imzası və nömrəli şəxsi möhürü ilə təsdiq olunur və GMO-nun ikinci qrafasında onların sayı göstərilir.

### *9.9. Gömrük ödanişhrinin tutulmast vo öthyicihrin m0suiiyy9ti*

Gömrük ödəmələrinin ödənilməsinə görə məsul şəxs gömrük ödəmələrinin düzgün hesablanmasına və vaxtında ödənilməsinə, təqdim olunan sənədlərin düzgünlüyünə məsuliyyət daşıyır.

Gömrük ödəmələri bilavasitə deklarant və ya gömrük qanunvericiliyinə uyğun olaraq digər şəxslər tərəfindən ödənilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsində nəzərdə tutulan hallar istisna edilməklə hər bir marağı olan şəxs gömrük ödənişlərini ödəyə bilər.

Gömrük Ödəmələri müəyyən edilmiş müddətlərdə və müəyyən edilmiş qaydada ödənilmədikdə, ödəmələrin məbləği gömrük orqanları tərəfindən onlann ödənilməsinə məsul şəxslərdən tutulur.

Azərbaycan Respublikasının gömrük sərhədindən malları və nəqliyyat vasitələrini keçirən şəxs deklarant olmadığı hallarda, bu cür şəxs gömrük ödənişlərinin ödənilməsi üzrə deklarantla birgə məsuliyyət daşıyır.

Ödənilməmiş gömrük ödənişləri ödəməmə faktımn aşkar edilməsi vaxtından asılı olmayaraq Azərbaycan Respublikası gömrük orqanlan tərəfindən tutulur.

Gömrük ödənişlərini ödəməkdən yayınma cəhdi aşkar edildikdə gömrük orqanlan tərəfindən Dövlət Gömrük Komitəsinə məlumat verilir. Dövlət Gömrük Komitəsi həmin ödəyiçinin faktiki ödənilmə anına qədər bütün hesabları üzrə əməliyyätlann dayandırılması haqqında qərar qəbul etmək hüququna malikdir. Belə qərar banklar, kredit təşkilatlan tərəfindən icra edilməlidir.

Azerbaycan Respublikasının gömrük sərhədindən mallan və nəqliyyat vasitələrini qanunsuz keçirən şəxs, həmçinin belə malla- nn və nəqliyyat vasitələrinin qanunsuz keçirildiyini bilən, bilməli olan və qanunsuz keçirmədə iştirak edən şəxs, gətirmə zamanı isə gətirmənin qanunsuz olduğunu bilən və ya bilməli olan, qanunsuz gətirilən malları və nəqliyyat vasitələrini öz mülkiyyətinə ve ya sərəncamına götürən şəxs gömrük ödənişlərinin ödənilməsi üzrə birgə məsuliyyət daşıyır.

Yük gömrük bəyannaməsində göstərilən məlumatlar gömrük dəyərinin və beləliklə, gömrük ödənişlərinin azalmasına səbəb olduqda, gömrük orqanı bəyannamə verəndən, rüsumdan gizlədilən malın gömrük ödənişlərinin tam məbləğini qeyd-şərtsiz alır.

Müəyyən gömrük rejimində yerləşdirilən malların və nəqliyyat vasitələrinin istifadəsi zamanı gömrük ödənişlərinin ödənilməsinə görə məsuliyyəti İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə müəyyən edilmiş şəxslər daşıyırlar.

# MÖVZU **10. Valyuta nəzarəti**

## *10.1, Valyuta tanzimhnməsinin 9həmiyyəti*

Gömrük orqanlan Azərbaycan Respublikasmm digər ölkələrlə iqtisadi əlaqələrinin əsas təminatçılarından biri olmaqla xarici iqtisadi fəaliyyətin səmərəli yerinə yetirilməsi və tənzimlənməsində mühüm rol oynayır. Xarici iqtisadi fəaliyyəti şərti olaraq xarici ticarət əməliyyatları və qeyri-ticarət əməliyyatlan olmaqla iki qrupa bölmək olar.

Xarici ticarət əməliyyatlan bir qayda olaraq iki növ ödəniş forması əsasmda həyata keçirilir:

- Birincisi, ayn-ayn ölkələrin xarici iqtisadi fəaliyyət (XtF) iştİ-rakçılan arasında mal və xidmətlərin alqı-satqı prinsipləri əsasmda sövdələşmələr vasitəsilə. Belə sövdələşmələr valyutada bilavasitə hesablaşmalarla bağlı olur.
- İkincisi, mal və xidmətlərin qiymətləndirilməsi valyutada həyata keçirilən, lakin valyuta axınını nəzərdə tutmayan kompensasiya və barter sövdələşmələri vasitəsilə.

Qeyri-ticarət əməliyyatları da həmçinin ya valyutamn sərhəddən keçirilməsini, ya da mal və xidmətlərin valyutada qiymətləndirilməsini nəzərdə tutur. Beləliklə, gömrük orqanları xarici iqtisadi fəaliyyət səbəbi ilə Azərbaycanın digər ölkələrlə valyuta münasibətlərinin dolayı yolla iştirakçısı olurlar.

Beynəlxalq valyuta münasibətlərində dövlətin maraqlarının qorunması və iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün Özünəməxsus vaİ3nıta siyasəti olmalıdır.

Valyuta siyasəti dedikdə, valyuta münasibətləri sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin məcmusu başa düşülür.

Valyuta siyasəti aşağıdakı məsələlərin həllinə yönəlmiş tədbirləri nəzərdə tutur:

- valyuta-maliyyə mexanizminin və ölkə İqtisadiyyatımn ödəmə və kredit qabiliyyətinin möhkəmləndirilməsi;

- respublika üçün əlverişli şərtlərlə xarici investisiyalann cəlb edilməsi;

- ölkodon əsassız valyuta və milli kapital axınının qarşısının alınması;

- milli valyutanın mütərəqqi təminatlarla möhkəmləndirilməsi, u cümlədən stabil məzənnəsinə və sərbəst konvertasiyasına nail olunması;

- iqtisadiyyatda milli valyutanın - manatın hakim mövqeyinin təmin edilməməsi və xarici valyutanın hər hansı şəkildə mənfi müdaxiləsinin qarşısının alınması.

### *10.2. Azerbaycan Respublikasının valyuta sistemi*

Valyuta sistemi - beynəlxalq sazişlər nəzərə alınmaqla mİlli qanunvericilik əsasında fəaliyyət göstərən valyuta münasibətlərinin təşkili və tənzimlənməsi formasıdır. Azərbaycan Respublikasının valyuta sistemi müasir dövrdə formalaşmış və təkmilləşmə prosesini yaşayır. Bu proses dünya valyuta sisteminin prinsip və qaydaları əsasında ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə aparılır. Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondunun (BVF) üzvüdür. BVF-na daxil olan ölkə onun nizamnaməsini tanımalı, onun valyuta sistemi iso bu nizamnamənin tələblərinə cavab verməlidir.

Azərbaycanın valyuta sisteminin əsas elementləri aşağıdakılardır:

Birincisi, 1992-ci ildən Respublika ərazisində milli valyuta - Azərbaycan manatı tədavülə buraxılmışdır. Azərbaycan manatı ölkə valyuta sisteminin əsasıdır.

İkincisi, Azərbaycanda sərbəst valyuta məzənnəsi hakimdir. Bu o deməkdir ki, manatın məzənnəsi diger valyutalara münasibətdə dəyişə bilər və ölkə valyuta bazannda təklif və tələbdən asılı olaraq formalaşır. Bununla bərabər milli valyuta heç bir digər valyuta növü ilə bağlı deyil. Azərtiaycan manatıhm qızıl məzmunu rəsmən müəyyən edilməmişdir. Daxili valyuta bazannda bağlaşmalann nə

ticəsinə görə Milli Bank sərbəst dönərli valyutalara münasibətdə manatın məzənnəsini müəyyən edir.

Üçüncüsü, beynəlxalq kredit vəsaitlərinin dövriyyəsi və beynəlxalq hesablaşmalarda beynəlxalq normalar əsas götürülür. Dövriyyə vəsaitlərinin ilk növbədə çek və veksellərin forma və qaydala- n, həmçinin akkreditiv və inkasso qaydalan bu normalarla müəyyən edilir.

Dördüncüsü, beynəlxalq hesablaşmalar həyata keçirilərkən Azərbaycanın ödəmə vəsaitləri təminatlı olmalıdır. Bu vəsaitlərin təminatlılığı ölkənin valyuta ehtiyatlan ilə təsdiq edilir. 2004-cü ilin yanvanna Azərbaycanın valyuta ehtiyatları 780 milyon ABŞ dollan təşkil edir.

Nəhayət, beşincisi, valyuta sisteminin təşkilatlandınıması məsələsi həll edilmişdir. Azərbaycan Respublikasının valyuta münasibətlərini idarə edən və tənzimləyən dövlət orqanları ölkə Prezidenti, Milli Məclis, Nazirlər Kabineti, Milli Bank, Maliyyə Nazirliyi və Dövlət Gömrük Komitəsidir. Onların bu sahədə əsas funksiyalarına aşağıdakılar daxildir:

- ölkənin valyuta siyasəti sahəsində qanunvericilik aktlannm qəbulu;
- valyuta qanunvericiliyinə riayət olunmasına nəzarət;
- valyuta siyasəti sahəsində səlahiyyət və funksiyaların bölünməsi.

ölkənin valyuta siyasəti valyuta bazarının genişləndiritməsinin vacibliyi nəzərə alınmaqla formalaşdınlır.

Valyuta bazarı - valyuta vəsaitlərinin iqtisadi subyektlər (hüquqi və fiziki şəxslər) arasında yerləşdirilməsi, bölüşdürülməsi və cəmləşdirilməsini xarakterizə edən mexanizm, vasitə və iqtisadi münasibətlər sistemidir.

Valyuta bazarı valyuta qiymətlilərinin, xarici valyutanın və xarici valyutada qiymətli kağızlann alqı-satqı oməlİyyatlanna, həmçinin valyuta kapitalının investisiyası ilə əlaqədar əməliyyatlara xidmət edir. Hər ölkənin valyuta bazarı spesifik xüsusiyyətlərə malikdir, eyni zamanda, valyuta bazarları, bəzi ümtıııii parametrlərlə

sociyyələndirilə bilər. Belə parametrlərə, adətən, aşağıdakılar aid edilir:

- milli valyutanın formalaşdırılması və ona himəyadarlıq;
- ticarət və qcyri-ticarət əməliyyatlarında valyuta tənzimi;
- kapitalın bərəkəti ilə bağlı əməliyyatların tənzimi;
- hüquqi və fiziki şəxslər tərəfindən valyuta əməliyyatlarının həyata keçirilməsi qaydalan;
- beynəlxalq valyuta əməkdaşlığı və beynəlxalq valyuta-maliyyə təşkilatlarında iştirak, üzvlük məsələləri.

Valyuta bazan mücərrəd kateqoriya deyİl, tələb və təklif əsasında valyuta vo qiymətli kağızların alqı-satqı əməliyyatlarını həyata keçirən maliyyə mərkəzləri sistemidir. Milli Bank və müvəkkil banklar Azərbaycan valyuta bazarında mühüm yer tutur və onun tənzimlənməsini təmin edirlər.

Valyuta tənzimlənməsi dedikdə ölkə iqtisadiyyatındakı valyuta sahəsinin dövlət idarəsi, yəni, dövlət tərəfindən beynəlxalq hesablaşmalann və valyuta əməliyyatian aparılması qaydasının reqlamentləşdirilməsi deməkdir. Bu zaman dövlət - ölkənin iqtisadi qüdrətinin yüksəldilməsi və Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi prinsiplərini rəhbər tutur.

Valyuta tənzimlənməsini həyata keçirərkən dövlət-valyuta əməliyyatian aparılması sahə və qaydasını, ölkənin valyuta ehtiyatlarının yaradılması və ondan istifadə qaydasım, təsərrürfat subyektlərinin valyuta fondlannın yaradılması qaydasım, valyuta nəzarəti sahə və qaydasını müəyyən edir.

Azərbaycan Respublikasında Valyuta tənzimi haqqında qanun qəbul edilmişdir (21 oktyabr l994-cü il, N-910).

### *10.3. Valyuta nəzarsti*

Mövcud qanunvericilikdə rezident vo qeyri rezidentlərin valyuta hüquqi-münasibətlərini, valyuta məhdudiyyətlərini reqlamentləşdirən normativ bazanın olması valyuta əmeliyyatlannın həyata keçirilməsi zamanı bu qanunvericiliyə əməl edilməsinə nəza-

rət məqsədilə şəraitin yaradılması üçün inzibati idarəetmə mexanizmini şərtləndirir. Qeyd etmək lazımdır ki, valyuta nəzarəti valyuta tənzimlənməsi sisteminin bütövlükdə üstqurumu olmaqla bərabər, cəmiyyətin müəyyən inkişaf mərhələlərində qarşıda duran konkret məsələləri həll edir.

Valyuta nəzarətinin məqsədi valyuta əməliyyatlannda valyuta qanunvericiliyinə riayət olunmasının təmİn edilməsidir. Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır:

- apanlan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyə uyğun olması və tələb olunan lisenziya və icazələrin alınması;
- rezidentlərin dövlət qarşısındakı öhdəliklərinin, həmçinin əldə olunan xarici valyutanın daxili valyuta bazarında satılması öhdəliyinin yerinə yetirilməsinin yoxlanılması;
- xarici valyutada ödənişlərin qanuni və əsaslı olduğunun yoxlanması;
- valyuta əməliyyatlan üzrə hesabatlann tam və obyektiv olduğunun yoxlanması.

*Valyuta mzarəti orqanları və agentləri*

Beynəlxalq təcrübə gösterir ki, xarici iqtisadi fəaliyyətlə bağlı əməliyyatlara səmərəli valyuta nəzarəti yalnız bu işdə gömrük orqanlannın fəal iştirakı ilə mümkündür. Belə ki, mallann gömrük sərhədindən qanuni keçirilmə faktı və onun şərtləri, həmçinin xarici ticarət müqavilələrində öz əksini tapmış digər məsələlər gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinin gedişində aşkarlanır. Gömrük rəsmiləşdirilməsi zamanı valyuta nəzarətinin hərtəroıIİ və səmərəli həyata keçirilməsi üçün şərait yaranmış olur.

Gömrük sərhədindən keçirilən valyuta və valyuta qiymətlilərinə nəzarət funksiyası ənənəvi xarakterli olub, əvvəllər də gömrük orqanlarının əsas funksiyalarına aid idi. Valyuta qiymətlilərinə mülkiyyət hüququnun keçməsi əməliyyatlarına nəzarət funksiyasının gömrük sisteminə həvalə edilməsi prinsipcə yeni məsələdir və bu nəzarətin səmərəliliyinin artırılması məqsədi güdür.

Məsələnin belə qoyuluşu gömrük sisteminin maraq dairəsini genişləndintıək, gömrük vo valyuta qanunvericiliyi sahələrini uzlaşdınnağa, homçinİn onun həllində gömrük sisteminin təşkilatı və texniki imkanlanndan istifadə etməyə şərait yaratdı. Nəticədə bu üstünlüklər xarici ticarət fəaliyyəti əməliyyatlarına nəzarətin təşkilində özünü göstərdi.

Dövlət Gömrük Komitəsinin 9 sentyabr 1998-ci il tarixli 049 saylı əmri ilo "Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyuta vosaitlorinin ödənişinə nəzarət barədə" Təlimat təsdiq edilmişdir.

İxrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət bir neçə mərhələdə həyata keçirilir.

1. İlkin nəzarət:

- YGB-nin düzgün doldurulmasına və göstərilən məlumatların dəqiqliyinə nəzarət;
- həyata keç inlən sövdələşmənin qanunvericiliyə uyğunluğuna nəzarət;
- hesabatların formalaşdırılması və DGK-nə təqdim edilməsi;

2. Məlumat - analitik nəzarət:

- gömrük orqanlarından alınan molumatlann yoxlanılması;
- valyuta nəzarəti, uçot kartoçkasının doldurulması və əqd üzrə hesablaşmaları aparan müvəkkil banklara göndərilməsi;
- bank tərəfindən rəsmiləşdirilən Uçot Kartoçkalannm alınması və istifadəsi (analizi);
- valyuta köçürülməsi üzrə müəyyən edilmiş qaydaları pozanların müəyyən edilməsi.

3. Bitkin sənədli nəzarət:

- valyutanın köçürülməsində mümkün ola biləcək çatışmazlığı faktı üzrə məqsədli yoxlama;
- Gömrük Məcəlləsi ilə müəyyən edilmiş sanksiyaların tətbiqi.

Belə nəzarət sistemi imkan verir ki, hər bir valyuta əməliyyatınm qanunvericiliyə uyğun olmasına nəzarət edilsin, qaytarılmamış valyuta qazancının həcmi qiymətləndirilə bilsin, ödənişin şərtləri qaydaya salınsın, gömrük orqanlannın vo banklann operativ məlumat

mübadiləsi təmin edilsin, valyuta nəzarəti məqsədləh üçün bank ve gömrük orqanlarının imkanlanndan maksimum istifadə edilsin.

İxrac əməliyyatlannda valyuta ödənişlərinə nəzarət Dövlət Gömrük Komitəsinin 9 sentyabr 1998-ci İl tarixli 049 saylı Əmri ilə təsdiq edilmiş və 11 fevral 1999-cu il tarixli 009 saylı əmri ilə dəqiqləşdirilmiş Təlimatla müəyyən edilən “İxrac əməliyyatlannda valyuta ödənişlərinə nəzarətin texnoloji sxemi”nə uyğun olaraq həyata keçirilir.

İlkin nəzarət. İlkin nəzarət ixrac əməliyyatının gömrük rəsmiləşdirilməsi zamanı apanlır. Bu zaman ixracatçı tərəfindən təqdim olunan aidiyyatı sənədlərin tamlığı və düzgünlüyü gömrük rəsmiləşdi- rilməsini aparan müvafiq şöbə (Yük şöbəsi) tərəfindən yoxlanılır.

Konsiqnasiya yolu ilə ixrac əməliyyatlan xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı gömrük orqanlarında bəyan edildiyi gündən etibarən 180 günə qədər müəyyən olunmaqla malların ixracını nəzərdə tutur. Satışdan əldə edilən vəsaitlər, mallar satıldıqca 10 bank günündən gec olmayaraq ixracatçının ona xidmot göstərən müvəkkil bankdakı valyuta hesabına daxil olmalıdır. Konsiqnasiya ticarəti üçün ayrılan müddətdə mallar satılmadığı təqdirdə, 30 gün ərzində həmin mallar Azərbaycan Respublikasına qaytarılmalıdır.

Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən malların konsiqnasiya yolu ile ixracı gömrük orqanlannda bəyan edilməklə apan- lır. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş mallann dəyəri, istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Konsiqnasiya yolu ilə ixrac əməliyyatlarının rəsmiləşdiriİmə-sində gömrük orqanlan tərəfindən tələb olunan sənədlər:

- xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə; digər ixracatçılar tərəfindən isə gömrük orqanlarında bəyan edilməklə);
- ixrac olunan malın mənşə sertifikatı;
- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı

- İxrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- konsiqnasiya müqaviləsində nəzərdə tutulan valyuta vəsaitinin vaxtında köçürüləcəyinə və yaxud mal satılmadığı halda həmin malın geri qaytarılmasına “Zəmanət öhdəliyi”.
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi;

Barter əməliyyatları, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılıqlı mal (xidmət və əqli mülkiyyət) mübadiləsini nəzərdə tutur.

Barter əməliyyatlarında ekvivalent məbləğdə malların göndərilməsi və alınması müddəti 90 günədək müəyyən olunur. Ekvivalent məbləğdə qarşılıqlı mal mübadiləsi bu müddətdə başa çatmadığı təqdirdə, hesablaşma müqavilədə göstərilən valyuta ilə 10 bank günü ərzində yerinə yetirilməli və vəsait ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürülməlidir.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxan olan müəssisələr tərəfindən bağlanmış barter müqavilələri İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər müəssisələr tərəfindən bağlanmış barter müqavilələri isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

Barter əməliyyatları üzrə ixrac edilən mallann Yük Gömrük Bəyannamələrinin bir nüsxəsi mal bəyan olunduğu tarixdən etibarən 7 gün ərzində gömrük orqanları tərəfindən müvəkkil banklara və İqtisadi İnkişaf Nazirliyinə göndərilir.

Mallann barter (mübadilə) yolu ilə ixracı zamanı gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
- ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış barter müqaviləsi (ixracatçı dövlət müəssisəsi olduqda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilmiş);

- **İxrac olunan malın mənşə sertifikatı;**
- ekvivalent məbləğdə malların vaxtında Azərbaycan Respublikasına gətiriləcəyi və yaxud valyuta vəsaitinin ixracatçımn müvəkkil bankdakı valyuta hesabına köçürəcəyi barədə zəmanət öhdəliyi;
- Uçot kartoçkası (UK).
- Deklarant təıəhndən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Kreditə ixrac əməliyyatlan, faktiki mal (xidmət və əqli mülkiyyət) ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən mallann ixracını nəzərdə tutur.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxan olan müəssisələr tərəfindən mallann (xidmət və əqli mülkiyyətin) kreditə ixracı üzrə bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə apanlır.

Digər ixraca^ılar tərəfindən mallann kreditə ixracı isə, gömrük orqanlannda bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanın dövlət müəssisələrində İstehsal olunmuş mallann dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Kreditə ixrac əməliyyatlarında gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

- istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);
• ixrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;
- xarici tərəflə bağlanmış müqavilə (kreditə ixrac əməliyyatlan dövlət müəssisələri tərəfindən həyata keçirildikdə İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə);
- **malın mənşə sertifikatı;**
- valyuta vəsaitlərinin köçürülməsinə zəmanət öhdəliyi;
- Uçot kartoçkası (UK);
- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Müvəqqəti ixrac əməliyyatlan xarici ölkələrdə xidmət göstərilməsi lizinq əməliyyatlannın apanIması sərgilərdə

• Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göndərilmiş mallar üzrə bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən həmin mallar 30 gün əızində Azərbaycan Respublikasına qaytanlmahdır. Bu mallar İqtisadi İnkişaf Nazirliyinin icazəsi ilə istifadə olunduğu ölkələrdə satıla bilər. Valyuta vəsaiti mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir;

-Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən isə, müvəqqəti ixrac olunmuş mallar bu Təlimata və Azərbaycan Respublikasının digər qanunvericilik aktlanna uyğun olaraq müvafiq gömrük rüsumları ödənilməklə istifadə olunduğu ölkələrdə satıla bilər. Bu halda valyuta vəsaitləri mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir. Başqa halda, həmin mallar bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən 30 gün ərzində Azərbaycan Respublikasına qaytarılmalıdır.

Müvəqqəti ixrac əməliyyatları rəsmiləşdirilərkən gömrük orqanları tərəfindən aşağıdakı sənədlər tələb olunur:

-istehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);

-ixrac olunan mal dövlət müəssisəsində istezsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

-xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə);

- müvəqqəti ixrac olunan malın mənşə sertifikatı;

-müqavilə şərtlərinə uyğun olaraq müvəqqəti ixrac olunan mallann geriyə qaytarılacağı barədə zəmanət öhdəliyi.

- Uçot kartoçkası (UK);

- Deklarant tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Son (sənədli) nəzarət-gömrük rəsmiləşdirilməsi başa çatdıqdan sonra apanlır.

Gömrük orqanının Yük şöbəsinə ixracatçı tərəfindən təqdim

' hər bir ixrac əməliyyatı üzrə dosye açılır, ixracatçınm ərizəsi ilə birlikdə ərizədə göstərilən sənədlərin surətləri və Təlimatın 2- ci bəndindəki müvafiq ixrac rejiminə uyğun tələb olunan sənədlər əlavə edilir;

-Uçot kartoçkasmdakı məlumatların düzgünlüyü yoxlanılmaqla, təqdim olunan YGB məlumatları ilə üzləşdirilir;

-Uçot kartoçkası tərtib olunmaqla, gələcəkdə valyuta vəsaitlərinin daxil olacağının və ya malın geri qaytan lacağının son müddətləri təyin olunur;

-Uçot kartoçkasına qeydiyyat nömrəsi verilməklə, UK reyestrinə salmır və onun surəti isə DGK Valyuta Nəzarəti şöbəsinə göndərilir;

-göndərilmiş mallarm müqabilində ödəniş vaxtının bilməsi barədə ixracatçıya və DGK Valyuta Nəzarəti şöbəsinə bildiriş göndərilir;

-valyuta vəsaitlərinin daxil olması barədə müvəkkil bank tərəfindən təsdiq edilmiş Uçot kartoçkası (A2-bölməsi) və ya malların geri qaytarılması barədə deklarant tərəfindən tərtib edilmiş idxal YGB İxracatçı tərəfindən gömrük orqanına təqdim edildiyi təqdirdə UK nəzarətdən çıxarılır;

- valyuta vəsaitlərinin vaxtında mədaxil olmaması və ya malların geriyə qaytanimasi müddətinin başa çatması ilə əlaqədar (Fors-major baş verdiyi və yaxud ixracatçı tərəfindən ixrac müqavilələrinə müvafiq olaraq nəzərdə tutulan arbitraj prəseduralannm yerinə yetirilməsi hallan istisna olmaqla) gömrük orqanı (Maliyyə-Tarif şöbəsi) mövcud qaydada araşdırma apanr, protokol tərtib edir və toplanmış materialları gömrük orqanının müvafiq (Qaçaşmalçılıq və gömrük qaydalannm pozulması İlə mübarizə) şöbəsinə təqdim edir. Aidiyyatı üzrə bu işi icra edən şöbə təhqiqat aparmaqla, eyni zamanda qərar qəbul edir, həmçinin Təlimatın 2 saylı əlavəsinin “V” bölməsinə uyğun olaraq ixracatçıya qarşı Gömrük Məcəlləsinin müvafiq maddəsinə əsasən sanksiya tətbiq edir vo bu barədə Dövlət Gömrük

*İxrac amaliyyatlartnda*
*hesablaşmalara nBzarat*

İxracatçılar tərəfindən ixrac olunan (sövdələşmə xüsusiyyəti 21 və 41), mallann (xidmət və əqli mülkiyyətin) Azərbaycan Respublikası ərazisindən çıxarılması gömrük orqanları tərəfindən yalnız onların haqqının qabaqcadan ödənildiyi və yaxud geri çağınimayan akkreditiv açılması müvəkkil banklar tərəfindən “Uçot Kartoçka- sı”nın “Al” və “A2” bölmələrində qeyd edilməklə təsdiq olunduqdan sonra həyäta keçirilir.

İxracatçılar tərəfindən aparılan ixrac əməliyyatlannın hesablaşmalar hissəsi, Azərbaycan Respublikası müvəkkil banklarının, malların gömrük sərhədindən çıxaniması isə gömrük orqanlarının nəzarəti altında həyata keçirilir.

*Təlimatın tələblərinin*
*pozulmasına görə məsuliyyət*

İxracatçılar, Təlimatın tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmçinin, Təlimata uyğun xarici valyuta vəsaitlərinin (və ya mallann geriyə) respublikaya vaxtında və tam həcmdə köçürülməsini (gətirilməsini) mövcud qaydada təmin etmədikləri təqdirdə, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 216-cı maddəsinə uyğun müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

İxrac əməliyyatlarında malların Azərbaycan Respublikası gömrük ərazisindən çıxarılmasına gömrük orqanlan, bu mallann müqabilində valyuta vəsaitlərinin ödənilməsinə isə müvəkkil banklar nəzarət edirlər.

Təlimatın tələblərinin pozulması hallan aşkar edildiyi təqdirdə gömrük orqanları və müvəkkil banklar müvafiq tədbirlər görülməsi üçün aidiyyatı dövlət orqanlanna təqdimat verməlidirlər.

# MÖVZU 11. Gömrük işində qeyri-tarif tənzimləmələr

## İLİ. *Qeyri-4arif mshdudiyystlərinin t9snifatı*

Hər hansı iqtisadi fəaliyyət kimi malların idxalı və ixracı dövlət siyasəti obyekti sayılır. Dünya ticarətinin inkişafı prosesində bu siyasətin bir sıra vasitələri yaradılmış və bütün ölkələrdə istifadə edilir. Milli ərazi gömrük ərazisi elan edilir və gömrük sərhədi ilə əhatə olunur. Gömrük sərhədindən keçirilən mallar mütləq gömrük orqanlarında rəsmiləşdirilməlidir. Gömrük ərazisinə mallann idxal və ixracı müəyyən hallarda qadağan edilə və məhdudlaşdırıla bilər.

Dünya təcrübəsində qeyri-tarif məhdudiyyətlərinə münasibət kifayət qədər ziddiyətlidir. Ümumdünya ticarət təşkilatı rəsmi olaraq belə tədbirlərin ləğv edilməsi və müstəsna olaraq tarif üsulla- nndan istifadə edilməsi məsələsini qoyur. Həmin təşkilata üzvlük ərəfəsində olan Azərbaycan Respublikası üçün bu tələblərə münasibət mühüm əhəmiyyət kəsb etməkdədir.

Bununla bərabər tələblərin birmənalı şəkildə qəbulu digər məsələlərdə arzuolunmaz nəticələrə də gətirib çıxara bilər. Belə ki, Ümumdünya Ticarət təşkilatının, Tarif və ticarət üzrə Baş Sazişin (GATT) üzvü olan ölkələr xarici ticarətdə qeyri-tarif tənzimləmə metodlanndan həm əvvəl, həm indi istifadə etməkdədirlər. Bəzi qeyri tarif məhdudiyyətlərinin aradan qaldmlması sadəcə olaraq qeyri-mümkündür, belə ki, daxili iqtisadi siyasətin digər ölkələrlə iqtisadi əlaqələrinə təsirinin təcəssümü kimi çıxış edir. Bununla belə, beynəlxalq ticarət sistemi tərəfindən qanuniləşdirilmiş qeyri- tarif tənzimləmə tədbirləri, daha doğrusu xarici mallarm İdxalının kəskin artımı ilə milli iqtisadiyyata vurulan zərərin qarşısının alınması məqsədi güdən müdafiə tədbirləri, həmçinin xarici ixracatçılar tərəfindən qeyri-sağlam rəqabətin qarşısının alınmasına yönəlmiş digər tədbirlər mövcuddur.

İdxal əməliyyatlannda qeyri-tarif məhdudiyyətlər (QTM) - xarici mallann daxili bazara nüfuz etməsinin qarşısım alan məhdudlaşdırma - qadağan xarakterli tədbirlər kompleksidir. Bu tədbirlərin məqsədi yalnız idxal edən Ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi deyil, ham də milli sənayenin müdafiəsi, əhalinin həyatı və sağlamlığının, əfraf mühitin, əxlaqın, dinin və milli təhlükəsizliyin qorunmasıdır. Bundan başqa QTM ixrac əməliyyatlannda da istifadə edilir.

Birbaşa və dolayısı yolla xarici ticarəti tənzimləyən tədbirlər, adətən, səkkiz qrupa bölünür: tarif, para-tarif, qiymətlərə nəzarət, maliyyə, lisenziyalaşdırma, kəmiyyət nəzarəti, monopolist tədbirlər, texniki tədbirlər. ÜTT/QATT tövsiyələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq hal-hazırda Azərbaycanda bu tədbirlərin əksəriyyəti tətbiq edilmir. Lakin güman edilir ki, milli istehsalın inkişafı naminə və ölkənin İqtisadi təhlükəsizliyinin təminatı ilə əlaqədar olaraq onların istifadə dairəsi genişləndiriləcəkdir. Qeyri-tarif tənzimlənməsi sisteminin öyrənilməsi bu baxımdan məqsədə uyğundur.

Qeyri-tarif tədbirlərinin rəngarəng olmasına baxmayaraq onları iki böyük qrupa bölmək olar: iqtisadi və inzibati tədbirlər.

İqtisadi QTM-ə aşağıdakılar aiddir:

- xüsusi növ rüsumlar;
- müxtəlif vergi və yığımlar;
- idxal depozitləri;
- valyuta tənzimlənməsi tədbirləri.

İnzibati QTM daha çoxcəhətlidir:

- embarqo;
- lisenziyalaşdırma və kvotalaşdırma;
- ixracın məhdudlaşdınıması;
- monopolist tədbirlər;
- proteksionist məqsədlər üçün standart və texniki nonnalardan istifadə edilməsi;
- əlavə gömrük sənədləri və əməliyyatları,

İqtisadi məhdudiyyətlər bazar mexanizmi vasitəsi ilə təsir göstərərək idxal və ixrac mallarını bahalaşdınr, inzibati məhdudiyyətlər isə bazar münasibətlərindən başqa idxal mallarının

İqtisadi QTM tətbiq edildikdə istehlakçı öz seçimini özü müəyyən edir və daha bahalı idxal, yaxud ucuz milli mal alacağına qərar verir.

İnzibati QTM tətbiq edildikdə dövlət faktiki olaraq daxili bazarın mal strukturunu müəyyən edir, yəni daxili bazan həm idxalın təsirindən qoruyur, həm də çətin tapılan milli məhsulun çatışmazlığının qarşısım alır. Bu halda istehlakçı sərbəst mal

*A. Paratarif tədbirləri*

Paratarif tədbirləri gömrük sərhədindən keçirilən mallara tətbiq edilən elə ödənc və yığımlara deyilir ki, gətirilən malın dəyərini gömrük rüsumundan əlavə olaraq artırır (ya müəyyən faiz, ya da mal vahidinə əmsal).

Tarixən paratarif tədbirləri idxalçının malın gömrük tənzimləmələri üzrə xərclərinin ödənilməsi bazasında meydana gəlmişdir. Gömrük rüsumlarının və onunla bağlı olaraq fıskal gömrük gəlirlərinin aşağı düşməsi ilə dövlətin büdcə gəlirlərinin artırılmasmda paratarif tədbirlərə meyl etməsi təbii olur. Ümumiyyətlə idxal yığımlar, onlann ödənilməsinin sadələşdirilməsi və idxalçı ölkənin maliyyə qunımlannm maraqlannın təmin edilməsi məqsədilə bilavasitə gömrük orqanları tərəfindən tutulur. Bu vergi və yığımları, adətən, idxalçı ödəyir, lakin alqı-satqı müqaviləsi tertib edilərkən tərəfdaşlar tərəfindən nəzərə alınır.

Paratarif tədbirlərə aşağıdakılar daxildir;

1) gömrük əlavələri - ticarət-siyasi məqsədlərlə, büdcənin doldurulması, yaxud milli istehsalın müdafiəsi üçün tətbiq edilən əlavə vergi və rüsumlar;

2) əlavə yığmalar - daxili analoqu olmayan, idxal mallarından gömrük rüsum və vergilərindən artıq (əlavə) tutulan ödənclər. Onlar xarici ticarətlə bağlı fəaliyyətin müəyyən növlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulur. Bunlara, adətən, xarici valyutanın köçürülməsinə qoyulan vergi, idxal lisenziyası üçün yığım, liman yığımlan, statistik vergi, nəqliyyat vasitələrinə vergi aid edilir;

3) daxili (bərabərləşdirici) vergi və yığımlar - milli mallardan

ğımlar. Onlara ƏDV, aksiz, emissiya yığımlan, məhsula görə vergi, sair inzibati yığımlar aid edilir. Bərabərləşdirici vergilərin və yığımlann məqsədi xarici və milli eyni (və ya analoji) mallara bərabər vergi rejimi yaratmaqdır;

4) diskretloşdirilmiş gömrük qiymətləndirilməsi - gömrük rüsum və yığımlarının hesablanması üçün gömrük dəyərinin inzibati yolla müəyyən edilməsi praktikası.

*B. Qiymətlar üz9rind» tədbirləri*

Qiymətlər üzərində nəzarət tədbirləri daxili qiymətlərin stabilləşdirilməsi və ya səviyyəsinin saxlanılması məqsədi ilə, həmçinin xarici rəqiblərin əliəyri ticarət təcrübəsinin vura biləcəyi zərərin qarşısım almaq üçün tətbiq edilir.

Belə tədbirlərə aşağıdakılar aiddir:

1) qiymətlərin inzibati qaydada müəyyən edilməsi - idxalçı ölkənin hakimiyyət dairələri istehsalçı və istehlakçının daxili qiymətlərini nəzərə alaraq, qiymətlərin aşağı və yuxan hüdudlannı müəyyən edir, yaxud bu qiymətləri dünya bazar qiymətləri ilə bağlayırlar. Rəsmi qiymətlərin müəyyən edilməsi, minimal idxal qiymətləri və ya idxalın baza qiymətləri üsulundan istifadə olunur.

2) ixrac qiymətlərinin “könüllü" məhdudlaşdtnlması - ixracatçının öz mallarının qiymətlərini müəyyən səviyyədən aşağı endirmə- məyi dəstəkləməyə razı olduğu məhdudlaşdıncı bağlaşmalar;

3) sürüşkən yığımlar - idxal edilən kənd təsərrüfatı və əızaq mallarının idxal qiymətlərinin daxili qiymətlərlə eyni səviyyəyə gətirilməsi üçün nəzərdə tutulmuş əlavə ödənclər.

4) antidempinq tədbirlər - ixracatçıdan milli istehsalçılara vurulan zərərə görə kompensasiyanın tutulmasından ibarət olub, dem- pinq faktı və ondan irəli gələn ziyan aşkar edildikdə idxalatçı ölkənin müvafiq orqanı tərəfindən ixracatçının ticarət təcrübəsinin təhqiqatının yekunlanna görə tətbiq edilir. Antidempinq rüsumlar özünü doğrultmayan aşağı qiymətlərlə mal göndərişinin başlanğıc anından tutulur. Antidempinq ittihamlannın təşəbbüsçüləri kimi konkret məhsulun milli istehsalçıları çıxış edir;

5) Kompensasiya tədbirləri - əgər idxal olunan mallar subsidiyalaşdınlırsa və belə subsidiyalaşdınlma milli istehsala zərər vurduğunu təhqiqat təsdiq edirsə, əlavə maliyyə ödənişləri tətbiq edilir. Kompensasiya tədbirləri kompensasiya idxal rüsumları şəklində də ola bilər. Bundan başqa, çox zaman onlar qadağanedici hədlərə de çata bilir və ixrac qiymətlərini artırmaqla da aşmaq olmur.

K *Maliyyə tədbirhri*

Maliyyə tədbirlərinə idxalatçıların xarici valyutaya onlar üçün valyutanın qiymətlərinə, həmçinin ödənc şərtlərinə müdaxiləsini tənzimləyən tədbirlər aİd edilir. Bu tədbirlər idxalın dəyərini yüksəldə bilərlər. Bu kateqoriyaya QTM-ə aşağıdakılar aid edilir:

1) idxalın dəyərinin, eləcə də idxal vergisinin qabaqcadan ödənilməsi.

Bu tələblərə öncəliklə idxal depozitivlərinin, əvəzi ödənilən depozitlərin açılması, nağd ödəniş, gömrük rüsumlarının qabaqcadan ödənilməsi də daxildir;

2) valyuta məzənnələri çoxluğu.

Bu müxtəlif kateqoriyalı mallar üçün müxtəlif məzənnələrin müəyyən edildiyi dövlət tənzimlənməsi mexanizmidir. Rəsmi məzənnə, adətən, daha zəruri mallar üçün saxlanılır, digər mallar kommersiya məzənnəsi və ya xarici valyutanın auksionlar vasitəsi ilə alınması hesabına ödənilir.

3) xarici valyuta yığılmasına rəsmi məhdudiyyətlər.

Ölkə daxilində valyuta əməliyyatları aparılmasına müxtəlif icazə, viza və s. (onlann qadağan edilməsi də daxil olmaqla) alınmasını nəzərdə tutur.

4) ödənişə müddət müəyyən edilməsi, ödənc növbəliliyi.

Bu tədbirlərlə dövlət mallann göndərildiyi tarixdən idxal hesablamalarının bitməsinə qədər yol verilən minimal müddətləri müəyyən edir. Bu müddətlər adətən isteblak mallan və sənaye xammalı üçün 90, 180 və ya 360 gün, investisiya mallan üçün 2-5 il müəyyən edilir.

*Q. Ksmiyyət nə^rəti tadbirhri*

Kəmiyyot nəzarəti tədbirləri ilk növbədə idxal-ixrac əməliyyatlarının kvotalaşdırılması və lisenziyalaşdırılması deməkdir. Kvota- laşdırma (fiziki həcm və dəyər üzrə) və lisenziyalaşdırma (müəyyən malların göndərilməsi və ya gətirilməsinə, bəzən də müəyyən ölkolorə, yaxud onlardan ticarətinə xüsusi icazənin aimması) idxal vo ixracın ənənəvi qeyri-tarif tənzimlənməsi üsullandır, onlann məqsədi hər hansı malın idxal vo ya ixracını ümumilikdə, yaxud hor hansı ölkəyə məhdudlaşdırmaqdan ibarətdir. Bo tədbirlər, adətən, bir-biri ilə bağlıdır, çünki, lisenziyalaşdırma kvotanın fərdi id- xalatçıiara və ixracatçılara müəyyən həcm bitənə qədər lisenziya vermok yolu ilə bölüşdürülməsi mexanizmi kimi çıxış edir.

Kəmiyyət nəzarəti tədbirləri vasitəsi ilə dövlət səviyyəsində iqtisadi, xarici ticarət və hətta siyasi xarakterli məsələlər həll edilir: ölkə daxilində analoji rəqabət edən malların istehsalçı və istehlakçısının müdafiəsi, daxili bazarın stabilliyinin dəstəklənməsi, valyuta ehtiyatlarına qənaət, digər ölkələrdən qarşılıqlı güzəştlərin əldə edilməsi və s.

Bu qəbildən olan QTM-ni daha geniş araşdırmağa çalışaq.

1) Lisenziyalaşdınna - idxal və ixraca müvafiq hakimiyyət orqanlarının öz mülahizəsinə, yaxud hər hansı konkret meyarlara əsasən verdiyi xüsusi icazələrin (lisenziyaların) tətbiqidir. Beynəlxalq ticarətdə lisenziyalaşdırma rəngarəngliyi ilə seçilir. Lisenziyada idxal və ya ixracın həyata keçirilməsi qaydası da müəyyən edilə bilər. Lisenziyalaşdırma dünya təcrübəsində ticarətin arzuolunmaz həcmlərini müəyyən müddət ərzində məhdudlaşdırıldığı zaman həyata keçirilən müvəqqəti tədbir kimi təfsir edilir.

Xarici valyutadan səmərəli istifadə olunması zərurəti lisenziya- laşdınna üçün obyektiv əsas ola bilər. Bu yolla xarici ticarət və tə- diyyə balanslarının tarazlanmasına nail olunur.

Gömrük rüsumlarından istifadə edilmodikdo və ya onlann təsiri səmərəsiz olduqda lisenziyalaşdırma zərurəti meydana çıxır. Bu iş həm qarşılıqlı güzəşt əldə edilməsi, həm də diskriminasiya məqsədi

ma müvəqqəti tədbir hesab edildiyindən əvvəllər bağlanılmış dövlətlərarası ticarət sazişlərinə yenidən baxılmasını nəzərdə tutınur.

Lisenziyalar xarakterinə görə baş lisenziya, fərdi lisenziya və idxala xüsusi icazə şəklində olur.

Baş lisenziya - hər hansı şəxsə müəyyən mallann həcmi və dəyəri məhdudlaşdın İmadan idxalı hüququ verən daimi icazəyə deyilir. Lisenziyada, əgər belə məhdudiyyət nəzərdə tutulmuşsa, ölkələrin siyahısı göstərilir. Bəzən lisenziyada idxalı qadağan edilən mallar da göstərilir. Baş lisenziyalar malların siyahısı ilə birgə bu və ya digər ölkənin xarici ticarətə nəzarət məlumatlarını əks etdirən rəsmi nəşrlərdə dərc edilir.

Fərdi lisenziya - konkret mal növü (növləri) ilə bir ticarət əməliyyatına verilən birdəfəlik icazədir. Bu lisenziyada, həmçinin alıcı, miqdar, dəyər, mənşə ölkəsi barədə məlumatlar göstərilir. Fərdi lisenziya hər hansı şəxsin adına yazılır, məhdud müddəti olur və başqa şəxsə istifadə üçün verilə bilməz. Birdəfəlik lisenziya (diskret lisenziya) idxal nəzarəti siyahısına daxil edilən mallann ticarətin nəzarət altında olduğu ölkələrdən alınmasına görə verilir. Nadir hallarda mallann qeyri məhdud miqdarda gətirilməsinə görə açıq fərdi lisenziyalardan istifadə olunur.

Lisenzİyalaşdırmanın əsas tərkib elementi dövlət tərəfindən müəyyən müddət ərzində dəyər kvotalan qoyulmaqla və mallann nomenklaturasmı məhdudlaşdırmaqla idxal və ixraca nəzarətin təmin edilməsi, yəni kontingentləşdirmədir.

Kontingentləşdirmə GATT tərəfindən qadağan edilməsinə baxmayaraq ayn-ayn ölkələr, o cümlədən bir sıra İnkişaf etmiş ölkələr tərəfindən bu gün də tətbiq edilməkdədir. Adətən bu hallarda ölkələr hər hansı müstəsna hadisələrə istinad edirlər.

Yalnız müəyyən məqsədlər üçün - investisiya layihələri, ixracın inkişafı və s. - konkret mallann gətirilməsinə lisenziya verilə bilər. Lisenziyanın verilməsi dövlətin maraqlanndan irəli gətən hər hansı şərtlərlə əlaqələndirilə bilər.

Lisenziya ilə birgə, yaxud lisenziya əvəzinə İdxala xüsusi icazə verilə bilər.

İlkin icazə idxalı səhiyyə, yaxud təhlükəsizlik mülahizələri həmçinin, ətraf mühtin qorunması üzrə beynəlxalq müqavilələrə əsasən digər məsələlərə görə idxalı tənzimlənən mallar üçün verilir.

2) Kvotalaşdınna * fərdi, tarif, mövsümi, qlobal və digər faiz məhdudiyyətləri vasitəsi ilə idxalına icazə verilmiş malların fiziki həcm və ya dəyərinin maksimum hədlərini müəyyən edən kəmiyyət məhdudlaşdırılması tədbirləridir.

Fərdi kvotalar - idxalına icazə verilmiş malların ümumi miqdarı nın malgönderən ölkələr üzrə paylaşdın İmasını nəzərdə tutur. Tərtibat fomıasına görə belə kvotaları iki növə ayırırlar:

mütənasib kvotalar bütün kvotalar çərçivəsində keçən dövr (baza) ərzində idxalda hər ölkənin payına görə təyin olunur, ikitərəfli kvotalar bir tərəfin əks tərəfə ticarət-siyasi öhdəliklərinin qarşılığı olaraq verilir (bəzən ikitərəfli saziş bağlanır), seçmə kvotalar hər hansı bir ölkə və ya ölkələr qrupundan alman malların digər regionlardan alınanlara nisbətən məhdudlaşdırılması məqsədi ilə verilir.

Tarif kvotaları gömrük vergitutmasmm daha əlverişli rejimində müəyyən hocındə İdxala icazə verir. Bu həcmdən artıq idxal üçün daha az əlverişli rejim (idxalın faktik qadağanına qədər) tətbiq edilir.

Mövsümi kvotalar ilin müəyyən fəsillərində ölkə daxilində istehsalın yüksək olduğu dövrlərdə (ən çox kənd təsərrüfatı məhsulları üçün) tətbiq edilir. İdxalın müəyyən vaxt dövrü nəzərə alınmadan məhdudlaşdırılması konkretləşdirilməmiş kvotalar adlanır.

Qlobal kvotalar hər hansı malın müəyyən müddət ərzində və malgöndərən ölkələr arasında bölüşdürülmədən ümumi idxalının həcmini müəyyən edir. Belə yanaşma idxalatçıya mal göndərən ölkəni seçmək azadlığı verir.

Faiz kvotaları bəzi hallarda idxal kvotaları ixracın həcmindən faiz nisbətində müəyyən edİlİr.

Kvotalar, həmçinin, milli istehsalı stimullaşdırmaq məqsədi ilə bir malın daxili bazarda tədarük həcmindən faizlə hesablana bilər.

Səhiyyə, təhlükəsizlik. Ətraf mühitin qorunması mülahizələrinə görə idxalı nəzarətdə olan mallara da belə kvotalar müəyyən edilə bilər

3) Müəyyən bir malın idxalının qadağan edilməsi tamamilə və istisna olmadan da tətbiq edilə bilər. Müvəqqəti və mövsümi qadağanlar qoyulması da mümkündür.

Lisenziya verilməsindən imtina edilməsi (adətən, tədiyyə balansı mülahizələrinə görə) idxala faktiki qadağan kimi qiymətləndirilə bilər. Bəzi hallarda ölkənin ticarət balansında böyük kəsiri olduğu dövlətlərdən idxala qadağan tətbiq edilə bilər.

Müəyyən bir ölkədən idxal və ixraca (ümumilikdə xarici ticarətə) qadağan qoyula bilər ki, buna da embarqo deyilir. Bu hal məcburi tədbir olub beynəlxalq təcrübədə qəbul edilmişdir, prinsipial xüsusiyyətlərə malik olub açıq və gizli (örtülü) formalarda edilə bilər. Belə qadağanın açıq forması adətən BMT-nin qərarlarına əsaslanır və xarici ticarətin tamamilə kəsilməsini nəzərdə tutur.

Örtülü qadağanlara xarici gəmilərin daxilİ sulara buraxılmaması və ya ayrı-ayn idxal mallarının ölkənin pərakəndə satış şəbəkəsinə buraxılmasım aid etmək olar.

4) İxracın məhdudlaşdırılması barədə sazişlər güzəşt (kompromis) nəticəsi olub ixracatçının ixrac həcmini "könüllü olaraq" idxalatçının məcburi tədbirlərini gözləmədən məhdudlaşdırmaq barədə razılığıdır.

Belə sazişlər həm dövlətlər səviyyəsində, həm də ayn-ayrı istehsal sahələri səviyyəsində bağlana bilər. Bu tipli həm ikitərəfli, həm də çoxtərəfli sazişlər ola bilər.

*D, Monopolist (inhisar) tədbirhr*

Monopolist tədbirlər dedikdə təsərrüfat subyektlərinin müəyyən qrupuna müstəsna hüquqlar verən tədbirlər nəzərdə tuıulur. Monopoliya, adətən, idxalın ixraca münasibətini nəzarətdə saxlamaq hesabına tədiyyə balansının tarazlığa gətirilməsi problemini həll edir. Belə tədbirlərin başlıca növləri aşağıdakılardır:

1) müəyyən malların idxalına dövlət inhisan;
2) milli müəssisələrin xidmətindən məcburi istifadə.

Dövlət inhisarmın bariz nümunələrinə İkinci Dünya müharibəsindən əvvəlki Almaniyanı və keçmiş Sovetlər İttifaqını

*E) Texniki tsdbirhr*

Texniki tədbirlər malın keyfiyyətinin, tohlükəsizliyinin, yaxud İnzibati şərait, terminologiya, simvollar, sınaq və sınaq üsulları, qablaşdırmaya tələblər, markaIanma da daxil olmaqla xüsusiyyətlərinin nəzarətinə əsaslanan QTM tədbirlərinə deyilir.

Texniki tədbirlərin aşağıdakı növləri var:

I. Texniki tənzimləmə, yəni məhsula bilavasitə və ya dolayı yolla texniki tələblər müəyyən edilməsi. Belə tədbirlərə: məqsədi insan və heyvanların həyat və sağlamlığının qorunması olan sanitarıya tənzimlənməsi, bitkilərin qorunmasına yönəlmiş fıtosanitar tənzimlənməsi, ətraf mühitin və təbiətin qorunması, insanların təhlükəsizliyi, milli təhlükəsizlik tədbirləri aid edilir.

Bu tədbirlər müvafiq təlimatlar hazırlanmaqla həyata keçirilir. Təlimatlar gömrük orqanlarının nəzarət fəaliyyətini reqlamentləşdirir.

Hazırkı şəraitdə texniki tənzimlənmənin bir neçə növü var:

a) ətraf mühiti çirkləndirən xammal və materialların idxalının qadağan edilməsi, yaxud məhdudlaşdırılması;

b) hazır məhsullara - istismarı atmosferin və havanın çirklənməsinə gətirib çıxaran sənaye avadanlığı, nəqliyyat vasitələrinə və s. münasibətdə proteksionist tədbirlərdən istifadə edilməsi. Məsələn, 1992-ci ildən Qərbi Avropada təyyarə və yük nəqliyyatı üçün səs- küyün yol verilən səviyyəsi və yanmış mühərrik qazlarının tərkibi üzrə sərt normalar müəyyən edilmişdir. Bundan başqa neftin sızmasının qarşısının alınması məqsədilə neftdaşıyan tankerlərin ikiqat dib (döşəmə) və yükləmə-boşaltma qurğuları ilə təchiz edilməsi tələbi də bu qəbildəndir.

c) istehlakçının maraqlarını malın defekti və istifadə zamanı mümkün olan ziyandan qorunmaqla malın keyfiyyətinə tələblər. Bunlar ilk növbədə məişət elektrotexnikası, tİbb preparatlan, yeyinti məhsulları, uşaq mallarına və s. aiddir.

Bir sıra Ölkələrdə ilk növbədə kənd təsərrüfatı mallarının, ərzaq mallarının, ətriyyat matlarının idxalına yönəlmiş, bu mallann istehsalında boyaqların, zərərli əlavələrin, heyvandarlıqda hormonlann istifadəsini məhdudlaşdıran səciyyəvi sanitar-baytarlıq normaları qüvvədədir.

Milli və beynəlxalq standartların müxtəlifliyi, həmçinin istehsal və onlann parametrlərinin qiymətləndirilməsində müxtəlif ölçü sistemlərinin tətbiqi dövlətlər tərəfindən məqsədyönlü şəkildə xarici mallara qarşı və milli istehsalçıların mənafeyinin müdafiəsi məqsədi ilə qeyri-tarif maneələrin yaradılması üçün istifadə edilir. Bu tədbirlər dünya ticarət dövriyyəsi ndəki malların 30 faizini əhatə edir.

2. Göndərilmədən öncə təftiş. İdxalçı ölkənin sifarişi ilə müfəttiş-fırma malın ixrac edən Ölkədən göndərilməsindən öncə onlann miqdarının, keyfiyyətinin və qiymətinin məcburi araşdın İmasını təşkil edir. Qiymət nəzarəti göndərilən malın qiymətinin rüsum və ödəmələrdən qaçmaq niyyəti ilə artırılması və ya azaldılmasının qarşısım almaq məqsədi ilə keçirilir.

3. Xüsusi gömrük rəsmiyyətçiliyi. Buraya gömrük orqanlarının gömrük yük bəyannaməsində göstərilənlərdən əlavə məlumat tələbi, yalnız müəyyən edilmiş gömrük buraxılış məntəqələrindən istifadə edilməsi və s. daxildir.

Stabil iqtisadi şəraitdə inzibati vasitələr iqtisadi təsir vasitələrinin səmərəliliyi kifayət qədər olmadıqda müvəqqəti tətbiq edilən əlavə tədbirlər hesab edilir. Ancaq iqtisadi tənəzzül və iqtisadiyyatın tarazlığının pozulduğu zamanlarda onlar digər dövlətlərlə xarici ticarət əlaqələrinin tənzimlənməsində əsas vasitəyə çevrilirlər.

Qeyri-tarif məhdudiyyətlərin xarici ticarətə nüfuz dərəcəsi tarif tədbirlərində olduğundan daha çoxdur. Qeyri-tarif xarakterli maneələr müxtəlif ölkələrin ticarot-siyasi münasibətlər sistemində müxtəlif rol oynayır və çox zaman üstüörtülü şəkildə fəaliyyət göstərir. Hökumət tərəfindən müəyyən edilən tarif məhdudiyyətlərindən fərqli olaraq QTM-in bəziləri müxtəlif dövlət və yerli idarəetmə strukturları tərəfindən qoyula bilir. QTM kateqoriyalarından biri müdafiə tədbirləridir. Onlann bir qismi; idxala kəmiyyət məhdudiyyətləri; gömrük rəsmiyyətçiliyi və sənədləri; gömrük, fraxt vo liman yığımları və s. sərhəddə istifadə edilir və nisbətən aşkar xarakter daşıyır, tətbiqi isə adətən, ticarət müqavilələri və müxtəlif beynəlxalq, sazişlərlə tənzimlənir.

Bu baxımdan belə QTM gömrük tarif tədbirlərinə daha yaxındır və onlarla birləşir.

QTM-itı digor qismi, malın qiymətinə təsir edən daxili iqtisadi tədbirlər: vergilər, aksiz yığımları, kreditlərin faiz stavkaları, subsidiyalar, həmçinin mallann istifadəsini müəyyən edən inzibati sərəncamlar, texniki norma və standartlar isə xarici mallann daxili bazara nüfuzunu məhdudlaşdıran örtülü proteksionist vasitələr hesab edilir. Çünki belə tədbirlər rəsmi olaraq idxal əleyhinə yönəlməmişlər və bəzi mallann istifadəsinin müxtəlif inzibati və texniki qaydalarını müəyyən edirlər, xarici mallan yerli mallarla eyni səviyyəyə gətirirlər. Bununla bərabər, belə tədbirlər mahiyyətcə fıskal, yaxud inzibat diskhminasİya rejimi yaradır və xarici mallara münasibətdə daxili istehsalçıların mövqeyini möhkəmləndirir.

Qeyd etmək lazımdır ki, gömrük rüsumlannın aşağı salınması ilo ticarət siyasi məqsədlərlə vergİ sisteminin istifadə edilməsinin əhəmiyyəti artır. Məsələn, İnkişaf etmiş ölkələr üçün vergi stavkalannın səviyyələrində, onların alınması üsullarında vergiqoyma strukturunda fərqlər əvvəllər gömrük rüsumlannda olan fərqlərin rolunu oynayır.

### XİF-də qeyri-tarif məhdudlaşdırma sistemi



### *11.2. Dünya tscrühasində QTM vs onların tətbiq sahələri*

**XX əsrin ortalarında xarici iqtisadi fəaliyyətin tənzimlənməsində idxalın kəmiyyət məhdudlaşdırılması, həmçinin valyuta məhdu-laşdırıiması mühüm yer tuturdu. Sosialist sistemi çıxılmaqla dünya üzrə xarici ticarət dövriyyəsinin əksər hissəsinə kəmiyyət məhdudlaşdırılması tətbiq edilirdi. Əsrin ikinci yansından başlayaraq inkişaf etmiş ölkələr bu məhdudiyyətlərin tətbiq sahələrini kiçiltməyə və onlardan istifadənin ümumi prinsiplərini yaratmağa başladılar. Bunlar GATT sazişi əsasında təşəkkül tapdı.**

**Ticarət-siyasi və gömrük tənzimlənməsinin ağırlıq mərkəzi inkişaf etmiş ölkələrdə tarif tədbirlərinə doğru yerini dəyişməyə başladı. Buna görə də bir tərəfdən gömrük tarifləri azaldılır, idxala kəmiyyət məhdudiyyətlərinin tətbiqi dairəsi kiçilir, digər tərəfdən isə çevik daxili-vergi və yığım sistemi, sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrinin subsidiyalaşdırılması, inzibati norma və rəsmiyyətçiliklər və i.a. daha geniş tətbiq edilir.**

**Əksər inkişaf etmiş ölkələrdə müdafiə tədbirlərindən İstifadəyə tədrici dönüş artıq 60-cı illərdən hiss edilməyə başladı. QTM ticarət siyasi vasitələr arsenalında ilk yerlərdən birini tutdu. Bu ərəfədə dünyanın 19 inkişaf etmiş ölkəsi QTM-in 2 mindər artıq növündən istifadə edirdi.**

**Xarici ticarətin tənzimlənməsinin maliyyə tədbirləri inkişaf etmiş ölkələrdə indi əvvəlki rolunu oynaya bi İm İr.**

**90-cı illərin əvvəllərinə qədər ixracatçılar tərəfindən əldə edilən valyutanın məcburi satışı təcrübəsi Avropa Birliyinin bir sıra ölkəsində - Fransa, İtaliya, İspaniya, Portuqaliya, Danimarka, Belçikada saxlanılmışdı.**

**Valyuta nəzarətinin mövcud sisteminə görə ixrac üzrə ödənişin təxirə salınması və idxal üzrə avansın verilməsi 2 ildən artıq olduqda rəsmi icazə tələb edilir. Dünyada avtomatik lisenziyalaşdırma və monitorinq kifayət qədər geniş tətbiq edilir. Bəzi hallarda onlar real müdafiə tədbirləri tətbiq ediləcəyindən xəbər verirsə, digər hallarda müəyyən bazara dövlət rəsmilərinin marağını (məsələn, ya-**

nmkeçİriciləritı ticarətində Amerikanın mövcud sazişində olduğu kimi) ifadə edir. Kəmiyyət nəzarəti tədbirlərinin tətbiqi çoxcəhətli olub, GATT sazişinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Qeyri-avtomatik (sadə) lisenziyalaşdırma tədbirləri təkcə kvota-laşdınlan mallan əhatə etmir. Müəyyən mallann idxalına xüSusi icazə zərurəti - daxili bazarın müdafiəsi üçün geniş tətbiq edilən üsuldur. Məsələn, ABŞ və Kanadada təbii qazın idxalı lisenziyalaş- dınlır. Lakin belə lisenziyalaşdırmanm əsas obyekti kənd təsərrüfatı və yeyinti sənayesi məhsullarıdır.

Müəyyən mallann idxalına dövlət inhisan hələ də tətbiq edilməkdədir. Məsələn, Yaponiyada duz, düyü, buğda, arpa, yağlar, süd tozu, süd konsentratlan, etil spirti 90%-dən yuxan, xam ipək idxalı dövlət inhisarmdadır.

Beynəlxalq miqyasda standartlann unifikasiyası cəhdlərinə baxmayaraq xarici mallann idxalına texniki maneələr qalmaqdadır. Ümumdünya ticarət təşkilatı və digər beynəlxalq sazişlər texniki tələblərin maksimum dərəcədə sadələşdirilməsini tələb edir ki, ticarətə maneələr aradan qalxsın.

Gömrük əməliyyatlarının hannonikləşdirilməsi Ümumdünya Gömrük Təşkilatı çərçivəsində həyata keçirilir. Bu sahədə ÜGT tövsiyələri aşağıdakılardır:

- gömrük xidmətləri tərəfindən məqsəd və onlann həyata keçirilməsi üçün vasitələrin müəyyən edilməsi;
- gömrük əməliyyatlannın təftiş edilməsi, səmərəli olmayan və artıq əməliyyatlann ləğv edilməsi;
- gömrük sənədlərinin elektron daşıyıcılar ötürülməsi daxil olmaqla informasiya texnologiyasından geniş istifadə edilməsi;
- gömrük statistikası əməliyyatlannın mal buraxılışından ayn apanıması;
- seçmə nəzarətin tətbiq edilməsi.

Qeyri-tarif məhdudiyyətlər sistemi 4 saylı sxemdə göstərilmişdir.

Məlum olduğu kimi, tariflər xarici mallann daxili bazarda yalnız dolayı yolla məhdudlaşdınlmasma gətirir. İdxal gömrük vergitut-ması hesabına bahalaşmış olur. QTM isə, bahalaşma effektindən başqa birbaşa maneələr müəyyən edir, idxal və ya daxili istehlak üçün miqdar və qiymət üzrə limitlər müəyyənləşdirir.

Əgər tarif siyasətində idxalın bahalaşdınıması malın qiymətinə rüsum əlavə edilməsi hesabına əldə edirdisə, kvota və lisenziyaların tətbiqi idxal təklifini azaldır, bu isə bazarda tələbin ödənilmə- məsi hesabına qiymətlərin artmasına gətirir. Beləliklə, artıq bu funksiyanın yerinə yetirilməsində QTM tərəfdən daha effektiv olur.

Ən mühümü isə odur ki, əgər gömrük tarifi idxal edilən xarici malların həcmini idxal qiymətləri səviyyəsi ilə tərs mütənasib dəyişirsə, kvota və lisenziyalar idxalı müəyyən bir səviyyədə saxlayır, istehlakın artımı ilə onun artmasına imkan vermir.

İdxalın bahalaşdın İmasına və ixtisarına, həmçinin, daxili vergi-qoymanın diskriminasiya yönlü quruluşu və paratarif baryerlər də təsir edir,

QTM tariflərdən daha çoxtərəfli olması ilə seçilir. Belə ki, QTM həm gömrük rüsumuna cəlb edilən, həm də^edilməyən mallara tətbiq olunur. Bundan başqa QTM gömrük ödənclərindən fərqli olaraq təkcə gömrük sərhədini əhatə etmir, malın bütün hərəkətində onu müşayiət edərək, rəqabət qabiliyyətinə təsir edir.

Beləliklə, qeyri-tarif tənzimlənməsinin inkişafı xarici ticarət sahəsində iqtisadi siyasətin çevik, operativ və güvənli vasitələrlə to-min edilməsi zərurəti ilə bağlıdır.

Ardıcıllıq, çeviklik və digər xüsusiyyətlər qeyri-tarif məhdudiyyət-lon müasir şəraitdə dövlət siyasətinin ən əlverişli vasitələrinə çevirir.

Məsələn, idxal kvotaları imkan verir ki, daxili bazara buraxılacaq xarici məhsulun dəqiq miqdarı müəyyən edilsin: İngiltərədə kartofun idxalına kvotalar ölkədəki məhsuldarlığa görə müəyyən edilir, Avstriyada kök və çiyələyə mövsümi məhdudiyyətlər yerli məhsulu maneəsiz satmağa imkan yaradır.

Məlum olduğu kimi, vacib məhsullarla daxili tələbatın yerli mallar hesabına təmini ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İsveçrənin strateji doktrinasının tərkib hissəsidir. Ona görə də bu ölkələrdə hətta rentabelli olmayan sahələr də bilavasitə, yaxud qiymətlərin "dəstəklənməsi” hesabına subsidiyalaşdırılır. Bunun üçün vəsait isə idxal edilən kənd təsərrüfatı məhsullanna vergilər hesabına təmin edilir.

MÖVZU 12. Gömrük statistikası

**Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi xarici ticarət əməliyyatlarının uçotu, göstəricilərinin qeydiyyatı və analizi olmadan gözlənilən səmərəni verə bilməz. İqtisadiyyatda, xüsusilə də xarici ticarətin iqtisadiyyatında obyektiv və subyektiv amillərin, qanunauyğunluqların, təsadüflərin təsirinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu amillərin təsirini müəyyən etmək, iqtisadiyyatın idarə edilməsi və tənzimləmnəsini təşkil etmək üçün statistikanın' rolu əvəzsizdir.**

**Statistika elmdir. Statistika dedikdə bu və ya digər proses yaxud hadisələrin ölçülərini, səviyyəsini və həcmini səciyyələndirən rəqəmlər qrupu başa düşülməlidir.**

**Statistika ilə uçot qarışdırılmamalıdır. Müxtəlif hadisələr, faktlar, hallar müəyyən yazılar şəklində iz qoyur. Az-çox əhəmiyyəti olan iqtisadi faktlar qeyd olunur. Məsələn, malın gömrük sərhədindən keçirilməsi yük gömrük bəyannaməsində öz əksini tapır. Ayrı-ayrı faktların qeydiyyatına uçot deyilir. İqtisadiyyatda uçot operativ, mühasibat və statistik məqsədlərə xidmət edir.**

**Operativ uçot yalnız operativ məqsədlər üçün istifadə edilir.**

**Mühasibat uçotu maddi və maliyyə resurslarının hərəkəti faktlarım əks etdirir və mülkiyyətin qorunmasına xidmət edir. Məsələn, anbardan mal buraxılışı qaimə əsasında həyata keçirilir. Əgər operativ uçot əsasən natural xaraketer daşıyırsa, mühasibat uçotu dəyər xarakterli olur.**

**Statistik uçot faktların elə qeydiyyatıdır ki, hər faktın ayrı-ayrılıqda yazılması ilə həmin faktın sadəcə qeydiyyatı deyil, faktların ümumi məcmusu haqda təsəvvür əldə edilə bilsin. Beləliklə, uçotu statistika ilə eyniləşdinnək, qarşı qoymaq olmaz, çünki uçot statistik tədqiqat üçün informasiya bazası xarakteri daşıyır.**

**Statistika elm kimi - kütləvi, təsadüfi hadisə və proseslərin qanunauyğunluqlarını öyrənən sahələr sistemidir.**

7. ***Statistika latınca "status" - hal sözündan amalə galmişdir***

Xarici iqtisadi əlaqələrin statistikası xarici ticarətin həcmi və strukturunu (mal növləri və istiqamətlər üzrə), idxal və ixracın tərkibini; birgə müəssisələrin fəaliyyəti və istehsal kooperasiyasının, elmi-texniki əməkdaşlığın, beynəlxalq daşımalar və turizmin və> ziyyət və inkişafını öyrənir, beynəlxalq rəqabət qabiliyyətini tədqiq edir, həmçinin digər funksiyaları yerinə yetirir. Bazar iqtisadiyyatına keçilməsi ilə və xarici iqtisadi əlaqələrin yenidən qurulması ilə əlaqədar olaraq, statistik göstəricilərin beynəlxalq səviyyədə qarşılaşdın İması qabiliyyətini təmin etmək və xüsusilə də statistika praktikanın milli hesablar sisteminin tətbiq edilməsi məqsədilə milli statistikanın beynəlxalq standartlar səviyyəsinə qaldırılması zərurəti meydana gəlir.

Xarici iqtisadi əlaqələrin statistikasında əsas məsələ ölkənin xarici iqtisadi fəaliyyətinin vəziyyəti və inkişafı barədə onu kəmiyyət və keyfiyyət məlumatlarını vəhdət şəklində təqdim etməkdir.

Xarici iqtisadi əlaqələrin statistikasında uçot obyektləri olaraq, ölkənin İdxal və ixrac əməliyyatlarının tərkib hissəsi olan mal ve xidmətlər götürülür. Xarici iqtisadi əlaqələrin statistikası gömrük statistikasım və xarici iqtisadi fəaliyyətdə xidmətlərin statistikasım özündə birləşdirir (sxem ).

*Xarici iqtisadi*
*əİaqahrin statistikası*

*Gömrük statistikası*

*Xarici iqtisadi foaliyyatda*
*xidm»tl9rin statistikası*

*Xarici ticarətin*
*gömrük statistikası*

*Xüsusi gömrük*
*statistikasi*

Gömrük Məcəlləsinə (10-cu maddəsinin 11-ci bəndi və 206-209-cu maddələri) görə gömrük statistikası xarici ticarətin gömrük statistikası və xüsusi gömrük statistikasına bölünür.

**Xarici ticarətin gömrük statistikasının müşahidə və öyrənmə predmeti ölkənin xarici ticarət dövriyyəsi, yəni mallann miqdar və dəyərlə ifadə olunmaqla ixrac və idxalı, həmçinin bu dövriyyənin coğrafi istiqamətləridir (“mal ölkə”, “ölkə mal”).**

**Gömrük Məcəlləsinin 17-ci maddəsinə görə mallar dedikdo - istənilən daşman əmlak, o cümlədən valyuta, valyuta sərvətləri, elektrik və digər enerji növləri, həmin anda istifadədə olan beynəlxalq daşınma vasitələri istisna olmaqla nəqliyyat vasitələri başa düşülür.**

**Bundan başqa, xarici ticarətin gömrük statistikasında:**

**- ödənc vasitəsi kimİ istifadə edilməyən qızıl, gümüş və başqa qiymətli metalların ixracının (idxalının);**

**- dövriyyədə olmayan qiymətli kağızların, banknot və pulların ixracının (idxalının);**

**- BMT-nin texniki yardım fonduna payı, həmçinin, bağışlama və əvəzsiz yardım kimi verilən malların;**

**- xarici gəmilərin, təyyarələrin və yük avtomobilləri üçün satılmış (digər ölkələrdən Azərbaycanın vəsaitlərinə alınmış) bunker yanacağı, ərzaq və materialların uçotu aparılır.**

**Malların gömrük sərhədindən keçirilməsi ilə bağlı bir sıra əməliyyatlar xarici ticarət dövriyyəsinə daxil edilmir və təbii ki, gömrük statistikası ilə uçotu aparılmır.**

**Bunlar aşağıdakılardır:**

1) **bankların qarşılıqlı hesablaşmalann tənzimlənməsində istifadə etdiyi, tədavüldə olan valyuta qiymətləri (o cümlədən pul, qızıl);**

2) **girov əşyalar və digər öhdəlik təminatları;**

3) **dəyəri statistik müşahidə limitindən aşağı (100 eküdən az) olan mallar;**

4) **xarici dövlətlərin, beynəlxalq təşkilatların nümayəndəliklərinin diplomatik və konsul təmsilçiliklərinin xidməti istifadəsi üçün nəzərdə tutulan mallar;**

**- kommersiya əməliyyatlarının predmeti olmayan mallar:**

**- fiziki şəxslər tərəfindən qeyri-kommersiya məqsədləri üçün gətirilən (aparılan) mallar;**

**- mərasim əşyaları;**

-tbtoqrafıyalar, plyonkalar, layihələr, kalkalar, olyazmatan, işgüzar kağızlar, inzibati blanklar, fəxri fərmanlar, beynəlxalq məlumat mübadiləsinäə nəzərdə tutulmuş daşıyıcılar (o cümlədən xarici standartlar, texniki şərtlər və s.);

-daimi yaşayış yerlərinə köçən şəxslərin, qaçqınların, məcburi köçkünlərin malları;

5)dövlət sərhədini keçmədən həyata keçirilən əməliyyatlara ail mallar (o cümlədən Respublikanın əsas ərazisindən Naxçıvan Muxtar Respublikasına və əksinə xarici dövlətlərin ərazisindən keçməklə göndərilən mallar);

- beynəlxalq daşımalarda istifadə olunan dəniz və hava gəmiləri;
- açıq dənizdə və dənizin dibindən əldə olunan məhsullar.

Malların idxal və ixracına statistik müşahidə Yük Gömrük Bəyannaməsinin göstəriciləri əsasında həyata keçirilir. Xarici ticarətin gömrük statistikası idxal və ixracın uçotunu natural (miqdar) və dəyər ifadələri ilə aparır.

Miqdar uçotu beynəlxalq dövriyyəni daha dolğun əks etdirir. Beynəlxalq ticarətdə malların əksəriyyəti çəki vahidləri ilo Ölçülür; ton, sentner, kiloqram, ingilis funtu və s. Bu halda mallar ya brutto, ya da netto çəki ilə hesablana bilir.

Brutto çəki - malın qabı (tarası) ilə birgə çəkisidir.

Ne^to çəki - malm daxili və xarici qabsız (tarasız) təmiz çəkisidir.

Xarici ticarətin gömrük statistikasında malların miqdar uçotu netto çəki ilə aparılır.

Ölçülmənin çəki vahidlərindən başqa miqdar uçotu mallann xüsusiyyətlərindən asılı olaraq digər spesifik ölçü vahidlərindən də istifadə olunmasım nəzərdə tutur. Məsələn, ayaqqabılann uçotu cütlərlə, taxta materiallarının - kub metrlə, canlı heyvanlann - baş sayı ilə, avtomobil - kub metrlə, avtomobil və dəzgahlann ədədlə və s. Bu hallarda statistik uçot əlavə ölçü vahidləri ilə ifadə olunan miqdarlar üzrə apanlır.

Qeyd edildiyi kimi, xarici ticarətin gömrük statistikası ıdxal-ixrac mallarının təkcə kəmiyyət deyil, həm də dəyor göstəricilərini özündə oks etdirir. Alıcı və satıcının malın bir ölkədən digərinə

göndərilməsi üzrə öhdəlikləri nəzərə alınmaqla onlar arasında müqavilə mal göndərişinin 13 kommersiya şərtləri növünü əks etdirir. Mal göndərişinin kommersiya şərtlərindən asılı olaraq, satıcının təqdim etdiyi fakturada (invoys) qiymət müxtəlif olacaqdır. Satıcı invoysa o məsrəfləri daxil edir ki, göndərişin kommersiya şərtində göstərilmiş olsun.

Daha öncə göstərildiyi kimi Gömrük Statistikasının ikinci bölməsi xüsusi gömrük statistikasıdır. Xüsusi gömrük statistikasının obyektləri aşağıdakılardır:

1) xarici ticarətin gömrük statistikasında nəzərə alınan, gömrük rejimləri növləri üzrə mallann gətirilməsi və çıxarılmasını xarakterizə edən bəyanetmənin statistikası;

2) gömrük ödəncləri statistikası (növlər üzrə);

3) valyuta nəzarəti statistikası (daxil olma müddətləri və qazanc məbləğləri nəzərə alınmaqla);

4) gömrük qaydalarının pozulması və qaçaqmalçılıq halları, müsadirə olunan malların dəyəri və alınmış cərimələrin məbləğini xarakterizə edən müsadirə statistikası;

5) beynəlxalq poçt göndərişlərinin statistikası;

6) nəqliyyat vasitələrinin uçotunu əks etdirən beynəlxalq daşımalann statistikası;

7) Azərbaycan Respublikasının sərhədindən keçən fiziki şəxslərin uçotunu əks etdirən sərnişin dövriyyəsi statistikası.

Sxemdə göstərildiyi kimi xarici iqtisadi əlaqələrin statistikasında xidmətlər üzrə ticarət də əks etdirilir.

Xarici iqtisadi sahədə xidmətlər dedikdə, özünəməxsus xüsusiyyətlərinə görə gömrük nəzarətindən keçməyən və yük gömrük bəyannaməsi ilə rəsmiləşdirilə bilməyən xarici ticarət əməliyyat- lan başa düşülür.

Xidmətlərlə ticarət maddi və qeyri-maddi olmaqla iki qrupa bölünür.

Maddi xidmətlərin idxalına (ixracına) aşağıdakılar daxildir;

- nəqliyyat xidmətləri;
- layihə-axtarış işləri;

- tikinti-quraşdımıa İşləri;
- **anbar təsərrüfatı xidmətləri;**
- **rabitə xidmətləri;**
- xarici nəqliyyat vasitələrinin, avadanlığın, cihazların təmiri, habelə ölkə ərazisində və ondan kənarda apanlan təmir işləri (ixraca hesablanır). O cümlədən - Azərbaycanın nəqliyyat vasitələrinin, avadanlığının, cihazlannm xaricdə təmiri (idxalda əks etdirilir);
- poliqrafiya işləri və s.

Qeyri-maddi xidmətlərin idxalına (ixracına) aşağıdakılar atd edilir:

- kommersiya xidmətləri (maliyyə araçılığı, sığorta, bina, maşın, avadanlıq və nəqliyyat vasitələrinin icarəsi üzrə işlər, elmi-tədqiqat, axtarış, reklam sahəsində xidmətlər, hüquq xidmətləri və s.)
- təhsil sahəsində xidmətlər;
- səhiyyə sahəsində xidmətlər;
- tullantıların məhv edilməsi, sanitar emalı və başqaları;
- istirahətin təşkili, turizm, mədəni və idman tədbirləri üzrə xidmətlər.

### *12.1. Xarici ticarətin gömrük statistikasmm metodologiyast*

Xarici ticarətin gömrük statistikasının müddəalarının uniAkasiyası və uyğun məlumat mübadiləsini sadələşdirmək məqsədi ilə MDB üzv dövlətlərinin hökumət başçılarının şurası 1994-cü il dekabrın 9-da “MDB üzv-dövlətlərinin xarici ticarətin Gömrük Statistikasının Vahid Metodologiyası”nı təsdiq etmişdir. MDB ölkələrinin dövlətlərarası iqtisadi münasibətləri, bu ölkələrin dünya bazarında idxal-ixrac əməliyyatları kimi, ikitərəfli əlaqələrə əsaslanır.

Vahid metodologiyanın tətbiq edilməsi MDB ölkələrində beynəlxalq metodoloji standartlara, mal nomenklaturalanna və iqtisadi təsnifatlandırıcılara əsaslanan yeni informasiya sistemlərinin yaradılması üçün zəmindir.

Vahid metodologiyanın istifadə edilməsi MDB ölkələrinin həm dünya bazarındakı idxal-ixrac eməliyyatlanna, həm do öz aralann-

dakı mal mübadiləsinə statistik müşahidədə xarici ticarət siyasətinin işlənib hazırlanması bazarlarda konyunkturanın analizi, milli gömrük siyasəti ilə şərtlənən digər məsələlərin həlli üçün vacib olan səhih məlumatlar əldə etməyə imkan verir.

Azərbaycanm xarici iqtisadi əlaqələrinin inkişafı xarici ticarət statistikasının təkmilləşdirilməsini tələb edir. Bu sahədə əsas istiqamətlərdən biri xarici ticarətdə statistik göstəricilərin müqayisə edilmə imkanmın yaxşılaşdınimastdır. Bu problemin həlli, eləcə də ölkə iqtisadiyyatının dünya təsərrüfat əlaqələrinə inteqrasiyası üzrə səylərin fəallaşdıniması xarici ticarətin gömrük statistikasının unifıkasİyalaşdınlmasmı tələb edir.

Xarici ticarət üzrə göstəricilərin yığılması, hesablanması üzrə metodologiya olmadan xarici ticarətdə baş verən prosesləri öyrənmək mümkün deyil. Bundan başqa metodologiyanın xüsusiyyətləri Ölkələr arasında xarici ticarət göstəricilərinin qarşılıqlı müqayisəsindəki çətinliklərin səbəblərini açmağa imkan verir.

Metodologiyada istifadə olunan əsas anlayışlar Gömrük Məcəlləsinin 17-ci və 25-ci maddələri ilə müəyyən edilmiş anlayışlardır.

Beynəlxalq statistika təcrübəsində idxal-ixrac əməliyyatlarının uçotunun iki sistemi - “ümumi” və “xüsusi” qəbul edilmişdir.

Bu iki sistem arasındakı fərq bu əməliyyatların aparıldığı anın təyin edilməsi faktına əsaslanır.

Uçotun “ümumi” sistemində idxal və ixracın qeydiyyatı malın dövlət sərhədini keçdiyi zaman “xüsusi” sistemində isə malın gömrük sərhədindən buraxıldığı zaman apanlır.

Bu fərq, sərbəst gömrük zonaian və sərbəst anbarlardan keçən, lakin gömrük ərazisindən kənarda olduğundan gömrük nəzarətinə cəlb, edilməyən mallar üçün xüsusi məna daşıyır.

Belə mallar xarici ticarətin statistikasında əvvəl Ümumi sistemdə, sərbəst gömrük zonası və sərbəst anbardan azad dövriyyəyə buraxıldıqdan sonra “xüsusi” sistemdə göstərilir.

“Xüsusi” ixrac analoji olaraq ölkədə istehsal olunan, çıxarılan, yetişdirilən və emal edilən, həmçinin xüsusi idxal olaraq əvvəlcədən

Başqa bir tərəfdən idxalın “ümumi” sistemi sərbəst gömrük zonalarına gətirilən və bu mallar sərbəst dövriyyə üçün gətirilsə də sərbəst anbara yerləşdirilən malları nəzərə alır.

ixracda “ümumi” sistemdə sərbəst gömrük zonası və sərbəst anbar rejimində gətirilmə üçün bəyan edilən, amma sonradan təkrar ixrac edilən mallarda öz əksini tapır.

Ölkəyə gətirilən və ölkədən aparılan mallann əsas uçot prinsipi həmin malların uçotunun əsas prinsipi onların məruz qaldığı gömrük əməliyyatları ilə müəyyən edilir.

Azərbaycan Respublikasının gömrük statistikası xarici ticarətin “ümumi” uçot sistemi əsasında mallann gətirilməsi və aparılmasının uçotunu aparır. Bu əməliyyatlarda aşağıdakı mal kateqoriyaları nəzərə almır:

İdxalda:

Sərbəst dövriyyə üçün gətirilən mallar.

Təkrar idxal edilən mallar.

Gömrük ərazisində emal üçün gətirilən mallar.

Gömrük ərazisindən kənarda emal edildikdən sonra gətirilən mallar.

Gömrük nəzarəti altında emal edilmək üçün gətirilən mallar.

Azərbaycan Respublikası ərazisinə təkrar ixrac rejimi altında gətirilən mallar.

Ölkəyə gətirilən, lakin şəxslər tərəfindən dövlətin xeyrinə imtina edilən mallar.

Rüsumsuz ticarət mağazalarına gətirilən xarici mallar.

Müvəqqəti idxal rejimində bir ildən artıq müddətə gətirilən mallar.

İxracda:

İxrac rejimi ilə müəyyən edilən qaydada aparılan mallar.

Sərbəst dövriyyə üçün barıxılış gömrük rejimi altında ölkəyə gətirilən, sonradan ixrac rejiminin tələblərinə uyğun olaraq ölkədən aparılan mallar.

Gömrük ərazisində emaldan sonra apanlan mallar.

Gömrük nəzarəti altında emaldan sonra aparılan mallar.

Gömrük ərazisindən kənarda emaldan sonra aparılan mallar.

Təkrar ixrac rejimində Azərbaycan Respublikası ərazisindən apanlan mallar.

Rüsumsuz ticarət mağazalarından xaricə apanlan xarici mallar və Azərbaycan malları.

Bir ildən artıq müddətə icarə məqsədilə müvəqqəti apanlan mallar.

Aşağıdakı mal kateqoriyalan "ümumi sistemdə" gömrük statistikasında əks etdirilmir:

- Azərbaycan Respublikası ərazisindən tranzit rejimində keçirilən mallar;
- gömrük anbarı rejimi altında yerləşdirilmiş mallar;
- məhvedilmə gömrük rejimi ilə rəsmiləşdirilən xarici mallar;
- Azərbaycan Respublikasının xarici ölkələrdəki təmsilçilikləri üçün apanlan mallar.

Xarici ticarətin gömrük statistikasında nəzərə alınan malların dairəsi kifayət qədər tam olmalı, tranzit yüklər istisna olunmaqla Ölkəyə gətirilən və ölkədən çıxarılan bütün malları və material qiymətlərini əhatə etməlidir.

Adətən mal kateqoriyalannm üç növünü ayırd edirlər:

- xarici ticarətin gömrük statistikasına daxil edilməli olan mallar;
- bu statistikadan çıxanlmalı olan mallar;
- aynca hesaba alınan mallar.

Mahiyyətcə gətirilməsi və ölkədən çıxarılması maddi ehtiyatları azaldan, yaxud artıran bütün mallar, o cümlədən tədavüldə olan valyuta istisna olmaqla, qiymətli materiallar xarici ticarətin gömrük statistikasına daxİl edilir.

*J2.2, Gömrük statistikasının göstəricihri*

Xarici ticarət üzrə statistik melumat idxal və ixracın miqdarı və dəyəri, xarici ticarət balansının saldosunu əks etdirir, malın mənşə ölkəsi, təyinat ölkəsi, göndəriş şərtləri, qiyməti və s. barədə təsəvvür yaradır.

Mobləğlə ifadə edilmiş idxal və ixrac əsas iqtisadi göstəricilər olmaqla, onların bazasında orta qiymətlər, xarici ticarətin səmərəliliyi, xarici ticarətin ölkənin iqtisadiyyatında rolu hesablanır.

Xarici ticarət dövriyyəsindəki mallann uçotuna əsasən konkret sövdələşmələrin qiyməti barədə məlumat vermək olar.

Xarici ticarətin gömrük statistikasının formalaşdırılmasında aşağıdakı göstəricilərdən istifadə edilir:

- hesabat dövrü;
- yük axınının istiqaməti (idxal, yaxud ixrac);
- idxalda mənşə Ölkəsi;
- **ixracda təyinat ölkəsi;**
- statistik dəyər;
- malın kodu və adı;
- xalis çəkisi (netto);
- əlavə ölçü vahidlərinin kodu və adı;
- olavo ölçü vahidləri ilə miqdar;
- sövdələşmənin xüsusiyyətləri;
- gömrük rejiminin növü;
- mal göndərənin (alanın) kateqoriyası.

Bu göstoricilər xarici ticarətin gömrük statistikası dövri noşrlori hazırlamağa, müxtəlif analitik tədqiqatlar aparmağa, xüsusilə xarici ticarətin inkişafım öyrənməyə, idxal-ixrac əməliyyatlarının xarici iqtisadi əlaqə iştirakçılannın müxtəlif kateqoriyalan üzrə analizini aparmağa İmkan verir.

Daha müfəssəl analiz üçün idxal və ixracın fiziki həcm indeksi göstəriciləri (qiymətlərdən asılı olmayaraq idxal və ixracın dinamikasım əks etdirir). Eləcə də idxal və ixracın oıta qiymət İndeksi göstəricilərindən istifadə edilir.

İdxal və ixracın beynəlxalq səviyyədə müqayisə edilmək imkanını təmin etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası malların müqavilə qiymətləri əsasında qiymətləndirilməsini tövsiyə edir. Müqavilə qiyməti - bir ölkədəki idxalçı ilə digər ölkədəki ixracçı arasında mövcud olan bazar qiymətidir.

İdxal və ixracın müqavilə qiymətləri əsasında dəyərləndirilməsi sövdələsmənin həvata kecirildivi sərtlərdən asılıdır (Bu barədə

mallann gömrük dəyərinin təyin edilməsi bəhsində geniş məlumat verilmişdir).

Məsələn, eyni mal müxtəlif qiymətə malik ola bilər:

Əgər bilavasitə istehsal müəssisəsindən buraxılırsa daha aşağı qiymətə - təyinat məntəqəsində daha yuxan qiymətə olur. Çünki, mal istehsalçıdan istehlakçıya doğru hərəkət etdikcə onun dəyərinə daşınma, sığorta və s. xərclər əlavə edilir. Buna görə də müqayisə edilə biləcək göstəricilər almaq üçün mallann qiymətləri vahid bazisə görə hesablanmalıdır.

Xarici ticarətin gömrük statistikasında malların uçotu;

- idxal üzrə - SİF (dəyər, sığorta, fraxt) qiymətləri;
- ixrac üzrə - FOB və ya DAF şərtlərinə görə müəyyənləşdirilir.

İxracda mallann müqavilə qiymətinə (FOB) malın dəyəri, ixrac rüsumu (əgər nəzərdə tutulmuşsa), digər müəyyən edilmiş vergilər, həmçinin ixrac edən ölkə daxilindəki məntəqədən ölkənin sərhədinə qədər daşınma və sığortaya görə xərclər, komission yığımlar, müqavilənin rəsmiləşdirilməsi və mallann nəqliyyat vasitələrinə çatdmlması, taranın (qabın) dəyəri, yükləməyə görə çəkilən xərclər də əlavə edilir.

İdxalda statistik dəyər - malın daşınma, sığorta və boşaltma (əgər idxalçının hesabına ödənilirsə) xərcləri də daxil olmaqla satış qiymətini əks etdirir. İdxal rüsumu və yığımlar malın idxal dəyərinə daxil edilmir (SİF - bazasında müqavilə qiyməti). İdxal edən ölkənin ərazisindəki fraxt və sığorta xərcləri, eləcə də həmin ölkənin nəqliyyat vasitələri ilo daşınma xərclən malın idxal dəyərinə daxil edilmir.

### *12,3, Gömrük statistikast gÖstBricihrittin m9nb»yi*

Xarici ticarətin gömrük statistikası və gömrük ödəncləri statistikasının göstəricilərinin əsas mənbəyi Yük Gömrük Bəyannaməsidir (YGB). YGB Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilən yüklər barədə operativ məlumatlar almağa

Gömrük boyannaməsi xarici iqtisadi fəaliyyətin dövlət tənzimlən-ınosinin üsullarından biridir. Boyanetmə xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən həyata keçirilir, gömrük təşkilatı isə həm bə-yanetmə prosesinə, həm do bəyannamədə göstərilən məlumatların dəqiqliyinə dövlət nəzarəti həyata keçirir. Yük gömrük bəyannaməsində göstərilən məlumatlar xarici ticarət statistikası üçün rəsmi ilkin məlumatlardır.

Xarici ticarət dövriyyəsinin statistikasının formalaşdınimasının başlanğıcı üçün YGB-nin 9 göstəricisi əsas götürülür.

YGB-nin tərtibatında istifadə edilən təsnifatlandıncılann kodlaş-dınİması göstəricilərin yığılmasını avtomatlaşdırmağa imkan verir.

Xarici ticarət dövriyyəsi statistikasının əsasını kodu təsnifatlan-dırıcıya - xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına (XİFMN) uyğun olaraq təyin edilən mallar təşkil edir..

31-ci qrafada mallann ticarətdə istifadə olunan adlan və onlann modelləri, tipləri, ölçüləri və s. daxil olmaqla texniki xarakteristi-kalan göstərilir. Onlar bəyan olunan mallan XİFMN üzrə təsnifat qaydalarına uyğun olaraq, müəyyən mal mövqeyində təsniflnə imkan verir.

33-cü qrafada birinci yarımbölmodə malların 10 rəqəmli kodları göstərilir.

38-ci qrafada malların qablaşdırma vasitəsi nəzərə alınmadan onların xalis çəkisi kiloqramla göstərilir.

Digər ölçü vahidlərindən istifadə edildikdə 31-ci qrafada bu əlavə ölçü vahidinin qısa adı göstərilir və təsnifatlandıncıya uyğun olan kodu nəzərə alınmaqla 38-ci qrafada “kq”, 41-ci qrafaya isə əlavə ölçü vahidinin kodu yazılır.

İdxal vo ixracın dəyər qiyməti 46-cı qrafada ABŞ dollan ilə ifadə edilməklə göstərilir.

Gömrük ödənişlərinin ödənilməsi, gömrük dəyəri göstərilən valyutadan fərqli olan hallarda ödənmiş gömrük ödənclərinin məbləği 47-ci qrafanm “məbləğ” sütununda göstərilən məbləğin Ödəniş valyutası məzənnəsi YGB-nin gömrük rəsmiləşdirilməsinə qəbul olunduğu gündən Milli Bank tərəfindən müəyyən edilən valyutanın məzənnəsinə görə yenidən hesablanır.

Əgər 47-ci qrafanın “ÖÜ” (ödəniş üsulu) sütununda “05” işarəsi göstərilərsə, belə hallarda bu gömrük ödəniş növü üzrə “V” qrafası doldurulmur. “V” qrafasmın doldurulması zamanı bütün elementlər bir-birindən defıs işarəsi ilə aynlır və elementlər daxilində simvol tərtibində boş yer qoyulmasına yol verilmir.

YGB-nin doldurulması və qəbulu əməliyyatları bitdikdən sonra ilkin statistik hesabat formalan və çıxış formalan hazırlamr.

Çıxış statistik məlumatlar aylıq, rüblük və illik hesabatlara daxil edilir.

Rüblük və illik hesabatlar aşağıdakı məlumatlan özündə əks etdirir:

- Azərbaycan Respublikasının xarici ticarətinin ümumi yekunlan;
- ayn-ayn ölkələrlə xarici ticarətin yekunlan;
- ölkə qruplan üzrə xarici ticarətin yekunlan;
- XİFMN mal qruplan üzrə Azərbaycan Respublikasının idxalı və ixracı;
- Azərbaycan Respublikasının ölkələr və ınallər üzrə idxal və ixracı;
- xarici iqtisadi fəaliyyət iştirakçılarının kateqoriyaları üzrə idxal və ixrac;
- xarici ticarət əməliyyatlan növləri üzrə xarici ticarət dövriyyəsi.

Statistik çıxış məlumatlar Azərbaycan Respublikasının xarici

### *12.4, Gömrük staHstikast göstBricihrinin araşdmiması va işhnma üsulları*

Bu üsullardan ən çox istifadə olunanlan aşağıdakılardır:

1) statistik cəmləmə və qruplaşdırma;
2) qrafik üsul;
3) balans üsulu;
4) indeks üsulu;
5) amil (faktor) üsulu.

Statistik cəmləmə və qruplaşdırma üsulu. Gömrük statistikasının YGB əsasında alınan ilkin rəqəmlər statistik araşdırmaya məruz qalır.

Statistik cəmləmə və qruplaşdırmaya misal olaraq gömrükxanalar tərəfindən təqdim edilən statistik hesabatların giriş formalarını göstərmək olar. Verilmiş halda Azərbaycan gömrük sistemi üçün xarakterik cəhət bu göstəricilərin məlumat daşıyıcılarla DGK gömrük statistikası və təhlili idarəsinə çatdırılmasıdır (modern rabitədən istifadə olunur).

Bütün giriş statistik formalar gömrük statistikasının müxtəlif obyektləri üzrə statistik göstəricilərin cəmlənməsi və qruplaşmasını əks etdirir.

Statistik göstəricilərin təkrar işlənməsi isə qruplaşdırma üsuludur, Bütün çıxış statistik formaları bu üsul əsasında hazırlanır. Gömrük statistikasında idxal və ixracın ölkələr, ölkələr qrupu, emalının səviyyəsindən asılı olaraq mal növləri, gömrük ödəncləri və daşınma növləri üzrə qruplaşdınimasmdan geniş istifadə olunur.

Qrafik üsuldan gömrük statistikasında həm öyrənilən halın qavramimasmın asanlaşdıniması, həm də statistik göstəricilərin ümumiləşdirilməsi və analizi məqsədi ilə istifadə edilir.

Gömrük statistikasında qrafik üsulla obyektlərin miqdar göstəriciləri və onların dinamikası, struktur dəyişikliklər, müqayisə edilən göstəricilər və s. əks etdirilir. Bu zaman ən çox xətti qrafik və müxtəlif növ diaqramlardan istifadə edilir.

Xətti qrafıklərlə gömrük statistikası obyektləri üzrə dinamik səflər ifadə edilir. Bu zaman koordinat xəttlərinin birində zaman intervallan, digərində isə miqdar göstəriciləri əks etdirilir.

Balans üsulu xarici ticarət dövriyyəsi və gömrük ödəncləri barədə məlumatlar üçün böyük əhəmiyyət kəsb edir.

Xarici ticarət dövriyyəsinin balansı aşağıdakı görünüşdədir:

| *Göstaricihr* | *ixrac* | *idxal* | *Xarici ticarat dövriyyəsi* | *Xarici ticarat dövriyyəsinin saldosu* |
|---|---|---|---|---|
| *I* | *2* | *İ* | *4=2+3* | *5=2-3* |
| **1,Mal qrupları üzrə** **2. Coğrafi istiqamətlər üzrə** | | | | |

Əgər saldo müsbətdirsə (ixrac idxalı üstələyirsə), xarici ticarət balansı *aktiv* mənfidirso, yəni idxal ixracı üstələyirsə, ticarət balansı passiv hesab edilir. İdxalla ixracın bərabərliyinə *netto-balans* deyilir.

İdxal və ixracın qiymətləndirilməsinin böyük tətbiqi əhəmiyyəti var. Belə ki, xarici ticarət dövriyyəsi ölkənin iqtisadi vəziyyətinin və xarici ticarət əlaqələrinin mühüm göstəricisidir.

Gömrük ödənclərinin statistikasının göstəriciləri əsasında ölkənin ödənc balansı qurulur. Bu da öz növbəsində Azərbaycan Respublikasına müəyyən dövr ərzində nə qədər valyuta daxil olduğunu, həmçinin onun ərazisindən çıxarıldığını göstərir.

Gömrük statistikasında indeks üsulu iki növə bölünür; fərdi (sadə) və ümumi (mürəkkəb) indekslər.

Fərdi indeks - gömrük statistikası göstəricilərinin müəyyən vaxt ərzində dəyişməsini göstərən nisbi qiymətdir;

Burada: *Xj* - cari dövrdə gömrük statistikası göstəricisi;

*XQ* - bazis dövrdə gömrük statistikası göstəricisidir.

Fərdi indekslər əmsal, yaxud faizlə ifadə oluna bilər. Fərdi indeks vahiddən (100%) böyükdürsə, bu göstəricilərin cari dövrdə bazis dövrünə nisbətən artdığını, vahiddən (100%) kiçikdirsə azaldığını göstərir.

Ümumi indekslər müxtəlif malların müqayisəsi üçündür. Belə ki, ixracın (idxalın) ümumi məbləğini ölkədən aparılan müxtəlif mallann miqdanm mal vahidlərinin faktiki qiymətinə vurmaqla hesablamaq mümkündür.

Əgər Q mal vahidinin P malın miqdarı olsa, onda ixrac edilən mallann ümumi dəyəri aşağıdakı kimi hesablana bilər.

^ = Zö^ (1=1,2,...n)

1^1

Burada n - ixrac edilən mallann növləridir.

Mal dövriyyəsinin idxalının və ixracının həcminin dəyişməsi, xarici ticarətin (idxalın, ixracın) fiziki həcminin indeksinin hesablanması əsasında qiymətləndirilə bilən

***I.P,Q.***

Fiziki həcm indeksi

*Pj* - cari dövrdə mallann miqdan;

*P(,* - bazis dövründə malların miqdan;

*Qfj* - bazis dövründə mallann qiyməti.'

Fiziki həcm indeksinin hesablanması zamanı bazis dövründə mal vahidinin qiyməti əsas götürülür, indeksləşdirilən isə maltn miqdan olur. Qiymət dəyişikliyinin indeksə təsirini aradan qaldırmaq məqsədi ilə ixrac bazis dövründə və hesabat dövründə eyni qiymətlə hesablanır ki, bu da ixracın miqdar dəyişikliyini aşkar etməyə imkan verir.

Xarici ticarətdə qiymət deyişməsi xarici ticarət (idxal, ixrac) qiymətləri indeksinin hesablanmasına əsasən müəyyən edilir.

Xarici ticarətin qiymət indeksi:

*Q/* - cari dövrdə ixrac (idxal) edilən mal vahidinin qiyməti;

***Qo*** - bazis dövründə ixrac (idxal) edilən mal vahidinin qiyməti;

*P/* - cari ildə ixrac (idxal) edilən malın miqdandtr.

Amil (faktor) üsulu həm gömrük statistikası obyektlərinin iqtisadi analizi, həm də ixrac və idxal proqnozlarının hazırlanmasında, gömrük ödənclərintn dövlət büdcəsinin gəlir hissəsində payının dəyərləndirilməsində və s. geniş tətbiq edilir.

Bu üsulun mahiyyəti gömrük statistikasının müvafiq obyektinin mövcud vəziyyəti vo inkişafına təsir edən amillərin tədqiq edilməsindən ibarətdir. Bu üsulda ilk mərhələ olaraq idxal və ixracın tədqiq edilən göstəriciləri seçilir:

- ölkənin ixrac və idxalının cəm göstəriciləri;
- mal qruplan, yaxud ölkələr səviyyəsində yekun göstəricilər;
- ayn-ayn mallara aid göstəricilər.

İkinci mərhələdə ixrac, yaxud idxalın inkişafına təsir edən amillər seçilir.

$$Y=f\{Xl.X2...Xn)$$

*Y* - ixrac (idxal)

*XI, X2...Xn* - ixraca (idxal) təsir edən amillərdir. Ölkənin ixracının həcminə təsir edən ən mühüm amil, ictimai məhsul və ya milli gəlirin həcmidir. Malların istehsalının artımı ilə daxili tələbat ödənir və ixrac İmkanı yaranır.

Mallann rəqabət qabiliyyətini nəzərə almağa imkan verən amil onun keyfiyyət səviyyəsidir.

Mallann ixracının səmərəliliyini əks etdirən amil malın ixracından əldə edilən valyuta ilə onlann istehsalına çəkilən xərclərin müqayisə edilməsidir.

İdxalın səmərəliliyi xarici ticarət qiymətinin daxili qiymətlərlə mütənasibliyi ilə müəyyən edilir ki, bu da idxalın artırılmasının, yaxud da ölkədə milli istehsalın yüksəldilməsinin məqsədə müvafiqliyini qiymətləndirməyə imkan verir.

Ölkənin xarici ticarəti barədə yük gömrük bəyannamələrinin avtomatik analizinə əsaslanan statistikası, kifayət qədər ümumiləşdirilib araşdırıldıqdan sonra xarici ticarətin idarə edilməsi sahəsində əhəmiyyətli qərarlar qəbul etməyə imkan verir. O cümlədən:

- ölkənin ixrac imkanlarının və idxal tələbatının ölçülüb-biçilmiş və yaxın perspektivə kifayət qədər dəqiq hesablanmış ifadəsini formalaşdırmaq;

- ölkənin xarici ticarətinin həm ixrac, həm də idxal üzrə dünya qiymətlərinə yaxmiaşdıniması, qiymətlərdə fərqi nəzərə almaqla anti-dempinq və digər qoruyucu tədbirlərin strategiyasına hazırlamaq;

- Ölkənin ixrac potensialının artırılması və daxili bazann xarici müdaxilənin mənfi təsirlərindən qorunması üçün mühüm idarəetmə qərarlarının qəbulu;
- ölkənin ümumi iqtisadi siyasətinin həyata keçirilməsini tənzimləyən mühüm dövlət tədbirləri üçün ilkin məlumatlar hazırlamaq.

Xarici ticarətin gömrük statistikası Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qoşulmasının mühüm şərtlərindən

# MÖVZU 13. Gömrük sistemində iqtisadi təhlil

## *13.1. İqtisadi t3hliUn məzmunu*

İqtisadi təhlil - təsərrüfat proseslərinin qarşılıqlı əlaqə və asılılıqda öyrənilməsi, onların bir-birinə təsirini müəyyənləşdirmək məqsədi daşıyır.

İqtisadi təhlilin gedişində təsərrüfat faktları, hadisələr, hallar, proseslər arasmdah əlaqələr müəyyən edilir; təsərrüfat fəaliyyətinə bilavasitə təsir göstərən amillər aşkar edilir. Bunun üçün iqtisadi və riyazi hesablamalann üsul və fəndlərindən istifadə olunur.

İqtisadi təhlilin nəticələrinə əsasən idarəetmə qərarları müəyyən edilir və əsaslandırılır, həmçinin idarəetmə obyekti tənzimlənir.

İqtisadi təhlil idarəetmə qərarının qəbul edildiyi mərhələdən əvvəlki mərhələ hesab edilir. Təhlilinə əsaslanaraq bir sıra məsələlər, məsələn gömrük orqanmın saxlanılması və səmərəli fəaliyyəti üçün tələb olunan vəsaitin miqdarı təyin edilə bilər. Bundan başqa, proqnozlann yerinə yetirilməsinin təhlilində onların əsaslılığı yoxlanılır və nəzərə alınmamış ehtiyatlar aşkara çıxarılır.

İqtisadi təhlilin əsas məsələləri aşağıdakılardır:

- iqtisadi informasiyanm keyfiyyətinin təyini və optimal idarəetmə qərarının seçilməsi üçün materialların hazırlanması;
- gözlənilən nəticələrin proqnozlaşdırılması;
- idarəçilik qərarının yerinə yetirilməsinə nəzarət və onun yekunlarmın qiymətləndirilməsi;
- əmək, material və maliyyə resurslannm sərfinə nəzarət və onlardan istifadənin səmərəsinin artırılması üçün ehtiyatlar aşkar edilməsi.

Təhlilin predmetindən asılı olaraq maliyyə, kompleks və funksional-dəyər təhlil növləri ayırd edilir.

Maliyyə, yaxud, malliyə-iqtisadi təhlil dedikdə, dəyər və maliyyə göstəricilərinin istehsalat göstəriciləri ilə qarşılıqlı əlaqədə təhlili başa düşülür. Bu təhlil, əsasən hesabat göstəricilərinə görə aparılır və maliyyə nəticələrinin və maliyyə vəziyyətinin tədqiqinə yönəlmiş

Texniki və təşkilati amillərin dəyər göstəricilərinə təsirini aşkar etmək üçün texniki-iqtisadi analizdən istifadə olunur. Texniki-iqtisadi analizin proqram və üsulları texnika, texnologiya və konkret iş sahəsinin xüsusiyyətlərini əks etdirir və ixtisaslaşmış olur.

Funksional-dəyər təhlil (FDT) analiz edilən obyektlərin səmərəliliyinin artırılması imkanlannı müəyyən etməyə yönəlmişdir və obyektlərin öz fimksiyalannı daha səmərəli həyata keçinnək və məsrəflərin azaldılması üçün optimal variantın seçilməsinə əsaslanır.

İqtisadi hadislərin, faktların, proseslərin başa vermə zamanından asılı olaraq, bu və ya digər dövr üzrə fəaliyyətin yekunlarına görə ilkin analizi, cari (operativ) təhlili, yekun (retrospektiv) təhlili bir-birindən fərqləndinnək lazımdır.

İlkin iqtisadi analiz proqnoz və idarəetmə qərarlarının seçimi və əsaslandırılması ilə əlaqədardır. Bu təhlil hər hansı təsərrüfat proseslərinə qədər aparılır.

İlkin iqtisadi təhlilin məqsədi mümkün variantları ən yaxşı öyrənib ən yaxşı həlli tapmaqdır. Onu fərqləndirən cəhət səbəb və amillərin təhlili əsasında onlann nəticələrə təsirinin öyrənilməsidir.

Operativ iqtisadi təhlil operativ idarəetmə ilə - idarəetmə qərarlarının yerinə yetirilməsi prosesinin koordinasiyası və tənzimlənməsi ilə əlaqədardır. Bu təhlili fərqləndirən aşağıdakı əsas cəhətlərdir: təciİilİk - onun keçirilmə müddəti təsərrüfat əməliyyatları ilə üst-üstə düşür; tətbiqçilik - onun nəticələri bilavasitə istehsalat prosesinə müdaxilə etməyə imkan verir; məqsədyönlülük - konkret məqsəd vo vəzifə daşımaqla ayrı-ayn sahələr və göstəricilər təbiil edilir. İqtisadi təhlil iqtisadi informasiya sisteminə, proqnoz və normativ göstəricilərə əsaslanır. Məlumat mənbələri uçot və qeyri-uçot mənbəyi olmaqla iki qrupa bölünür.

Əsas uçot göstəriciləri olan informasiya mənbələrinə - mühasibat uçotu və hesabat, statistik uçot və hesabat, operativ uçot və hesabat, seçmə uçot göstəriciləri aid edilir.

Təsərrüfat, maliyyə vəsaitləri və prosesləri öz əksini daha bitkin şəkildə mühasibat uçotunda tapır.

Statistik uçot və hesabat kütləvi hallar və proseslər barədə məlumat üçün daha münasibdir. Qeyri-uçot informasiya mənbələrinə

aşağıdakılar aid edilir: sistemdaxili təftiş materialları, xarici və da* xili audit material lan, laborator və inspeksiya nəzarəti materialları, vergi və bank orqanlarının yoxlama materiallan, mətbuat materialları, digər orqan və təşkilatlarla yazışmalar və s.

### *1S,2, Göst^ricÜBr sistemi v9 təhlil üsulları*

Müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyəti çoxsaylı iqtisadi göstəricilərlə ölçülür. Bu göstəriciləri müəyyən sistem halında birləşdirmək mümkündür.

"Göstəricilər sistemi" anlayışı o deməkdir ki, maliyyə-təsərrüfat fəaliyyətinin müxtəlif tərəfləri arasında real mövcud olan əlaqələr uyğun göstəricilərin müəyyən asılılıq xüsusiyyətində öz əksini tapır.

Göstəriciləri dəyər və natural; kəmiyyət və keyfiyyət; həcm və xüsusi çəki kimi kateqoriyalara aid edirlər.

"Dəyər göstəricilərinin" əsasında pul ölçüsü dayanır. Məsəl üçün satılan məhsul, göstərilən xidmət, gəlir, maliyyə vəziyyəti dəyərlə ifadə olunur.

Natural göstəricilər təşkilatların analitik uçot işlərində istifadə edilir. Bu göstəricilər maddi ehtiyatlan, istehsalı, gömrük işində məsələn, müsadirə olunmuş əşyalan və s. göstərə bilər. Bu zaman ölçü vahidləri obyektlərin fiziki xassələrindən, ölçülmədən və s. asılı ola bilər.

İqtisadi təhlilin üsul və fəndlərini şərti olaraq iki qrupa bölmək olar; ənənəvi və iqtisadi riy^i.

Ənənəvi üsullara aşağıdakılar aid edilir;

- mütləq, nisbi və orta qiymətlərin istifadə olunması;
- müqayisə;
- qruplaşdırma;
- indeks üsulu
- balans üsulu.

Bu və ya digər göstəricilərin təhlili mütləq qiymətlərin istifadəsindən başlanır. Mütləq qiymətlər bazasında isə nİsbi göstəricilər hesablanır ki, onlar da müəyyən əmsal və ya faizlə ifadə olunur.

Nisbi göstəricilər müəyyən zaman ərzində göstəricilərin dəyişməsini nümayiş etdirir (məsələn, tapşırığın yerinə yetirilmə faizi; keçən ilə nisbətən artım tempi və s.).

İqtisadi təhlildə mütləq və nisbi qiymətlərin tətbiqinə misal olaraq aşağıdakı cədvəldə göstərilən smetanın gəlir hissəsinin icrası nümunə ola bilər.

| *Gslir mmbslsri* | *Proqnoz lapştrtğt mln. man* | *Faktiki yerinə yetirilmişdir* | *Fərq mln. man.* | *Yerinə yetirilmə faizi* |
|---|---|---|---|---|
| *A* | *I* | *2* | *3* | *4* |
| Göınriik yıüiiTtları | 3400 | 3233 | -167 | 101,0 |
| Lisenziya verilməsinə (jörə yığımlar | 80 | 81,2 | 1,2 | 101,5 |
| cərimələr | 102 | 124,4 | 22,4 | 121,9 |
| Maddi zərərin ödənilən məbləği | 76 | 140 | 64 | 184,2 |
| comi | 3659 | 3580,6 | -79,4 | 97,8 |

1, 2 və 3-cü qrafalarda mütləq, 4-cü qrafada nisbi göstəricilər ifadə edilmişdir. Cədvəldən göründüyü kimi gəlir üzrə proqnoz tapşırıq 79,4 milyon manat kəsirlə icra olunmuşdur. Bu mütləq fərqdir. Yerinə yetirilmə faizi 97,8%-dir (3578,6 x 100: 3658). Bu da nisbi fərqdir.

Proqnoz tapşırıq digər göstəricilərin müsbət ifadəsinə baxmayaraq həll edilməmiş qalmışdır, çünki xüsusi çəkisi daha böyük olan əsas göstərici əks işarəyə malikdir.

| *Gəlir mənbələri* | *Proqnoza görə* **JC«5«5<** *çəkisi %* | *Faktiki xüsusi çəkisi %* | *Fərq* |
|---|---|---|---|
| *A* | *1* | *2* | *3* |
| **Gömrük yığnnlan** | **92,95** | **90,35** | **-2.6** |
| **Lisenziya verilməsinə görə yığımlar** | **2,18** | **2,27** | **0,09** |
| **cərimələr** | **2,79** | **3,47** | **0,68** |
| **Maddi zərərin ödənilən məbləği** | **2,08** | **3,91** | **1,83** |
| **cəmi** | **100** | **100** | • |

Smetanın gəlir hissəsinin proqnoz və faktiki yerinə yetirilmə qruplarını müqayisə etdikdə onlann kifayət qədər fərqləndiyini görürük.

Müqayisə üsulu iqtisadi təhlilin ən geniş yayılmış üsuludur.

Bir neçə müqayisə forması mövcuddur: plan-proqnozla müqayisə; keçmiş və ya bazis dövrü ilə müqayisə, ən yüksək göstəricilərlə müqayisə; orta göstəricilərlə müqayisə. Bu üsulun köməyi ilə proqnoz-tapşırıqlann yerinə yetirilməsinə qiymət verilir. Aşkar olunan fərqlər təhlil obyekti hesab olunur.

Qruplaşdırma hadisə və proseslərin eynİ keyfiyyət əlamətlərinə, səbəb və amillərə görə təsnifatland m İmasını nəzərdə tutur. Qruplaşmalar hadisələrin tiplərini vo bir-biri ilə qarşılıqlı əlaqəsini müəyyən etməyə imkan verir. Qruplaşdırmaya misal olaraq müxtəlif tabuleqramları göstərmək olar.

Ciddi funksional asılılıq müşahidə edilən iqtisadi məsələlərdə balans üsulundan İstifadə olunur. Bu üsulla maddi ehtiyatların, iş vaxtınm, kapital qoyuluşunun mövcudluq və İstifadəsi təhlil olunur.

Ənənəvi üsullarla birgə iqtisadi-riyazi üsullar, həmçinin elementar riyazi üsullar, riyazi təhlilin klassik üsullarından, proqramlaşdırma və digər üsullardan istifadə oluna bilər.

### /5.3. *Gömrük orqanlarının mattyyə-təsorrufat fəaliyyətinin yoxlanılması*

İqtisadi təhlilin əsas göstəricilərinin müəyyən edilərək dəqiqləşdirilməsində tabeli müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması mühüm əhəmiyyət kəsb edir. Sistem daxili nəzarətin əsas vəzifələrinə aşağıdakılar daxil edilir:

- büdcə gəlirləri üzrə proqnoz tapşırıqlarının yerinə yetirilməsinə; maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsinə; mühasibat uçotunun düzgün qurulmasına; tarif və gömrük dəyərinin müəyyən edilmiş qaydalarının gözlənilməsinə; maliyyə-kredit və hesablaşma əməliyyatlanmn düzgünlüyünə; büdcə-smeta, kas sa, tədiyyə hesablaşma vo ştat intizamının gözlənilməsinə; aparılan əməliyyatların düzgünlüyü və qanuniliyinə; büdcəyə çatacaq ödənişlərin vaxtmda köçürülməsinə nəzarəti tomin etmək;

• ayrılmış büdca vəsaitlərinin düzgün yerləşdirilməsi və xərc smetasına uyğun istifadəsinə nəzarət etmək;

- gömrük vergi və rüsum lanndan yayınma, depozit hesablarda vəsait qatığının artması, büdcəyə köçürmələrin ləngidilməsi hallarının aşkar edilməsi və ona qarşı ciddi tədbir görülməsi;

- əvvəllər aparılmış təftiş nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün görülən tədbirlərin nəticələrini araşdmnaq;

Bu məqsədlərlə Respublika Dövlət Gömrük Komitəsi gömtük orqanlannın maliyyə-təsərrüfat fəaliyyətini ildə bir dəfə (iki ildə bir dəfədən gec olmayaraq) kompleks şəkildə, zərurət olduqda isə plandankənar təftiş etdirir,

Təttişçi Respublika prezidentinin fərman və sərəncamlarını, hökumətin müvafiq qorarlannı. Maliyyə Nazirliyinin və Statistika Komitəsinin təlimatlarını. Komitə sədrinin əmrlərini rəhbər tutaraq dövlətin mənafeyini müdariə etməli; dövlət intizamının pozulmasının qarşısım almalı; pul vəsaitlərinin və maddi qiymətlilərin qanunsuz xərclənməsi, mənimsəmə hallannın aradan qaldınıması üçün tədbirlər görməli; təftiş aparılan gömrük orqanına maliyyə-tə- sorrürfat fəaliyyətinin yaxşılaşdırılması, büdcə proqnozlannm yerinə yetirilməsində əməliköməklik göstərməlidir.

Gömrük orqanlarının maliyyə-təsərrüfat fəaliyyətinin təftişi zamanı aşağıdakılar yoxlanılır:

- kassa əməliyyatlarının qüvvədə olan təlimatlara və metodiki göstərişlərə uyğun aparılması;

• mühasibat uçotu vo hesabahmn təşkili və apanlmasınm vəziyyəti;

- ayrılmış büdcə vəsaitinin uçotu və xərc smetasına uyğun olaraq xərclənməsi;

- ciddi hesabat blanklarmın hərəkəti və uçotu;
- debitorlar və kreditorlarla hesablaşmaların uçotu;
- bank əməliyyatlannın düzgünlüyü;

• vəzifəli şəxslər tərəfindən maliyyə, büdcə-smeta, ştat və kassa intizamının gözlənilməsi, əmək haqqı və digər ödənişlərin

- müsadire olunmuş emlakların saxlanması, anbara təhvili vəziyyəti;
- ötən yoxlama zamanı aşkar edilmiş çatışmazlıqların, qanunsuz xərclərin aradan qaldınimaşı, təqsiricar şəxslərin məsuliyyətə cəlb edilməsi üçün həyata keçirilən tədbirlərin vəziyyəti;
- göstərilmiş xidmətlərin həcminin ödəniş məbləğinə uyğunluğu;
- hesabat materiallarının təhlili zamanı hesabat məlumatlannın ilkin sənədlərə uyğunluğu;
- gömrük tarifləri və idxal qiymətləri üzrə müəyyən edilmiş qaydalara riayət olunması və bu qaydalann pozulması nəticəsində yaranan əlavə Ödəniş məbləğlərinin hesablanması və onların tamamilə büdcəyə köçürülməsi vəziyyəti;
- əsas vəsaitlərin, mal-material qiymətlilərinin, pul vəsaitlərinin qorunub saxlanması üçün inventarlaşmanın vaxtında və düzgün apanimaşı vəziyyəti;
- idxal-ixrac əməliyyatları üzrə ilkin sənədlər əsasında bəyannamələrin doldurulması; malların gömrük dəyərinin müəyyən edilməsi; gömrük vergi və rüsumlarının, penyaların, habelə xidmət haqqının hesablanıb tutulması vəziyyəti;
- barter əməliyyatlarının, müvəqqəti idxal, təkrar ixrac, emal üçün idxal və ixrac, istehsal tələbatı üçün idxal və qanunçuluqda nəzərdə tutulmuş digər güzəştli hallar üçün əməliyyatların vəziyyəti və gömrük tədiyyələrindən güzəştlərin qanunauyğunluğu;
- idxal əməliyyatları üzrə tədiyyələrin ödənişindən qanunçuluqda nəzərdə tutulmuş möhlət müddətlərinə riayət olunması, malla- nn məsuliyyətli saxlanca buraxılması qaydalanna əməl olunması vəziyyəti;
- yüklərin müvəqqəti saxlanca verilməsi ve onlara nəzarətin gedişi;
- rüsumsuz ticarət mağazalan və sərhədyanı bazarlara idxal və yaxud ixrac olunan mallara vergilərin düzgün hesablanıb tumiması vəziyyəti; nəqliyyat vasitələrinin qeydə alınması, rüsuma cəlb edilməsi vəziyyəti;
- fiziki şəxslərin gömrük rüsumlarına cəlb edilməsi vəziyyəti;
- respublika ərazisindən kənara valyuta çıxarılmasına gömrük nəzarətinin təşkili;

- gömrük yük bəyannamələrinin ləğv edilməsinin səbəbləri;
- aksizli mallara və minik avtomobillərinə vergilərin hesablanılması və ödənilməsi;
- gömrük orqanları tərəfindən aidiyyəti normativ aktların və DGK-nın normativ sənədlərinin icrasının vəziyyəti.

Təftiş seçmə, başdanbaşa və ya kombinələşdirilmiş qaydada aparıla bilər.

Maliyyə-təsərrüfat əməliyyatının həqiqiliyi sənədlərin formal və hesabi yoxlanması yolu ilə müəyyən edilir. Gömrük əməliyyatlarının həqiqiliyi ilk sənədləri üzləşdirməklə müəyyən edilir; hesablaşma, cari və depozit hesablar üzrə pul vəsaitlərinin hərəkəti gömrükxanada saxlanılan todiyə sənədləri bankda saxlanılan sənədlərin əsli ilə üzləşdirilməklə yoxlanılır.

Qarşılıqlı üzləşdirmə yolu ilə yoxlama zamanı digər tam başqa şəhərdə (rayonda) yerləşərsə təftiş qrupu həmin təşkilatın yuxan idarəsinə müraciət etməklə müvafiq sənədləri əldə edib üzləşdirmə apara bilər.

GÖmrükxanalarda təftiş zamanı inventarlaşdırma mövcud təlimata müvafiq olaraq aparılmalı, bu işdə maddi-məsul şəxsin bilavasitə iştirakı təmin olunmalıdır.

Təftişin səmərəsini və keyfiyyətini yüksəltmək məqsədi ilə kompleks təftiş qrupunun tərkibinə Komitənin digər struktur bölmələrindən də mütəxəssis daxil etmək məqsədəuyğun hesab edilməlidir.

Təftiş və yoxlamaların aparılması müddəti 30 günədək müəyyən edilir. Qoyulmuş müddətdə ziyan və mənimsəmənin həcmini tam müəyyən etmək üçün maliyyə və təsərrüfat əməliyyatlarının əlavə yoxlanılması zərurəti olduqda, habelə gömrükxanada işin həcmindən asılı olaraq yoxlamanı başa çatdırmaq mümkün olma- dıqda, təftişi təyin edən rəhbər şəxs tərəfindən təftiş müddəti uzadıla bilər.

Təftiş edilən gömrük orqanının fəaliyyətinin əvvəlki təftiş zamanı yoxlanılan dövründən sonrakı dövrü təftiş edilir;

Kompleks təftiş aparmaq üçün ciddi hazırlıq görülməli, ötən təftişin materialları; maliyyə-bank sənədləri; hesabat və statistik mə

lumatlar; daxil olmuş siqnal və Komitənin digər strukturları nəzərdən keçirilməlidir.

Öyrənilmiş materiallar əsasında təftiş proqramı tərtib edilməlidir. Proqramla yanaşı, eyni vaxtda kassam təftiş etmək və maddi qiymətliləri inventarlaşdırmaq üçün proqram hazırlanmalıdır.

Təftiş və ya yoxlamanın sonunda gömrük orqanının maliyyə-təsərrüfat fəaliyyətini əhatə edən akt tərtib olunur və təftiş qrupunun rəhbəri (üzvləri), təftiş aparılan gömrük orqanının rəhbəri və maliyyə-tarif şöbəsinin rəisi tərəfindən imzalanır.

Gömrük orqanlarının maliyyə-təsərrüfat fəaliyyətini əhatə edən məsələlər aktda sistemləşdirilmiş şəkildə əks etdirilir.

Təftiş aktına gömrük orqanı rəhbərinin və maliyyə-tarif şöbəsi rəisinin irad və təklifləri olduqda imzasının qabağında qeyd edir və akt tərtib olunan gündən 3 gün gec olmayaraq yazılı şəkildə təftiş qrupuna və ya Respublika Dövlət Gömrük Komitəsinə məlumat verir. Akta ilkin yoxlama materiallan ilə yanaşı təftişdə aşkar edilmiş nöqsanlarda bilavasitə təqsiri olan vəzifəli şəxslərin izahatı da əlavə edilir.

Aktın bir nüsxəsi təftiş olunan gömrük orqanının rəhbərinə təqdim edilir və bu barədə aktda qeyd aparılır.

Təftiş edilən ayn-ayn sahələrin təftişi üzrə (kassanın, maddi qiymətlilərin və əsas fondların inventarlaşdınıması və aynca akt tərtib edilir, təftiş qrupunun üzvləri tərəfindən imzalanır və əsas akta əlavə olunur. Aynca tərtib olunan aktın bir nüsxəsi aktı imzalayan vəzifəli şəxsə verilir.

Təftiş aktının tərtibi zamanı obyektivlik, aydınlıq, lakoniklik, aşkar edilmiş fakt və məlumatların dəqiqliyi təmin edilməlidir.

Aktda əks olunan hər fakt üzrə müvafiq sənəd və materiala əsaslanmaqla hansı qanun və ya normativ aktın pozulduğu qeyd olunur.

Təftiş aktına təsdiq olunmamış sənəd və istintaq materiallannm məlumatlannı daxil etmək olmaz.

Təftiş aktında ayn-ayn şəxslər haqqında bu və ya digər əməliyyatın həyata keçirilməsində bilavasitə təqsirkar olduğunu qeyd etməyə icazə verilmir.

Təftiş aktını aşağıdakı ardıcıllıqla tortib etmoktəklifolunur:

1) Giriş lıissosi (təftiş aparılan təşkilatın adı, tabeçiliyi, təftİş qrupunun tərkibi, təftişi aparmaq üçün əsas, yoxlama müddəti, təftiş aparılan təşkilatın rəhbərlərinin familiyası və onların işlədiyi müddət, maliyyə-təsərrüfat fəaliyyətinin bölmələri, təftişin üsulu və s.);

2) Gömrük orqanı üzrə gəlirlər və xərclər smetasının icrası vəziyyəti;

3) Kassa və hesablaşma əməliyyatlan;

4) Əmək ehtiyatlan və əmək haqqı fondundan istifadə;

5) Əsas fondların istifadəsi və saxlanması;

6) Mal-material qiymətliləri və qiymətli blanklardan İstifadə;

7) Gömrük əməliyyatlarının apaniması vəziyyəti;

8) Gömrük orqanlarının struktur bölmələrinin fəaliyyəti;

9) Əsaslı vəsait qoyuluşu;

10) Mühasibat uçotu və hesabatının vəziyyəti;

11) Əvvəlki təftişlər üzrə yerinə yetirilməsinin vəziyyəti;

12) İki həftə müddətindən gec olmayaraq təftişin nəticəsinə baxmaqla aşkar edilmiş nöqsan və çatışmazlıqlann aradan qaldınlmasmı, dəymiş ziyanın bərpa olunmasını, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsini, dövlət intizamının pozulmasına səbəb olan amillərin aradan qaldınimasmı, gələcəkdə bu hallara yol verilməməsi üçün təsirli tədbirlər görülməsini temin etmək üçün Komitə rəhbərliyinə arayış təqdim edilməlidir.

Gömrük Komitəsi tərəfindən Respublika Maliyyə Nazirliyinə hər il nəzarət-təftiş işləri barədə müəyyən edilmiş formada illik hesabat və təftiş planının bir nüsxəsi təqdim olunur.

Komitə üzrə daxili nəzarətin gedişinə Maliyyə Nazirliyi tərəfindən nəzarət edilir.

Mövzu 14

*14,1. Hüquq-mühafiz^ fəaliyyəti anlayışı*

Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da gömrük orqanları xüsusi səlahiyyətli dövlət idarəetmə orqanları siyahısına daxildir və gömrük İşi sahəsində idarəetmə aktları qəbul edir.

Unifıkasiyalaşdmlmış belə aktlann İcrası bütün dövlət orqanları, malların gömrük sərhəddindən keçirilməsinə aidiyyəti olan, tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə və təşkilatlar, digər hüquqi və fiziki şəxslər üçün məcburidir.

Konkret təsir dairəsinə malik olan gömrük işi sahəsindəki normativ aktlar dövlət mexanizminin bir hissəsi kimi xarici iqtisadi fəaliyyət İştirakçılan ilə gömrük orqanlan arasında yaranan münasibətləri tənzimləyir. Gömrük işini həyata keçirən icra hakimiyyəti orqanı və onun struktur bölmələri ilə xarici iqtisadi fəaliyyət iştirakçısı arasındakı münasibətlər əslində mürəkkəb kompleks hüquqi münasibətlər sistemi ilə idarə olunur. Bu münasibətlər xarakterindən və şəraitdən asılı olaraq hüququn beynəlxalq, gömrük, dövlət, İnzibati, təsərrüfat, mülki, əmək, vergi, maliyyə, bank, torpaq, nəqliyyat, dəniz, hava, cinayət, cinayət-prosessual, hərbi və digər başqa sahələri ilə tənzimlənir.

İctimai münasibətlərin tənzimlənməsinə yönəlmiş, dövlət tərəfindən müəyyən edilən, yaxud sanksiyalandınlan və qorunan hüquq normalan - ümumilikdə riayət edilməsi məcburi olan davranış qaydalarıdır. Bu normalar da özlü}mndə iki qrupa bölünür:

a) nizamlayıcı (requlyativ) - yəni hüquqi münasibət iştirakçılannm müsbət, başqa sözlə, qanun çərçivəsində davranışını tənzimləyən;

b) hüquq mühafizə - yəni hüquqi münasibət iştirakçılarının qeyri-qanuni hərəkətlərini tənzimləyən.

dafiə edir. Onlar hüquq subyektləri arasında rasional münasibətlərin qorunub saxlanılmasına və möhkomləndirilmosinə yönəlmişdir.

Asanlıqla yoqin etmok olar ki, hər bir hüquqi norma məntiqi ve faktiki (real) qunıluşa malik olur.

Bu məntiqi quruluşu hipoteza, dispozisiya vo sanksiya yaradır; hipoteza hüquqi normanın, həmin normanın tətbiqi üçün faktiki şortləri müəyyən edən hissəsinə deyİlİr; dispozisiyada davranış qaydasının Özü, hüquqi münasibətlərə girən tərəflərin, başqa sözlə hüquqi münasibət iştirakçılarının hüquq ve vəzifələri əks etdirilir; sanksiyada mənfi nəticələr, hüquqi normanın pozulmasında günahkar olan şəxslərin məsuliyyət dərəcəsi göstərilir.

Vəzifəsini yerinə yetintıək üçün normaların real strukturu iki hissədən - hİpotezadan, yəni birinci hissədən və dispozisiyadan (requlyativ normanın ikinci hissəsi), yaxud sanksiyadan (hüquqi-mühafizə normasının İkinci hissəsi) ibarət olur.

Əslində hüquqi normanın məntiqi strukturu dövlətə requlyativ normalara riayət olunmasını hüquq-mühafızo orqanlarının köməyi ilə təmin etmok imkanı verir.

Bilavasitə xarici-iqtisadİ fəaliyyətin tənzimlənməsində iştirak etməklə gömrük orqanları əmtəə və xidmətlərin Azərbaycan Respublikası İlə xarici ölkələr arasındakı hərəkətini daha optimal şəkildə həyata keçirmoyə şərait yaradır, dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edən iqtisadi, maliyyə, siyasi və digər bu kimi məsələlərin həllini təmin edir. Beləliklə, gömrük orqanları Azərbaycan Respublikasının Gömrük Mocəllosi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının “Gömrük tarifi haqqında” Qanunu və digər qanunqüwəli aktlarla müəyyən olunmuş vəzifə və tunksiyalannı yerinə yetirir.

Ümumiyyətlə, xarici-iqtisadi fəaliyyət iştirakçılannm heç də hamısı hüquqi normalara tam riayət olunmasının tərəfdan deyillər. Onların müəyyən hissəsi ya şüurlu olaraq bilərəkdən, ya da bilməyərəkdən müəyyən edilmiş normaları pozmuş olurlar. Belə ballann qarşısının alınması üçün ümumi dövlət sisteminə və onun

şaxələrinə - hüquq-mühafizə orqanlarına (prokurorluq, məhkəmə, DİN, MTN, DGK) hüququn pozuntulardan qorunması və bərpa edilməsi funksiyaları tapşırılır.

Tətbiq edilən normanın qorunması xarici-iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanlarının vəzifəli şəxslərinin müsbət, arzu-olunan, hüquqi və qeyri-hüquqi hərəkətlərinin müdafiəsində, həmçinin gömrük sahəsində meydana çıxan dövlət, cəmiyyət və şəxsiyyət üçün zərərli, habelə, təhlükəli münasibətlərin aradan qaldırılması və qarşısının alınmasında təzahür tapır. Gömrük orqanlan- nın fəaliyyətinin bu hissəsi hüquq normaları ilə müəyyən edilmiş hüquqazidd hərəkətlərə, yaxud hərəkətsizliyə qadağanlarda, qada- ğanlann pozulmasına görə nəzərdə tutulmuş sanksiyalarda, həmçinin gömrük orqanları tərəfindən bu sanksiyaların tətbiq edilməsində öz əksini tapır. Beləliklə, hüquqi normalann qorunması funksiyası müxtəlif üsullarla, o cümlədən hüquqi normaları pozanlara qarşı dövlət tərəfindən məcburedici tədbirlərdən istifadə edilməklə reallaşdırılır.

Özlüyündə dövlət məcburetmə tədbirləri pozucudan - istər fiziki, istərsə də hüquqi şəxs olsun - vurulmuş zərərin tutulması, onun bəzi hüquqlarının məhdudlaşdırılması, hüquqi tərəfi zərərçəkən tərəf-dövlət orqanları, yaxud vəzifəli şəxslər • qarşısında müəyyən öhdəliklər yerinə yetirməyə məcbur etmək və s. ilə ifadə olunur.

Vəzifə və fıınksiyalarmın yerinə yetirilməsi sistemində gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti dövlətçilik fəaliyyətinin bir növü olub, gömrük-hüqüq münasibətləri sahəsində dövlətin daxili və xarici gömrük funksiyalarının təzahürüdür. Bu fəaliyyətin məqsədi gömrük işi sahəsində dövlət, inzibati, gömrük, mülki və digər hüquq sahələrinin hüquqi normalannın istifadəsi, icrası, onlara riayət olunmasının təmin edilməsidir.

Legitim əsaslarla fəaliyyət dairəsində hüququn normalarına riayət olunması onun subyektlərinin, gömrük orqanlannm vəzifəli şəxslərinin və xarici iqtisadi fəaliyyət iştirakçılarının hüququn tələblərinə tabe olması və bu norma ilə qadağan olunan hərəkətlərdən imtina edilməsidir. Buna misal olaraq xarici-iqtisadi fəaliyyət

iştirakçılarının Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin normalarına riayət **edərək,** malların bəyan **edilməsinə yönəlmiş h**ərəkətlərini vo gömrük orqanlarının vəzifəli şəxslərinin bəyannamələrin qəbulu üzrə hərəkətlərini göstərmək olar.

Ümumiyyətlə, gömrük orqanlarının fəaliyyəti sahəsində hüquqi normalardan istifadə hüquqi münasibət subyektlərinin, gömrük orqanlarının vəzifəli şəxslərinin və xarici-iqtisadi fəaliyyət iştirakçılarının bu norma ilə nəzərdə tutulan hüquqlarının həyata keçirilməsidir. Hüquqi normadan istifadəyə misal olaraq xarici-iqtisadi fəaliyyət iştirakçısının mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdir! Inıəsınə dair konsultasiya (məsləhət) və məlumat almasını göstərmək olar.

Konkret olaraq, hüquqi normanın icrası dedikdə fiziki, hüquqi, yaxud vəzifəli şəxsin hüquqi norma üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəlmiş hərəkətləri başa düşülür.

Dövlət tərəfindən hüquqi normanın tətbiqi dövlət orqanlarının, vəzifəli şəxslərin onun müddəalarının həyata keçirilməsi üzrə hakim iyyət-requlyativ hərəkətləridir.

Əslində gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti onlara həvalə edilmiş bütün funksiyaların reallaşdırılması qaydasında həyata keçirilir. Belə ki, bu funksiyaların hamısı hüquq normalarının müəyyən edilməsi və onların reallaşdınıması ilə bağlıdır. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 10-cu maddəsi ilə tətbiq edilən bu funksiyalann özü gömrük orqanları tərəfindən digər hüquqi normaların qorunması üçün riayət olunması, istifadə, icra və tətbiq edilməsi tələb olunan hüquq normalarıdır.

Dövlət gömrük orqanları Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə əsasən aşağıdakı funksiyaları yerinə yetirirlər:

-icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş qanunvericilik aktlarına riayət edilməsini təmin edirlər;

-Respublikada gömrük İşini həyata keçirərkən idarələrin, müəssisələrin, təşkilatların və fiziki şəxslərin, həmçinin sahibkarların hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görürlər;

- dövlət tərəfindən müəyyən edilmiş səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təmin edirlər:
- cəmiyyətin mənəviyyatını və Azərbaycan Respublikasının iqtisadi mənafeyini qoruyurlar;
- iqtisadi münasibətlərdə gömrük tənzimləntnəsi vasitələrini tətbiq edirlər;
- lokal gömrük zonalan yaradırlar;
- dövlət gömrük sərhədindən keçirilən mallar barədə iqtisadi siyasət tədbirlərinin işlənib hazırlanmasında iştirak edir və bu tədbirləri həyata keçirirlər;
- ictimai asayişin, dövlət təhlükəsizliyinin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, Azərbaycan istehlakçılannın mənafeyinin müdafiəsi sahəsində tədbirlər həyata keçirilməsinə kömək edirlər;
- nəqliyyat vasitələrinin və malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydalarına riayət olunmasını təmin edirlər;
- əməliyyat-axtarış fəaliyyətini həyata keçirirlər;
- silahın, narkotik vasitələrin, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanlann və bitki növlərinin, eləcə də digər mallann Azərbaycan Respublikasının gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını alırlar;
- işgüzar qaydada beynəlxalq terrorçuluqla mübarizəyə və Azərbaycan Respublikasının təyyarə limanlarında beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasına köməklik göstərirlər;
- liberal xarici-iqtisadi siyasət şəraitində Azərbaycan Respublikasının gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi üçün şərait yaradırlar;
- mərkəzləşdirilmiş qaydada gömrük nəzarətini və gömrük

- ümumi səlahiyyətləri çərçivəsində gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydalarının vo vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparırlar;
- əhalinin və dövlətin mənafelərini müdafiə etməklə öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçirirlər;
- liman və körpülərdə gömrük nəzarətini təşkil edirlər;
- liberal və konservativ iqtisadi siyasət tədbirlərinin tətbiqini müəyyən edilmiş qaydada həyata keçirirlər;
- icrasına nəzarəti Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş gömrük İşinə aid beynəlxalq öhdəliklərini yerinə yetirilməsini təmin edirlər;
- funksiya və vəzifələri ilə bağlı olaraq Azərbaycan Respublikasının gömrük orqanları gömrük işi ilo əlaqədar beynəlxalq müqavilələrin işlənib hazırlanmasında iştirak edirlər;
- inkişaf etmiş dövlətlərin gömrük işinə aid məsələlərlə məşğul olan gömrük və başqa səlahiyyətli orqanları ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər;
- cəmiyyətdə narkomaniyanın yayılmasına qarşı hüquq-mühafizə və digər dövlot orqanları ilə birgə mübarizədə öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirirlər;
- Azərbaycan Respublikası Milli Məclisinə, Azərbaycan Respublikası prezidentinə başqa dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara, vətəndaşlara gömrük müəssisələri üzrə müəyyən edilmiş qaydada məlumatlar verilməsini təmin edirlər.

Beləliklə, gömrük orqanlarının fəaliyyəti qanununlar çərçivəsində həyata keçirilməklə dövlətin hüquq-yaratma, hüquq-tətbiqet- mə, hüquq-icraetmo, hüquq-mühafizə aspektlərinə malikdir.

İcrası gömrük orqanlarına tapşırılmış hüquq-mühafizə fəaliyyəti bir sıra xarakterik cəhətlərə malikdir.

Respublikada qüvvədə olan qanunvericilik hüquq-mühafizə

## *14.2. Gömrük orqanlarmtn hüquq-mühafizd foaliyyətinitt formaları*

Hüquq-mühafizə fəaliyyəti gömrük orqanlarının qarşısında qoyulan məqsəd və vəzifələrdən asılı otraq bir-biri ilə bağlı olan və biri digərim tamamlayan müxtəlif formalarda həyata keçirilir.

Əməliyyat-axtarış, inzibati-hüquqi, inzibatı-prosessual, cinayət-hüquqi, cinayət-prosessual və s. foraıalar gömrük orqanlan üçün səciyyəvidir.

Sistemli hüquqi normalara əməl olunmasının təmin edilməsindən başqa Azərbaycan Respublikasının qanunvericiliyinin və onun beynəlxalq müqavilələrinin pozulmasına yönəlmiş qanun pozuntularına hazırlıq işlərinin görülməsi və həyata keçirilməsinin aşkarlanması, belə qanunpozmalann qarşısının alınması, yaxud zərərli nəticələrinin azaldılması, qanunu pozanlann hərəkətlərinin qarşısının alınması da hüquq-mühafizə fəaliyyətinin əsas məqsədləridir.

Əsas etibarı ilə gömrük orqanlarmın hüquq-mühafizə fəaliyyətinin inzibati-hüquqi forması - gömrük və valyuta nəzarətinin həyata keçirilməsi, malların gömrük rəsmiləşdirilməsi, təşkilatdaxili idarəetmə fəaliyyəti vo digər dövlət orqanlan ilə əlaqələr yaratmaq hesabına inzibati hüquqpozmaların əlamət və faktlarında, həmçinin də qanunvericiliyin cinayət, gömrük, vergi və s. sahələri üzrə pozuntulann aşkar edilməsində təzahür edir.

Nəticə etibarı ilə gömrük orqanlannın hüquq-mühafizə fəaliyyətinin inzibati-prosessual forması aşkara çıxanimış inzibati-hüquqi normalarla və gömrük qaydalan ilə müəyyən olunan tələblərdən kənara çıxma faktlannın yoxlanılmasına, pozuntulara aidiyyəti olan şəxslərin aşkar edilməsinə, törədilmiş hərəkətlərin təsnifatlandırıl- masına və məsuliyyət dərəcəsinin müəyyən edilməsinə, habelə, qeyri-qanuni bərəkətlər nəticəsində dövlətin maraqlarına dəyən ziyanın qarşısının alınmasına, yaxud, azaldılmasına yönəlmiş inzibati- prosessual hərəkətlər edilməsində əks olunur. Bu hərəkətlər aşkar edilmiş inzibati hüquqpozmalar və ya gömrük qaydalannm pozulması hallan barədə protokollar tərtib edilməsi, gömrük qaydalannm

pozulması üzrə işlərin açılması və onların icraatı, inzibati cəzaların müəyyənləşdirilməsi və tətbiqi kimi formalarda həyata keçirilir.

Obyektiv olaraq gömrük orqanlarının bir təhqiqat və istintaq orqanı kimi hüquq-mühafizə fəaliyyətinin cinayət-prosessual forması, mübarizə apanıması səlahiyyəti gömrük orqanlarına verilmiş cinayətlərin (qaçaqmalçılıq və s.) fakt və əlamətlərinə görə cinayət işi qaldırılması, bu işlər üzrə təhqiqat və istintaqın apanıması, hərəkətlərində iştirakı ilə özünü biruzə verir.

Vəzifə və funksiyalarını yerinə yetirərkən gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin mühüm formalarından biri də öz təhlükəsizliyinin təmin edilməsidir (gömrük mühafizə xidməti). Bu forma həm də daxili inzibati nəzarət tədbirlərini, əməliyyat tədbirlərini, eləcə də, gömrük obyektlərinin, gömrük əməkdaşlarının və onların ailə üzvlərinin fiziki, hərbİ və texniki mühafizəsini əhatə edir. Dövlət tərəfindən verilmiş səlahiyyət növlərindən biri kimi əməliyyat-axtarış fəaliyyəti gömrük orqanlarının kriminalistika, kəşfiyyat vo axtarış kimi xüsusi elementləri özündə birləşdirən hüquq-mühafizə fəaliyyətinin mühüm formalarından biridir.

Universal fəaliyyət forması olmaqla onun təyinatı gömrük nəzarətinin səmərəliliyinin yüksəldilməsindən, cinayət törədilməsi və gömrük qaydalarının pozulması faktlannm və onlann əlamətlərinin aşkar edilməsindən, həmçinin, aiddiyyəti olan şəxslərin, hərəkətlərin, onlara yol açan səbəblərin müəyyənləşdirilməsindən, dövlətin maraqlarına dəyən ziyanın qarşısının alınmasından ibarətdir.

Respublikada qüvvədə olan gömrük qanunvericiliyi digər qanunvericilik sahələri ilə sıx bağlı olduğundan yalnız kompleks

### *!4.3. Gömrük orqanlarının häquq~mühafiz9 faaliyyotinin inzibati-hüquq formaları*

Bildiyiniz kimi, hüquq sahələri bir-birindən hüquq tənzimləmə predmetinə və metoduna görə fərqlənir. İnzibati hüququn predme- tı əsasən icra hakimiyyətinin (bizim misalda Dövlət Gömrük Ko

mitəsi) təşkili və fəaliyyəti prosesində təşəkkül tapan ictimai münasibətlərin məcmusudur. Daha doğrusu inzibati hüquq və idarəetmə hüququ deməkdir.

İnzibati hüquq dövlət idarəçiliyinin formalaşması və fəaliyyət göstərməsinin gedişində ortaya çıxan münasibətləri nizamlayır. Onun obyekti icraedici-sərəncaraverici orqanların təşkili zamanı və onların inzibati fəaliyyəti prosesində digər dövlət orqanlannın rəhbərləri tərəfindən təşkilatdaxili fəalİ3^ətin həyata keçirilməsi zamanı meydana çıxan münasibətlərdir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, ölkəmizin xarici iqtisadi münasibətləri Azərbaycan Respublikasının səlahiyyətinə aiddir. Bununla bərabər ölkə qanunvericiliyinə uyğun olaraq mərkəzi hakimiyyət orqanları və özəl təşkilatlar da xarici iqtisadi münasibətlər qura bilərlər. Bu sahədə görülən işlərdən biri də gömrük orqanlarının fəaliyyətinin təşkili və idarə edilməsidir.

Gömrük işinin təşkili sahəsində aparıcı funksiya Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsidir. DGK ölkədə gömrük işini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

DGK gömrük orqanlannın normal fəaliyyətinə mane olan inzibati xətalar da daxil olmaqla, gömrük qaydalanmn pozulması hallarına qarşı mübarizə aparır. Gömrük orqanlannın hüquq-mühafizə fəaliyyətinin inzibati hüquq fomıalan əvvəllər 1997-ci ildə qəbul olunmuş Gömrük Məcəlləsinin müddəalan əsasında həyata keçirilirdi.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi" ("Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub: 11 iyul 2000-ci il, N906-1 Q: dərc olunub: 30 avqust 2000- ci il) "Azərbaycan Respublikasının İnzibati Xətalar Mcəiləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin 29 avqust 2000-ci il tarixli 389 saylı Fərmanı ilə 1 sentyabr 2000-ci ildən

dır: “Müoyyon edilsin ki homin Mocollonin 258-ci, 260-cı, 261.2- ci, 263-cii, 264-ciİ, 265.0.1-ci, 265.0.3-265.0.5-ci maddəsinin adında; 266.1-266.3-cü, 267-ci, 268-ci, 269-cu, 272-ci, 273-cü, 275-ci, 276-cı, 277-ci, 282.2-ci, 287-ci, 288-ci, 291-ci 292-ci və 326-cı maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzərdə tutulur”.

Göstərilən Formanın 3-cü bəndində isə Dövlət Gömrük Komitəsinin maddələr üzrə səlahiyyətləri verilmişdir: “Azərbaycan Respublikasının İnziatİ Xətalar Məcəlləsinin 357.0.3-cü maddəsinə müvafiq olaraq müəyyən edilsin ki; həmin Məcəllənin 258-29l-ci, 293-295-ci vo 326-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi baxır”.

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin tosdiq edilməsi, qüvvəyə minməsi vo bununla bağlı hüquqi tənzimləmə məsololori haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına doyişiliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında” (dərci 15 fevral 2004-cü il) Azərbaycan Respublikasının Qanununa görə, “Azərbaycan Respublikasının 1997-ci il 10 iyun tarixli 311-İQ nömrəli qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, N6, maddə 447; 1999-cu il, NIO, maddə 570; 2001-ci il, NI 1, maddələr 676, 686, 695, N12 maddə 736; 2002-ci il, Nl, maddə 4, N8 maddə463; 2003-cü il,Nİ, maddələr3,16, 23) aşağıdakı doyişiliklər edilmişdir; “I. X bölmə çıxarılsın: 2-60-cı fəsil çıxarılsın”.

Bütün bu dəyişdikləri və əlavələri Sizlərin diqqətinə çatdırmaqda əsas məqsədimiz, hal-hazırda inzibatİ-hüquqpozmalar barədə qüvvədə olan qanunvericilik aktları İlə Sizləri tanış etməkdir.

“İnzibati Xətalar Məcəllə”sinin XXI fəsli “Gömrük qaydaları əleyhinə olan inzibati xətalar” adlanır.

Gəlin əvvəlcə “inzibati xəta" anlayışının nə demək olduğunu öyronok. İnzibati Xətalar Məcəlləsi ilə qorunan İctimai münasibət-

lərə qəsd edən, hüquqazidd olan, toqsirli sayılan vo inzibati məsuliyyotə səbəb olan, əməl inzibati məsuliyyətə səbəb olan inzibati xəta adlanır. Gördüyümüz kimi qəsdən və ya ehtiyatsızlıq üzündən törədilməsindən asdı olmayaraq hər bir hərəkət və hərəkətsizlik inzibati məsuliyyətə səbəb olursa inzibati xəta hesab olunur.

İnzibati xətalar hüquqi əməl sayılır. Lakin heç də bütün hallarda inzibati hüquq normalannın pozulması inzibati qəbahətli əməllər hesab olunmur. Qəbahət inzibati tənbehlərlə qorunan inzibati və digər sahələrin normalarım pozan əməldir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (AR İXM) 6-cı maddəsində müəyyən edilmişdir ki, heç kəs inzibati hüquq pozuntusu ilə əlaqədar inzibati təsir tədbirinə İXM ilə müəyyənləşdirilmiş əsaslardan və qaydadan kənar cəlb edilə bilməz.

İnzibati məsuliyyət o hallarda başlanır ki, şəxs AR İXM-in müvafiq maddələri ilə və ya digər normativ aktlarla nəzərdə tutulmuş əməli törətmiş olsun.

Qəbahət əməli aşkar edildikdə əksər hallarda təqsirli şəxsi inzibati məsuliyyətə cəlb edirlər. Lakin səlahiyyətli dövlət orqanlarının ixtiyarı vardır ki, törədilmiş hüquq pozuntusunun xarakterini və hüquq pozanın şəxsiyyətini nəzərə alaraq, inzibati tənbeh tətbiq etməyərək materialları baxılmaq üçün yoldaşlıq məhkəməsinin və ya əmək kollektivinin müzakirəsinə versin.

İnzibati sanksiyatann həyata keçirilməsi həmişə mütləq qaydada inzibati xəta ilə eynİ zamanda baş vermir, lakin həmin saksiya- lann tətbiqi inzibati xətanın xüsusiyyəti sayılır.

Xəta real gerçəklik faktıdır. Qanunvericilik xətanın əlamətlərini yaratmır, lakin onlardan daha mühüm vo fərqli olanlarını seçİr; seçilmişləri hüquqi çərçivə halına salır, məntiqi hüquq norması tərkibində təsbit edir vo mocburi normaya çevirir. Onda təsbit edilmiş əlamətlər xətanın təsvir edilməsi üçün zəruri və kafi əsas olur. Real əməl yalnız o zaman xəta hesab edilir ki, o, qanunda sadalanmış bütün əlamətlərə malik olsun. Həmin əməllərdən hətta birinin belə mövcud olmaması bütövlükdə əməlin tərkibinin mövcud olmaması deməkdir.

İnzibati məsuliyyoti müəyyənləşdirən normanın hipotezasında (fərziyyəsində) olan hüquqpozmanın qanunvericilik modeli olmaq etibarı ilə, xəta tərkibi onun hüquqi əsasıdır. Tərkibin bütün əlamətlərinə malik olan əməlin törədilməsi isə məsuliyyətin başlanılmasınm faktiki əsasıdır. Daha doğrusu, əgər şəxs tərkibin bütün əlamətlərinə malik olan hüquq pozuntusu törətmişdirsə, deməli, inzibati tənbehlərin tətbiqi üçün əsas vardır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 23- cü maddəsində aşağıdakı inzibati tənbehlər nəzərdə tutulmuşdur:

1) xəbərdarlıq;
2) inzibati cərimə;
3) əmlakın əvəzi ödənilməklə götürülməsi;
4) əmlakın müsadirə edilməsi;
5) xüsusi hüququn məhdudlaşdırılması;
6) Respublika hüdudlanndan kənara inzibati qaydada çıxartma;
7) inzibati həbs.

AR İXM-in XXI fəslində nəzərdə tutulan “Gömrük qaydaları əleyhinə olan inzibati xətalar”ı inzibati tənbeh növlərinə görə qruplaşdırmağa çalışaq;

Xəbərdarlıq müstəqil cəza qismində az sosial təhlükəli inzibati pozuntular törədilməsinə görə, habelə ilk dəfə təqsirli hərəkətlər etmiş, həm də işdə və məişətdə yaxşı səciyyələndirilən şəxslərə münasibətdə tətbiq edilir. Digər tənbeh növləri kimi bu tənbeh növü do yazılı qərar qəbul edilməsi yolu ilə tətbiq olunur. Vəzifəli şəxslərin vətəndaşlara etdikləri şifahi xəbərdarlıq tənbeh sayılmır. tXM-in 24-cü maddəsində göstərilir ki, xəbərdarlıq inzibati tənbeh növü olmaqla hüquqazidd əməlin yolverilməzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici tədbirdir.

Gömrük qaydalannm pozulmasına görə inzibati tənbeh kimi nəzərdə tutulan xəbərdarlıq İXM-in XXI fəslində olan maddələrin heç birində inzibati cəza kimi sərbəst olaraq aynca tətbiq olunmur. Lakin aşağıdakı maddələrdə ilkin tənbeh növü kimi xəbərdarlıq nəzərdə tutulmuşdur;

Maddə 266. Malların, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin Azerbaycan Respublikasının müvafiq icra hakimiyyəti or-

qanınının icazəsi olmadan verilməsi və ya Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına çatdınimaması;

Maddə 268. Azərbaycan Respublikasının gömrük sərhədindən nəqliyyat vasitələrinin keçirilməsi qaydasının pozulması;

Maddə 270. Gömrük rəsmiləşdirilməsinin icraatı qaydasının pozulması;

Maddə 277. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına hesabat təqdim edilməməsi və ya uçot apaniması qaydasına riayət edilməməsi;

Maddə 326. Gömrük işi sahəsində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin tələblərinin yerinə yetirilməməsi.

Cərimə əmlak xarakterli tədbirdir. İXM-in 25-ci maddəsinə görə, İnzibati cərimə bu Məcəllədə nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir.

İnzibati cərimənin aşağıdakı meyarlan (kriteriyaları) vardır:

1) inzibati xətanın çatdığı və ya qarşısının alındığı vaxt Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən şərti maliyyə vahidinin miqdarı;

2) inzibati xətanın başa çatdığı vo qarşısının alındığı vaxt inzibati xətanın bilavasitə obyekti olmuş predmetin (əşyanın) dəyəri;

3) inzibati xətanın başa çatdığı və ya onun qarşısının alındığı vaxt ödənilməli olan, lakİn ödənilməmiş ödənişlərin vo vergilərin məbləği;

4) inzibati xətalara görə alınan cərimənin miqdarı şərti maliyyə vahidinin üç mislindən az ola bilməz;

5) şərti maliyyə vahidi ilə hesablanan və inzibatı xətalara görə fiziki şəxslərdən alınan inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin 40 mislindən, vəzifəli şəxslərdən alınan İnzibati cərimələrin miqdarı şərti maliyyə vahidinin 90 mislindən, hüquqi şəxslərdən alınan inzibati cərimələrin miqdarı şərti maliyyə vahidinin 300 misimdən artıq ola bilməz;

6) inzibati xətanın bilavasitə obyekti olmuş predmetin (əşyanın) dəyəri ilə Ölçülən cərimənin miqdarı həmin predmetin dəyərinin

100 mislindən, ödənilməmiş vo vergilərin məbləği ilə ölçülən cərimənin miqdarı isə həmin ödənişlərin və vergilərin 150%-dən artıq ola bilməz;

7) Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, inzibati cərimə Azərbaycan Respublikasının dövlət büdcəsinə keçirilir.

Gömrük qaydalarının pozulmasına görə inzibati tənbeh kimi İXM-in aşağıdakı maddələrində cərimə nəzərdə tutulmuşdur:

a) qismən, yəni qarışıq inzibati tənbeh növləri nəzərdə tutulmuş maddələr; 258; 259; 260; 261; 266.1; 266.2; 268; 270; 277; 282.2; 286; 287; 293; 326;

b) yalnız cərimə nəzərdə tutulmuş maddələr;

Maddə 262. Xarici valyuta vasitələrinin xaricdən qaytanimaması;

Maddə 263. Gömrük nəzarəti zonası rejiminin pozulması;

Maddə 264. Mallar vo nəqliyyat vasitələri gətirilərkən vo ya apanlarkən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumatın verilməməsi və ya təhrif olunmuş məlumatların verilməsi;

Maddə 265, Qəza və ya qarşısıalınmaz qüvvənin təsiri zamanı tədbir görülməməsi;

Maddə 267. Malların və nəqliyyat vasitələrinin çatdırıldığı yerdə təqdim edilməməsi vo ya onlara aid olan sənədlərin verilməməsi;

Maddə 269. Gömrük nəzarəti altında olan gomiyə və digər üzən vasitələrə yan alma;

Maddə 271. Barəsində gömrük rəsmiləşdirilməsi başa çatmamış mallar vo nəqliyyat vasitələri ilə aparılan qanunsuz əməliyyatlar, onların vəziyyətinin dəyişdirilməsi, onlardan istifadə olunması və onlar üzorində sərəncam verilməsi;

Maddə 272. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının icarəsi olmadan aparılan yük əməliyyatları və digər əməliyyatlar;

Maddə 273. Eyniləşdirmə vasitələrinin dəyişdirilməsi, məhv edilməsi, zədolənməsi və itirilməsi;

Maddə 274. Malları və nəqliyyat vasitələrini bəyanetmə qaydasının pozulması;

Maddo 275. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına gömrük bəyannaməsinin, sənədlərin və əlavə məlumatların təqdim edilməsi müddətinin pozulması;

Maddo 276. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsinin gömrük nəzarəti keçirilməsi üçün əraziyə və binalara daxil olmasına maneçilik törədilməsi;

Maddə 279. Mallann saxlanca qoyulması və onlarla əməliyyatların aparılması qaydalarının pozulması;

Maddə 280. Malların emal edilməsi qaydalarının pozulması;

Maddə 281. Sərbəst gömrük zonalarında və sərbəst anbarlarda istehsal və diger kommersiya fəaliyyətinin həyata keçirilməsi, bunların, tikililərin və qurğuların tikilməsi qaydasının pozulması;

Maddə 283. Mallann məhv edilməsi qaydasının pozulması;

Maddə 284. Müəyyən gömrük rejimi altında yerləşdirilmiş mallar vo nəqliyyat vasitələri ilə qanunsuz əməliyyatlar aparılması, onlardan istifadə edilməsi vo onlar üzərində sərəncam verilməsi;

Maddə 285. Mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən İqtisadi siyasət tədbirlərinin və digər məhdudiyyətlərin tətbiqi qaydasına əmol edilməməsi;

Maddə 288. Barəsində gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallardan istifadə edilməsi və onlar üzərində sərəncam vermə qaydasının pozulması;

Maddə 289. Gömrük ödənişlərindən qanunsuz azad edilməsi, onlann azaldılması və ya ödənilməsi müddətlərinin pozulması;

Maddə 290. Gömrük ödənişlərinin ödənilməsindən yayınma;

Maddə 291. Ödənilmiş gömrük ödənişlərinin qaytanlmasına, ödənclər və digər müavinətlər alınmasına, yaxud müvafiq - ^aslar olmadan onlann qaytarılmasına yönəlmiş hərəkətlər;

Maddə 293-1. Aksiz markası ilə markalanmah olan məhsulların (mallann) belə marka olmadan idxal edilməsi;

Maddə 294. Gömrük brokeri kimi qanunsuz fəaliyyət göstərməsi və ya bu cür fəaliyyət qaydalarının və şərtlərinin pozulması;

Maddə 295. Gömrük daşıyıcısı kimi qanunsuz fəaliyyət göstərilməsi və ya bu cür fəaliyyətin şərtlərinin pozulması;

Yuxarıda sadalanan maddələri inzibati cərimənin meyarlarına uyğun olaraq qruplaşdıraq, şərti maliyyə vahidinin bolli misi İləri ilə ("Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikasının Qanununa görə 1 şərti maliyyə vahidi 27500 manata bərabərdir) cərimələr aşağıdakı maddələrdə öz əksini tapmışdır:

261.2; 263; 264; 266.1; 266.2; 267; 268; 269; 270; 272; 273; 274; 275; 276; 277; 279; 281; 283; 293-1; 294; 295; 326

Aşağıdakı maddələrdə isə cərimə faizlə ödənilir;

258: 259; 260; 261.1; 262; 265; 266.1; 266.3; 271; 278; 280; 282; 284; 285; 286; 287; 288; 289; 290; 291; 293.

Gördüyünüz kimi cərimələrin həm şərti maliyyə vahidi, həm də faizlə ödənilməsi demək olar ki, bərabər saydadır.

Qeyd etmək lazımdır ki, bu Məcəllənin 258-260-cı maddələrində və 2 61.1-ci maddəsində *'az miqdarda olduqda" dedikdə şərti maliyyə vahidinin dörd min mislinədək olan miqdarı (110 mln. manat); 262-ci maddəsində "az miqdarda olduqda" dedikdə şərti maliyyə vahidinin iyirmi min mislinədək olan miqdarı (550 mln. man.) 290-cı maddəsində "az miqdarda olduqda" dedikdə şərti maliyyə vahidinin iki min mislinədək olan miqdarı (55 mln. man.). 293-1-ci maddəsində "az miqdarda" dedikdə isə şərti maliyyə vahidinin iki yüz mislindən (5,5 mln. man.) üç yüz mislinədək olan miqdarı (8 mln. 250 min man.) başa düşülür.

Gömriİk qaydalarının pozulmasına görə inzibati tənbeh kimi, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin götürülməsi nəzərdə tutulmuşdur.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi həmin əşyanın məcburi qaydada dövlət əmlakına əvəzi ödənilmədən keçirilməsindən ibarətdir. İXM-in 27-ci maddəsinə görə, inzibati hüquqi müsadirə həmişə məxsusi tədbirdir.

İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş əşyanın müsadirəsi hakim tərəfindən tətbiq edilir.

Gömrük qaydalarının pozulmasına görə, inzibati tənbeh növü kimi aşağıdakı maddələrdə inzibati xətanın törədilməsində alət və ya

inzibati xotanın bilavasitə obyekti olmuş əşyanın müsadirəsi nəzərdə tutulmuşdur:

Maddə 258. Mallann və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirilməsi;

Maddə 259. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallann gömrük nəzarətindən gizlədilməsi;

Maddə 260. Sənədlərdən və ya eyniləşdirmə vasitələrindən aldatma yolu ilə istifadə etməklə, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi;

Maddə 261. Mallann və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi;

Maddə 278. Müvəqqəti saxlanc anbarı rejiminin pozulması;

Maddə 282. Mallann və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmamast, yaxud həmin əraziyə qaytanimaması;

Maddə 286. Mallann Azərbaycan Respublikasının gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar şəklində keçirilməsi;

Maddə 287. Azərbaycan Respublikasının gömrük ərazisinə gömrük qaydaları pozulmaqla gətirilmiş mallann və nəqliyyat vasitələrinin daşınması, saxlanması, əldə edilməsi, onlardan istifadə edilməsi və onlar üzərində sərəncam verilməsi;

Maddə 293. İdxal olunması üçün xüsusi razılıq (lisenziya) tələb olunan mallann belə razılıq vo ya marka olmadan idxalı.

Gömrük qaydalannın pozulmasına görə inzibati tənbehin digər növləri (inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququn məhdudlaşdınıması; əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartması və inzibatı həbs) tətbiq olunmur.

İXM-in V fəsli bütünlükdə (32-38-ci maddələr) inzibati tənbehin tətbiq olunmasına həsr olunmuşdur. Bu tənbeh yalnız o zaman tətbiq oluna bilər ki, müqəssirin hərəkətlərində qəbahət tərkibi müəyyənləşdirilmiş olsun. Daha doğrusu, əgər əmələ görə hüquq

norması ilo mosuliyyət nəzordə tutulmuş və vətəndaşın hüquqa zidd hərəkətlərində hüquqpozmanın hüquqi norma üzrə nəzərdə tutulan bütün əlamətləri aşkara çıxarılmışdırsa, təqsirli şəxs müvafiq maddə ilə məsuliyyətə cəlb oluna bilər.

Gömrük orqanının (vəzifəli şəxsin) ixtiyarı vardır ki, ona aidiyyəti olan işlərə baxsın, təqsirli şəxsin hərəkətini təfsir edən maddəni sanksiya dairəsində tənbeh etsin, tənbehin növünü və ölçüsünü ona verilmiş sanksiyalar çərçivəsində seçsin.

AR İXM-in 360-cı maddəsinə görə, gömrük qaydaları əlehinə olan inzibati xətalarla əlaqədar olan 258-260, 261.1, 278, 282,284-287, 292, 293 və 293-l-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işiorə rayon (şəhər) məhkəmələri baxırlar. Qalan maddələrdə nəzərdə tutulan xətalara isə Dövlət Gömrük Komitəsinin səlahiyyətli şəxsləri baxırlar.

İnzibati xətalar haqqında işlər üzrə icraat AR İXM-in 362-408- ci maddələrinin, inzibati xətalar haqqında işlər üzrə icraatın mərhələləri 409-438-ci maddələrin və inzibati xətalar haqqında işlər üzrə qərarların icrası isə 439-458-ci maddələrin müddəalarına uyğun olaraq həyata keçirilir.

Yuxanda göstərilən maddələr üzrə inzibati prosesin həyata keçirilməsi qaydaları və ardıcıllığı bütün hüquq-mühafizə orqanları üçün eyni olduğundan, gömrük orqanları üçün eyni olduğundan, gömrük orqanları üçün əlavə şərhə ehtiyac gönnürük.

## Mövzu 15. Gömrük orqanlarının hüquq-mühaflzə fəaliyyətinin cinayət-hüquqi və cinayət-prosessual formaları

### *15.1. Gömrük işi sah»sind» cinayəthr*

Qeyd etmək lazımdır ki, 5 oktyabr 2001-ci ildo qəbul olunmuş “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tətbiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzİ qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qa- nunu ilə Azərbaycan Respublikasının Gömrük Məcəlləsindən 33-cü fosil çıxanimışdır. Bu onunla bağlıdır ki, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi 1 iyun 1997-ci ildo qəbul olunmuşdur vo onunla eyni zamanda qanuni qüvvədə olan Cinayət Məcəlləsində əsasən SSRİ cinayət qanunvericiliyinin nonnalan tətbiq olunurdu.

Məhz buna görə 1997-ci ildo qəbul olunmuş Gömrük Məcəlləsinin 33-cü fəslində dörd maddədən ibarət gömrük işi sahəsində cinayətlər konkret olaraq göstərilirdi. Adı çəkilən fəsilə 2i3-cü - “Kontrabanda (qaçaqmalçılıq)”; 214-cü - “Azorbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi vo arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının orazisinə qaytarıl maması”; 2l5-ci - “Gömrük ödənişlərinin ödənilməsindən yayınma” vo nəhayət 216-cı - “Qanunsuz valyuta omoliyyatlan və valyuta sərvətləri ilə əlaqədar sair əməllər” daxil edilmişdir.

Müstəqil Azəd)aycan Respublikasında aparılan hüquqi islahatlar prosesində bir-birinin ardınca çoxlu məcəllələr, o cümlədən Cinayət və Cinayət-Prosessual Məcəlləsi qəbul olundu. 1999-cu ilin 30 dekabnnda təsdiq edilmiş Cinayət Məcəlləsi gömrük işi sahəsində cinayətlərin tərkibini təkmilləşdirərək onları daha konkret vo dəqiq

Yeni Cinayət Məcəlləsində bu kateqoriyadan olan cinayətlər aşağıdakı formada verilmişdir:

1. Qaçaqmalçılıq (mad. 206);
2. Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama (mad. 207);
3. Gömrük ödənişlərinin ödənilməsindən yayınma (mad. 209.)

Yeni cinayət-prosessual qanunvericiliyi ilə gömrük orqanlarının istintaq aidiyyəti Azərbaycan Respublikası prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanı və Cinayət-Prosessual Məcəllənin 215.S- ci maddəsi ilə müəyyən edilmişdir. Belə ki, Cinayət-Prosessual Məcəllənin 215.5-ci maddəsinə uyğun olaraq CM-in 207 və 209- cu maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə ibtidai istintaq Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aparılır.'Bundan başqa Cinayət Məcəlləsinin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə bu işi başlamış Dövlət Gömrük Komitəsi və ya daxili işlər (polis) orqanları ibtidai istintaqı həyata keçirirlər.

Xarici valyuta vəsaitlərinin xaricdən qaytanimaması (CM, 208 mad.) ilə bağlı cinayət işinin istintaqı Dövlət Gömrük Komitəsinə aid edilsə də, CPM-in215.3-cü maddəsinə görə Cinayət Məcəlləsinin 208-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət üzrə ibtidai istintaqın apaniması prokurorluq orqanlannm səlahiyyətinə aid edilmişdir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, gömrük orqanları əməkdaşlarının vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə törətdikləri cinayətlərlə bağlı cinayət işləri üzrə ibtidai istintaqda prokurorluq tərəfindən aparılır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasmın Milli Məclisi tərəfindən 5 mart 2004-cü ildə "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlanna dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ("Azərbaycan" qəzeti, 1 aprel 2004-cü il). Həmin qanunun IX bəndinə görə, Azərbaycan

Gömrük Məcəliosinə əlavələr və dəyişikliklər edilmişdir. Əgər bu dəyişikliyə qədər gömrük orqanları ancaq təhqiqat aparmaq səlahiyyətinə malik idisə, bu dəyişiklikdən sonra gömrük orqanının istintaq aparmaq hüququ vardır. Belə ki, Gömrük Məcəlləsinin 217-ci maddəsi aşağıdakı redaksiyada qəbul olunmuşdur;

"Maddə 217. Gömrük orqanlan tərəfindən təhqiqat və istintaqın apan İması.

Azərbaycan Respublikasının gömrük orqanlan gömrük işi sahəsində cinayətlər haqqında işlər üzrə təhqiqat və istintaq orqanlandır.

Azərbaycan Respublikasının gömrük orqanlan tərəfindən təhqiqat və istintaqın aparılması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə tənzimlənir."

Gömrük Məcəlləsinə edilmiş dəyişikliklər gömrük işi sahəsində baş verən cinayətlərə qarşı apanlan mübarizədə gömrük orqanlarına səlahiyyətlər verməklə bərabər, bu sahədə onlann qarşısında daha

### *15.2. Azsrbaycan RespubUkasunn gömrük orqanlan torofindan tahqiqatin va istintaqın*

Cinayət-Prosessual Məcəllənin 214-cü və Gömrük Məcəlləsinin 217-ci maddələrinə müvafiq olaraq Azərbaycan Respublikası gömrük orqanlan gömrük işi sahəsində cinayətlər haqqında işlər üzrə təhqiqat və istintaq orqanlarıdır.

Cinayət-Prosessual Məcəllənin 38, 45 və 47-ci maddələrinə əsasən Cinayət Məcəlləsinin 206,207 və 209-cu maddələrində nəzərdə tutulmuş cinayətlərlə bağlı cinayət işi başlama səlahiyyəti konkret olaraq qanun tərəfindən müəyyən edilmiş qaydada gömrük orqanlanna həvalə edilmişdir.

Cinayət-prosessual qanunvericiliyə müvafiq olaraq, təhqiqat cinayət istintaqının ilk mərhələsidir. Təhqiqat ibtidai istintaqın qarşısında duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi naminə onu cinayətin təzə işləri üzıə toplanmış, araşdırılmış və qeyd olunmuş ilk materiallarla təmin edir.

Cinayət-Prosessual Mocollonin 214-cü maddəsinin mahiyyətindən aydın olur ki, təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:

a) ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin icraatı;

b) böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

Burdun belə bir nəticəyə gəlmək olar ki, ibtidai istintaq geniş mənada iki formada - ibtidai istintaq vo təhqiqat formasında aparılır. İbtidai istintaqın aparılmasını nizamlayan cinayət-prosessual qanunvericiliyin normaları, kiçik istisnalarla, demək olar ki, eynilə təhqiqatın gedişatını da nizamlayır.

Təhqiqat müstəqil şəkildə çox az miqdarda cinayət işlərində ibtidai istintaqın əvəzində aparılır.

C inayət-Prosessual Məcəllənin 215.1-ci maddəsində deyildiyi kimi, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət İşləri üzrə ibtidai istintaqın apaniması məcburidir. CPM-in 214-3-cü maddəsinə müvafiq olaraq, bu kateqoriyalı cinayət işləri üzrə cinayətin əlamətləri mövcud olduqda təhqiqat orqanı cinayət işini başlayır və cinayət-prosessual qanunvericiliyini rəhbər tutaraq cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək. habelə cinayət törətməkdə şübhə edilən şəxsi tapmaq məqsədi ilə əməliyyat-axtaiış tədbirləri vo təxirəsalınmaz istintaq hərəkətləri aparır. Təhqiqatı bu şəkildə apararkən CPM-in 147, 148, 153, 207, 209,210, 226-232, 234, 236,238-247,264,268-270, 273-276-cı maddələrinin müddəalanna müvafiq olaraq gömrük orqanların təhqiqatçıları:

- cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;
- şübhəli şəxsi tutmaq üçün, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və köçürmə kimi istintaq hərəkətlərini aparır. Belə texi-rösalmmaz istintaq hərəkətləri tezliklə icra edilməli və on gün müddətində qurtarmalıdır.

**Toxİrosalınınaz istintaq horokotləri dedikdə gömrük orqanlarının təhqiqatçıları tərəfindən baxışın, axtarışın, götürmənin, şəxsi müayinənin, şübhəli vo ya təqsirləndirilən şəxsin dindirilməsi, zərər çəkmiş şəxsin və şahidlərin dindirilməsi və digər hərəkətlərin həyata keçirilməsi başa düşülür.**

**Cinayət-Prosessual Məcəllənin 236.1 -ci maddəsinə müvafiq olaraq, cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının vo iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə gömrük orqanlannm təhqiqatçısı və müstətiqi hadisə yerinin, binaların, sənədlərin, əşyalann və digər predmetlərin baxışını aparır.**

**Cinayətin mühakimə icraatında bir qayda olaraq predmetlərin və sənədlərin baxışı müvafiq istintaq hərəkətləri aparılarkən (hadisə yerinin baxışı, axtarış, götünnə) həyata keçirilir. Baxış nəticəsində predmet və ya sənəd barədə əldə edilən məlumatlar həmin istintaq hərəkəti protokolunda qeyd edilir. Predmetin vo ya sənədin yerindəcə baxışını apannaq mümkün olmadıqda, müstəntiq onları qəbul etməsi barədə müvafiq akt tərtib edərək, qablaşdırır və möhürləyir. Bu halda görülən predmetlərin vo sənədlərin baxışı ayrıca aparılır.**

**Hadisənin aşkar edilməsindən sonra hadisə yerinin təxirə salınmadan baxışı hallan istisna olmaqla, baxış gündüz vaxtı aparılır. Baxış cinayət işi başlandıqdan sonra və həmin iş üzrə təqsirləndirilən və ya şübhəli şəxs olduğu halda aparıldıqda onun apanlmasın- da təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi iştirak edə bilər. Bu halda müstəntiq və ya təhqiqatçı baxışın aparılmasında müdafiəçinin iştirakını əvvəlcədən təmin etməlidir. Hadisə yerinin baxışının aparılmasında azı 2 (iki) hal şahidi iştirak edir.**

**Qanunda göstərildiyi kimi təhqiqatçı və müstəntiq vətəndaşların hüquqlarını pozmamaq şərti ilə görünən obyektlərin baxışını aparır. Zəruri hallarda təhqiqatçı və müstəntiq baxışın aparıldığı yeri və ayrı-ayrı oşyalan ölçür, yerin və ayrı-ayrı əşyaların plan, sxem və cizgilərini tərtib edir, imkan olduqda isə onların foto, video və kino çəkilişlərini aparır (CPM-in 236.4-cü mad.). Baxış zamanı təhqiqatçı və müstəntiq müstəqil və ya mütəxəssisin köməyi ilə iz-**

lori, oşyaları götürür. Hadisə yerinin baxışı qurtardıqdan sonra təhqiqatçı və ya müstəntiq baxışm məzmunu və nəticələri barədə protokol tortib edir.

CPM-in 242-246-cı maddələrində axtanş və ya götürmənin bir istintaq hərəkəti kimi mahiyyəti, məqsədi və iş üçün ohomiyyeti geniş şərh edilmişdir. Qanunda göstərilmişdir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və ya istehsalat binasında, digər yerdə, yaxud hər hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaiann və sönədi ərin olmasını güman etməyə kifayət qə- dor əsas verdikdə mü.stəntiq axtanş apara bilər.

Axtarışdan fərqli olaraq, götünnədə iş üçün əhəmiyyət kəsb edən predmetin və ya sənədin kimdə, yaxud harada saxlanması müəyyən qədər müstəntiqə əvvəlcədən molum olur. Əgər predmetin və ya sənədin salnbi onu könüllü verməkdən imtina edirsə, bu zaman həmin predmet, yaxud sənəd məcburi götürülür. Bundan fərqli olaraq axtarışda isə götürülən predmet və yaxud sənəd təxminən məlum olur, bəzon isə heç məlum olmur. Götürmədə axtanlan predmetin harada saxlandığı məlum olmalıdır. Axtarışda isə axtanlan predmetin yeri molum olmadığından onun axtarılması tələb olunur.

Axtanş və ya götürmə, bir qayda olaraq, məhkəmənin qəran əsasında aparılır. Məhkəmə axtanş və ya götürmə haqqında qəran müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuronm təqdimatı olduqda çıxara bilər.

Axtanş vo götürmə zamanı CPM-in 244.1-ci maddəsinin tələbinə görə azı 2 (iki) hal şahidlərinin iştirakı məcburidir.

Cinayət-prosessual qanunvericiliyinə görə, şəxsi müayinə, məhkəmə-tibb ekspertizasmıp keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə edilən şəxsin ləyaqətini alçaldan və ya səhhəti üçün təhlükəli olan hərəkətlərə yol verilmir. Şəxsi müayinə aparılması barədə məhkəmənin və ya müstəntiqin qəran haqqında qərar çıxanimış şəxs üçün məcburidir. Şəxsin tutulması və ya həbs edilməsi hallan istisna

maqla, insanın iradəsinə zidd onu şəxsi müayinə yalnız məhkəmənin qərarı əsasında apanlır. Təqsirləndirilən və ya şübhəli şəxsin müayinəsinin apanlmasmda onun müdafiəçisi iştirak edə bilər.

Şəxsi müayinə hal şahidlərinin iştirakı ilə aparılmalıdır. Əks cinsdən olan şəxsin soyundum İması zorarəti yarandığı halda müstəntiq, təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin apanlmasmda iştirak edə bilməz. Bu halda müstəntiqin tapşınğı ilə şəxsi müayinə, müayinə edilən şəxslə eyni cinsdən olan mütəxəssis tərəfindən həyata keçirilir.

Şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsi.

Şübhəli şəxsin dindirilməsi onun tutulmasından və ya barəsində qətimkan tədbirinin tətbiq edilməsi barədə qərar ona elan edildikdən sonra aparılır. Şübhəli şəxs tutulduğu halda o, öz ifadələrini müdafiəçinin iştirakı ilo vermək hüququna malikdir.

Qanunvericilikdə nəzərdə tutulmuş qaydaya əsasən, müstəntiq təqsirləndirilən şəxsin dindirilməsini ona ittiham elan edildikdən dərhal sonra aparmalıdır (CPM-in 233.1-ci mad). Təxirəsalınmaz hallar istisna olmaqla, təqsirləndirılon şəxsin dindirilməsi yalnız gündüz vaxtı aparılmalıdır. O, iş üzrə digər şəxslərdən ayrılıqda dindirilməli və onun həmin şəxslərlə ünsiyyətdə olmaması üçün müstəntiq tərəfindən ciddi tədbirlər görülməlidir.

Qanun tələb edİr ki, müstəntiq dindirmə zamanı 'təqsirləndirilən şəxsə ittihamın mahiyyəti üzrə tam və ətraflı izahat verməsinə real şərait yaratmalıdır. Sonra isə təqsirləndirilən şəxs tərəfindən öz müdafiəsi naminə irəli sürülən bütün dəlillər və mülahizələr, işdə olan digər sübutların köməyi ilə hərtərəfli və mükəmməl yoxlanmalıdır. Əks təqdirdə təqsirləndirilən şəxsin bu hüququnun pozulması son nəticədə işin əlavə istintaqa qaytanlmasma gətirib çıxaracaq.

Şahidin ve zərər çəkmiş şəxslərin dindirilməsi ən çox yayılmış istintaq hərəkətidir. Əksər cinayət işləri üzrə şahid ifadəsi əsas və başlıca sübutetmə vasitələrindən biridir. Şahidi dindirmə prosesi ən çətin və mürəkkəb bir istintaq hərəkətidir.

CPM-in 227-ci maddəsinə müvafiq olaraq, şahidi cinayət təqibi üçün əhəmiyyəti olan hər bir hal üzrə, o cümlədən şübhəli, təqsirlən-

dirilon, zəror çokmiş şəxsin, digər şaliidlorin şəxsiyyəti barədə dindirmək olar. Qanun şahidin dindirilməsi zamanı onun nümayəndəsinin (vəkilin və ya digər şəxsin) iştirak etməsinə tam imkan yaradır.

Gömrük orqanlarının təhqiqatçılan vo müstəntiqlərinin çağınşı İlə şahid qismində ifadə vermək hər bir vətəndaşın vəzifəsidir. Şahid istintaqa golnıokdon boyun qaçırdıqda müstəntiqin qərarı ilo polis orqanları tərəfindən məcburi sürətdə gətirilir. O, üzürlü səbəbdən golc bilmədikdə, bu barədə müstəntiqə vaxtında xobor vennəlidir.

CPM-iıı 231-ci maddəsində qeyd edilir ki, şahidlərin çağırılması və dindirilməsi üçün müəyyən edilmiş qaydalar eyni ilə zərər çəkmiş şəxsin çağırılması vo dindirilməsi zamanı da tətbiq edilir. Amma şahiddən fərqli olaraq, onun dindirilməsinin bİr sıra özünə**məxsus** xüsusiyyətləri vardır. Bu əsasən zərər çokmiş şəxsin ibtidai araşdırmada tutduğu pro.sessual vəziyyət İlə bağlıdır. Belə ki, zərər çokmiş şəxs prosessual fəaliyyətin subyekti olmaqla, eyni zamanda cinayət işinin bəllində marağı olan şəxsdir. Məhz buna görə də müstəntiq ibtidai araşdırma zamanı zəror çokmiş şəxsin cinayət işinin həllinə olan marağını nəzərə alaraq, dindirmə prosesində onun tərəfindən təqdim olunan məlumatları və materiallan diqqətlə aydınlaşdırmalı və bu məlumatların no dərəcədə həqiqətə uyğun olmasım müəyyən etmək məqsədi ilə onlan işdə olan başqa sübutlarla müqayisə edib yoxlamalıdır.

Zərər çəkmiş şəxs CPM-in 87,6,2-ci maddəsinə müvafiq olaraq, ibtidai araşdıntıa zamanı ifadə vennək hüququna malikdir. O, ibtidai araşdırmanın istənilən anında, sayına məhdudiyyət qoyulmadan, ifadə verə bilər. Çünki zərər çəkmiş şəxs ifado verməkdən öz marağım müdafiə etmək vasitəsi kimİ istifadə edir.

Gömrük orqanlarının təhqiqat və istintaq fəaliyyətinə aid olan cinayət işləri CM-in 206-207 və 209-cu maddələri əsasında qaldırılır. CM-in 206 və 207-ci maddələrinin tərkibini təşkil edən əməllər (hərəkət vo ya hərəkətsizlik) CM-in 15.3-cü maddəsinə görə böyük ictimai təhlükə törətməyən cinayət hesab olunur.

C inayət-Prosessual Məcəllənin 215.1-ci maddəsinin tələbinə görə gömrük orqanları CM-in 206 və 207-ci maddələri İlə qaldırıl

**mış cinayət işləri üzrə təhqiqatı 10 (ən) gün müddətində, amma CM*in 209-cu maddəsi ilə qaldırılmış cinayət işi üzrə təhqiqatı tam şəkildə apannağa səlahiyyətlidirlər.**

**Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə cinayət işinin ibtidai istintaqı, cinayət işinin başlanmasından ən geci 2 (iki) ay keçdikdən sonra başa çatmalıdır (CPM, 218.2.1-ci maddə).**

**İbtidai istintaqın müddəti cinayət işinin başlandığı gündən he* sablanır, işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir.**

**Onu da qeyd etmək lazımdır ki, Cinayət-Prosessual Məcəllənin 214.4-cü maddəsində izah edilir ki, məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat CM-in 127.1, 128-132, 174-176, 177.1, 186.1, 187,1, 187.2, 196.1, 197.1 və 201.1-ci maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır. Bu siyahıda CM-in 209-cu maddəsi göstərilmişdir. Lakin yuxarıda qeyd edildiyi kimi, CM-in 15.2-ci maddəsinə görə CM-in 209-cu maddəsinin tərkibini təşkil edən əməllər böyük ictimai təhlükə törətməyən cinayətlər hesab olunur və bu növ cinayətlər üzrə cinayət işi gömrük orqanının təhqiqatçıları tərəfindən qaldırılaraq tam miqyasda təhqiqat fonnasında aparıla bilər.**

**Gömrük Məcəlləsinin 218, Cinayət-Prosessual Məcəllənin 47, 207, 209 vo 210-cu maddələrinə görə cinayət işini başlamağa səlahiyyətli olan gömrük orqanlarından və vəzifəli şəxslərdən tələb olunur ki, hər bir cinayət barədə daxil olan ərizə və məlumatları vaxtında qəbul edib, onları yoxlayıb müvafiq qərar çıxartsınlar.**

**Azərbaycan Respublikasının gömrük orqanları törədilmiş, törədilən və ya törədilməsinə hazırlıq görülən cinayətlər haqqında məlumatlara baxanda, Azərbaycan Respublikasının cİnayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi surətdə riayət etməlidirlər.**

**Cinayət-prosessual qanunvericilikdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında daxil olmuş məlumatlara baxılması qaydası da çox aydın və geniş şəkildə şərh edilmişdir. CPM-in 207-ci maddəsinin mahiyyətindən bəlli olur ki, gömrük orqanının təhqiqatçısı, müstəntiqi və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata**

keçiron prokuror törodilıniş vo ya hazırlanan cinayət haqqında fiziki və ya hüquqi şəxs tərəfindən daxil olmuş, habelə onun səlahiy-yotlorinə aid olan və kütləvi informasiya vasitələrində eks etdirilmiş vo təsdiq edən sənədlərlə birgə təqdim edilmiş məlumatı dərhal qeydə alır və mahiyyəti üzrə ona baxaraq qərar qəbul edir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, daxil olmuş ərizə və məlumatlar cinayət işini başlamaq üçün kifayət qədər əsasları özündə əks etdirmədiyi hallarda cinayət prosesini həyata keçirən gömrük orqanlarının tohqiqatçılan və müstəntiqləri cinayət işini başlamaq əsaslarını yoxlamaq üçün zəruri materialları tələb etməyə həm məlumatı verən şəxsdən, həm də başqa vətəndaşlardan və vəzifəli şəxslərdən izahat almağa səlahiyyətlidirlər. Amma onu da unutmaq olmaz ki, belə yoxlama istintaq bərəkətləri həyata keçirmək metodu ilə apanimamah vo eləcə də təhqiqatı və ibtidai istintaqı əvəz etməməlidir. Çünki cinayət-prosessual qanunvericilik cinayət işini başlayanadək (hadisə yerinə baxışın keçirilməsi istisna olmaqla) hər hansı hərəkətlərin apartlmasma icazə vermir.

Cinayət-prosessual qanunvericilik cinayət haqqında ərizələrə və məlumatlara baxılmasının müddətini də konkret və dəqiq müəyyən etmişdir. Belə ki. CPM-in 207.1.2-ci maddəsinə müvafiq olaraq, gömrük orqanlannın təhqiqatçıları və müstəntiqləri zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) aldıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar isə 20 (iyirnıi) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edir.

### *15.3 Narkotik vasitələrin və psixotrop maddələrin nəzarət altında göndərilməsi*

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq müasir dövrdə dünya dövlətlərinin hüquq-mühafizə orqanlarının, o cümlədən gömrük orqanlannın ən

larindən biridir. Bu kateqoriyadan olan cinayətlərlə mübarizə beynəlxalq aləmdə bütün dövlətlərin səylərini bir yerə cəmləşdirməyi son dərəcə zəruri bir faktora çevi nn işdir. Bu mübarizə müxtəlif yollar vo üsulilarla həyata keçirilir. Homin üsullardan biri də narkotik vasitələrin və psixotrop maddəlorin nəzarət altında göndərilməsidir.

Narkotik vasitələrin vo psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısım almaq məqsədilə həm beynəlxalq miqyasda, həm də hər bir dövlətdə konkret qanunlar qəbul edilmişdir. Belə ki, beynəlxalq miqyasda bu mübarizənin hüquqi əsasını 20 dekabr 1988-ci ildə qəbul edilmiş və 11 noyabr 1990-cı ildə qüvvəyə minmiş “Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə haqqında” BMT Konvensiyası təşkil edir. Həmin Konvensiyanın birinci maddəsində deyildiyi kimi “nəzarət edilən göndərişlər elə proseduradır ki, bu zaman narkotik vasitələrin vo psixotrop maddələrin hüquq-mühafizə orqanları tərəfindən aşkar edilmiş qanunsuz vo ya şübhə doğuran partiyası hüquqpozmanın törədilməsində iştirak edən şəxsləri aşkar etmək məqsədilə onların səlahiyyətli orqanlarının icazosİ və müşahidəsi altında bir və ya bir neçə ölkənin ərazisinə aparılmasına, gətirilməsinə və ərazisindən keçirilməsinə yol verilir”.

Mütərəqqi beynəlxalq normalar nəzərə alınmaqla, Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq məqsədilə müvafiq qanunlar qəbul edilmişdir: “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlann qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (206.2-cİ maddə); “Əməliyyat-axtan^, fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Gömrük Məcəlləsi.

Gömrük Məcəlləsinin 36-cı fəslində göstərilmiş 222, 223 və 224-cü maddələrin analizi göstərir ki, bu qanundan gömrük orqanlarının üç müstəqil funksiyası meydana çıxır:

1) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq (maddə 222);

2) digər əşyalarla əlaqədar nəzarət altında göndərilmə metodundan istifadə edilməsi (maddə 223);

3) nəzarət altında göndərilmə metodundan istifadə zamanı müsadirə edilən pul vəsaiti və əmlaka sərəncam vermə (maddə 224),

Bu funksiyaların müstəqilliyi onunla izah olunur ki, yuxarıda sadalanan hərəkətlərin üçü də eyni zamanda, ola bilsin ki, baş verməsin, yaxud baş verdiyi halda bir-biri ilə əlaqədar olmasınlar. Digər tərəfdən onlarla bağlı əməliyyat-axtarış tədbirlərinin hazırlanıb həyata keçirilməsi və metodikası arasında da böyük forq olacaqdır.

GM-in 222-ci maddəsinə əsasən Azərbaycan Respublikasının gömrük orqanları sərbəst olaraq aşağıdakı qərarlardan birini qəbul edə bilərlər: a) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz beynəlxalq dövriyyəsinin qarşısım almaq; b) dövriyyədə iştirak edən şəxsləri aşkar etmək məqsədi ilo ayrılıqda götürülmüş hər bir halda xarici dövlətlərin gömrük və başqa səlahiyyətli orqanları ilə razdaşmalara uyğun olaraq vo ya Azərbaycan Respublikasının beynəlxalq müqavilələri əsasında nəzarət altında göndərilmo metodundan istifadə edib, qanunsuz dövriyyəyə daxil edilmiş narkotik vasitolorin, psixotrop maddələrin öz nəzarəti altında Azərbaycan Respublikasına gətirilməsinə, Azərbaycan Respublikasına və ya onun ərazisindən tranzitlə keçirilməsinə yol vermək,

Qanunda konkret olaraq göstərilmişdir ki, nəzarət altında göndərilmə metodundan istifadə haqqında qoran Azərbaycan Respublikasının gömrük işinin təşkilinə və aparılmasına məsuliyyət daşıyan Azərbaycan Respublikasının Gömrük Komitəsinin rəhbərliyi qəbul edir. Gömrük orqanlarına belə bir sərbəstliyin verilməsi çox vacib bir amil olmaqla, eyni zamanda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısını almaq işində operativ fəaliyyət göstərməyə real imkan yaradır.

Gömrük orqanlarının təcrübəsinə əsaslanaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının gömrük sərhədindən qanunsuz olaraq digər əşyaların da keçirilməsi istisna təşkil etmir, əksinə belə hallar daha tez-tez müşahidə olunur. Belə olan halda gömrük orqanları GM-in 222-ci maddəsində nəzərdə tutulan qaydanı

tətbiq etməklə cinayət törədilməsi üçün alət və ya vasitə olan, həmçinin cinayətkar yolla əldə edilmiş digər əşyalarla əlaqədar no* zarot altında göndərilmə metodundan istifadə edə bilərlər (GM-in 223-cü maddəsi).

Gömrük Məcəlləsinin 223-cü maddəsində göstərilən əşyalarla əlaqədar nəzarət altında göndərilmə metodundan istifadə haqqında qərar Azərbaycan Respublikasının Gömrük Komitəsinin rəhbərliyi tərəfindən qəbul edilir və müvafiq qanunvericiliyin tələbinə görə bu barədə dərhal Azərbaycan Respublikası baş prokuroruna məlumat verilməlidir.

Praktikada nəzarət altında göndərilmə metodundan isticə zamanı pul vəsaitinin və əmlakın müsadirə edilməsi hallan da baş verir. Müsadirə olunmuş pul vəsaiti vo əmlakla əlaqədar məsələnin həlli də qanunvericilikdə öz konkret şərhini tapmışdır (GM-in 224-cü maddəsi).

Belə ki, nəzarət altında göndərilmə metodundan istifadə edilməklə açılan vo qarşısı alınan cinayətlər haqqında işlər üzrə Azərbaycan Respublikasının və xarici dövlətlərin məhkəmələri tərəfindən müsadirə edilən əmlakın realizə olunmasından əldə edilən pul vəsaitləri Azərbaycan Respublikasının Gömrük Komitəsi və xarici dövlətlərin səlahiyyətli orqanlarının razılaşmalarına müvafiq olaraq, gömrük və digər səlahiyyətli dövlət orqanlarının nəzəri altında göndərilmə metodundan İstifadədə iştirak edən dövlətlər arasında

### *15.4 Gömrük orqanlarının hüquq-mühafiz^ fəaliyyotinäB narkotiklərin qeyri-qanuni dövriyyəsini qarşı mübarizə*

#### *15.4.1. Narkotik vasitələr anlayışı*

Minilliklər ərzində bitkilərin müəyyən növlərindən ayinlərin icrası, magiya ilə məşğul olmaq və xoş hisslər almaq, eləcə də müalicə məqsədləri üçün İstifadə olunmuşdur. Sonradan ekstraktlaşdır- ma və ya kimyəvi sintez üsulu ilə bu bitkilərin aktiv

ri alınmağa başlanıldı; çünki onlar bitkilərin özlərindən daha güclü təsir göstərirlər.*

Zəmanəmizdə beynəlxalq nəqliyyatın və ticarətin genişlənməsi və inkişaf etməsi ölkələr arasındakı məsafələri xeyli qısaltmışdır. Əvvəllər yalnız ayrı-ayrı ərazilərdə istifadə edilən bitkilər və narkotik vasitələr dünyanın digər hissələrində əldə edilməyə və geniş yayılmağa başladı vo bu narkotik vasitələrin qanunsuz dövriyyəsinin daha ciddi beynəlxalq cinayətlərə çevrilməsinə kömək etdi.

Hər yerdə belə bir fakt təsdiq edilir ki, narkotik vasitələrin İstehsalı, satışı vo istehlakı dövlətlərin nəzarətində olmalıdır. Narkotik, eləcə də digər təhlükəli vasitələr üzərində ümumdünya nəzarət sisteminin yaradılması zəruriliyi humanitar və sosial səbəblərlə şərtlənir Narkotik vasitələr üzərində nəzarət sistemi yaratmaqda məqsəd onlardan istifadəni tibbi və elmi ehtiyaclar üçün istifadə edilməsi ilə məhdudlaşdırmaqdan ibarətdir.

Narkotik vasitəlordən sui-istifadə edilməsi ayn-ayn istehlakçılara vo onların yaşadığı cəmiyyətə məhvedici təsir göstərir. Narkotik vasitələrdən sui-istifadə edən şəxslər bu və ya digər dərəcədə fiziki, psixoloji, emosional, əxlaqi və maliyyə problemləri ilə qarşılaşa bilərlər. Narkotik vasitələrdən sui-İstifado həmçinin təhsilə və işə təsir edir, şəxsi münasibətlərin, xüsusilə ailə çərçivəsində münasibətlərin miirokkobloşməsinə və hətta qınlmasına sobob olur.

Narkotik vasitələrlə bağlı problemlər ər-arvad, valideyn və uşaqlar arasında qarşılıqlı münasibətləri mürəkkəbləşdirə və kəskinləşdirə bilər. Ərlə, arvadla və ya uşaqla qəddar davranmağın və onların tələblərinə etinasızlığın səbəbi çox zaman narkotik vasitələrdən sui-istifadə edilməsidir. Hamilə qadınların narkotik vasitələrdən sui-istifadə etməsi gələcək uşaqlarda narkotik vasitələrdən asılılığa səbəb ola bilər. Narkotik vasitələrdən sui-istifadə bütövlükdə cəmiyyətdəki həyatın keyfiyyətinin aşağı

**** Bu mövzunun hazırlunmasında UNDCP tarajtndan h'üquq-mühafiza orqanlarının smakdaşlan üçün naşr etdiyi "PyKoeodcmeo opzamaaqu oöjue-duueuubix uatfuü no ıtodzonıoeKe Kadpoe e oÖJiacmu oöecneıeHUJt coÖmo-deıma laKouoe o uapKomuKax'' adlı talimatdan istifada olunmuşdur.***

olur. Narkotik vasitələrin ticarətinin yayılması cəmiyyətdə ciddi narahatçılıq doğurur və cəmiyyətin həyat şəraitinin pisləşməsinə gətirib çıxarır.

Narkotik vasitələrdən sui-istifadə və onlann dövriyyəsi cinayətkarlığın artmasına səbəb olur və bu hüquq-mühafizə orqanları qarşısında çox ciddi problemlər qoyur. Hüquq-mühafizə orqanlannm əməkdaşları narkotik vasitələrin təsiri altında olan, hərəkətləri gözlənilməz və təhlükəli olan şəxslərlə tez-tez qarşılaşmalı olurlar. Narkotik vasitələrin qanunsuz ticarətinə cəlb edilən çox böyük vəsaitlər insanların pulla ələ alınması üçün istifadə oluna bilər. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə hüquq mühafizə orqanları tərəfindən görülən tədbirlərin effektsizliyi və qənaətbəxş olmaması isə əhalidə narazılıq və inamsızlıq yarada bilər.

Müasir narkotik vasitə ticarətçiləri cəmiyyətin təhlükəsizliyinə təhlükə yarada biləcək qədər varlı, güclü və nüfuzludurlar. Qanunsuz dövriyyədə iştirak edən bəzi təşkilatlann hətta xüsusi silahlı dəstələri vardır.

Narkotik vasitələrin sui-istifadəsi beynəlxalq münasibətlərə də zərər vurur. Ölkələr narkotik vasitələr istehsalım məhdudlaşdırmaqda, onlara olan tələbin qarşısını almaqda acizliyə görə bir-birini günahlandırır. Bir ölkə digər ölkənin siyasi xadimlərinin həbsinə order verir. Digəri narkotik vasitələrin istehsalını və dövriyyəsini məhdudlaşdırmaq üsulu kimi üçüncü ölkəyə iqtisadi və hətta hərbi tədbirlərin tətbiq edilməsi mümkünlüyünü nəzərdən keçirir.

Narkotik vasitəni növünə, dadına, iyinə görə və ya sadə kimyəvi analiz yolu ilə dəqiq tanımaq bəzi istisnalar olmaqla çox çətindir. Bundan əlavə, hüquq-mühafizə orqanları əməkdaşlanna izah edilməlidir ki, onlar narkotik vasitəni iyinə və ya dadma görə tanınmağa hətta cəhd etməməlidirlər. Narkotik vasitələrin çoxunu yalnız laboratoriya analizi yolu ilə dəqiq tanımaq mümkündür.

Sözsüz, narkotik vasitələr haqqında qanunlara riayət edilməsinin təmin olunması ilə məşğul olan əməkdaşlar narkotik vasitələr üzərində nəzarətlə bağlı milli hüquqi normalan və prosedurаları hərtərəfli bilməlidirlər. Narkotik vasitələr haqqında qanunlara ria-

yət olunmasının təmin edilməsi üzrə çağdaş fəaliyyət onlardan narkotik vasitələr üzərində nəzarətlə bağlı qəbul olunmuş bütün beynəlxalq-hüquq i normalar (Birləşmiş Millətlər Təşkilatının Konvensiyaları), eləcə də normalann bu topluları arasında qarşılıqlı əlaqələr haqqında, xüsusilə (narkotik vo psixotrop) maddələrin siyahıya daxil edilmə sistemi, yəni nəzarət tədbirlərinin onlara tətbiq edilməsi ilə bağlı biliklər tələb edir.

Söhbət Birləşmiş Millətlər Təşkilatının aşağıdakı konvensiyala-nndan gedir: Narkotik vasitələr haqqında 1961-ci II Vahid Konvensiyası. 196I-Cİ il Narkotik vasitələr haqqında Vahid Konvensiyaya düzəlişlər edilməsi haqqında 1972-ci il Protokoluna uyğun olaraq edilmiş düzəlişlərlə; 1971-ciil Psixotrop maddələr haqqında Konvensiya; 1988-ci il Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aprilması haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyası.

1972-ci il Protokoluna uyğun olaraq edilmiş düzəlişlərlə 1961- ci il Narkotik vasitələr haqqında Vahid Konvensiyada vo 1971-ci il Psixotrop maddələr haqqında Konvensiyada dörd siyahıya daxil edilmiş narkotik vasitələr və psixotrop maddələr üzərində beynəlxalq nəzarət tədbirləri müəyyən edilir. Həmin nəzarət edilməli maddələr onlardan sui-istifadə və onlara narkotik meyillər nəzərə alınmaqla təsnif edilir. 1988-ci il Narkotik vasitələr və psixotrop maddolorin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Birləşmiş Millətlər Toşkiİatmm Konvensiyasında nəzarət altında olan maddələrin qanunsuz hazırlanmasında tez-tez istifadə edilən 12 kimyəvi maddə üzərində (siyahıya daxil edilir) beynəlxalq nəzarət tədbirləri müəyyən edilir.

*Dsrman vasitshri qrupları*

**Psixotrop vasitələr.** Bu dərman vasitələri qavrayışın və şüurun pozulmasına səbəb olur. Onlara analgetiklər, depressantlar, stimul-yatorlar və hallüsinogenlər aiddir.

Analgetiklər. Bu dərman vasitələri şüur pozulmaqla müxtəlif dərəcəli ağrıların zəiflədilməsi üçün istifadə edilir. Analgetiklərm narkotik və qeyri-narkotik növləri vardır.

Depressantlar. Bu qrupa aid dənnan vasitələri həyata mühüm, o cümlədən reflektor funksiyaları ləngitməklə mərkəzi sinir sisteminə (MSS) sakitləşdirici təsir göstərir. Depressantlar sakitləşmə və zəifləmə vəziyyətinə gətirib çıxarır. Onlar yuxulamağa kömək edən sedativ vasitələr şəklində təbabətdə müvafiq dozalarla istifadə olunur. Barbituratlar, analoji birləşmələr və kiçik trankvilizator- lar MMS-nin depressantlandır.

Tiryəkli analgetiklər də depressantlar kimi mərkəzi sinir sisteminə təsir edir.

Hipnoz vasitələri. Onlar yuxu gətirici MMS depressantlandır. Hipnoz vasitələrinə barbituratlar, metakvalon vo xloralhidrat aiddir. Əslində bir çox narkotiklər həm sedativ, həm də hipnoz vasitələridir.

Stimulyatorlar. Bu dərman vasitələri mərkəzi sinir siteminin fəaliyyətini stimullaşdınr və fəallaşdırır. Bəzi stimullaşdıncı vasitələr qanuni müalicə məqsədləri, məsələn, iştahanın kəsilməsi, çəkinin tənzimlənməsi vo depressiyanın (ruh düşkünlüyünün) müalicəsi (psixostimulyatorlar) üçün istifadə edilir. MSS stİmulyatorları amfetamin və kokaindir.

HaLlusinogenlər. Bu vasitələr görmə və eşitmə hallüsinasiyası formasında əhvalın dəyişməsinə və qavrayışın pozulmasına səbəb olmaqla mərkəzi sinir sisteminə təsir edir. Hailüsiongenlərə və ya psixotomimetik maddələrə dietilamid lizergin turşusu (LSD), fen-siklidin və psilosibin aiddir.

*Əczaçılıq terminləri*

Tabletlər tozşəkilli, kristal və ya dənəvər materialları birpuan-sonlu və ya rotasiya həb pressində preslomə (sıxma) yolu ilə alınan bərk dozalaşdırıimtş dərman formalarıdır. Birinci, ölçüyə görə kiçik, işlədilməsi sadə və ucuz olduğundan, bir qayda olaraq, gizli istehsalda istifadə edilir. Həblərin müxtəlif forma)an, ölçüləri və rəngləri ola bilər.

Kapsullar bərk va ya yumşaq jelatmdən hazırlanan əriyən örtükdə saxlanan bərk maddələrin do2:alandır. Onlar, adətən, süni boyanır. Bərk kapsullar, bir qayda olaraq, bir-birinin içinə keçən ikİ hissədən ibarət olur. Yumşaq kapsullar elastikdir və dairəvi, uzunsov, yaxud oval formaya malik olur.

Həblər əczaçılıq materialının silindrik çubuqcuqlar şəklində yaymaq və onu ayrı-ayrı dozalara bölmək yolu İlə alınan kürəcik şəkilli xırda dozaiaşdınımış dərman formalarıdır. Həblər vaxtilə geniş yayılmış əczaçılıq preparatlan növlərindən olsa da xeyli də- rocodə tabletlərə və kapsullarla əvəz edilmişdir.

Tinkturalar bitki xammalından hazırlanan dərman maddələrinin spirtli məhluludur.

Ekstrakt bitki xammalından adətən distillə və ya perkolyasiya yolu ilə alman, dərman maddələrinin konsentrasiyalaşdınlraış cövhəridir.

Sirop dərman vasitələrinin şəkərin konsentrasiyalaşdınimış sulu məhlulu ilə qarışığıdır.

*Dsrman nomenklaturası*

Qeydiyyata alınmış adlar - bu, istehsalçılar tərəfindən konkret dərman vasitələrinə və ya dərman vasitələri qrupuna verilən işarədir. Onlar, adətən, ticarət və ya kommersiya adı kimi məlum olur və dərman vasitəsinin kimyəvi tərkibi ilə bağlı olmur. Əczaçılıq vasitələri çoxlu şirkətlər tərəfindən istehsal olunduğuna görə mahiyyətcə eyni dərman vasitəsi apteklərdə müxtəlif adlarla görünə bİlər.

*KimyBvi ad*

Kimyəvi ad dərman vasitələrinin kimyəvi tərkibini müəyyən edir. Bir çox ölkələrin səhiyyə orqanlarının qəbul etdikləri kimi həkimlərin, əczaçıların və xəstələrin preparatın tərkibini müəyyən edə bilmələri üçün dərman vasitələri markalanarkən kimyəvi addan istifadə edilməsi zəruridir.

*Beyndixatq qeydiyyata aimmamış adiar*

Beynəlxalq qeydiyyata alınmamış adlar (BQAA), həm də növ adları kimi tenınan adlar, kimyəvi adlann evəzediciləri kimi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən işlənib hazırlanmışdır. Onlar istənilən istehsalçı tərəfindən hər hansı hüquqi məhdudiyyət olmadan istifadə edilə bilər ki, bu da əczaçılıq preparatlannın asan tanınmasına imkan yaradır. Aşağıda belə adlara nümunələr verilmişdir.

| | |
|---|---|
| BQAA: | <u>Metadon</u> |
| Kimyəvi ad: | 6-dimetilamin-4, 4-di fenil-3 -heptanon |
| Qeydiyyata alınmış adlar; | Dolophine, Deptidol, Physeptone |
| BQAA: | <u>Fenobarbitol</u> |
| Kimyəvi ad: | 5-etil-5-fenilbarbitur turşusu |
| Qeydiyyata alınmış adlar: | Donnatal, Belladenal, Kinesed, Quadrinal |

| | |
|---|---|
| BQAA: | <u>Diazepam</u> |
| Kimyəvi ad: | 7- xlor-l, 3-dihİdro- 1 -metil-5-fenil-2H-1, 4-benzodiazepin-2-odin |
| Qeydiyyata alınmış adlar: | Valium, T-Quil, Tranquil |

*Dig^r terminhr*

Aşağıck bəzi çoxişlenən terminlərin qısa tərəfləri verilir.

*Tolerantlıq,* Bu terminlə müəyyən mərhələdə meydana çıxan elə vəziyyət başa düşülür ki, bu zaman orqanizm hansısa dərman vasitəsinə və ya dərman vasitələri qrupuna həssaslığım itirir, bunun nəticəsində dəfələrlə istifadə edildikdə dərman vasitəsinin müəyyən dozasına orqanizmin reaksiyası zəifləyir. Başqa sözlə, həmin effekti almaq üçün dərman vasitəsinin dozasının artırılması lazım gəlir.

*Çarpaz tolerantltq,* İki və ya daha artıq dərman vasitəsi eyni fermentlərdən ibarət olduqda orqanizm onlan fərqləndirə bilmir; hətta orqanizmin bu dərman vasitələrini müxtəlif cür qəbul etməsinə bax* mayaraq, tolerantlıq fonnalaşır; belə vəziyyət çarpaz tolerantlıq adlanır. Məsələn, molumdur ki, kodein və heroin çarpaz tolerantlıq törədir.

*Astlthq.* Bu termində hasısa dərman vasitəsinə elə adaptiv (uyğunlaşma) vəziyyəti başa düşülür ki, o, adətən tolerantlıq inkişaf etdikdən sonra meydana gəlir və müvatiq dərman vasitəsinin qəbulu dayandırıldıqda spesifik abstinent (özünü saxlama) simptomları silsiləsi ılo təzahür edir.

*Abstensiya (özänü saxlama).* Bu terminlə asılılıq əmələ gətirən (törədən) dərman vasitəsinin qəbul edilməsinin dayandırılması nəticəsində inkişaf edən psixi və fiziki simptomlann kompleksi başa düşülür.

Narkotik vasitələrdən sui-istifadə. Hər hansı narkotik maddənin daim qeyri-tibbi məqsədlər üçün istifadə edilməsi narkotik vasitələrdən sui istifadə adlanır.

*Eyforiya.* Ətraf aləmə səmərəsiz laqeyd əhvalda olma, laqeydlik və biganəlik vəziyyətidir.

*Hallüsinasiya.* Hallüsinogenlərtn törətdiyi və buna görə də obyektiv gerçəkliklə bağlı olmayan hisslər şəklində qavrayış hallüsinasıya adlanır. İnsan gerçəkliklikdə mövcud olmayn obrazlar görür və

### *15.4,2. Sui-istifadə predmeti olan narkotiklərin təsnifatı*

Psixotrop vasitələr aşağıdakı meyarlardan çıxış edilərək müxtəlif cür tosnif edilir; 1) onlann hazırlanması üçün ilkİn maddə; 2) onlann təbii və sintetikliyindən asılı olaraq sui-istifadə potensialı və narkomanlıq meyli; 3) fiziki və psixi təsir; 4) ümumi kimyəvi tərkib.

Narkotik vasitənin ümumi kimyəvi və farmakoloji xassələri onun orqanizmə təsirini müəyyən edir. Sui-istifadə predmeti olan psixiaktiv vasitələr aşağıdakı təsvir edilən doqquz kateqoriyaya bö

lünə bilor: 1) natura) (təbii) və sintetilt (süni) naritotiklər; 2) hind çotənəsi preparatları; 3) kokain və kokadan hazırlanan digər preparatlar; 4) barbituratlar və digər sedatıv-hipnozvasitələri, az trankvi- lizatorlar (sakitləşdiricilər); 5) amfetaminlər və analoji stimulyator- lar; 6) LSD (dietilamid lizergin turşusu) və digər hallüsinogenlor; 7) nəzarət edilən maddələr-analoqlar (narkotik analoqlar); 8) üzvi həlledicilər; 9) uçucu preparatlar.

*Təbii və süni narkotiklər*
*(narkotik maddələr)*

"Narkotik" termininin həm hüquqi, həm də farraokoloji tətbiqi vardır. Hüquqi nöqteyi-nəzərdən yüksək sui-istifadə potensialına malik olan və narkomanlıq meyli törədən istənilən narkotik vasitə narkotikdir (narkotik maddədir). Onun tərifi narkotiklər üzərində nəzarət sahəsində milli və beynəlxalq-hüquqi normalara əsaslanır və narkotik vasitələr konkret kateqoriyalar üzrə bölünməklə siyahıya daxil edilir. Bu terminin hüquqi mənası daha genİş işlənmə sahəsinə malikdir.

Dərman vasitələrinin xassələri, tərkibi və təsiri məsələləri İlə məşğul olan, dənnan vasitələri haqqında elm kimi farmokologiya- da narkotiklərin çox konkret tərifi verilir.

Farmokoloji tərifə uyğun olaraq narkotiklərə həm analgetik, həm do sedativ xassələrə malik papaver somniferum, tiryək xaşxaşı alkaloidləri və analoji strukturlu və farmakoloji aktivliyi olan istənilən yansintetik törəmələr daxildir. Formal olaraq narkotiklər adlandırıla bilən maddələr aşağıdakı qrupları əhatə edir.

a) Natural (təbii) narkotiklər
- bilavasitə papaver somniferum bitkisindən hasil edilən tiryək
- tiryəkdən hasil edilən morfm, kodein və tebain

b) YanmsİntetiK narkotiklər
- heroİn (diamorfm)
- hidromorfin (dimorfon)
- oksikodon (dihidron)
- etorfın

s) Güclü təsirli sintetik narkotiklər
- metadon (dolofın)
- meperidin, petidin (demerol)

d) Zəif təsirli sintetik narkotiklər
- propoksifen (darvon)
- pentazosin (talvin)

Bu kateqoriyaya bir çox digər maddələr də daxil edilə bilər; göstərilən narkotiklər daha geniş şəkildə sui-istifadə olunan maddələr sırasına aiddir.

a) Təbii (natural) narkotiklər

Tiryək

Tiryək dəyməmiş (yetişməmiş) xaşxaş qozalarını çərtmə (“açma") yolu ilə hasil edilən təbii məhsuldur. 1961-ci il Narkotik vasitələr haqqında Vahid Konvensiyaya düzəlişlər edilməsi haqqında 1972-ci il Protokoluna uyğun olaraq edilən düzəlişlərlə 1961-ci il Vahid Konvensiyada “tiryək” tiryək xaşxaşının pıxtalaşmış şirəsi kimi müəyyən edilir.

Dünyada becərilən tiryəkin böyük hissəsi Qızıl üçbucaq adlandırılan çox geniş Cənub-Şərqi Asiya bölməsindən daxil olur ki, buraya da Myanma (keçmiş Birma), Tailand və Laosun ərazilərinin bir hissəsi daxildir. 60-cı illərin axın - 70-ci illərin əvvəbndə bu coğrafi rayon qanunsuz tiryəkin dünyada ən bÖyük İstehsalçısına çevrilmişdi. Burada hər il təxminən 700 ton tiryək istehsal edilirdi. Qızıl üçbucaq heroin hazırlanması (hasilatı) üzrə Qərbi Avropa bazarlarında hakim mövqe tuturdu.

Tiryəkin və heroinin qanunsuz dövriyyəsinin digər mühüm bölgəsi Qızıl aypara adlandınlan rayondur. Bu rayonun ərazisi qövsü xatırladır və Cənub-Qərbi Asiyadan Pakistan, İran İslam Respublikası və Əfqanıstana qədər uzanır. 70-ci illərin sonunda dünyada apancı tiryək istehsalçısına çevrilərək, Qızıl aypara ölkələri daha ucuz və bir qayda olaraq, daha güclü təsirli heroİn üçün xammal istehsal edirdilər. Tiryək xaşxaşı qanunsuz olaraq bir çox digər ölkələr də, o cümlədən Qvatemalada, Hindistanda, Meksika

da, Polşada, keçmiş SSRİ respublikalarında və son dövrlərdə isə Livanda becərilir.

Tiryək xaşxaşının becərilməsi əsas kənd təsərrüfatı metodlarının istifadə edilməsini nəzərdə tutur. Məhsul ildə bir dəfə ilin sonunda yığılır. Xaşxaşın toxumları fermer tərəfindən tez yumşaldılmış sahəyə səpilir. Üç aydan sonra yaşılaçalan rəngli tək zoğda parlaq çiçək açılır. Tədricən ləçəklər tökülür, ölçücə kiçik və formaca yumurtaya oxşar qozalar açılır. Yaşıl qozalann divarcıq toxumalarında ağ südəoxşar şirə olur. Bu şirə qozalann səthində bİr neçə dərin olmayan paralel çortiklər edilməklə çıxarılır. Çortiklərdən çıxanlan şirə tünd-qəhvəyi rəng alaraq qozaların səthi üzərində pıxtalaşır. Bu xam tiryəkdir; fermerlər onu yastı küt bıçaqla qozalardan qaşıyırlar. Sonra xam tiryəki yerli laboratoriyaya gətirərək dərhal morfinə çevirirlər. Narkotika alverçiləri məhz bu üsula üstünlük verirlər, çünki güclü spesifik İyi olan yapışqan, aşındıncı tiryək yumaqcıqlanndansa, morfın paketlərini qaçaq malı kimi keçirmək daha rahat və təhlükəsizdir.

Xam tiryəki təmiz morfinə çevirmək mümkündür. Bunun üçün kimyadan elementar məsələni həll etmək lazımdır. Əvvəlcə tiryək qaynar suda həll edilir. Məhlula əhəng əlavə olunub, bunun nəticəsində İşlənmiş üzvi maddələr çöküüntü verir, morfın isə məhlul şəklində qalır. Çöküntü təmizlənir, məhlula ammonium xlorid əlavə edilməklə morflni ayırırlar. O süzgəcdən keçirilir və sonrakı çoxpilləli təmizlənmə üçün başqa qaba keçirilir. Həmin prosesin gedişində morfın əlavə olaraq təmizlənir və iri ağ toxumlar şəklində süzgəcdən keçirilir. Morfın qurudulduqdan və qablaşdınidıqdan sonra onun çəkisi ilkin olaraq götürülən xam tiryəkin çəkisinin 10 faizinə qədərini təşkil edir.

Morfın daha mürəkkəb proses nəticəsində heroinə çevrilir. Bu proses sirkə turşusunun morfın molekulu ilə kimyəvi birləşməsi momentinə qədər beşpilləli təmizlənmədən ibarətdir. Kimyəvi birləşmə momentində elə maddə əmələ gəlir ki, onu heroinə (diamorfınə) çevirmək mümkündür. 10 kiloqram təmizlənmiş morfindən saflığı 80-dən 99 faizə qədər arasında olan ekvivalent miqdarda heroin almaq mümkündür.

Tiryok xoş hisslor doğuran narkotik vasitə kimi ilkin olaraq bork və ya maye halda qidada istifadə olunmuşdur, lakin ən a7i son iki yüzitlikdo onu hom də çəkmişlor. Dünyada istehsal olunan tiryəkin çox böyük hissəsindən morfin, kodein və heroin emal olunur. Tiryokin bir sıra əczaçılıq preparatları vardır. Beloləri̇nə, məsələn, tiryəkin kamfor tinkturasını göstərmək olar ki, bizim dövrdə qanunsuz satış bazarlarında nadir halda rast gəlinir.

*Morfin*

Morfin narkotik analgetik vo əsas tiryək alkaloididir. Yüz ildən çox vaxt ərzindo, o on yaxşı ağnkəsən vasitə hesab edilmişdir. Tibbi nıəqsodlor üçün morfin dıız şəklində istifadə edilir (morfin sulfat). Bu, tabletlər və ya inyeksiya məhlulu şəklində buraxılan iysiz ağ kristal tozdur. Morfini sərbəst şəkildə əldə etmək çətindir, o başlıca olaraq, hokimlor, tibb bacıları, əczaçılar və tibbi preparatların buraxılışına məsul olan digər tibb işçilərinin sərəncammdadır. Təsir gücünə görə morfinin inyeksiya məhlulu dozası çəkicə ona bərabər olan tiryək dozasından 10-20 dəfə artıqdır.

*Kotlein*

Morfin kimi, kodein də narkotik analgetikdir və tiryək xaşxaşında vo tiryəkdə olur. Kodeinin çox hissosi morfinin emalından sonra alınır. Bu, hoblor vo inyeksiya məhlulu şəklində buraxılan ağ kristal tozdur. Bu narkotik vasitənin analgetik təsiri morfinin təsirinə oxşardır, lakin onun effektivliyi xeyli aşağıdır. Arzu olunan effektin oldə edilməsi üçün bu narkotik vasitənin böyük mİqdannın qəbulu lazım olduğuna görə sui-istifadə və alüdəolma müqayisə ediləcək qədər nadir haldır. Kodein bütün dünyada bir çox əczaçılıq preparatlarında istifadə edilən ən geniş yayılmış öskürəyəqarşı vasitədir (öskürək refleksini zəiflədir), ona görə də onu əldə etmək kifayət qədər asandır.

**b) Yarısintetik narkotiklər**

YansintetÍk narkotiklər - heroin, hidromorfm, oksikodon və ya etorfın vo b. morfinin vo ya tebainin törəmələridir.

*Heroin*

Qanunsuz bazara daxil olan heroin (diasetilmorfın) formasına vo rənginə görə müxtəlif ola bİIər. Bu ağ, boz, qəhvəyi, yaxud qara rəngli toz və ya dənəvər ola bilər.

Heroin - yüksək addiktiv potensiala malik olan və bilavasitə mərkəzi sinir sisteminə təsir edən maddədir. Heroinin orqanizmə bilavasitə təsİri ümumi tənəffüs və ürək-damar çatışmazlığının artmasında, öskürək refleksinin sakitləşmosində, görmə qabiliyyətinin xeyli zəifləməsində və bağırsaqların fəallığının azalması ilə müşahidə olunur, Heroinin venadaxili istifadosi nəticəsində QİÇS, iştahın pozulması, anqlama da daxil olmaqla pnevmaniya və dİgər belə infeksiyalar kimi fəsadlar əmələ gətirir, yeni artıq dozaların qəbulu isə tənəffüs çətinliyinə görə ölümlə nəticələnir.

Heroinin bir çox növlərinin onun alındığı rayonlardan nisbətən təmiz halda gətirilməsinə baxmayaraq, o, istehlak bazarına, bir qayda olaraq, laktoza (və ya südün emalı zamanı oxşar məhsul şəklində alınan süd şəkəri), qlükoza, xinin, qarğıdalı nişastası və ya praktiki olaraq qızdınlarkon suda holl olan hər hansı digər toza oxşar maddə ilə xeyli qarışdırılaraq və ya durulaşdınlaraq çıxarılır. Adətən, heroin quru halda saxlanılmaqdan ötrü sellofan plyonkada və ya alüminium folqada qablaşdırılır. Heroin qızdınlandan sonra buxarın inqalyasiyası və ya sulu məhlulun inyeksiyası yolu ilə, yaxud da tozu (bumun hər deşiyinə növbə ilə) fəal şəkildə nəfəs almaqla istifadə edilir.

*Hidromorfon*

Dilaudid kimi məlum olan hidromorfon yarıs intetik narkotik analgetikdir, tabletlər və inyeksiya məhlulu şəklində satılır. Mor- fınlə müqayisədə dilaudid daha az təsir müddətinə malikdir. Bununla belə onun təsiri morfinin təsirindən İki-sokkiz dəfə güclüdür. Yüksək addiktiv potensiala malik maddədir. Dilaudid heroinin ovə- zedicisi kimi istifadə edilir.

*Oksikodon*

Oksikodon (perkodan) kodeinə oxşardır, lakin daha güclü təsirli maddədir və daha yüksək addiktiv potensialı ilə səciyyələnir. Pe- roral tətbiq zamanı effektlidir və bazarda ağnkəsən vasitələrin tərkib hissəsi şəklində təmsil olunur. Tabletlor suda həll edilir, həll olmayan hissə süzgəcdən keçirilir, bundan sonra aktiv maddə in- yeksiya yolu ilə qəbul edilir.

*Etorfm*

Etorfm morfm molekuluna təsir prosesinin gedişində açıq qalan bir neçə birləşmənin birİdİr. Təsir gücünə görə morfındən bir neçə dəfə qüvvəlidir, Etorfm hidroxlorid bəzən veterinarlar tərəfindən heyvanların immobilizasiyası (hərəkətsizləşdirilməst) üçün istifadə edilir.

**v) Güclü təsirli sintetik narkotiklər**

Tiryəkdən və onun törəmələrindən fərqli olaraq sintetik narkotiklər laboratoriyalarda hazırlanır. Onlar tolerantlıq və asılılıq əmələ gəlməsi İlə bağlı olan sonrakı fəsadlar doğurmadan morfının analgetik xassələrini saxlamalı olan maddələrin uzun müddətli axtarışı nəticəsində aşkar edilmişdir. Güclü sintetik narkotiklər olan metadon vo meperidondan geniş istifadə olunur.

*Metadon*

Metadon öz kimyəvi tərkibinə görə morfindən və ya heroindən fərqlidir. Lakin o, bir çox analoji nəticələr doğurur. Son bir neçə onillikdə metadon heroinomaniyalı xəstələrin detoksifikasiya (toksini konaretmə) müalicə proqramında genİş tətbiq edilir, çünki metadon narkotik vasitə kimi unikal xassələrə malikdir.

Bütün narkotiklər kimi metadon və heroin çarpaz asılılığa malikdir, Mahiyyətcə metadon abstinensiya (özünüsaxlama) sindromunu qabaqcadan xəbərdar edən narkotik-əvəzedicidir. Lakin bu daha mühümdür ki, metadon peroral (ağızda) tətbiq zamanı effektivdir, bunun nəticəsində onun venadaxili qəbulu zərurəti aradan

qalxır, Heroinlə müqayisədə o daha uzun müddət təsir edir; belə ki, məsələn, peroral qəbul edilmiş bir doza iyirmi dörd saata qədər təsirini saxlayır. Belə xassələrinə görə metadon xroniki narkomaniyanın müalicəsində effektlidir.

Bununla belə, bəzi narkomanlar üçün metadon əsas sui istifadə predmetidir; buna görə də bu narkotikin də məhdud bazan mövcuddur. Qanunsuz istifadə edilən metadon bazara, əsasən rəsmi proqramlar üzrə metadonla müalicə keçən şəxslər vasitəsilə çıxarılır. Beləliklə, metadonun qanunsuz təklifi yalnız həmin proqramla- rm həyata keçirildiyi hallarda baş verir.

*Peüdin* V9 *meperidin (demeroi)*

Petidin və meperidin demeroi adı ilə satılır. Kimyəvi tərkibinə görə onlar morfindən fərqlənir, lakin analoji analgetik təsir göstərir. Onlar dərman vasitələrinin orta və kəskin ağnlarmı azaltmaq üçün ən geniş istifadə edilən vasitələrdəndir və həm peroral üsulla, həm də inyeksiya vasitəsilə qəbul edilir. Nadir hallarda demeroi narkomanlıq doğuran əsas narkotik kimi istifadə edilir. Onlardan daha çox qüvvənin bərpası məqsədilə tibb işçiləri və buna icazəsi olan digər şəxslər istifadə edir.

**q) Zəif təsirli sintetik narkotiklər**

Tez-tez istifadə olunan az güclü təsirli sintetik opiatlara propok- sifen və pentazosin aiddir.

Propoksifen. Darvon və Doiene firma adlan ilə satışda olur. Digər narkotik vasitələrlə müqayisədə az asılılıq doğurur. Analgetik kimi az effektlidir.

Pantazosin. Müxtəlif adlarla, məsələn Fortal, Pentalgin və Tal- vin adlan ilə satışda olur. Kodeinə oxşar güclü analgetikdir.

Narkotik vasitələrdən istifadə faktının müəyyən edilməsi

Məhkəmə-hüquqi məqsədlər üçün narkotik vasitənin nüfuzlu identifikasiyası yalnız kimyəvi analiz üsulu ilə apanla bilər. Lakin bir sıra digər əlamətlər də vardır ki, hüquq mühafizə orqanlarının vəzifəli şəxsləri onları bilməlidir.

Venadaxili üsulla narkotik vasitələrdən, xüsusilə heroindən sui-istifadə faktı aşağıdakı əşyaların aşkar edilməsinə görə müəyyən edilə bilər: dorialtı inyeksiya üçün şpris və ya analoji oldədüzəltmə alət (ttıosolən, göz damcısı pipetkalan); yemək qaşıqlan, dəstəyi əyilmiş ola bilər ("mətbəx qaşığı"), və ya dəstək şəklində məftil (tel) bağlanmış butulka qapağı ("plito"), xüsusilə qaşığın və ya qapağın dibi liisə verilmişdirsə.

Venadaxili üsulla heroin qəbul edən narkomanlar iynə izlərinin - qara və ya bənövşəyi (rəngli) yaraların və çapıqların - olmasına görə vo ya, adətən, bazu önü nahiyyəsində, lakin ola bilər ki, bədənin digər hissələrində də dərinin rənginin dəyişməsinə görə müəyyən edilə bilər. Yalnız iynə izləri narkomaniya faktını göstərən birbaşa sübut deyildir, çünki elə adamlar var ki, məsələn, şəkərli diabetdən əziyyət çəkən şəxslər, requlyar inyeksiya üçün tam qanuni əsaslara malikdir.

Narkotik vasitələrin təsiri altında olan şəxslər üçün, bir qayda olaraq, süstlük, apatiya, qaradinməzlik və ətrafındakılara laqeydlik, gözlərindəki ifadesizlik vəziyyəti sociyyəvidir. Çox vaxt narkomanların gözləri sanki rəngsizləşır, göz bəboklori daralır. Narkotik vasitələrdən həddən artıq istifadə edildikdə onlarda tez həyacan- lanma, narahatlıq vo horəkotlərində əsəbilik müşahidə edilir, Növbəti dozanın qəbul edilməsi vaxtı yaxınlaşdıqca onlarda gözyaşar- ma, tumov (zökəm), ağrılar, qaşınma, əsnəmə və bəbəklərin genişlənməsi kimi ilkin abstinensiya simptomları özünü göstərməyə başlayır. Güclü abstinensiya simptomları yuxusuzluq, tərləmə, ətraflarda ağrıların olması, ürək bulanması və ishalla ifadə olunur.

***Çstsm preparatları***

Hind çotənəsi adı ilə tanınan çətənə (Cannabis sativa) - isti və ya mülayim iqlimli və tropik ölkələrin çoxunda yetişən, hündürlüyü bir metrdon üç metrə qədər çatan və ya daha çox olan birillik bitkidir. Yelpikvan boy atan uzun, kənarları diş-diş ensiz yarpaqları vardır. Yarpaqlar özü parlaq və yapışqanlı, onların yuxarı səthi isə qısa tükcüklərlə örtülü olur.

Çotənə bitkisinin barveron vo çiçəkləyən (çiçək açan) baş tərəfi vo yarpaqlannda xeyli miqdarda psİxoaktiv maddələr (tetrahidro-kannabinol kimi) olur Bu “narkotiktərkibli hissələr” bitkinin boy atma səviyyəsinə uyğun olaraq yığda bilər. Adətən, bitkinin yalnız bu hissələri İlə qanunsuz bazarda alver edilir. Əsas gövdədə vo yan zoğların gövdələrində psİxoaktiv maddələr az və onlardan hazırlanan preparatlann keyfiyyəti isə, adətən, aşağı olur.

Çətənə bitkisindən aşağıdakı psİxoaktiv preparatlar hasil edilir:

Çətənə (marixuana) çotənə bitkisinin narın ovulmuş (üyüdülmüş) və qurudulmuş zoğlarının, yarpaqlarının vo çiçək qruplarının qarışığından ibarətdir. Müxtəlif ölkələrdə vo regionlarda qanunsuz bazarda bu ot preparatının təklif miqyası müxtəlifdir.

Qətran çətənə bitkisinin daha güclü preparatıdır. Ekstrakt bitkinin qotranlı zoğlarını həlledicidə qaynadılaraq çıxartmaq və ya bitkidən qətranı müxtəlif üsullarla qaşıyıb təmizləmək yolu ilə hasil edilir. Sonra qotranlı ekstrakt, bir qayda olaraq, preslənir.

Həşiş yağı çətənədə olan maddələrin çoxdəfəli ekstraksiyası (ayrılması) /perkolyasiyası/ prosesində alman tutqun qatı (özlü) mayedir.

Çətonənin aktiv (fəal) inqrediyenti (tərkib hissəsi) delta-9-tetra-hidrokatmabinas və ya THK-dir. Çotənə bitkisinin əksəriyyətində THK-nin tərkibi 1-5 faiz təşkil edir. Qətranda THK-nin tərkibi 15- 20 faizə çata bilər, "Həşiş yağf’nda isə iki dəfə çox ola bilər.

İsti və ya mülayim iqlimli ölkələrin əksəriyyətində narkotik tərkibli bitkilərin qanunsuz becərilməsi və ot preparatlarının dövriyyəsi haqqında məlumat verilir. Şimali və Cənubi Amerikada, Karib hövzəsi ölkələrində, Afrikada və Cənub-Şərqi Asiyada ot preparatlarının adlan və fonnaları vardır. Məsələn, Asiyada “hanca” “çar- ras” vo “bəng" belələrinə aiddir.

*‘*Hanca"* becərilən dişi bitkinin təzə-tər yarpaqlarından, çiçək açan baş hissələrindən və onun sonradan yastı və ya dairəvi həblər şəklində salınan yapışqan kütlə halında preslənmiş, yaxud yayılmış qətranından ibarətdir. Bu kütlə tünd yaşıl və ya yaşılımtılqəhvəyi rəngə malik olur. O, xoş iyi və dadı ilə xarakterizə olunur.

dişi bitkinin baş hissələrindən hasil edilən hazır qatrandır. O, boz-ağ

rəngli toz halını alana qədər ovulur və nannlanır

Sonra ondan yastı həblər və ya nazik təxminən şəffaf lövhəciklər hazırlanır, yaxud tünd qəhvəyi parçalar şəklində saxlanır.

bitkinin köhnə və ya daha çox yetişmiş yarpaqlanndan hazırlanır. Çox vaxt bong, onun ot forması istifadə edilməklə çəkilir. Digər hallarda onu, sirop hazırlamaq üçün yağ əlavə edilməklə suda qaynadırlar. “Bəng” “çarras”dan xeyli zəif olan “hanca”ya nisbətən az təsirli preparatdır.

Qərbi Asiyada “həşiş” termini çətənə yarpaqlanm və qətranmı, eləcə də onların qanşiğını bildirmək üçün istifadə olunur. Şimali Afrikada, adətən, qaba toz şəklində düşənə qədər nannlanmış bitkinin baş hissələri və qətranı Mərakeşdə “kif”, Əlcəzairdə və Tunisdə “takrauri” adı ilə tanmır. Mərkəzi və Cənubİ Afrikada bitkinin yarpaqlan və baş hissələri barəsində “daqqa” termini istifadə edilir.

Terminologiyada çoxsaylı forqlərə baxmayaraq, çətənənin təsiri, əsasən, eyni cürdür, lakİn bu təsir intensivliyinə görə THK-nin tərkibindən asılı olaraq müxtəlif ola bilər. Çətənədən yalnız əyləncə məqsədilə istifadə edildikdə, onun təsiri qavrayışın dəyişməsində ifadə olunur, eyforİya (yaxşı əhval, kef) və boşalma (zəifləmə) hissləri doğurur, reflekslər tormozlanır, təfəkkür natamam olur, bilavasitə yaddaş (hafizə) pozulur. Daha yüksək dozalar daha ciddi təfəkkür pozğunluğuna, bəzən isə hallüsinasiyaya səbəb ola bilər.

Çətənə, adətən, xalis şəkildə və ya tütünlə birlikdə və ya koka- in pastası ilə çəkilməklə istifadə edilir.

*Kokain və kokanm digər preparatları*

Koka yarpağı, kokain pastası, kokain, sərbəst əsas və krek-koka-in daxil olmaqla preparatlarının əksəriyyəti yüksək istifadə potensialına malik olan güclütəsirli MSS stimulyatorlandır.

a) Koka yarpağı

Kokain kolu (Erythroxylom coca) - ənənəvi olaraq Peruda və Boliviyada becərilən və həmçinin Cənubi Amerikanın başqa hissələrində yayılan bitkidir. Hündürlüyü təxminən bir metr yanma çatır. Yarpaqlan hamar və ovalşəkiUidir. Hər gövdədə 7-8 yarpaq

Koka yarpağı aclıq hissinin qarşısını alan yüngül stimulyator kimi istifadə olunur. Bu, kənd təsərrüfatında və mədənçıxarma sənayesində iş müddətini uzatmağa imkan verir. Bu məqsədlə qanuni əsaslarla Boliviyada və Peruda istifadə olunur. Cənubi Amerikanın And regionunda yarpaqlara əhəng bükərək çeynəyirlər - dünyanın bu hissəsində bu adətdən artıq min ildən çoxdur ki, istifadə edilir. Koka yarpağında onun ümumi çəkisinin təxminən 0,5-1 faizi qədər kokain vardır.

**b)** Kokain pastası

Kokain pastası koka yarpağını koka inə emal edilməsi prosesində aralıq məhsuldur.

Emal m ilkin mərhələlərində yarpaqlar əzilib toz halına salınır, ohong və ya hər hansı digər qələvi maddə məhlulunda isladılır, sonra kerosin, benzin və ya hor hansı digor neft məhsulu əlavə edilir və hamısı qarışdmhr. Sonra həmin üzvi məhlul drenajlanır, sulfat turşusu əlavə edilir və məhlul yenidən silkələnir (qarışdırılır) və ya kerosin buxarlandırılır. Məhlula natrium karbonat və ya ammon- yak olavo edilməsi nəticəsində çöküntü şəklində kokain əsası əmələ gəlir. Kerosinlə yuyulandan və soyudulandan sonra təmizlənməmiş kokain kristalları və ya kokain pastası əmələ gəlir. Yarpaqlarda kokainin tərkibi nisbətən yüksək olmadığına görə (koka yarpağının ümumi çəkisinin 0,5-1 faizi qədər), pastada kokainin kon- sentrasiyası 90 faİzə çata bilər, lakin bir qayda olaraq, o, pastanm ümumi çəkisinin 40-50 faizini təşkil edir.

“Basuko”, “susuko”, “basika de kosin pastası” və ya “pasta” adları ilə tanınan kokain pastası narkotiklərdən istifadə edən Cənubi Amerika icmalarında geniş şəkildə yayılmışdır.

**c)** Kokain

Kokain koka yarpağının əsas alkaloididir və yarpaqdan kimyəvi üsulla hasil edilə bilər. Kokain qara oxşayan və bu adla tanınan ağ, yüngül, kristal tozdur. O, çox vaxt bor turşusu və ya natrium bikarbo- nat kimi hor hansı ağ tozla dəyişik satmır. Toz şəklində o, burun vasitəsilə nəfosalma ilə, ınohlul şəklində isə venadaxili qəbul olunur.

Kokainlə buruna nəfəsalma, ani olaraq, “qalxma” (“coşma”) hissi yaratmaqla vo qavramanı kəskinləşdirməklə təxminən 20 dəqiqəyə qədər yüksək eyforiya vəziyyəti doğurur. Kokain hərisləri narkotikin doğurduğu əhvalı qaldırmağa, eyforiya və kəskin psixoloji və fiziki şüursuztuq vəziyyətinə nail olmağa can atırlar. Belə vəziyyət zəifləməyə başladıqda coşmantn (həyacanlanmanm) azalması hissi əmələ gəlir, bu da narkotikdən istifadə edənin əvvəlki vəziyyətindən elə kəskin fərqlənir ki, onda kokain dozasını yenidən qəbul etmək və eyforiya vəziyyətini bərpa etmək üçün çox güclü istək oyanır. Kokain istehlakçılan onun istehlakmı dayandırmağa cəhd etdikdə tez-tez depressiya (ruh düşkünlüyü) vəziyyətinə düşür ki, onlan belə vəziyyətdən yalnız narkotika çıxara bilər.

Güclü fiziki asılılıqla yanaşı, kokaindən xroniki istifadə, adətən, hiperstimulyasiya, həzmetmənin pozulması, ürək bulanması, iştahanın azalması və anqlama, mütəmadi qıcolmalar və paıanoid psi-xoz törədir. Kokainlə təkrar-təkrar nəfəs alma selikli qişalann er-roziyasına və burunun arakəsmələrinin perforasiyasına (deşilməsi-no) səbəb ola bilər.

Son illərdə xroniki kokain istehlakçılan onu daha çox venadaxi- li qəbul edirlər. Kokainin venadaxili üsulla qəbulu narkotikin təsirinin fövqəladə tez, adətən 15-20 saniyə ərzində başlanmasına və kifayət qədər güclü həyacanlanmaya (oyanmaya) səbəb olur. Bu üsul həm də psixoz və paranoik sayıqlama törədir.

Belə hallar kokainlə uzunmuddətli nəfesalmaya nisbətən daha çox venadaxili qəbul edilmə zamanı meydana çıxır. Kokainin hər hansı başqa narkotiklə birlikdə venadaxili qəbulu daha çox yayılmışdır.

“Spidbol” eyforiya effektini qüvvətləndirən heroin ve kokain qarışığıdır.

ç) Kokainin “sərbəst əsasfl’

“Sərbəst əsası”n yaradılması prosesində küçələrdə (adətən, hid-roxlorid duzu şəklində) satılan kokain, xlorid turşusunun neytrallaşdır! iması üçün, hər hansı əsasla emal edilir. Bunun nəticəsində alınan tərkibində turşu olmayan kokain və ya kokain əsası (sərbəst əsas adı buradan götürülüb) həlledicrdə, məsələn, efirdə həll

ki, təmizlənmiş kokain burada kristallaşır. Bundan sonra kristallar nannlaşdınlır və xüsusi şüşə qəlyan vasitəsilə istifadə edilir. Kokainin “sərbəst əsas”ımn çəkilməsi adi kokainin istifadəsinə nisbətən daha güclü həyacanlanma doğurur.

**d) Krek**

Krek kokain hidroxloriddən nathum bikarbonat və ya çay sədası vasitəsilə xlorid ionunun aynimast nəticəsində iri kristallar şəklində kokain əsası əmələ gəlir.

Krek- təmiz (xalis) olmayan kokaindir. Onün hazırlanması prosesində çay sodası duz şəklində qalır və kokain hidroxloriddən təmiziyini azaldır. Bu ona görə belə adlanır ki, natrium bikarbonat çöküntüsü bu maddənin çəkilməsi prosesində tez-tez çartıldama əmələ gətirir.

Krek bir sıra səbəblərə görə kokainin ən geniş yayılan formasıdır. Onu siqaretlə çəkmək olar. Çəkilərkən bu kokain preparatı tez sorulur ve söylənildiyi kimi, praktiki olaraq ani maksimal həyacan- lama vəziyyəti əmələ gətirərək bir neçə saniyə hematoinsefalik baryeri aradan qaldırır. Krekin dozalarma gəldikdə isə, onlar çox da baha deyil, onlan gizlətmək və daşımaq sadədir.

Ucuz qiymət, tez təsiretmə və çox güclü həyacanlanma krekin addiktiv (narkoloji) potensialmın və ondan istifadə ehtimalının digər hər hansı koka preparatlannın xeyli yüksək olmasma kömək edir.

***Kokaittd9n is^adə fakttnm mü9yy9n edilm9si***

Kokainin nəfoslə qəbul edən şəxslər çox vaxt burun deşiklərinin qırmızı rənginə, burun deşiklərində yüngül səpgiyə və kəsişən vena damarlarına görə müəyyən edilə bilər. Kokaini venadaxili qəbul edən şəxsləri isə iynə izlərinə və heroinin venadaxili istifadəsi üçün səciyyəvi olan digər əlamətlərə görə müəyyən etmək olar. Kokainin istənilən formasından uzunmuddətli istifadə sürətli anq- lamaya və fiziki zəifliyə səbəb olur, eləcə də üzün olduqca solğun- laşmasına gətirib çıxanr. Həmçinin başgicəllənmə və öyümə, qıcıqlanma və paraonik sayıqlama müşahidə olunur.

***BarbituratÌar* VP *sedativ***
***i$akÌth!iümci)-hipnoz***

a) Barbitiıratlar

Barbituratlar - ma İon turşusu və sidik cövhəri preparatlarının süni kondensasiyası nəticəsində alınan barbitur turşusu törəmələrinin dərman vasitələri qrupudur. Terapevtik məqsədlərə barbituratlar .sedativ (sakitləşdirici), yuxugətirici, ağrısızılaşdırıcı (keyidici, anestiziyaedici) vo qıcolmaya qarşı vasitələr şəklində istifadə edilir. Adətən onlar uzun (ləng), aralıq, qısa və olduqca qısa təsirli preparatlar olmaqla onların klini ki effektlərinin müddəti əlamotlo- ri üzrə tosnif edilir.

Əldə olan məlumatlara görə 2500-dən artıq barbiturat sintezləş- diri İm işdir. Onların 50~don çoxu hazırda dünyanın müxtəlif ölkələrində terapevtik məqsədlərlə istifadə üçün satılır. Onların on ikisi 1971-ci il Psixotrop maddələr haqqında Konvensiyaya uyğun olaraq beynəlxalq nəzarətə götürülməlidir (siyahıya salınmışdır).

Barbitur preparatları başlıca olaraq kapsulalar və tabletlor şəklində təqdim edilir, lakin bəziləri bazarda elekser (iksir) inyeksiya məhlulu və inyeksiya üçün steril tozlar kimi digər əczaçılıq formalarında da reallaşdırılır. Natrium pentobarbital bəzi ölkələrdə rektal (düz bağırsaq) suppozitoritlər şəklində satılır. Natrium barbital, adətən, toz şəklində realizə edilir və bufer (aralıq) reaktiv şəklində istifadə edilir. Çox vaxt barbituratlar digər barbituratlarla (amoba- rital aspirin, efedrin, teofilin, kodein) və digər əczaçılıq əlavələri tlo qarışıq şəklində rast gəlinir.

Barbituratlar sinir və əzələ fəallığının ümumi depressiyasına səbəb olur. Onlar yüksək addiktiv potensiala malikdir. Barbituratlar- dan uzun müddət istifadə nəticəsində tolerantlıq və fiziki asılılıq çox tez yaranır. Narkotiklərə vərdiş etməklə bağlı abstinensiyaya nisboton barbituratlara vərdiş etməklə abstinensiya həyat üçün daha təhlükəli sayılır. Bu sindrom konvulsiya (əzələlərin qeyri-iradi spazması, qıdığı), sayıqlama və psixozla xarakterizə edilə bilər. Barbitiıratiann həddən artıq toksiki dozası, adətən, koma və şok törədir və ölümlə nəticələnə bilər.

Barbituratlardan sui-istifadə kifayət qədər geniş yayılmışdır. Qanunsuz bazarın benəlxalq xarakter almasına səbəb odur ki, məhkəmə-ekspertiza laboratoriyalarında bir sıp belə birləşmələrlə rastlaşa bilərlər. Əslində, bütün barbituratlar qanunsuz bazara qanuni mənbələrdən sızdınima nəticəsində daxil olur. Barbituratlann gizli hazırlanması haqqında hər hansı faktiki məlumat mövcud deyildir.

Barbituratlar və digər sedativ (sakitləşdirici) maddələr arasında çarpaz tolerantlıq (dözümlülük) ölümcül təhlükəli dozanın ölçüsünə təsir etmir, çünki hətta barbituratlann eyni vaxtda qəbul edilmiş orta dozaları sinergik (birgə) təsir göstərir və çox vaxt intoksikasi- yaya (zəhərləmiıə) və ya ölümə səbəb olur.

Barbituratlar qəbul edən şəxslər, adətən, emosional distresslər-dən əziyyət çəkirlər. Onlar bu vasitələri onların sedativ (sakitləşdirici) - hipnoz təsirinə görə qəbul edirlər ki, daim çox sakit vəziyyətdə olsunlar. Barbituratlara kifayət qədor tolerantlıq əldə edildikdən sonra, onlar depressiv yox, stimullaşdırıcı təsir doğura bilər. Buna görə də belə dorman preparatları, adətən, stimulyasiya üçün qəbul edilir. Heroinlə əldə edilən maksimal həyacanlanma effektini sedativ vasitələrin köməyilə gücləndirməyə cəhd edən narkomanlar arasında barbituratlardan İstifadə edilməsi geniş yayılmışdır. Yaxud onlar heroin ehtiyatı tükəndikdə abstinent təzahürləri əldə etmək üçün barbituratlardan istifadə edirlər.

b) Metakvalon

Qanunsuz yayılan metakvalonun vo meklokvalonun iki mənbəyi vardır: qanuni əczaçılıq ticarəti kanallarından sızdınima və gizli laboratoriyalarda qanunsuz hazırlanma. Metakvalon ilk dəfə 1951- ci ildə sintez edilmiş və addiktiv potensiala malik olmayan və tərkibində barbituratlar olmayan yuxuzuzluğa qarşı həblər şəklində 1965-ci ildən əczaçılıqda istifadə edilməyə başlanmışdır. Meklok- valon 1960-cı ildə sintez edilmiş və hipnoz vasitəsi kimi bəzi Avropa ölkələrində qanuni əsaslarla istehsal edilir.

Qanuni əczaçılıq vasitəsi kimi metakvalonun yararlığı ilkin olaraq qəbul olunmuşdur. Lakin ondan istifadə elə geniş miqyas almışdır ki, bəzi Ölkələr bu maddənin istehsalını qadağan ehnişdir.

Şimali Amerikada qanuni metakvalon istehsalı 19S3-cü ildə dayandırılmışdır. Bunun nəticəsi olaraq satışda nəzarət edilən dərman preparatı olan, metakvalon və difenhtdramin tərkibli yalnız kompleks preparat vardır.

Son illərdə xeyli miqdarda xalis metakvalon və onun müxtəlif preparatları (Mandrax) qanuni kanallardan qeyri-qanuni satış kanallarına düşməyə başlamışdır ki, bunun da nəticəsində bir çox ölkələrdə həmin məddədən istifadənin miqyası genişlənmişdir. Beynəlxalq nəzarətin və hüquq-mühafizə tədbirlərinin gücləndirilməsi sayəsində bu ticarətin həcmi azalmağa başlamışdır, buna baxmayaraq gizli laboratoriyalar metakvaionun mənbəyi olaraq qalmaqda davam edir.

Gizli istehsal edilən metakvalon təmizlik dərəcəsi 30-70 faiz olan qəhvəyi, boz və ya qara toz şeklinqdə bazara çıxarılır. Preparatın rəngi ondakı qatışıqlann həcmindən asılıdır. Bundan əlavə , bazarda o, tabletlər və kapsullar şəklində də satılır. Bəzən ondan heroin durulaşdıncısı kimi istifadə edilir; belə hallarda onun konsentrasiyası 30 faizə qədər təşkil edir. Bir neçə il əvvəl bazar böyük miqdarda diazep tərkibli saxta metakvalontabletleri ilə doldurulmuşdu. Qanuni və qanunsuz istehsal olunan metakvaionun ve ınekvalonun hidrogeıı-xlorid duzları və sərbəst əsası kapsul, tablet və toz şok! ində satılır.

c) Sedativ-hipııoz vasitələrindən istifadə faktının müəyyən edilməsi

Barbituratlann və digər sedativ-hipnoz vasitələrinin çox böyük olmayan dozaları insanı bir qədər yavaş reaksiya ilə mehribanlıq və rəhmlilik vəziyyətinə gətirir. Bu dərman preparatlanmn daha yüksək dozaları aydın olmayan nitq, səbatsız yeriş, ağır yuxu və müxtəlif əşyaları əldə saxlaya bilməmək tendensiyası doğurur. Bəzi hallarda sedativ-hipnoz vasitələri anlamanın itməsinə səbəb ola bilər. Beİə simptomlar alkoqollu (spirtli) içkilərin doğurduğu sİmp- tomlara oxşardır.

*Zaif (kiçik) trankvilizatorlar*
*(sakitləşdirici dərmanlar)*

Zəif trankvilizatorlar tibbi təcrübədə ilk dəfə 50-ci illərdə tətbiq edilmiş MMS depressantlan qrupudur. Onlar neyroleptik vasitələr olan və ciddi psixi pozğunluqların müalicəsində istifadə edilən böyük trankvilizatorlardan fərqli olaraq boyacan hissini və gərginliyi effektivcəsinə aradan qaldınr. Bu kateqoriyaya aşağıdakı dərman vasitələri aiddir: diazepam (Valium,T-Quil); meprobamat (Mil- town, Merrosran, Equinal, Equagesic); xlordiazepoksid (Librium, Librax); hidroksizin hidroxlorid (Atarax, Marax).

Zəif trankvilizatorlar təbabətdə geniş istifadə olunur. Onlar, adətən, həyacan, gərginlik və həddən artıq qıcıqlanmadan şikayət edən, yuxusuzluqdan, qıcolma sindromundan, eləcə də narkotik və alkoqol asılılığı abstinent sindromundan əziyyət çəkən xəstələrə yazılır. Terapevtik dozalar relaksİyaya (gərginliyin azalmasına) və tormozlanmanın aradan götürülməsinə kömək edir.

Zəif trankvilizatorlardan istifadə edilməsi yuxuculluq (süstlük), tormozlarıma, dəridə səpki, ürəkbülanma və qan-damar sistemi fəaliyyətinin pozulması kimi əlavə effektlər doğura bilər. Yüksək dozalar tənəffüs funksiyasının pozulmasına, huşu itirməyə, koma vəziyyətinə və hətta ölümə səbəb ola bilər.

Həddən artıq dozalardan uzun müddət istifadə edilməsi asılılıq doğura bilər. Narkotiklərdən kəskin imtina edilməsi ilə meydana çıxan abstinent sindrom həyat üçün təhlükəli ola bilər.

Müalicə dozaları relaksasiyanı sürətləndirir və tonnozlanmanın aradan qalxmasına kömək edir. Bu müalicə preparatlannm həddən artıq dozalan zaman və məkan haqqında düz təsəvvürün olmamasına (dezorientasiyaya), fikrin qarışmasına, yaddaşın pisləşməsinə və iki görməyə (diplopiyaya), eləcə də şəxsiyyəti dəyişik salmaya səbəb ola bilər.

Zəif trankvilizatorlara və digər MMS depressantlarına çarpaz tolerantlıq və çarpaz asılılıq xasdır. Lakin çarpaz tolerantlıq ölümcül təhlükəli dozanın miqdanna təsir etmir və trankvilizatorların alko

qollu içkitorlo vo barbituratlarla birgo istifado edilməsi sinergik təsir göstaro, intoksikasiyaya və ya ölümə səbəb ola bilər.

Trankvilizatorlar, hipnoz vasitələri, MSS-o təsir göstərən qıcolmaya qarşı vasitələr, miorelaksantlar şəklində terapevtik məqsədlərlə istifadə edilən benzodiazepinlər ən çox resepti yazılan dərman vasitələrindən biridir. Əslində, qanunsuz bazarda rast gəlinən benzodiazepinlər qanuni monbolərdən sızdın İma nəticəsində ora düşür. Benzodiazepinlərin gizli hazırlanması haqqında hər hansı məlumat mövcud deyil.

Son dövrdə beynəlxalq nəzarətdə saxlanan otuz üç benzodiazepin törəməsi başlıca olaraq tablet vo kapsula şəklində qanunsuz bazara düşür. Lorazepam bəzi ölkələrdə ampulalarda vo inyeksiya üçün tübik şprislərdə, eləcə do tabletlərdə realizə edilir. Klonazepam tablet şəklində, eləcə inyeksiya üçün müvafiq holİedicidə durulaşdırılan quru toz şəklİndo satılır. Temazepam Birləşmiş Krallıqda yumşaq jelatin kapsula, eləcə do polietilenqlikollu inyeksiya məhlulu şəklində satışa buraxılır.

Xlordiazepoksid sərbəst əsas şəklində vo hidrogen-xlorid duzu şəklİndo kapsula və tabletlərdə, bəzən isə quru preparatla doldurulun ampulalarda bazara çıxarılır. Medazepam və flürzepam hidrogen-xlorid duzlan qanuni istehsal edilən əczaçılıq preparatlarıdır. Ən geniş yayılan 2-kaliumlu klorazepatdır, buna baxmayaraq müəyyən miqdar monokalium klorazepat da istehsal edilir. Sərbəst turşu sabit olmayan birləşmədir və karbooksidsizloşdirmə nəticəsində nordazepam əmələ gəlir.

Diazepam və ya ən geniş yayılan benzodiazepin kapsula, tablet, sulu vo ya polietilenqlikollu inyeksiya məhlulu, sirop və suppozitorilər şəklində buraxılır. Bəzi ölkələrdə diazepam hərəkətziloşdir- mə və daşınma üçün heyvan yemlərinə əlavə edilən iridənoli toz şəklində istifado edilir. Ehtimal olunur ki, həmin preparat bu şəkildə narkotiklorlə qanunsuz ticarət saltəsinə daxil olur.

Bəzən qanunsuz bazarda xlordiazcpoksid-amitriptilin və xlordiazepoksid-klidinium bromid kimi kompleks preparatlara rast gəlinir.

*Amfetaminhr və digər analoji stiımılyatorlar*

Amfetaminlor və digər analoji birləşmələr depressiya, xroniki yorğunluq və çəki tənzimlənməsinin kliniki müalicəsində istifadə olunur.

Adətən onlar öz antidepressant və oyandırıcı xassələrinə görə istifadə olunur. Bu məqsədlərlə onlar peroral (ağız boşluğu İlə) qəbul oluna bilər, lakİn venadaxili qəbul edildikdə onların təsiri xeyli qüvvətli olur. Bu preparatların xroniki venadaxili istifadə edilməsi psixotik reaksiyalar və paranoyal sayıqlama doğurur.

Qanuni istehsal edilən amfetamin preparatlarının tərkibində müxtəlif duzlar formasında dərman maddələri olur. Müxtəlif ölkələrdə onlar tablet, kapsul, sirop və eleksir şəklində satışda olur.

Qanuni mənbələrdən gizlədilərək çıxarılan bir sıra analoji amfetamin oczaçılıq preparatları qanunsuz bazarda iştirak edə bilor.

Onlann hamısı farmakoloji təsir baxımından (stimulyatorlar kimi) analoji xarakteristikalara malikdir və onlardan istifadə qaçılmaz olaraq asılılığın fonnalaşmasına gətirib çıxarır. 80-ci illərdə hüquq-mühafizə orqanları fenmetrazin, fendimetrazin, femitiHin və pemoltn kimi preparatlarla kifayət qədər tez-tez rastlaşırdılar. Aın-fetaminlər çox vaxt gənclərin istifadə etməyə başladıqları ilk narkotik vasitələrdir ki, adətən onları qıcıqlanmanı artırmaq, yuxulu- luğu aradan qaldırmaq və özünotnamı yüksəltmək üçün qəbul edilir. Bu preparatlardan istifadə etməyin nəticələri boşboğazlıq, ey fərik vəziyyətin meydana çıxması, əsəbilik, qıcıqlanma və narahatlıq, əllərin əsməsi, bəbəklərin genişlənməsi vo həddən artıq tərləmə, eləcə də təqib hissi ola bilər. Bundan əlavə, belo preparatlardan istifadp edilməsi burun vo boğaz boşluğunda quruluq yaradır.

Hidrogen-xlorid duzu olan metamfetamin tabletlor və steril in-yeksiya məhlulu şəklində buraxılır. Hüquq-mühafızo orqanlarının oməkdaşlan öz ölkələrində leqal şəkildə realizə edilən konkret preparatlar haqqında xarici təsvir vo məlumat üçün müxtəlif əczaçılıq məlumat-soraq kitablarından istifadə etməlidirlər.

Qanunsuz hazırlanan amfetamin sulfat əlavələrinin və durulaş-dıncılann növündən və həcmindən asılı olaraq müxtəlif rəngə ma

lik ola bilər. O, qanuni hazırlanan preparata oxşar olaraq, ağ rəngli toz, eləcə də çəhrayı, sarı və ya qəhvəyi rəngli toz şəklində satıla bilər. Çox vaxt nəmli olur və tərkibində üzvi əlavələrin olmasına görə xarakterik xoşagəlməyən iyə malik olur.

Qanunsuz hazırlanan metamfetamin hidroxlorid, adətən, bərkimiş və ya yapıxmış kütlə olur. Tərkibindəki əlavələrdən asılı olaraq, o, ağ, qəhvəyi və ya bənövşəyi rəngli ola bilər.

*LSD* V9 *digər hallmınogenlər*

Hallüsinogenlər - MSS-nə təsir edərək hisslərin aldanmasından hallüsinasiyaya (qarabasmaya) qədər əhval və qavrayış dəyişilməsinə səbəb olan maddələrdir. Onlar psixotik reaksiyalar: reallıq və gerçəkliyin qavranılmasının itirilməsi, hallüsinasiya (qarabasma) və şizofreniya doğura bilər.

a) LSD

LSD (dietilamid d-lizergin turşusu) - tədqiqatların göstərdiyi kimi, ballüsinogen xassələrə malik yansıntetİk narkotik vasitədir. O, psixotomimetiklər/hallüsinogenlər sinfi maddələrinin prototipidir.

LSD indiki dövrdə məlum olan ən güclü hallüsinogenlərdən biridir. Onun xassələri ilk dəfə 30-cu illərdə aşkar edilmişdir və uzun illər ərzində ondan bəzən, lakin kifayət qədər əsas olmadan, psixi pozğunluqların müalicəsi üçün istifadə etməyi sınaqdan keçirmişlər. Qanuni əsaslarla LSD təxminən 1970-ci ildən istifadə edilmir. O vaxtdan etibarən qanunsuz bazara daxil olan LSD preparatlan gizli laboratoriyalarda hazırlanır.

LSD çox vaxt primitiv avadanlığın köməyi ilə qanunsuz olaraq gizli laboratoriyalarda hazırlanır, ona görə də alınan narkotikin təmizliyi və qüvvəsi, adətən, məlum olmur. Gizli laboratoriyalarda lizergin turşusu, tartarat erqotamin, azot, dimetilformamid və dietİtaminin aşkar edilməsi, ən azı, LSD hazırlamaq niyyətini (cəhdini) sübut edir.

Adətən, LSD rəngsiz, dadsız və iysiz maye şəklində hazırlanır. O, həmçinin tamamilə ağ olmayan toz və ya ağ, yaxud hər hansı

başqa rəngli müxtəlif formalı böyük olmayan həblər və ya tabletlər şəklində və ya kapsullar şəklində hazırlana bilər. Bu narkotik LSD məhlulunun kiçik dozalan hopdurulmuş şəkər parçalan şəklində istifadə edilir. Bundan əlavə, saxlamaq məqsədilə suçəkən kağız parçalan bu narkotiklə hopdurulur və ya onu markalara və yarlık- lara (etiketlərə) çəkirlər.

LSD-nin normal dozası təxminən 100-200 mikroqramdır. Müəyyən tolerantlıq səviyyəsi əldə etmiş təcrübəli LSD istehlakçılan 2000 mikroqram nisbətində doza qəbul edə bilərlər. LSD-dən fiziki asılılıq müşahidə edilməmişdir. Lakin bəzi LSD istehlakçılann- da narkotik qəbul etmədən də qəfildən, əvvəllər LSD qəbul edərkən əmələ gələn hallüsinasiyalara oxşar olan təkrar hallüsinasiya- lar əmələ gələ bilər.

LSD və digər hallüsinogenlərin fizioloji təsiri nəbzin və qan təzyiqinin artmasında, bəbəklərin genişlənməsində, əsmədə, ovucların soyuq və tərli olmasında, bəzən titrəmə və öyümedə özünü göstərir.

60-cı illərdə LSD qanunsuz bazarda ilk dəfə görünəndə, onu, adətən, ən müxtəlif maddələrə əlavə edirdilər. Bunun üçün LSD məhlulu damcısını hər hansı absorbsiyaedici materiala qatırdılar. Şəkər parçaları, su çəkən və ya hər hansı digər hiqroskopik (nəm- çəkən) kağız ("qurutma kağızı") və sonradan boş jelatin kapsuİala- nna doldurulan farkoloji (cəhətdən) indifTerent tozlar geniş istifadə edilən substratlar olmuşdur. LSD dozalarını jelatin qəliblərinə (for- malanna) doldurulub, sonradan bərkimiş jelatini xırda kvadratlara bölməklə hazırlanan, "pəncərə şüşələri" adı ilə tanınan forma da geniş yayılmışdır. Bununla belə ən yeniş yayılan forma əvvəlki kimi müxtəlif ölçülü, formalı və rəngli tabletlər olmuşdur.

Tablet hazırlamaq üçün homogen qarışığın hazırlanması mürəkkəb (çətin) olduğuna görə, tabletlərdə LSD-nin tərkibi 20-dən 500 mikroqrama qədər təşkil etmişdir. 70-ci illərdə LSD-nin ən geniş yayılan dozaü formasmın tabletlər olmasına baxmayaraq, LSD tabletlə- linin növ müxtəlifliyi azalmış və başlıca olaraq eynicinsH preparatlar hazırlamaq iqtidannda olan laboratoriyalarda hazırlanmışdır. LSD

tabletlorinin on geniş yayılmış növü mikıotablctlordir. Onlar hər tab-letdo JOO mikroqrama qədor LSD olan toxminən eyni LSD dozalarından ibarot vo toxminən 1,66 mra diametrli dairəvi tabletlordir.

80-ci illordo “kağız" dozalara bölünmüş formalar qanunsuz bazarda daha geniş yayılmışdı. Əvvəlki “kağız" fonnalardan - LSD mohlulunu kağıza damcıladırlar - fərqli olaraq yen İ “kağız “dozalara bölünmüş fonnalar LSD məhlulunu xüsusi möhürlənmiş kağıza hopdurmaqla hazırlanır. Bunun nəticəsində daha çox eynicinsli preparat hazırlanır. Bir qayda olaraq, belə kağız vərəqələr təxminən 5 kvadrat millimetr ölçülü kvadratlara perforasiya edilir, hər bir kvadrat 30-50 mikroqram LSD nisbətində eyni dozadan ibarət olur.

Hüquq-mühafizə orqanları müxtəlif şəkillərlə, o cümlədən mücərrəd təsvir və komikslərlə, eləcə də markalar və tatuirovka kimi LSD məhlulu hopdurulan cürbəcür kağız əşyalar narkotiklərin ən gənc potensial istehlakçılarını colb etməkdən ötrü nəzərdə tutulur və hazırlanır.

"Kağız" dozah formalar, ınikrotabletlər tİpli kiçik tabletlər və ya adətən 50 mikroqram LSD tərkibli jelatin formalar indiki dövrdə qanunsuz bazarda ən geniş yayılan formalardır. Bununla belə, LSD nıohlulunun on müxtəlif sübutlarla əlavə edilməsinin sadəliyini nəzərə alaraq, digər formaları da diqqətdən silmək olmaz.

LSD istehsakçılan, adətən bu narkotikin istehlakı prosesini “turşunun boşaldılması" adlandırırlar.

b) **Psilosibin vo Psilocybe göbələyi**

Psilosibin Psilocybe göbələyinin aktiv tərkib hissəsidir. Bu - ağ kristal maddədir. Bütün hallüsiogenlor arasında təsir qüvvəsinə görə meskalin və LSD arasında aralıq mövqe tutur. Bu - çox tez təsirli preparatdır. Onun təsiri qəbul edildikdən təxminən 15 dəqiqədən sonra başlayır və 90 dəqiqədən sonra ən yüksək nöqtəsinə çatır. Psilosibinin təsiri 5-6 saat ərzində qalır. Tolerantlıq vo fiziki asılılıq qeydə alınmamışdır.

Hom leqat, hom də qeyri-leqal olaraq psilosibin göbələklərdən hasil edilir. Vaxtaşırı pşilosibinə narkotiklərin qanunsuz dövriyyəsi sahəsində rast gəlmək olar.

Psilocybe göbolokləri qod im astek lor imperiyası əhalisinin dini vo magik ayinlərinin icra edilməsindo mühüm rol oynamışdır. Əsas dini ayinlər müqəddəs hesab edilən və “teonanaktl” (müqəddəs cisra) adlandırılan bu göbələklərin istehsalkı ilə bağlı olmuşdur. Psilocybe Mexica növlü göbələyin hallüsinogenlori ehtiva edilən, Meksika hindularının qədim ənənələrində doıin kök salmış ayin bizim dövrlərə qədər də saxlanmışdır.

Psilocybe göbələkləri hər yerdə yayıldığına görə tərkibində hallüsinogenlər olan digər göbələk növləri arasında üstünlük təşkil edir. Bu göbələyin 140-dan artıq növü məlumdur, həm də onların soksənində, belə hesab edilir ki, psixotrop maddələr vardır. Bu göbələklərə həm Arktikada, həm də tropik yerlərdə rast gəlinir, lakin onlar, əsasən, mülayim iqlimi olan yerlərdə yayılmışdır. Həmin göbələklər təbii şəraitdə və müxtəlif üzvi substrat üzərində bitir.

Narkotik vasitə kimi istifadə baxımından iki növ xüsusilə fərqlənir: Psilocybe Semilanceata və Psilocybe Cubensis. Bir neçə illor əvvəl bəzi ölkələrdə tərkibində nəzarət edilən güclü tosirli psixoaktiv maddələr olan bu göbələklərdən istifadə edilməsi kəskin artdı. Onlardan təzə və ya qurudulmuş şəkildə yeməkdə istifadə olunurdu.

Psilocybe Semilanceata vo ya frigiya qapaqları adlanan göbələk növü daha geniş yayılmışdır. Bu psilosibin tərkibli göbəloklurə, məsələn, Şimali və Mərkəzi Avropada, Şiamali Amerikada, Rusiyada və Avstraliyada rast gəlmək olar. Onlar münbit yerdə, ot içində, heyvan tövləlori ilə yanaşı sahələrdə, peyin səpilmiş örüşlərdə və çəmənliklərdə topa şəklində və ya tok-tək bitir.

c) Meskalin

Feniletilamin törəməsi olan meskalin peyot kaktusunun əsas psixotrop alkaloididir. Peyot kaktusunun tərkibində bütün alkaloidlorin 30 faizinə qədərini meskalin təşkil edir. Onun konsentrasiyası 0,5-dən 1,5 faizə qədər arasında olur.

Meskalin tipik hallüsinogen maddədir. O, LSD-yə nisbətən (2-3 dəfə) zəifdir və peroral (ağız boşluğu ilə) qəbul olunur, çəkilir və ya inyeksiya ilə yeridilir. Tolerantlıq və fiziki asılılıq qeydə alm-

mamışdjtr. Götürülən meskalin nümunələrinin çoxu fensiklidindən ibarət olmuşdur.

Meskalin gizli laboratoriyalarda asanca sintez edilə bilər. Amerika Birləşmiş Ştatlarında və Avropaıun qanunsuz narkotik bazarlarında o, sulfat və ya hidrogen-xlorid duzu şəklində təmsil olunur. Götürülən mesaklin nümunələrinin çoxu fensiklidindən (FSP) ibarət olmuşdur.

Meskalin “düymələri" (peyot) Lofofor Uilyams (Lophophora Williamsii) kaktusunun qurudulmuş qəhvəyi, dəyirmi qabarcıqlandır. Meskalin “düymələri" narkotiklərin qanunsuz bazarında daha geniş yayılmış formadır.

Qədim asteklər yetişmiş bitkinin tac şəklində tamamlayan tükcük dəstəsinə görə bu kaktusu “peyotl” adlandırmışlar; hallüsinogenlər xassələri ilə əlaqədar olaraq ayinlərin icra edilməsində mühüm rol oynamışdır. Bizim dövrdə də o, Şimali Meksikanın bəzi tayfalarının və Şimali Amerikanın yerli xalqlarının ayinlərində əvvəlki kimi, istifadə edilir. Bu kaktus peyot adlanır.

ç) MDA

MDA - sintetik və ya yansintetik maddədir. O, meskalin və amfetaminlorin təsirini özündə birləşdirir və intoksİkasiya və ölümlə noticələnə bilər. Tolerantlıq və fiziki asılılıq qeydə alınmamışdır.

d) DMT

Adətən süni yolla hasil edilən dimetiltriptamin (DMT) Cənubi Amerikanın və Vest-İndiyanın bəzi bitkilərinin toxumlannda da aşkar edilmişdir. O, kristal toz və ya məhlul şəklində, yaxud tütün və ya cəfəri ilə qanşiq şəklində hazırlana bilər. DMT-nin təsiri LSD-nin təsirinə oxşardır, lakin DMT xeyli zəifdir və təsiri qısamüddətlidir.

e) Fensiklidin

FensiklİdIn (FSP) - anastetikiərin (ağnsıztaşdıncılarm) analgetiklərin (ağrıkəsən) və hallüsinogenlərin xassələrinə malik MSS stimulyatorudur. Təmiz halda FSP ağ kristal tozdur, o, toz və ya məhlul şəklində, eləcə də tabletlərdə və kapsulatarda realizə edilir. Çox vaxt bitki xammalı, məsələn, çətənə FSP məhlulu ilə hopdurulur, qurudulur və qanunsuz bazarda satılır. Bu şəkildə çəkilmə prosesində FSP və çətənə insan orqanizminə kompleks təsir edir.

FSP müxtəlif cür təsir göstərə və müxtəlif cür görünə bilər. FSP-nin orta dozası ətrafındakı hər şeydən ayn düşmə və yadlaşma hissi və gücün artması və dözüm hissi doğura bilər. O, həmçinin lal olmaya (nitqi itirməyə), nitqin və hərəkətləri əlaqələndirmənin pozulmasma gətirib çıxara bilər.

***Nəzant edilən maddələrin analoqları***
***(Analoq narkotiklər)***

Gizli laboratoriyalarda hazırlanan bir sıra yansintetik maddələr və ya nəzarət edilən maddələrin analoqları analoq narkotiklər kimi tanınar. Onlar hansısa başqa nəzarət edilən maddələrin (məsələn, meperdin, fentanil və amfetaminlər) kimyəvi strukturunu bir qədər dəyişdirmək yolu ilə alınan yeni maddələrdir.

Analoq narkotiklər ilkin maddələrdən, adətən, daha güclü olur. Onlar çox vaxt toksik (zəhərli) olur və yüksək addiktiv potensiala malikdir. Müəyyən edilmişdir ki, belə analoqlardan biri beyin hüceyrələrini dağıdır, digəri Parkinson xəstəliyi simptoralan doğurur və qocalma prosesini sürətləndirir, üçüncüsü onu istehlak edənləri iflic edir, dördüncüsü isə heroindən təxminən 6000 dəfə güclüdür, buna görə də ani ölümə səbəb olur.

Bu narkotiklər cürbəcür jarqon adlarla və işarələrlə qanunsuz bazarda mövcud olur. Belə maddələrin bir qrupu az müddətə təsir edən güclü təsirli sintetik opioid olan fentanillə bağlıdır ki, bu da anestetik (ağnsızlaşdırıcı) və analgetik (ağrıkəsən) şəklində terapevtik məqsədlərlə istifadə edilir. Gizli laboratoriyalarda hazırlanan fentanil analoqlan 80-ci illərin əvvəllərində cürbəcür jarqon r Jarla meydana çıxmışdır ki, onlann da ən geniş yayılanı heroindir.

Gizli istehsal olunan analoq narkotiklərin başqa bir qrupu amfetaminlə əlaqədardır, bir sıra ölkələrdə, xüsusilə Cənubi və Şimali Amerika və Avropa ölkələrində yayılmışdır. Onlara MDA (metilen dioksiamfetamin) və xüsusilə MDMA (metİlen dioksiamfetamin) aiddir. Sonuncuya “ekstaz” və ya “eks-ti-si” tipli müxtəlif jarqon adlarla rast gəlinir. Bu maddələr tipik hallüsinogenlərdir.

### *Üzvi halledicihr və uçucu preparatlar*

Üzvi holledicilor və uçucu preparatlara MSS-nə depressantiara oxijar təsir edən yüksəkuçucu birloşınolərin bir silsiləsi aiddir. Bu birləşmələr ya otaq temperaturu şəraitində qazaoxşar vəziyyətdə, ya da maye halında mövcud olur, hava ilə birləşdikdə tez buxarlanır. Boya dumlaşdırıcılan vo ləkəaparanlar, yapışqan, benzin, kerosin vo digər neft mohsullan, alışqanlar vo çıraqlar üçün mayelər, geyimin tom izlən mos i üçün mayelər, eləcə də müxtəlif aerozollar ən geniş istifadə olunan üzvi həllediciləro aiddir. Toluol, aseton, benzin, tctraxlormetan, xloroform, etil efiri, eləcə də müxtəlif spirtlər vo asctatlar onların aktiv tərkib hissələrindəndir.

Toksikomanlar bu maddələri bilavasitə onların satıldığı qablardan unlarla hopdurulan parça vasitəsilə və ya polietilen paketdən tənəffüs yolu ilə qəbul edirlər. Bu maddələr, adətən, sərbəst satışa daxil olur və narkotiklərin dövriyyəsini tənzimləyən hüquqi normalara uyğun olaraq nəzarət edilmir.

### *QİÇS və narkotikhräən venadaxHİ sui-istifadə*

XX osrdo geniş yayılmış xəstəliklərdən biri Qazanılan İmmun Çatışmazlığı Sindromu (QİÇS) adlanır.

QİÇS in.sanm müdafiə mexanizmini zəiflədir, onu hətta ən az aqressiv bakteriyalarla və digər mikrəorqanizmlərlə mübarizə apannaq qabiliyyətindən məhrum edir. Bu xəstəliyi insanın immun çatışmazlığı virusu (ÜÇV) toradır.

Əslində QİÇS, daha doğru olaraq, ÜÇV infeksiyasının (yoluxmasının) sonuncu ciddi təzahürü, insanın immun sisteminin mühüm komponentlərini dağıdan vo ya sıradan çıxaran virus kimi müəyyən edilir. QİÇS qurbanlarının ölümlərinin faktiki səbəbləri ən müxtəlif, kifayət qodor nadir infeksiyalar və digər xəstəliklərdir ki, adi şəraitdə sağlam immun sistemi uğurla onların öhdəsindən gəlir.

lİÇV virus hissəcikləri vo ya xəstəliyə yoluxmuş hüceyrələr bilavasitə qan dövranına düşdüyü halda keçir. Buna görə də İİÇV keçməsinin və QİÇS-lo yoluxmanın əsas yollarından biri narkotiklərdən, məsələn, heroindən və kokaindən venadaxili istifadə edilməsidir.

Narkotiklərin venadaxili istifadəsi üç əsas halda QİÇS-in keçməsinin başlıca yoludur:

a) narkotiklər! venadaxili qəbul edən narkomanlar tərəfindən dəri altı inyeksiyaların iynələrin, şprislərin və digər predmetlorin birgə istifadə edilməsi nəticəsində virus keçə bilər;

b) narkotiklər! venadaxili qəbul edən İİÇV-ə yoluxmuş narkomanlar cinsi əlaqə tərəfdaşına virusu keçirə bilərlər;

c) narkotiklər! venadaxili qəbul edən xəstəliyə yoluxmuş narkoman qadınlar və ya narkotiklər! venadaxili qəbul edən narkomanlann cinsi əlaqə tərəfdaşı olan qadınlar virusu bətnlərindoki dölə keçirə bilərlər.

Adətən hüquq-mühafizə orqanları əməkdaşları narkomanların dindirilməsində və ya həbsi gedişində yoluxma təhlükəsinə məruz qalmırlar. Lakin onlar açıq yaralarla, yaralanmalarla, narkotiklərin istehlakı üçün istifadə edilmiş əşyalarla bilavasitə əlaqədən uzaq qaçmalı dıdırlar.

İİÇV vo QİÇS virusunun təsadüfi keçməsinin ən böyük ehtimalı cinayət yerinin axtarışı gedişində, o cümlədən narkotikdən venadaxili İstifadə edən narkomanların avtomobillərinə və paltarlarına baxış keçirilərkən meydana çıxır. Gizlədilən dərialtı inyeksiya İynələri axtarış zamanı əməkdaşlan yaralaya bilər. İynələri və ya üzərində xəstəliyə yoluxmuş qan qala bilən digər iti predmetləri axtararkən onlar həddən artıq ehtiyatlılıq göstərməlidirlər.

Tüpürcəkdo (ağız suyunda) QİÇS virusunun konsentrasiyası olduqca azdır; buna görə də QlÇS-in tüpürcəklə keçməsi az inandırıcıdır. Buna baxmayaraq əməkdaşlar şübhəli şəxsin tüpürcəyi ilə bağlı ehtiyat tədbirlərini görməlidirlər. İstənilən tüpürcək su və

vo ya gözo düşərsə, dərhal ağız müvafiq vasitə ilə yaxalanmalı və gözlər xüsusi məhlulla yuyulmalıdır.

Şübiıəli şəxsin bioloji mayesinin üzə, ağıza, buruna və ya gözə düşə biləcəyi ehtimal edildiyi halda əməkdaşlar üzün vo gözlərin müdafiəsi üçün ehtiyat tədbirləri görməlidirlər. İstənilən bioloji maddə ilə tomasda olmuş əllər hadisədən dərhal sonra, əgər əllərdə qoruyucu əlcəklər olsa belə, sabunla təmiz yuyulmalıdır.

QİÇS-dən başqa, narkotiklərin venadaxili istifadəsi nəticəsində malyariya vo hepatet kimi digər xəstəliklər də keçə bilər.

# MÖVZU 16. **Gömrük** orqanlarının əməliyyat-axtarış fəaliyyəti

## *16.1. Əməliyyat-axtanş /aidiyyəti anlaytşt*

Əməliyyat-axtarış fəaliyyəti müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsidir.

Əməliyyat-axtanş fəaliyyətinin məqsədi şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsidir. Əməliyyat-axtarış fəaliyyəti - xüsusi məqsədlərə nail olmağa yönəlmiş əlahiddə fəaliyyət növüdür. Bu fəaliyyətlə yalnız qüvvədə olan qanunvericiliklə selahiyyətlendirilıniş orqanlar və onların bölmələri məşğul ola bilərlər.

Əməliyyat-axtanş fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq vo azadlıqlannı, hüquqi şəxslərin qanuni mənafelərini, hərbi və dövlət sirrini, milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədilə həyata keçirilir. Göstərilən obyektlərin müdafiəsi dedikdə qanunvericiliklə nəzərdə tutulan, cinayətkar qəsdlərdən onlann təhlükəsizliyini təmin edə biləcək, həmçinin cinayətin baş verməsinin səbəb vo şəraitini aradan qaldıra biləcək əməliyyat-axtanş, toş- kilati, normativ-hüquqi vo digər tədbirlər sistemi başa düşülür.

Əməliyyat-axtarış fəaliyyəti - ümumi hüquqi-qanunçuluq, insan hüquqları və azadlıqlarına hörmət və xüsusi - konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması (əlaqoləndirİlməsi) - prinsipləri əsasında həyata keçirilir. Qeyd edilməlidir ki, əməliyyat-axtanş fəaliyyətinin bütün prinsipləri müstəqil və əsasdır.

Bu prinsiplər sistemi daxilində bir prinsip digərinə qarşı qoyula bilməz.

Qanunilik prinsipi onunla xarakterizə olunur ki, əməliyyat-axta- nş fəaliyyətini həyata keçirən orqanların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının tələblərini

doqiq yerinə yetirməyə borcludurlar. Bu fəaliyyəti həyata keçirən orqanların məqsədi, vəzifələri vo səlahiyyətləri raillİ qanunvericiliklə müəyyən olunur.

Əməliyyat-axtarış fəaliyyətinin ayn-ayn sahələri bu barədə Azərbaycan Respublikasının qanunu ilə, bu fəaliyyətin təşkili və omoliyyat-axtanş tədbirlərinin taktikası isə sahələr üzrə normativ aktlarla tənzimlənir.

Əməliyyat-axtarış fəaliyyəti cinayət-prosessual qanunvericiliyin icrasını təmin edir və bununla da cinayətin təqibi funksiyasını reallaşdırır.

Əməliyyat-axtarış fəaliyyətində humanistlik, insan hüquq və azadlıqlarına hörmət prinsipi bilavasitə bu fəaliyyətin məqsədində öz əksini tapır. Şəxsiyyəti cinayətkar qəsdlərdən qorumaqla, bu fəaliyyət hüquq vo azadlıqların sərbəst və tam reallaşdınlmasma yönəlmişdir.

Əməliyyat-axtarış fəaliyyəti həyata keçirilərkən şəxsiyyətin müdafiəsi - birincisi, onun hüququnu pozan, maraqlarına 'uyğun gəlməyən, onun fikrincə qeyri-qanuni həyata keçirilən əməliyyat-axtarış tədbirlərindən şikayət etmək yolu ilə vo ikincisi, baş vermiş pozuntuların aşkara çıxarılması və aradan qaldırılması üçün toşki- lati, prokuror və məhkəmə nəzarəti vasitəsi tlə təmin oluna bilər. Bu halda pozulmuş hüquqların və qanuni maraqların bərpası, dəymiş zərərin ödənilməsi pozuntunu aşkara çıxaran orqanın təşəbbüsü ilə həyata keçirilməlidir.

Əməliyyat-axtarış fəaliyyəti haqqında qanuna görə hər hansı şəxsin razılığı olmadan onun şəxsi həyatının toxunulmazlığına, o cümlədən şəxsi və ailə həyatının sirrinə, habelə onun şərəf və ləyaqətinə dair əldə edilmiş məlumatları yaymaq qadağandır. Əmə-liyyat-axtanş tədbirlərinin tətbiqi ilə bağlı insan və vətəndaş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılmasına yalnız cinayətlərin qarşısının alınması, onlann açılması, məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizlənon, cəza çəkməkdən boyun qaçıran şəxslərin, itkin düşənlərin axtarışı zamanı yol verilə bilər.

Konspirasiya prinsipi əməliyyat-axtarış fəaliyyətinin ən mühüm xüsusiyyətlərindən birİ olaraq məlumat mənbələrinin və alınma

üsullannın məxfiliyini tumin edir. Bir qayda olaraq bu tədbirlər konfİdensial xarakter daşıyır. Bu prinsiplər üzrə fəaliyyətin təşkili dövlətdən gizli şəkildə hazırlanan və törədilən cinayətlərin aşkar edilməsi və qarşısının alınması zərurətindən doğur. Cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulan təhqiqat yalnız törədilmiş cinayət barədə hər hansı məlumat olduqda başlana bilər.

Bu fəaliyyətin ilkin, axtarış xarakteri onun aşkarlığının sərhədlərini müəyyən edir. Aşkarlıq əməliyyat-axtarış fəaliyyəti həyata keçirən orqanlann məqsədi və qarşısında qoyulan məsələlər, onla- nn iş prinsipləri, qanunla qorunan ictimai münasibətlərə onların müdaxilə etmələrinin hüdudları, qarşılıqlı hüquq və vəzifələr, bu orqanların yalnız səlahiyyətləri daxilində hərəkət etmələri barədə vətəndaşların məlumatlandırılmasında özünü göstərir. Əməliyyat-axtarış tədbirlərinə və onların nəticələrinə gəlincə, onlar tam olaraq açıqlana bilməz.

Əməliyyat-axtarış fəaliyyətini həyata keçiron orqanların əmək- daşlan alınmış məlumatlann açıqlanmasını istisna edən qaydalara ciddi riayət etməlidirlər. Əməliyyat-axtanş fəaliyyətində şəxsin təqsiri barədə qərar qəbul olunmur. Belə qərarlar əməliyyat-axtarış fəaliyyətinin nəticələri əsasında başlanan cinayət prosesləri üçün səciyyəvidir.

Əməliyyat-axtarış fəaliyyətində humanizm cinayətin qarşısının alınmasına yönəlmiş prioritet tədbirlərdə özünü göstərir. Bu fəaliyyətdə şəxsiyyətin ləyaqətini alçaldan, onun şəxsi həyatına aid məsələlərin qeyri-qanuni yayılmasına yönəlmiş əməliyyat-axtanş hərəkətləri qadağan edilir.

Əməliyyat-axtanş fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş təhqiqat orqanları həyata keçirir. Azərbaycan Respublikasının Gömrük Mocəllo- sino əsasən Azərbaycan Respublikası gömrük orqanları təhqiqat orqanlarıdır və əməliyyat-axtanş fəaliyyətini həyata keçirirlər.

Əməliyyat-axtanş tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən və hansı həcmdə mümkünlüyü Azərbaycan Respublikasının prezidenti tərəfindən müəyyən edİlir,

### *16.2. Əm»liyyat-axtanş t^dbirl^ri*

Əmoliyyat-axtanş tədbirləri bu işə səlahiyyətləri olan şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada, konkret iş üzrə və ilkin materiallar əsasında tədqiqat predmetino daxil olan faktiki məlumatların əldə edilməsinə və əməliyyat-axtarış fəaliyyətinin digər məsələlərinin həll edilməsinə yönəlmiş tədbirlərinə deyilir.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu oınəliyyat-axtarış tədbirlərinin aşağıdakı siyahısını müəyyən edir:

1) vətəndaşların sorğusu;
2) soraqlaşma;
3) telefon danışıqlarına qulaqasma;
4) poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;
5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması;
6) məhkumların məktublarının yoxlanılması;
7) nəqliyyat vasitələrinə baxış keçirilməsi;
8) binalara, o cümlədən yaşayış binalanna, habelə digər qapalı tikililərə. qurğulara vo torpaq saholorino daxilolma vo baxış keçirmə;
9) binaların, o cümlədən yaşayış binalarının, habelə digər qapalı tikililərin, qurğuların, torpaq sahələrin, nəqliyyat vasitələrinin və digər obyektlərin müşahidəsi;
10) insanların güdülməsi;
11) şəxsiyyətin eyniləşdirilməsi;
12) nəzarət qaydasında mal alınması;
13) əşya vo sənədlərin tədqiqi;
14) müqayisəli tədqiq üçün nümunələrin toplanılması;
15) nəzarətli göndəriş;
16) cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilmə;
17) hüquqi şəxsin yaradılması;
18) əməliyyat-eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi

Əməliyyat-axtarış tədbirlərinin əsasını, gedişini və nəticələrini əks etdirən sənədlərdə onların adı qanunun müddəalanna uyğun olmalıdır.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri barədə operativ xidməti sənədlər məxfi kargüzarlığın təloblərino riayət edilməklə operativ uçot qovluqlarında sistemləşdirilir.

Əməliyyat-axtarış tədbirlərinin nəticələri onu həyata keçirən əməliyyatçı əməkdaş tərəfindən arayış, yaxud raportla rəsmiləşdirilir. Bu sənədlərdə əməliyyat-axtarış tədbirlərinin gedişi, nəticələri, keçirilmə şərtləri və tədbirdə iştirak edən şəxslər göstərilir.

Qanuna görə: a) telefon danışıqlarına qulaqasma, b) texniki rabitə kanallarından və digər texniki vasitələrdən infonnasİyamn çıxa-nlması, c) binalara, dİgər qapalı tikililərə və s. daxil olma və baxış keçinnə, ç) insanlann güdülməsi tədbirlərindən əməliyyat-axtarış fəaliyyətinin məqsədlərinə başqa yolla nail oluna bilmədikdə, məhkəmənin qərarı əsasında yol verilir. Bununla bərabər, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsaslar olduqda, oməliyyat-axtanş fəaliyyətinin subyektlərinə həmin tədbirlərdən hakimin qərarı olmadan istifadə etməyə icazə verilir. Lakin bu halda həmin əməliyyat tədbirlərini həyata keçirən subyektlər 48 saat ərzində məhkəməyə əsaslandırılmış qərar təqdim etməlidirlər.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və qanunla müəyyən edilmiş əsaslar olmalıdır. Məhkəmənin qərarları, istintaq orqanlannm qərarları və əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları bu tədbirlərin həyata keçirilməsi üçün osas sayılır. Qanun, həmçinin, bu qərarların qəbul edilə biləcəyi halları müəyyən edir.

Qanunvericiliyə görə əməliyyat-axtarış tədbirlərinin tətbiqinə müəyyən şərtlər daxilində icazə verilir. Bu şərtlər bir tərəfdən şəxsi həyat sirrinə hüququ olan şəxsiyyətin maraqlarını, digər tərəfdən cinayətkarlıqla səmərəli mübarizə aparmağa çalışan cəmiyyətin maraqlarım tarazlaşdıran prinsip və qaydalardır.

Əməliyyat-axtarış tədbirləri oməliyyat-axtanş fəaliyyəti subyektinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

Ətiıəliyyat-axtarış fəaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi zamam bilavasitə və birbaşa rəisinə tabedir. Rəisindən açıq-aşkar qanunsuz əmr və ya göstəriş aldıqda o qanunu rəhbər tutmalı və əmoliyyat-axtanş fəaliyyəti subyektinin tabeliyi üzrə yuxan orqanına bu barədə məlumat verməlidir. Əməliyyat-axtarış foaliyyəti subyektinin müvəkkil edilmiş şəxsi tərəfindən rəisinin əmrini və yaxud göstərişini yerinə yetirdiyi vaxtda cinayət baş verərsə və ya verəcəyi ehtimal olunarsa, bu barədə əməliyyat-axtanş fəaliyyəti subyektinin tabeliyi üzrə yuxan orqanına və yaxud məhkəməyə şikayət verə bilər.

Qanunla birbaşa buna müvəkkil edilmiş şəxslər istisna olmaqla əməliyyat-axtarış fəaliyyəti subyektlərinin və onlann vəzifəli şəxslərinin qanuni hərəkətlərinə heç kəs müdaxilə edə bilməz.

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səsyazmadan, kino və ya fotoşəkillərdən, həmçinin vətəndaşlann həyatı və sağlamlığına, ətraf mü- hito zəror vurmayan digər texniki və başqa vasitələrdən istifadə edilo bilər.

Obyektiv səbəblərdən əməliyyat-axtanş tədbirlərinin tətbiqini qeyri-mümkün edən şərait yarandıqda (qarşısı alma bilməyən fövqoladə hadiso baş verdikdə və ya qarşısı alına bilməyən qüvvə mane olduqda, yaxud ictimai təhlükəsizliyə real təhlükə yarandıqda) belə todbirlərin həyata keçirilməsi dayandırılır.

Hoyata keçirilən əməliyyat-axtanş tədbirlərinə aşağıdakı hallarda son qoyulur:

1) Qanunun l-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunduqda;

2) barəsində əməliyyat keçirilən şəxsin hərəkətlərində cinayət tərkibinin mövcudluğu 6 ay ərzində müəyyən edilmədikdə.

Əməliyyat tapşınğını yerinə yetirərkən əməliyyat-axtarış fəaliyyəti subyektlərinin müvəkkil edilmiş şəxsin cinayətkar qrupların və ya kriminogen obyektlərin daxilində olması, habelə bu zaman zəruri özünümüdafiə və ya son zərurət halında onun tərəfindən yol verilmiş hərəkətləri Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət tərkibini yaratmır.

Əməliyyat-axtarış tədbirlərinin təşkili və həyata keçirilməsi dövlət sirrinin bir növü kimi müvafiq qanunla müəyyən edilmiş qaydada mühafizə olunur.

Əməliyyat-axtanş fəaliyyətini həyata keçirərkən dövlət, hərbi və xidməti sirr sayılan, əməliyyat-axtanş fəaliyyətinin təşkilinə, əməliyyat məlumatlann mənbəyinə, üsul və metodlanna, eləcə də vətən- daşlann şəxsi həyatına aid olan məlumatlar aşkarlanmamalıdu'.

Əməliyyat-axtanş fəaliyyəti subyektləri ilo məxfi əməkdaşlıq etmiş və edən şəxslər barədə məlumatlar yalnız həmin şəxslərin yazılı razılığı ilə və ya qanunda birbaşa nəzərdə tutulmuş hallarda aşkarlana bilər.

*163, Azerbaycan Respublikası gömrük orqanlarının əmeliyyai-axtarış fealiyyəü*

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin 11 noyabr 1999-cu il tarixli Fərmanında əməliyyat- axtarış fəaliyyəti ilə məşğul olan "müvafiq icra hakimiyyəti oqan- ları"nm tərkibi açıqlanmışdır. Həmin orqanlann sırasında Dövlət Gömrük Komitəsi də xüsusi olaraq qeyd olunur.

Azərbaycan Respublikası gömrük orqanları tərəfindən əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi baza yaradılmışdır. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Gömrük Məcəlləsi, Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu ildə qəbul olunmuş Qanunu və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Gömrük Məcəlləsinin müvafiq normalarına görə (219. 22l-ci maddələr) gömrük orqanları tərəfindən əməliyyat-axtanş fəaliyyəti iki əsas istiqamətdə aparılır;

a) Azərbaycan Respublikası qanunvericiliyi ilə cinayət sayılan hüquqazidd əməlləri törətmiş, törədən və ya törətməyə hazırlıq

göron **şDxstori aşkar** etmək məqsədi ilə, həmçinin Azərbaycan Respublikasının gömrük məsələləri üzrə beynəlxalq müqavilələrinə uyğun olaraq beynəlxalq gömrük təşkilatlarının, xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanlannın sorğusu daxil olanda (GM, 219-cu maddə);

b) gömrük orqanlarının öz təhlükəsizliyini təmin etmək məqsədi ilə keçirdikləri əməliyyat-axtarış tədbirləri (GM, 221 -ci maddə).

Gömrük orqanlan əməliyyat-axtarış fəaliyyətini müəyyən prinsiplər əsasında həyata keçirirlər. Qanunda göstərildiyi kimi əməliyyat-axtarış fəaliyyəti qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hörmət, konspirasiya, aşkar və gizli iş üsullannm uzlaşdırılması prinsiplərinə əsaslanır.

Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyətinin vəzifələri do qanunvericilikdə dəqiq təhlil edilmişdir. Onlar aşağıdakılardır:

1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması;

2) törədilmiş cinayətlərin aşkar edilməsi vo açılması;

3) ciıayotlori hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;

4) məhkəmo, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtaniması.

Gömrük orqanları əməliyyat-axtarış fəaliyyətini həyata keçirdiyi zaman qanunla onlara verilmiş bir sıra hüquqlardan istifadə etməyə səlahiyyətlidirlər. Adı çəkilən hüquqlara: a) əməliyyat-axtarış tədbirlərini aşkar və gizli üsullarla həyata keçirmək; b) gömrük orqanlarına məxfilik əsasında komək etməyə razılaşan şəxslərlə əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq etmək; c) əməliyyat-axtarış fəaliyyətini təmin etmək üçün informasiya sistemi yaratmaq vo ondan istifadə etmək; ç) əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki vo hüquqi şəxslərin yaşayış və qeyri- yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək; d) konspirasiya məqsədi ilə uy- dunna idarə, müəssisə vo ya təşkilat (hüquqi şəxs) yaratmaq, bu məqsədlə gömrük orqanlarının müvəkkil edilmiş şəxslərinin şəxsiyyətini, bu orqanlarının bölmə, təşkilat, bina vo

lərinin idaro mənsubiyyətini, eləcə do bu orqanlarla məxfilik əsasında əməkdaşlıq edən vətəndaşların şəxsiyyətini pordələndirən sənədlərdən istifadə etmək kimi səlahiyyətlər aiddir.

Gömrük orqanları əmoliyyat-axtanş fəaliyyətini həyata keçirmək üçün müvafiq hüquqlardan istifadə etdiyi kimi, eyni zamanda, qanunla müəyyən edilmiş konkret vəzifələri də yerinə yetirməyə borcludur. Belə ki, gömrük orqanlan əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, qanunvericilikdən irəli gələn aşağıdakı vəzifələri çox ciddi surətdə yerinə yetirməlidir:

1) insan və vətəndaş hüquq vo azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirləri görmək;

2) əməliyyat-axtarış tədbirlərinin keçirilməsindən məhkəmə qərarlarım, istintaq orqanlarının qərarlarını vo ya cinayət işləri üzrə yazılı tapşırıqlarım, habelə əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin (Gömrük Komitəsinin rəhbərliyinin) qərarlarını yerinə yetirmək;

3) əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş ınəluınatlan, onlann mənbəyini və ya əldə edilməsi üsullarını yaymadan, konkret cinayət işi üzrə təhqiqatı və ya istintaqı aparan şəxsə və yaxud məhkəməyə vermək;

4) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin gömrük orqanlarının və müvaüq beynəlxalq təşkilatların sorğularına cavab vennok;

5) Azərbaycan Respublikasının ərazisində əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin səlahiyyətinə aid olan faktların aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər keçirməkdə onları xəbərdar etmək və lazımi köməklik göstərmək;

6) əməliyyat-axtanş fəaliyyətini həyata keçirərkən konspirasiya qaydalarına riayət edilməsi üçün müvafiq tədbirlər görmək;

7) öz qulluq mövqeyinə görə moxfı məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxsləri yoxlamaq;

8) öz əməkdaşlannın, onlann yaxın qohumlarının, gömrük orqanlanna kömək edən şəxslərin, onlann yaxın qohumlannın, habe-

la cinayət prosesi iştirakçılarının, onların yaxın qohumlannın şəxsi təhlükəsizliyini və əmlakının hüquqazidd qəsdlərdən qonınmasını təmin etmək;

9) hər hansı şəxslə əməkdaşlığın məxfiliyini və anonimliyini təmin etmək;

10) hadisələrin, faktların, əşyaların və digər informasiya mənbələrinin əməliyyat uçotunu aparmaq.

Yuxarıda sadalanan vəzifələrə gömrük orqanlarının müvafiq əməliyyat işçiləri tərəfindən düzgün əməl edilməsi Gömrük Məcəlləsinin 219-22 l-ci maddələrində nəzərdə tutulan əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə zəmin yaradacaqdır.

Gömrük orqanları əməliyyat-axtanş fəaliyyətini həyata keçirdiyi zaman insanların həyatını, sağlamlığını, əmlakım və qanuni mənafelərini təhlükə altına alan hərəkətlərə yol vcnnəməli; hər hansı bir şəxsi qanun pozuntularına təhrik etməməli; zor işlətmək, hodələmək və şantaj etmək, habelə insan və vətəndaşların hüquq vo azadlıqlarını, qanunla müdafiə olunan mənafelərini məhdudlaşdıran digər qanunsuz tədbirlərə ol atmamalıdır. Bundan başqa, gömrük orqanlarına oməliyyat-a.xtarış tədbirlərinin keçirilməsi prosesində səlahiyyətlərindən kənara çıxan tədbirləri həyata keçirmək qanunla qadağan olunur.

Gömrük Məcəlləsinin 221-ci maddəsində əməliyyat-axtanş tədbirlərinin keçirilməsindən söhbət aparılır. Qanunvericilikdə həmin tədbirlərin anlayışı vo mahiyyəti dəqiq açıqlanmışdır. “Əməliyyat-a.xtanş fəaliyyəti haqqında” Qanunun lO-cu maddəsində əməliyyat-axtarış tədbirlərinə aşağıdakılar aid edilmişdir: 1) vətəndaşların sorğusu; 2) soraqlaşma; 3) telefon danışıqlanna qulaqasma; 4) poçt, teleqraf vo digər göndərişlərin yoxlanılması; 5) texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması; 6) nəqliyyat vasitələrinə baxış keçirilməsi; 7) binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara vo torpaq sahələrino daxil olma və baxış keçirmə; 8) binaların, o cümlədən yaşayış binalarının, habelə digər

yektlərin müşahidəsi; 9) insanların güdülməsi; 10) şəxsiyyətin eyniləşdirilməsi; 11) nəzarət qaydasında mal alınması; 12) əşya və sənədlərin tətqiqi; 13) müqayisəli tədqiq üçün nümunələrin toplanması; 14) nəzarətli göndəriş; 15) cinayətkar qruplara və ya krimi- nogen obyektlərə daxil edilməsi; 16) hüquqi şəxsin yaradılması; 17) əməliyyat eksperimenti, yəni cinayətkar fəaliyyəti təqlid edən davranış modelinin tətbiqi və s.

Yuxarıda sadalanan 3-5, 8 və lO-cu bəndlərində nəzərdə tutulmuş əməliyyat-axtanş tədbirlərinin keçirilməsi başqa yolla mümkün olmadıqda gömrük orqanları onların realizə olunmasına yalnız məhkəmə qərarı əsasında müvəffəq ola bilərlər. Eyni zamanda qanun bəzi müstəsna hallarda, məhkəmənin qoran olmadan da bu tədbirlərin keçirilməsini mümkün sayır. Həmin müstəsna hallar “Əməliyyat-axtarış haqqında” Qanunun lO-cu maddəsinin 4-cü hissəsində sadalanmışdır. Adı çəkilən qanunun 11-ci maddəsində isə əməliyyat-axtanş tədbirlərinin həyata keçirilməsi üçün səbəblər və əsaslar göstərilmişdir.

Gömrük orqanları tərəfindən əməliyyat-axtarış tədbirləri qanunlara ciddi riayət etməklə və Gömrük Komitəsinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir və müvafiq vəzifəli şəxslər bu fəaliyyətə görə fərdi məsuliyyət daşıyırlar.

# MÖVZU 17. Gömrük mühafizə xidməti

## / 7. /. *Gömrük mühafiz9 xidmətinin məqsəd və vəzifələri*

Azərbaycan Respublikasının gömrük sərhədinin orqanlannın tabeliyində olan təşkilatların inzibati binalarının, həmçinin digər gömrük infrastmktıiru obyektlərinin mühafizəsi, gömrük nəzarəti rejiminin, gömrük müşayiətinin təmin edilməsi, gömrük orqanlannın vəzifəli şoxslonnin və onların ailə üzvlərinin hüquqazidd hərəkətlərdən qorunması naminə zəruri tədbirlər kompleksinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası gömrük orqanlarının ixtisaslaşdırılmış xidmət olan gömrük mühafizə xidməti yaradılır.

Mühafizə xidmətinin əsas vozifolorinə aşağıdakılardır:

- Azərbaycan Respublikasının gömrük sərhədinin mühafizəsi maqsodüo zəruri tədbirlorin həyata keçirilməsi;
- gömrük hüquqpozmalannın aşkarlanması, profilaktikası vo qanunvericiliklə müəyyən edilmiş qaydada qarşısının alınması;
- gömrük nəzarəti zonası rejiminin, gömrük orqanlarının işinin təhlükəsizliyinin, gömrük orqanlannın vozifoli şəxslərinin qorunmasının qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilməsi;
- malların vo nəqliyyat vasitələrinin gömrük müşayiətinin təmin edilməsi:
- gömrük infrastrukturu obyektlərinin, maddi dəyərlərin və pul vəsaitlərinin mühafizəsinin təmin edilməsi;
- gömrük orqanlannın müvəqqəti saxlama tocridxanalanna vo ekspert idarələrinə gətirilərkən şübhəli şəxslərin, gömrük orqanlarının işçiləri tərəfindən daşınarkən - cinayət işlərinin və maddi sübutların mühafizəsinin təmin edilməsi;
- gömrük orqanlarında silahlardan, döyüş sursatlarından və xüsusi vasitələrdən düzgün istifadəyə nəzarət edilməsi;
- operativ növbətçilik xidmətinin təşkili

*17,2. Gömrük muhafizs stmkturlanmn xidməti hərəkətlərinin prinsiphrij forma və üsulları*

Gömrük mülıafızə xidmətinin fəaliyyət sahəsi və xarakteri onun strukturlarının xidməti horokotlorinin prinsiplərini müəyyən edir.

Gömrük mühafizəsinin əsas prinsipləri aşağıdakılardır:

- mühafizə bölmələrinin xidməti vəzifələrin yerinə yetirilməsinə daimi hazırlığı;
- qüvvə və vasitələrin kompleks tətbiqi;
- fasiləsiz və dəqiq qarşılıqlı fəaliyyət;
- əsas səylərin başlıca mosololərin yerinə yetirilməsində cəmləşdirilməsi;
- hərəkətlərin yüksək fəallığı;
- hərəkətlərin gizliiiyi vo qafilliyi;
- bölmələrin fasiləsiz idarə olunması;
- xidməti hərəkətlərin hərtərəfli təmini;
- xidməti vəzifələr yerinə yetirilərkən mənəvi-psixoloji amillərin nəzərə alınması və qanunvericiliyə ciddi riayət edilməsi.

Gömrük sərhədində və gömrük orqanlannın fəaliyyət bölgəsində yaranan şəraitdən asılı olaraq gömrük mühafizə bölmələri fəaliyyətini gündəlik xidmət vo ya xüsusi əməliyyat formasında həyata keçirirlər.

Gündəlik xidmət gömrük orqanlarına tapşınimış vəzifələrin uğurla yerinə yetirilməsi məqsədi ilə gömrük orqanlannın digər bölmələrinin keçirdikləri tədbirlərlə birgə həyata keçirilən, mühafizə bölmələrinin məqsəd, yer və zaman üzrə razılaşdırılmış f rilə- siz hərəkətləridir.

Gündəlik xidmət xidməti fəaliyyətin osas formasıdır vo normal, yaxud da gücləndirilmiş rejimdə həyata keçirilə bilər.

Xüsusi əməliyyat qaçaqmalçılığın gömrük qaydalarının pozulmasının qarşısmın alınması, gömrük orqanlannın işinin, gömrük orqanlarının vəzifəli şəxslərinin plan üzrə müəyyən bir rayonda gömrük orqanları tərəfindən keçirilən rejim tədbirlərinin və müha

fizə bölməlorinin gömrük orqanlarının digər bölmələrinin məqsəd, məkan və zaman üzrə razılaşdırılmış vo qarşılıqlı əlaqəli hərəkətlərinin toplusudur.

Xüsusi əməliyyat Azərbaycan Respublikası MTN-nin sərhəd qoşu nlan birləşmələri, hissələri və bölmələri, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Millİ Təhlükəsizlik Nazirliyinin ərazi orqanları ilə qarşılıqlı keçirilə bilər.

Mühafizə bölməlorinin xidməti hərokotlorinin aşağıdakı üsulları tətbiq edilir;

- müşahidə;
- baxış:
- məsafədən nəzarət;
- axtarış;
- pusqu;
- sənədlərin yoxlanması;
- inzibati saxlama;
- gömrük müşayiəti;
- **silahlı müşayiət (konvoy).**

[Müşahidə xidmoti horokətlərin əsas üsuludur. O, qaçaqmalçılığın, gömrük qaydalarının pozulmasının, gömrük orqanlarına, gömrük infrastrukturu obyektlərinə, gömrük orqanlarının vəzifəli şəxslərinə qarşı hüquqazidd hərəkətlər edilməsinə hazırlaşmanın aşkarlanması vo qarşısının alınması məqsədilə gömrük mühafizəsi naryadlarının bütün növləri tərəfindən aparılır.

Baxış gömrük sərhədindən mallann və nəqliyyat vasitələrinin müəyyən olımımış buraxılış məntəqələrindən kənarda keçirilməsi, qaçaqmalçılıq və gömrük in&astruktuıu obyektlərinə kənar şəxslərin soxulması olamotlorinin aşkar edilməsi məqsədilə yerlərin, yerli əşyaların və gömrük infrastrukturu obyektlərinin müayinəsindən ibarətdir.

Gömrük infrastrukturu obyektlərinə məsafədən nəzarət daxil olan həyəcan siqnallarının qəbulu, qeydə alınması vo aydınlaşdırılması məqsədilə, habelə həmin obyektləri gözlə müşahidə etmək üçün elektron-optik sistemlorin vo cihazlann köraovi ilə həvata kecirilir.

Axtarış qaçaqmalçılıq vo gömrük qaydalarının pozulmasının aşkarlanması və qarşısmm alınması məqsədilə yerin (marşrutun) müəyyən sahəsinin müayinəsindən ibarətdir.

Pusqu nəqliyyat vasitələrinin və mallann gömrük sərhədindən müəyyən olunmuş buraxılış məntəqələrindən kənarda keçirilməsinin ən çox ehtimal olunan istiqamətində (marşrutunda), mühafizə naryadının gizlicə yerləşməsindən, onların tutulub saxlanması üzrə qəfil və qəti hərəkətlərindən ibarətdir.

**Şəxsiyyətin və keçirilən (anbarda saxlanan) mallara aid sənədlərin yoxlanması** gömrük sərhədində, gömrük rəsmiləşdirilməsi yerlərində, gömrük infrastrukturu obyektlərində qaçaqmalçılığın, gömrük qaydalanni pozanlann aşkarlanması və qarşısının alınması, gömrük orqanlannm vəzifəli şəxslərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə həyata keçirilir.

**QanunvericÜiklə müəyyən edilmiş qaydada inzibati saxlama** gömrük qaydalarım pozan şəxslərin hərəkətinin və ya digər əməllərinin qarşısının alınması məqsədilə mühafizə naryadının qətiyyətli hərəkətləridir.

**Gömrük** müşayiəti mallann və nəqliyyat vasitələrinin, onlara aid sənədlərin rəsmiləşdirilməsi yerlərinə çatdınimasını təmin etmək məqsədilə müşayiətindən ibarətdir..

Silahfa müşayiət (konvoy) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama təcridxanalanna və ekspert idarələrinə gətirilmə zamanı barəsində qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə dair cinayət işləri başlanılmış şəxslərin fiziki mühafizəsindən ibarətdir.

### *17.3. Gömrük orqanlannm mühafiz? • xidm?tl9rinin qüvvə v9 vasitələri*

### *17.3.1, Mühafiz^ xidmətinin quruluşu və bölmələrinin təyinatı*

Mühafizə xidməti təşkilati cəhətdən gömrük mühafizəsinin idarəetmə orqanlanndan və bölmələrindən ibarətdir

tdaroetmə orqanları aşağıdakılardır;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mühafizə Dəstəsi;
- ərazi mühafizə bölmələri;
- operativ növbətçilik xidməti;
- bölmələr;
- çevik əməliyyat qrupları;
- gömrük sərhədinin mühafizəsi qrupları.

Çevik əməliyyat qrupları gömrük sərhədinin qorunmasının, gümmk orqanlarının təhlükəsiz işinin, vəzifəli şəxslərin şəxsi təhlükəsizliyinin təmin edilməsi üzrə ən çətin və məsuliyyətli xidməti vəzifələrin yerinə yetirilməsi üçün nəzərdə tutulmuşdur. Onlar həm də gömrük orqanlarının digər bölmələrinin mənafeyi üçün də xidməti vəzifələrin yerinə yetirilməsinə cəlb olunurlar.

Gömrük sərhədinin mühafizəsi qruplan müstəsna olaraq gömrük sərliədində buraxılış məntəqələrindən kənarda qaçaqmalçılığın aşkarlanması. qarşısının alınması və qabaqlanması üçün nəzərdə tutulur.

Mühatlzə qrupları mühafizə xidmətinin əsas bölmələridir və gömrük sərhədinin qorumrıasımn, gömrük nəzarəti zonası rejiminin Azərbaycan Respublikası DGK-nin obyektlərinin, maddi dəyərlərin qorunmasının tomin edilməsi üzrə xidməti vəzifələrin və digər vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Operativ növbətçilik xidməti şəraitə dair məlumatlann fasiləsiz və vaxtında toplanmasının, ümumiləşdirilməsinin vo təhlilinin təmin edilməsi, tabelikdəki bölmələrə sərəncamlann ötürülməsi və gömrük orqantan rəhbərliyinin qərarlar qəbul etməsi üçün zəruri məlumatlar hazırlanması, habelə silah və döyüş sursatlanmn salamatlığını təmin

/7,5.2. *Qüvvə və vtisitələrin*
*təyinatı və istifadə qaydc^ı*

Mühafizə bölmələrinin əməkdaşları mühafizə xidmətinin əsasını təşkil edir və mühafizə naryadlarının müəyyən olımmuş növlərində xidmət çəkmək üçün nəzərdə tutulmuşlar.

Mühafizə xidmətinin bölmələrinin və idarəetmə orqanlarmm əməkdaşlannm iş vaxtı qüvvədə olan qanunvericiliklə müəyyən edilir.

Operativ-növbətçilik xidmətinin İş rejimi operativ növbətçilərin və onlann köməkçilərinin gecə-gündüz növbətçiliyinin təmin edilməsi zərurətinə əsaslanaraq gömrük orqanı rəisi tərəfindən müəyyən edilir (bəzi hallarda isə həftə ərzində).

Sutka ərzində mühafizə bölmələrində vaxt bölgüsü xidməti vaxt reql^enti ilə həyata keçirilir. Reqlament əməkdaşların xidmətə gəlmə və xidmətdən getmə vaxtını, nahar, məşğələlər, silahlara və texnikaya xidmət üçün vaxtı müəyyən edir.

Silahlar, texnika, xüsusi vasitələr və fərdi müdafiə vasitələri mühafizənin etibarlılığının və tosirlİIiyinin artırılması üçün nəzərdə tutulmuşdur. Onlar qüvvədə olan qanunvericiliyə, istismar və döyüş tətbiqi üzrə təlimatların müəyyən etdiyi texniki normalara, rejim vo qaydalara əməl etməklə birbaşa təyinatı üzrə tətbiq edilir.

Silahlara və texnikaya aşağıdakılar daxil edilə bilər:

- odlu vo qaz silahı;
- televiziya, elektron-optik, siqnalizasiya sistemləri (kompleksləri) və cihazlan;
- müşahidə cihazları;
- fərdi istifadə üçün işıqlandırıcı cihazlar;
- avtoneqliyyat vasitələri;
- rabitə texnikası;
- gömrük orqanlarının dəniz (çay) gəmiləri.

Odlu və qaz silahı mühafizə xidməti əməkdaşlan tərəfindən Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən silahın tətbiqi və istifadəsi qaydalarına uyğun otaraq tətbiq edilir.

Televiziya, elektron-optik, siqnalizasiya sistemləri (kompleksləri) və cihazlan gömrük infrastrukturu obyektlərinə məsafədən nəzarət və onların texniki mühafizəsi üçün nəzərdə tutulmuşdur.

Sistemlər (cihazlar) daim işə salınmış (qoşulnauş) vəziyyətdə olmalıdır. Onlann işləməməsinə yalnız texniki xidmət üçün gömrük

orqanı rəisinin icazəsi ilə yol verilir. Bu zaman gömrük obyektlərinin başqa qüvvələr və vasitələrlə etibarlı mühafizəsinin təmin edilməsi üzrə tədbirlər görülməlidir.

Avtonəqliyyat vasitələri (avtomobillər, trasportyorlar) mühafizə naryadlannın xidmətçəkmə və hərəkətlərinin təmin edİlraesİ yerlərinə çatdırılması üçün nəzərdə tutulmuşdur.

Avtonəqliyyat vasitələri motoehtiyatlann sərf olunma normalarına uyğun və gömrük orqanı misinin müəyyən etdiyi qaydada istifadə olunur.

Gömrük orqanının fəaliyyət bölgəsinin sxemində uzunluğu və təhlükəli sahələri, ilin və sutkanın müxtəlif vaxtında yol verilən hərəkət sürəti göstərilməklə avtonəqliyyat vasitələrinin əsas hərəkət marşrutİan cızılmalıdır.

Rabitə texnikasına radio və naqil rabitəsi vasitələri, cərəyan mənbələri daxildir.

Rabitə texnikası mühafizə naryadlannın, bölmələrinin, gömrük orqanlarının dəniz (çay) gəmilərinin idarə olunması, həmçinin qarşılıqlı fəaliyyətdə olan qüvvə və vasitələrlə əlaqə saxlanması üçün nəzərdə tutulmuşdur.

Gömrük orqanlannın dəniz (çay) gəmiləri Azərbaycan Respublikasının ərazi və daxili sularında, sərhəd çay və başqa sututarlan- mn Azərbaycan hissəsində müstəqil xidməti hərəkətlər edilməsi, eləcə də mühafizə naryadlannın xidmətəkmə yerlərinə (sahələrinə) çatdırılması və onlann hərəkətlərinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur.

Gömrük orqanlan aşağıdakı xüsusi vasitələrə malikdr;

- rezin çubuqlar;
- gözyaşardıcı maddələr;
- qandallar;
- yayındıncı təsirli işıq-səs vasitələri;
- nəqliyyatın məcburi dayandınltnası vasitələri;
- digər xüsusi vasitələr.

Xüsusi vasitələr Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikası gömrük orqanlannın vəzifəli

şəxsləri tərəfindən xüsusi vasitələrin tətbiqi qaydalarına uyğun olaraq tətbiq edilir.

Fərdi mühafizə xidməti əməkdaşlannın odlu, soyuq silah və digər hücum vasitələrinin ola biləcək təsirindən müdafiə olunmasının artınıması üçün zirehli gödəkçələr (gUlləkeçirməzlər), cbbilqə- lər, digər tərdi müdafiə vasitələri nəzərdə tutulmuşdur.

### *17,4. Mühafiz9 naryadlarmm növhri va xidmətin taşkiii*

#### *17.4.1. Mühajiz» naryadlarmm növləri*

Mühafizə xidmətinin və gömrük orqanlannm digər bölmələrinin qoyulmuş xidməti tapşınğı yerinə yetirən bir və ya bir neçə silahlı (silahsız) əməkdaşı mühafizə naryadı adlanır.

Mühafizə naryadmm başçısı praktiki xidmət təcrübəsinə və yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik, ən yaxşı hazırlıqlı əməkdaşlar içərisindən təyin edilir. Naryadm tərkibi elan edildiyi andan silah və döyüş sursatlannm təhvil verilməsinədək naryadm başçısı naryadm bütün əməkdaşları üçün bilavasitə rəhbərdir.

Naryadm başçısı naıyad əməkdaşlannm vaxtında xidmətə hazırlanmasına və onun keyfiyyətli çəkilməsinə, xidmət zamanı ona tabe olanlarm hərəkətlərinə, silahlarm, döyüş sursatlarının, təchizat əşya- lannın, texnikanın və xüsusi vasitələrin salamathğma cavabdehdir.

Mühafizə naryadı ona xidməti tapşırıq vermiş rəisə və ya onu əvəz edən şəxsə tabedir.

Mühaüzə naryadlannın aşağıdakı növləri vardır:

1) Operativ növbətçi (ON), ON köməkçisi (ONK);
2) Patrul;
3) Nəzarət məntəqəsi (NM);
4) Çevik operativ qrup (ÇOQ);
5) Pusqu;
6) Obyektin mühafizəsi (OM);
7) Vəzifəli şəxslərin mühafizəsi (VŞM)

8) Rejim təminatı (RT);

9) Gömrük müşayiəti (GM);

10) Cinayət işlərinin, maddi sübutların və dəyərlərin daşınma zamanı mühafizəsi (Cİ və QM);

11) Gömrük konvoyu (GK);

12) Buraxılış və obyektdaxili rejimin təminatı (BORT);

13) Nəzarət-mühafizə qrupu (NMQ);

Xidməti tapşırıqları yerinə yetirərkən mühafizə naryadlan aşağıdakı hüquqlara malikdir:

- gömrük nəzarətindən keçməli olan mallar və nəqliyyat vasitələri, həmçinin bu cür nəzarət üçün zəruri sənədlər ola bilən, yaxud da həyata keçi hi məsinə nəzarət Azərbaycan Respublikasının gömrük orq.'ııılarına tapşırılmış fəaliyyətin həyata keçirildiyi ərazilərə və binalara daxil olmaq;

- gömrük qanunvericiliyində nəzərdə tutulmuş hallarda nəqliyyat vasitolorini məcburi saxlamaq, xarici gəmilərdən və başqa dövlət lorin ərazisində olan gəmilərdən başqa, Azərbaycan Respublikası gömrük orqanlarının icazəsi olmadan Azərbaycan Respublikasının gömrük ərazisini tərk etmiş dəniz və çay gəmilərini məcburi qaytarmaq;

- zəruri hallarda gömrük nəzarəti zonalarında şəxsiyyəti təsdiq edən sənodlərin yoxlanmasını, nəqliyyat vasitələrinin və mallann müayinəsini həyata keçirmək;

- gömrük qaydalarının pozulmasının qarşısının alınması məqsədilə fiziki vo vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati saxlamaq, onlardan şifahi və yazılı izahatlar atmaq;

- tutulmuş fiziki və vəzifəli şəxsləri nəqliyyat vasitələrim və malları saxlanma yerində sənədləşdirilməsi üçün on yaxın gömrük orqanına gətirmək;

- odlu silahı vo xüsusi vasitələri qanunvericiliyin müddəalarına uyğun olaraq tətbiq etmok;

- xidməti tapşınqları yerinə yetirərkən lazım gəldikdə Azərbaycan Respublikası daxili işlər orqanlarının əməkdaşlarına vo Azərbaycan Respublikasının sərhəd qoşunlarının hərbi qulluqçulanna müraciət

Mühafızo naryadına aşağıdakı hallarda xidmət çəkmə yerini (sahəsini) müəyyən edilmiş vaxt bitənədək tərk etməyə icazə verilir:

- başqa üsulla təxliyyə etmək mümkün olmadıqda, xəstələnmiş (yaralanmış) əməkdaşa tibbi yardım göstərilməsi;
- qonşu mühafizə naıyadlarma və sərhəd naryadlarına yardım göstərilməsi;
- təbii fəlakət və ya yanğın zamanı göstərilən yerdə (sahədə) xidmətçəkmə mühafizə naryad) əməkdaşlarının həyatı üçün təhlükə ilə bağlıdırsa.

İlk fürsət yaranan kimi mühafizə nary adının başçısı xidmətçək-mo yerini (sahəsini) tərketmə barədə operativ növbətçiyə, yaxud mühafizə bölməsinin rəisinə məruzə edir.

Xidmətçəkmə zamanı mühafizə naryadlarınm əməkdaşlarına xidmətçəkmə yerini (sahəsini) əvəz edilənədək və ya müəyyən olunmuş vaxt bitənodək tərk etmək, müəyyən edilmiş hərəkət marşrutunu dəyişdinnək, həmsərhədd dövlətin ərazisinə girmək, şərait tələb etmirsə, silahı üstündən çıxarmaq, onu sökmək, patronu patron yerinə göndərmək, tabe olduğu şəxslər də daxil blmaqla, silahı başqa şəxslərə vennək, bölmə rəisinin icazəsi olmadan televiziya, elektron-optik, siqnalizasiya sistemlərini (komplekslərini) söndürmək, həmçinin onların müəyyən edilmiş iş rejimini dəyişdirmək, kənar şəxslərdən hər hansı bir əşyanı qəbul etmək (ötürmək), onlarla xidmətə aid olmayan məsələ lo'r barədə söhbətlər aparmaq, alkoqollu içkilər və narkotik vasitələrdən istifadə etmək, başqa hərəkətlərlə xidmətdən yayınmaq qadağan edilir.

### *17.4.2. Mühafiz^ naryadlarınm xidməti*

Mühafizə naıyadlarının hazırlığına ilkin və bilavasitə hazırlıq daxildir.

İlkin hazırhq döyüş hazırlığı, təlimatlandırma və əmrlərin, əsasnamələrin, təlimatlann və digər xidməti sənədlərin müstəqil öyrənilməsi üzrə planlı məşğələlər gedişində həyata keçirilir.

Mühafizə naryadlarınm xidmətə bilavasitə hazırlığı xidməti vaxt reqlamenti ilə müəyyən edilmiş saatlarda aparılır. O, tapşırıq

(instnıtctaj) aimmasma 30 dəqiqə qalmış başlayır və aşağıdakıları ehtiva edir:

- silahların, rabitə, müşahidə, yerdəyişmə vasitələrinin və xüsusi vasitələrin alınması və istifadəyə hazırlanmasım;
- naryad əməkdaşlarının geyimlə təchizatını;
- şəraitin, xidmətçəkmə sahəsinin (yerinin, marşrutunun), mühafizə olunan obyektin xüsusiyyətlərinin və təlimatların öyrənilməsini.

Əməkdaşların xidmətə vaxtında və keyfiyyətli hazırlanmasına görə mühafizə naryadmın başçısı (növbə başçısı) məsuliyyət daşıyır. O, tapşırıq (instruktaj) alanadək əməkdaşlann zahiri görünüşünü, geyim təchizatının alınması və onlann düzgün geyilməsini, silahların, rabitə, yerdəyişmə vasitələrinin və xüsusi vasitələrin tətbiqə hvazırhğını və yararhlığını yoxlamalıdır.

Operativ növbətçi gömrük orqanının daimi hazırlığının və xidməti fəaliyyətinin fasiləsiz idarə olunmasının, silahların, döyüş sur- satlan və xüsusi vasitələrin salamatlığının təmin edilməsi üçün nəzərdə tutulmuş mühafizə naryadıdır. O, operativ-növbətçilik xidməti əməkdaşlarından təyin edilir, iki dolu güllə sandığı (maqazin- lə) silahlanır, sinəsinin sol tərəfində müəyyən olunmuş nümunəli nişana malik olur.

Operativ növbətçi Mühafizə Dəstəsinin rəisinə tabedir.

Operativ növbətçi aşağıdakılan bilməlidir;

- tabeliyində olan mühafizə bölmələrinin dislokasiya yerlərini və onlarla əlaqə saxlama qaydasım;
- gömrük səıhədindəki və gömrük orqanlannm ətrafindakt şəraiti;
- fövqəladə hallar yaranarkən gömrük orqanının hərəkət qaydasım;
- mühafizə naryadlannm xidmətçəkmə sahələrini (yerlərini, marşrutlarını) və onlarla əlaqə saxlama qaydasım;
- müşahidə altında olan, eləcə də gömrük orqanı əməkdaşlanna verilmiş silahların sayını;
- gömrük orqanının növbətçi avtomaşınlarının və dəniz (çay

- faktiki hava durumunu.

Növbətçiliyə başlamazdan əvvəl operativ növbətçi və onun köməkçisi təyin olunmuş vaxtda operativ növbətçilik xidməti şöbəsinin (qrupunun) rəisinin yanına instnıktaj üçün gəlirlər.

Operativ növbətçi növbətçiliyə başlayarkən:

- operativ növbətçilik xidməti xətti ilə daxil olmuş şərait barədə məlumatla tanış olmalı;
- dərhal həll edilməli olan məsələləri, Mühafizə Dəstəsinin rəisinin və onun müavininin göstərişlərinin yerinə yetirilməsi üzrə görülmüş işlərin nəticələrini, onlann yerinə yetirilməsinə sonrakı nəzarətin tapşınidığı şəxsi dəqiqləşdirməli;
- növbətçi avtomaşınlann və dəniz (çay) gəmilərinin olmasım və texniki vəziyyətini, mühafizə dəstəsi rəisinin, onun müavinlərinin olduğu yeri və onlarla əlaqə saxlanması qaydasını aydınlaşdırmalı;
- operativ növbətçinin köməkçisinin xidmətə hazırlığını yoxlamalı, onu şərait barədə və qəbul edilmiş qərarlar barədə məlumatlandırmalı;
- əvəz etdiyi operativ növbətçidən silahları, döyüş sursatlanni, operativ nəzarət vasitələrini, xüsusi vasitələri saybasay nömrə uçotu və komplektdə olması üzrə qəbul etməli;
- operativ növbətçi köməkçisindən sənədlərin, televiziya, elektron-optik, siqnalİzasiya sistemlərinin (komplekslərinin) və cihazların qəbulu barədə məruzəni qəbul etməlidir.

Operativ növbətçi növbətçiliyin tərəfindən qəbulu (təhvili) barədə operativ növbətçilik xidmətinin rəisinə məruzə edir.

Xidmətçəkmə zamanı operativ növbətçi:

- şərait barədə məlumatların fasiləsiz toplanmasım həyata keçirməli;
- Mühafizə Dəstəsinin rəisinə və ya onu əvəz edən şəxsə, gömrük serhədindəki buraxılış məntəqələrində və gömrük infinstruktu- runun digər obyektlərində silahlı münaqişələr barədə, Azərbaycan' Respublikasının Gömrük Məcəlləsində göstərilən qaçaqmalçılıq barədə, gömrük orqanları əməkdaşlarının yoxa çıxması, onlann yaralanması və ya həlak olması barədə, gömrük orqanlarının avtoma-

şınlannın vo gəmilorinin qoza və fəlakatlori barədə, silah və döyüş sursatlarının oğurlanması (itınosi) halları, digor hadisələr barədə; həmçinin gömrük orqanları əməkdaşlanna qarşı və ya onlar torofındo törədilmiş hüquqazidd horokətlor barədə dərhal məruzə etməli;

- şəraitin mürəkkəbləşməsi zamanı müxtəlif şərait variantları üzrə horokot qaydasına uyğun hərəkət etmoli;

- müoyyon olunmuş vaxtda tabelikdə olan gömrük orqanlarının operativ növbətçilərindən şərait, operativ xidməti fəaliyyətin nəticələri barədə moruzolori qəbul etmoli, onları ümumiləşdirmoli və Mühafizə Dəstəsinin rəisinə vermoli;

‘ silahlan, döyüş sursatlarını və xüsusi vasitələri müəyyən olunmuş qaydada qəbul etmoli (verməli);

- iş vaxtından kənar “təcili”, “dərhal təqdim etməli” qeydləri olan paketləri, təcili telefonoqram, teletaypoqram, fakslan və dərhal baxılmasını tələb edən digər sənədləri qəbul etmoli, onlar barədə Mühafizə Dəstəsinin rəisinə və onu əvəz edən şəxsə məruzə etməli və alınmış göstərişlərə uyğun hərəkət etməli;

- mülki müdafiənin müxtəlif döyüş hazırlığı dərəcələrinə gotirilmo barodo siqnal aldıqda siqnalın doğruluğuna əmin olmalı vo mülki müdafiənin müxtəlif döyüş hazırlığı dorocələrino müvafiq keçirilmosi zamanı operativ növbətçi və onun köməkçisinin hərəkət qaydası haqqında təlimata uyğun hərəkət etmoli;

- səfərbərliyə dair bildiriş aldıqda Mühafizə Dəstəsinin rəisinə vo ya ənu əvəz edən şəxsə dərhal raport verməli və onun göstərişlərinə uyğun hərəkət etməli;

- Mühafizə Dəstəsi nəhbərliyİnin sərəncamlarını vaxtında vo dəqiq ötünnəlidir.

Patrul gömrük sərhədinin müəyyən marşrut vo ya istiqamət üz- lə mühafizəsi üçün təyin edilən mühafizə bölməsinin, gömrük orqanının digor operativ bölmələrinin iki və daha artıq əməkdaşından ibarət mühafizə naryadıdır. O, yerlərin müayinəsi, gömrük nəzarəti zonası rejiminə əməl edilməsi, nəqliyyat vasitələrinin vo malların müəyyən olunmuş buraxılış məntəqələrindən kənarda keçirilməsinin qarşısının alınması üzrə vəzifələri yerinə yetirə bilər.

Patrul piyada qaydada, avtomaşında, d,)iiiz (çay) gotnisində vo başqa nəqliyyat vasitələrində xidmət çoko bilər.

Qoyulmuş tapşınğa əməl edərək patrul göstərilən marşrut və ya istiqamət üzrə müşahidə4iain əlverişli olan bir məntəqədən o birisinə doğru hərəkət edə bilər. Növbətçi məntəqəyə irəli çıxaraq bitişik (ətraf) yerləri gözdən keçirir və gömrük qaydalarının pozulmasının olmadığına əmin olaraq, hərəkətinə davam edir.

Gömrük sərhədindəki buraxılış məntəqələrindən dolayı keçməyə imkan verən yollardan kənarda nəqliyyatın hərəkəti üçün yararlı olan yollar, cığırlar, yer sahələri xüsusilə diqqətlə nozərdə keçirilir.

Müəyyən olunmuş buraxılış məntəqələrindən kənarda hərəkət edən, həmçinin şübhə doğuran nəqliyyat vasitələri aşkar edərkən patrul onları saxlayır, sənədlərin yoxlanmasını və mallara baxış keçirilməsini həyata keçirir.

Nəqliyyat vasitələrinə, keçirilən mallara aid lazımi qaydada tərtib olunmuş sənədlər olmadıqda, yaxud onlann düzgünlüyünə şübhə yarandıqda, həmçinin Azərbaycan Respublikasına gətirilməsi (aparılması) qadağan olunmuş mallar, yaxud da gömrük qaydalannın pozulması əlamətləri aşkar edildikdə, patrul bu cür nəqliyyat vasitələrini tutub saxlayır, onlan on yaxın gömrük orqanına gətirir, patrulu göndərmiş şəxsə məruzə edir vo onun göstərişi ilə hərəkət edir.

Dənizin (sərhəd çayının, gölünün) sahili boyu hərəkət edərkən patrul dayaz yerlərin, keçid yerlərinin, malların üzən vasitələrdən başqa nəqliyyat vasitələrinə mümkün boşaltma-yükləmə yerlərinin müayinəsinə xüsusi diqqət yetirməlidir.

Çay gəmisində fəaliyyət göstərən patrul sərhəd çayının, Azərbaycan hissəsində üzmə təhlükəsizliyini gözləməklə xidmət çəkir. Bu zaman gecə vaxtı su səthinin dini əni Iməsi üçün gəminin mühərriki dövri olaraq söndürülə bilər.

Saxlanılmış gəminin müayinəsi, bir qayda olaraq, o, sahilə yan aldıqdan sonra həyata keçirilir. Müstəsna hallarda şübhəli gəminin saxlanması və müayinəsi üçün patrul onun bortuna çıxarıla bilər.

Zəruri olduqda gömrük hüquqpozmalarının qarşısının alınması

Nəzarət məntəqəsi gömrük sərhədi boyu gömrük nəzarəti zonasının və daxili tranzitin yoxlanması üçün mühafizə bölməsinin, gömrük orqanının digər bölmələrinin iki və daha artıq əməkdaşından ibarət təyin olunan mühafizə naryadıdır.

Nəzarət məntəqəsi avtomobil yollarında, gömrük nəzarəti zonalarına girişdə (çıxışda) və Azərbaycan Respublikasının gömrük ərazisinin dərinliyində qoyula bilər. O, müstəqil şəkildə və ya DYP postu ilo bir yerdə yerləşə bilər.

Müstəqil şəkildə yerləşərkən nəzarət məntəqəsində aşağıdakılar olmalıdır:

- yerləri dəyişdirilən aşağıdakı xəbərdarlıq nişanlanna: “Diqqət (gömrük orqanlarının nəzarət məntəqəsi). Sürət saatda 10 km”, postdan hər iki tərəfdə 25 metr məsafədə: “Dayan! Gömrük orqanlarının nəzarət məntəqəsi”;
- qırmızı fənərlə təchiz edilmiş yeri dəyişdirilən şlaqbaum;
- hərəkəti nizamlama vasitələri;
- avtonoqliyyatı məcburi dayandırma vasitələri.

Nəzarət məntəqsi DYP postu ilə bir yerdə yerləşirsə, avtonəqliyyatın saxlanmasını DYP əməkdaşlan həyata keçirirlər.

Xidmətçəkmə yerinə gələrək naryad başçısı naryad əməkdaşlarına tapşırıqlar verir. Bu zaman o, aşağıdakıları müəyyən edir:

- hor bir əməkdaşın olduğu yeri;
- nəqliyyat vasitələri dayandırılarkən, onlann müayinəsi və sənədlərin yoxlanması zamanı hərəkət qaydasını;
- naryadın tolobləriпə əməl edilməsi, müqavimət göstərilməsi hallarında şəxsi heyətin hərəkətlərini;
- xidmətçəkmə zamanı təhlükəsizlik tədbirlərini.

Sənədlərin yoxlanmasını və nəqliyyat vasitələrinin müayinəsini, bir qayda olaraq, naryadın başçısı həyata keçirir.

Qalan əməkdaşlar nəzarət məntəqəsini dolayı yolla keçməyə cəhd edən noqliyyat vasitələrini aşkar etmək məqsədilə yoxlanılan şəxslərin davranışım və ətraf yerləri müşahidə edirlər.

Hər hansı bir gömrük qaydası pozuntusu aşkar etdikdə, naryad

muş qaydada onlan ən yaxın gömrük orqanına və ya DİN orqanına gətirir.

Nəzarət məntəqəsini dolayı yolla keçmək istəyən nəqliyyat vasitələri aşkar edildikdə naryad başçısı naryadm tərkibindən əməkdaşların bir hissəsini avtomaşında onlan tutub saxlamaq üçün ayınr.

Xidmət çəkmə zamanı nəzarət məntəqəsi öz hərəkətləri ilə müəssisə, təşkilat və idarələrin istehsal-təsərrüfat fəaliyyətinə maneçilik törətməməlidir.

Səyyar çevik qrup gömrük orqanından xeyli uzaqda yerləşən rayonlarda, bölgələrdə gömrük qaydalarını pozanlarm axtanşı və tutulması üçün mühafizə bölmələrinin, gömrük orqanının digər operativ bölmələrinin iki və daha çox əməkdaşından təşkil olunmuş mühafizə naryadıdır.

Səyyar çevik qnıp avtomaşında və ya dəniz (çay) gəmisində göndərilə bilər.

O, xidmətçəkmə sahəsinin, bölgəsinin xəritəsi və ya sxemi ilə, kompasla, etibarlı rabitə, müşahidə və hərəkətin nizamlanması vasitələri ilə, həmçinin bütün xidmətçəkmə dövrü üçün ərzaq məhsullan ilə (pulla) təmin edilir.

Tapşınğı və xidmətçəkmə qrafikini alaraq səyyar çevik qrupunun rəhbəri aşağıdakıları müəyyən edir:

- naryad heyətinin avtomaşında və ya dəniz (çay) gəmisində yerləşməsini;
- naryad təyin edilmiş bölgəyə gəlib çıxarkən və xidmət çəkmə zamanı müşahidə aparılma qaydasım;
- nəqliyyat vasitələri dayandırılarkən, sənədlər yoxlanarkən və mallara baxış keçirilərkən əməkdaşların hərəkət qaydasım;
- naryadm müxtəlif vəziyyətlərdə hərəkətlərini.

Təyin olunmuş bölgəyə, sahəyə gələrək, səyyar çevik qrup müşahidə aparılması, gömrük qaydalarının pozulmasında şübhə doğuran nəqliyyat vasitələrinin aşkarlanması və yoxlanması yolu ilə qoyulmuş tapşınğı yerinə yetirir.

Dəniz (çay) gəmisində göndərilmiş mobil operativ qrup şübhəli üzən vasitələrə baxış keçirilməsi yolu ilə gömrük qaydalanm po-

zanların axtanşım aparır. Bu zaman üzon vasitolorden malların boşaldılması mümkün olan sahəlorə (yerləro) xüsusi diqqot yetirilir.

Pusqu öncodun alınmış molumatlara görə nəqliyyat vasitələrinin vo malların tutulması vo gömrük nəzarəti keçirilməsi üçün mühafizə bölmolorinin, gömrük orqanının digər bölmələrinin əməkdaşlarından təyin edilən iki və daha çox şəxsdən İbarət mühafizə naryadıdır.

Pusquya mühafizə bölməsinin və gömrük orqanının digər bölmələrinin ən hazırlıqlı, gömrük sərhədində praktiki xidmətçokmə təcrübəsi olan əməkdaşları təyin edilirlər.

Pusqu nəqliyyat vasitələrinin hərəkətinin ehtimal olunan marşrutunda onun yerləşməsinin gizliliyi təmin edilən vo yanından ötüb keçilməsi mümkün olmayan yerdə təşkil edilir.

Xidmotçokmə yerino gəlorək naryad rəisi bunlan müəyyən edir:

- hər bir əməkdaşın, avtomaşının vo nəqliyyatı məcburi dayandırma vasitəsi qurğusunun dayanacağı yerləri;
- yəl və ona bitişik yerlərin müşahidə olunması qaydasım;
- nəqliyyat vasitəsi dayandırılarkən, ona baxış keçirilərkən və sənədlər yoxlanarkən naryadın hərəkət qaydasım;
- nəqliyyat vasitəsi pusqu yerləşdiyi yeri yarıb keçmə cəhdi etdikdə, yaxalananlar silahlı müqavimət göstərdikdə naryadın hərəkətlərini;
- qarşılıqlı fəaliyyət siqnallarını.

Naryadın əməkdaşları seçilmiş yerdə dayananıq və maskalanaraq, heç bir şeyi ə özünü büruzo vennədən ətrafı müşahidə edir və dinləyirlər.

Nəqliyyat vasitəsi pusqu qurulmuş yerə yaxınlaşarkən təyin edilmiş əməkdaşlar hərəkəti nizamlama vasitələri ilə onun dayandırılmasım, sonədlorin yoxlanmasını və baxışı həyata keçirirlər, qalanları avtonəqliyyatm məcburi dayandırılması vasitəsini hərəkətə gətirməyə hazır vəziyyətdə olurlar vo nəqliyyat vasitəsini dayandıran əməkdaşlan arxadan qoruyurlar.

Naryadın dayandırma barədə tələbləri yerinə yetirilmədikdə avtonəqliyyatın məcburi dayandırma vasitəsi hərəkətə gətirilir. Nəqliyyat vasitələrinin məcburi dayandırılması üçün silah

Respublikası Gömrük Mocəllosino müvafiq tosdiq edilmiş Təlimata uyğun olaraq tətbiq edilir. Nəqliyyat vasitəsi pusqu qurulan yeri yarıb keçərkən naryad başçısı dərhal naryadı göndərmiş şəxsə məruzə edir, qarşılıqlı fəaliyyətdə olan gömrük orqanı, sərhəd qoşunları və DYP naryadlarını məlumatlandırır.

Verilmiş tapşu'iq yerinə yetirilənədək, müəyyən olunmuş vaxt bitənədək və ya gömrük orqanı rəisinin əmri yerinə yetrilənodek pusqu xidmət çəkir.

Xidmətçəkmə gedişində tutulub saxlanmış nəqliyyat vasitələri və mallar naryad tərəfindən ən yaxın gömrük orqanına gətirilir.

Obyektin qorunması gömrük infrastrukturunun mühafizəsi üçün mühafizə bölməsinin bir və ya daha çox oməkdaşından təşkil edilmiş mühafizə naryadıdır.

Bir qayda olaraq, “obyektin qoRinması” mühafizə naryadı növbə başçısının başçılıq etdiyi növbə tərkibində qoyulmuş tapşırığı yerinə yetirir.

Naryad başçısı təyin edilmiş vaxtda və müəyyən olunmuş geyim formasında mühafizə olunan obyektlər üzrə növbə dəyişməsinə gəlməli, zəruri fərdi müdafiə, rabitə (siqnalizasiya) vasitələrini, lazım gəldikdə isə silah və döyüş sursatlarını almalı, qorunan obyektin xüsusiyyotlərini və xidmətçəkmə üzrə təlimatı öyrənməlidir.

Xidmətə başlayarkən qorunan obyektlərdə naryadlann növbə dəyişməsi yeni və dəyişilən növbə rəislərinin rəhbərliyi altında həyata keçirilir; sonralar o, müstəqil surətdə, növbə rəisi tərəfindən müəyyən olunmuş buraxılış və geriyə çağınna qrafİkino uyğun həyata keçirilir.

Mühafizə olunan obyektə gələrək, yenİ naryad onu qəbul edir: işıqlanmanm, çəpərİəmənin, qapıların (darvazaların) sazlığını, anbarlann pəncərələrinin, barmaqlıqlıqlarinin və divarların vəziyyətini, qıfıllar, qaytanlar, möhürlərin (plombların) olmasını, vəziyyətini və qəliblərə (basqılara) uyğunluğunu, habelə mühafizə, rabitə (siqnalizasiya) və yanğınsöndünnənin texniki vasitələrinin mövcudluğunu və vəziyyətini yoxlayır.

Naryad tapşırılmış obyektin mühafizəsi üçün qoyulmuş tapşırığın naryadm hərəkət sxemində göstərilən marşrut üzrə onun ətra

fında gəzmo, təchiz edilmiş (əlverişli) yerlərdən müşahidə və dinləmə yolu ilə yerinə yetirir.

Naryadın əməkdaşları xidmətçəkmə zamanı:

- obyekti sayıqlıqla qorumalı və dəyanətlə müdafiə etməli;
- dəyişilənədək və ya çıxarılanadək obyekti tərk etməməli;
- hərəkət marşrutuna ciddi əməl etməli, obyekti və ona yaxınlaşma yerlərini diqqətlə müşahidə etməli;
- növbə rəisi ilə rabitə siqnallarını (qaydasını) bilməli və ya obyektdə vo ya onun yaxınlığında qayda pozuntulan barədə ona dərhal moruzo etməli;
- obyektə soxulmağa cəhd edən kənar şəxsləri tutub saxlamalı və onlar barədə növbə rəislərinə məruzə etməli;
- silahı daima tətbiqə hazır vəziyyətdə saxlamalı;
- obyektdə olan yanğınsöndürmə vasitələrini tətbiq etməyi bacarmalıdır.

Vəzifəli şəxslərin mühafizəsi gömrük orqanlarının vəzifəli şəxslərinin fiziki mühafizəsi üçün mühafizə bölməsinin bir və daha çox əməkdaşından təşkil edilmiş gömrük mühafizəsi naryadıdır.

“Vəzifəli şəxslərin mühafizəsi” naryadına professional, fiziki və mənəvi-psixoloji cəhətdən ən yüksək hazırlığı olan, müxtəlif silahlara və əlbəyaxa döyüş fendlorinə mükəmməl yiyələnmiş əməkdaşlar təyin edilir.

Vəzifəli şəxsin mühafizəsi üzrə natyadın hərəkətləri şəraitdən asılı olaraq gizli və ya nümayişkarane həyata keçirilə bilər.

Mühafizə olunan vəzifəli şəxs iş yerindən (yaşayış yerindən) kənarda olduqda naryad başçısı onun bilavasitə yaxınlığında olmalıdır. Naryadın qalan heyəti göstərilən sektorlarda müşahidə aparmaq və ola biləcək basqını dəf etmək üçün əlverişli yerlərdə dayanır.

Naryad əməkdaşları mühafizə olunan vəzifəli şəxsə basqını dəfə daima hazır olmalıdırlar. Basqın dəf edilərkən, yaranan şəraitdən asılı olaraq fiziki güc, xüsusi vasitələr və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 58-ci fəslinin müddəalanna uyğun olaraq silah

Vəzifəli şəxslərin mühafizəsi üzrə naryad əməkdaşlannm hərəkətlərinin konkret qaydası yaranan konkret vəziyyəti və yerli şəraiti nəzərə almaqla hazırlanan xüsusi təlimatla müəyyən edilir.

Rejimin təmini gömrük nəzarəti zonası rejiminin və əməkdaşlann işinin təhlükəsizliyinin təmin edilməsi üçün mühafizə bölməsinin iki və daha çox əməkdaşından təşkil olunmuş mühafizə naryadıdır.

Naryad, sərhədləri, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi yerləri, qaydapozanlann güman edilən soxulma və ya yanb keçmə istiqamətləri göstərilməklə gömrük nəzarəti zonasının sxemi ilə təmin edilir.

Xidmətçəkmə zamanı naıyadm əməkdaşları həm gömrük nəzarəti zonalannda, həm də onların xarici sərhədlərində, müşahidəa- parma, gömrük qaydalarını pozanlan yoxlama və gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi aparan əməkdaşlara qarşı ola biləcək hüquqa-zidd hərəkətlərin qarşısının alınması üçün əlverişli olan yerlərdə dayana bilər.

Bu zaman naryadın hərəkətləri nümayişkaranə və ya onun ayrı-ayn əməkdaşları mallara və nəqliyyat vasitələrinə gömrük nəzarətini və ya onların gömrük rəsmiləşdirilməsini həyata keçirən vəzifəli şəxslər kimi çıxış etdikdə isə gizli olmalıdır.

Gömrük müşayiəti gömrük qanunvericiliyinin tələblərinə əməl edilməklə mallann, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin çatdınimasmı təmin etmək üçün mühafizə bölməsinin iki və ya daha çox əməkdaşından təşkil olunmuş mühafizə naryadıdır.

Mallar nəqliyyat vasitələrinin plomblanmamış və möhürlenrnəmiş yük bölmələrində və ya gömrük plomblan və möhürləri ilə çatdınla bilər.

Bir qayda olaraq, 10 nəqliyyat vasitəsindən artıq olmayan müşayiət avtomaşmlan karvanın (kolonun) başında və arxasında gedir. Onlann sayı daha çox olduqda, karvanın ortasında gedən əlavə müşayiət avtomaşını aynlır, yaxud da naryad əməkdaşlannm bir hissəsi karvanın ortasmda gedən müşayiət olunan nəqliyyat vasitələrində yerləşdirilir.

Müşayiət avtomaşınları arasında (müşayiət olunan nəqliyyat vasitələrində olan əməkdaşlar arasında) radiorabitə təşkil edilir.

Radiorabitə qurmaq imkanı olmadıqda, naryad əməkdaşlannın, onlara aid hissədə isə nəqliyyat vasitələrinin sürücülərinin nəzərinə çatdınlan idarəetmə və qarşılıqlı fəaliyyət siqnalları müəyyən edilir.

Nəqliyyat vasitəsinin xarab olması, qəzaya uğraması zamanı, gözlənilməz vəziyyətlər yaranarkən karvan təmir qurtaranadək və ya mallar başqa nəqliyyat vasitələrinə boşaldılıb yüklənənədək karvan dayanır. Baş venniş hadisəyə dair işin hallan, malların vəziyyəti və sonrakı gömrük nəzarəti və rəsmiləşdirilməsi üçün məlumatlar göstərilməklə ixtiyari formada akt tərtib olunur. Akt naryad başçısı, daşıyıcı (mah müşayiət edən şəxs) və hadisəni görən digər şəxslər tərəfindən imzalanır. Mallar boşaldılıb yükləndikdə aktda yeni nəqliyyat vasitəsi barədə məlumatlar göstərilir.

Daşınmalar zamanı cinayət İşlərinin, maddi sübutların və dəyərlərin mühafizəsi daşınmalar zamanı cinayət işlərinin, maddi sübutların, dəyərlərin və pul vəsaitlərinin fızİki mühafizəsi və müdafiəsi üçün mühafizə bölməsinin iki və daha çox əməkdaşından təşkil olunmuş mühafizə naryadıdır.

Daşınma, bir qayda olaraq, gömrük orqanında mühafizə bölmələri tərəfindən hazırlanan və daxili işlər orqanlan ilə razılaşdırılan müəyyən marşrutlar üzrə avtomobildə həyata keçirilir. Dəmiryol (su) nəqliyyatı ilə daşınmaya müstəsna hallarda, avtomobillə daşınma mümkün və ya məqsədəuyğun olmadıqda, yalnız aynca kupedə (kayutda) yol verilir.

Cinayət işlərinin, maddi sübutların, dəyərlərin və pul vəsaitlərinin daşınması üçün ictimai nəqliyyatdan və şəhərətrafı qatarlardan istifadə olunması qadağandır.

Hərəkət yalnız avtomobilin bütün qapı və pəncərələri kilidlənib bağlandıqdan sonra başlayır.

Marşrut nəqliyyatla dolu olduqda, hərəkət üçün başqa maneələr yarandıqda, ehtiyat marşruta çıxmaq üçün tədbirlər görülür.

Mühafizə olunan sənədləri və dəyərləri ələ keçirmək cəhdi olduqda, naryad əməkdaşları qətiyyətlə və cürətlə hərəkət edirlər, şəraitə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada bütün qoruma və müdafiə vasitələrini tətbiq edirlər.

Gömrük konvoyu (keşiyi) müvəqqəti saxlama təcridxanalarına (MST) gətirdikləri zaman inzibati qaydada saxlanmış, qaçaqmalçılıq törədilməsində şübhəli şəxslərin silahlı müşayiəti üçün mühafizə bölməsinin iki və daha çox əməkdaşından təşkil edilən mühafizə naryadıdır.

İnzibati qaydada saxlanmış şəxslərin minik avtomobillərində, açıq və ya qapalı avtonəqliyyatda, çay və ya dəniz gəmilərində, sərnişin qatarlarının vaqon) annda daşınma müstəsna hallarda gücləndirilmiş konvoy tərəfindən və yalnız mühafizə orqanı rəisinin icazəsi ilə həyata keçirilir.

Tutulmuş şəxslərin şəhərətrafı qatarlarda və ictimai nəqliyyatda konvoyla aparılması qəti qadağandır.

Silahın hansı vəziyyətdə saxlanmasını konvoy rəisi müəyyən edir. Onu “çiyninə al’* vəziyyətində saxlamaq qadağandır.

Hər bir konvoyçuda fərdi sarğı paketi olmalıdır. Konvoy rabitə vasitələri, tibbi aptekə, zəruri miqdarda qandallarla və ya əl-ayağı bağlama vasitələri ilə, dəmiryolla konvoyla müşayiət zamanı isə bundan əlavə vaqon qapılannın açılması (bağlanması) üçün açarlarla təmin edilir.

Konvoya xidmətçəkməden yayınma, inzibati qaydada saxlanmış şəxslərlə söhbətlərə girişmə (konvoyla müşayiət zamanı hərəkət və davranış qaydalarına riayətetmə qaydası barədə göstərişlər İstisna edilməklə, inzibati qaydada saxlanmış şəxslərdən hər hansı bir şeyi, kağızı, ərzaqı qəbul etmək və onlara hər hansı bir şeyİ, ka- ğı və ərzağı vermək, onların məktublannı göndərmək, hərəkət marşrutunu və onun son məntəqəsini faş etmək qadağandır.

Buraxılış və obyektdaxili rejimin təmini buraxılış və obyektdaxili rejimin təmini üzrə vəzifələrini yerinə yetirən mühafizə bölməsinin bir və daha çox əməkdaşından təşkil edilmiş mühafizə naryadıdır.

Naryad əməkdaşların, xidməti personalın və gəlib-gedən şəxslərin müəyyən olunmuş sənədlər üzrə mühafizə olunan obyektə keçməsinə, nəqliyyat vasitələrinin girjb-çıxmasma, əmlakın gətirilib-apanlmasına, obyekt daxilindəki maddi dəyərlərin və sənədlərin salamatlığına nəzarət edir.

Naryadın xidmət çəkdiyi yer (bina) kilidlə bağlanan, masa ilə, kabinetlərin açadan olan seyflə (şkafla), stullarla, radio qovşağı ilə, texniki mühafizə, siqnalizasiya və televizion müşahidə vasitələrinin stasionar hissəsi ilə təmin edilir. Əməkdaşların və gəlib-gedən şəxslərin buraxılış yerləri tumiketlə təchiz edilir.

Naryadda aşağıdakı sənədlər olmalıdır:

- xidmətçokmə üzrə təlimat;
- obyektlərin mühafizəsi üçün qəbulu və təhvili kitabı;
- obyektdə iş vaxtının reqlamenti;
- yanğın təhlükəsizliyi tədbirləri üzrə təlimat;
- mühafizə, müşahidə və siqnalizasiyanm texniki vasitələrinin tətbiqi və istisman qaydası haqqında təlimat;
- vəzifəli şəxslərin xidməti telefonlannın siyahısı;
- sənədlər və əmlakın siyahısı;
- növbətçiliyin təhvil-təslim kitabı;
- obyektin ərazisinə girişə və əmlakın aparılmasına (çıxanlmasına) icazə vermək hüququ olan şəxslərin siyahısı, həmçinin onla- nn imzalarının nümunələri;
- şəxslərə giriş (çıxış), nəqliyyata giriş (çıxış) və əmlakın gətirilməsi (aparılması) hüququ verən sənədlərin nümunələri;
- kabinetlərin açarlarının verilməsi kitabı;
- mühafizənin texniki vasitələrindən daxil olan siqnalların uçotu kitabı.

Nəzarət-mühafizə qrupu mühafizə və siqnalizasiyanm texniki vasitələrindən istifadə etməklə gömrük infrastrukturu obyektlərinin mühafizəsi üçün təyin edilən mühafizə bölməsinin üç və daha çox əməkdaşından ibarət mühafizə naryadıdır.

Mühafizə olunan obyektlər bir-birindən, həmçinin xidmətçək- me yerindən xeyli uzaqda yerləşdiyi halda nəzarət-mühafizə qrupunun tərkibinə avtomobilli olan sürücü daxil edilir.

Nəzarət-mühafizə qrupu aşağıdakıların olması nəzərdə tutulan xüsusi binada (otaqda) xidmət çəkir:

- mühafizə və siqnalizasiyanm texniki vasitələrinin stasionar hissəsi olan pult;

- rabitə vasitələri (telefon və s.);
- sənədləşmə üçün stend;
- istirahət üçün yer;
• yemək qızdırmaq üçün plitə və soyuducu;
- ehtiyat qrupunun dincəlməsi üçün taxtalar;
- dərman qutusu;
- qəza işıqlandıncısı;
- post geyimi üçün şkaf.

Nezarət-mühafızə qrupu tərəfindən xidmət çəkilməsi növbətçi operatorun mühafizənin texniki vasitələrinin siqnallarını qəbul edən aparatlara fasiləsiz nəzarətindən, tele- və elektron-optik aparatlardan istifadə etməklə müşahidə aparmaqdan, mühafizə olunan obyektlərin ehtiyat qrupu tərəfindən dövri yoxlanmasından və onun mühafizə və siqnalizasiyamn texniki vasitələrinin gözlənilmədən (icazəsiz) işə düşməsi halında hərəkətlərə daimi hazırlığından ibarətdir.

/7.5. *Mühafizə böiməhnnin idarə edilməsi*

MühaHzə bölmələrinin idarə edilməsi gömrük orqanları və mühafizə şöbəİəri rəislərinin mühafizə bölmələrinin daima hazır vəziyyətdə saxlanması, onlar tərəfindən qoyulmuş vəzifələr yerinə yetirilərkən onlara rəhbərlik edilməsi üzrə məqsədəuyğun fəaliyyətindən ibarətdir.

Bölmələrin idarə olunmasına aşağıdakılar daxildir;

- şəraitə dair məlumatların daim əldə edilməsi, toplanması, öyrənilməsi və ümumiləşdirilməsi;
- qərarlann qəbulu;
- operativ-xidməti hərəkətlərin planlaşdırılması;
- tabelikdə olanlara tapşırıqlar verilməsi;
- fasiləsiz qarşılıqlı fəaliyyətin təşkili və davam etdirilməsi;
- mühafizə bölmələrinin qoyulmuş vəzifələrin yerinə yetirilməsinə hazırlanması;
- tərbiyə işi və maddi-texniki təminat üzrə tədbirlərin təşkili və həyata keçirilməsi;

- idarəetmənin təşkili;
- xidməti vəzifələrini yerinə yetirərkən mühafizə bölmələrini bilavasitə idarəetmə;
- tabelikdə olanlara nəzarət edilməsi və yardım gösterilməsi;
- qanunvericiliyə riayət edilməsinin təmin olunması.

### *I7.5. J. Mühafizi böltnBsinin tayinati va asas vazifalari*

Mühafizə bölməsi gömrük sərhədinin mühafizəsi ve gömrük mühafizəsinə tapşırılmış digər vəzifələrin yerinə yetirilməsi üzrə xidməti hərəkətlərin vaxtında və keyfiyyətli təşkili, qoyulmuş vəzifələri yerinə yetirərkən gömrük mühafizəsi bölmələri qətiyyətli və fasiləsiz idarə olunması üçün nəzərdə tutulmuşdur.

Mühafizə bölməsinin əsas vəzifələri bunlardır:

• mühafizə bölməsinin xidməti vəzifələrin yerinə yetirilməsinə daim hazır vəziyyətdə saxlanması üzrə tədbirlərin həyata keçirilməsi;

• gömrük sərhədində, gömrük orqanları və onlann vəzifəli şəxsləri ətrafında şəraitə dair məlumatlann fasiləsiz toplanması, təhlili vo ümumiləşdirilməsi;

- qərarlar qəbul etmək üçün Mühafizə Dəstəsinin rəisinə lazım olan operativ-taktiki hesablamalann və təkliflərin hazırlanması;
- qərarın rəsmiləşdirilməsi, xidməti hərəkətlərin planlaşdırılması və tapşınqlarm tabelikdə olanlara vaxtında çatdın iması;
- səlahiyyətləri daxilində gömrük orqanının digər bölmələri ilə, sərhəd qoşunlannın birləşmələri, hissələri və bölmələri ilə, Azərbaycan Respublikası DİN-İn, digər nazirliklərin ərazi orqanlan ilə qarşılıqlı fəaliyyətin təşkili və saxlanması;
- operativ-növbətçilik xidmətinin təşkili və ona rəhbərlik;
- döyüş hazırlığının planlaşdırılması və təşkili;
- operativ-texniki təminat üzrə tədbirlərin planlaşdınıması və həyata keçirilməsi;
- mühafizə bölməsində xidməti hərəkətlərinin maddi-texniki təminatının təşkilində iştirak etmək;

- mühafizə bölməsinin xidmət intizamının möhkəmləndirilməsi üzrə tədbirlər keçirilməsi;
- qoyulmuş vəzifələrin yerinə yetirilməsində mühafizə bölməsində nəzarət və praktiki yardım göstərilməsi.

Yaranan şəraitdən, təşkilati quruluşundan və say tərkibindən asılı olaraq mühafizə bölməsinə başqa vəzifələr də tapşınla bilər.

*17.5,2. Mühafiz^ bölməsinin işinin təşkili*

Mühafizə bölməsinin işi ümumi idarəetmə prinsipləri üzərində qurulur və perspektiv (illik) və cari (rüblük) planlara əsasən həyata keçirilir.

Mühafizə bölməsinin işinin təşkili qərarlann vaxtında qəbulunu, tam və keyfiyyətli planlaşdtrmanı, tabelikdə olanlara verilmiş vəzifələrin yerinə yetirilməsinə hazırlaşma üçün mümkün qədər çox vaxt verilməsini, şəraitin dəyişməsinə cəld reaksiya verilməsini, qüvvə və vəsaitlərin ən səmərəli tətbiqini, gömrük orqanının digər bölmələrinin fəaliyyəti ilə yüksək uyğunlaşdırmam təmin etməlidir.

*17,6, Silah və xüsusi vasitələrin tətbiqi*

*17.6.1. Odlu silahın tətbiqi*

Odlu silah Azərbaycan Respublikası gömrük orqanlannin vəzifəli şəxsləri tərəfindən son tədbir olaraq aşağıdakı məqsədlər üçün tətbiq edilir:

- həyatlan və sağlamlıqları təhlükəyə məruz qaldıqda Azərbaycan Respublikası gömrük orqanlarının əməkdaşlarına basqının dəf edilməsi;
- Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin odlu silahını ələ keçirmək cəhdinin qarşısının alınması (Azərbaycan Respublikası gömrük orqanı əməkdaşı tərəfindən yaxalanan şəxsin həmin əməkdaşın göstərdiyi məsafəni qısaltma yolu ilə odlu silaha yaxınlaşmaq və ya bu cür silaha toxunmaq cəhdi

silahı olə keçirməyə canatma kimi qiymətləndirilir və əməliyyata silahı tətbiq etmək hüququ verir);

- Azərbaycan Respublikası gömrük orqanlanna məxsus olan və ya onlar tərəfindon istifadə olunan binalara, tikdiklərə, qurğulara və nəqliyyat vasitələrinə, gömrük nəzarəti altında olan mallara və nəqliyyat vasitələrinə qrup şəklində və ya silahlı basqının dəf olunması üçün, əgər basqının qarşısının alınmasının başqa tədbirləri nəticəsiz qalmışdırsa;

- silahlı müqavimət göstərən şəxsin, həmçinin silahın təhvil verilməsinə dair qanuni tələbləri yerinə yetirməkdən imtina etmiş silahlı şəxsin tutulması.

Azərbaycan Respublikası gömrük orqanları əməkdaşlarının həyatı və sağlamlığı üçün təhlükə yaradan silahlı qrup şəklində və ya digər basqın, silahlı müqavimət göstərmələri hallarından başqa, qadınlara, aşkar əlillik əlamətləri olanlara və azyaşlılara qarşı, həmçinin silahın tətbiqi nəticəsinə kənar şəxslər zərər çəkə bilərsə, insanların çoxlu toplaşdığı yerlərdə odlu silahın tətbiqi qadağandır.

*17.6.2. Xüsusi vasitələrin tətbiqi*

Xüsusi vasitələr xəbərdaredici qeyri-zorakı üsulların İstifadə ülımduğu və arzu olunan nəticələri verməd iyi hallarda aşağıdakılar üçün tətbiq edilir:

- Azərbaycan Respublikası gömrük orqanlannm əməkdaşlarına və ya başqa şəxslərə basqının dəf olunması;

- Azərbaycan Respublikası gömrük orqanlarına məxsus və ya onlar tərofmdən istifadə olunan binalara, otaqlara, tikililərə, qurğulara və nəqliyyat vasitələrinə, gömrük nəzarəti altında olan mallara və nəqliyyat vasitələrinə basqının dəf olunması, eləcə də həmin obyektlər mtulduğu halda onların azad olunması;

- hüquqpozan şoxslər tabe olmadıqda müqavimət göstərdikdə, digər hüququa zidd hərəkətlər etdikdə, yaxud etrafındakılara və ya özünə ziyan vurmaq ehtimalı olarsa, onlann saxlanması və Azərbaycan Respublikası gömrük orqanlannm xidməti binalarına

- Azərbaycan Respublikası gömrük orqanının vəzifoİİ şəxsİno göstərilən fiziki müqavimətin qarşısının alınması;

- sürücüsü Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin dayanma barədə tələbini yerinə yetirməsilə nəqliyyat vasitəsinin dayandırılması;

- Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinə həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə qəsdən maneçilik törədilməsinin digər hallarında, o cümlədən:

a) Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin silahını ələ keçirmək cəhdinin qarşısının alınması;

b) Azərbaycan Respublikası gömrük orqanları əməkdaşları içərisindən və onların ailə üzvlərindən olan girovların azad edilməsi;

c) Silahlı müqavimət göstərən şəxsi, həmçinin silahı təhvil vermək barədə qanuni tələbi yerinə yetirməkdən imtina etmiş şəxsin yaxalanması;

ç) həyata, sağlamlığa və ya əmlaka qarşı cinayət törətmə zamanı yoxlanmış və aradan çıxmağa çalışan şəxsin yaxalanması;

d) kütləvi iğtişaşların və gömrük nəzarəti zonası rejimini pozan qrup şəklində hərəkətlərin qarşısının alınması;

e) inzibati qaydada saxlanmış şəxslərin qaçmaq, habelə bu şəxslərin zorakılıqla azad edilməsi cəhdlərinin qarşısının alınması.

Xüsusi vasitələri tətbiq etməzdən əvvəl, onun tətbiqinə gecikmə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin həyat və sağlamlığı üçün bilavasitə təhlükə yaratdığı, digər ağır nəticələrə səbəb ola biləcəyi hallar və ya yaranmış şəraitdə xəbərdarlıq etmənin yersiz və mümkünsüz olduğu digər hallar istisna olmaqla, öz tələblərinin yerinə yetirilməsi üçün kifayət qədər vaxt verərək, onlan tətbiq etmə niyyəti barədə xəbərdarlıq edilməlidir.

Silahlı müqavimət göstərənləri, insanlann həyat və sağlamlığına, gömrük nəzarəti altında olan malların və nəqliyyat vasitələrinin toxunulmazlığı üçün təhlükə törədən dəstə şəklində və digər basqın hallarından başqa, görülən hamiləlik əlamətləri olan qadınlara, aşkar əlillik əlamətləri olan şəxslərə və azyaşlılara qarşı xüsusi vasitələrin tətbiqi qadağandır.

## MÖVZU 18. Azərbaycan Respublikasının gömrük orqanları dövlət qulluğu sistemində

### *18,t. DÖvlat qulluğunun hüquqi tanzimlənməsində beynalxalq tacrüba*

Bütün inkişaf etmiş ölkələrin dövlət qulluğu barədə qanunvericiliyi dövlət-hüquq formaları və siyasi quruluşun tarixi təkamülünü əks etdirir. Peşəkar məmurluq institutu ilk dəfə Fransa vo Almaniyada, daha sonra iso İngiltərə, ABŞ və Kanadada yaradılmışdır. Bu ölkələrin inkişafı idarəetmədə mühüm addımlar atılmasını tələb edirdi. Dövlət qulluğunun hüquqi reqlamentasiyasmdan danışarkən, ilk növbədə konstitusiya nomıalarmı qeyd etmək lazımdır. Belə ki, 1787-ci il ABŞ Konstitusiyasında Prezidentin "Senatın sesi- yalan arasındakı dövrdə açılan bütün vakansiyaları tutmaq" səlahiyyətləri qeyd edilmişdir. AFR-ın əsas qanunu ilə dövlət xidməti haqqında qanunvericiliyin söykənməli olduğu prinsiplər müəyyənləşdirilir. Polşanın 1997-cİ ildə qəbul edilmiş Konstitusiyasında dövlət qulluğunun məqsədləri və xüsusiyyətləri göstərilir.

Unitar dövlət quruluşuna malik Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinin II bəndində deyilir: "Azərbaycan Respublikası vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər".

Dövlət qulluğu haqqında yeni qanunvericiliyin qəbulu bir sıra ölkələrdə inzibati sahədə islahatlar şüan altında həyata keçirilmişdir. Məsələn, 70-ci illərdə İngiltərədə belə islahat keçirilmişdir. ABŞ Konqresi tərəfindən 1978-ci ilin 13 oktyabnnda Dövlət qulluğunda istahatlar barədə qanun qəbul edildikdən sonra bu sahədə

**Optimal qanunvericilik modelləri hazırlanmasını təmin edə bilən ciddi analitik iş apanldt.'**

Ölkolarin bu məsələyə fərqli münasibəti müxtəlif idarətemə sistemlərinin yaradılması ilə nəticələndi. 80-ci illərin əvvəlində Fransa dövlət qulluğunda islahatlar barədə qərar qəbul etdi və bu barədə çoxlu qanunlar, dekretlər meydana çıxdı. 1989-cu ildən isə Kanadada bu sahədə köklü islahatlar həyata keçirilməsinə başlanıldı. Bu islahatların əsas məqsədi, kanadalıların fikrini ifadə etsək, "dövlət qulluğu effektiv olmalı, müasir tələblərə cavab verməli, daha yaxşı olmalı, qulluğun başında ən bacanqlı kişi və qadınlar durmalıdır".

Rəngarəng və çoxsaylı nonnativ aktların olması əksər xarici dövlətlər üçün səciyyəvidir. Məsələn, elə Kanadanın özündə Dövlət qulluğuna qəbuletmə haqqında qanunla bərabər əmək münasibətləri barədə qanun da qüvvədədir. Bu qanun işə qəbul edən (Xəzinədarlıq Şurası şəxsində) və dövlət qulluqçuları arasındakı münasibətləri, o cümlədən, əmək mübahisələrinin həlli və tətildə iştirak etmək hüquqi məsələlərini tənzimləyir. Polşa və bir sıra digər ölkələrdə də dövlət qulluğuna aid məsələləri tənzimləyən vahid qanunvericilik aktı mövcud deyil.

Digər dövlətlərdən fərqli olaraq Böyük Britaniyada dövlət qulluğu məsələləri əsas qanunlarla deyil, hökumətin təşəbbüsü ilə qəbul edilən aktlarla - şurada əmrlərlə tənzimlənir.

Cəmiyyətin daha liberal qanunlarla idarə edildiyi federativ quruluşa malik ölkələrdə dövlət qulluğunun hüquqi tənzimlənməsi spesifik xarakter daşıyır. Belə kİ, ABŞ və Kanada üçün ümumİ səciyyə daşıyan bu məsələ üzrə iki qanunvericilik blokunun mövcudluğudur: federasiyanın və ştatlann (əyalətlərin) qanunvericiliyi. Nəticə isə dövlət qulluğunun avtonom (muxtar) sistemlərinin mövcudluğudur.

İnkişaf etmiş ölkələrdən Almaniya Federativ Respublikasında federal hökumət federasiya subyektlərinin: torpaqlann, icmalann və s.

***1 "To Meet the Heeds of the National Staffing tke U.S. Cml and the PuMice Service of Canada", Rerort to the President and the Cokgress by the U.S Merit Sistem Protection Board, 1992***

ir əsaslı aktlar hazırlayır. Rəqabətə girə biləcək qanunvericilik sahəsinə isə qulluqçuların maddi-texniki təminat məsələləri aid edilir.

Lakin, bu məsələlərin həllinə unitar dövlətlərdə də vahid münasibət yoxdur. İtaliyada dövlət qulluğunun təşkilinin ümumi prinsipləri Parlament tərəfindən 1983-cü ildə qəbul edilmiş qanunla müəyyən edilir. Bununla belə İtaliya Respublikası Konstitusiyasının 117-ci maddəsinə görə vilayətlər vilayət tabeli təşkilatlar və inzibati tdaraİər üzrə qanunvericilik aktlan qəbul edə bilərlər.

Dövlət qulluğu barədə qanunvericiliyin təkmilləşdirilməsi səmərəli dövlət aparatı yaradılması məqsədinə xidmət etməlidir.

Labüd olaraq, ilk növbədə dövləti vəzifələrin formal prinsiplərlə verilməsi kimi ənənəvi təcrübədən imtina etmək lazım gəldi.

İndi daha demokratik sistemə - vəzifəyə namizədin peşəkar hazırlığının onun dövlət qulluğuna qəbul edilməsi və daha }äiksək postlar tutması üçün əsas faktor olaraq qəbul edildiyi sistemə keçilmişdir.

Konkret olaraq dövlət aparatının komplektləşdirilməsi üzərində nəzarəti həyata keçirən orqanlar qarşısında ikili təbiətə malik vəzifələr durur - yüksək ixtisaslı kadrların cəlb edilməsini təmin etmək vo onlara qulluq şəraiti ilə razılaşmadıqları təqdirdə öz maraqlarım müdafiə etmək imkanı vermək.

Əslində dövlət qulluğunun struktur cəhətdən yenidən qurulması uzun illərlə Ölçülən vaxt apardı. Bu islahatlar bəzi ölkələrdə mürəkkəb, çoxsəviyyəli və unifık^iyalaşdmlmamış sistemlərin mövcudluğu (Böyük Britaniyada olduğu kimi), digərlərində isə dövlət qulluqçularının təsnifat sisteminin olmaması (A6Ş-da olduğu kimi) nəticəsində meydana çıxan boşluqları doldunnaq məqsədi daşıyırdı.

Sistem şəklində dövlət qulluğunun strukturunun dəyişdirilməsi, həmçinin, dəqiq struktur elementinin - sinif, dərəcə, ranq vo s. yaradılması (Fransada olduğu kimi) məqsədi ilə həyata keçirilirdi.

Əsas etibarı ilə dövlət qulluqçularının daha aydın təsnif edilməsi nəticəsində xidmət keçilməsi sistemi qaydaya salındı. Belə ki, AFR-də bir peşə istiqamətində bütün vəzifələri əhatə edən “xidməti karyera” kimi anlayış qəbul edildi.

Roy bildirmok. gərəkdirsə, qeyd edilməlidir ki, xarici dövlətlərin qanunvericiliyi üçün ümumi cəhətlər dövlət qulluğuna qəbul məsələlərinin ciddi reqlamentasİyasıdır.

İnkişaf etmiş ölkələrdə bu qanunvericilik bloku özlüyündə iki istiqamətlidir:

1) dövlət vəzifələrinə buraxılma, yəni dövlət qulluqçusu statusu almaq üçün şəxsə yönəlmiş əsas tələblər;

2) işə qəbul prosedurası.

Yüksək dövlət vəzifələrinə buraxılma məsələsində ümumi cəhət parlament deputatlarına qadağalardır. Dövlət qulluğuna qəbul edilmə deputat mandatının itirilməsi ilə nəticələnir.

Avropa və Amerikanın bir sıra dövlətlərində dövlət qulluqçusu vəzifəsini tutmaq üçün vətəndaşlıq məcburidir. Bəzi ölkələrdə isə, məsələn, Kanada və AFR-də bu tələblər o qədər də sərt deyil.

Zəngin təcrübəyə malik Fransada dövlət qulluğuna namizəd kişilər orduda xidmət məcəlləsinin tələblərinə cavab verməli, həmçinin çağınşm təxirə salınması və ya çağmşdan azad olunmaları barədə sənəd təqdim etməlidirlər. Namizədin fiziki vəziyyəti xüsusi təşkilatlar tərəfindən verilən tibbi şəhadətnamələr əsasında yoxlanılır.

Məsələyə daha ciddi yanaşan Kanadanın 1967-ci ildə qəbul edilmiş qanunu əlahiddə qaydada tutulan dövlət qulluğu vəzifələrinin siyahısını müəyyən edir. ABŞ-da təkcə dövlət aparatının (nazirlər, onların müavinləri və köməkçiləri) deyil, həmçinin bir sıra nazirlik və təşkilatlann (Dövlət departamentİ, FTB, MKİ və s.) yüksək vəzifələrin komplektləşdirüməsinin xüsusi qaydası qüvvədədir.

Aydındır ki, dövlət qulluqçusu statusunu müsabiqə əsasında almış və vəzifəyə təyin edilməsində digər proseduralar nəzər .ə tutulmuş şəxslərin kəmiyyət nisbətləri müxtəlifdir. Misal üçün, Fransada müsabiqə əsasında qəbul edilmiş şəxslər bütün dövlət qulluqçularının yansını təşkil edirlər.

Qeyd etmək lazımdır ki, vəzifələrin müsabiqə əsasında doldurulması məsələsində ümumi cəhətlər çoxdur. Namizədlərin ilkin seçimi səlahiyyətli orqanlar tərəfindən boş yerlərin olması barədə elan verilməsi və sınaqlar keçirilməsi ilə başlanır. Məsələn,

Britaniyada bu sınaqlar müəyyən edilmiş mövzu üzrə yazılı mem- zo, Kanadada xüsusi testlər və ya imtahan, Fransada müsabiqə yolu ilə xüsusi təyin edilmiş jüri tərəfindən seçilməklə aparılır.

Lakin qeyd edilməlidir ki, bir sıra ölkələrdə müsabiqə sistemi nəinki dövlət qulluğundakt boş vəzifələrin komplektləşdirilməsi üçün, həmçinin vəzifəsinin (ranqının) yüksəldilməsi üçün də tətbiq edilir.

Analoji olaraq, bir çox ölkələrdə vəzifəyə təyin edilmədə sınaq müddəti müəyyən edilir. Bu müddətlərin sürəkliliyi qanunvericiliklə müəyyən edilir vo hər vəzifə kateqoriyası üçün müxtəlif müddətlər tətbiq edilir. Sınaq müddəti eləcə də dövlət qulluqçusunun vəzifəsinin böyüdüİməsində də nəzərdə tutula bilər. Məsələn, Almaniyada belə müddət bir ildən az olmamalıdır. ABŞ qanunvericiliyində isə hazırlıq xİdraəti (qulluğu) anlayışı var. İdarəetmənin yuxan eşalonunda vəzifə tutmaq üçün 3 ildən az olmayan hazırlıq qulluğu stajı tələb olunur, sonra namizəd kvatıfıkasiya imtahanı verir, daha sonra isə 2,5 il ərzİndə onun müəyyən vəzifə tutmağa ya- rarlılığınm səviyyəsi yoxlanılır.

Ciddi vo sərt münasibət tərəfdan olan bir sıra ölkələrdə dövlət qulluğunun yüksək səviyyədə saxlanılması üçün attestasiya qaydaları tətbiq edilir. Məsələn, ABŞ-da hər il qulluqçulara vəzifələrinə irəli sürülən tələblər barədə məlumatlar çatdırılır. Bu ölkədə ali rəhbər heyətin fəaliyyətinin qiymətləndirilmə meyan aşağıdakılar hesab edilir; işin səmərəliliyi və keyfiyyətinin təkmilləşdirilməsi, o cümlədən kargüzarlıq həcminin azaldılması; vəzifə üzrə öhdəçiliklərin vaxtında yerinə yetirilməsi; işin səmərəliliyinin digər göstəriciləri.

Attestasiya qulluqçular üçün hər il keçirilir. Qulluqçu qeyri-məqbul qiymət aldıqda ya vəzifəsindən azad edilir, ya da başqa vəzifəyə keçirilir. Arama 5 il ərzində qulluqçu iki dəfə qeyri-məqbul qiymət almışsa başqa vəzifəyə keçirilmə qadağan edilir.

Bəllidir ki, dövlət qulluqçularının hüquq və vəzifələri heç də iiomişə konkret bir ölkənin vətəndaşlarının hüquq və vəzifələri ilə üst-üstə düşmür. İlk növbədə bu siyasi hüquqlara aid edilir. Böyük Britaniyada və Kanadada siyasi fəaliyyətlə məşğul olmağa tam və

lanna seçkilərdə namizəd kimi iştirak etmək, siyasi təşkilatlara üzv olmaq, mübahisəli siyasi məsələlər üzrə çıxış etmək hüququ verilmir. Kanadada seçkilərdə iştirak etməyə dövlət qulluqçuları üçün ümumi qadağa yoxdur, onlar mülki qulluq komissiyasından müvafiq icazə almaqla vətəndaşlıq hüquqlarını reallaşdıra bilərlər.

İnkişaf səviyyəsindən asılı olmayaraq müxtəlif ölkələrdə dövlət qulluqçularının tətillərdə iştirak etmək məsələsi də müxtəlifdir. Məsələn, Kanadada dövlət qulluqçu lanna bu sahədə genİş hüquqlar verilir. ABŞ-da belə hüquqlar çox məhduddur. Fransada isə dövlət qulluqçularının tətili Konstitusiya ilə qadağan edilir. Bundan başqa ^'qəfıl” tətillər ümumiyyətlə qadağandır.

Real olaraq, dövlət qulluqçulannın hərəkətləri (əxlaqı) bir sıra ölkələrdə xüsusi normalarla tənzimlənir, məsələn, “Əxlaq Məcəlləsi” (ABŞ), “Dövlət qulluqçulannın etika məcəlləsi” və s.. Böyük Britaniyada qanunvericilik belə bir normanı nəzərdə tutur ki, yüksək ranq məmurları İstefaya çıxdıqdan sonra, əgər onların işi konfıdensial informasiyalarla əlaqədar olubsa, hökumətin icazəsi olmadan biznes sahəsində işləyə bilməzlər.

İnkişaf etmiş ölkələrdə dövlət qulluqçuları üzərində nəzarətin bir forması kimi qulluqçular tərəfindən dövlət qulluğu haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyətin geniş hüquqi reqlamentasiyasından istifadə edilir, Dövlət qulluqçuları İntizam, mülki-hüquqi və cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

Nümunə olaraq, göstərə bilorik ki, ABŞ-da intizam tənbehi kİmi - xəbərdarlıq, töhmət, aşağı vəzifəyo keçirilmə, xidməti fəaliyyətə aşağı qiymət verilməsi, pulu ödənilməyən məzuniyyətə göndərmə (30 gün), vəzifə kvalifikasiyasınm azaldılması, vəzifə ma.ışının azaldılması, xidmətdən qovulma (azad edilmə) və s. tətbiq edilir. Ən ciddi cəzalar dövlət sirri barədə qanunvericiliyin pozulmasına görə tətbiq edilir. Məsələn, Böyük Britaniyada vəzifəli şəxs tərəfindən yazılı və ya şifahi formada istənilən sirrin rəsmi icazə olmadan verilməsinə görə, o, cinayət məsuliyyətinə cəlb edilə bilər.

Xarici ölkələrin əksəriyyətində dövlət aparatı qarşısında duran məsələlərin mürəkkəbləşməsi onun say tərkibinin artması ilə mü-

şahido olunurdu. Bu da öz növbəsində rəhbərlikdə struktur dəyişikliyinə gətirib çıxarırdı, Dövlət qulluğuna rəhbərliyin ənənəvi olaraq prezident üsul-idarosİ olan ölkələrdə dövlət başçısı, parlament üsul-idarəsi olan ölkələrdə isə hökumət başçısı həyata keçirirdi. Fransada bu sahədə özünəməxsus vəziyyət yarandı. Mülki qulluq üzrə ümumi rəhbərliyi idarəetmə sahəsində səlahiyyətləri çərçivəsində baş nazir həyata keçirir. Eyni zamanda 1958-ci ildə qəbul edilmiş Konstitusiyaya gÖrə ali mülki və hərbi vəzifələrə təyin etmək hüququ prezidentə məxsusdur.

Adətən dövlət qulluğuna rəhbərlik, həmçinin, dövlət qulluğu haqqında qanunvericiliyin icrasına nəzarət edən nazirlik və idarələrin başçıları tərəfindən həyata keçirilir.

Lakin qeyd edilməlidir ki, bir sıra ölkələrdə dövlət qulluğuna nəzarət bozİ mərkəzi maliyyə orqanlan tərəfindən həyata keçirilir: Böyük Britaniyada və Kanadada - Xəzinədarlıq, ABŞ-da İdarəetmə vo büdeo xidməti (köhnə adı İnzibati və Büdcə İdarəsi).

Qərbdə dövlət qulluğuna rəhbərlik üzrə bu orqanların səlahiyyəti tədricən genişləndirilir. Böyük Britaniyada 1956-cı ildə iki daimi katib vəzifəsi təsİs edildi vo onlardan biri dövlət qulluğuna ümumi rəhbərliyə cavabdehdir.

Analoji olaraq Kanada Xəzinədarlıq Şurasının da səlahiyyətləri genişləndirilmişdir. Şura Kanadanın dövlət qulluğunda ümumi inzibati siyasəti və onun inzibati strukturunu müəyyən edir.

Xarici ölkələrdə ümumi səlahiyyətə malik orqanlarla yanaşı dövlət qulluğuna rəhbərlik hom də xüsusi orqanlar - məsələn, Kanadada Dövlot Qulluğu Məsələləri Komissiyası, ABŞ-da Personala rəhbərlik xidməti, Fransada İnzibati və Dövlət Qulluğu Baş İdarəsi, AFR-da Kadrlar üzrə Federal Komitə - tərəfindən həyata keçirilir.

İdarəetmə qurumları içərisində dövlət orqanlan və qulluqçulan arasındakı konfliktlərin həllini təmin edən orqanlar xüsusi olaraq qeyd olunmalıdır. Onlara apellyasiya orqanları aid edilir. Bu orq^- lar ya müstəqil xarakter daşıyır, ya da digər strukturların tərkibin- do yaradılır.

## *18.2. Gömrük orqanlarının V3zifa vo funksiyaları*

Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə Azərbaycan Respublikası prezidenti H.Ə. Əliyevin 1998-ci il 27 oktyabr tarixli 7 saylı fərmanı ilə təsdiq edilmişdir.

Milli Gömrük Sistemi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini və digər qanunlarını, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, eləcə də adı çəkilən Əsasnaməni rəhbər tutur.

Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Təyinat və məqsədindən asılı olaraq ona həvalə edilmiş vəzifələri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bilavasitə özü və ya tabeliyində olan gömrük orqanları, idarə və təşkilatlar vasitəsi ilə həyata keçirir.

İqtisadi, hüquq-mühafizə fəaliyyətləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əsas funksiyalan qanunvericiliklə müəyyən edilmişdir.

Normativ hüquqi aktlarla təsbit edilən bu funksiyalar Gömrük Məcəlləsində və Əsasnamədə öz əksini tapmışdır.

İdarəetmənin və gömrük sisteminin xüsusiyyətləri nəzərə alınmaqla Gömrük Komitəsinin hınksiyalanm aşağıdakı kimi qruplaşdırmaq olar:

- gömrük işini təşkil etmək və onu təkmilləşdirmək, Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirmək;
- öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
- səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək;
- tarif-gömrük tənzmlənməsi vasitələrinin tətbiqini təşkil etmək.

- Əsasnaməni və Gömrük Məcəlləsini rəhbər tutaraq İcrasına nəzarətin gömrük orqanlarına həvalə olunduğu gömrük işinə dair və digər qanunvericiliyə əməl olunmasım təmin etmək;

Respublika Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş funksiyalara əsasən və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir;

- dövlətin gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onlann həyata keçirilməsini təmin edir;
- inkişaf etmiş Ölkələrin təcrübəsindən istifadə etməklə Azərbaycan Respublikasında gömrük işinin inkişafı proqramını hazırlayır və həyata keçirir;
- Məcəllədə nəzərdə tutulmuş qaydada gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;
- hökumət tərəfindən müəyyənləşdirilən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar barəsində lisenziyalaşdırma, qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində onların həyata keçirilməsini təşkil edir;
- elmi və təcrübi cəhətdən əsaslandınimış qaydada mallann gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;
- çevik və operativ mexanizm yaratmaqla Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını təşkil edir;
- konkret tədbirlər görməklə gömrük rüsumlarının, vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;
- ixtisas attestatlarının, lisenziyaların Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada verilməsini, onların ləğv edilməsi və ya geri alınmasım, reyestrinin apanlmasmı təmin edir;

- mallar və nəqli)ryat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən müvafiq gömrük rejimlərindən səmərəli istifadəni təmin edir;

- beynəlxalq təcrübəni nəzərə almaqla mallann və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə dair qaydalann işlənib hazırlanmasını təşkil və onlann icrasım təmin edir;

- idarəetmənin qabaqcıl metodlarını tətbiq etməklə mallann və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;

- lazım gəldikdə icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlanna həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlanna əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır ve həyata keçirir;

- müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq mühafizə or- qanlan cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infiastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, Azərbaycan Respublikasının gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirlər də həyata keçirir;

• əmeliyyat-axtanş fəaliyyətini həyata keçirir;

- sistemli şəkildə qaçaqmalçılığa ve gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə apanimasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanlan tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlanna müvafiq olaraq təhqiqat və istintaq apanimasmı temin edir;

- əməli tədbirlər həyata keçirərək gömrük qaydalannm pozulmasına və Azərbaycan Respublikasının gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati hüquqpozmalara qarşı mübarizəni təşkil edir;

- xarici ölkələrin qabaqcıl təcrübəsindən istifadə etməklə narkotik vasitələrin və psixotrop maddələrin, silahlann, Azərbaycan xalqının və xarici ölkə xalqlannın bədii, tarixi və arxeoloji sərvətləri olan əşyalann, intellektual mülkiyyət obyektlərinin, habelə digər

malların gömrük sərhədindən qanunsuz keçirilmosinin qarşısını almaq məqsodi ilo tədbirlər sistemi hazırlayır və həyata keçirir;

' Azərbaycan Respublikasının dəmir yolu vağzallarında, hava limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq mühafizə orqanlarına köməklik göstərir;

- legitim əsaslarla Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalannm pozulması işləri və Azərbaycan Respublikasının gömrük orqanlannm normal fəaliyyətinə qəsd edən inzibatı hüquqpozmalar haqqında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qa- nunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir;

- iqtisadi və hüquq-mühafizə fəaliyyəti tədbirləri həyata keçirməklə valyuta nəzarətini təmin edir;

- qanunvericiliyə uyğun olaraq maraqlı şəxslərin gömrük məsələləri üzrə məlumatlandırılması və onlara məsləhətvermənin təminat sistemini yaradır;

- beynəlxalq təcrübədə qəbul edilmiş qaydada Azərbaycan Respublikasının xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir. Gömrük statistikasına dair və digər gömrük işinə aid məlumatları müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər mərkəzi icra hakimiyyəti orqanlanna (onların fəaliyyətinə dair məsələlər üzrə) təqdim edir;

- idarəçilik fəaliyyətində və gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

- legitim əsaslarla konkret mallarla və ya təsərrüfat əməliyyatları İlə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarmın tətbiqi məsələləri üzrə öz qərarlannın qəbulu və fəaliyyət göstərməsini təmin edir;

- səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktla- nn nəşrini təmin edir;

- İdarəçilik fəaliyyətində və idarəetmə prosesində Azərbaycan Respublikası gömrük orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlarından), hərəkət və hərəkətsizliyindən şikayətetmə üzrə fiziki və hüquqi şəxslərin hüquqlarının reallaşdıniması üçün şərait yaradır;
- nəticə etibarı ilə şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlannm və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;
- dövlətin maraqlarından çıxış edərək Azərbaycan Respublikasında gömrük işinin inkişafı və vəziyyətinə dair məlumat - izahat işləri aparır; bu məqsədlə kütləvi informasiya vasitələrindən və digər təbliğat vasitələrindən istifadə edir;
- elmi metodlarla Azərbaycan Respublikasında gömrük işi haqqında qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir və tehlil edir;
- dövlətin maraqlan çərçivəsində gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir; Azərbaycan Respublikasının gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir; xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanlan ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;
- idarəetmənin təkmilləşdirilməsi, gömrük sisteminin fəaliyyətinin səmərəliliyinin artırılması və inkişafının təmin edilməsi məqsədilə gömrük işi sahəsində elmi-tədqiqat işlərinin apan İmasını təşkil edir;
- müntəzəm şəkildə xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətim öyrənir və təhlil edir;
- gömrük orqanlannm vəzifəli şəxslərinin hazırlanmasını və ixtisaslarının artınimasmı, gömrük laboratoriyalannda, habelə digər tabeli idarə, müəssisə və təşkilatlarda işləmək üçün mütəxəssislər hazırlanmasını təmin edir;
- gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük la-

- Azərbaycan Respublikası gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

- Azərbaycan Respublikasmda gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;

- müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar İnkişaf fondunu idarə edir və onun üzərində sərəncam verir;

- gömrük orqanlanmn, gömrük laboratoriyalanmn, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatlana maddi-texniki və sosial bazasını inkişaf etdirir;

- gömrük orqanlanmn vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təş- kilatlann İşçilərinin sosial və hüquqi müdafiəsi üzrə tədbirlərin re- allaşdınlmasına kömək edir;

- Azərbaycan Respublikasının qanunvericiliyi ile ona həvalə edilmiş digər vəzifələri yerinə yetirir.

# MÖVZU 19. Gömrük orqanlarında idarəetmənin əsaslan

## 19.1. İdarəetms anlayışı

**Ayrı-ayrı icraçılar və ya insanlar qrupu şəklində insan amilindən ibarət hər bir sistemin səmərəli fəaliyyəti yalnız onu idarə edən - sistemin bu tərkib hissəsinin fəallığını istiqamətləndirən və tənzimləyən - müəyyən təşkiledici başlanğıc olduqda mümkündür. Gömrük orqanlarının bütün əməkdaşlarının hərəkət birliyinə nail olunması gömrük orqanlarında idarəetmə sisteminin başlıca məqsədidir.' Sistem bir istiqamətdə işləməli və qarşısında qoyulmuş vəzifələrin həllini təmin etməlidir. Bunun üçün onun daxilində dəqiq idarəetmə tələb olunur.**

**Təcrübə göstərir ki, xüsusi idarəçilik biliyi olmadan idarəetmə bəzən gömrük orqanlarında əməliyyat-xidməti fpaliyyətində xeyli səhvlərlə nəticələnir, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və onun iqtisadi mənafeləmin qorunması işinə müəyyən ziyan vurur.**

**Azərbaycan Respublikası gömrük orqanlarının üzərinə qoyulmuş vəzifələrin və funksiyaların yerinə yetirilməsini optimal təşkil etmək üçün idarəetmənin mahiyyət və məzmununu açan əsas nəzəri müddəaları bilmək zəruridir.**

**İdarəetmə dedikdə nə başa düşülməlidir? Ədəbiyyatda gömrük orqanlarının da aid olduğu sosial-iqtisadi sistemlərlə "idarəetmə" anlayışının çoxsaylı tərifləri vardır. Gömrük orqanlannda idarəetməyə xas olan əlamətləri nəzərə alaraq müxtəlif xülasə edilmiş fikirləri ümumiləşdirməklə ona aşağıdakı tərifi vennək olar.**

**İdarəetmə gömrük orqanları əməkdaşlarına elə fasiləsiz informasiya təsiri prosesidir ki, idarəçilik qərarlarının qəbul olunması və həyata keçirilməsi vasitəsilə dəyişən xarici və daxili şəraitdə onların məqsədyönlü davranışını təmin edir.**

*I OcHoabi moMOMeHHoıo dejıa. MocKsa: əkohomukg, 1998*

İdarə edən təsirin formalaşmasi vo həyata keçirilməsi üçün İdarəetmə subyektilə (idarə edən sistemin, yanmsistemin), idarəetmə obyektinin (idarə olunan sistemin, yanmsistemin) və onlann arasında müəyyən şəkildə mütəşəkkil birbaşa və oks əlaqələrin olması zəruridir.

Məcmu halda idarəetmə subyekti, idarəetmə obyekti və onlar arasında qarşılıqlı əlaqələr gömrük orqanlarında idarəetmə sistemini əmələ gətirir.

Gömrük orqanlarında idarəetmə subyektlərinə idarəetmə qərarları qəbul etmək, tabeliyindoki əməkdaşlara və kollektivlərə tapşırıq vermək və onların icrasını tələb etmək səlahiyyəti olan bütün rəhbərlər, yəni məqsədyönlü təsiri həyata keçirən gömrük postunun, gömrükxanamn, gömrük idarəsinin vo Dövlət Gömrük Komitəsinin bütün elementləri və yanmsistemlori aiddir.

İdarəedən yanmsistemin qərarlannın, əmrlərinin, tapşırıq lannm icraçıları, gömrük işİ mütəxəssisləri, gömrük kollektivləri, təşkila- ti strukturlar, texnoloji gömrük prosedurаları, eləcə də gömrük orqanlarının üzərinə qoyulmuş funksiyaların həyata keçirilməsi üzrə bütün fəaliyyət növləri, gömrük fəaliyyəti resursları və s. gömrük orqanlannda idarəetmə obyektləri kimi çıxış edir.

İdarəetmə subyekti və obyekti haqqında məsələnin aydınlaşdırılması üçün dərk etmək vacibdir ki, gömrük orqanlarında idarəetmə struktur olaraq, mərhələli, iyerarxik xarakter daşıyır. İdarəetmənin müxtəlif səviyyələri gömrük sistemində eyni vaxtda idarəetmənin həm subyekti, həm də obyekti kimi çıxış edir. İdarəetmənin hər pilləsinə və ya səviyyəsinə öz idarəetmə subyekti və ya obyekti uyğun gəlir. Ona görə do gömrük orqanlarının vahid sistemində idarəetmə obyekti sonrakı idarəetmə və İcra hərəkətləri kimi nəzərdən keçirilməlidir. Beləliklə, idarəetmə bu strukturda fəaliyyət növü olaraq sərəncamverici vo icraedici tərəflərə malikdir.

İdarəetmə subyekti və obyekti arasında toşkilati idarəetmə strukturundan, digər faktorlardan asılı olan qarşılıqlı əlaqə və münasibətlər mövcuddur. İdarəetmə sistemində onlar əhəmiyyətli rol

İdarəetmə subyekti idarəetmə obyektinin faktik vəziyyəti və onu əhatə edən xarici mühit haqqında informasiya alır. Bu informasiya idarəetmə subyekti tərəfindən işlənir ki, bunun da nəticəsi olaraq qərar qəbul edilir. Məzmunu birbaşa əlaqə kanalı üzrə idarəetmə obyektinə ötürmək üçün həmin qərara idarəçili qərarının formalarından (əmr, göstəriş, qətnamə və s.) biri verilir. Bu qərarın icrası haqqında informasiya və eləcə də idarəetmə obyektinin (idarəedilən sistemin) yeni vəziyyəti haqqında informasiya yenidən əks əlaqə kanalı üzrə idarəetmə subyektinə daxil olur. Beləliklə, idarəetmə nisbi və fasiləsiz prosesdir. Gömrük orqanları tərəfindən idarəetmənin fasiləsiz xarakteri onlardan keçən informasiya proseslərinin daimliyi və arasıkəsilməzliyi ilə şərtlənir ki, onu da sxemdə oxlar şəklində göstərmək olar (sxem 1).




***Sxem 1. İdarəetmə elementlərinin qarşılıqlı əlaqələrinin prinsipial sxemi***

İdarəetmə prosesinin fasiləsizliyi onun dövriliyi haqqında, yəni müxtəlif idarəetmə həlqələri tərəfindən və müxtəlif formalarda icra edilən eyni növ idarəçilik işlərinin və ya idarəetmə mərhələlərinin icra edilməsinin müəyyən ardıcıllığı və təkrarlanması haqqında danışmağa imkan verir (sxem 2). Məsələn, idarəetmə məqsədlərinin müəyyənləşdirilməsi gömrük orqanları sisteminin əsas inkişaf istiqamətlərinin işlənib hazırlanması, planlaşdırılması formasında həyata keçirilə bilər.

Gömrük orqanlannda idarəetmə sistemi aşağıdakı komponentlərdən ibarətdir: idarəetmə mexanizmi, idarəetmə strukturları, idarəetmə prosesi və idarəetmə sisteminin

*İdarəetmə m3qs9dinin mäəyy9nhşdiriiməsi*

*tdar9 edihn sistemin veziyyetif*
*xarici mühit haqqında informasiya ytğtmt*

I

*İnformasiyanın tosnifi*

*İnformasiyanın işhnmosi*

*İdaroetsə qsrariarmın hazırlanması vo qabulu*

*İdaraetmanin naticalarinin qiymatİandirilmasi*

*Sxem 2, İdaraetma prosesinin texnoloji marhalalari*

İdarəetmənin mexanizmini aşağıdakılar təşkil edir; idarəetmə qanunları, prinsipləri, məqsədləri, metodları və funksiyaları.

İdarəetmə orqanlan, idarəetmə kadrlan və texniki idarəetmə vasitələri idarəetmənin strukturuna daxildir.

İdarəetmə prosesi idarəetmənin məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyətdir.

İdarəetmə sisteminin təkmilləşdirilmə mexanizmini idarəetmə obyektinin inkişafı nəticəsində ona edilən dəyişikliklər təşkil edir.

Gömrük orqanlannda idarəetmənin mahiyyətini dərindən başa düşmək üçün bu idarəetməyə xas olan bəzi xüsusiyyətləri bilmək lazımdır. Onlara aşağıdakılan aid etmək olar:

- idarəetmənin xidməti fəaliyyətin son nəticələrində aşkar ifadə olunan istiqamətlənməsi; idarəetmə fəaliyyətinin sistem daxilində xarici iqtisadi fəaliyyət (XİF) iştirakçılanmn işi itə uyğunlaşdınıması;
- dövlət idarəetmə orqanı səlahiyyətinin həyata keçirilməsi;
- gömrük orqanları əməkdaşlannın XİF-in səhlənkar iştirakçı la-n, qaçaqmalçılar və onların köməkçiləri ilə qarşıdurması şəraitində idarəetmə proseslərinin dinamikliyi;
- idarəetmənin həyata keçirildiyi şəraitin nisbi qeyri-müəyyənliyi.

Gömrük orqanlarında idarəetmə həm obyektiv iqtisadi qanunlara və idarəetmə qanunlarına, həm də onların əsasında formalaşan əməliyyat-xidmət fəaliyyətinin bütün iştirakçılarının ictimai, kollektiv və şəxsi maraqlarının vahid sisteminə əsaslanır. İdarəetmənin mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, gömrük

*19.2, İdarəetmə qanunları*

İdarəetmə qanunları idarəetmə sistemi elementləri və yarımsis-temləri, onda baş verən proseslər və xarici mühit arasında ümumi, əhəmiyyətli və zəruri əlaqələri əks etdirir. Onlar obyektivdir və in-sanlann şüurundan və iradəsindən asılı deyildir. İdarəetmə qanunlarını bilmək idarəetmə sistemlərinin yaradılmasında və onların fəaliyyətinin təşkil edilməsində idarəetmə qanunlannın tələblərini nəzərə almağa imkan verir.

Onlara aşağıdakılar aiddir: idarəetmə sisteminin vahidliyi qanunu, mütənasiblik (proporsionallıq) qanunu, idarəetmə funksiyalarının mərkəzləşdirilməsinin optimal nisbəti qanunu, idarəedən və idarə olunan sistemlərin nisbəti qanunu və s.

İdarəetmə sisteminin vahidliyi qanununun təsiri dövlət idarəetmə sisteminin yuxan orqanlarından onun aşağı həlqələrinə qədər idarəetmə münasibətlərinin qırılmaz zəncirində; idarəetmə prose

sinin bütün səviyyolərinin, əməliyyatlarının və mərhələlərinin arasıkosilınozliyində, ritmikliyindo və uzlaşmasında; insanlann qlobal məqsədlərinin vo mənafelərinin bütün tərkib hissələri və idarəetmənin vahidliyində; idarəetmə funksiyalannın və metodlannin vahidliyində; idarəetmə aparatı əməkdaşlarına tələblərin vahidliyində təzahür edir.

Professional (peşə) fəaliyyətin və idarəetmənin mütənasibliyi (proporsionallığı) qanunu müəyyən edir ki, idarəetmənin ən mühüm vəzifəsi idarə edən vo idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsional!ığmı təmin etmək, sistemin tərkib hissələrinin fasiləsiz əlaqəsini təşkil etməkdir. Mütənasiblik (proporsional- lıq) onunla ölçülür ki, sistemin əsas fəaliyyəti - gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti, diger funksiyalann həyata keçirilməsi idarəetmə ilə nə dərəcədə tam və dəqiq təmin olunur ki, minimal mümkün məsrəflərlə lazımi effekti (səmərəni) versin.

Mərkəzləşdirmənin optimal nisbəti qanunu elə idarəetmə sisteminin qurulmasını və onun fəaliyyətinin elə təşkilini nəzərdə tutur ki, bu zaman gömrük orqanlarının hər bir aşağı həlqəsinin mərkəzi idarəetmə orqanlarına arasıkəsilməz və kifayət qədər sabit tabelili- yi mövcud olsun.

Mərkəzləşdirilmiş idarəetmə sistemin bütün həlqələrinin foalliyyətini son dərəcə sərt nizamlamaq demək deyildir. Sistemin hər bir inkişaf mərhələsi üçün özünün optimal mərkəzləşdirilmə səviyyəsi mövcuddur ki, onunla idarəetmənin mərkəzləşdirilmiş formalarının sistemin inkişaf səviyyəsini ifadə edən real tələbatlara maksimum uyğunluğu nəzərdə tutulur.

İdarə edən və idarə olunan sistemlərin nisbəti qanununun mahiyyəti idarə edən sistemin idarə olunanla uyğunluğunun təmin edilməsi tələbindən ibarətdir.

Bu nisbətin dəyişməsi müxtəlif, başlıca olaraq, təşkilati və iqtisadi faktorların təsiri ilə baş verir. Hər şeydən öncə, idarə edən sistemin inkişaf və fəaliyyət səviyyəsi idarə olunan sistemin əməliyyat-xidmət fəaliyyəti səviyyəsinə uyğun gəlməlidir.

Qanunlar vasitəsilə idarəetmə nəzəriyyəsinin məzmunu, idarəetmə prosesinin osas funksiyalan, metodları və strukturları, eləcə də xüsusiyyətləri üzə çıxarılır. Buna görə də, sistemli yanaşma idarəetmə qanunlanmn istifadəsində əsasdır. Sistemli yanaşma onlann tələblərini sistemli şəkildə ifadə etməyə və bütün sistemin optimal fəaliyyət və inkişaf variantını müəyyən etməyə imkan verir, Gömrük orqanlarında idarəetmə həm idarəetmənin obyektiv qanunlarına, həm de onlann əsasında formalaşan vahid prinsiplər sisteminə əsaslanır.

### *19.3. İdarsetmsnin prinsipləri*

İdarəetmənin prinsipləri dedikdə idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, osas müddəalar və davranış normaları başa düşülür.

İdarəetmə təcrübəsində gömrük orqanları tərəfindən ümumi, xüsusi və təşkilati-texnoloji prinsiplər tətbiq edilir.

İdarəetmənin ümumi prinsipləri strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlarının bütün sahələrində və yarımsistemlə- rində fəaliyyət göstərir. Lakin onlar hor bir idarəçilik sistemində spesifikdir. Hətta idarəetmənin əsas ümumi prinsiplərinin sadalanması (məsələn, sistemlilik, əks əlaqə, informasiyanın kafiliyi, optİ- mallıq, bərabər tabelilik və b.), eləcə də onların gömrük orqanlarında idarəetmə sisteminə dialektik təsiri bunu təsdiq edir.

Sistemlilik idarəetmənin aparıcı prinsipidir. Gömrük orqanlarının idarə edilməsində sistemlilik sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir.

Gömrük orqanları qarşısında dayanan vəzifələr nə qədər mürək- kəbdirsə, sistemin əks əlaqə prinsipi o qədər böyük əhəmiyyət kəsb edir. İnformasiya idarəetmə subyektinə, sistemə təsir etmək və idarəçilik qərarlannın icrasını təmin etmək məqsədilə hər bir zaman anında sistemin vəziyyəti haqqında, qoyulmuş məqsədin əldə edilməsi haqqında təsəvvür əldə etməyə imkan verir.

İnformasiyanın kafiliyi prinsipi o deməkdir ki, gömrük sistemində, o cümlədən idarəçilik sistemində informasiya həcmlərinin

rünmomiş florocədə artması şoraitİndo mfomıasiya proseslərinin intensivləşdirilmosi olduqca böyük əhəmiyyət kəsb edir.

Qarşıya qoyulmuş məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə vo əmək məsrəfləri ilə əldə edilməsi gömrük orqanlannda idarəetmənin optimallığı prinsipinin mahiyyətini təşkil edir.

İdarəetmənin optimallığı gömrük sistemində müxtəlif metodlarla vo vasitələrlə təmin edilir.

İdarəetmənin digər ümumi prinsipləri də gömrük sistemində mühüm əhəmiyyət kəsb edir və müxtəlif realizə dərəcəsində yerləşir.

Gömrük orqanlarında idarəetmənin xüsusi prinsipləri iki böyük qrupa bölünür: gömrük fəaliyyətinin iqtisadi, sosial-siyasi və mənəvi sahələrində tətbiq edilən prinsiplər və Azerbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin öz səlahiyyətləri çərçivəsində təmin edən dövlət hüquq mühafizə təşkilatı olaraq gömrük orqanları sistemində mövcud olan prinsiplər.

İdarəetmənin xüsusi prinsiplərinə: qanunçuluq; səmərəli (məntiqəuyğun) mərkəzsizləşdinnə ilə birgə mərkəzləşdirmə; fasiləsizlik; operativlik; çeviklik; məsuliyyət; varislik; son nəticəyə istiqamətlənmə vo b. aid edilir.

İdarəetmənin təşkilati-texnoloji prinsipləri gömrük orqanlan rəhbərlərinin toşkilati-sərəncamverici və inzibati-icraedici fəaliyyətinin əsasında dayanır.

Onlara aşağıdakı idarəetmə prinsipləri aiddir: vahid rəhbərlik; konkretlik; əməyin bölgüsü; skalyar; iyerarxiya; sərəncamvermə- nin vahidliyi və tək rəhbər; səlahiyyətlərin ötürülməsi; idarəetmə diapazonu vo s.

Vahid rəhbərlik (təkbaşınalıq) prinsipinin əhəmiyyəti xüsusi olaraq qeyd edilməlidir. Bu prinsip, bir tərəfdən, idarəetmənin kollegiallığım, digər tərəfdən isə, icraedici funksiyalara görə ciddi fərdi məsuliyyətin müəyyən edilməsini nəzərdə tutur. Kollegiallıq tapşırılan işə görə hər bir gömrük əməkdaşının məsuliyyətini istisna etmir, əksinə onun üçün şəxsi məsuliyyət nəzərdə tutur.

Gömrük orqanlannda rəhbərliyin bütün səviyyələrində vahİd rəhbərlik (təkbaşınalıq) prinsipi daim fəaliyyət göstərir, çünki

gömrük orqanlarının rəhbərlərinə qanunvericiliklə vahid rəhbər (təkbaşçı) hüquqları və funksiyaları ayrılmışdır.

Bu, həmin strukturun qarşısında qoyulmuş vəzifələrin həlli üçün verilən hakimiyyət səlahiyyətinin tamlığında və həcmində; verilmiş hüquqlardan istifadəyə görə dövlət qarşısında məsuliyyətlə bu funksiyanın həyata keçirilməsi üçün qanunvericiliklə verilmiş təminatın olmasında; təkbaşçı rəhbərlərin hüquqlarının həyata keçri-rilməsinin kadr və struktur təminatında; hüquq mühafizə fəaliyyətinin dövlət tərəfindən maddi və maliyyə təminatında; hərbiloşdi- rilmiş və hüquq mühafizə strukturu şəxsi heyətinin sosial müdafiəsinə dövlət təminatının olmasında ifadə olunur.

Vahid rəhbərlik prinsipi üzrə gömrük orqanları sisteminə DGK-nm sədri rəhbərlik edir. Gömrük işinə rəhbərliyin ən mühüm məsələləri DGK kollegiyasının iclaslarında baxılır. Kollegiyanın ic-laslannda qəbul edilən, DGK-nm sədrinin əmri ilə rəsmiləşdirilən qərarların bütün gömrük orqanlan və əməkdaşları tərəfindən icra edilməsi məcburidir.

DGK-nın tabeliyindəki diger təşkilatlann rəhbərləri vahid rəhbərlik (təkbaşçı lıq) prinsipi üzrə fəaliyyət göstərirlər.

Gömrükxanalann və gömrük postlarının rəisləri öz idarəçilik fəaliyyətində vahid rəhbərlik prinsipini həyata keçirirlər.

Gömrük orqanlarının idarə edilməsində müvəffəqiyyət idarəetmədə iştirak edən bütün gömrük sistemi vəzifəli şəxslərinin, orqanlarının və təşkilatlarının fəaliyyət birliyi ilə təmin edilir. Bu zaman ümumi işdə hər birinin yerinin və rolunun spesifikasının dəqiq müəyyən edilməsi, onlann səlahiyyətlərinin, funksiyalarının və hüquqlarının aydın bölüşdürülməsi otduqca mühüm əhəmiyyət kəsb edir. DGK-nın dərc etdiyi normativ sənədlər, Azərbaycan Respublikası gömrük orqanlan və onlann bölmələri haqqında əsasnamələr bunun üçün böyük əhəmiyyətə malikdir.

İdarəetmənin konkretliyi prinsipi situasiyanın konkret təhlilini tələb edir ki, bunun üçün idarəetmə sistemi haqqında və onun xarici mühiti haqqında keyfiyyətli elmi informasiya lazımdır.

Əməyin bölgüsü prinsipində nəzərdə tutulur ki, idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələ-

rinə tapşırılan ən sadə əməliyyatlara aynlır. Gömrük orqanı idarəetmə sisteminin hor bir həlqəsinin, dəqiq, konkret vəzifəsi olmalıdır.

Skalyar prinsip müəyyən edir ki, hər bir təşkilat (o cümlədən gömrük orqanı) dəqiq müəyyən olunmuş iyerarxik struktura malik olmalıdır.

İyerarxiya prinsipi aşağı əməkdaşın ve ya bölmənin yuxarıdakına tabe olmalı olduğunu nəzərdə tutur. İnzibati iyerarxiyanın hər bir əməkdaşı yuxarıdakının qarşısında təkcə özününkü yox, həm də özünün tabeliyində olan bütün əməkdaşların qərarlarına və hərəkətlərinə görə cavab verir.

Sərəncam vermənin vahidliyi vo vahid rəhbər prinsipi müəyyən edir ki, hər bir əməkdaş yalnız bir rəhbərdən əmr və sərəncamlar alır, çünki bu, fəaliyyət birliyinin zəruri şərtidir və heç bir əməkdaş özündən daha yuxarı birdən artıq rəhbərə məruzə etməməlidir.

Səlahiyyətlərin ötürülməsi (verilməsi) prinsipi nəzərdə tutur ki, rəhbərin fəaliyyət sahəsindən vəzifənin tabe şəxsə verilməsi zamanı onun həlli üçün hüquqlar da verilməli, tabe şəxs isə onlara görə məsuliyyəti öz üzərinə qəbul etməlidir.

İdarəetmənin diapazonu prinsipi yuxarı vəzifəli şəxsin ciddi niüoyyən olunmuş, optimal sayda tabe şəxslərin fəaliyyətinə görə məsuliyyət daşımalı olduğunu nəzərdə tutur.

### *19.4. İdarsetmmin funksiyaları*

İdarəetmənin funksiyası həyata keçirilməsi üçün müəyyən idarəçilik işləri (əməliyyatları) tələb olunan konkret idarəçilik fəaliyyəti növüdür.

Gömrük orqanlarının idarə edilməsində idarəetmə fimksiyalan çox mühüm yer tutur, çünki onlar bütün səviyyələrdə idarəçilik fəaliyyətinin mahiyyətini vo məzmununu açıqlayır və idarəetmə sahəsində vəzifələrin bölgüsünü əks etdrir, nəzərdə tutulmuş nəticələri əldə etmək üçün onların həyata keçirilməsi zamanı müəyyən növbəlilik və fəaliyyət birliyi tələb edir.

Gömrük orqanları sistemində idarəetmə iimksiyalannı təsnif etmək, onları idarəetmə prosesinin morhələlərini əks etdirən ümumi

idarəetmə funksiyalarına və gömrük orqanlarının əməliyyat-xidmət fəaliyyətinin konkret növlərinin spesifik (konkret) idarəetmə funksiyalarına bölmək olar (sxem 3).




İdarəetmənin ümumi funksiyaları idarəetmənin mahiyyətini üzə çıxarır; onlar istənilən obyektin idarə edilməsi prosesini xarakterizə etdiyinə görə universaldır.

İdarəetmənin ümumi funksiyalarının tərkibini müəyyən edərkən onların dialektik vahidliyi, eləcə də idarə edən və idarə olunan sistemlərin vahidliyi nəzərə alınmalıdır. İdarəetmə funksiyalarının tərkibi idarə olunan sistemin vəziyyətinin istənilən dəyişmələrini idarə edən sistemin reaksiya göstərməsinin effektivliyini təmin etməlidir.

İdaroetmənin ümumi fiınksiyalanna aşağıdakılar aiddir; əməliyyat-xidmət şəraitinin təhlili və proqnozlaşdmlması, planlaşdırma, təşkiletmə, tənzimetmə, uçot və nəzarət.

İdarəetmənin bu və ya dİgər funksiyasını realizə etmək üçün bir sıra İdarəçilik işləri (əməliyyatlan) həyata keçirmək lazımdır. Belə ki, idarəçilik işi (əməliyyatı) dedikdə idarəetmə funksiyalannm reallaşdırılması üçün zəruri olan, lakin idarəetmə obyektinin idarə oluna bilməsini təmin etmək üçün kifayət etməyən sabit təkrarlanan hərəkətlərin məcmusu başa düşülür.

Əgər idarəetmənin əsas funksiyasının tam reallaşdırılması əməliyyat-xidmət fəaliyyətinin yeni keyfiyyətə keçməsinə səbəb olursa, ayrıca idarəçilik işinin yerinə yetirilməsi bu fəaliyyətin yeni keyfiyyət vəziyyəti əldə etməsi üçün hələ kifayət etmir.

İdarəetmənin hər bir konkret götürülən ümumi funksiyasının reallaşdınlması yalnız bu fiınksiya üçün spesifik olan ciddi müəyyən olunmuş sayda idarəçilik işlərinin icra olunması yolu ilə həyata keçirilir.

Gömrük orqanlanmn obyektiv imkanları idarəetmənin ən mühüm funksiyalarından biri kimi əməliyyat-xidmət şəraitinin təhlili və proqnozlaşdırılması əsasında üzə çıxanla bilər. Sistemi hissələrə bölməklə onun strukturunu üzə çıxarmaqla təhlil nəinki sistemin komponentlərinin vəziyyətini müəyyən etməyə, həm də onlann qarşılıqlı münasibət və qarşılıqlı asılılığını üzə çıxarmağa İmkan verir. Həm də təhlil idarəetmə sistemində təkcə bütövlükdə sistemə deyil, eyni zamanda idarəçilik dövrünün hər bir komponentinə də şamil edilir.

Gömrük əməliyyat-xidməti şəraitinin təhlili və proqnozlaşdırılması gömrük fəaliyyətinin bu və ya digər sahəsində şərtlər toplusunun inkişafının öyrənilməsi, dərk edilməsi və öncədən görülməsi ilə və onlann gömrük İşinin nəticələrinə, eləcə də əsaslandırılmış qərarlann qəbul edilməsi və planların hazırlanması məqsədləri üçün müəyyənləşdirilməsi ilə qınimaz əlaqəlidir.

Gömrük əməliyyat-xidməti şəraiti dedikdə iqtisadi, siyasi, sosial, hüquqi, regional və digər şərtlərlə (faktorlarla) dialektik İnkişafda olan, gömrük fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edən qarşılıqlı əlaqəli elementlər məcmusu nəzərdə tutulur.

Gömrük əməliyyat-xidməti şəraitinin əsas elementləri bunlardır;

- xarici iqtisadi fəaliyyətin (XİF) xidmət edilən iştirakçılan - Azərbaycan və xarici fiziki və hüquqi şəxsləri, gömrük orqanının fəaliyyət zonasında mal axınının {hərəkətinin) növləri, həcmləri və istiqamətləri, onlann zaman, məkan (yer), nəqliyyat növləri üzrə bölgüsü;
- gömrük qanunvericiliyini qəsdən pozan XİF iştirakçılarının və onların köməkçilərinin; qaçaqmalçıların və onlann köməkçilərinin gömrük orqanlarına mənfi təsir göstərməyə cəhd edən gömrükət- rafı kriminal strukturların və onlann köməkçilərinin olması; gömrük qaydalarının pozulması və cinayətlərin törədilməsində onlann məqsədləri, planlan, niyyətləri, vaxtı, yeri, strategiya və taktikası haqqında məlumatlar;
- gömrük orqanlannın qüvvə və vasitələri, onlara həvalə edilmiş fıınksiyalann və vəzifələrin icra edilməsində onlann imkanlan;
- Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təminatının və iqtisadi mənafelərinin qorunmasının ümumdövlət tədbirləri;
- gömrük orqanlarının fəaliyyət zonasında qaçaqmalçılıqla və gömrük qaydalannın pozulması üzrə digər hüquq mühafizə orqanlarının, İdarələrin və təşkilatların olması, gömrük orqanları vəzifələrinin həlli üçün onlardan istifadə imkanları;
- gömrük fəaliyyətinin həyata keçirildiyi mühit.

Planlaşdırma idarəetmənin elə əsas funksiyasıdır kİ, onun vasitəsilə gömrük orqanlannda gələcək fəaliyyətin təşkilati başlanğıcı işlənib hazırlanır. Planlaşdırma vasitəsilə sistemin inkişaf məqsədləri və istiqamətləri müəyyən edilir, mövcud problemləri realizə edilməsi vasitəsi olan metodlar işlənib hazırlanır, sistemin inkişaf tempi müəyyən edilir. İdarəetmə subyekti icraçılann gələcək fəaliyyət planını tutur, planda gösterilən məqsədlərə çatmağın yollan- nı, üsullarını, vasitələrini və müddətlərini əsaslandırır.

Məqsədin hazırlanması, məqsədin əldə olunması üzrə gələcək fəaliyyətin modelləşdirilməsi, onun proqramlaşdırılması vəzifələri idarəetmənin məqsədlərinin müəyyən edilməsi; məqsədə nail olmağa

qərann reailaşdınimasınm toşkilati planının hazırlanması; hazırlanmış **planın razılaşdıniması;** böyük **rois torəfindon onun** təsdiq edilməsi kimi idarəçilik işlərinin yerinə yetirilməsi ilə həyata keçirilir,

Toşkilati planlaşdırma idarəetmənin bütün səviyyələrində: strateji (Azərbaycan DGK); taktiki (gömrükxanalar, gömrük postları) səviyyələrdə həyata keçirilir.

Bundan başqa o, gömrük sisteminin fəaliyyət göstərməsinin müəyyən olunmuş təqvim dövrlərinə - uzunmüddətli (5 il və daha artıq), ortamüddətli (l ildən beş ilədək) və cari (bir ilədək) - uyğun gəlir. Beləliklə, idarəetmənin bu funksiyamın realizəsi üzrə idarəçilik fəaliyyəti gömrük əməliyyat-xidməti şəraitini, onun obyektiv qiymətləndirilməsini dərindən bilməyi təcrübə, bacanq və işə yaradıcı münasibət tələb edir. Keyfiyyət, qərarlann və planların müəyyən dərəcədə əsaslandırılması idarəetmənin son nəticələrini müəyyən edir.

Hazır və təsdiq olunmuş plan hələ özü-özlüyündə onun yerinə yetiriləcəyini göstərmir. Bunun üçün müvafiq şərait (şərtlər) lazımdır ki, onu da idarəetmənin digər funksiyası - təşkiletmə yaradır.

TəşkİletmƏ dedikdə idarəetmənin elə əsas funksiyası nəzərdə tutulur ki, onun reallaşdırılması vasitəsilə planlaşdırma prosesində işlənib hazırlanmış planların yerinə yetirilməsi üçün şərait yaranır.

Bu funksiyanın mahiyyəti qüvvə və vasitələrin yaradılmasından, icraçılar arasında zəruri əlaqə və münasibətlərin qurulmasından, onların fəaliyyətinin rasional (səmərəli) forma və metodlarının müəyyənləşdirilməsindən ibarətdir.

Bu funksiyanın reailaşdınıması prosesində idarəetmə subyekti tərəfindən qəbul olunmuş qərarlann, o cümlədən təsdiq edilmiş planlann uğurlu həyata keçirilməsi üçün zəruri olan şərait yaradılır.

Gömrük orqanlarında "təşkiletmə" idarəetmə funksiyası qərarlann və hazırlanmış planların icra edilməsi üzrə vəzifələrin qoyulması; qarşılıqlı əlaqənin təşkili, icraçılann hazırlanması, onlann öyrədilməsi daxil olmaqla, eləcə də planlann yerinə yetirilməsinin hərtərəfli təminatı üzrə digər tədbirlərin görülməsi kimi idarəçilik işlərinin (əməliyyatlann) icra edilməsi vasitəsilə reallaşdınlır.

Tənzimetme dedikdə idarəetmənin etə əsas funksiyası başa düşülməlidir ki, onun vasitəsilə tabelikdə olan şəxslərin fəaliyyətinin səmərəliliyi yüksəlir və ya planlaşdırma zamanı verilmiş parametrlərdən kənaraçıxmalar aradan qaldırılır.

Tənzimetmə əks əlaqənin nəticələri əsasında həyata keçirilir. O, ayn-ayn əməkdaşlann və kollektivlərin qarşılıqlı əlaqələrinin saxlanması, əlaqələndirilməsi, qüvvələrin (səylərin) yenidən bölgüsü, eləcə də motivasiyası və stimullaşdınıması yolu ilə reallaşdınla bilər.

İdarəetmənin “tənzimetmə” funksiyasının reallaşdın İması nəzarətin nəticələrinin təhlili; tənzimetmə qərarlannın qəbulu, qəıarlann vəzifələr şəklində icraçılara çatdınıması; tənzimetmənin təşkili; tən- zimetmənin apanıması; tənzimetmənin təsirinin yoxlanması kimi idaroçilik işlərinin (əməliyyatlannın) icra edilməsindən ibarətdir.

Uçot funksiyasının mahiyyətini idarə olunan sistemin cari vəziyyəti haqqında onun hərəkət istiqamətləri və templəri, əldə edilən nəticələr və dəyişən problemlər haqqında informasiyanın toplanması, sistemləşdirilməsi və ilkin işlənməsi təşkil edir.

Planların yerinə yetirilməsinin düzgünlüyünü, onların icrasının şərait və nəticələrinin necə olduğunu müəyyən etmək üçün nəzarət mövcuddur.

Nəzarot idarəetmənin elə əsas funksiyasıdır ki, onun reallaşdırılması vasitəsilə gömrük orqanlarının vahid sisteminin fəaliyyəti prosesi üzərində müşahidə həyata keçirilir, bu və ya digər zaman momentində tabelikdə olanların fəaliyyətinin gedişi, şəraiti, vəziyyəti və nəticələri haqqında məlumatlar toplanır.

Qəbul olunmuş qərarlann reallaşdın imasına nəzarət gömrük fəaliyyətinin qoyulmuş vəzifələrə uyğunluğunun üzə çıxanimasına, şəraitin dəyişməsindən asılı olaraq əvvəl qəbul edilmiş qərarlara və təsdiq olunmuş planlara vaxtında zəruri düzəlişlər edihnəsinə istiqamətlənir.

Nəzarətin əsas vəzifəsi planlaşdıraıa zamanı verilmiş parametrlərdən kənaraçıxmalann üzrə çıxan İması, onlan doğuran səbəblərin, eləcə də gələcəkdə inkişaf etdirilməsi gömrük orqanının bütün fəaliyyətinin səmərəliliyini xeyli dərəcədə artırmağa kömək edə biləcək müsbət momentlərin ortaya çıxarılmasıdır.

Nəzarotin əsas vəzifo və metodları əməliyyat-xidməti şəraitdən törəmədir.

Nəzarət iki istiqamətdə aparılır: bir tərəfdən gömrük orqanının rəisi öz müavinlərinin və bilavasitə tabeliyindəki şöbələrin, gömrük postlarının və digər struktur bölmələrin rəislərinin işinə nəzarət edir, digər tərəfdən isə onlarla birlikdə vahid plan üzrə struktur bölmələrin fəaliyyətini yoxlayır.

“Nəzarət” funksiyasını realiaşdınnaq üçün nəzarət obyektlərinin metodlannın, müddətlərinin müəyyən edilməsi, nəzarətin icraçılannın müəyyən edilməsi və onların hazırlanması; nəzarət obyektinin hazırlanması; nəzarətin həyata keçirilməsi; nəzarət məlumatlarının işlənməsi və onların realizəsi kimi idarəçilik işlərinin həyata keçirilməsi tələb olunur.

Nəzarət nəinki idarəçilik qərarlarının İcrası nəticələrinin nəzərdən keçirilməsi üçün, eləcə də bütövlükdə idarəetmənin təhlili və qiymətləndirihnəsi üçün lazımdır.

İdarəetmənin bütün bu funksiyaları bir-birilə qınimaz əlaqədədir vo bütöv bir tam təşkil edir.

Beləliklə, gömrük oıqanlannda idarəetmə bütün əməliyyat-xidməti fəaliyyətin, onun bütün morhələ və səviyyələrində, məkanda və zamanda şüurlu təşkili üzrə kompleks, konkret, praktik

*idarəetmənin spesifik*
*(konkret) funksiyaları*

Gömrük orqanlarında idarəetmənin spesifik funksiyalarına aşağıdakılar aiddir;

- *gömrük fəaliyyətinin idarəedilmə funksiyası* (gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin, hüquq mühafizə fəaliyyətinin, iqtisadi fəaliyyətin, hüquqi tənzimetmə və elmi-texniki inkişaf üzrə fəaliyyətin idarəedilməsi);
- *ntaliyyə-iqtisaäi fəaliyyətin idarəedilmə funksiyası* (maliyyə fəaliyyətinin idaraedilməsi və mühasibat fəaliyyətinin idarə edilməsi);
- *sosial fəaliyyətin idarəedilmə funksiyası* (kadr, əmək və psixo-

- *inzibati-təs&rrüfat fəaliyyatinin idarəedilməsi fimksiyası* (inzibati fəaliyyətin idarəedilməsi; gömrük infrastrukturunun və əsaslı tikintinin inkişafının idarə edilməsi; hərtərəfli maddi-texniki təminatın idarə edilməsi).

Beləliklə, gömrük orqanlannda idarəetmənin spesifik funksiya-lan əməliyyat-xidməti fəaliyyətin öz mahiyyəti və onun çoxcəhət-liliyi ilə şərtlənir.

### *19,5. idarəetmənin metodları*

Qarşıya qoyulmuş məqsədlərin eldə edilməsi üçün idarəetmə obyektinə təsir yollannm, üsullannın, vasitələrinin və formalannın məcmusu İdarəetmə metodu adlanır.

İdarəetmənin metodlarım öyıənərkən xüsusilə nəzərə almaq lazımdır ki, onlann təsirinin yönümü sosial-iqtisadi sistemin, o cümlədən gömrük xidməti qarşısında qoyduğu konkret məqsədlə müəyyən edilir. Belə məqsəd konkret təşkilati, iqtisadi, sosial və texniki vəzifələrin həllini tələb edir ki, bu da öz növbəsində idarəetmənin müvafiq metodlarının tətbiqini tələb edir.

İdarəetmənin metodları idarəçilik fəaliyyətinin miqyasına və təsir formasına görə təsnif edilir.

Gömrük orqanlarında idarəçilik fəaliyyətinin miqyasına görə ümumi və xüsusi metodlar fərqləndirilir.

İdarəetmənin ümumi metodlan gömrük işinin qlobal problemlərinin, strateji məsələlərinin həllinə yönəlmişdir, onlar bütün gömrük sisteminin əsas məqsədlərini və fəaliyyət göstərməsi məsələlərinin əldə olunması üsullannı müəyyən edir.

İdarəetmənin xüsusi metodlan, başlıca olaraq, operativ və cari idarəetmə sistemlərində (regional gömrük idarələri, gömrükxana- lar, gömrük postlan) istifadə edilir.

Gömrük sistemində təsir formalarından asılı olaraq birbaşa, və dolayı təsir metodlan tətbiq edilir.

Birbaşa tasjr metodlan dövlətin iradəsinə və nüfuzuna əsaslanır. Onlara təşkilati-sərəncamverıci və hüquqi metodlar aiddir.

Dolayı təsir metodlanna sosial, psixoloji, iqtisadi və iqtisadi-riyazi metodlar aiddir.

Gömrük orqanlarında təşkiletmə və tənzimetmə kimi idarəetmə funksiyalarının reallaşdırılması prosesindo təşkilati-sərəncamverici (İnzibati) metodların vasitəsilə əməkdaşların və kollektivlərin borc, solahiyyot, məsuliyyət, intizam tələbləri və s. kimi fəaliyyət aspektlərindən ibarət olan münasibətlər formalaşdınlır.

Gömrük orqanlannda təşkilati-sərəncamverici metodların hərbiloşdirilmiş vo hüquq mühafizə kimi xüsusiyyətləri ondan ibarətdir ki, onlar bütövlükdə sistemə və ya aynlıqda onun elementlərinə birbaşa direktiv təsiri ifadə edir; gömrük orqanının rəhbərinə birmənalı qərar qəbul etməyə imkan verir; normativ-hüquqi və direktiv sənədlərin icrasının mocburiliyinə əsaslanır.

Gömrük orqanlannda üç qrup təşkilati-sərəncamverici metod: təşkilatı, sorəncamverici və intizam tətbiq edilir. Əsas yeri birinci qrupu təşkil edən təşkİlati təsir metodlan tutur. Onlar idarəetmənin əsası olan sistemdə təşkilati əlaqələrin uzunmüddətli təsbitidir və nizamasalma, normalaşdınna və təlimatlandınnanı əhatə edir.

Nizamasalma təşkilati təsirin sərt tipidir. Bu gömrük orqanlarında sistemin təşkilati əsasını və onda baş verən prosesləri müəyyən edir, təşkilati müddəaların hazırlanmasından ve onlara qüvvə verilməsindən ibarətdir. Qeyd edilən müddəalara aşağıdakılar aiddir; bütövlükdə gömrük sisteminin fəaliyyət göstərmə qaydasını və təşkilati xüsusiliyini müəyyənləşdirən ümumtəşkilati xarakterli müddəalar; iş qaydasım, müxtəlif bölmələrin təşkilati statusunu, onların vəzifələrini, funksiyalarını, səlahiyyətlərini təyin və müəyyən edən müddəalar; bölmələrin tip stnıkturlan; ştat eədvəlləri və vəzifə təlimatian ilə həyata keçirilən vəzifə nizamasalınması.

Normalaşdırma təşkilati təsirin daha az sərt tipidir və fəaliyyətdə istiqamət (oriyentir) kimi istifadə edilən norma və normativlərin müoyyonloşdirilməsindən ibarətdir, onun yuxan və aşağı hədlərini müəyyən edir. Təşkilati normalaşdırma gömrük sistemində funksiya və vəzifələrin yerinə yetirilməsi yollannı və qaydasını, zəruri normaları, fəaliyyət və qarşılıqlı fəaliyyət qaydalannı

müəyyən edir. İdarəetmə təcrübəsində gömrük orqanlan tərəfindən bəzi vaxt normalanndan və digər normativlərdən istifadə edilir və onların daim təkmiHəşdirilmesİ prosesi gedir.

Təlimatlandırma həmişə işlərin uğurlu icrasına yönəlmiş metodiki və informasiya yardımı formasına malikdir.

İdarəetmənin təşkilati-sorəncamverici metodlarının ikinci qrupu sərəncamverici təsir metodlarıdır ki, onlar da idarəetmə orqanlarının mütnəzəm işinin gündəlik operativ təmin edilməsindən ifadə olunur. Bu təşkilati təsir yolu ilə fonnalaşdınlan təşkilatı struktura əsaslanan cah təşkilati iş metodlarıdır. Gömrük sistemində sərəncamverici təsir metodlarının əsasında səlahiyyət və vəzifələr dayanır. Həmin metodlar DGK kollegiyası qorarlannm qəbulu, əmrlərin, göstərişlərin, sərəncamların, əsasnamələrin, qətnamələrin sənədlərdə dərc edilməsi, eləcə də idarəçilik qərarlannın şifahi şəkildə qəbul edilməsi vo çatdırılması yolu ilə reallaşdırılır.

Gömrük sistemində əmrləri yalnız xətti rəhbərlər, sərəncamlan isə onlann müavinləri və verilmiş hüquq və səlahiyyətlər çərçivəsində funksional xidmətlərin rəhbərləri verirlər.

Azərbaycan Respublikasının DGK-da əmrləri imzalamaq hüququndan DGK sədrinin onlara verdiyi səlahiyyətlər çərçivəsində komitə sədrinin müavinləri də istifadə edir.

İdarəetmənin təşkilati-sorəncamverici metodlannın üçüncü qrupu intizam təsiri metodlarıdır.

Gömrük orqanlannda bu metodların mahiyyəti məsuliyyət müəyyən edilməsindən ibarətdir. Onlar intizam tələbləri və məsuliyyət sistemi vasitəsilə idarəetmə sistemində təşkilati əlaqələrin sabitliyinin saxlanması üçün nəzərdə tutulmuşdur. Şəxsi, kollektiv, maddi, mənəvi və xidməti (qulluq) məsuliyyəti fərqləndirilir.

Təşkilati-sərəncamverici metodların bütün göstərilən üç qrupu gömrük sistemində həm aynca, həm də birlikdə bir-birini tamamlayaraq və zənginləşdirərək istifadə edilir.

Hüquqi metodlar sosial-iqtisadi sistemin elementlərinə və idarəetmə prosesində onların arasındakı münasibətlərə hüquqi (yuridik) təsir vasitələrinin və üsullarının məcmusudur.

Hüquqi metodlara bunlar aiddir: hüquqi normalann hazırlanması, istifadosi və tətbiqi, hüquqi münasibətlərin formalaşdırılması, hüquqi aktların tələblərinə riayət edilməsi.

Hüquqi normalar bütün gömrük orqanlannm gömrük sistemində yerini və onlara rəhbərlik metodlarını müəyyən edir, onlann başqa təşkilatlarla saxladığı münasibətlərin xarakter və məzmununu təyin edir.

Belə əsas hüquqi normalar bunlardır: Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, “Gömrük orqanlannda xidmət haqqında” Əsasnamə, “Dövlət Gömrük Komitəsi haqqında” Əsasnamə, digər gömrük orqanları haqqında əsasnamələr və bir sıra başqalan.

Gömrük orqanları idarəetmə aparatının fəaliyyəti əmək, mülki, təsərrüfat və bəzi digər qanunvericiliklərin hüquqi aktlan ilə nizamlanır.

İdarəetmənin sosial və psixoloji metodları gömrük sistemində idarəetmənin metodlan arasında mühüm yer tutur, ona görə də kollektivin sosial xarakteristikaları ilə onun fəaliyyətinin iqtisadi və təş- kilati göstəriciləri arasında sıx asılılıq mövcuddur. Gömrük orqanlarının xidmət fəaliyyətinin effektivliyi xeyli dərəcədə, məsələn, çox vaxt gömrukxanada sosial və psixoloji şərtlərin doğurduğu faktorlardan - kadrtann dəyişkənliyindən, eləcə də intizamlılıq, əməkdaşla- nn düzlüyü, kollektivdəki psixoloji iqlim və s.-dən asılıdır.

Sosial və psixoloji idarəetmə metodları kollektivin formalaşması və inkişafı prosesinə, onun daxilində baş verən sosial proseslərə konkret tosir üsulları və vasitələridir.

Sosial və psixoloji metodların məqsədi əməkdaşların artan sosial tələbatının, onların hərtərofli ahəngdar inkişafının təmin edilməsi, bu əsasda şəxsiyyətin xidməti fəallığının və kollektivlərin səmərəli fəaliyyətinin yüksəldilməsidir. Bu idarəetmə metodlan tərkibinə qeyri-formal qrupların, şəxsiyyətin rol və statusunun, kollektivdəki qarşılıqlı münasibətlər sisteminin, sosial tələbatların və digər sosial aspektlərin daxil olduğu kollektivdə fəaliyyət göstərən sosial mexanizmin istifadəsinə əsaslanır.

Sosial idarəetmə metodlarına sosial normalasdırma, sosial tən-

Sosial təsir metodları əksini gömrük orqanları kollektivlərinin sosial inkişaf planlannda tapır ki, bunlara da əməkdaşların mədəni-tərbiyəvi və ixtisas səviyyəsinin artınlması, kadr dəyişkənliyi ilə mübarizə, əmək və məişət şəraitinin yaxşılaşdınlması üzrə tədbirlər daxildir.

Psixoloji idarəetmə metodları kollektivlərdə optimal psixoloji iqlim yaradılması yolu ilə gömrük orqanlan əməkdaşları arasında münasibətlərin tənzimlənməsinə yönəldilir. Onlara aşağıdakı metodlar aiddir: kiçik qrup və kollektivlərin komplektləşdirilməsi; əməyin humanistləşdinIməsİ, psixoloji məqsəd (motivasiya); professional (peşə) seçmə və tədris.

Psixoloji idarəetmə metodlarının tətbiqi sosial, təşkilatı və iqtisadi metodlarla kompleks şəkildə həyata keçirilməlidir, çünki ya- İmz belə qarşılıqlı əlaqədə kollektivin sosial inkişafının mürəkkəb məsələlərinin optimal həllinə nait otmaq mümkündür.

İqtisadi idarəetmə metodları idarəetmə obyektinə məqsədyönlü təsirin iqtisadi mənafelərin istifadəsi üzərində qurulmuş üsullar sistemidir. Gömrük orqanlannda iqtisadi idarəetmə metodlarına mərkəzləşdirilmiş planlı və iqtisadi stimullaşdırma metodu aiddir.

İqtisadi idarəetmə metodlannın mühüm xüsusiyyəti odur ki, onlar sistemli dövlət, kollektiv və şəxsi mənafelərin birliyini təmin etməyə yönəlmişdir. Bu da gömrük orqanlarında iki aspektdən reallaşdırılır: birinci, Azərbaycan Respublikası büdcəsinin gəlir hissəsinin formalaşdırılması üzrə direktiv plan tapşmqlarının müəyyənləşdirilməsi yolu ilə idarəetmə, ikinci isə gömrük sistemi inkişaf fondunun yaradılması və istifadəsi əsasında idarəetmə.

İqtisadi stimullaşdırma (həvəsləndirmə) metodu ikinci aspektə əsaslanır və maddi stimullaşdırma, kollektiv maddi maraq və iqtisadi məsuliyyəti əhatə edir.

Həll edilən idarəetmə məsələlərinin xüsusiyyətlərindən asılı olaraq gömrük orqanlarında bu və ya digər iqtisadi-riyazi metodlar istifadə oluna bilər. Onlar fonnalizə edilməmiş, zəif fontıalizə edilmiş və formalizə edilmiş metodlara bölünür.

Belə ki, Ümumdünya Gömrük Təşkilatının metodikası üzrə gömrük xidmətinin məqsədli inkişaf proqramına uyğun olaraq hə

yata keçirilocok gömrük xidmotinin modernləşdirilməsi gedişində bütün gömrük orqanlannın diaqnostikasını aparmaq vacib şərtdir, Moderntüşdırmənin bu mərhələsi formalizə edilməyən İdarəetmə metodlarına daxilolan ideyaların kollektiv generasiyası metodu ilə həyata keçiriləcəkdir.

Nəticə olaraq qeyd etmək lazımdır kİ, gömrük orqanlarının idarə edilməsində istifadə olunan idarəetmə metodlarının metodologiyasının təkmilləşdirilməsi gömrük fəaliyyətini idarəetmə sisteminin səmərəliliyinin artırılması probleminin Ü2:vi və nəzərəçarpacaq hissəsidir. Bütün idarəetmə metodları öyrənilməli, təkmilləşdirilməli vo dialektik vəhdətdə tətbiq edilməlidir.

Beləliklə, bu fəsildə gömrük xidmətinə uyğun olaraq idarəetmə nəzəriyyəsinin əsas kateqoriyaları haqqında anlayışlar nəzərdən keçirildi.

Nəzərdən keçirilmiş kateqoriyaları bilmək mühüm əhəmiyyət kəsb edir: birinci, onlar idarəetmənin mahiyyətini və mexanizmini dərk etməyə imkan verir; ikinci, onlar tabeliyindəki kollektivlərin omoliyyat-xidmoti fəaliyyətinin idarə edilməsi üzrə gömrük orqanları rəhbərlərinin işinin metodoloji cəhətdən düzgün təşkilinə kömək edir; üçüncü, nəzərdən keçirilən kateqoriyaları bilmok idarəetmə qanunlarım və prinsiplərini dərk etmək və səmərəli tətbiq etmək üçün əsasdır; dördüncü, əsas kateqoriyaların mənalannı düzgün elmi şəkildə başa düşmək gömrük fəaliyyətinin idarə edilməsində mövcud stnıkturlan təkmilləşdirməyə və keyfiyyətcə yeni strukturlar yaratmağa kömok edir ki, bu da gömrük xidmətinin modernləşdirilməsi dövründə xüsusilə mühümdür.

## Mövzu 20. Gömrük orqanları sistemində idarəetmənin təşkilatİ strukturları

### *20, L İdarəçilik münasibətlərinin və idarəetmənin təşkilatİ strukturlarının növləri*

Azərbaycan Respublikası gömrük orqanları sisteminin inkişafı idarəçilik problemlərinin həlli ilə sıx əlaqəlidir, çünki idarəetmə həmişə bu və ya digər təşkilatın ayrı-ayrı həlqələri arasında dəqiq qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsi, onlar arasında hüquq və vəzifələrin bölgüsü ilə başlanır. Bu məsələlərin təşkilatİ rəsmiləşdirilməsi gömrük orqanlarının idarə edilməsinin optimal təşkilatİ strukturunun işlənib hazırlanmasını nəzərdə tutur.

İdarəetmənin təşkilatİ strukturu dedikdə çox vaxt idarəetmənin iyerarxik elementlərinin və bu elementlərin vahid bir tam kimi inkişafını təmin edən bir-biri ilə qarşılıqlı əlaqələrinin nizama salınmış toplusu (məcmusu) başa düşülür.

İdarəetmənin təşkilatİ strukturları təhlil edilərkən, bir qayda olaraq, onlarda aşağıdakı elementlər aynlır: idarəetmə həlqələri, idarəetmə səviyyələri və qarşılıqlı əlaqələr.

Gömrük orqanlan sistemində idarəetmənin həlqələrinə bunlar aiddir; Azərbaycan Respublikası DGK, DGK.-nin İdarələri vo müstəqil şöbələri, gömrükxanalar, gömrükxanalarm şöbələri, gömrük postlan və müvafiq professional vo ya idarəçilik funksiyalarım icra edən ayrı-ayn mütəxəssislər. İdarəetmənin bu həlqələri ida*-əet- mə iyerarxiyasının müvafiq səviyyələrində yerləşir.

İdarəetməiiiA səviyyələri dedikdə təşkilatın idarəetmə sistemində müəyyən pillə tutan idarəetmə həlqələrinin məcmusu başa düşülür.

Gömrük orqanlannın vahid sistemində idarəetmə strukturu üç səviyyədən ibarətdir: Azərbaycan Respublikası DGK, gömrükxa-nalar, gömrük postları.

Bununla yanaşı, çox vaxt idarəçilik münasibətlərinin aşağıdakı kanalları nəzərdən keçirilə bilər: 1) DGK - gömrükxana; 2) göm-

rükxana rəisi - gömrükxana şöbələri; 3) gömrükxana şöbəsi - gömrükxana şöbəsi (digər); 4) gömrükxana - gömrük postu; 5) gömrük postu - gömrük postu (digər); 6) gömrükxana - gömrükxana (digər); 7) Gömrükxana - DGK,

Belə qarşılıqlı münasibətlərin mərkəzində rəisi, şöbələri və gömrük postları ilə gömrükxana dayanır. Bu da təsadüfi deyil, çünki gömrük fəaliyyətinin əsas məsələləri burada həll edilir.

İdarəetmə strukturu çərçivəsində idarəçilik prosesi baş verir ki, onun iştirakçılan arasında İdarəetmə vəzifələri və funksiyaları, nəticə etibarilə onların icrasına görə hüquqlar və məsuliyyət bölüşdürülür. Bu baxımdan idarəetmənin təşkilatı strukturu qarşıya qoyulmuş məqsədlərin əldə edilməsinə yönəlmiş idarəetmə prosesinin baş verdiyi idarəçilik fəaliyyətinin bölüşdürülmə (bölgü) və kooperasiya forması kimi nəzərdən keçirilə bilər.

Gömrük orqanlarında idarəetmənin həlqələri və səviyyələri arasında qarşılıqlı münasibətlərin aşağıdakı növləri təşəkkül tapır:

- şaquli İdarəçilik münasibətləri (DGK - gömrükxana; gömrükxana rəisi - gömrükxana şöbələri; gömrükxana - gömrük postu; DGK - gömrükxana);
- üfüqi idarəçilik münasibətləri (gömrükxana şöbəsi - gömrükxana şöbəsi; gömrük postu - gömrük postu; gömrükxana - gömrükxana);
- diaqonal idarəçilik münasibətləri (post - qarşılıqlı əlaqəli göndəroıı və ya təyinat gömrükxanası; DGK-nİn şöbəsi - DGK-nin qarşılıqlı əlaqəli İdarəsi).

Bu qarşılıqlı münasibətləri bir qədər ətraflı nəzərdən keçirək.

Şaquli münasibətlər, hər şeydən öncə, rəhbərlər və onun tabeliyində olanlar arasında qarşılıqlı münasibətləri nəzərdə tutur, bu zaman xətti subordinasiya (tabeliUk) üzə çıxır: səviyyələr üzrə bütün aşağı idarəetmə həlqələri daha yuxan idarəetmə səviyyəsində yerləşən rəhbərin tabeliyində olur. Bu xətti münasibətlər adlanır.

Gömrük orqanlan sistemində şaquli münasibətlər təkcə təşkila- ti stRikturun xətti həlqələri arasında deyil, eyni zamanda subordinasiya (tabelilik) münasibətləri ilə bağlı olan funksional həlqələr arasında da

məsələn, reallaşdırılması onlann peşə (xidməti) fəaliyyətinə (maliyyə, hüquq mühafiz, kadr və b.) daxil olan müəyyən idarəetmə funksiyasını yerinə yetirmək üçün nəzərdə tutulan idarəçilik həlqələri analoji olaraq yuxan idarəçilik həlqəsinin funksional (peşə fəaliyyəti növü üzrə) tabeliyində yerləşsin.

Məsələn, gömrükxananm maliyyə şöbəsinin rəisi gömrükxana rəisi müavininin, gömrükxana rəisinin və digər yuxan xətti rəhbərlərin xətti tabeliyində yerləşir (şaquli xətti qarşılıqlı münasibətlər).

Həmin xətti rəhbərlər tərəfindən gömrükxana maliyyə şöbəsinin rəisinə İdarəçilik təsiri xətti subordinasiyanın (tabeliliyin) ifadəsidir, onlann qərarları onun üçün məcburi xarakter daşıyır.

Funksional tabelilikdə isə (şaquli funksional qarşılıqlı münasibətlər) gömrükxana maliyyə şöbəsinin rəisi DGK Maliyyə Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisinə tabedir. Burada isə idarəçilik təsiri daha çox tövsiyə xarakteri daşıyır. Bununla eyni zamanda bəmin gömrükxana maliyyə şöbəsi rəisi öz şöbəsinin əməkdaş- larma münasibətdə xətti rəhbərdir.

Beləliklə, göstərilən nümunə şaquli qarşılıqlı münasibətlərin mürəkkəb iyerarxiyasını əks etdirir. Bununla bərabər, onlar özündə xətti və ya funksional rəhbərin rəhbərliyi altında müşavirlər və köməkçilər institutu şəklində işləyən idarəçilik münasibətləri aparatmı da ehtiva edir. Müşavirlərin (köməkçilərin) vəzifə borcu bu zaman tövsiyə və məsləhətlərin işlənib hazırlanmasından ibarətdir. Lakin, bununla yanaşı, onlara müəyyən hüquq və səlahiyyətlər də verilir. Məsələn, xətti rəhbərin müşavirinə (məsləhətçisinə) eyni bölmənin şöbə rəisləri ilə xətti rəhbərin adından və tapşıngı ilə münasibətlərə girsin, onun iradə və arzusunu ifadə etsin. Bu l*alda köməkçi xətti rəhbərin malik olduğu səlahiyyəti həyata keçirir. Şəxsən belə səlahiyyətləri olmadığından köməkçi qərar qəbul etmir, lakin onun vəzifəsi bu və ya digər əməliyyat-xidməti məsələlər üzrə özünün bilavasitə rəhbərinə tövsiyələr verməkdən ibarətdir. Bu səbəbdən şöbə rəisləri onun rəyinə idarə rəisinin mümkün ola bilən fikri kimi yanaşa bilərlər.

Bu, köməkçilərdən gələcək rəhbərlər hazırlamağın yaxşı metodu, rəhbərlərin yuxarı həlqəsinin iş vaxtına qənaət edilməsinin, on-

lan mühafizəkar (konservativ), xalis inzibati işdən qurtarmağın yaxşı üsuludur.

Üfüqi münasibətlər iki kateqoriyaya bölünə bilər. Birincisi, kollegial - bir rəisin tabeliyində olan bir şöbənin əməkdaşları arasındakı münasibotlordir. İkincisi, paralel - təşkilatda eyni mövqe tutan. bir-biri ilə informasiya, fikir və mülahizələri mübadilə etmək zərurətinin meydana çıxdığı müxtəlif şöbələrin əməkdaşları arasındakı münasibətlərdir (məsələn, gömrükxana şöbəsi - gömrükxa- na şöbəsi, gömrük postu - gömrük postu, gömrükxana - gömrükxana kimi üülqi paralel qarşılıqlı münasibət kanallan).

Diaqonal münasibətlər idarəetmə sisteminin müxtəlif səviyyələrində yerləşən, birbaşa tabelilik münasibətində olmayan, lakin yuxarı səviyyələrin qərarlarını icra etməkdə bir-biri ilə qarşılıqlı əlaqəli olan idarəetmə həlqələri arasında meydana gələn münasibətlərdir. Belo münasibətləro nümunə olaraq mallann çatdırılmasında qarşılıqlı məlumatlandırmanı, hüquq-mühafizə funksiyalarının həyata keçirilməsi məsələləri üzrə icrası məcburi olan sorğuların göndərilməsini və s. göstərmək olar.

Əgər təşkilatda (xidmətdə, orqanlar sistemində və s.) yalmz xətti qarşılıqlı münasibətlər müşahidə edilirsə, ondakı təşkilatı idarəetmə stmkturu xətti adlanır. Əgər xətti qarşılıqlı münasibətlərə funksional münasibətlər əlavə olunursa, belə təşkilatda təşkilatİ İdarəetmə stmkturu xətti-ftınksional və ya sadəcə olaraq funksional adlanır. Sonuncu halda o nəzərdə tutulur ki, xətti qarşılıqlı münasibətlər və xətti idarəetmə strukturları həm də həmişə təbii şəkildə mövcud olur.

Analoji olaraq, xətti idarəetmə strukturu çərçivəsində rəhbər müvafiq tövsiyələr hazırlayan köməkçilər və müşavirlər institutu yaradıldıqda təşkilati idarəetmə stmkturu xətti-qərargah adını alır.

Xətti vo funksional təşkilati idarəetmə strukturları şaquli idarəçilik münasibətləri üçün daha xarakterikdir.

İdarəçilik fəaliyyətində üfüqi qarşılıqlı münasibətlərin inkişafına istinad edilməsi çox vaxt proqramməqsədli (matris) təşkilati idarəetmə strukturuna gətirib çıxarır. Belo stmkturlarda verilmiş son məqsədin reallaşdıniması üzrə işlərin bütün məcmusu tabelilik iye-

rarxiyası mövqeyindən yox, proqramın nəzərdə tutduğu məqsədə yetmək baxımından nəzərdən keçirilir.

Kortəbii proqram-məqsədli quruma nümunə olaraq qaçaqmalçılığın aşkar edilməsi və ya gömrük sərhədinin digər pozulmalarının qarşısının alınması üçün gömrük orqanmda yaradılan əməliyyat qrupunu göstərmək olar.

Nəzərdən keçirilən idarəetmə strukturlannın birləşməsi Azərbaycan Respublikası gömrük orqanlanmn vahid sistemi üçün səciyyəvi olan qanşıq təşkilati idarəetmə strukturunu doğurur. Bu strukturların səciyyəsini bir qədər ətraflı nəzərdən keçirək.

Xətti təşkilin üstünlükləri cərgəsində bir çox müəlliflər tərəfindən daha çox açıq ifadə olunmuş şaquli əlaqələr sistemini; məsuliyyət, müəyyən edilmiş öhdəliklər; vəzifə və səlahiyyətlərin dəqiq bölgüsü; qərarlann qəbul edilməsinin operativ prosesi; göstərişlərin başa düşülməsində və istfadəsində sadəlik; lazımi intizamın saxlanması İmkanı fərqləndirilir. İdarəçilik strukturunun bu tipi sabit və möhkəm təşkilin formalaşdınimasına səbəb olur.

Təşkilati idarəetmə strukturunun xətti təşkilinin nöqsanlarına aşağıdakılar aiddir: qeyri-çeviklik, sərtlik; təşkilatın gələcək yüksəlişinə uyğunlaşmama; həllində (üfüqi istiqamətdə) bir neçə birləşmənin fəaliyyət göstərdiyi məsələlərin müzakirəsində qərəzlilik və lüzumsuz rəsmiyyət; işin nəticəsinin rəhbərin şəxsi və işgüzar keyfiyyətlərindən yüksək asılılıq.

İdarəetmənin xətti-qərargah təşkilati strukturunun üstünlüyü budur ki, ondan istifadə edildikdə qərarlann və planlarm daha ciddi hazırlanmasına; problemlərin daha ciddi təhlilindən xətti rəhbərlərin azad edilməsinə; məsləhətçilər və mütəxəssislər cəlb etmək imkanına nail olunur.

İdarəetmənin xətti-qərargah strukturunun qüsurları bunlardır: qərargahın kifayət qədər dəqiq məsuliyyəti; həddən artıq mərkəzləşdirmə tendensiyasmm meydana çıxması.

Xətti-qərargah strukturunun yaradılması idarəetmədə funksional ixtisaslaşmaya tərəf ilk addımdır.

İdarəetmənin funksional təşkilati strukturu bütün idarəetmə səviyyələrində müəyyən funksiyalan icra etmək üçün birləşmələr yaradılmasını tələb edir.

İdarəetmə aparatının funksional ixtisaslaşdırılması - son dövrlərdə gömrük orqanlarında məhz buna daha artıq diqqət yetirilir - onun fəaliyətinin səmərəliliyini yüksəldir. İdarəetmənin bütün funksiyalarının xüsusiyyətlərindən baş çıxarmalı olan universal rəhbərlər əvəzinə öz sahəsində yüksək bacanq keyfiyyətinə qabil və fəaliyyətin müəyyən istiqamətinə məsul olan mütəxəssislər ştatı meydana çıxır. Funksional xidmətlər belə meydana gəlir. Onlara gömrük orqan lannda kadr xidmətini (DGK-mn kadrlar idarəsi, maliyyə xidmətləri, gömrük hüquqpozmaları ilə mübarizə üzrə xidmətlər, maddi-texniki təchizat xidmətlərini və s. aid etmək olar. Belə şəraitdə xidmətlərin rəhbərlərinin fəaliyyətinin idarəedilmə funksiyası, yəni idarəçilik fəaliyyətinin funksional əlaqələndirilməsinin (kordinasiyasının) təşkili mühüm əhəmiyyət kəsb edir.

İdarəetmənin funksional təşkilati strukturunun üstün cəhətlərinə bunu aid etmək olar ki, o, xətti rəhbərləri bezi xüsusi məsələlərin həllindən azad edİr; İşdə təcrübəli mütəxəssislərin məsləhətlərindən istifadə etmək üçün əsas yaradır; geniş profilli mütəxəssislərə tələbatı azaldır.

Belə idarəetmə strukturunun ümumi qüsurlan bunlardır: qarşılıqlı əlaqələrin mürəkkəbləşməsi; əlaqələndirmənin pisləşməsi; həddən artıq mərkəzləşdirməyə və əməkdaşlann ikiqat tabeliliyi- nə meylin meydana çıxması.

İdarəetmənin proqram-məqsədli təşkilati strukturu qarşıya qoyulmuş məqsədin əldə olunmasına məsul olan rəhbərə imkan verir ki, əsas işini hansı birləşmədə yerinə yetirməsindən asılı olmayaraq bütün icraçıları özünə tabe etsin. İş başa çatdırıldıqdan sonra bütün icraçılar özlərinin birləşmələrinə qaytarılır.

Gömrük orqanlannda proqram-məqsədli strukturlann yaradılması o hallarda məqsədyönlü hesab edilir ki, qısa müddətdə xidməti fəaliyyətin yeni texnologiyasının mənimsənilməsi, xarici və daxili

lərin tətbiq ediLməsi üçün operativ qruplar yaratmaq zəruri olsun.

İdarəetmənin proqram-məqsədli strukturunun üstün cəhətləri konkret xidməti fəaliyyətin məqsədlərinə daha yaxşı istiqamətləndirmə; daha səmərəli cari idarəetmə; ayn-ayn icraçıların xüsusi bilik və bacanq keyfiyyətindən daha çevik istifadə; işçilərdə qərar qəbul etmək, peşə və idarəçilik fəaliyyəti vərdişlərinin inkişafı (operativ qruplann nisbi muxtariyyəti səbəbindən); xidməti fəaliyyətin ayn-ayn vəzifələrinin icrasına nəzarətin yaxşılaşdırılması; səmərəli planlaşdırma və idarəetmə metodlannın tətbiqi imkanı.

Proqram-məqsədli idarəetmə strukturunun nöqsanları aşağıdakılardır: birləşmələrin məqsədləri və funksional təyinatı üzrə idarəetmə məsələləri (vəzifələri) arasında qüvvələr “nisbəti”nə daimi nəzarətin zəruriliyi; birləşmənin tapşınğı üzrə işə görə dəqiq məsuliyyət müəyyən etməkdə çətinlik və məqsədli vəzifənin həlli üzrə funksiyanın icrası (ikiqat tabeliliklə bağlı neqativ hadisələrin mövcud olması); məqsədli işçi qruplann işində iştirak edən əməkdaşlann uzunmüddətli aynlmasma (uzaqlaşdınİmasına) görə xətti və funksional birləşmələrdə qəbul olunmuş müəyyən iş qaydalan- nm pozulması mümkünlüyü; operativ qrupların tərkibində səmərəli iş üçün zəruri olan yeni vərdişlər əldə etməyə və yeni şəraitə əməkdaşlann uyğunlaşması zəruriliyi; xətti və funksional birləşmələrin rəhbərləri ilə operativ qrupların rəhbərləri arasında münaqişələrin meydana çıxması mümkünlüyü.

Qanşıq təşkilat! idarəetmə strukturları yuxarıda qeyd edilən strukturlar kimi müsbət cəhətlərdən və qüsurlardan xali deyildir.

*Azerbaycan Respublikası Dövht Gömrük Komitesinin strukturu*

Sadr

Sədrin 1-ci müavini

Sədrin müavini

Sədrin müavini

Sədrin müavini

Katiblik

Gömrük Nəzarətinin Təşkili Baş idarəsi

Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulması İlə Mübarizə Baş İdarəsi

Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi

Kadrlar İdarəsi

Daxili Təhqiqatlar İdarəsi

İstintaq İdarəsi

Xarici Əlaqələr İdarəsi

Statistika və İnformasiya Texnologiya!arı İdarəsi

Mətbuat xidməti

İşlər İdarəsi

Əsaslı Tikinti və Maddi-Texniki Təchizat İdarəsi

Hüquq şöbəsi

Analitik şöbə

Məxfi şöbə

Mühasibat və uçot şöbəsi

Gömrük mühafizə xidməti

Növbətçi hissə

Sxem 4

## *20.2, İdarəetm9 strukturlanna erihn tshbhr*

Gömrük orqanlan sistemindəki təşkilati idarəetmə strukturlarmm təhlili onlara verilən aşağıdakı tələbləri formalaşdırmağa imkan verir:

1. Sadəlik və qənaətçillik (qənaət). Məlumdur kİ, olduqca mürəkkəb təşkilati struktur idarəetmə orqanlannm işini mürəkkəbləşdirir və onun saxlanması üçün xərclərin artmasına səbəb olur. Ona görə də gömrük orqanlannda yeni struktur birləşmələr elə hallarda yaradılır ki, onların hansısa xidməti funksiyanı reallaşdırmağının sə> mərəliliyi başqa birləşmələrdə işləyən əməkdaşlar tərəfindən bu funksiyanın həyata keçirilməsinin səmərəliliyi ilə müqayisədə açıq- aşkar daha yüksək olsun. Məsələn, gömrükxanalarda narkotİklərin qaçaqmalçılığı ilə mübarizo şöbələrinin yaradılması bu planda həmin funksiyanın müxtəlif xidmətlərin və birləşmələrin əməkdaşları tərəfindən həyata keçirildiyi dövrlə müqayisədə gömrükxanaların fəaliyyətinin səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuşdur.

Əmokdaşlann işinə həyata keçirilən nəzarət və stimullaşduma minimal səylər və iqtisadi itkilər (məsrəflər) tələb etməlidir.

İdarəetmənin təşkilati strukturu öz-özünə nəzarətə və işçilərdə daxili təhrikin (motivasiyanın) olmasına kömək etməlidir, yəni təş-kilati-idarəçilik məsələlərinə minimum miqdarda əməkdaş vaxt sərf etməlidir.

Əgər istənilən təşkilatda idarəedəniərin və sıravi əməkdaşlann qüvvələrinin bir hissəsini bu və ya başqa şəkildə “daxilə” yönəltmək lazım gəlirsə, onda bu məsrəflər mümkün qədər az olmalıdır. Daimi (əbədi) mühərrik mümkün olmadığı kimi, yalnız öz- Özünə İşləyən təşkilat da mümkün deyil.

Təşkilatın qənaətcilliyinin formalaşdınlmasma nə kömək edir? Hər şeydən öncə, təşkilati struktur öz-özüne deyil, fəaliyyətin inkişafı prosesində inkişaf etməl i və formalaşmalıdır. Təşkilati strukturu fəaliyyəti əsl nəticəyə (yalançı (saxta) nəticəyə yox) çevirən ötürücü qayışa bənzətmək olar.

2. Aydınlıq (açıqlıq). Gömrük orqanının hər bir bölməsi, hər bir əməkdaşı harada yerləşdiyini, informasiya üçün kimə müraciət et-

məli olmasını, kimin idarəçilik qərarlarını qəbul etdiyini dəqiq bilməlidir. Strukturun aydınlığım sadəliklə qanşdırmaq olmaz. Əksinə, mürəkkəb strukturlar aydın ola bilər.

Aydınlığı olmayan struktur konfliktlər yaradır, əməkdaşları boş-boşuna vaxt keçirməyə vadar edir, onlara mənfi təsir edir, qərar qəbul etməyi ləngidir.

3. Müəyyənlik. Təşkilati struktur hər bir əməkdaşa özünün vəzifəsini başa düşməkdə kömək etməlidir. Bunun üçün təşkilati struktur idarəetmənin yuxan səviyyələrindən aşağı səviyyələrinə qədər ötürülmə zamanmda informasiyanın minimum itkisini təmin etməlidir.

4. İdarə oluna bilmə. Təşkilati struktur qərar qəbul etmə prosesini sadələşdinnəlidir. Pis təşkilati strukturda qərar “yuxandan- aşağıya”, yaxşı strukturda isə “aşağıdan-yuxanya” qəbul olunur.

5. Sabitlik. Təşkilati struktur eyni vaxtda stabil (sabit) olmalıdır. Yəni ətrafda baş verən fırtınadan asılı olmayaraq o “işləməlidir”. Hər bir işçi müəyyən yer tutduğu ünsiyyətdə müəyyən dairəyə malik olmalıdır, İnsan özünü daim vağzalda olan kimi hiss etməklə işləyə bilməz. Təşkilat zaman etibarilə sabitlik, öz-özünə yeniləşmə və öz-özünə inkişaf qabiliyyətinə malik olmalıdır. Buna isə, hər şeydən öncə, mütəxəssislərin, yeni liderlərin peşəkarlığının və şəxsiyyətinin inkişaf etdirilməsi hesabına nail olmaq olar.

6. Çeviklik. Çeviklik anlayışı yalnız son zamanlarda meydana çıxmış və açıq sosial sistemlər üçün səciyyəvidir.

Təşkilati idarəetmə strukturu, hətta ən böyüyü və mürəkkəbi belə, “donuq”, birdəfəlik və həmişəlik müəyyən olmamalıdır. Çevik struktur təşkilata (müəssisəyə) xarici şəraitin dəyişnjəsinə cəld reaksiya vermək və ona uyğunlaşmaq imkanı verir. Sözsüz , bu o demək deyildir ki, istənilən cüzi dəyişiklik bütün strukturun yenidən nəzərdən keçirilməsi ile nəticələnməlidir. Buna, məsələn, sənaye firmasında heç də həmişə zərurət olmur. Qeyd edək ki, bir sıra firmalar dəqiq müəyyən olunmuş dəyişməz struktura malik olmaya bilər. Belə firmalar müvəqqəti yaradıcılıq kollektivləri (MYK) prinsipi üzrə işləyir.

7. Təşkilati idarəetmə strukturunun göstəricisi olan homeostatik-lik, yəni daxili tarazlığın saxlanması üzrə sistemin avtomatik reaksi

ya işləyib hazırlamaq qabiliyyəti, sabitlik və çeviklikdən törəmədir. Müxtəlif növ "birdəfəlik" həyəcanlanmalara görə strukturda Öz sapmalar (kənaraçtxmalar) nə qədər az meydana gəlirsə, bu struktur bir o qədər sabit olur. Eyni zamanda struktur öz inkişafının dinamik şərtlərini nəzərə almalı və "böyük hesablar üzrə" təkmilləşməlidir, yəni əhəmiyyətli, təsadüfi olmayan, böyük, çoxdəfəli və eynitipli (birtipli) birdəfəlik həyəcanlanmalar zamanı şəklini dəyişməlidir.

8. Struktur nə qədər mürəkkəbdirsə, onda şaxələnmələr (budaqlar) bir o qədər çox olur, aşağıdakı faktorlar idarəetmədə bir o qədər çox rol oynayır;

- səlahiyyətlərin ötürülməsi (verilməsi). Məsələn, gömrükxana rəisi bütün gömrük orqanının fəaliyyətinə məsuliyyət daşıyır. Lakin o, funksiyalanmn bir hissəsini gömrükxana rəisinin müavinlərinə, gömrükxananın şöbə rəislərinə və gömrük postlannın rəislərinə verməyə məcburdur. Onlar da öz növbəsində ayn-ayrı vəzifələri tabeliyindəki qruplara və ya gömrük işinin konkret mütəxəssislərinə tapşırırlar ki, həmin şəxslər de bu vəzifələrin yerinə yetirilməsinə görə onların qarşısında hesabat verirlər;
- koordinasiya (əlaqələndirmə). Qarşıya qoyulmuş vəzifələrin icra edilməsində nə qədər çox sayda mütəxəssis iştirak edirsə, on- lann səyləri bir o qədər çox razılaşdınlmalıdır. Burada isə informasiya bir səviyyədən digərinə ötürülür və üfüqi istiqamət üzrə informasiya mübadiləsi apanlır;
- səlahiyyətinik (səriştəlilik). Gömrük orqanının hər bir əməkdaşının məsuliyyət dairəsi ciddi olaraq müəyyən edilməlidir. Rəhbərin səlahiyyətliliyi (səriştəliliyi) onun öz bölməsinin və ya bütövlükdə gömrük orqanının işini necə təşkil edə bilməsində ifadə olunur. Rəhbər öz əməkdaşlarının səriştəsinə inanmalıdır.
- mərkəzləşdirmə. Gömrük orqanı (bölməsi) rəisinin "əlində" funksiya və bilavasitə tabe mütəxəssislər nə qədər çox olarsa, onun idarəçilik fəaliyyətinin mərkəzləşmə səviyyəsi bir o qədər yüksək olar. Hər bir rəhbər idarəetmənin aşağı struktur həlqələri ilə birlikdə özü üçün müəyyənləşdirməlidir ki, səlahiyyətlərin hansı həcmi onun üçün qalır, hansı isə aşağı həlqələrə verilir.

Həm də qeyd etmək lazımdır ki, nəzərdən keçirilən formal (rəsmi) strukturlarla bərabər qeyri-formal (qeyri-rəsmi) strukturlar da mövcuddur. Onlar daha çox idarəetmənin aşağı struktur həlqələri üçün xarakterikdir. Onlarda rosmİ struktur yalnız görünən ‘‘aysberq hissəsi’'dir; bu aysberqin 9/lO-u əməkdaşlar arasındakı şəxsi qarşılıqlı əlaqələr təşkil edir. Onlar görünməzdir, “suyun altında yerləşir” və təşkilatın qeyri-rəsmi strukturudur.

Ona görə də, istənilən səviyyənin rəhbərləri öz təşkilatının ikili: maddi (idaıəetmənin təşkilati strukturları) və psixoloji (təşkilali strukturun müxtəlif həlqələrinin kollektivə çevrilməsi əməkdaşlarm yüksək motivasiyasının təmini, münaqişə vəziyyətlərinin qarşısının alınması və tənzim edilməsi və s.) strukturunu “qurmağı” bacarmalıdır.

Başqa sözlə, rəhbər elə şərait yaratmalıdır ki, onlar özlərini həmin kollektivin üzvləri kimi hiss edə bilsinlər. Təbii ki, bu vəzifənin həlli daha çox rəhbərin idarəçilik prosesinə baxışlarından, ondakı idarəçilik təfəkkürünün inkişafından, tabeliyindəkilərlə münasibətləri qurmaq bacarığından, eləcə də digər idarəçilik məsələlə- lorinin həll edilməsindən asılıdır.

### *20.3. Azsrbaycan Respublikasında gömrük sisteminin idarə edilməsinin xüsusi^ətləri*

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində gömrük işi üzrə Azərbaycan Respublikasının bütün ərazisində qüvvədə olan, Azərbaycan Respublikasının bütün dövlət orqanlan, hüquqi-təşkilati formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və fiziki şəxslər tərəfindən icrası məcburi olan normativ aktlar qebut edir.

Azərbaycan Respublikası Gömrük Komitəsinin idarə edilməsi aşağıdakı qaydada təşkil edilir;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə sədr rəhbərlik edir.
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri vəzifəsinə Azərbaycan Respublikası prezidenti tərəfindən təyin edilir və azad olunur.

~ Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavinləri vəzifəsinə sədrin təklifinə əsasən Azərbaycan Respublikasının prezidenti tərəfindən təyin edilir və azad olunur.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri:

- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini təmsil edir, Azərbaycan Respublikasının digər dövlət orqanlan ilə onun qarşılıqlı fəaliyyətini təmin edir;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavinləri arasında vəzifə bölgüsü aparır;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin səlahiyyətləri daxilində normativ aktları imzalayır (təsdiq edir) və onların icra vəziyyətinin yoxlanılmasını təşkil edir;
- Azərbaycan Respublikası gömrük orqanlanmn vəzifəli şəxslərini, gömrük laboratoriyalarının və tabeçiliyindəki digər idarə, müəssisə və təşkilatlann əməkdaşlarını vəzifəyə təyin edir və vəzifədən azad edir;
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin struktur bölmələrinin və tabeçiliyindəki digər idarə, müəssisə və təşkilatların əsasnamələrini (nizamnamələrini) təsdiq edir;
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müəyyən olunmuş say tərkibi və əmək haqqı fondu hədlərində ştat cədvəlini, idarəetmə aparatmm saxlanması üçün smeta xərclərini təsdiq edir;
- öz səlahiyyətləri daxilində gömrük orqanlarının vəzifəli şəxslərinə və tabeliyindəki müəssisələrin işçilərinə xüsusi rütbələrin verilməsi haqqında müəyyən edilmiş qaydada təqdimat verir;
- gömrük orqanlanmn və tabeliyindəki digər müəssisə və təşkilatlann işçilərini mükafatlandırır;
- xüsusilə fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlannm verilməsi və ya onların dövlət mükafatlan ilə təltif olunması üçün müəyyən olunmuş qaydada təqdimat verir;
- gömrük orqanlanmn əməkdaşları, gömrük laboratoriyalan və tabeliyindəki digər idarə, müəssisə və təşkilatların işçiləri barəsində Azərtıaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş intizam təsiri tədbirlərini tam şəkildə tətbiq edir;

- ona verilmiş ayn-ayrı səlahiyyətlərdən tabeçiliyindəld vəzifəli şəxslərin istifadə etməsinə icazə verir;

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər hüquqlardan da istifadə edir vo başqa funksiyalan da həyata keçirir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində sədrdən (Kollegiyanın sədri) və sədrin müavinlərindən, habelə gömrük orqanlannın, gömrük laboratoriyalarının, tabeçilikdə olan digər idarə, müəssisə və təşkilatların rəhbər işçilərindən ibarət kollegiya təşkil olunur. Kollegiyanın tərkibi vəzifələr üzrə Azərbaycan Respublikası Dövlot Gömrük Komitəsi sədrinin təqdimatına əsasən Azərbaycan Respublikasının prezidenti tərəfindən təsdiq edilir.

Kollegiya öz iclaslarında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəaliyyəti ilə bağlı mühüm məsələlərə baxır və onlar haqqında qərarlar çıxarır.

Kollegiyanın qərarı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin əmrləri ilo həyata keçirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi dövlət büdcəsinin vəsaiti hesabına və həmçinin Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquqi şəxsdir, onun üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir olunmuş və öz adı yazılmış möhürü, müvafiq möhür və ştamplan, banklarda və kredit təşkil atlannda hesabı (o cümlədən valyuta hesabı) vardır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aşağıdakı hüquqları vardır:

- Azərbaycan Respublikasının gömrük siyasətinin təkmilləşdirilməsino dair təkliflər hazırlamaq;

- Gömrük işi haqqında qanunvericilik aktlarının və digər hüquqi aktların layihələrini hazırlamaq;

- xarici sərmayələrin cəlb edilməsi və ixracın stimullaşdınlma- sı da daxil olmaqla, iqtisadiyyat sahəsində Azərbaycan Respublikasının dünya birliyi ilo qarşılıqlı münasibətlərinin tənzimlənməsi

mexanizmini təkmilləşdirmək haqqında təkliflərin hazırlanmasında iştirak etmək;

- dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, İnsanlann həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, daxili bazann və Azərbaycan istehlakçılanmn mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikası gömrük orqanlarımn iştirakım təmin etmək;
- Azərbaycan Respublikası üçün mühüm əhəmiyyət kəsb edən malların və materialların ixracına, habelə mədəni sərvətlərin aparılmasına nəzarətin təşkilində iştirak etmək;
- Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara aid gömrük rüsumlarının, vergilərin, habelə digər ödənişlərin dərəcələri və tətbiq mexanizminin təkmilləşdirilməsi haqqında müəyyən olunmuş qaydada təkliflər vermək;
- xarici-iqtisadi fəaliyyətin müvafiq mal nomenklaturasının apanlmasım, habelə onun hazırlanması, dəyişdirilməsi və ona əlavələr edilməsi üzrə işi təşkil etmək;
- gömrük rejimlərinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;
- ayn-ayn kateqoriyalı malların sərbəst gömrük zonalanna və sərbəst anbarlara yerləşdirilməsini məhdudlaşdırmaq və ya qadağan etmək;
- ticarət məqsədləri üçün nəzərdə tutulmayan malların fiziki şəxslər tərəfindən keçirilməsinin sadələşdirilmiş, güzəştli qaydalannı müəyyən etmək;
- gömrük brokerlərinin və gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin hüquqi tənzimləmə xüsusiyyətlərini müəyyən etmək;
- ona həvalə edilmiş vəzifə və funksiyaları yerinə yetirmək üçün mərkəzi icra hakimiyyəti oıqanlan da daxil olmaqla hüquqi-təşki- lati formasından asılı olmayaraq, müəssisələrdən və təşkilatlardan, habelə vəzifəli şəxslərdən və fiziki şəxslərdən sənədlər və məlumatlar tələb etmək;
- gömrük işi məsələləri üzrə koordinasiya və ekspert şuraları, işçi qrupları və müvəqqəti yaradıcı kollektivlər təşkil etmək; gömrük

işi və gömrük siyasəti problemlərinin həlli məqsədi ilə müqav əsasında xarici ölkələrin mütəxəssisləri və alimləri də daxil olma la elmi müəssisələri, alimləri və mütəxəssisləri cəlb etmək;

- rabitə və məlumatların ötürülməsinin xidməti sistemini yaratma
- tabeçiliyindəki idarələrin, müəssisələrin və təşkilatların fə liyyətinə rəhbərlik etmək, onların əsasnamələrini və nizamnam lərini təsdiq etmək, onların rəhbərlərini təyin etmək, maliyyə t sərrüfat fəaliyyətinin yoxlanılmasını və təftişini həyata keçirmək
- Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulm digər hüquqları həyata keçirmək.

***Azərbaycan Respublikasında gömrük sistemi***




***Sxem 5***

# Mövzu 21. Gömrük orqanlarında xidmət

## *21. L Gömrük orqanlarında xidmat anlayışı*

Azərbaycan Respublikasının gömrük orqanlarında və təşkilatla- nnda xidmətin qaydalarını və gömrük orqanlarının vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını “Gömrük orqanlannda xidmət haqqında” Əsasnamə müəyyən edir.

Gömrük orqanlarında xidmət - Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları sisteminə daxil olan gömrük orqanlarının vəzifə, funksiya və hüquqlarını Öz peşəkar fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət xidmətinin xüsusi növüdür.

Gömrük orqanlannda xidmət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və Azərbaycan Respublikasının Gömrük Məcəlləsindən, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamədən və gömrük orqanlarında xidmətin qaydalarını tənzimləyən Azərbaycan Respublikasının digər nonna- tiv hüquqi aktlarından İbarətdir.

Əsasnamədə gömrük orqanlarının vəzifəli şəxsləri dedikdə, vahid sistem təşkil edən Azərbaycan Respublikasının gömrük orqanlarında vəzifə tutan və nəzərdə tutulmuş qaydada xüsusi rütbələr verilmiş vətəndaşlar başa düşülür.

Gömrük orqanlarının vəzifəli şəxsləri üçün xüsusi geyim fonnası müəyyən edilir. Geyim formasmı, fərqlənmə nişanlanra və onlarm təchizat notmasını Azərbaycan Respublikasının Nazirlər Kabineti, onun daşınma qaydasmı isə Azəıbaycan Respublikasının Dövlət Gömrük Komitəsi müəyyən edir. Xüsusi geyim foıması pulsuz verilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinə müəyyən olunmuş nümunə əsasında xidməti vəsiqələr verilir.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada gömrük orqanlannın vəzifəli şəxsləri fiziki qüvvəni, xüsusi vasitələri və odlu silahı tətbiq etmək hüququna malikdirlər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti gömrük orqanlarında istifadə olunan xüsusi vasitələrin, habelə odlu silah və onlar üçün döyüş sursatlarının siyahısını müəyyən edir.

Gömrük orqanlarına xidmətə qəbul olunan vətəndaşlara və gömrük orqanlarının vəzifəli şəxslərinə gömrük orqanının aşağıda göstərilən xüsusi rütbələri verilir;

1) gömrük xidməti giziri;
2) gömrük xidməti baş giziri;
3) gömrük xidməti kiçik leytenantı;
4) gömrük xidməti leytenantı;
5) gömrük xidməti baş leytenantı;
6) gömrük xidməti kapitanı;
7) gömrük xidməti mayoru;
8) gömrük xidməti polkovnik-leytenantı;
9) gömrük xidməti polkovniki;
10) gömrük xidməti general-mayoru;
11) gömrük xidməti general-leytenantı;
12) gömrük xidməti general-polkovniki;
13) Azərbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri.

Gömrük orqanlarının vəzifəli şəxslərinin tutduqlan vəzifələr və bu vəzifələrə müvafiq xüsusi rütbələr aşağıdakılara bölünür;

kiçik heyət (gömrük xidməti giziri, gömrük xidməti baş giziri);

orta rəis heyoti (gömrük xidməti kiçik leytenantı, gömrük xidməti leytenantı, gömrük xidməti baş leytenantı, gömrük xidməti kapitanı);

baş rəis heyəti (gömrük xidməti mayoru, gömrük xidməti polkovnik-leytenantı, gömrük xidməti polkovniki);

ali rəis heyəti (gömrük xidməti general-mayoru, gömrük xidməti general-leytenantı, gömrük xidməti general-polkovniki, Azərbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri).

Gömrük orqanlarının vəzifəli şəxsləri pensiya almaq hüququ ilə xidmətdən azad edildikdə xüsusi rütbəyə “istefada olan” sözü əlavə olunur.

## *21.2. Gömrük orqanlarında xidmata qabul*

Gömrük orqanlannda xidmət qanunçuluq, humanizm, müvafiq dövlət hakimiyyəti orqanları qarşısında cavabdehlik, xidməti intizama və etikaya riayət, xidmət fəaliyyətinin nəticələrinə və ixtisasına görə xidməti irəliləyiş prinsipləri əsasında təşkil edilir.

Təhsil səviyyəsinə, peşəkarlığına, səhhətinə, işgüzar və mənəvi keyfiyyətlərinə görə Azərbaycan Respublikası gömrük orqanlarına həvalə edilmiş vəzifələri yerinə yetirə bİlən vətəndaşlar gömrük orqanlannm vəzifəli şəxsləri ola bilərlər.

Votondaşlann gömrük orqanlarında xidmətə qəbulu könüllülük prinsipi əsasında həyata keçirilir.

Vətəndaş gömrük orqanlarına xidmətə qəbul olunarkən aşağıdakı sənədləri təqdim edir:

1) şəxsi ərizə;
2) şəxsiyyətini təsdiq edən sənəd;
3) əmək kitabçası;
4) müvafiq təhsilə malik olmasını təsdiq edən sənəd;
5) sağlamlığının vəziyyəti haqqında tibbi arayış;
6) tərcümeyi-hal;
7) ata (ana), ər (arvad), oğul (qız), doğma qardaş (doğma bacı), yaxud himayəsində olduğu şəxslərin anadan olduğu, iş (təhsil) və yaşayış yeri haqqında məlumatlar.

Bu sənədlər və məlumatlar qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılır.

Yoxlama nəticəsində vətəndaşın gömrük orqanlarma xidmətə qəbul olunmasına maneçilik törədən hallar müəyyən olunduqda, ona gömrük orqanlanna xidmətə qəbul olunmasından imtinanın səbəbləri barəsində bh ay müddətində yazılı formada məlumat verilir.

Vətəndaş aşağıdakı hallarda gömrük orqanlannda xidmətə qəbul oluna və ya xidmət edə bilməz:

1) həkim-tibb komissiyasının rəyi əsasında sağlamlığı təsdiq olunmadıqda;

2) məhkəmənin qanuni qüvvəyə minmiş qeran ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab

3) üzorindon mohkumluğu götürülmədikdə və ya ödənilmədikde. Bir qayda olaraq **müvafiq** ali təhsilə malik olmayan, **habelə** (ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələrə xidmətə qəbul olunanlar istisna edilməklə) yaşı 30-u keçmiş vətəndaşlar gömrük orqanlarında xidmətə qəbul edilmirlər.

Gömrük orqanlarının vəzifəli şəxslərinin:

- sahibkarlıq fəaliyyəti ilə (o cümlədən vasitəçilərin köməyi llo) məşğul olmağa;
- gömrük məsələləri üzro üçüncü şəxslərin müvəkkili olmağa;
- müqavilə ilə mülki-hüquqi xarakterli gömrük işi ilə əlaqədar işləri yerinə yetirməyə;
- öz xidməti vəziyyətindən istifadə etməklə üçüncü şəxslərə Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmayan hor hansı bİr yardım göstənnək və bunun müqabilində haqq, imtiyazlar və xidmətlər əldə etməyə;
- təsərrüfat subyektlərinin idarə edilməsində bilavasitə və ya nümayəndə vasitəsilə iştirak etməyə;
- tətillərin təşkili və onların keçirilməsində iştirak etməyə;
- siyasi partiyalar yaratmağa və yaxud onların İşində iştirak etməyə;
- əvəzçilik şərti ilə istənilən haqqı ödənilən işi gönnəyə (elmi-tədris və yaradıcılıq fəaliyyətindən başqa) icazə verilmir.

Gömrük orqanlannda vəzifəyə ilk dəfə təyin edilən şəxslər üçün daxil olduqları vəzifədən və hazırlıq səviyyələrindən asılı olaraq 6 aya qədər sınaq müddəti müəyyən edilə bilər.

Sınaq müddətinin müəyyən edilməsi gömrük orqanına işə qəbula dair əmrdə göstərilir. Sınaq müddəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən qısaldıla bilər.

Gömrük orqanının vəzifəli şəxsi sınaq müddətində tutduğu vəzifəyə uyğun olaraq gömrük orqanlarının vəzifəli şəxslərinə aid olan bütün hüquqlardan istifadə edir.

Sınaq müddəti gömrük orqanının vəzifəli şəxsİnİn gömrük orqanlarındakı xidmət stajına daxil edilir, xidmət illərinə görə əlavələrin ödənişində və pensiya təyin olunarkən nəzərə alınır.

Smaq müddəti dövründə sınağın nəticəsi qənaətbəxş olmadıqda gömrük orqanının vəzifəli şəxsinin xidmətində “Gömrük orqanlannda xidmət haqqında” Əsasnaməyə uyğun olaraq xitam verilir.

Gömrük orqanlannda xidmətə qəbul zamanı rəhbər vəzifələrə təyin olunanlara və elmi dərəcəsi olan şəxslərə smaq müddəti müəyyən edilmir.

Sınağın keçirilməsi qaydası və şərtləri Azərbaycan Respublikasının Dövlət Gömrük KomİtəsI tərəfindən müəyyən edilir,

Gömrük orqanlannm vəzifəli şəxslərinin peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artınıması Azerbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Tədris müəssisəsində, Azərbaycan Respublikasmın digər təhsil müəssisələrində, habelə xarici dövlətlərin təhsil müəssisələrində müqavilə əsasında həyata keçirilir.

*21.3. Xüsusi rütbslsrin verilmə qaydası*

Gönuük orqanlarının vəzifəli şəxslərinə xüsusi rütbələr onların tutduqlan vəzifəyə uyğun olaraq verilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinə verilən xüsusi rütbələr ilkin və növbətilərə bÖlünürlər.Gömrük xidməti general-mayom və ondan yuxarı rütbələr Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilir. Gömrük orqanlarının kiçik, orta rəis və baş rəis heyəti üçün nəzərdə tutulan xüsusi rütbələr (gömrük xidməti polkovniki xüsusi rütbəsi də daxil olmaqla) Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən verilir.

Gömrük orqanlarmda gömrük orqanlarının vəzifəli şəxsinə növbəti xüsusi rütbə o, ştat üzrə tutduğu vəzifəyə görə nəzərdə tutulmuş rütbəyə uyğun olduqda və əvvəlki xüsusi rütbədə müəyyən edilmiş xidmət illəri bitdikdə verilir.

Kiçik, orta rəis və baş rəis heyəti gömrük orqanlannm vəzifəli şəxsləri üçün xüsusi rütbələrdə xidmət illəri aşağıdakı kimi müəyyən edilir:

gömrük xidməti giziri - 5 il;
gömrük xidməti kiçik leytenantı - I il;

gömrük xidməti leytenantı - 2 il;
gömrük xidməti baş leytenantı - 2 il;
gömrük xiimoti kapitanı - 3 il;
gömrük xidməti mayoru - 4 İl;
gömrük xidməti polkovnik-leytenantı - 5 il.

Gömrük xidməti baş giziri, gömrük xidməti polkovniki və daha yüksək rütbələr üçün xüsusi rütbələrdə xidmət illəri müəyyən edilmir.

Gömrük orqanlarının vəzifəli şəxsləri aşağıdakı son yaş həddinədək xidmət edirlər:

gömrük xidməti giziri, gömrük xidməti baş gizir, gömrük xidməti kiçik leytenantı, gömrük xidməti leytenantı, gömrük xidməti baş leytenantı, gömrük xidməti kapitanı - 50 yaş;

gömrük xidməti mayoru, gömrük xidməti polkovnik-leytenantı - 55 yaş;

gömıiik xidməti polkovniki, gömrük xidməti general-mayoru, gömrük xidməti general-leytenantı, gömrük xidməti general-polkovniki - 60 yaş.

Azorbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri, habelə Azərbaycan Respublikasmm Prezidenti tərəfindən vəzifəyə təyin olunan şəxslər üçün son yaş həddi müəyyən edilməmişdir.

Gömrük orqanlarının qadın vəzifəli şəxsləri öz arzuları ilə bu maddənin birinci hissəsində nəzərdə tutulan müddətlərdən 5 il az olmaqla xidmət edə bilərlər.

Gömrük orqanının vozifəli şəxsi tibbi cəhətdən yararlı olduqda “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamədə göstərilən yaş hədləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən 5 ilə qədər müddətə artırıla bilər.

Xüsusi şəxsi xidmətlərinə görə gömrük orqanmın vəzifəli şəxsinə növbəti xüsusi rütbə ona verilmiş xüsusi rütbə üçün müəyyən olunmuş xidmət illərinin yarısı keçdikdən sonra, lakin tutduğu vəzifəyə görə ştat üzrə nəzərdə tutulmuş xüsusi rütbədən bir pillə yüksək olmamaq şərti ilə vaxtından əvvəl verilə bilər.

Növbəti xüsusi rütbənin vaxtından əvvəl və gömrük orqanının vəzifəli şəxsinin tutduğu vəzifə üçün nəzərdə tutulan xüsusi rütbə

dən bir pillə yuxarı verilməsinə gömrük orqanlarında xidmət müddətində yalnız 2 dəfə yol verilə bilər.

Təhsil müəssisələrinin dinləyiciləri, adyunktlan və doktorantlan olan gömrük orqanlannın vəzifəli şəxslərinə növbəti xüsusi rütbələr onlar tədris başlayandan əvvəl ştat üzrə tutduqları vəzifələrə, təhsil müəssisəsini, adyunkturanı və doktoranturanı bitirdikdən sonra isə onlar ştat üzrə təyin olunduqlan vozifələrə uyğun olaraq verilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbədə xidmət illəri onlara bu rütbənin verildiyi gündən başlayaraq hesablanır.

Növbəti xüsusi rütbədə xidmət illəri əvvəlki xüsusi rütbədə xidmət illəri bitdiyi gündən başlayaraq hesablanır. Gömrük orqanlarının vəzifəli şəxslərinin intizam tənbehi qaydasında aşağı salınmış xüsusi rütbədə xidmət müddəti, bərpa olunmuş xüsusi rütbədə xidmət illərinə əlavə edilmir.

Barəsində cinayət işi qaldırılan və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan gömrük orqanlarının vəzifəli şəxslərinə növbəti xüsusi rütbə müvafiq olaraq cinayət işinə bəraət qazandıran əsaslarla xitam verilənə və ya xidməti araşdırma qurtarana qədər verilmir.

Gömrük orqanının vəzifəli şəxsinə növbəti xüsusi rütbənin verilməsinin əsassız gecikdirilməsi müəyyən olunduqda, həmin şəxsin növbəti xüsusi rütbə alması üçün xidmət illəri onun əvvəlki xüsusi rütbədə xidmət illərinin bitdiyi vaxtdan başlayaraq hesablanır.

Gömrük xidməti polkovniki, gömrük xidməti polkovnik-leytenantı və gömrük xidməti mayoru, habelə gömrük xidməti kapitanı, gömrük xidməti baş leytenantı, gömrük xidməti leytenantı xüsusi rütbələri olan gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələri onlar xidməti vəzifələrini yerinə yetirərkən xidməti intizam qaydalarını pozduqlarına görə aşağı salına bilər.

Xüsusi rütbənin aşağı salınması haqqında qərar yol verilmiş pozuntular üzrə xidməti araşdınnanı aparmış müvafiq orqanın rəyi əsasında qəbul edilir.

Xüsusi rütbəsi aşağı salınmış gömrük orqanının vəzifəli şəxsinin attestasiyasının nəticələri müsbət olduqda o, ştat üzrə tutduğu

Bu maddənin birinci hissəsində göstərilmiş gömrük orqanının vəzifəli şəxsinin əvvəlki xüsusi rütbəsinə bərpası məsələsi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən həll olunur.

İntizam tənbehi edilmiş gömrük orqanının vəzifəli şəxsinə növbəti xüsusi rütbə, həmin şəxsin üzərindən intizam tənbehi götürülənədək verilinir.

Gömrük orqanlarının vəzifəli şəxsləri, habelə istefada olan vəzifəli şəxslər törətdikləri cinayətə görə ancaq məhkəmənin qərarı ilə xüsusi rütbədən məhrum edilə bilərlər.

Gömrük orqanlannm ali reis heyəti üçün nəzərdə tutulan vəzifələrin vo bu vəzifələrə uyğun xüsusi rütbələrin siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur.

Gömrük orqanlannm kiçik heyət, orta rəis heyəti ve baş rəis heyəti üçün nəzərdə tutulan vəzifələrin və bu vəzifələrə uyğun xüsusi rütbələrin siyahısı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq olunur.

Gömrük orqanlannm vəzifəli şəxslərinə xüsusi rütbələrindən asili

*2L4. Gömrük orqanlarında Jodmst*

Gömrük orqanlannm vəzifəli şəxsləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və beynəlxalq müqavilələrinə, digər nonnativ hüquqi aktlanna, habelə “Gömrük orqanlannda xidmət haqqında” Əsasnaməyə uyğun olaraq öz səlahiyyətləri daxilində vəzifələr yerinə yetirir və müəyyən hüquqlardan istifadə edirlər. Gömrük orqanının vəzifəli şəxsinin aşağıdakı hüquqları vardır: gömrük orqanında tutduğu vəzifəyə dair hüquq və vəzifələrini müəyyən edən sənədlərlə tanış olmağa;

müəyyən edilmiş qaydada xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri olan məlumat və sənədlər almağa;

xidməti vəzifələrini yerinə yetirmək üçün mülkiyyət formasından asılı olmayaraq müəssisələrə getməyə;

xidməti vəzifələrinə uyğun olaraq qərarlar qəbul etməyə və ya onların hazırlanmasında iştirak etməyə;

xidmәt illәrinә görә, xidmәtin nәticәlәri vo ixtisasının sәviyyәsi nәzәrә alınmaqla, әmәk haqqının artırılmasına vә gömrük orqanlarında xidmәt üzrә irәlilәmәyә;

şәxsi işindә olan materiallarla tanış olmaq vә zәruri hallarda öz izahatlarım şәxsi işә әlavә etmәyә;

Azәrbaycan Respublikasının Dövlәt Gömrük Komitәsinin saxlanılması üçün nәzәrdә tutulan vәsaitlәr hesabına öz ixtisasını artırmağa vә tәkmillәşdirmәyә;

xidmәt illәri nәzәrә alınmaqla pensiya tәminatına; şәrәf vә lәyaqәtini alçaldan mәlumatların tәkzib edilmәsi üçün xidmәti araşdırmalann aparılmasını tәlәb etmәyә; hәmkarlar ittifaqlarına birlәşmәyә;

gömrük orqanlarının vәzifәli şәxslәrinin iclaslarında iştirak etmәyә;

Azәrbaycan Respublikasının Gömrük Mәcәllәsindә nәzәrdә tutulmuş hallarda vә qaydada fiziki qüvvәni, xüsusi vasitәlәri vә odlu silahı tәtbiq etmәyә.

Gömrük orqanlannm vәzifәli şәxslәrinin Azәrbaycan Respublikasmın qanunvericiliyindә nәzәrdә tutulan digәr hüquqları da vardır.
Gömrük orqanının vәzifәli şәxsi aşağıdakıları etmәyә borcludur:
Azәrbaycan Respublikasının Konstitusiyasına, qanunlarına vә digәr normativ hüquqi aktlarına riayәt edilmәsini tәmin etmәk;

fiziki vә hüquqi şәxslәrin hüquqlarının vә qanuni maraqlarının müdafiәsini tәmin etmәk;

gömrük orqanlarının rәislәrinin sәlahiyyәtlәri çәrçivәsindә verdiklәri әmr vә sәrәncamlarını yerinә yetirmәk;

xidmәti vәzifәlәri hüdudlannda fiziki vә hüquqi şәxslәrin müraciәtlәrinә vaxtında baxmaq;

gömrük orqanlannda müәyyәn edilәn daxili intizam vә xidmәti informasiya ilә rәftar qaydalarını gözlәmәk, vәzifә tәlimatlannı yerinә yetirmәk;

dövlәt sirrini vә qanunla qorunan diger sirlәri qorumaq, xidmәti vәzifәlәrim yerinә yetirәrkәn ona mәlum olmuş mәlumatları açıqlamamaq.

Gömrük orqanının vəzifəli şəxsinin tuiduğu vəzifəyə daİr vəzifə borcları vəzifə təlimatları ilə müəyyən edilir.

Vəzifə tolimatlarının hazırlanması və təsdiq edilməsi qaydaları Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən edilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinin xidməti vəzifələrinin icrasına, həmçinin, aşağıdakılar daxildir;

gömrük orqanlarının rəhbərləri tərəfindən təsdiq olunmuş planlara uyğun olaraq keçirilən təlimlərdə, toplanışlarda, yarışlarda və
digər tədbirlərdə iştirak etmok;

xidmət yerinə getmək və qayıtmaq, xidməti ezamiyyətdə olmaq;

müalicədə olmaq, müalicə yerinə getmək və qayıtmaq;

xidməti vəzifələrinin yerinə yetirilməsi İlə əlaqədar vətəndaşların həyat, sağlamlıq, şərəf və ləyaqətinin qorunması, habelə öz şəxsi təhlükəsizliyinin təminatı üzrə hərəkətlər.

Gömrük orqanlannm vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən dövlət nümayəndəsi kimi təmsil olunur və dövlətin mühafizəsi altında olurlar. Qanunla səlahiyyət verilmiş müvafiq orqanlar və vəzifəli şəxslər istisna olmaqla, onlann foaliyyətinə heç kəsin müdaxilə etmək hüququ yoxdur.

Gömrük orqanlannm vəzifəli şəxslərinin vəzifəyə təyin olunması zamanı onların öz əsas ixtisası, yaxud ona yaxın olan ixtisas sahəsi üzrə yenidən hazırlığı aparıla bilər.

Təşkilati-ştat tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar vəzifədən azad olunmuş gömrük orqanının vəzifəli şəxsi 3 ay müddətinə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi qaydada əmək haqqı saxlanılmaqla həmin orqanın sərəncammda saxlanıla bilər. Bu müddətə gömrük orqanının vəzifəli şəxsinin xəstə, növbəti və əlavə məzuniyyətlərdə olduğu müddət daxil edilmir. Müstəsna hallarda bu müddət bir ilədək müddətə uzadıla bilor.

Gömrük orqanlarında xidmətə qəbul edilmiş vətəndaşlar ilkin xüsusi rütbəni aldıqdan sonra iki aydan gec olmayaraq Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulan məzmunda

Andiçmo mərasimi Azərbaycan Respublikasının Dövlət Göm* rük Komitəsinin müəyyən etdiyi qaydada keçirilir.

Gömrük orqanının vəzifəli şəxsinin həmin gömrük orqanında, həmin yerdə yerləşən digər gömrük orqanına və ya digər yerə xidmətə keçirilməsinə gömrük orqanının vəzifəli şəxsinin razılığı əsasında yol verilir.

Gömrük orqanlarının vəzifəli şəxsləri xidmət üzrə aşağıdakı hallarda başqa işə keçirilirlər;

1) vəzifəli şəxs yüksək vəzifəyə keçirildikdə;

2) vəzifəli şəxsdən daha məqsədyönlü şəkildə istifadə etmək üçün və ya ailə vəziyyətinə, sağlamlığına və ya yaş həddinə görə, digər vəzifəyə keçirildikdə;

3) Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının göndərişi əsasında ali məktəblərin əyani şöbələrinə qəbul olunmuş və bununla əlaqədar vəzifədən azad edilmiş şəxslər, həmin tədris müəssisələrini bitirdikdən sonra başqa vəzifəyə təyin olunduqda.

Gömrük orqanının vəzifəli şəxsinin xidmət üzrə başqa işə keçirilməsi keçirilməyə əsas göstərilmoklə omr ilə rəsmiləşdirilir. Əmr gömrük orqanının vəzifəli şəxsinə onun imzası aimmaqla elan olunur.

15 il və daha çox xidmət illəri olan gömrük orqanlarının vəzifəli şəxsləri ştatların ixtisan və ya səhhətlərinə görə az maaşlı vəzifəyə keçirilərkən onların əvvəlki vəzifə maaşları saxlanılır.

Barəsində cinayət işi qaldırılan, habelə xidməti vəzifələrini yerinə yetirərkən kobud pozuntulara yol verən gömrük orqanının vəzifəli şəxsi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi qaydada, istintaq və ya xidməti araşdınna başa çatana qədər tutduğu vəzifədən müvəqqəti olaraq kənar edilir. Vəzifədən müvəqqəti kənar edilən gömrük orqanının vəzifəli şəxsinin həmin müddət ərzində əmək haqqı saxlanılmır.

Gömrük orqanlarının vəzifəli şəxsləri digər hüquq-mühafizə orqanlanna xidmətə keçirilərkən onların gömrük orqanlannda xidmət illəri göstərilən orqanlarda xidmət illərinə daxil edilir və daşıdıqları rütbələr saxlanılır.

Digor hüquq-mühafizə orqanlanndan gömrük orqanlannda xidmətə qəbul edilmiş vəzifəli şəxslərin həmin orqanlarda xidmət illori vo daşıdıqları rütbələr saxlanılır.

Gömrük orqanının vəzifəli şəxsinin və onun ailəsinin, habelə əmlakının yeni xidmət yerinə daşınması Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada gömrük orqanlannın saxlanması üçün aynl- mış vəsait hesabına həyata keçirilir.

Müharibə dövründə və fövqəladə vəziyyət elan olunan yerlərdə gömrük orqanlarının vəzifəli şəxslərinin xidmətlərinin xüsusiyyətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq müəyyən edİIir.

Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada gömrük orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının dövlət hakimiy- yoti orqanlarına və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlara ezam oluna bilərlər.

Təhsil müəssisələrində gömrük orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən qəbul edilən normativ hüquqi aktlara müvafiq olaraq həyata keçirilir.

*2LS, Xidməti intizam*

Gömrük orqanlarında xidməti intizam gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən onlara həvalə olunmuş vəzifələrin icrasından və oz səlahiyyətlərini həyata keçirən zaman Azərbaycan Respublikasının qanunvericiliyinə, vəzifə təlimatlanna, habelə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin və bilavasitə tabe olduqları rəislərin əmr və göstərişlərinə əməl etməkdən ibarətdir.

Gömrük orqanlarının nümunəvi daxili intizam qaydalan Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti

Xidmətdə yüksək müvəffəqiyyətlərə, uzun müddət qüsursuz xidmətə və digər nailiyyətlərə görə gömrük orqanlannm vəzifəli şəxsləri barədə aşağıdakı həvəsləndirmə tədbirləri görülür:

1) təşəkkür elan edilməsi;
2) pul və ya qiymətli əşya ilə mükafatlandınıması;
3) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəxri fərmanı ilə təltif edilməsi;
4) növbəti xüsusi rütbənin vaxtından əvvəl verilməsi;
5) təltif silahının verilməsi;
6) növbəti xüsusi rütbənin tutduğu vəzifə üçün nəzərdə tutulandan bir pillə yuxan verilməsi;
7) tətbiq edilmiş intizam tənbehinin vaxtından əvvəl geri götürülməsi.

Təltif silahı ilo mükafatlandırma Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanının qərarı əsasında həyata keçirilir.

Gömrük orqanlarının vəzifəli şəxsləri xidməti vəzifələrini layiqincə yerinə yetirdiyinə, Azərbaycan Respublikasının iqtisadi maraqlarının qorunmasında xüsusi xidmətlərinə, qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə, habelə sair fərqlənmələrə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim otuna bilərlər.

Gömrük orqanının vəzifəli şəxsi xidməti intizam qaydalannı pozduqda ona aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

1) irad;
2) töhmət;
3) sonunçu xəbərdarlıqla şiddətli töhmət;
4) 6 ay müddətinə aşağı vəzifəyə keçirilmə;
5) xüsusi rütbənin bir pillə aşağı salınması;
6) gömrük orqanlannda xidmətinə xitam verilməsi.

İntizam tənbehinin qüvvədə olduğu müddətdə gömrük orqanlannın vəzifəli şəxslərinə həvəsləndirmə tədbirləri tətbiq edilə bilməz.

İntizam tənbehi verilərkən gömrük orqanınm vəzifəli şəxsinin əvvəlki peşəkarlıq səviyyəsi və xidmətə münasibəti, törətdiyi xətanm

ağırlığı vo xarakteri, xətanın törədildiyi zaman mövcud olmuş hallar nozoro alınmalıdır. İntizam tənbehi verilmoıni̇şdon owol gömrük orqanının vozifolİ şoxsindən yazılı izahat təlob edilməlidir. Zəruri hallarda izahatda göstərilən məlumatların yoxlanılması həyata keçirilir vo bu yoxlamanın nəticəsindən asılı olaraq qərar qəbul edilir.

Gömrük orqanının vəzifəli şəxsinin yazılı izahat verməkdən imtina etməsi ona intizam tənbehi verilməsini istisna etmir.

İntizam tənbehi, intizam tənbehini tətbiq etməyə səlahiyyəti olan gömrük orqanının müvafiq vəzifəli şəxsino xidməti intizamın pozulduğu məlum olduğu andan 20 gün keçənədək, xidməti araşdırmanın aparılması, cinayət işi və ya inzibati hüquq pozuntusu barədə işin qaldırılması hallarında isə - müvafiq olaraq araşdırmanın qurtardığı, səlahiyyətli orqan və ya vəzifəli şəxs tərofındən inzibati və ya cinayət işinə baxılması vo onun barəsində son qərar qəbul edilməsi günündən etibarən bir ay keçənədək verilə bilər.

İntizam tənbehi, intizam xətası törətmiş gömrük orqanının vəzifəli şəxsinin xəsto olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu müddət, habelə törədilmiş xətadan altı ay, müvafiq təftiş və ya yoxlamanın nəticələrinə görə isə onun törədildiyi gündən 2 ildən artıq vaxt keçdikdən sonra tətbiq oluna bilməz. Gömrük orqanının vəzifəli şəxsinin məzuniyyətdə, ezamiyyətdə və xəsto olduğu vaxt, habelə cinayət vo ya inzibati hüquq pozuntusu işi üzrə icraat vaxtı bu müddətə daxil edilmir.

İntizam tənbehinin verilməsi əmrlə rəsmiləşdirilir. Əmr, törədilmiş xətanın səbəbləri göstərilməklə tənbeh verilmiş gömrük orqanının vəzifəli şəxsino elan olunur və bu barədə ona imza etdirilir.

Gömrük orqanının vəzifəli şəxsinə verilmiş intizam tənbehi, əgər altı ay müddətində ona yeni intizam tənbehi tətbiq olunmamışsa. onuıı üzərindən götürülür və o tənbeh almamış hesab olunur.

İntizam tənbehi tətbiq edilmiş gömrük orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, habelə məhkəməyə şikayət etmək hüququna malikdirlər.

Həvəsləndirmə tədbirləri və intizam tənbehləri birbaşa rəislər tərəfindən onların səlahiyyətləri daxilində tətbiq olunur. Birbaşa

rəislor gömrük orqanlarının vazifəli şo\slərinin xidmət üzrə, o cümlədən müvəqqəti olaraq tabe olduqları rəislərdir.

Həvəsləndirmə tədbirlərini və intizam tənbehi tətbiq etmək hüquqları olan şəxslərin siyahısı Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Gömrük orqanının vəzifəli şəxsinə onun birbaşa rəisinin səlahiyyətlərinə daxil olmayan həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq etmək lazım gələrsə, bu zaman Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı qarşısında həmin rəis tərəfindən vəsatət qaldırılır.

Gömrük orqanlannın rəisləri həvəsləndinnə tədbirlərinin və intizam tənbehlərinin tətbiqi üzrə onlara verilmiş səlahiyyətləri

### 2/.6L *Gömrük orqanİannda xidm9tin şBrthri*

Gömrük orqanlannın vəzifəli şəxslərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tam iş vaxtı şamil edilir.

Xidmət şəraitindən asılı olaraq gömrük orqanlarının vəzifəli şəxslərinin bəzi kateqoriyalarına qısaldılmış iş vaxtı müəyyən edilə bilər. Belə vəzifəli şəxslərin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Müstəsna hallarda gömrük orqanlarının vəzifəli şəxsləri öz xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar Azərbaycan Respublikasının əmək qanunvericiliyi İlə nəzərdə tutulan qaydada iş vaxtından artıq işlərə, həmçinin gecə vaxtı, bayram və istirahət günlərində işə cəlb oluna bilərlər.

Belə hallarda onların əməyi Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilir.

Gömrük orqanlannın vəzifəli şəxsləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada boş vəzifəni müvəqqəti icra etməyə görə əlavə əmək haqqının

Gömrük orqanlannın vəzifəli şəxslərinə aşağıda göstərilən məzuniyyətlər verilir:

1) hər İl verilən əsas məzuniyyət;
2) əlavə məzuniyyətlər;
3) sosial məzuniyyətlər;
4) təhsil almaq və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil vo yaradıcılıq məzuniyyəti;
5) ödənişsiz məzuniyyət.

Məzuniyyət müddəti təqvim günü ilə hesablanır.

Gömrük orqanlarının vəzifəli şəxslərinə Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilo müəyyən olunmuş qaydada və müddətdə illik əsas məzuniyyət verilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinə sosial, yaradıcılıq və təhsil, habelə ödənişsiz məzuniyyətlərin verilmə qaydası və onların müddəti Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

Xidmət illərinə görə əlavələrin verilmə qaydası Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən olunur, gömrük orqanlarının vəzifəli şəxslərinin sosial-məişət və tibbi təminatı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin vəsaiti hesabına həyata keçirilir.

Gömrük orqanlanna xidmətə qəbul ilə əlaqədar, həmçinin gömrük orqanlarının vəzifəli şəxslərinə və onlann ailələrinə tibb müəssisələrində tibbi komissiyalar tərəfindən tibbi xidmətin göstərilməsi kompensasiya əsasında heyata keçirilir və çəkilən xərclər Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən ödənilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinin dövlət tərəfindən icbari şəxsi sığortalanması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Xidməti vəzifələrinin yerinə yetirilməsi ile əlaqədar gömrük orqanının vəzifəli şəxsi həlak olduqda, habelə sonrakı peşə fəaliyyəti ilə məşğul olmaq imkanından məhrum edən bədən xəsarəti və digər bədən xəsarəti aldıqda, əmlakına zərər vurulduqda ona birdəfəlik müavinətin verilməsi və maddi zərərin ödənilməsi Azər-

baycan Respublikasının hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Ali məktəblərin axşam və qiyabi şöbələrində təhsilini davam etdirən gömrük orqanlarının vəzifəli şəxslərinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada güzəştlər verilir.

Gömrük orqanlarının vəzifəli şəxslərinin və onların ailə üzvlərinin gömrük orqanlannm tibb müəssisələrində, eləcə də Azərbaycan Respublikasının digər hüquq-mühafizə orqanlannm tibb müəssisələrində Azərbaycan Respublikasmın gömrük işini aparan icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada, gömrük sisteminin müvafiq fondunun vəsaitləri hesabına tibbi təminat almaq hüquq lan vardır.

Gömrük orqanlannm, vəzifəli şəxslərinin xidmət etdikləri və ya yaşadıqları yerlərdə Azərbaycan Respublikasının gömrük sisteminin tibb müəssisələri olmadığı hallarda onlara və onlann ailələrinə dövlət tibb müəssisələrində tibbi yardım göstərilir.

Müalicəyə sərf olunan vəsaitlər səhiyyə müəssisələrinə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin vəsaiti hesabına ödənilir.

Gömrük orqanlarında xidmət etmiş vəzifəli şəxslərin və onlann ailə üzvlərinin pensiya təminatı “Hərbi qulluqçulann pensiya təminatı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Gömrük orqanlarmın vəzifəli şəxslərinin və onlann ailə üzvlərinin pensiya təminatının təşkili Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilir.

### *2L 7. Gömrük orqanlarının vazifoU şoxshrinin attestasiyası*

Kadrlann düzgün seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi məqsədi ilə gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyası keçirilir.

Attestasiya zamanı hər bir gömrük orqanınm vəzifəli şəxsinin işgüzar və mənəvi keyfiyyətlərinin obyektiv qiyməti verilir, tutduğu vəzifəsinə uyğunluğu və onun xidməti istifadəsinin perspektivi

müəyyənloşdirilir, xidmətdə irəli çəkilmək və təhsil almağa göndərmək üçün namizədlərin ehtiyatı aşkar edilir.

Gömrük orqanlannın vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi qaydası Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilən Əsasnamə ilə müəyyən edilir.

Yalnız müvafiq vəzifələrdə azı bir il çalışan gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyası keçirilə bilər. Hər bir gömrük orqanının vəzifəli şəxsinin üç ildən bir dəfədən çox olmayaraq attestasiyası keçirilə bilər.

Gömrük orqanlannın vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin nozdindo attestasiya komissiyası yaradılır. Attestasiya komissiyasının tərkibi və səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə (sərəncamla) müəyyən edilir.

Attestasiya komissiyası kollegial orqandır. O, azı beş nəfərdən ibarət olmaqla bütün hallarda onun say tərkibi tekrəqəmli olmalıdır. Attestasiya komissiyasının işi aşkarlıq şəraitində, obyektiv, qərəzsiz və qanunvericiliyin tələblərinə əməl edilməklə aparılmalıdır.

Attestasiya komissiyası bütün baxılan məsələlər üzrə əsaslandı-nlmış qərar qəbul edir və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin təsdiqinə təqdim edir.

Attestasiya komissiyası gömrük orqanının vəzifəli şəxsinin tutduğu vəzifəyə uyğun olduğu və ya uyğun olmadığı haqqında iki qərardan yalmz birini qəbul edir. Bununla yanaşı attestasiya komissiyası bu qərarında gömrük orqanının vəzifəli şəxsinin başqa vəzifədə istifadə edilməsinin məqsədə müvafıqliyi barədə tövsiyə verə bilər.

### *21.8. Gömrük orqanlannın vonfoli şaxslorinin*

Gömrük orqanının vəzifəli şəxsinin xidmətinə aşağıda göstərilən hallar əsasında xitam verilə bilər:

1) öz təşəbbüsü ilə;

2) “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin 27-ci maddəsində nəzərdə tutulmuş yaş həddinə çatdığına görə;

3) pensiyaya çıxmaq hüququ veron xidmət illərinə görə;

4) təşkilati'Ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar, vəzifəli şəxsin gömrük orqanlarında digər vakant vəzifəyə keçirilməsi qeyri-mümkün olduqda və ya göstərilən vəzifəli şəxs belə vəzifəyə keçirilmədən imtina etdikdə;

5) vəzifəli şəxsin gömrük orqanlarında xidmətə yararsız olması barədə müvafiq tibb komissiyasının rəyinə əsasən xəstəliyə görə;

6) müvafiq tibb komissiyasının qərarı əsasında səhhətinin vəziyyətinə görə gömrük orqanlarında xidmət etmək üçün məhdud yararlı olduqda, əgər vəzifəli şəxsin gömrük orqanlarında səhhətinin vəziyyətinə dair tələblərə uyğun olan digər vakant vəzifəyə keçirilməsi qeyri-mümkün olduqda və ya belə vəzifəyə keçirilmədən göstərilən şəxs imtina etdikdə;

7) tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə attestasiya komissiyasının qoran olduqda, əgər vəzifəli şəxsin gömrük orqanlarında onun ixtisasına uyğun olan digor vakant vəzifəyə keçirilməsi qeyri-mümkün olduqda və ya belə vəzifəyə keçirilmədən göstərilən şəxs imtina etdikdə, habelə sınağın nəticəsi qənaətedici olmadıqda;

8) xidməti intizamı bir dəfə kobud surətdə pozduqda və ya xidməti vəzifələrini müntəzəm surətdə yerinə yetirmədikdə;

9) Azərbaycan Respublikasının əmək qanunvericiliyinə müvafiq olaraq tərəflərin iradəsindən asılı olmayan hallarda;

10) Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə.

Gömrük orqanının vəzifəli şəxsi əmək qabiliyyətini müvəqqəti itirdiyi dövrdə, habelə məzuniyyətdə və ezamiyyətdə olduğu vaxt ərzində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə onun xidmətinə xitam verilməsinə yol verilmir.

Gömrük orqanlannda pensiya almaq hüququ ilə xidmətlərinə xitam verilmiş gömrük orqanlarının vəzifəli şəxslərinə geyim formasını daşımağa icazə verilir.

Gömrük orqanlarında xidmətə gömrük orqanının vəzifəli şəxsinin təşəbbüsü ilə xitam verildikdə o, bir ay qabaqcadan bu barədə birbaşa tabe olduğu rəisi yazılı surətdə xəbərdar etməlidir.

Gömrük orqanlannın vəzifəli şəxslərinin xidmətinə “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin 120-ci maddəsinin

birinci hissəsinin 2-6-cı bəndlərində nəzərdə tutulan əsaslarla xitam verildikdə onlara xidmət illərindən asılı olaraq aşağıda göstərilən miqdarda birdəfəlik müavinət verilir:

1) 10 ilə qədər - aylıq vəzifə maaşının S mislində;
2) 10 ildən 15 ilə qədər - aylıq vəzifə maaşının 10 mislində;
3) 15 ildən 20 ilə qədər - aylıq vəzifə maaşının 15 mislində;
4) 20 ildən yuxarı - aylıq vəzifə maaşınm 20 mislində.

“Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin 125-ci maddəsində göstərilən əsaslarla xidmətlərinə xİtam verilmiş və 15 ildən az xidmət illəri olan gömrük orqanlarının vəzifəli şəxslərinə xidmətlərinə xitam verildikdən sonra 1 il müddətində aylıq vəzifə maaşı məbləğində aylıq müavinət verilir.

Gömrük orqanlarında xidmətinə xitam verilməsi və ya başqa vəzifəyə keçirilməsi barədə qərarla razı olmayan gömrük orqanının vəzifəli şəxsinin həmin qərardan Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə və (və ya) məhkəməyə şikayət vermək hüququ vardır.

Gömrük orqanlannda vəzifəyə bərpa olunmaq üçün əsas Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin qərarı və ya qüvvəyə minmiş məhkəmə qərarıdır.

Gömrük orqanlannm vəzifəli şəxslərinin vəzifəyə bərpası onla-nn əvvəllər tutduqları vəzifəyə bərabər olan vəzifəyə və ya onlann razılığı ilə digər vəzifəyə təyin olunmaq yolu ilə həyata keçirilir.

Gömrük orqanının vəzifəli şəxsinin gömrük orqanlannda vəzifəyə bərpa edilməsi barədə Azərbaycan Respublikasımn gömrük işini aparan icra hakimiyyəti orqanının və (və ya) məhkəmənin qə- ran dərhal icra olunmalıdır.

Xidmətinə xitam verildiyi gündən bərpa olunma gününə kimi keçmiş müddət gömrük orqanlannda xidmətə bərpa edilmiş gömrük orqanının vəzifəli şəxsinin xidmət illərinə daxil edilir və bu müddət üçün ona çatası olan əmək haqqı ödənilir.

Gömrük orqanlarının maliyyələşdirilməsi Azərbaycan Respublikasının gömrük qanunvericiliyi ilə müəyyən edilmiş mənbələrdən yaranan gömrük sisteminin büdcədənkənar inkişaf fondu və dövlət büdcəsi ilə nəzərdə tutulan vəsaitlər hesabına həyata keçirilir.

öz xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar həlak olan, yaxud xidməti başa vurduqdan sonra gönmik orqanlarında xidmət zamanı aldıqlan yaralanma, kontuziya və xəstəlik nəticəsində vəfat edən, həmçinin 20 il və daha çox (təqvim ili hesabı ilə) xidmət etmiş gömrük orqanlannın vəzifəli şəxslərinin dəfni və bununla əlaqədar xərclər Azərbaycan Respublikasmm gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən apanlır.

# MÖVZU 22. Gömrük orqanları sistemində idarəetmə prosesi

## *22.1. İdar3€tm9 prosesinin mahiyyəti V3 məzmunu*

İdaroetmə sisteminin mühüm komponenti idarəetmə prosesidir. İdarəetmə prosesi müvafiq idarəetmə metodlanndan və prinsiplərindən istifadə edilməklə müəyyən funksiyalan reallaşdırmaq yolu İlə sistemdə birləşdirilmiş idarəetmə subyektlərinin (xətti və funksional rəhbərlərin, eləcə də digər idarəçilik heyətinin) idarə edilən obyektin keyfiyyət vəziyyətlərinin dəyişdirilməsinə, kollektivin məqsədlərinin əldə edilməsinə yönəldilmiş fəaliyyətidir.

İdarəetmə prosesi metodoloji, funksional, iqtisadi, toşkilati, sosial vo infonnasiya aspektlərinin seçildiyi spesifik məzmunu ilə fərqlənir.

Metodoloji aspekt ondan ibarətdir ki, idarəetmə prosesi mərhələlər üzrə müəyyən ardıcıllıqla: məqsədi gümanetmə, vəziyyəti qiymətləndirmə, problemi müəyyən etmə, idarəçilik qərarını hazırlama üzrə reallaşdırılır.

Məqsəd - idarə edilən sistemin necə olması barədə gömrük orqanı rəhbərinin təsəvvürüdür.

İdarəçilik şəraiti - konkret idarəetmə sahəsində müəyyən zamanda meydana çıxan və rəhbərin müvafiq hərəkətini tələb edən bütün (daxili və xarici, obyektiv və subyektiv) şərtlərin məcmusudur.

Sadə və mürəkkəb; yaxşı nəzərdən keçirilə bilən və çətin təhlil edilən; qısamüddətli, uzunmüddətli, qlobal, qismən, kompleks hərəkətlər və ya birdəfəlik tədbirlər tələb edən idarəçilik situasiyaları olur.

Problem - situasiya (vəziyyət) vo məqsəd arasında əsas ziddiyyətdir. Əsas ziddiyyətin həll edilməsi avtomatik olaraq bütün qalan ziddiyyətlərin həlli ilə nəticələnir. Problemin xülasəsi qərann işlənib hazırlanmasını müəyyən edir.

İdaıəçilik qərannın hazırlanması - problemin bəlli yollannın axtarışı, eləcə də tapılmış yolun praktiki reallaşdınıması ilə bağlı təşkilat! işdir.

Funksional aspekt ümumi idarəetmə lıınksiyalannın müəyyən ardıcıllıqla reallaşdırılmasıdır.

İqtisadi aspekt idarə edilən sistemin resurslannın tələbatım müəyyən etməklə və onlardan istifadəm qiymətləndirməklə bağlı idarə edən sistemin fəaliyyəti ilə müəyyənləşdirilir.

Təşkilat! aspekt təşkilatı - sərəncamverici metodlardan idarə edilən sistemə nizamlama, normalaşdırma, təlimatiandırma və məsuliyyət ardıcıllığı ilə istifadə edilməsindən ibarətdir.

İdarəetmə prosesinin sosial aspekti idarəetmənin avtomatlaşdırılmasmın bu və ya digər dərəcəsindən asılı olmayaraq onun bütün mərhələlərində insanın iştirakı ilə müəyyən edilir.

İnformasiya aspekti idarəetmə prosesində informasiyanın şəklini dəyişməsi Ü2TƏ əməliyyatlann müəyyən ardıcıllığından ibarətdir (informasiyanın axtarışı, toplanması, çeşidlənməsi, ilkin işlənməsi və Ötürülməsi).

İdarəetmə prosesinə xas olan bütün çoxsaylı əməliyyatları aşağıdakı şəkildə qruplaşdırmaq olar: məqsədi müəyyənetmə (gümanetmə) əraəliyyatlan; informasiya işi əməliyyatları, analitik iş və qərar variantlarının layihələndirilməsi əməliyyatları, fəaliyyət variantını seçmə əməliyyatları, təşkilati-təcrübi iş əməliyyatları əməliyyatların idarəetmə mərhələləri və sadalanan qruplar üzrə bölgüsü cədvəldə verilmişdir.

### *Gömrük orqanlarında moqsodin müoyyon edilmosi*

Gömrük orqanlannin idarə edilməsinin ümumi və konkret məqsədləri Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan prezidentinin, hökumətinin və həmçinin, DGK-ntn digər qanunvericilik və hüquqi normativ sənədlərində müəyyən edilmişdir.

Məqsəd nəzəri cəhətdən əsaslandırılmış, müəyyən edilmiş, kəmiyyətçə ölçülə bilən, aydın, mənalı və əldə edilə bilən olmalıdır.

Müəyyən idarəetmə situasiyasında məqsədin məzmun əsası daha yüksək idarəetmə pilləsinə nail olmaq məqsədi, yəni idarəetmənin daha yüksək səviyyəsini əldə etmək məqsədi olmalıdır.

Gömrük fəaliyyəti ölkənin daxili və xarici siyasətinin qovuşuğunda yerləşir və onun ən mühüm sosial-iqtisadi ve xarici iqtisadi proqramlarının və planlarının icra edilməsi ilə birbaşa əlaqəlidir. Gömrük orqanları sistemində idarəetmənin başlıca məqsədi, yəni strateji idarəetmənin məqsədi Azərbaycan Respublikasının iqtisadi siyasətinin reallaşdırılmasını təmİn etməkdir. İndiki zamanda bu, məqsədyönlü xidməti fəaliyyətin keçid dövründə əldə edilməsinin arzu olunan nəticəsidir.

İdarəetmənin bu məqsədinin əldə edilməsi büdcə gəlirlərinin formalaşdırılması üzrə əsas flskal orqan kimi gömrük orqanına verilən tapşırıqların icrası ilə; hüquq mühafizə orqanı kimi gömrük xidmətinin rolunun artın İması ilə; Azərbaycan gömrük xidmətinin digər dövlətlərin gömrük xidmətləri ilə inteqrasiyasının möhkəmləndin Imosi üzrə iş ilə; gömrük xidməti əməkdaşlannm sosial tələbatlarının daha da təmin edilməsi ilə bağlı müvafiq kompleks vəzifələrinin həll olunması ilə reallaşdırılır.

*Cədvəl 4*

*İdarəetmə prosesində əməUyyatlarm bölgüsü*

| ***İäarsetma markəMm*** | ***Əmftiyyat aruptan*** | ***Əm»liyyatlfirın tarkibi*** |
|---|---|---|
| ***i*** | ***2*** | ***3*** |
| Məqsədi mnəyyənetmə (]{üiiMiıclnıə) | Məqsədi müəyyənetmə (gümanetmə) | 1. Məqsədin təyin edilməsi<br>2. Məqsədin xülasə edilməsi<br>3. Məqsədin qoyuluşu<br>4. Məqsədin təshih edilməsi |
| Əməliyyat-xidməti şərait situasiyasının öyrənilməsi, təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılması | İnformasiya işi | 1. İnformasiyanın toplanması<br>2. İnformasiyamn saxlanması<br>3. İnfurraasiya axtarışı<br>4. İnformasiyanın ilkin işlənməsi |
| Həlli tələb olunan gömrOk işi problemlərinin aşkar edilməsi | Analitik iş | ) ■ Panunelrlori qiymətləndirmə<br>2. Göstəriciləri hesablama<br>3. Qrafik işlənmə<br>4. Təhlil |

| | | |
|---|---|---|
| Problemin həHi, nəzarət, uçot və | Fəaliyyət avri-antını seçmə (qararlan hazır< lama) | 1. Fəaliyyət variantlannın tapılması<br>2. Seçim meyarlarını təyinetmə<br>3. Variantları tutuşdurma<br>4. İdarəetmə metodlannı seçmə<br>5. Qərarın təskiləti rəsmiləşdiril-məsi<br>6. Qərann qəbulu |
| | Problemin həlli üzrə təşkilati-təeriibi iş | Qərarların icraçılara çatdınıması<br>2. Qərarların izahı və dəqiqləşdirilməsi<br>3. Vəzifələrin bölüşdürülməsi<br>4. Səlahiyyətlər ayrılması {lazım gəldikdə)<br>5. Qərann icrasının gedişinə nəzarət<br>6. Əldə edilmiş nəticələrin uçotu<br>7. Qiymətləndiımənin təhlili<br>8. Kənaraçıxmalara reaksiya vermə üsulları haqqında qərarlann qəbulu<br>9. Qəbul olunmuş qərann, məqsədlərin, vəzifələrin tashihi formasında raallaşdınıması, hərəkətlərin motivasiyası.<br>IQ. Yekunlaşdırma |

Məqsədin idarəetmə prosesində oynadığı roldan asılı olanıq, bir neçə idarəetmə tipləri fərqləndirilir. Gömrük orqanlarında ən çox "kənarçıxmalar üzrə idaretmə", "proqram idarəetməsi" ve "məqsədli idarəetmə" tətbiq edilir.

Kənarçıxmalar üzrə idarəetmə gömrük orqanlarının idarə edilməsi iyerarxiyasının bütün səviyyələrində vardır, çünki, başlıca olaraq, mövcud vəziyyətlərə görə qurulur. İdarəetmənin bu tipində məqsədə böyük əhəmiyyət verilmir.

Proqram idarəetməsi verilmiş proqramın idarəetmə sisteminin səviyyələri üzrə bölünməsi və onun icra edilmə ardıcıllığının göstərilməsi ilə ətraflı işlənib hazırlanmasma əsaslanır.

İdarəetmənin bu tipi, yuxarıda göstərilənlə bərabər, gömrük or-qanlannm idarəçilik fəaliyyətində tez-tez tətbiq edilir.

İdarəetmənin bu tipi daha qabarıq şəkildə büdcənin gəlir hissəsini formalaşdırmaq üzrə fıskal-nəzarot vəzifələrin həllində, gömrük idarələrinin inkişaf etdirilməsində, gömrük sərhədindən avto-keçidlərin yaradılmasında ve təchizatında və s. nəzərdən keçirilir.

Məqsədli idarəetmədə məqsəd əsas rol oynayır və idarəçilik fəaliyyətinin xarakterini və gedişini müəyyon edir.

Məqsədli idarəetmənm məzmunu aşağıdakılardan ibarətdir: idarəetmə problemləri müəyyənləşdirilərkon onun müstəsna dərəcədo yüksək analitikliyi; idarəetmə məqsədinin son dərəcə ciddi və dəqiq formalaşdırılması; idarəetmə probleminin struktuHzasiyası, “məqsədlər ağacı”nm qurulması; “məqsədlər ağacı”nın “vəzifələr ağacı” ilə dəqiq uyğunlaşdırılması, “məqsədlər ağacı”, “vəzifələr ağacı” və təşkilatı idarəetmə strukturu arasında kifayət qədər yüksək korrelyasiya (qarşılıqlı asılılıq); idarəetmə sisteminin təşkilati strukturunun hər bir həlqəsi daha yüksək qəbildən olan digər həlqələrlə birləşməlidir.

Məqsədli idarəetmədə proqnozlaşdırma böyük rol oynayır.

İdarəetmə təcrübəsində onun tiplərinin birgə tətbiqi edilməsi halları az deyildir. Ən səmərəli uzlaşdırma idarəetmənin proqram və məqsədli növlərinin birləşdirilməsidir ki, bu da proqram-məq- sodli idarəetmə adını almışdır. Bu tip idarəetmə indiki dövrdə gömrük orqanları üçün müstəsna dərəcədə mühüm əhəmİ3ryət kəsb edir.

*22.2, İdar9etm9 prosesinin təşkili*

Gömrük orqanları sistemində İdarəetmə prosesinin təşkili onun həyata keçirilməsinin dəqiqliyini, ardıcıllığını və yol verilən hədlərini müəyyənləşdirəq hərtərəfli nizama salınmasıdır.

İdarəetmə prosesinin təşkilinə onun müxtəlif dövrlərinin, mərhələlərinin, pillələrinin vo idarəçilik işlərinin (əməliyyatlannm) icra edilməsinin zəruri ardıcıllığını; müəyyən nÖv idarəçilik işlərinin (əmoliyyatlannın) icra edilməsinin müvəqqəti hədlərini ve onlann qruplaşdırıimasmı; idarəetmə prosesinin hər bir mərhələsim və onun bütün idarəçilik işlərini normal və vaxtında həyata keçirmək üçün zəruri və kifayət qədər informasiyanın dəqiq daxil olmasını; idarəetmə sisteminin müxtəlif həlqələrinin idarəetmə prosesi mərhələləri üzrə iştirak qaydasını; məcburi idarəçilik işləri (razılaşdırma, müzakirə, viza vermə, təsdiqetmə, məlumatlandırma və s.) kimi idarəetmə prosesi qayda və üsullarını müəyyən etmək

İstənilən idarəetmə prosesi öz məzmununa görə dövrlərdən, mərhələlərdən, pillələrdən və fazalardan ibarətdir.

İdarəetmə dövrü dedikdə idarəetmənin bütün ümumi funksiyalarının (analiz (təhlil) və proqnozlaşdırma, planlaşdırma, təşkilet- mo, tənzimetmə, uçot və nəzarət) tam reallaşdırılması üçün zəruri olan zaman kəsiyi başa düşülür.

İdarəetmə dövrlərinin reallaşdınıması üçün nonnativ bazaya, planlaşdırma sisteminə, uçot sisteminə, əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması sisteminə, informasiya və kadr təminatına malik olmaq lazımdır.

Dövr mərhələlərdən ibarətdir. Mərhələlər dedikdə bir halda qarşıdakı fəaliyyət sisteminin yaradıldığı, digərində isə onun fəaliyyət göstərməsi ilə idarəetmənin hə\ .luı keçirildiyi zaman kəsikləri nəzərdə tutulur.

Hər mərhələ pillələrdən ibarətdir. Pillə dedikdə idarəetmənin hər hansı bir ümumi funksiyasının tam reallaşdırılması üçün zəruri olan vaxt (zaman) başa düşülməlidir. Buna uyğun olaraq idarəetmə prosesi pillələri təhlil və proqnozlaşdırma pilləsi, planlaşdırma pilləsi, təşkiletmə pilləsi, tənzimetmə pilləsi, uçot pilləsi və nəzarət pilləsi adlandırılır.

Hər pillə müxtəlif sayda idarəetmə fazasından ibarətdir. Faza dedikdə bir idarəçilik işinin (əməliyyatının) icrası üçün tələb olunan vaxt başa düşülməlidir.

Beləliklə, görürük ki, idarəetmə prosesi öz məzmununa görə kifayət qədər mürəkkəbdir. İstənilən gömrük orqanlarının idarə edilməsinin istənilən növü üçün o oxşardır. Bundan başqa, o dəyişməz olaraq qalır və istənilən şəraitə tətbiq edilə bilər.

### 22. J. *İdarsetmə prosesində qərar qəbui edilməsi*

Gömrük orqanlannm işinin məhsuldarlığı idarəetmənin bütün səviyyələrində qəbul edilən qərarların keyfiyyətindən çox asılıdır.

İdarəçilik qəran hər şeydən öncə, idarəetmə sisteminin bu və ya digər hərəkət variantının İdarəetmə subyekti tərəfindən seçilən fikri-iradə aktıdır.

Qərarda idarəetmə obyektləri qarşısında dayanan məqsəd və vəzifələr xülasə edilir, onlar üçün yol verilən hərəkətlər ölçüsü nəzərdə tutulur, məqsəd və vəzifələrin reallaşdınıması üçün hansı resursların lazım olması müəyyənləşdirilir. Beləliklə, idarəçilik qəran idarəetmənin idarə edilən sisteminin məqsəd və proqramından ibarətdir. Məhz buna görə gömrük orqanlarında idarəçilik qərarlarının keyfiyyətindən və vaxtında qəbul olunmasından onların idarə edilməsinin, hər şeydən öncə, uğuru və uğursuzluğu asılıdır.

İdarəçilik qərarlannı müxtəlif əlamətlərə görə təsnif etmək qəbul olunmuşdur. Buna baxmayaraq, qərarın qəbul edildiyi şərait müoyyənedici momentdir. Adətən, qərarlar müəyyənlik və qeyri-müəyyənlik (risk) şəraitində qəbul edilir. Müəyyənlik şəraiti, bir qayda olaraq, standart qərarlann, qeyri-müəyyənlik şəraiti - standart olmayan qərarların qəbulunu əvvəlcədən müəyyən edir.

Standart elə qərarlardır ki, kənaraçıxmalarla birgə qərarın Özünün strukturu və onun qəbul edilməsi proseduru işlənir. Adətən, onlar mövcud situasiyanın ayn-ayn kəmiyyət parametrlərinin dəyişdirilməsinə, icra müddətinə və icraçılann yerləşdirtlməsinə yönəldilir, onun ümumi strukturu isə əvvəlki kimi qalır. Belə qərarlar kifayət qədər tez, xüsusi hazırlıq olmadan (məsələn, kadrlann işə qəbulu və işdən azad edilməsi haqqında əmrlər) qəbul edilə bilər.

Standart olmayan qərarlar, bir qayda olaraq, yaradıcı qərarlardır. Qeyri-müəyyənlik, deməli, həm də risk şəraitində belə qərarlara ehtiyac, şübhəsiz, xeyli artır. Bu daim dəyişməkdə olan gömrük şəraitinə uyğunlaşmaq və həm daxili, həm də nəzarət edilməyən xarici fak- torlann təsiri altında resurslarla manevr etmək zərurəti ilə bağlıdır.

İdarəçilik qərarlannın təsnif edilməsinin digər meyarlan da mövcuddur:

-mühümlOyünə və təsir qüvvəsinin müddətinə görə qərarlar strateji, operativ, taktiki olmaqla üç qrupa bölünür;

-məzmununa görə - inzibati, iqtisadi və əxlaqi xarakterli qərarlar vardır;

- reallaşdırma xarakterinə görə - direktiv və tövsiyə xarakterli qərarlara bölünür;

- idarəçilik qərannın fıksə edilmə üsuluna görə - yazılı və ya şifahi qərarlar (sərəncamlar) vardır.

İdarəçilik qərarlannın təsnifı üçün digər əsaslar da mümkündür.

Qərar qarşıya qoyulmuş məqsədlərə yetmək üçün əməkdaşlann birgə hərəkətlərim təşkil edən, istiqamətləndirən və stimullaşdıran direktiv aktdır. Onlann əsaslandırılmasına, tarazlaşdınimasına və təsir qüvvəsinə daim artmaqda olan tələblər bu səbəbdəndir.

Bu tələblər aşağıdakılardır:

A. Dövlətin siyasi və sosial-iqtisadi istiqamətlərinə qərarın uyğunluğu;

B. Qərarın obyektivliyi;

C. Qərann optimallığı.

İstənilən qərar o halda qiymətlidir ki, vaxtında qəbul edilsin. Bu tələb qərann qəbul olunmasında operativliyi nəzərdə tutur və tabe şəxslərin cəld xidmət olunması, gömrük qaydalannm pozulmasının aşkar edilməsi və onları qabaqlamaq zərurəti ilə diktə olunur.

Qəbul edilən qərarlann sürəti informasiyanın vaxtında daxil olmasından asılıdır.

Gömrük fəaliyyətində qərarların vaxtlı-vaxtmda olması onun əməkdaşlannın sabit müsbət əxlaqi-psixoloji keyfiyyətlərindən asılıdır. Vaxt qıtlığı şəraitində özünü itirmə, situasiyanı qiymətləndirməkdə qətiyyətsizlik məsələnin həllinin ləngidilmosinə, təxirə salınmasına səbəb olur.

Bununla belə, qərar qəbul edilməsində tələsmək də lazım deyildir. Bu, qanunçuluğun pozulmasına, digər neqativ nəticələrə gətirib çıxara bilər.

Qərarlar konkret və çevik olmalıdır.

Konkretlik qərann məzmununun dəqiq müəyyənliyidir. İcraçılar qarşısında qoyulan vəzifələrin müəyyən edilməsində dəqiqlik xüsusilə mühümdür.

Qərann konkretliyi onun çevikliyini istisna etmir, əksinə nəzərdə tutur. Çeviklik vəzifəli şəxslərin qəbul edilən hərəkət xəttinin

işlonib hazırlanması yolu ilə qabaqcadan nəzərdə tutula bilməyən hallarda, istənilən gözlənilməz hadisələrə sərbəst reaksiya vermək üçün geniş imfcaniar verilməklə təmin edilir.

*Q0rarlann haarlanması,*
*qsbttlu və reaUaşdınIması*

Hansı növ qərar qəbul edilməsi tələb olunursa-olunsun, onun hazırlanması, qəbulu və reallaşdırılması üzrə bütün işin müəyyən ardıcıllıqla aparılması arzu olunur ki, bunun da prinsipial məqsəd-yönlülüyü idarəetmə nəzəriyyəsi vo təcrübəsi İlə təkmilləşdirilmişdir. Göstərilən ardıcıllıq aşağıdakı sxem şəklində verilmişdir (sxem 6).

Təbiidir ki, qərann hazırlanması, qəbulu və reallaşdırılması üzrə gömrük orqanı rəhbərinin konkret işinin məntiqi qərarın (sonuncunun) spesifikasından, idarəetmə səviyyəsindən, vəzifələrin xarakterindən və həmin gömrük orqanının işlədiyi şəraitdən asılı olaraq fərqlənə bilər. Lakin ümumi halda bu sxem (sxem 6) təsir qüvvəsinə malikdir, buna görə də onun ayrı-ayn bloklannı daha ətraflı nəzərdən keçirmək məqsədəuyğundur.




*Sxem 6. Qərarın hazırlanması, qəbulu və reallaşdırılması ardıcıllığı.*

Qərar hazırlanarkən, hor şeydən öncə, problem situasiyam aşkar etmok vo təhlil etmok lazımdır. Problemin vaxtmda aşkar edilməsi ' gömrük orqanı fəaliyyətinin konkret məqsədi ilə onun reallaşdırılması üçün mövcud şəraiti arasında əsas ziddiyyəti erkən mərhələdə başa düşmək deməkdir. Təhlil materialları meydana çıxan ziddiyyətin mənasını obyektiv qiymətləndirməyə, onun səbəblərini aşkar etməyə və başlıcası isə, onun mümkün ola bilən son nəticələrini təyin etməyə imkan verir. Beləliklə, həllinə ilkin növbədə başlanmalı olan baza problemləri müəyyən edilir; onlar əhəmiyyətinə görə növbələndiriİir, həllinin strateji İstiqamətləri seçilir, bundan sonra məqsədlər xülasə edilir.

Baza problemləri sərbəst şəkildə gömrük orqanı rəhbəri tərəfindən onun işləməli olduğu cürbəcür informasiyanın təhlili əsasında aşkar edilə və ya kənardan aşağıda göstərilənlərin nəticəsində qarşıya məqsəd kimi qoyula bilər:

- yuxarı səviyyənin qərarının (əmr, göstəriş, sərəncam, iş planı vo s.) alınması, bunun icrası üçün öz səviyyəsində xüsusi, daha konkret qərann tətbiqi tələb olunur;
- əməkdaşlardan (bölmələrdən), eləcə də müxtəlif idarələrdən, müəssisələrdən və təşkilatlardan, XİF iştirakçılarından vo digər xüsusi şəxslərdən gömrük işinə dair müxtəlif məsələlərin (sorğuların) daxil olniası;
- aşağı səviyyələr tərəfindən konkret təcrübi məsələ və problemlərin qoyulması.

Bundan sonra qərann elə variantları işlənib hazırlanır ki, problem situasiyanın həlli müddətləri, gömrük xidməti formaları, maddi resurslar, kadrlar vo s. üzrə verilmiş (qoyulmuş) məhdudiyyətləri təmin etsin. Problem situasiyam həll edərkən bir-birini əvəz edən bir neçə variantın (alternativin) eyni vaxtda hazırlanması zərurəti gömrük orqanlarının fəaliyyətində ən optimal yolları tapmağa imkan verir.

Daha üstün tutulan hərəkətlərin müəyyənləşdirilməsinin evristik vasitələri: problemin dekompozisiyası, paralel vəzifələrin irəli sürülməsi, mühüm yanmvəzifələrin müəyyən edilməsi, irəli sürülmüş

vəzifələrin (yanmvozifalerin) qüvvə və vəsaitlərlə nisbəti, analogiya, situasiyanın inkişaf proqnozundan istifadə edilməsi, güman edilən hərəkətlərin mümkün nəticələri haqqında fərziyyələrin müəyyən edilməsi və uçotu gömrük təcrübəsində ən çox tətbiq edilir.

*Ən yaxşı variantın seçUmasi V9 quraın q9bulu*

Belə seçim miqdan və məzmunu hər dəfə konkret problem situasiya tərəfindən qarşıya qoyulan qarşılıqlı əlaqəli meyarlar qrupu üzrə qiymətləndirmə əsasında apanlır.

Daha aşkar meyarlann sırasına aşağıdakılar aiddir: zəruri qüvvə və vəsaitlərin miqdarı, belə fəaliyyət üçün onlann hazırlıq səviyyəsi, maddi məsrəflərin dərəcəsi, problemin həllinin məhdudlaşdırılmış müddəti.

Risk dərəcəsini nəzərə almaq, yəni fərz edilən mənfi nəticələrlə gözlənilən nəticələrin nisbətini nəzərə almaq lazım gəldiyi halda daha üstün tutulan hərəkətləri seçmək olduqca mürəkkəbdir. Riskin qiymətləndirilməsində iki dəyişəni; nəticələrin özünün xarakteristikası və onlann başlanma ehtimalım nəzərə almaq lazımdır.

Qəti olaraq bir variant üzərində qalmaq üçün qərarın formalaşdınlması prosesini sanki stimullaşdıran və təşkil edən ve onun son mərhələsi üçün xüsusi əhəmiyyət kəsb edən iradi səylər lazımdır.

Subyektin iradəsi qərar layihələrindən birinin seçilməsində qətiyyətsizliklə və tərəddüd etməklə mübarizə aparmağa və onun qəbul edilməsini həyata keçirməyə kömək edir.

Qərarın qəbul edilməsi prosesində seçilmiş layihənin detalları dəqiqləşdirilir, qərarın sərhədləri (çərçivələri), onun arzu uiunan çeviklik dərəcəsi müəyyənləşdirilir, forma dəqiqləşdirilir, bundan sonra o yazılıb təsbit edilir və icra edilməli idarəçilik qəran qüvvəsini əldə edir.

Qərarın forması onun məzmununa uyğun olmalıdır.

İdarəçilik qəran yazılı vo ya şifahi formada ifadə edilir. Yazılı forma qerarlann ən yaxşı ardıcıllığını təmin edir, icraçılar üzərində nəzarəti, işlərin sonrakı təhlilini sadələşdirir.

Gömrük orqanLannda əməkdaşların müxtəlif hərəkətlərinin yazılı sanksiyalaşdırılması, hazırlanmış, yaxud formalizə edilmiş, sərbəst tərtib edilmiş sənədlərin təsdiq edilməsi və imzalanması, müxtəlif materiallara dərkənar qoyulması, eləcə də göstərişlərin, sərən- camlann, tapşınqlann vo s. şifahi çatdınıması geniş yayılmışdır.

İdarəetmə prosesinin təşkili, hər hansı digər teşkiletmə kimi, əınəliyyatlann məkan və zamanda bölgüsü nəzərdə tutur. İdarəetmənin təkmilləşdirilməsinin müasir mərhələsində

# MÖVZU 23. İdarəetmənin psixoloji aspektləri

## *23, L Gömrük orqam r9hb9rinin idarəçilik düşüncəsinin ümumi xarakteristikası*

Qeyd edildiyi kimi, idarəçilik prosesinin əsas spesifikası rəhbər tərəfindən tabeliyindəkilorin istehsalat vəzifələrini məqsədyönlü ic> ra etmələrini təmin etməkdən ibarətdir. Bu səbəbdən çox vaxt deyirlər ki, rəhbər “öz əlləri ilə deyil, tabeliyindəkilərin əlləri ilə işləyir”.

özlərinin İdarəçilik fəaliyyətində, hər şeydən öncə, üç aspektə daimi diqqət yetirilməsi zərurəti həmişə rəhbərlər qarşısında real olaraq durur:

1) istehsalat vəzifələrinin bilavasitə icraçıları kimi insanlara diqqət göstərmək, bu isə onlara istehsalat vəzifələrinə uyğun gələn davranış üslubunu öyrətməyi, onlann keyfiyyətini artırmağı, onlarda müsbət dəyərli peşə fəaliyyəti yönümünü və motivlərini İnkişaf etdirməyi, istehsalat kollektivlərini formalaşdırmağı, təşkilatın korporativ ruhunu inkişaf etdirməyi vo s. nəzərdə tutur;

2) peşə fəaliyyətinin məqsəd və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə, xarici mühitdə dəyişmələr şəraitində təşkilatın məqsədlərinin həyata keçirilməsində strateji və taktiki məsələlərin həllinə və s. nail olmaq;

3) istehsalat vəzifələrinin yerinə yetirilməsi üçün şəraiti təmin etmək, bu İsə özündə kommunikasiyam təkmilləşdirməyi, iş yerlərində əlverişli şərait, rasional idarəçilik istehsal texnologiyası yaratmağı, eləcə də operativ qərarlar qəbul etmək üçün icraçılam zəruri səlahiyyətlər ayırmağı ehtiva edir.

Özlərinin idarəçilik fəaliyyətlərinin gedişatı təcrübəsində rəhbərlər üstünlüyü yalnız istehsalat vəzifələrinə və fəaliyyət subyektlərinə (vəzifələrin icraçılarına); idarəçilik fəaliyyətinin bütün göstərilmiş əvvəlki istiqamətlərinə və bu istiqamətlərlə bərabər, məsələn, qərarm qəbul edilmə vaxtı, əməkdaşların intizamı və s. kimi bəmin momentdə mühüm olan digər göstəricilərə verə bİlər

lər. Bütün bu hallarda rəhbərdə müvafiq olaraq birölçülü, ikiölçü- lü, üçölçülü və çoxölçülü idarəçilik düşüncəsinin (təfəkkürünün) inkişafından danışılır.

Birölçülü idarəçilik düşüncəsi (təfəkkürü) rəhbərin özünün idarəçilik fəaliyyətində, hər şeydən öncə, meydana çıxan vəzifələrə oriyentirini (meylini) xarakterizə edir. Situasiyanın digər elementləri (fəaliyyət subyekti və şəraiti) rəhbərin yüksək diqqətindən kənarda qahr.

İkiÖtçülü idarəçilik düşüncəsi (təfəkkürü) rəhbərin diqqətini həm istehsalat vəzifələrinə, həm də onların icraçılanna yönəldir.

Birinci iki növ idarəçilik düşüncəsini nəzərdən keçirməklə qeyd etmək olar ki, fəaliyyətə (vəzifəyə) və insana (fəaliyyət subyektinə) oriyentasiya konkret rəhbərlərdə müxtəlif ahəngdə çıxış edə bilər. Bir rəhbərdə, məsələn, bir oriyentasiya, digərində başqası üstünlük təşkil edir.

Bununla belə, qeyd etmək lazımdır ki, ən mühüm olan, müasir idarəçilik düşüncəsi baxımından, çoxtərəfli düşünmək və hərəkət etməkdir. İdarəçilik fəaliyyətinin belə xarakteristikalanna üçölçülü Vo çoxölçülü idarəçilik düşüncəsi olan rəhbərlər uyğun gəlir.

Üçölçülü idarəçilik düşüncəsi zamanı rəhbərin oriyentasiyası (diqqəti) təkcə fəaliyyətə (vəzifəyə) və insana (subyektə) deyil, həm də fəaliyyətin obyektiv şəraitinə yönəldir.

Çoxölçülü idarəçilik düşüncəsi elə rəhbər üçün xarakterikdir ki, konkret situasiyadan asılı olaraq özünün idarəçilik fəaliyyətində, yuxarıda nəzərdən keçirilən oriyentasiyalardan başqa, bu və ya digər xüsusi göstəriciləri birinci yerə qoya bilsin. Belə göstəricilər, məsələn, fəaliyyətin nəticəsinin keyfiyyəti, qərarın qəbul edilmə sürəti, əməkdaşların motivasiyası və s. ola bilər.

Lakin rəhbərdə hansı növ idarəçilik düşüncəsi olursa-olsun və buna uyğun olaraq, o hansı idarəetmə üslubuna tərəfdar olursa-olsun, onun hərəkətləri hansısa vaxt anında effektli və ya effektsiz ola bilər. Hər şey konkret situasiya faktorlarından asılıdır.

İdarəetmə üslubunun çevikliyi, bu zaman praktik şərait nəzərə alınır, idarəetmənin effektli üslubunu effektsiz üslubundan sərfəli

şəkildə fərqləndirir və bir qayda olaraq, idarəçilik fəaliyyətinin sə* mərəlil iyinə təminat verir.

Rəhbərin idarəçilik düşüncəsinin ümumi xarakteristikasını nəzərdən keçirdikdən sonra, peşə fəaliyyəti subyektlərinə rəhbərin oriyentasiyasından daha ətraflı bəhs etmək məqsədəuyğun olardı.

Ölkə ədəbiyyatında təşkilatın mədəniyyəti, kollektiv üzvlərinin dəyərli oriyentasiya birliyi (vahidliyi) kimi başa düşülən belə korporativ ruhun müəyyən inkişaf faktorlan vardır. Bu zaman əsas və həlledici faktor kimi bütün gömrükxananın və onun bölmələrinin kollektiv əmələgətirməsi çıxış edİr. Bu, birgə fəaliyyətin gedişində dəyərlərə, məqsəd və vəzifələrə reflekslər vasitəsilə baş verir və əməkdaşlann həm bir-birlərinə, həm də xarici iqtisadi fəaliyyətin iştirakçılarına, gömrük brokerlərinə, tərəfdaşlara münasibətlərində təzahür edir.

Gömrük orqanı rəhbərinin əməkdaşlara inandıncı təsir etmək, onları istehsalat tapşınqlannı şüurlu şəkildə icra etməyə sövq etmək (yönəltmək) bacarığı da mühüm əhəmiyyət kəsb edir. Rəhbərin idarəçilik fəaliyyətinin belə xarakteristikası üçün epiqraf İkinci Dünya müharibəsi illərində müttəfiq ölkələrin qoşunlarının ali baş komandanı və sonradan ABŞ prezidenti olmuş Duayt D. Eyzenha- uerİn sözləri ola bilər: “...Rəhbərlik başqasının nə etməli lazım olduğunu, nə vaxt etməl lazım olduğunu və necə etmək lazım olduğunu elə təşviq etmək qabiliyyətidir kı, sanki o bunu özü istəyir”.

Belə sövqetmə (təşviqetmə) vasitəsilə (hər şeydən öncə, sözlə) rəhbər öz fikirlərini, hisslərini, arzulanm tabeliyində olanlara ötürməyə, onlann hərəkətlərinə, əməllərinə öz münasibətini bildirməyə və bununla onlann işinə təsir etməyə, eləcə de onlarda korporativ ruhun inkişafına çalışır.

Şifahi (sözlə) inandınna təsiri gömrük orqanı rəhbərinin idarəçilik fəaliyyətində hər şey deyildir, lakin onsuz digər inandırma təsirləri (şəxsi nümunə, peşə fəaliyyətini təşkiletmə və b.) səmərəliliyinə görə aşağı olur. Buna görə, idarəçilik təsirinin bu növü həmişə gömrük orqanı rəhbərinin görüş dairəsində olmalıdır.

Şifahi inandınna təsirinin xarakteristikası hər şeydən çox məzmununa və strukturuna görə verilir.

Məzmununa görə şifahi inandırma təsirinə üç blok daxildir. On* lar kompozisiya etibarilə fərqlənmir və şeıti olaraq “İş”, “Mən”, “Siz” adlandınla bilər. Bu halda söhbət natiqlik çıxışından getmir, o daha çox emosional təsir dərəcəsinə əsaslanır və natiqlik sənətinin qanunauyğunluqlanna tabedir. Söhbət informasiyanın məntiqi səviyyədo ötürülməsi prosesinin qurulması və onun dərindən dərk edilməsi haqqında gedir. Buna görə də, “İş” blokunda məsələnin məzmunu dərindən açılmalıdır.

“Mon” blokunda bu məzmunun rəhbər üçün əhəmiyyətsiz olmadığını göstərmək məqsədəuyğundur. O kənardan gəlmə insan deyil, haqqında danışdığı işlə yaşayır.

Bununla bağlı olaraq “Siz” də təklif olunanı özününkü kimi qavramalıdır. Bu blokda rəhbər həm də onun təklif etdiyi “İş”in icra edilməsində əməkdaşlann iştirakının nəyə gətirib çıxardığını açıqlayır.

Kompozisiya etibarilə inandırma təsiri üç hissədən: giriş, əsas hissə və nəticədən ibarət olur. Təsirin bu hissələrinin əsas vəzifələrini aşağıdakı kimi izah etmək olar.

/. *Giriş:*

- təklif edilən “İşə” əməkdaşlarda maraq oyatmaq;
- əməkdaşlarla psixoloji əlaqə qurmaq (psixoloji olaraq onlara qoşulmaq).

*2. Əsas hisss:*

- təklif edilən iş istiqamətlərinin vacibliyini sübut etmək;
- əgər əks baxışlar varsa və əgər onlar gömrük orqanının qarşısına qoyulmuş istehsalat məqsədlərinin əldə edilməsinə komək etmirsə, onlann yalan olduğunu sübut etmək.

*3.* yVaftca;

• Deyilənləri yekunlaşdırmaq;
- öz təkliflərini sərəncam şəklində xülasə etmək (rəsmiləşdirmək).

Bu vəzifələrə yemək naminə inandırma təsirinin məzmununu qurarkən gömrük orqanı rəhbərinin qavrayış, inandırma, sübutlar psixologiyasında inteqrativ görüşləri (baxışları) əks etdirən müəyyən konsepsiyalara söykənməsi məqsədəuyğun olardı.

Gömrük orqanının rəhbərinə aşağıdakı tövsiyəni söyləmək olar:

lazımi hərəkətlərə sövq etmok istəyirsinizsə, onda hər şeydən öncə, həmin hərəkətlərin məqsədinin dəyərini açıqlamaq (“tş” əməkdaşlar üçün əhəmiyyətli olmalıdır) və həmin məqsədin əldə edilməsinin yəqinliyini (əməkdaşların qarşıya qoyulmuş məqsədə çatmaq iqtidarında olmasını) göstərmək lazımdır.

Bu tövsiyələr, İlk növbədə, şifahi inandırma təsirinə girişdə reallaşdırılmalıdır. Bununla belə onlar həmin təsirin digər hissələrində də nəzərdən keçirilə bilər. Analoji şəkildə rəhbər, lap əvvəldən psixoloji cəhətdən öz əməkdaşlanna qoşulmağa nail olmaqla, özünün onlarla bütün qarşılıqlı əlaqəsi gedişində qurulmuş psixoloji kontaktı saxlayır.

Psixoloji qoşulma problemi indiki dövrdə həm psixologiya elmində, hom də müxtəlif tərəfdaşların qarşılıqlı əlaqəsi təcrübəsində aktual mövzulardan biridir.

Şifahi inandırma təsirinin gedişində rəhbər həm daxili, həm də xarici göstəricilərdən istifadə etməklə öz əməkdaşlarına qoşula bilər. Xarici göstəricilər şəklində geyira forması, poza (duruş), hərəkət və tənəffüs ritmi, daxili göstəricilər şəklində isə informasiya qavrayışı və qərarın qəbulu üzrə (submodallıq) hissiyat orqanlarının daha sabit kanalları - gərmə, eşitmə, hisslər, nitq, hisslərin zahiri ifadəsi çıxış edə bilər.

Təbiidir ki, psixoloji cəhətdən əməkdaşlara qoşulma zamanı ən başlıcası rəhbərin onlann maraqlarına, ehtiyac və tələbatlanna yetirdiyi diqqətdir.

Belə diqqət rəhbərin nitqində də, duruşunda da, hərəkətlərində də, hisslərini zahiri ifadə etməsində də səmimi olaraq təzahür edilməlidir. Bununla yanaşı gömrük orqanı rəhbərinə əməkdaşlann davranışının düzgün diaqnozunu vermək, özünün onlara qoşulmasmı daha effektiv etməyi, onlan ardınca aparmağı bacannaq üçün müəyyən qoşulma manerasına (tərzinə) sahib olmaq məqsədəuyğundur.

Əməkdaşlarla eyni geyim formasında (mündirdə) olmaqla, rəhbər artıq psixoloji cəhətdən onlara qoşulmağa başlayır, xarici görünüş cəhətdən göstərir kİ, o, əməkdaşları ilə bİrgə gömrük xidmətinin eyni məsələlərini holl edir. Eyni funksiyanı rəhbərin duruşu -

işgüzar, tballığı əks edən, qarşıya qoyulan vəzifələrin həllinə yönələr və əməkdaşlarla səmimi - yerinə yetirir; ovuclar )Tixanya açıq, ÜZÜ Örtmür, sanki öz əməkdaşlarına tərəf çəkir; üzdə elə ifadə vardır ki, sanki rəhbər yalnız öz əməkdaşları ilə görüşü gözləyirmiş. Təbəssüm, əlvemıə və yüngülcə baş əymə (təzim), adla və ata adı ilo müraciət, işgüzar ünsiyyət məsafəsini (1-2,5 m) saxlama, işgüzar söhbət üçün təbii duruşları (pozaları) uzlaşdırma arzu olunur.

Bəzən, əməkdaşların oturduğu, rəhbərin isə ayaq üstə olduğu zamanda, sonuncu yeni işlərin zəruriliyini başa salmaq əvəzinə əvvəl icra olunmuş işlərdə kəsirlərin olmasına kimİn günahkar olduğunu aydınlaşdırmaqla “küllükləri eşələməyə" başlayır. Təbii ki, bu anda rəhbərin bütün inandırma təsiri puça çıxacaqdır.

Şifahi inandırma təsirinin ilk mərhələsində əldə olunmuş psixoloji cəhətdən əməkdaşlara qoşulmanı daha da inkişaf etdirməkdən ötrü rəhbər üçün məqsədəuyğundur ki, öz əməkdaşlarından bəziləri ilə göz əlaqəsi yaratmağa cəhd etsin. Belə əlaqə əsasında əməkdaşlar tərəfindən informasiyanın qavranılması və qərar qəbul edilməsi üzrə hissetmə orqanlarının üstünlük təşkil edən kanallarını üzə çıxarmaq mümkündür.

Son dövrlərdə psixologiyada və xüsusilə onun gur inkişaf edən sahəsi kimi neyrolinqvistik proqramlaşdırmada insanlarda informasiyanın qəbulu və qərar qəbuletmənin üç dominant (üstünlük təşkil edən) sistemi fərqləndirilir; vizual (görmə), audial (eşitmə) və kinestetik (hissi). Bu submodallıqlardan birinin üstün olmasından asılı olaraq konkret adam vizualist, audialist və ya kinestetik adlandırıla bilər.

Əgər rəhbər öz tabeliyində olanları yaxşı tanıyırsa, “vizual istlə-rə" müraciət etməklə, görmə obrazlarından daha çox istifadə edəcəkdir. Ona görə də, onun nitqində İlk halda “gördüyümüz kimi” “əgər baxsaq” kİmİ sözləri çox işlətmək məqsədəuyğundur, əllər isə bəzən baş səviyyəsində real gerçəkliyi əks edə bilər. Rəhbərin səsi - uca, frazalan - kəsik-kəsikdir.

“Audalistiərə” daha çox analitik mühakimələr lazımdır, “kinestetiklər” daha çox hissi inandırma tələb edirlər.

“Audialistlərə” müraciət zamanı çox vaxt “əgər fikirləşsək, onda “əgər qiymət versək, onda...” tipli sözlərdən istifadə etmək

lazımdır. Səs bu zaman düşünmə prosesinə uyğun olmalı və əməkdaşları buna dəvət etməlidir: rəvan və inamlı. Əllər, bir qayda olaraq, qurşaqdan yuxarı olur.

Əgər əməkdaşlar informasiyanı kinestetik qavrama vəziyyətindədirlərsə (baş vermiş bədbəxtlikdən, səhvdən və s. sonra), onda rəhbər də bu vəziyyətə “daxil olmalıdır". Bunun nəticəsi olaraq onun nitqində kinestetiklərə müraciət zamanı köks ötürmələr, dayanmalar meydana çıxır, əllər isə aşağı düşür.

Psixoloji əlaqənin qurulmasına və rəhbərin şifahi inandırma təsirinin gedişində açıqlanan təkliflərinə marağın əməkdaşlarda inkişaf etməsinə öz təsirinin əvvəlində (girişdə) rəhbərin istifadə etdiyi şifahi ifadeetmə forma və vasitələri də kömək edir. Həmin vasitə və formalardan asılı olaraq girişin qurulması və məzmunun aşağıdakı növlərini nəzərdən keçirmək olar.

**1.** Girişin sual forması

Gömrük orqanının rəhbəri əməkdaşlarla şifahi təsirin lap başlanğıcından özünün sonradan açıqlayacağı problemlərə əməkdaşların diqqətini suallar vasitəsilə cəlb etmək üçün cəhd edir.

Məsələn, nəzarət işinin təkmilləşdirilməsi məsələlərinin əməkdaşlara çatdırmağa çalışan gömrük orqanı rəhbəri nitqinin girişini bu şəkildə qura bilər:

“Məni (bu) suallar maraqlandırır: “Niyə nəzarət işinin səmərəliliyi son zamanlar aşağı düşmüşdür? Bizim müfəttişlər belə iş vərdişlərini itiriblərmi?” Bunlar elə suallardır ki, mən onlar üzrə görüşlərimi sizə ifadə etmək və sizi bizim birgə fəaliyyətimizin bu istiqamətinin təkmilləşdirilməsinə yönəltmək istərdim."

**2.** Girişdə əməkdaşiann hisslərinə apellyasiya Gömrük orqanının rəhbəri əməkdaşlara tanış olan adamlarla bağlı faktlar, hadisələr gətirir (məsələn, gömrük ödənişlərinin düzgün tutulmamasına görə əməkdaşlardan birinin məsuliyyətə cəlb edilməsi), təhlil edilən fakt və ya hadisənin hansı mənfi və ya müsbət xarakterli nəticələrə gətirib çıxara biləcəyini göstərir. Bununla

əməkdaşlarda həmin hadisə və ya faktlara şəriklik hissi oyadılır və artıq bu hissin fonunda rəhbəri maraqlandıran problem açıqlanır,

**3. "İntriqa (maraq) oyadan" gİriş**

Gömrük orqanı rəhbəri özünün şifahi inandırma təsirinə hansısa praktik məsələnin həllinə müxtəlif, bəzən ziddiyyətli nöqteyi-nəzərləri göstənnəklə başlayır.

Məsələn, gömrük rəisinin, əməkdaşların öz funksional vəzifələrinin icrasına vicdanlı münasibəti problemini açıqlamaqla, əməkdaşlarla ünsiyyətinin başlanğıcını aşağıdakı şəkildə qura bilər:

"Belə rəy vardır ki, gömrük prosesində iki fiqur: gömrük rəisi və sıravi müfəttiş iştirak edir. Biri əmr edir, ikinci bilavasitə icra edir.

İkinci belə bir fikir vardır ki, əsas gömrük işi gömnikxananın şöbələrində aparılır.

Bəs hər birimizin öz funksional vəzifələrimizin anlamaqda kəsirimiz haradadır və fəaliyyətimizin təkmilləşdirilməsi perspektivləri hansılardır?"

Gömrük orqanlannın təcrübəli rəhbərləri bu vasitədən çox istifadə edirlər. İclasın mövzusu xatırladıldıqdan sonra dərhal deyilir: "Təhlil göstərir ki, bu problemin həlli üçün iki (üç...) yanaşma vardır". Onlar izah edildikdən sonra soruşulur: "Bəs biz bu problemin həllinə necə yanaşaq?"

**4. Yenilik ünsürləri ilə faktlara şəxsi qiymət vermə**

Keçənlərdən, deyək ki, hamıya məlum faktlar haqqında, öz təəssüratı vo qiymetvermə'si haqqında sərbəst mərhəmanə söhbət. Belə söhbət inam, etibarlılıq və sərbəstlik mühiti yaradır. Belə mühit yaratdıqdan sonra iş məsələlərinin müzakirəsinə keçmək olar.

**5. Əməkdaşların yaxşı tanıdığı və onların etibarını qazanmış nüfuzlu şəxsə apellyasiya**

**6. Yumorlu, zarafatyana giriş**

Məsələn, gömrük orqanlarına daxil edilən ixtisas imtahanlannm verilməsi üzrə əməkdaşlann işlərini fəallaşdırmağa çalışaraq, rəh

bər əmətcdaştan ilə söhbəti belə başlaya bilər. **Siz imtahanın nə olduğunu bilirsinizmi?" Bəziləri deyir ki, imtahan iki ağıllının söhbətidir. *‘Əgər onlardan biri çox da ağıllı deyilsə?” - deyə başqala-n soruşur. - “Onda ikinci qiymət kitabçasını götürür və evə gedir** - deyə birincilər cavab verirlər.

Belə yumordan sonra rəhbərin qarşıya qoyacağı məsələlər asan qavranılır.

**7. Problemə birbaşa yanaşma**

“Biz bura yığışmışıq k i , B e l ə yanaşma o vaxt səmərəli olur ki, rəhbər və əməkdaşlar bir-birini, necə deyərlər, yanm sözdən başa düşürlər.

Girişin digər variasiyaları da ola bilər.

Əməkdaşlann müxtəlif qruplarının apancı submodallıqlanm nəzərə almaqla, yəni müxtəlif variasiyalarda necə təkrar olursa-olsun, belə qruplar üçün gömrük orqanı rəhbəri girişi dəqiq qurmaq vasitəsilə onu maraqlandıran problemin əməkdaşlar tərəflndən daha düzgün qavıanılmasma nail ola bilər. Həm də bu və ya digər rəhbərin yaxşı bacardığı girişin müxtəlif vasitə və formalan təsirli ola bilər.

Girişdə rəhbərin yol verməməsi arzuedilən momentlər aşağıdakılardır:

İ. Əgər nitqinizə üzr istəməklə başlasanız, uduzarsınız: “Bağışlayın ki, sizi işinizdən ayırdım...” Üzr istəyici ton, bir qayda olaraq tabelikdə olanlarda etiraz, təəccüb və məyusluq doğurur: “İşdən ayırdım, belə danış, üzrxahlıq eləmə...”;

*2,* Uzun zaman amorf, qeyri-konkret şəkildə danışmayın (“Su çox axır”, məqsəd isə açılmır). “Bizdən nə tələb olunur?” - əməkdaşlar düşünməyə başlayırlar;

*3.* Standart və çeynənmiş ifadələrdən vaz keçməyə çalışın” “DGK sədrinin əmri bizdən tələb edir k i , B e l ə girişdə mərhə- manəlik yoxdur və psixoloji əlaqənin qurulmasına kömək etmİr. DGK sədrinin əmrindən, standart ifadələrdən qaçmaqla, onu məzmunca açıqlamaqla, danışmaq olar və lazımdır. Stereotiplər, əzbərlənmiş ifadələr İnsanı son dərəcə dəhşətə gətirir.

Elə hazır “quru” tərkiblər vardır ki, nitqdə işləndikdə pis qavranılır, süstlük yaradır və diqqəti yayındırır.

Bəzilərini nümunə gətirək; “Planla hərəkətə gəlmək lazımdır”, “Bu günə nəyimiz var?”, “Nöqsanlara amansız müharibə elan edok”, “Gəlin məsələni bütün kəskinliyi ilə qoyaq və konkret tədbirlər görək”.

Nitqdə ştamplardan qaçmaq çox çətindir, buna çalışmaq hər bir rəhbər üçün lazımdır.

Giriş şifahi inandırma təsirinin əsas, məna yükü olan hissəsidir. Əgər onun vəzifələri həll edilirsə, onda həmin təsirin sonrakı hissələrinin vəzifələri də asan həll edilir.

Əsas hissədə problemin sonrakı və konkret açıqlanması baş verir, onun həlli yolları barədə öz görüşü arqumentləşdirilir (əsaslandırılır) vo sübut edilir, həmin həllin digər variantlan dəqiq şəkildə təkzib edilir.

Şifahi inandırma təsirinin yekunu müəyyən növ nəticə ola bilər, belə ki, burada ümumi baxışlara qiymət verilir və birgə fəaliyyət yollan müəyyənləşdirilir. Lazım gələn halda nəticə gömrük orqanı rəisinin öz əməkdaşlanna verdiyi sərəncama çevrilə bilər.

Mövcud vəziyyətdən və əməkdaşın (əməkdaşlann) şəxsiyyətindən asılı olaraq belə səıəncam çətin işi icra etmək arzusunda olan “könüllünü” aşkar etmək üçün sual, xahiş şəklində verilə bilər.

Yalnız əlacsız qaldıqda, necə deyərlər, “təcili yardım çağınşı” vəziyyətində sərəncam əmr şəklində verilə bilər.

Beləliklə, bu paraqrafda şifahi inandırma təsirinin əsas sxemi nəzərdən keçirildi. Real praktiki fəaliyyətdə bu sxem gömrük orqanı rəhbərinin yiyələndiyi və onun mövcud vəziyyətdən asılı olaraq istifadə etdiyi metodların bütöv sistemi ilə tamamlana bilər.

### *23.2. Gömrük orqanı rəhbərinin idarəçilik fəaliyyətində ünsiyyət psixologiyası və xidməti etika*

Gömrük orqanı rəhbərinin yüksək idarəçilik fəaliyyəti mədəniyyəti onun gömrükxana əməkdaşları və müştəriləri ilə xidməti

etika normalannda ifadə olunan gündəlik ünsiyyətində təzahür edir. Normalara bunlar daxildir; rəhbərin ünsiyyət demokratizmİ; onun sadəliyi; diqqətliliyİ; inam mühiti yaratmaq bacanğı; ünsiyyətdə nəzakət və düzlük; verdiyi sözə münasibət, dəqiqlik və məsuliyyət. İntizam və səliqə, davranış tərzində dəqiqlik və raütəşək- killik də az əhəmiyyət kəsb etmir.

Lakin rəftarının xarici tərəfi gömrük orqanı rəhbərinin daxili mənəvi inamlarına uyğun gəlməlidir. Yalnız bu halda xidməti etika nonnalan rəhbərə insanlarla daha effektli ünsiyyət saxlamağa kömək edir.

Amerika psixoloqlan sübut eunişlər ki, uğurlu heç də ən ağıllı rəhbərlər deyil (yüksək intellekt səviyyəsi), başqaları ilə ünsiyyət mədəniyyətinə malik olan, emosional cəhətdən ən sabit, özünə inanan rəhbərlər (menecerlər) qazanırlar.

Artıq dəfələrlə qeyd edildiyi kimi, gömrük orqanının idarə edilməsi, ilk növbədə, insanların idarə edilməsidir və nəticə etibanilo ünsiyyətdir.

Gömrük orqanı rəhbərinin iş vaxtının təxminən 3/4-ü yuxan və aşağı rəhbərlərlə, eləcə də gömrükxana əməkdaşları və müştəriləri ilə ünsiyyətə sərf olunur.

Ciddi tərif verildikdə ünsiyyət “iki və ya daha artıq insan arasında idraki və affcktiv - qiymətləndirmə xarakterli informasiya mübadiləsindən ibarət qarşılıqlı əlaqədir”.'

Bir qayda olaraq, ünsiyyət insanların müştərək fəaliyyətinə daxil edilmişdir (məsələn, yuxanda haqqında danışıldığı şifahi inandırma təsiri). Bununla belə, o, insanın başqa adamlarla əlaqəsinə xüsusi tələbatı reallaşdırır, bu zaian (göstərilən tələbatın müsbət reallaşmasında) sevinc, ilham, ruh yüksəkliyi mənbəyinə çevrilir və birgə fəaliyyətdən nisbi sərbəstlik əldə edir.

Ünsiyyət prosesində əlverişli psixoloji iqlimi təmin etmək üçün gömrük orqanı rəhbəri bilməlidir ki, hər bir insan, onu əlaqəyə gir-

***/. IlcuxoAotmecKuii eaoəapb /Tlod peÖ. B.M, SuKnenKO, ET. Meüepn-Koea. 2-e uid., nepepaö,, u don. M., HedasozuKa-Upecc, 1996,* c. *232.***

məyo sövq edən məqsədlərdən asılı olmayaraq, həmişə nüsiyyət- də ən azı üç tələbatın ödənilməsinə çalışır:

• qarşılıqlı əlaqə predmeti üzrə özünüifadə və qarşılıqlı anlaşmanın əldə edilməsi;

- emosional yardım (ruhlandırma);

- özünün şəxsiyyətinin təsdiq edilməsi (tanınması). Qarşılıqlı əlaqə predmeti üzrə özünüifadə və qarşılıqlı anlaşmanın əldə edilməsi tələbatı, bir qayda olaraq, ona müncər edilir ki, hansısa məsələni həll edən insan nəyİsə dəqiqləşdirmək, həmin məsələnin həllinə nail olmaq, həm də bu öz fikrini, obrazını, hissini ifadə etmək və onların digər adamlarla, xüsusilə müzakirə olunan məsələnin həllinin asılı olduğu adamlarla müzakirə etmək istəyir. Bu səbəbdən rəhbərə lazımdır ki, müsahibinin bu tələbatına anlaşma ilə yanaşsın, müsahibini narahat edən söhbətin mövzusunun onun üçün əhəmiyyətsiz olmasını və onu daha əhəmiyyətli vəzifələr gözlədiyini göstərməsin.

Bu halda rəhbər müsahibinə nəzakətlə deməlidir; ‘*Sizin danışdığınız çox maraqlıdır, lakin çox təəssüf ki, indi mən Sizinlə bu mövzuda danışa bilməyəcəyəm” və ya “Sizin xahiş etdiyiniz məsələ həll ediləndir, lakin onu dərindən öyrənmək lazımdır”, yaxud: “Bağışlayın, bizim bu məsələni həll etmək imkanımız yoxdur, çünki Gəlin müzakirə edək, Siz gələcəkdə belə xətalara necə yol vennəyə bilərsiniz” və s. Ən başlıcası, yadda saxlamaq lazımdır ki, müsahib üçün onun başa düşüldüyü və hisslərinin bölüşdürüldüyü faktın özü ünsiyyətdə olduqca zəruridir.

Emosional yardıma tələbat insan üçün vacibdir. O həmişə müsbət emosiyalarla qüvvə toplamaq, sakitlik və özünə inam əldə etmək kimi Özünə zəruri olan emosional vəziyyəti əldə etməyə can atır. Buna kömək edən rəhbər əməkdaşlar və müştərilər üçün caz- bedici olur.

Psixoloji emosiyalara, emosional yardıma tələbat insan üçün nəinki psixoloji, eləcə də bioloji planda böyük əhəmiyyət kəsb edir.

Hər bir insan təriflənmək, bəyənilmək və komplimentlər qazanmaq istəyində olur. Komplimentlər söyləmək bacanğı yaltaqlıq ba-

çarığı demək deyildir. Yaltaqlanmaq o vaxt baş verir İd, insanda olmayan ləyaqəti onun ayağına yazılır. Yaxşı olardı ki, insana xas olan, lakin çox da ifadə olunmayan müsbət keyfiyyət və cəhətlər qeyd edilsin. Hər bir insana xoş olan emosional yardımı əməkdaşa yalnız söhbetin sonunda deyil, söhbətin davam etdiyi bütün müddətdə ifadə etmək məqsədəuyğun olardı. Söhbət əsnasında tərəfdaşa onun fikrinə ehtiramlı münasibəti qeyd etmək, onun yaxşı məziyyətini qabartmaq da faydalı olardı.

Daha bir mühüm psixoloji tələbat - insanın özünü şəxsiyyət kimi hiss etmək tələbatıdır. İnsan həmişə istəyir ki, onu çoxlarından biri kimi deyil, fərdiyyət kimi qəbul etsinlər. Bununla əlaqədar olaraq, məsələn, tövsiyyə edilir ki, rəhbər öz əməkdaşına çox vaxt adı ilə və ehtiram bildirən ifadə ilə müraciət etsin. Belə bir qanunauyğunluq məlumdur: bizə maraqlı, zəruri (lazım) olan insanların adları yaxşı yadda qalır və əksinə, görkəmsiz, boz adamlann adı tez unudulur. Adının unudulduğunu eşitmək insana xoş olmur. Bu o deməkdir ki, onun özü unudulub.

Göstərilən tələbləri ünsiyyətdə nəzərə almaq üçün rəhbərə Özündə “başqa adamlara meyli” inkişaf etdirməkdən ötrü səy göstərmək lazımdır. “Başqa adamlara meyli” V.A. Suxomlinski “yanındakını insan kimi hiss etmək bacarığı, onun ruhunu anlamaq, onun gözlərində mürəkkəb mənəvi dünyanı görmək bacanğı” kimi müəyyənləşdirmişdir.

Əməkdaşın və ya müştərinin daxili aləmini onlann kədəri, qayğıları və sevincləri ilə hiss etməyi bacarmayan, yalnız özünün duyğu ^'Ə tələbatlannı hiss etməyi bacaran rəhbər eqosentrik meyllidir, bu isə nəinki ünsiyyətə kömək etmir, hətta ona mane olur. Yalnız insanlara canlı maraq, onİan yaxından tanımaq istəyi ünsiyyətdə maraqlı tərəfdaşa çevrilməyə kömək edir.

Rəhbərin öz əməkdaşları ilə ünsiyyətinin uğuru ilə onun xarakterinin meyli alturistlik (alicənablıq) və ya eqosentrik (xudbinlik) arasında əlaqə psixoloqlar tərəfindən müəyyən edilmişdir.

Məlum olmuşdur ki, ünsiyyətdə böyük uğurlan alturistlik meyiti xarakterə malik rəhbərlər qazanırlar. Belə rəhbərlər ünsiyyətdə sı

xılmır vo ehtiyatlı deyildirlər, özlərinin kommunikativ bacanqlanna inam hiss edİr, səmimi, sərbəstdirlər. Bəzən onlar konkret ünsiyyət vasitəsino, etiketinə və s. malik olmasalar da, ünsiyyətdə böyük səhvlərə yol vermir və heç vaxt öz müsahibinin şəxsi ləyaqətini alçaltmırlar, çünki onlar daim hiss edirlər ki, insanlar (əməkdaşlar, müştərilər) belə rəhbərlər üçün deyil, onlar, rəhbərlər - insanlar üçün mövcuddur. Onlar insanları dinləməyi, onlann qayğtlanna qalmağı, onların məsələlərini hüquqi əsasda həll etməyi bacarırlar.

Bununla eyni vaxtda rəhbərə müsahibinin xarici görünüşünün ayn-ayrı çalarları (nüansları) üzrə özündə onun psixoloji portretini tərtib etmək bacanğını inkişaf etdirmək lazımdır. Bu keyfiyyəti inkişaf etdirmək ona görə lazımdır ki, müsahibin özünü bu və ya başqa situasiyada necə aparacağını, nə barədə xahiş edə biləcəyini, maraqlarına nəyin daxil olduğunu başa düşməyi öyrənsin. Bütün bu nüanslar rəhbərə müsahibinə fərdi yanaşma üsulunu seçməkdə kömək edir. Axı əgər o, birinci baxışdan insanın davranış mədəniyyətini, onun başqa adamlara tələblərini qiymətləndirməyi bacararsa, onda qarşılıqlı əlaqə üzrə tərəfdaşının ona həvalə etdiyi ümidləri doğrultmaq üçün öz hərəkətlərini qurmaq çətin olmayacaq.

Başqa adamlara meylin inkişafı rəhbərə nəinki müsahibinin (qarşılıqlı əlaqə üzrə tərəfdaşın) vəziyyət və xarakterini dərindən başa düşməyə, eyni zamanda ona fərdi yanaşma üsulu seçməyə imkan verir ki, bu da ünsiyyətin uğuru üçün olduqca vacibdir.

Ünsiyyətin təsirinə rəbor tərəfindən kömək edilən keyfiyyətlər sırasında dözüm, təmkin kimi keyfiyyəti də fərqləndirmək məqsədəuyğun olardı.

Gömrük orqanı rəhbəri təkcə xoş tərəf-müqabillə deyil, həm də xoşagəlməz (hirsli, aqressiv, nəzakətsiz, mədəniyyətsiz və s.) tərəf-müqabillə ünsiyyət saxlamalı olur. Belələri ilə söhbətdə bəzən səsi qaldırmamaq, kəskin ifadələr işlətməkdən özünü saxlamaq çox çətin olur. Və əgər xoş adamlarla söhbət zamanı rəhbər onların sözünü arabir kəsirsə, xoşa gəlməyən adamlarla söhbətdə onların sözlərini axıra qədər dinləməyə çalışmaya bilər, onlann hər bir sözündə o, nəsə incidici və özü üçün alçaldıcı bir şey görə bilər.

Mənfi emosiyalar onu bürüyo bilər; belə emosiyalardan özünü saxlamaq çox çətin olur. Belə situasiyalarda ünsiyyət üçün lazım olan dözüm və təmkin rəhbər üçün kifayət etməyə bilər.

Bu səbəbdən rəhbər özündə dözüm və təmkin İnkişaf etdİnnə- li, əməkdaşları arxasınca aparmalı, güclü özünə nəzarəti həyata keçirməlidir; xoşagəlməz adamlarla, xüsusilə bir və ya iki dəfə deyil, müntəzəm əlaqə saxlamalı olduğu xoşagəlməz adamlarla ünsiyyət saxlamaqda Özündə dözüm tərbiyə etməlidir.

Gömrük orqanı rəhbərinin təmkinli davranışı və sakit tonda səbirli danışığı onunla ünsiyyətdə olanlara özünü bəddən artıq sərbəst və emosional aparmağa imkan verməyəcək,

Buna görə də, hətta azmodəniyyətli, kobud tərəfmüqabillə görüşərkən belə gömrük orqanı rəhbəri ünsiyyət mədəniyyəti nümayiş etdirməlidir. Şərqşünas və arxeoloq Q. Vinkler bu barədə çox müdrik fikir söyləmişdir:

‘‘Başqalarının natamamlığma dözmək (tab gətirmək) yüksək loyaqət əlamətidir”.’

Beləliklə, yuxanda deyilənlərin əsasında gömrük orqanı rəhbərinin idarəçilik fəaliyyətində səmərəli ünsiyyət və xidməti etikanın aşağıdakı qaydalan tövsiyə edilə bilər:

- insanlara maraq nümayiş etdirin, onlara qarşı diqqətli olun;
-tabeliyinizdəkilərə göstəriş verməyi elə bacarın ki, onlar bunu özlərinin qəran hesab etsinlər;
-tabeliyinizdə olanlann adlarını və soy adlarını yadda saxlamağa çalışın və onlarla təbii davranın;
-hər bir əməkdaşın şəxsi ləyaqət hissini, təşəbbüsü va işə yaradıcı yanaşmasını inkişaf etdirin və müdafiə edin;
-istehza etməyin, pisləməyin, özünüzü məzəmmət edilənin yerinə qoymağı bacann;
- insanları salamlamağı və dinləməyi bacarın.

***1 Sitat Boponmcoa B. CuJt^fouua poJVMa. ... M. 1976, asarindan götärälmäşäär.***

## Müvzu 24. Gömrük orqanlarında kargüzarlıq

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində xidməti sənədlərin hazırlanması, hərəkəti, icrası, uçotu və saxlanmasını tənzimləyən vahid qaydalar Komitə sədrinin 28.12.1998-ci il tarixli 075 saylı əmri ilə təsdiq edilmiş Təlimatla müəyyən edilir.

Bu Təlimat Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində xidməti sənədlərin hazırlanması, hərəkəti, icrası, uçotu və saxlanmasını tənzimləyən vahid qaydaları müəyyən edir.

Təlimat təşkilati-sərəncamverici sənədləşmələrə aid Dövlət Standartlanna uyğun olaraq hazırlanmışdır.

Məxfi karguzarlıq, məhdud yayımh qeyri-məxfi məlumatlar olan sənədlərlə (“xidməti istifadə üçün”) iş qaydası, həmçinin vətəndaşların təklifləri, ərizələri və şikayətləri üzrə kargüzarlıq xüsusi təlimatlarla müəyyən edilir.

Sənədlərlə işə təşkilati-metodik rəhbərliyi və bu Təlimatın icrasına nəzarəti Komitənin İşlər İdarəsi həyata keçirir.

Azərbaycan Respublikası DGK-nin struktur bölmələrində kargüzarlığın aparılması həmin bölmələrin rəhbərlərinə tapşırılır. Onlar kargüzarlığm düzgün aparılmasına görə məsuliyyət daşıyırlar.

Struktur bölmələrində kargüzarlığm apaniması bölmələrin ləhbərliyi tərəfindən xüsusi təyİn edilən işçilər tərəfindən həyata keçirilir.

DGK-nin müstəqil struktur bölmələrinin, gömrük orqanlan və təşkilatlarının fəaliyyətinə aid məsələlərin təsnifatının və sənədlərdə işin rahatlığı, düzgün nömrələnməsi üçün mərkəzi aparatın struktur bölmələrinə müəyyən indeks-şərti rəqəm işarəsi verilir, həmçinin gömrük orqanlarına, təşkilatlanna və gömrük postlarına da belə şərti işarələr verilə bilər.

## *24.1. S9n9dl»rin qeydiyyatı,*
## *uçotu* va *gönd»rilmosi qaydası*

DGK-ya daxil olatı bütün sənədlər İşlər İdarəsinin ümumi şöbəsi tərəfindən qəbul edilir.

İş vaxtından kənar, iş günü qurtardıqdan sonra, İstirahət və bayram günləri, hökumət yazışmaları və təcili teleqramlar DGK-nin məsul növbətçisi tərəfmdən qəbul edİlİr.

DGK-ya ünvanlanmış, lakin bilavasitə struktur bölmələrinin işçiləri tərəfindən başqa idarə və təşkilatlarda olarkən qəbul edilmiş sənədlər qeydiyyat üçün ümumi şöbəyə təhvil verilməlidir.

“Şəxsən” və “Məxfi” qrifı olan zərflərdən başqa ümumi şöbə tərəfindən qəbul edilmiş korrespondensiya açılır. Bu zaman çatdırılmanın düzgünlüyü, zərflərdə sənədlərin və onlara əlavələrin olması yoxlanılır. Səhvən gətirilmiş yazışma aidiyyəti üzrə göndərilir və ya göndərənə qaytarılır.

Zərfdə sənəd, ona əlavələr, sənəddə imza olmadıqda, zərfin üzərindəki nömrə sənədin nömrəsinə uyğun golmədikdə bu barədə ümumi şöbənin rəhbərliyinə məruzə edilir, akt tərtib olunur, onun bir nüsxəsi ümumi şöbədə qalır, digəri isə sənədin daxil olduğu təşkilata göndərilir.

Xarici dildə DGK rəhbərliyinin adına daxil olan beynəlxalq yazışma ümumi şöbə tərəfindən əvvəlcə tərcümə üçün DGK-nin Xarici əlaqələr şöbəsinə (sənədin təcili liyindən asılı olaraq tərcümə müddəti: dərhal, yaxud 3 günə kimi) verilir, sonra isə qeydiyyatdan keçirilir.

Kuryer tərəfindən gətirilmiş və ya “şəxsən” yazısı olan zərfdə xidməti sənəd almış DGK-nin aparıcı işçisi onu qeydiyyata uunma- sı üçün ümumi şöbəyə verməlidir.

Sənəddə ştamp və ya göndərənin ünvanı olmadıqda zərf sənədə qoşulur. Zərflər sənədin göndərilmə və alınma vaxtını təsdiq etmək üçün zəruri olduğu halda da sənədə əlavə edilir.

Sənədlərin qeydiyyatı, onlann icrası, hərəkətinin uçotu və onlara nəzarətin təmin edilməsi məqsədi ilə sənədlər barədə zəruri

SənodlərÌn qeydiyyatının osas prinsipi birdofəlik prinsipdir, yəni bir sənəd yalnız bir dəfə qeydiyyata aimmalıdır.

Daxil olan sənədlər ümumi şöbə tərəfindən mərkəzləşdirilmiş qaydada daxil olma günü, xaric olan və daxili sənədlər isə imzalanma günü müvafiq qeydiyyat kitablarında qeydiyyata alınmalıdır.

Yuxan təşkilatlardan, nazirlik, komitə, mərkəzi icra hakimiyyəti və hüquq mühafizə orqanlanndan, xarici dövlətlərdən ve səfirliklərdən, müxtəlif təşkilatlardan və hüquqi şəxslərdən, respublikanın gömrük orqanlan vo təşkilatlarından, vətəndaşlardan {fiziki şəxslərdən), eləcə do mərkəzi aparatın struktur bölmələri tərəfindən DGK rəhbərliyinə və struktur bölmələrə ünvanlanan sənədlər, DGK-nin Kollegiyasının qərarları, DGK-nin əmrləri, digər göstərişlər, qərar və sərəncamlar hər bir sənəd növü üzrə aynca qeydiyyata alınır.

Daxil olan bütün sənədlərdə birinci səhifənin aşağı sağ küncündə daxil olına barədə qeyd (ştamp) qoyulur, daxil olan sənədin indeksi, qeydiyyat tarixi göstərilir.

İmzalanmış xaric olan yazışmalann qeydiyyatı zamanı ümumi şöbə işçisi ünvanının yazılmasının düzgünlüyünü və sənədlərdə göstərilən əlavələrin, başlığın və icraçı barədə qeydin olmasını yoxlamalı, surətləri təsdiq etməli, xaric olma nömrəsi qoymalı və müvafiq qeydiyyat kitablarında lazımi qeydlər etməlidir.

Başlığı olmayan, pwçt ünvanı göstərilməyən, icraçının soyadı və adı, telefonu yazılmayan sənədlər qeydiyyat və göndərilmə üçün qəbul edilmir.

Hökumət idarələrinə, həmçinin DGK sisteminə daxil olan gömrük orqanlan və təşkilatlanna göndərilən sənədlərdə ünvan göstərilmir.

### *24.2. Struktur bölmBhrds ssnədlərin har^kəti va nazardən keçirilmasi*

Müstəqil struktur bölmədə kargüzarlıq aparan şəxs alınmışq vazısmaları qevdivvat kitabında qevdivvatdan kecirərək sənədləri

Sənəd bölmə rəhbəri tərəfindən baxıldıqdan sonra kargüzarlıq aparan şəxs onun dərkənannı qeydiyyat kitabında yazaraq sənədi icra üçün qol çəkdirməklə icraçıya verir.

Rəhbərliyin dərkənan ilə bir neçə icraçı təyin edilmişsə, onun bir əməkdaşdan digərinə verilməsi kargüzarlıq aparan şəxs vasitəsilə qeydiyyat kitabında bu barədə qeydiyyat edilməklə həyata keçirilir.

İşdən azad olunarkən, başqa iş sahəsinə keçərkən, məzuniyyətə çıxarkən və ya xəstə olarkən icraatda olan bütün sənədlər icra üçün kargüzarlıq işini aparan şəxs vasitəsilə struktur bölmənin rəhbərliyi tərəfindən təyin olunmuş başqa əməkdaşa təhvil verilir.

Sənədin məzmununa görə onun səhvən bu struktur bölməyə ünvanlandığı müəyyən olunsa, kargüzarlıq aparan əməkdaş qeydiyyat kitabında müvafiq qeydlər edir və sənədi ümumi şöbəyə qaytarır.

Sənəd icra olunduqdan və ya dərkənarda göstərilən bütün icraçılar onunla tanış olduqdan sonra kargüzarlıq aparan şəxs bu barədə qeydiyyat kitabının nəzarət qrafasında qeydlər aparır.

İcra olunmuş sənəddə icraçı tərəfindən yerinə yetirilmiş iş barədə qısa arayış verilir və sənəd kargüzarlıq aparan şəxsə verilir, o isə onu nomenklatur üzrə müvafiq işə tikir.

DGK rəhbərliyinin dərkənan ilə ümumi şöbədən daxil olmuş kollegiya qərarlan, kollegiya qərarlanndan çıxarışlar, əmrlərin surətləri Komitənin mərkəzi aparatının struktur bölmələrində yenidən qeydiyyatdan keçirilmirlər (DGK sisteminə daxil olan gömrük orqanlan və təşkilatları istisna olmaqla).

Bu sənədlər də kargüzarlıq aparan şəxs tərəfindən struktur bölmə rəhbərliyinə məruzə edi ir, dərkənar qoyulduqdan sonra sənəd tanış olma və icra üçün qəbul olunur.

İcra edildikdən sonra sənəd nomenklatur üzrə müvafiq işə tikilir.

Müstəqil struktur bölmə rəhbəri tərəfindən imzalanmış, həmçinin rəhbərliyin imzası tələb olunan xaric olan sənədlər icraçılardan kargüzarlıq aparan əməkdaş tərəfindən qəbul edilir, qeydiyyat, rəhbərliyə imzalamaq və göndərilmə üçün ümumi şöbəyə verilir. Xaric olan cavab sənədləri yalnız sənəd sorğularla (əsaslarla) birlikdə qəbul edilir.

Kargüzarlıq aparan şəxs göndərilən sənədlərin düzgün tərtib olunmasını yoxlamağa borcludur.

İmzadan sonra ümumi şöbə tərəfindən sənədə xaric olma nömrəsi verilir, surətlər təsdiq olunur, qeydiyyat kitabında müvafiq qeydlər apanhr və Komitədə qalan sənədlər işə tikilmə üçün qeydiyyatdan sonra struktur bölmələrə qaytarılır.

Struktur bölmələrin kargüzarlığmda bütün işlər kargüzarlıq aparan şəxslərdə formalaşdırılır və saxlanılır. İcraçılar özlərində yalnız icra üçün onlarda olan sənədləri saxlayırlar.

Xidməti sənədlər şkafın içində saxlanmalıdır.

İcra olunmuş sənədlərin icraçılarda saxlanılması qadağan olunur.

DGK rəhbərliyinin ünvanına daxil olan yazışmalar mənizə üçün ümumi şöbədə hazırlanır.

Struktur bölmələrin rəhbərlərinə sənədlər DGK Sədri və onun müavinləri tərəfindən dərkənar qoyulduqdan sonra verilir.

İstisna qaydasında operativlik tələb olunan məsələlər üzrə sənədlər DGK rəhbərliyinə sonradan mənizə edilmək şərti ilə do struktur bölmə rəhbərlərinə verilə bilər.

Daxil olan bütün sənədlər daxil olma günü nəzərdən keçirilməlidir.

Sənədlərin nəzərdən keçirilməsinin nəticələri dərkənarda öz əksini tapır. Dərkənar sənəddə birinci vərəqin yuxan sol hissəsində, ünvan yeri ilə sənədin mətni arasında mətnə toxunmadan, yaxud da dərkənar üçün xüsusi blankda yazılır,

Dərkənarda bir qayda olaraq, aşağıdakılar göstərilməlidir: icraçının (icraçıların) soyadı, adı və atasının adının baş hərfləri, hərəkət barədə göstəriş, onun icra qaydası və müddəti, rəhbərin imzası və dərkənarın imzalanma tarixi.

Sənəddə yalnız bir dərkənar olmalıdır. Rəhbərlərin sonrakı dərkənarlanna o zaman yol verilir ki, onlarda sənədin icra olunması qaydasının təfsilatı verilsin.

Sənədin İcrası barədə göstəriş, bir qayda olaraq, bir vəzifəli şəxsə verilir. Bir neçə icraçı təyin edilmişsə, sənədin bütövlükdə icrası üçün məsul birinci göstərilən şəxsdir. Ona birgə icraçıları bir yerə toplamaq hüququ verilir. Birgə icraçılar məsul İcraçının tələbi

İlə bütün zəruri sənədləri təqdim etməlidirlər. Birgə icraçılar tapşınğın vaxtında və keyfiyyətli icrasına görə eyni dərəcədə məsuliyyət daşıyırlar.

Bir neçə bölmə tərəfindən icra olunmasını tələb edən sənədlər növbə ilə onlara verilir. İstisna qaydasında, icra olunan sənədin təcil iliyindən və xarakterindən asılı olaraq, İşlər İdarəsinin və ümumi şöbənin rəisinin icazəsi ilə sənədlərin surətləri çıxarıla bilər.

Struktur bölmələrdə struktur bölmənin rəhbərliyi tərəfmdən nəzərdən keçirilmiş sənəd müvafiq icraçılara verilir (surəti çıxarılmır).

Tanışlıq üçün struktur bölmələrə göndərilən sənədlər mümkün qədər qısa müddətdə, bir qayda olaraq, bir gündən gec olmayaraq tanış edilir.

Müraciətdəki məsələlər üzrə gömrük orqanı və təşkilatlannın rəyini almaq zərurəti olduqda, bu cür sənəddən kserosurət çıxan- lır. Surət qoşma məktubla birlikdə müvafiq gömrük orqanına (idarəyə, təşkilata) göndərilir.

Qeydiyyat kitabında sənədin rəy üçün göndərilməsi və rəyin baş idarəyə daxil olması tarixləri barədə qeydlər edilir.

Təlimatın bütün tələblərini nəzərə almaqla tərtib olunmuş məktub və ya sərəncamverici sənədin layihəsi əsasla, yəni icrası üçün yeni sənəd hazırlanmış sənədlə birlikdə imzalanma üçün rəhbərliyə verilir.

Sənəddə ifadə olunmuş məsələnin həlli müəyyən səbəblərdən gecikdirilİrso icraçı bu barədə sənəd göndərəni xəbərdar edir.

Son olmayan cavab sənədin icra olunmuş sayılması üçün əsas sayıla bilməz.

Xidməti sənədlərə aid sorğu aparatı, daxil olmuş, göndərilmiş və daxili sənədlər barədə zəruri informasiyası olan kargüzarhq qeydiyyat kitabları və iş nomenklaturalarınm kompleksidir.

### *24.3. JüdmBti s^n^ähria* ***tərtibi və rəsnti/əfäiri/məsi***

Ağ vərəqdə və ya blankda çap olunmasından asılı olmayaraq sənədlər aşağıdakı formatlı kağızlarda tərtib olunur:

*Format A3 (420x297mmj* - çoxsaylı qrafalı cədvəlləri olan materiallar;

*Formal A4 (2I0x297mm)* - həcmi 10 sətir makina (kompüter) yazısı mətnindən çox olan əmrlər, məktublar, digər sənədlər;

*Format A5 {2WxI48mm)* - həcmi 10 sətir makina (kompüter) yazısına qədər olan əmrlər, məktublar, digər sənədlər;

*Format A6 (148xI05mm)* - poçt açıqcası tipli və trafaret məktublar.

Sənəd tərtib olunması üçün iki növ biankdan istifadə olunur: xidməti məktub blankı və ümumi blank. Ümumi blank əsasında müxtəlif növ sənədlər üçün blanklar hazırlanır (əmrlər, göstərişlər, qərarlar, protokollar və s.)

Blankda sonodlorin birinci səhifəsi çap olunur. Sonrakı mətn blankla eyni fonnata və keyfiyyətə malik təmiz kağız vərəqlərində çap edilir.

Müvəqqəti saxlama müddəti olan sonodlər vərəqin arxa tərəfində də çap edilə bilər.

Sənədlərin aşağıdakı rekvizitləri olmalıdır; Dövlət Gömrük Komitəsinin adı, sənədin adı, mətnin qısa məzmununu əks etdirən başlığı, ünvan, tarix, razılaşdırma qrifl, sənədin təsdiqi (imza, təsdiq möhür vurulması), daxil olma, icra və sənədin işə tikilmə üçün göndərilməsi barədə qeydlər.

Blanklarda və ya ağ kağız vərəqlərində tərtib olunan sənədlər- dək i hər bir rekvizit onun üçün dövlət standartları ilə müəyyən edilmiş sahədə yerləşdirilir.

Daxili sənədlər (mənizə, izahat vərəqləri, ərizələr və s.) A4 və A5 formatlı standart kağız vərəqində tərtib olunur.

Sənəd nazirliyə və ya idarəyə, təşkilata və ya müəssisəyə, onların struktur bölmələrinə, konkret vəzifəli şəxsə, vətəndaşlara ünvanlana bilər.

Sənəd idarəyə, təşkilata və ya onun struktur bölməsinə ünvanlandıqda onların adları adlıq halda göstərilir; sənəd təşkilat rəhbe- rino və ya onun müavinlərinə ünvanlandıqda təşkilatın adı adresa- tın vəzifəsinin ad tərkibinə daxil edilir.

Sənəd konkret vəzifəli şəxsə ünvanlandıqda, idarənin adı adlıq halda, onun vəzifəsi və familiyası isə yönlük halda göstərilir.

**Sənəd bir neçə ünvana göndərildikdə "adresat" rekvizitini ümumiləşdirilmiş şəkildə göstərməyə yol verilir. Məsələn; gömrükxana rəislərinə.**

**Poçt ünvanı "Azərbaycan Respublikası Rabitə Nazirliyinin poçt qaydalan"na uyğun olaraq tərtib olunur.**

**Hökumət idarələrinə, həmçinin DGK. sisteminə daxil olan gömrük orqanları və təşkilatlarına və strukturlarına göndərilən sənədlərdə poçt ünvanı yazılmır.**

**Sənəd özəl şəxsə ünvanlanmışsa, əvvəlcə onun poçt ünvanı, sonra isə soyadı, adı və atasının adı göstərilir.**

**Daxili sənədlərdə (məruzə, izahat vərəqləri, ərizələr və s.) yalnız vəzifə göstərilir, şəxsi rütbə göstərilmir.**

**Sənəd xüsusi rütbəsi, hərbi rütbəsi, şəxsİ (personal) rütbəsi, elmi rütbəsi, elmi dərcəsi olan şəxsə ünvanlanırsa əvvəlcə onun vəzifəsi, sonra isə xüsusi rütbəsi yazılır.**

**Vətəndaşlara məktublar ünvanlandıqda soyadlarının önündə "vətəndaş(lar)" sözü qısa, "vət." şəklində yazılır. Bu, vətəndaşların soyadları göstərilən başlıqlara və mətnlərə də aid edilir.**

**Sənəddə dörddən artıq ünvan göstərilməməlidir. Sənəd iki-dörd ünvana göndərilirsə, onun bütün nüsxələri blanklarda çap olunur. 2-ci, 3-cü və 4-cü ünvan qarşısında "surət" sözü yazılmır. Sənədin bütün göndərilən nüsxələri imzalanır.**

**Sənəd dörddən artıq ünvana göndərildikdə yalnız işdə qalan orijinalında imza və viza qoyulur. Sənədin əslinin zəruri sayda nüsxədən ibarət surəti çıxarılır. Sənəd şöbə rəisi tərəfindən imzalanır və ona əlavə edilən göndənnə siyahısına uyğun olaraq göndərilir. Sənədəni hər nüsxəsində yalnız bir ünvan göstərilir, Göndənnə siyahısı sənədin əsli ilə birlikdə saxlanılır.**

**Hər bir sənəddə (məktubdan başqa) onun adı - əmr, göstəriş, arayış, xidməti qeyd, məruzə vərəqi, istiqamətlənmə və s. göstərilir.**

**Tarix sənədin yuxarı sol hissəsində indekslə birlikdə göstərilir. Teleqramda göndərilmə tarixi, göndərənin adı və ünvanı yerləşdirilən cizginin altında göstərilir.**

**Tarix nöqtələrlə aynimış üç cüt ərəb rəqəmi ilə göstərilir; ayın tarixi, ayın sıra nömrəsi, ilİn son iki rəqəmi.**

Sənədin hərəkəti vo icraçısı ilə bağlı onun üzərindəki bütün kargüzarlıq qeydlərinin tarixi də bu üsulla göstərilir.

Tarixlərin göstərilməsinin söz-rəqəm üsulu bir qayda olaraq, maliyyə xarakterli sənədlərdə yol verilir.

İndeks sənədin yuxarı sol hissəsində qoyulur.

Xaric olan sənəddə alınmış sənədin indeksinə istinad edilir.

Cavablarda (teleqrafla) mətndə ilk olaraq icra olunmalı sənədin nömrəsi göstərilir.

Başlıq mütləq qaydada istənidən sənəddə tərtib olunur. Başlığı sənədi tərtib edən "no barədə" sualına cavab verərək qısa, bir cümlə itə formalaşdırır. Məsələn: "İş planının təsdiqi barədə", "... dəyişdirilməsi haqqında", "... ləğvinə dair", "...ayrılması haqqında".

Başlıq mətnin üstündə sol hissədə yerləşdirilir. Başlığın sonunda nöqtə qoyulmur.

Sənəddə bir neçə məsələdən bəhs edilirsə, başlıq ümumi şəkildə formalaşdırılır.

Əksəri böyük informasiya həcminə malik, müstəqil bölmələri olan sənədlərdə yanmbaşlıqlardan istifadəyə yol verilir (kiçik hərflərlə).

Teleqramlarda, bildirişlərdə, vətəndaşlara cavablarda və mətni A5, A6 fonnatlı kağızlardan çap olunan sənədlərdə başlıq qoyulmur.

İki və ya daha çox səhifədə tərtib olunan sənədlərdə ikinci və sonrakı səhifələr nömrələnir.

Səhifələrin nömrələri vərəqin yuxan hissəsinin ortasında "sohi- fə (səh)" sözü və durğu işarələri olmadan ərəb rəqəmləri ilə qoyulur. Səhifənin nömrəsindən vərəqin yuxan kəsiyənədək məsafə 15 mm-dən artıq olmamalıdır.

Razılaşdırma - sənəd layihəsinin ilkin müzakirə və qiymətləndirmə üsuludur.

Razılaşdırma qrifı "Razılaşdırılmışdır" sözündən, vəzifənin və sənədin razılaşdırıldığı təşkilatın (bölmənin) adından, şəxsi imzadan, onun açılışından və tarixdən ibarətdir.

Sənədin razılaşdırılması həm Komitə daxilində (Baş idarələr, şöbələri idarələr), həm də ondan kənarda həyata keçirilir.

**Razılaşdırma kollegial orqanla aparılırsa, razılaşdırma qrifındə razılaşdıtmanın tərtib olunduğu sənədin növü, tarixi, nömrəsi və təşkilatın (nazirliyin, idarənin) adı göstərilir.**

**Bir neçə təşkilatla razılaşdırma olduqda razılaşdırma vərəqi tərtib edilir.**

**Sənəd layihəsinin DGK-nin struktur bölmələri və vəzifəli şəxsləri ilə daxili razılaşdınna forması - layihəyə viza qoyulmasıdır.**

**Viza, onu qoyan şəxsin imzasından və razılaşdınna tarixindən ibarətdir. Zərurət olduqda imzanın açılışı (soyadı, adı, atasının adı) verilir.**

**Sənədə aid iradlar və ya əlavələr ayrıca vərəqdə dəqiq ifadə edilmş bənd və ya əsaslandırılmış təklif şəklində bildirilir. Vizanın yanında isə "irada bax" qeydi edilir.**

**Sərəncamverici sənədlərdə (əmrlərin, göstərişlərin, kollegiya qərarlarının, DGK rəhbərliyi yanındakı müşavirlərin protokollan-nın, təklif-məktubların layihələri) vizalar imzalanacaq nüsxədə qoyulur. Məktublara, teleqramlara və digər xaric olan sənədlərə vizalar DGK-da qalan nüsxələrdə qoyulur.**

**Vizalar sənəddə məmin və imzaların aşağısında qoyulur.**

**DGK-nin rəhbərliyinə imzalanma üçün təqdim edilən sənədlərin layihələri sənədin tərtibçisi, sənədi hazırlamış bölmənin rəhbəri, əlaqədar struktur bölmələrin rəhbərləri, hüquq şöbəsinin rəisi və kuratorluq üzrə Sədrin müavini tərəfindən vizalanmalıdır.**

**DGK-nin Sədrinə imzalamna üçün təqdim olunan sənədlərdə, bundan əlavə, Sədrin müavinlərinin də vizaları olmalıdır.**

**Xidməti sənədin vacib rekviziti imzadır.**

**DGK-nin adından başqa təşkilatlara göndərilən sənədlər DGK-nin Sədri və Sədrin müavinləri tərəfindən imzalanır.**

**Müstəqil struktur bölmələrin adından göndərilən sənədlər həmin bölmələrin rəhbərləri və ya onların müavinləri tərəfindən im2alanır.**

**"İmza" rekviziti sənədi imzalanmış şəxsin vəzifəsindən, onun şəxsi imzasından və imzasının açılışından ibarətdir.**

**İki və ya daha çox nazirliyin (idarənin) və ya onların struktur bölmələrinin imzaları olan sənədlərdə (blanklarda yazılmır) təşki**

latların adları göstərilməklə vəzifəli şəxslərin imzası eyni üfiiqi səviyyədə qoyulur.

Sənədin tərtib olunmasının təşobbüskan olan şəxsin imzası birinci qoyulur.

İki və ya daha çox imza o halda qoyulur ki, sənədin məzmununa görə bir neçə şəxs məsuliyyət daşıyır (məsələn, aktlar, maliyyə sənədləri, bir neçə bölmə tərəfindən hazırlanmış sənədlər və s.).

DGK-nin bir neçə vəzifəli şəxsinin imzalan tutduqlan vəzifələrə uyğun olan ardıcıllıqla qoyulur.

Komissiya tərəfindən tərtib olunmuş sənədlərdə sənədi imzalayan şəxslərin vəzifələri yox, komissiya tərkibində vəzifə bölgüsü göstərilir.

Son hədd təxsisatlan, ştat sayınm aıtınlması, əməkhaqqı fondunun izafi xərclənməsi, nomenklatur işçilərin mükafatlandınimaması məsələləri üzrə əmrlər yalnız DGK-nin Sədri tərəfindən, o olmadıqda isə onu əvaz edən şəxs tərəfindən imzalanır.

Kadrların təyin edilməsi və yerlərinin dəyişdirilməsi, həvəsləndi rnıə və tənbeh verilməsi məsələləri üzrə əmrlər DGK-nin Sədri və ya onu əvəz edən şəxs tərəfindən imzalanır.

Sənəd, rəhbəri əvəz edən şəxs tərəfindən imzalanırsa, bu zaman mütləq sənədi iınzalayan şəxsin faktik vəzifəsi və soyadı göstərilir. Sənədin “əvəzinə” sözü yazılmaqla və ya vəzifə adı önündə çop cizgi qoyulmaqla imzalanmasına yol verilmir (imzalann tərtib olunma nümunələri əlavə 8-də).

Hüquq-mühafizə orqanlarına göndərilən sənədlərdə sənədi imzalayan şəxsin vəzifəsi ilə bərabər xüsusi rütbəsi də göstərilir.

Əsl liy inin xüsusi təsdiqini tələb edən sənədlərə möhür vurulur.

DGK-nin gerbli möhürü ilə DGK Sədrinin, Sədrin müavinlərinin şəxsi imzalan təsdiq edilir.

Möhür elə vurulur ki, onun basqısı imzalayanın əsl imzasına və vəzifəsinin adına toxunmuş olsun.

Prezident Aparatına, Milli Məclisə, Nazirlər Kabinetinə ünvanlanmış sənədlərə əlavə edilən arayışlar, cədvəllər və başqa materiallar əsas sənədi imzalamış şəxsin imzası ilə təsdiqlənir.

Xidməti sənədlərin mətni dəqiq, müxtəlif yozumlara yol verməyən, qısa, mükənunəl redaktə edilmiş olmalıdır.

Qanun, fənnan, hökumət orqanlannm qərarı və ya sərəncamları əsasında hazırlanan sənədlərdə onlara istinadlar olmalıdır (adı, tarixi, nömrəsi və başlığı).

Yuxan orqanlara təqdim olunan arayışlann, məkuıblann və digər sənədlərin həcmi 4-5 səhifədən, böyük məsələlər üzrə 8 səhifədən artıq olmamalıdır.

*24.4, Dövht gömrük komitəsinin əmrlərinin, göstəriş və təlimatlarının hazırlanması, rəsmiləşdirilməsi və göndərilməsi*

DGlC-nin normativ xarakterli əmrləri, habelə göstərişləri, təlimatları, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, sərəncamları. Milli Məclisin qərarları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, sərəncamlan və göstərişlərinin icrası məqsədilə, həmçinin EKJK- nin idarəçilik fəaliyyəti ilə bağlı verilir və DGK-nin Sədri, o olma- dıqda isə - onu əvəz edən şəxs tərəfindən imzalanır.

DGK-nin əmr və göstərişlərinə əlavələr layihəni hazırlamış struktur bölmələrin rəhbərləri tərəfindən imzalanır.

Əmrlər imzalanma üçün DGK-nin Sədrinə və ya onu əvəz edən şəxs, bir qayda olaraq, İşlər İdarəsində baxıldıqdan sonra Sədrin köməkçisi vasitəsilə təqdim edilir.

Əmrin və ya göstərişin imzalanma tarixi onun verilmə tarixi hesab olunur.

Aşağıdakılar əmrlə rəsmiləşdirilməlidir:

a) normativ xarakter daşıyan əsasnamələrin, qaydaların və təlimatların təsdiqi və qüvvəyə minməsi;

b) kollegiya qərarları, DGK-nin aparatının fəaliyyətinin daimi xarakterli məsələləri üzrə sərəncam və tapşınqlan;

c) kompleks yoxlamaların və təftişlərin nəticələrinin elan edil

məsi;

ç) DGK-nin nomenklatur işçilərinin işə qəbulu, başqa işə keçi-rilmosi, işdən azad edilməsi, həvəsləndirilmə və inzibati tənbeh tədbirləri;

d) Azərbaycan Respublikası daxilində və xaricə işçilərin ezam edilməsi.

Əgər əmrin verilməsi üçün əsas yuxan təşkilatın sərəncamveri- ci sənədi olmuşsa, onda giriş hissəsində onun tarixi, nömrəsi və adı göstərilir. Məsələn:

Nazirlər Kabinetinin 12.08.98 tarixli 575 N-li sərəncamına uyğun olaraq.

‘‘İcrası məqsədilə'' ifadəsi Hökumətin və ya başqa orqanın aktı DGK-nin üzərinə bu və ya digər hərəkətləri yerinə yetirmək vəzifəsi qoyduğu hallarda yazılır.

Nazirlər Kabinetinin qərarının və ya sərəncamının icrası məqsədilə əmr layihəsi hazırlanarkən əmr hissəsinin məzmununda gömrük idarələrinin nəzərinə çatdınimalı olan həmin hökumət aktlarının bir və bir neçə bəndinin şərh edilməsi mümkündür. “Uyğun olaraq" ifadəsi o zaman yazılır ki, hökumətin və ya digər orqanının aktında DGK-ya birbaşa göstəriş yoxdur, lakin elə bir qayda və ya nonna var ki, ona uyğun olaraq DGK-nin fəaliyyətinə aid bu və ya digər məsələləri həll etmək lazımdır.

EKjK-nin göstərişləri ilə rəsmiləşdirilir:

a) yuxan orqanlann direktiv sənədlərinin elan edilməsi və ya gömrük orqanları və toşkilatlannm nəzərlərinə çatdıniması, qüvvədə olan qanunların vo hökumət qərarlannm tətbiqi qaydasının izah edilməsi:

b) DGK-nin struktur bölmələri vo onun tabeliyində olan gömrük orqanları və təşkilatlan tərəfindən icrası məcburi olan əmrlərin, təlimatların, nazirlik vo idarələrin digər normativ və hüquqi aktlan-ıın elan edilməsi.

Sorəncamverci sənədlərin layihələrini struktur bölmələr öz təşəbbüsləri ilə və ya DGK rəhbərliyinin tapşıngı itə hazırlayırlar. Bölmə rəhbərləri layihənin hazırlanma müddətlərini müəyyən edərək, onun gedişinə nəzarət edirlər.

Məzmununa görə əmrlər üç növə bölünür: əsas fəaliyyət üzrə əmrlər, şəxsi heyət üzrə əmrlər, məzuniyyət və ezamiyyətlər haqqında əmrlər.

Kollegiyamn iclası Kollegiya sədri və Kollegiyanın katibinin imzaladığı protokolla sənədləşdirilir. Protokollar və onlardan çıxarışlar, bir qayda olaraq, iclasdan 3 gün sonra sənədləşdirilir və imzalanma üçün sədrlik edənə verilir. İmzalanmış Kollegiya protokolunun surəti tanış olma üçün struktur bölmə lorə göndərilir. Kollegiyanın qorarlan (tapşınqlan) üzrə çıxarışlar Kollegiya iclasından sonra S gün ərzində göndərilir.

Kollegiya qərarlan (əmrlər) müzakirə zamanı söylənmiş iradlara uyğun olaraq tam işlənir və 3 gün müddətində, yaxud da Kollegiya tərəfindən müəyyən olunmuş müddətdə Kollegiyanın katibi və ya İşlər İdarəsinin rəisi vasitəsi ilə DGK-nin rəhbərliyinə hüquq şöbəsinin rəisi tərəfindən vizalandıqdan sonra imzalanma üçün təqdim edilir. Kollegiya qərarları və ya onlardan çıxanşlar ümumİ şöbə tərəfindən göndərilir.

Kollegiya qərarlarının və Kollegiya qorarlanna uyğun olaraq verilmiş enirlərin yerinə yetiri Imosinə struktur bölmələrin rəhbərləri. Kollegiyanın DGK üzrə operativ tapşınqlannın yerinə yetirilməsinə İşlər İdarəsinin rəisi nəzarot edir.

Teleqramlar yalnız təcili məsələlər üzrə o hallarda vurulur ki, məlumatı başqa üsulla Ötürmək mümkün olmasın.

Teleqramın tərkibinə aşağıdakı elementlər daxildir: sənədin adı, ünvan, mətn, xaric olma nömrəsi, teleqramı imzalamış vəzifəli şəxsin qısa adı, imza, imzanın açılışı.

Teleqramm mətni yığcam ifadə olunur və sözləri, tü>zasian, bağla- yıcılan yeni sətrə keçirmədən (bu zaman məna təhrif olunmursa) vərəqin bir tərəfittdə böyük hərflərlə iki intervalla 2 nüsxədə çap edilir.

Teleqramın sonunda xaric olma nömrəsi qoyulur.

Cavab teleqramının mətni cavab verilən teleqramm xaric olma nömrəsindən başlamalıdır.

Teleqramlar qeydiyyat üçün DGK-nin ünttımi şöbəsinə təhvil verilir.

Teletbnoqramlarda, onlar verildikdən sonra verilmə tarixi və vaxtı, qəbul edənin soyadı və telefonu, göndərənin soyadı qeyd edilir.

Göndərilən teleqramlar vo telefonoqramlar DGK-nin rəhbərləri tərəfindən imzalanır.

Teleqramlar və telefonoqramlar Komitənin Baş İdarə vo idarə rəisləri tərəfindən də imzalana bilər.

*24.S. Ssnsdhrin icrasına n^zarat*

İcraya nəzarət rəhbərliyin sənəd və tapşınqlannda olan məsələlərin vaxtında və tam həllinin təmin edilməsi, işçilərin icra intizamının möhkəmləndirilməsi və məsuliyyətinin artın iması məqsədilə müəyyən edilir.

DGK-nin rəhbərliyi, onun idarə vo müstəqil şöbələrinin rəisləri direktiv orqanların qərar vo tapşırıqlarının, DGK Kollegiyasının qorarianmn, nazirliklərin, idarə və təşkilatların məktub-sorğulan- nın vaxtında vo keyfiyyətli icrasına görə; vətəndaş!ann poçtla daxil olmuş və şəxsi qəbullar zamanı verilmiş təkliflərinin, ərizə vo şikayətlərinin icrasının, uçotunun vəziyyətinə və vaxtlı-vaxtında yerinə yetirilməsinə görə məsuliyyot daşıyırlar.

İşlər İdarəsi (ümumi şöbo) və müvafiq struktur bölmə rəhbərləri tərəfindən gömrük orqanlarının fəaliyyətinə toxunan aşağıdakı sənədlərin icrasına mütləq nəzarət edilir:

- Azərbaycan Respublikası qanunlannm, Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, sərəncamlarının. Milli Məclisin qərarlarının. Nazirlər Kabinetinin qərarlannın, sərəncamlarının:
- Yuxarı orqanların məktub-sorğularının, məktub-tapşınqlannm, nazirliklərin, mərkəzi dövlət idarələrinin sənədlərinin;
- DGK-nin əmrlərinin, göstərişlərinin, kollegiya qərarlannm, DGK rəhbərliyinin tapşırıqlarının, DGK-dan çıxan təşəbbüs sənədlərinin.

Yuxan dövlət orqanlarının sənəd vo tapşınqlarının, kollegiya qərarlarının, əmrlərin, göstərişlərin, DGK-nin Sədri və ya onu əvəz edən şəxs tərəfindən təsdiq edilmiş tədbirlər planlannın fak- tik və vaxtında yerinə yetirilməsinə mütəmadi nəzarəti struktur bölmələrin

Bundan əlavə, aşağıdakılara nəzarət edilir:

a) DGK-nin Sədri və sədrin müavinlərinin adına daxil olmuş sənədlər üzrə məktub-sorğulara və digər sənədlərin icrasına;

b) vətəndaşların təkliflərinə, ərizə və şikayətlərinə vaxtında baxılmasına, vətəndaşların şəxsi məsələlər üzrə qəbulunun uçotuna;

c) DGK-nin struktur bölmələrinə daxil olan bütün sənəd və tap-şınqlann icrasına - həmin bölmələrin rəhbərləri və kargüzarlıq aparan işçilər;

ç) DGK-nin gömrük orqanları və təşküatlanna göndərilən və cavablan gözlənilən, həmçinin nazirliklərə və mərkəzi dövlət idarələrinə, digər idarə, müəssisə və təşkilatlara göndərilən təşəbbüs və direktiv sənədlərə baxılmasının gedişinə - həmİn sənədlərin icraçıları.

Mütləq nəzarətdən keçirilməli olan sənədlərdə icra müddətləri göstərilməyibsə, onlar mövcud qanunvericiliyə uyğun olaraq DGK-nin rəhbərliyi tərəfindən müəyyən edilir.

İcra müddəti DGK-ya daxil olmuş sənədin qeydiyyat anından hesablanır.

Müstəsna hallarda, tapşırığı (dərkənan) müəyyən edilmiş müddətdə icra etmək mümkün olmadıqda, bölmə rəhbəri DGK-nin Sədri və ya ona tapşınq venniş Sədrin müavini qarşısında əvvəlcədən müddətin uzadılması barədə vəsatət qaldınr. Yeni icra müddətləri müəyyən edilməsinə göstəriş verilir.

Nəzarət edilən sənədlərin icrasının nəticələri mütəmadi olaraq ümumiləşdirilir və zərurət olduqda DGK-nin rəhbərliyinə məruzə edilir.

Sənəd və tapşınqlann icrasının gedişinə daİr məlumatlar qeydiyyat kitablarında və xüsusi nəzarət vərəqələrində öz əksini ,apır.

### *24.6. İşhrin nomenkİatura tarkibi, formalaşdırılması v^ arxivhşdirilnt9si*

DGK-nin işlərinin formalaşdınıması məqsədilə kargüzarlıqda sənədlərin məzmunu və növlərinə görə operativ axtanlmasmı təmin edən təsnifatı apanhr.

DGK sənədlərinin təsnifatı hər il ümumi şöbə tərəfindən struktur bölmələrin iş nomenklaturalan əsasında tərtib edilən işlərin ümumi nomenklaturunda öz əksini tapır.

İşlərin nomenklaturuna işlərin indeksləri, struktur bölmələrinin (fəaliyyət istiqamətlərinin) adlan, işlərin miqdan (cildləri) saxlama müddətlən və digər qeydlər daxil edilir.

Nomenklatura, həmçinin, davara etdirmə üçün digər struktur bölmələrdən daxil olmuş, kargüzarlığı başa çatmamış işlər, həm də bütün uçot, qeydiyyat kitabları, soraq kartotekalan (sənədlərə aid və s.) daxil edilir.

İşlərin nomenklaturuna çap nəşrləri, hökumət qərarlarının topluları, xəbərləri, kitabçalar, informasiya vərəqələri, bülletenlər, refe- rativ jumallar, ekspres-məlumatlar və digər bu qəbildən olan materiallar daxil edilmir.

Nomenklatura daxil edilmiş hər bir iş struktur bölmənin və işİn həmin struktur bölmə daxilində sıra nömrəsini bildirən ciddi müəyyən edilmiş indeksə malik olmalıdır.

Nomenklatura daxil edilən işlərin başlıqlan konkret, qısa və aydın olmalı, ümumiləşdirilmiş formada sənədlərin əsas məzmununu və tərkibini əks etdirməlidir.

İşin başlığında qeyri-konkret ifadələrin; “müxtəlif materiallar”, “ümumi yazışma”, “planlaşdırma” və s. işlənməsinə yol verilmir.

İşlorin formalaşdırılması və tərtib olunması prosesində başlıqlar dəqiqləşdirilə bilər.

İşin başlığı aşağıdakı ardıcıllıqla yerləşən elementlərdən ibarətdir:

- işin növünün (yazışma, jurnal və s.) adı;
- idarənin və ya struktur bölmənin adı (sənədin müəllifi);
- sənədlərin ünvanlandığı və ya alındığı təşkilatın adı, sənədi göndərən vo ya adresat;
- işin sənədlərinin qısa məzmunu;
- işin sənədlərinin aid olduğu tarixlər (dövrlər).

İşin başlığının tərkib hissələri işin sənədlərinin xarakteri ilə müəyyən edilir.

İşlərin başlıqlarının nomenklatur bölmələrin daxilində yerləşdirilmə qaydası işləri təşkil edən sənədlərin mühümlük dərəcəsi, onların qarşılıqlı əlaqəsi ilə müəyyən edilir.

Belə ki, əvvəlcə təşkilati-sərəncamverici sənədlər: əmrlər, göstərişlər, protokollar; sonra isə plan vo hesabat sənədləri: yazışmalar, uçot sonədləri (jurnallar, kartotekalar və s.) yerləşdirilir.

İş növü və sənəd növləri daxilində də onların mühümlük dərəcəsini əsas götürmək lazımdır: əvvəlcə yuxarı təşkilatlarla yazışmalar, sonra - eyni səviyyəli təşkilatlarla, daha sonra aşağı təşkilatlarla yazışmalar gəlir.

İl ərzində yeni işlər açılırsa, onlar İşlər İdarəsi ilə razılaşdınlmaqla nomenklatura daxil edilir. Bu məqsədlə nomenklaturun hər bölməsində ehtiyat nömrələr saxlanılır.

İşlərin nomenklaturu aşağıdakı qaydada doldurulan müəyyən olunmuş forma üzrə tərtib edilir: 1-ci qrafada işlərin indeksləri, 2-cidə - işlərin başlıqları, 3-cüdo işlərin miqdan (cildlərin sayı), 4-cüdə - sənədlərin idarədaxili siyahısına uyğun olaraq saxlanma müddətləri, 5-cidə qeydlər: işlərin arxivə verilməsi, keçici işlər, işlərin ləğv edilmə üçün ayrılması, işlərin formalaşdırılmasına görə məsul şəxslər barədə və s. qeydlər göstərilir.

İl başa çatdıqda işlərin nomenktaturunun sonunda açılmış işlərin (cildlərin) sayı barədə yekun qeydi edilir. Kargüzarlığa görə məsul olan şəxs bu məlumatlan yanvarın 15-dək arxivə bildirir.

Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi ilə razılaşdırılmış işlərin ümumi nomenklaturu hər ilin sonunda dəqiqləşdirilir, yenidən çap edilir, DGK-nİn Sədri tərəfindən təsdiq edi' - və növbəti təqvim İlini yanvar ayının 1-dən qüvvəyə mindirilir.

İcra olunmuş bütün sənədlər təsdiq olunmuş nomenklatura uyğun işlərdə formalaşdın lır.

İşlərin formalaşdırılması ya sənədlərin qeydiyyat yeri üzrə - ümumi şöbədə, yaxud da kargüzarlıq aparan şəxslər tərəfindən struktur bölmələrdə profilləri üzrə həyata keçirilir.

İşlərin icraçılarda formalaşdırılması və saxlanması qadağandır.

Sonədlori işə tikməzdən əvvəl ümumi şöbənin əməkdaşı və ya kargüzarlıq aparan şəxs imzaların, tarixin, icra vo işə tikilmə və nəzarətdən çıxarılma barədə qeydlərin olmasını yoxlayır.

İşə məzmununa görə onun başlığına uyğun gələn sənədlər qoyulur, bu zaman sənədlərin qaralama və təkrar nüsxələrini, həmçinin qaytarılmalı olan sənədləri işdə qruplaşdırmaq qadağandır.

İşlərin struktur bölmələrdə düzgün fonnalaşdınlmasına nəzarəti İşlər İdarəsinin ümumi şöbəsi və struktur bölmələrin rəhbərləri həyata keçirir.

Hər bir iş açılarkən onun üz qabığında İşığa davamlı mürəkkəb və ya tuşla DGK-nin struktur bölməsinin, şöbəsinin adı, işin İndeksi, iş bir neçə cilddən ibarətdirsə, cildin nömrəsi, işin başlığı, işin açılma tarixi (ili) vo saxlama müddəti yazılmalıdır.

İşin İndeksi vo onun açılma ili işlərin üz qabıqlarının kötüyündə do göstərilməldir.

İşləri bağlanan şkaflarda şaquli vəziyyətdə, üzü divara tərəf saxlamaq lazımdır.

Şkafın divarının daxili tərəfində hamİn şkafda saxlanan işlərin nomenklaturu bərkidilməlidir.

DGK-nin arxivindən alınmış sənədlərin, arayışların, surətlərin düzgün istifadəsinə, habelə arxivdən verilmiş və ya göndərilmiş materialların salamatlığına görə onlan almış əməkdaşlar məsuliyyət daşıyırlar.

DGK-nin arxivindən işlərin hazırlanıb Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinə verilməsi Dövlət Arxivinin əsas iş qaydalarına uyğun olaraq tənzimlənir.

## Mövzu 25. Gömrük sisteminin inkişafı

### *25.1. Azerbaycan Respublikasında gömrük sisteminin təkamülü*

Azərbaycan Respublikasının gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və gömrük siyasətinin həyata keçirilməsinin on mühüm institutudur. Respublika icra hakimiyyəti sisteminə daxil olan gömrük xidməti Prezident və hökumət tərəfindən gömrük orqanları qarşısında qoyulan məsələləri həll etməyə qabil olan hüquqi baza və gömrük infrastrukturuna malikdir. Gömrük xidmətinin dövlət büdcəsinin gəlir hissəsinin formalaşdınimasında rolu ildən-ilə artır və dövlətin iqtisadi təhlükəsizliyinin, eləcə də, xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin təmin edilməsində mühüm faktora çevrilir.

Dövlət büdcəsinin gəlir hissəsində gömrük vergi və rüsumlarının xüsusi çəkisi 1995-cİ ildə 4,3 faiz təşkil etmişdirsə, bu rəqəm 1996-cı ildə 13,5 faizə, 1997-ci İldə 16,7 faizə, 1998-ci ildə 24,1 faizə və 1999-cu ildə 24,8 faizə qaldırılmışdır. l993-cü İldə 13 milyard, 1994-cü ildə 17 milyard manat rusum toplayan Gömrük Komitəsi gömrük nəzarətini və qaçaqmalçılığa qarşı mübarizəni gücləndirmək, nonnativ hüquqi bazanı təkmilləşdirmək, maliyyə intizamım möhkəmləndirmək sayəsində 1995-ci ildə bu rəqəmi 68,9 milyarda, 1996-cı İldə 272,6, 1997-ci ildə 429,5, 1998-ci ilə 561,6 milyard manata çatdırmış, 1999-cu ildə 665,4 milyard manat, 2000- ci ildə 719,6 mld. man., 2001-cİ ildə 822,2 mld. man,, 2002-ci ildə 921,8 mld. man,, 2003-cü ildə isə 1061,2 mld. manat toplayaraq dövlət büdcəsinə keçinnişdir (sxemlər N-7-8).

# 1994-2003-cü illər ərzində Dövlət Gömrük Komitəsi üzrə dövlət büdcəsinə köçürülən gömrük vergi və rüsumlarının dinamikası (mln. manat)




*Sxem 7*

## 1994-2003-cü illər ərzində Dövlət Gömrük Komitəsi üzrə dövlət büdcəsinə köçürülən gömrük vergi və rüsumlarının xüsusi çəkisi (faizlə)




*Sxem 8*

1993-cü ildə 3,5 milyon manatlıq əsas vəsaiti olan Dövlət Gömrük Komitəsi hazırda 35,3 milyard manat dəyərində müasir avadanlıq və texniki vasitələrdən ibarət maddi-texniki bazaya malikdir.

1995- 2003-cü illər ərzində Dövlət Gömrük Komitəsinin və Ba-
kı Baş Gömrük İdarəsinin inzibati binaları əsaslı təmir edilmiş, yardımçı binalar tikilmişdir. Bir sıra gömrük postları təmir edilmiş, gömrük-keçid məntəqələri isə yenidən qurulmuşdur. Gömrükxanalar və gömrük postları avadanlıq və yeni təşkilati texnika ilə təchiz

*Cadvəl 5*

*1995~2003-cü illər ərzində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi üzrə aparılmış tikinti, təmir və abadlıq işlərinin məzmunu*

| | |
|---|---|
| **Azərbnycon Respublikası ƏovİEic Gömriik Komitəsinin Mərkəzi aparatı** | **1. İnzibati binanın əsaslı təmiri<br>2. Təsərrüfat binasının tikintisi<br>3. İstintaq İdarəsinin inzibati binasının əsaslı təmir isləri<br>4. İnzibati binanın ərazisində talvar, xidməti otaqların və boksların tikintisi<br>5. Kinoloji bazanın kompleks tikintisi<br>6. Ərazinin drenaj sisteminin quraşdırılması** |
| **Naxçıvan MR Gömrük Komitəsi** | **1. Naxçıvan MR Gömrük Komitəsinin inzibati binasının tikintisi<br>2. Sədərək gömrükxanasmda telefon xəttinin çəkilisi<br>3. Komitənin inzibati binasında təmir işləri<br>4. Culfa götnrükxanasmın keçid-buraxılış məntəqəsində obyektlərin tikintisi, təmir və abadlıq İsləri** |
| **Bakı Ba;) Gömrük İdarəsi** | **1. "Qarabağ" gömrük postunun tiktntisi<br>2. "Bərə" postunda əsaslı tikinti işləri<br>3. "Güzdək" postunda əsaslı tikinti işləri<br>4. İnzibati binaya əlavə korpusun tikintisi<br>5. İnzibati binaya əlavə kabel xəttinin çəkilişi<br>6. İnzibati binada iş otaqlannın. sanitarıya qovşağının, anbarın tikintisi və abadlıq işləri<br>7. "Qarabağ" dəmir yolu stansiyasında gömrük postunda təmir işləri<br>8. İnzibati binada əsaslı təmir işləri** |
| **Hava Nəqliyyatında Ba;^ Gömrük İdarəsi** | **1. İdarənin yük şöbəsində xüsusi nəzarət-yoxlama postunun tikintisi** |
| **Xəzər Dənizində Azərbaycan Respublikasının Iqtisaddi Mənafelərinin Mühafizəsi İdarəsi** | **1. İdarənin inzibati binasında əsaslı təmir və abadlıq işləri** |

| | |
|---|---|
| **Astara gömrükxanası** | **1. İnzibati binaya əlavə körpüsünün tikintisi<br>2. Müvəqqəti saxlama anbarının tikintisi<br>3. Ərazidə Yol Vergiləri idarəsinin post binasının tikintisi<br>4. Piyada keçidinin əsaslı tikintisi<br>5. İnzibati binada və yük şöbəsində əsaslı təmir işləri, abadlıq işləri** |
| **Balakən gömrükxanası** | **1. "Mazımçay" postunda əsaslı təmir işləri<br>2. "Mazımçay" postunda talvarın quraşdırılması<br>3. "Muğanlı" postunun inzibati binasının tikintisi<br>4. "Muğanlı" postunda abadlıq işləri<br>5. inzibati binada təmir və rekonstruksiya işləri** |
| **Bilosuvar gömrükxanası** | **1. Sərhəd keçid məntəqəsində yük şöbəsinin tikintisi<br>2- Məntəqənin ərazisinin asfaltlanması<br>3. Keçid məntəqəsinin clcktrlkləşdirilməsi<br>4. Sərhəd keçid-buraxılış məntəqəsinin piyada keçidində pavilyonun tikintisi<br>5. Sərhəd keçid-buraxılış məntəqəsində sərnişin şöbəsinin inzibati binasının tikintisi<br>ö. Gömrükxananın inzibati binasında və sərhəd məntəqəsinin yük şöbəsində əsaslı təmio işləri** |
| **Yevlax gömrükxanası** | **1. "Şəki" postunda əsaslı təmir və abadlıq işləri<br>2. "Qəbələ" qostunda əsaslı təmir və abadlıq işləri** |
| **Goneo gömrükxanası** | **1. İnzibati binada əlavə iş otaqlarının tikintisi<br>2. İnzibati binada əsaslı təmir və abadlıq işləri<br>3. İnzibati binada istilik sisteminin yenidən qurulması<br>4. Köməkçi binada əsaslı təmir işləri** |
| **Sumqayıt gömrükxanası** | **1. H.Z.Tağıyev postunun inzibati binasının tikintisi** |
| **Tovuz gömrükxanası** | **1. "Sınıq Körpü" postunda pavilyonların tikintisi<br>2. "Poylu" nəzarət postunun inzibati binasının tikintisi<br>3. "Sınıq Körpü" postunda abadlıq işləri<br>4. "Sadıqh" postunun inzibati binanın tikintisi<br>5. "Sadıqh" postunda kompleks tikinti və quraşdırma işləri<br>6. İnzibati binada istilik sisteminin yenidən qurulma.sı<br>7. İnzibati bina və həyətyanı sahədə əsaslı təmir və abadlıq işləri** |
| **Xaçmaz gömrükxanası** | **1. "Samur" postunda nəzarət pavilyonlarının, piyada keçid-yoxlama pavilyonunun tikintisi, talvarların, hasarın, işıq sisteminin və darvazaların quraşdırılması və ərazinin asfaltlanması<br>2. "Xanoba" postunda talvar və baxış çuxurlannın tikintisi, abadlıq işləri<br>3. İnzibati binaya əlavə korpusun tikintisi<br>4. "Samur" postunda piyada keçidinin rekonstruksiyası** |
| **Xudafərin gömrükxanası** | **İ. İdarə binasının alınması və osaslı təmir işləri 2, Təsərrüfat binasının tikintisi və abadlıq işləri** |
| **Mərkəzi Laboratoriya** | **1. inzibati binada tikinti, rekonstruksiyası və əsaslı təmir işləri<br>2. Salyan yolunda yerləşən anbarın kabelləşdirilməsi** |
| **Tədris Mərkozi** | **1. Mərkəzin kompleks tikintisi və abadlıq işləri** |

Bununla belo, hom gömrük siyasoti, hoın do onun lıoyata keçiri lmosi metodları, eloco də gömrük xidmətinin maddi-texniki, kadr, elmi-metodik, hüquqİ informasiya təminatı saholorindo tokmilləş-dirtlınoyə ehtiyac duyulur Xarici iqtisadi fəaliyyətin tənzimlonmo mexanizmi mahiyyotco formalaşma morholosİndədir,

Gömrük orqanlarının informasiya təminatının köklü yaxşılaşdırılması təmin edilmodon, yeni informasiya texnologiyaları əsasında İnformasiya şobokoləri yaratmadan, bütün dövlət orqanlarımn malların sərhəddən keçirilməsinə nəzarət üzrə fəaliyyətini əlaqələn- dirmədən xaricİ iqtisadi fəaliyyətin gömrük metod vo vasitəlori İlə tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi mümkün deyildir Gömrük rəsmiləşdirilmosino vo mallara gömrük nəzarətinin operativliyinə yönəlmiş tələblər gömrük orqanlarının müasir gömrük nəzarəti vasitələri ilə təchizatını zəruri edir Əmtəələrin operativ identifikasiyası, tərkibinin kimyəvi təyini vo s. üçün yeni vasitələr yaradılmalıdır.

Gömrük sisteminin fəaliyyətinin səmərəliliyi gömrük orqanlarının idarə edilmə soviyyosindən, onun kadr tərkibindən çox asılıdır.

ölkə rəhbərliyi gömrük siyasəti problemlərinə vo gömrük or-qaniannın fəaliyyətinə daim diqqət yetirir.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycanın Ümummilli lideri H.Ə. Əliyevin gömrük işinin təşkil edilməsi və gömrük siyasətinin yaradılması sahəsində gördüyü işlər barəsində dərsliyin əvvəlində məlumat verildiyi üçün əlavə şərhə ehtiyac görümürük.

Azərbaycan Respublikasının indiki Prezidenti, Dünya səviyyəsində tanınmış sayasətçi H.ƏIiyevin siyasi varisi vo davamçısı olan İlham Əliyev qısa müddət ərzində gömrük işinin təkmilləşdirilməsi və gömrük orqanlarının səlahiyyətlərinin artırılması sahəsində mühüm qərarlar qəbul etmişdir.

Azərbaycan Respublikası Prezidenti İ.H. Əliyev 2004-cü il 11 fevral tarixli Fənnanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramf’nda (2004-2008-ci illər) Dövlət Gömrük Komitəsinə aşağıdakı tapşırıqlar

## AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI (2004-2008-Cİ İLLƏR) ÜZRƏ HƏYATA KEÇİRİLMƏLİ TƏDBİRLƏR

### *3.1. Azərbaycan Respublikasında makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi tədbirləri*

*Cədvəl*

| *Sıra №-si* | *Tədbirlərin adı* | *Tədbirin məqsədi* | *yerinə yetirilmə müddəti* |
|---|---|---|---|
| 3.1.6. | Vergi dərəcələrinin optimal həddədək azaldılması | Ölkədə sahibkarlığın inkişaf etdirilməsi üçün şəraitin yaradılması | 2004-2008-ci illər |
| 3.1.8. | Gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması siyasətinin davam etdirilməsi | Yerli istehsalçıların maraqlarının qorunması | 2004-2008-ci illər |
| 3.1.10 | Azərbaycan Respublikasının Şimal, Cənub və Qərb istiqamətlərində habelə Bakı şəhəri ətrafında böyük gömrük terminallarının və sərbəst gömrük zonalarının yaradılması | Yeni iş yerlərinin yaradılması və yerli istehsalın genişləndirilməsi | 2004-2008-ci illər |
| 3.1.11. | Yerlərdə sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və digər xidmətlərin gücləndirilməsi, sahibkarlarının regional ictimai birliklərinin yaradılmasının dəstəklənməsi | Regionlarda sahibkarlığın inkişaf etdirilməsi | 2004-2008-ci illər |
| 3.2.6.77. | Bilasüvar sərhəd buraxılış məntəqəsinə beynəlxalq status verilməsi ilə əlaqədar müvafiq tikinti işlərinin aparılması (gömrük terminallarının və gömrük yoxlama meydançalarının tikilməsi) müasir texniki nəzarət vasitəlri ilə təchiz olunması | Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin dövriyyəsinin sürətləndirilməsinə şərait yaradılması, o cümlədən gömrük nəzarətinin səmərəliliyinin artırılması | 2006-2008-ci illər |

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin imzaladığı 5 mart 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun X bəndinə görə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə edilən dəyişikliklər və əlavələr nəticəsində gömrük orqanlarına gömrük işi sahəsində cinayətlər haqqında işlər üzrə istintaq aparmaq səlahiyyəti verilmişdir ("Azərbaycan" qəzeti, 1 aprel 2004-cü il). Bu o deməkdir ki, gömrük orqanları gömrük işi sa-

bəsində baş vermiş cinayətlərin istintaqını özü aparacaqdır. Gömrük orqanlan, bu səlahiyyəti qazanmaqla gömrük siyasətini bütünlüklə həyata keçirən yeganə dövlət orqanına çevrilir. Bu isə gömrük işi sahəsində baş verən cinayətlərin qarşısının alınmasında və aradan qaldırılmasında “hüquqi inqilab" deməkdir.

### *25.2, Gömrük sisteminin inkişafında kadr potensiah*

Bazar münasibətləri prinsiplərinə əsaslanan iqtisadiyyatın idarə edilməsi sisteminin yenidən yaradılması ilə müasir mərhələdə kadr potensialını idarə edəcək yeni sistemin formalaşdırılması zərurəti getdikcə daha çox hiss edilməkdədir. Bu sistem gömrük sisteminin effektiv fəaliyyət göstərməsi üçün bir sıra məsələlərin həlimi təmin etməlidir.

İnsanın intellektual və istehsal qabiliyyətlərinin kompleks xarakteristikası olan “kadr potensialı” anlayışı bu qabiliyyətlərə təkcə onların mövcudluğu mövqeyindən deyil, həmçinin onların formalaşması və inkişaf perspektivləri mövqeyindən baxmaq imkanı verir. Buradan da baxılan anlayışın şəxsiyyət aspektlərini əks etdirən çoxplanlı olması diqqəti cəlb edir.

Müasir təsərrüfat münasibətləri şəraitində təkcə maddi faktorlar deyil, həm də şəxsi faktorlar mühüm rol oynayır. Bu məziyyət, xaric i-İqtisadi, vergi və hüquq-mühafizə fəaliyyətlərində özünü xüsusilə büruzə verir. Ona görə də kadrların peşəkarlığının fasiləsiz olaraq təkmilloşdirilməsinə, onların seçilib yerləşdirilməsinə, gömrük sisteminin inkişafının cari və perspektiv məsələlərinin həll edilməsini təmin edə biləcək mütəxəssislərin bilik dairəsini genişləndirməyə tələb artır. Gömrük orqanlannm kadr heyəti zaman faktorunun mühüm rol oynadığı mürəkkəb geosiyasi və iqtisadi şəraitdə komplektləşdi rilib. Əməkdaşların çox hissəsi xüsusİ təhsilə, gömrük orqanlarında iş təcrübəsinə malik olmadan fəaliyyət prose- sincfə peşəkar vərdişlərə yiyələnmişdir.

Gömrük əməkdaşları bilavasitə xarici-iqtisadi fəaliyyət iştirakçıları ilə çalışaraq onlardan beynəlxalq təcrübəni əxz edir və bu təcrü

bəni öz fəaliyyət sahələrinə tətbiq etməyə çalışırlar. Bu zaman yerli ənənələrin, mədəniyyətin, Ölkənin iqtisadi inkişafının özünəməxsus xüsusiyyətlərinin kifayət qədər nəzərə alınması tam müvəffəqiyyət qazanılmasına əsas səbəblərdən biri ola bilər. Buna görə də kadrla- nn peşəkarlıq və ixtisas səviyyəsi həm dövlət tərəfindən, həm də beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikası gömrük orqanlan qarşısında irəli sürülən tələblərə uyğun olmalıdır.

Ölkədə cəmiyyətin demokratikləşdirilməsi, təsərrüfat mexanizminin yenidən qurulması ilə bağlı olan köklü dəyişikliklər bir sıra sahələrdə, o cümlədən gömrük sahəsində yeni biliklərin və mütəxəssislərin meydana çıxmasını tələb edirdi. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında son zamanlara qədər gömrük sistemi ■ üçün kadrlar hazırlanmırdı. Hazırda Dövlət Gömrük Komitəsinin tədris mərkəzində gömrük əməkdaşlarının təkmilləşdirmə kursları fəaliyyət göstərir. TASİS və TRASEKA proqramlan çərçivəsində Avropa Birliyi ölkələrinin gömrük mütəxəssislərinin iştirak və rəhbərliyi ilə seminarlar keçirilir. Rusiya Dövlət Gömrük Komitəsinin kvotaları çərçivəsində hər il iki gömrük əməkdaşı Rusiya Gömrük Akademiyasına oxumağa göndərilir.

Gömrük orqanlarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi onun kadr tərkibinin dərin və hərtərəfli təbiili aparılmadan, kadr siyasəti konsepsiyası hazırlamadan həyata keçirilə bilməz.

Hesab olunur ki, gömrük təşkilatının kadr tərkibinin qiymətləndirilməsi bu potensialdan istifadə edilməsi üçün onun kəmiyyəti, keyfiyyəti, bu məqsəd üçün yararlı lığına əsaslanmaqla gömrük or- qanlannm idarə edilməsinin effektiv variantının seçilməsini təmin etməyin əsasıdır.

Təhsil və peşəkarlıq səviyyələri, həmçinin, kadrlann yaş və iş stajının struktura təhlil edilməli, idarəedici və xətti şəxsi heyətin mütənasibliyi müəyyən olunmalıdır, belə ki, sistemin funksional fəallığı bu şərtlərlə bağlıdır.

Gömrük orqanı əməkdaşlarının ixtisas səviyyəsini göstərən əsas göstəricilərdən biri ali və orta ixtisas təhsilli əməkdaşlann sayının ümumi saya faiz nisbətidir (cədvəl 8).

*Cədvəl 1*

***Bakı Baş Gömrük İdarəsi üzrə gömrük əməkdaşlarının say tərkibi***

| *Göstəricilər* | *2001-ci il* | *2002-ci il* | *2003-cü il* |
|---|---|---|---|
| Gömrük əməkdaşları | | | |
| Cəmi: | 258 | 276 | 286 |
| Onlardan: | | | |
| a) Ali təhsilli | 243 | 265 | 277 |
| ümumi saya nisbətən %-lə | 94,2% | 96% | 96,9% |
| O cümlədən: | | | |
| hüquqi təhsil | 17 | 19 | 25 |
| iqtisadi təhsil | 48 | 54 | 60 |
| digər təhsillər | 178 | 192 | 192 |
| b) Xüsusi ixtisas təhsili | 7 | 5 | 4 |
| ümumi saya nisbətən %-lə | 2,7% | 1,8% | 1,4% |
| v) Natamam ali təhsil | 8 | 6 | 5 |
| q) 2-ci ixtisas | 19 | 24 | 30 |

Kadr ixtisaslaşması göstəricilərindən biri də ali təhsilli mütəxəssislərin sayının dəyişməsi hesab olunur.

Gömrük sisteminin inkişafının dinamizmi və qarşısında duran vəzifəli kadr potensialına yüksək tələblər qoyur. Təcrübə göstərir ki, ən yüksək yaradıcılıq fəallığı 5 ilə qədər iş stajına malik 30 yaşına qədər şəxslərdə müşahidə edilir. Bu səbəbdən gömrük sistemində kadrların yaş strukturunun analizi mühüm əhəmiyyət kəsb edir (cədvəl 9).

*Cədvəl 9*

## *Bakı Baş Gömrük İdarəsinin 2004-cü ildəki kadr strukturu*

| *Göstəricilər* | *Yekun* | *İdarə rəisi və müavinləri* | *Şöbə rəisi və müavinləri* | *Post rəisi və müavinləri* | *Baş inspektor* | *Böyük inspektor* | *İns-pektor* |
|---|---|---|---|---|---|---|---|
| Gömrük orqanı əməkdaşları **cəmi:** | 299 | 4 | 21 | 17 | 35 | 89 | 133 |
| ali təhsilli | 293 | 4 | 21 | 17 | 35 | 89 | 127 |
| Natamam və orta | 6 | ----- | ----- | ----- | ----- | ----- | 6 |
| Gömrük orqanlarında iş **stajı:** | | | | | | | |
| 2 ilə qədər | 35 | ----- | 3 | 1 | 4 | 6 | 21 |
| 2 ildən 5 ilə qədər | 40 | ----- | 2 | 2 | ----- | 9 | 24 |
| 5 ildən yuxarı | 224 | 4 | 16 | 14 | 31 | 74 | 85 |
| **Yaşı:** | | | | | | | |
| 30-a qədər | 49 | ----- | 2 | ----- | 1 | 14 | 32 |
| 30-50 | 232 | 4 | 17 | 16 | 29 | 70 | 96 |
| 50-dən yuxarı | 18 | ----- | 2 | 1 | 5 | 5 | 5 |

Gömrük işinin xüsusiyyotləri toiəb edir ki, gömrük orqanının əməkdaşlan hüquqşünasltq, iqtisadiyyat sahəsində dərin biliklərə malik yüksək ixtisaslı mütəxəssislər olsunlar, geniş məsələlər dairəsində müstəqil qərarlar qəbul etməyə qabil olsunlar. Buna görə do ali ixtisas təhsili gömrük xidməti rəhbərlərinin səmərəli fəaliyyətinin vacib şərtidir. Xüsusi biliklərin inteqrasiyası burada mühüm əhəmiyyət kəsb edir.

Gömrük orqanlarının idarə edilməsinin təkmilləşdirilməsi prosesində kadrlar üzrə gömrük xidməti üçün yararlı olan məlumat bankının yaradılması məqsədəuyğun vəzifədir. Onun əsasında boş vəzifələrin tutulması üçün şəxsi heyətin ehtiyatı yaradıla bilər.

Yeni iqtisadi münasibətlər şəraitində ölkə iqtisadiyyatının mü- vəlToqiyyotli inkişafı elmi əsaslandırılmış kadr siyasətinin aparılmasını tolob edir. Bu siyasətin mahiyyəti ölkənin, sahənin, müəssisənin, təşkilatın idarə edilməsində düzgün qərarlar qəbul etməyə qabil olan rəhbər kadrların və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üzro dövlətin strateji xəttinin hazırlanmasıdır. Kadr siyasəti konsepsiyası həm dövlət, həm də sahə (qurum) səviyyəsində hazırlanmalıdır. Bu zaman idarəetmənin hər səviyyəsi üçün hoın ümumi prinsiplər, həm do spesifik xüsusiyyətlər səciyyəvidir. Belə ki, Dövlət Gömrük Komitəsi həm iqtisadi fiskal, həm də hü- quq-mühafı izə funksiyalarını yerinə yetirir.

Zənni mizco, gömrük xidmətinin kadr siyasəti konsepsiyası tələbin formalaşdınlmasının ümumi metodoloji və təşkilatı əsaslanndan çıxış edilərək yaradılmalıdır. Qeyd edilməlidir ki, kadrlara əlavə tə- labatın müəyyən olunması məsələsi həllini tapdıqdan sonra, bu tə- labatın ödənilməsi üçün kadrların seçilməsi məsələsi ortaya çıxır. Gömrüyün kadr siyasətinin hazırlanmasında nəzərə alınmalıdır ki, gömrük orqanının vəzifəli şəxsləri öz işgüzar və mənəvi keyfiyyətlərinə, təhsil vo sağlamlıq səviyyəsinə görə gömrük orqanlan üzərinə qoyulan vəzİfə və funksiyaları yerinə yetirməyə qadir olan Azərbaycan Respublikasının vətəndaşlan sırasından seçilirlər.

Kadrların seçilməsinə tələbləri keyfiyyətlər üzrə sistemləşdirmək

- peşəkar səlahiyyətlilik;
- dövlət qurumunun və gömrük sisteminin fəaliyyətinin xüsusiyyətlərini bilmək;
- bir və ya bir neçə xarici dil bilmək;
- informatikanın əsaslarını bilmək;
- işləri sistemlə aparmaq bacarığını aid etmək olar.

Mənəvi keyfiyyətlərə:

- xidmətdə siyasi üeytrallıq və tərəfkeş olmamaq;
- gömrük əməkdaşlannın etik nonnalanna əməl edilməsi;
- vətəndaş yetginliyi və məsuliyyət;
- korrupsiyaya qarşı mübarizlik.

Gömrükçünün peşəkarlıq meyarlarından biri onun savadlılığıdır. Savadlılıq səviyyəsi diplomlu mütəxəssislər tərəfindən tutulması istənən vəzifələrin nomenklaturası ilə müəyyən olunmalıdır.

Bu nomenklatura mərkəzləşdirilmiş şəkildə DGK tərəfindən hazırlanmalıdır.

Digər vacib meyar sağlamlıqdır. Gömrükçünün sağlamlıq vəziyyətinin, fərdi keyfiyyətlərinin vo peşə yararlı lığının müəyyən edilməsi tibbi və psixofiziki diaqnostika sistemi ilə həyata keçirilir.

Azərbaycan Respublikası gömrük orqanlannın əməkdaşlan Milli Təhlükəsizlik Nazirliyinin tibb müəssisələrində qeydiyyatda olub müalicə prosesini həmin müəssisələrdə aparırlar.

Bu tələblər həm də ona görə vacibdir ki, onlara əməl edilməməsi gömrük sistemində vəzifə tutulmasını qeyri-mümkün edir.

Professional səlahiyyətlərin tələblərinə uyğun olmaq savad və təcrübə ilə təmin edilən xüsusi kvalifikasiyaya malik olmaqla gömrük orqanı əməkdaşının vəzifəsini tutmaq imkanı deməkdir. Dövlət quruculuğunun əsasları və gömrük sisteminin fəaliyyət prinsipləri barədə biliklərlə bərabər ümumi savad və təcrübə də gömrük əməkdaşı olmaq uğrunda müsabiqədə tutarlı arqumentdir.' Gömrük xidmətinin xarici iqtisadi münasibətlərdə bilavasitə və fəal iştirakı

***1. B.M.KpameuHUKoe, A.BAedoHUU. "Kadpo«btu nommı\uojı o€Hom duHOMUHHüZO pajeumujı ntoMoxeHHoä cucmeMbi" UpoÖAeMhi meopuu u npoxmuKu moMOxenHozo de^a. ^.1. M.: PTA, 1997***

gömrük omokdaşlan üçün xarici dillori bilmolori xüsusilo əhomiy-yotlidİr. Xarici iqtisadi fəaliyyət iştirakçıları dairəsinin genişlənməsi, gömrükçülərin beynəlxalq təşkilatlarla əlaqələri, danışıqlarda və işgüzar görüşlərdə iştirakı onlan ya xarici dİl bilməyə, yaxud tərcüməçinin xidmətindən istifadə etməyə məcbur edir. Lakİn gömrük işinin xüsusiyyətləri elədir ki, tərcüməçidən istifadə olunması həmişə arzııedilon hal ola bilməz. Ona görə də xarici dil bilməsi gəmritkçü peşəsi üçün vacİb tələblərdəndir.

Gömrük xidməti kadrlar seçilməsi üzrə proqramlarında molu-matlar m elektron üsulla işlənməsinə, bilgisayardan (kompüterdən) istifadə mosolülərinə üstünlük verməlidir. Bu onunla bağlıdır ki, müasir şəraitdə informatizasiya sahəsində ən yeni proqressiv texnologiyaların tətbiq edilməsi vahid infonnasiya məkanının yaradılmasına imkan verir. Bu da öz növbəsində effektiv idarəetmə sisteminin yaradılmasına, yüklərin daha tam şəkildə qiymətləndirilməsi üçün nəzarət sisteminin tətbiq edilməsinə, gömrük nəzarətinin keyfiyyətinin və operativliyinin artın İmasına təkan verməlidir.

İşlərin .sistemli aparılması gömrük ənnəkdaşı qarşısında tələb kimi ona görə qoyulur ki, eyni zamanda həm öz ideyalarının və hərəkətlərinin generatoru, həm də diger normaların icraçısı kimi hiss etmədən gömrük xidməti ilə məşğul olmaq olmaz.

Gömrük əməkdaşı, xüsusilə də idarəetmə aparatında işləyən əməkdaş, nəinki peşəkar olmalı, həm də, analitik təfəkkürə malik olmalı, elmi ümumiləşdirmolər etməli və nəticə çıxarmağı bacarmalıdır. Gömrük sistemi əməkdaşı öz hərəkətlərinin bilavasitə hansı nəticələrə gətirib çıxaracağını gÖrmolİ, özünü komandanın (kollektivin) bir hi.ssosi, fəal bir üzvü kimi hiss etməli, başqalarının maraqlarına hönnətlo yanaşmalı, öz təşkilatının tələblərini ödəməlidir, Bu tələblər psixoloji-professional xarakterli testlərlə yoxlanıla bilər.

Siyasi neytrallıq şəxsiyyətin siyasi meyl və fikrinin olması hüququnun pozulması demək deyildir. Bu hüquqların reallaşdınlması yalnız xidmətdən əl çəkməklə mümkündür. Başqa sözlə dövlət

Gömrükçü qarşısında qoyulan əsas tələblərdən biri də onlar tərəfindən etik normalara riayət edilməsidir.

Gömrük əməkdaşı təmiz, əxlaqlı olmalı, təfriqə və gizli maxinasiyalardan uzaq olmalı, vicdanı və vətəndaş borcunu, məsuliyyətini unutmamalı, yoldaşlarına kömək etməlidir.

Gömrük xidməti, təkcə, ölkonin iqtisadi təhlükəsizliyini təmin etmir, o həm də, hüquq-mühafizə funksiyasını yerinə yetirir və buna görə də əməkdaşlann fızikt sağlamlığına diqqət edilməlidir. Gömrük işinin xüsusiyyətləri tez-tez stresslə, normataşdınimamış iş günləri, proseslər, iti reaksiya İlə bağlıdır.

Gömrük oməkdaşının fiziki sağlamlığının qorunması təkcə onun özünün deyil, həmçinin gömrük orqanı rəhbərliyinin qayğısını tələb edir. Ona görə də xəstəliklərin profilaktikası, dispanserizasiya və xüsusi məşğələlərin təşkili olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikası gömrük orqanlarının oməkdaşlan üçün həftədə iki dəfə fiziki məşğuliyyət rejimi müəyyən edilmişdir. Əməkdaşlar həmçinin idman oyunlarına cəlb edilirlər.

Kadr siyasətinin əsas prinsiplərindən biri gömrük orqanları üçün kadr hazırlığı sisteminin yaradılmasıdır. Bu siyasət personalın eyni zamanda formalaşması vo inkişafını nəzərə almalıdır, o cümlədən:

a) müvafiq profilli təhsil müəssisələri tərəfindən hazırlanmış ali və orta ixtisas təhsilli mütəxəssislərin qəbulu;

b) əməkdaşlann iş yerini dəyişməklə vo yeni ixtisasa yiyələnməklə qəbulu;

c) komitədaxili kadr hazırlığı sisteminin yaradılması;

ç) şəxsi heyətin ixtisasının təkmilləşdirilməsinin çoxpilləli sisteminin yaradılması.

Fasiləsiz təkmilləşdirmə sistemi müxtəlif təlim sistemlərinin uyğunlaşdıniması və səməroli istifadəsini nəzərdə tutur. Buraya təkmilləşdinnə kursları, seminarlar, beynəlxalq təcrübə mübadiləsi üzrə konfranslar, aspirantura, doktorantura, elmi tədqiqatlarda iştirak etmə və s. daxil edilir. Bu zaman əməkdaşın hazırlıq səviyyəsindən ve elmi potensialından asılı olaraq təkmilləşdirmə forması mürəkkəbləşdirilir.

### *25.3. Müasir mərhalədѕ gömrük işinin İäar9 edilmssinin təkmilləşdirilməsi məsələləri*

Azərbaycan Respublikasında yeni iqtisadi münasibatlorin tokamülü, onun beynəlxalq əmək bölgüsünə və dünya təsərrüfat əlaqələri sisteminə qoşulması. Beynəlxalq Ticarət Təşkilatına üzv olmağa hazırlıq xarici iqtisadi fəaliyyətin liberallaşdın İması şəraitində gömrük sisteminin inkişafı və daha da təkmilloşdirilməsini tələb edir. İnkişaf etmiş ölkələrin təcrübəsi milli gömrük xidmətlərinin inkişaf və təkmilloşdirilməsini proqram-məqsədli yanaşma əsasında aparılmasının məqsədəuyğunluğunu nümayiş etdirir. Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi proqramının yaradılmasına ehtiyac var. Respublikanın milli xüsusiyyətləri, MDB ölkələri ilə idxal-ixrac əməliyyatlarımn spesifikası, digər ölkələrlə xarici-iqtisadi əlaqələrin genişlənməsi gömrük sisteminin müvəffəqiyyətə zəmanət verə biləcək prinsipi və metodlar əsasında təkmilloşdirilməsini tələb edir. Gömrük fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin lazımi səviyyədə işləməsini təmin etmək üçün bütün çatışmazlıqlar aıadan qaldırılmalıdır. Bu çatışmazlıqlar taktiki vo strateji tədbirlərlə aradan qaldınla bilər.

Taktiki tədbirlərə aşağıdakılar aid edilir:

- gömrük rosmiləşdirilməsinə sərf edilən müddətin qısaldılması;
- gömrük proseduralannın sadələşdirilməsi (o cümlədən yüklərin yoxlanma müddətlərinin qısaldılması və yoxlanmanın seçmə üsulu ilo aparılması, daşınma, anbarlaşdırma, saxlanc, rəsmiləşdir- mo proseslərində lüzumsuz sənədləşmələrin ləğvi və rəsmiləşdirmə müddətinin azaldılması);
- gömrük informasiyalannın işlənilməsinin avtomatlaşdırılmış sisteminin tətbiqi;
- gömrük və gömriikətrafı infrastrukturlann inkişafı.

Xüsusilə qeyd edilməlidir ki, gömrük rəsmiləşdirilməsi proseduralarının təkmilləşdirilməsi taktiki tədbirlər arasında əsas

aliyyətdodir. Bu zaman riskin dorscə və qruplarının qiymətləndirilməsinə ciddi diqqət yetirilməlidir.

Strateji tədbirlərə ilk növbədə Ümumdünya Gömrük Təşkilatının tövsiyyələri aid edilməlidir. YGT tövsiyyəlori aşağıdakı aspektləri nəzərdə tutur;

- resurs potensialından rasional istifadə (kadr, maddi, texniki, maliyyə və s,);
- gömrükxanaların rəhbər orqanlannm möhkəmləndirilməsi;
- idarəetmə sisteminin təkmilləşdirilməsi;
- müvafiq sistem və strukturun formalaşdırılması;
- daha səmərəli gömrük proseduralan və gömrük rejimlərinin tətbiqi.

Gömrük xidmətinin inkişafının kompleks proqramının (GXİKP) tərtib edilməsində onun hazırlanmasının ümumi mərhəlolori mühüm əhəmiyyət kəsb edir;

1) proqramın məqsədi və əhatə etdiyi məsələlər;
2) əldə edilməsi nəzərdə tutulan göstəricilər;
3) texniki və fəaliyyət təminatı (əsaslı tikinti və gömrük sistemi gömrükətrafı infrastruktur obyektlərinin montajı, gömrük sisteminin nəqliyyat vasitələri ilə təchizatı, müasir texniki nəzarət vasitələrinin, rabitə vasitələrinin, bilgisayarların, çoxaltma texnikasının və s. tətbiqi).
4) proqramın müxtəlif növ resurslarla təmin edilməsi;
5) proqramın hazırlanması və həyata keçirilməsinin stimullaşdı-n İması.
6) proqramın yerinə yetirilməsinin təşkili;
7) proqramm yerinə yetirilməsi effektivliyinin müəyyən

## *25.4. Dövhtgömrük komitasinin xarici ölkBhrin gömrük iäar^lsri ih beynəlxalq əlaqələri*

Gömrük xidmətinin doqquz illik təcrübəsi göstərir ki, strateji məqsədləri dəqiq müəyyənləşdirmədən, aydın prioritetləri forma-

laşdınuadan ciddi nailiyyətlorin oldə edilmesi mümkün deyildir.

Xarici iqtisadi əlaqələrin inikşaf etdirilməsində səmərəli birgə fəaliyyətin vacibliyi Azərbaycan gömrüyü qarşısında gömrük işinin inkişafına yeni yanaşmaların hazırlanması məsələsini qoymuşdur. Xarici-iqtisadi, mədəni, texniki əlaqələrin daha da genişləndiyi bir vaxtda Azərbaycan Respublikasım xarici ölkələrlə mövcud olan əməkdaşlıq olmadan təsəvvür etmək mümkün deyil. Hökumətlərarası sənədləri həyata keçirərkən ölkənin gömrük rəsmiləşdirməsinin sadələşdirilməsi və gömrük nəzarətinin gücləndirilməsinin təmin edilməsi, xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi fəaliyyətinin vasitələrinin səmərəliliyinin artınıması, informasiya texnologiyasının vo avtomatlaşdırılmış sistemlərin yeniləş- dirilməsi, həmçinin, gön^k mütəxəssislərinin hazırlanması və ixtisaslaşmaları ilə bağlı işlər aparır.

Ümummilli Liderimiz Heydər Əliyev “Biz dünyada müstəqil Azərbaycanın nüfuzunun qaldırılmasına, iqtisadi inkişafına böyük yardım edən, xarici iqtisadi əlaqələrlə layiqli yer tuta bilən bir gömrük sistemi yaratmalıyıq” fikrini əməli işimizdə əsas kimi qəbul edərək, dünyanın qabaqçıl əməkdaşlığı əsas məsələlərdən biri hesab edirik.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müxtəlif beynəlxalq təşkilatlarla və xarici dövlətlərin gömrük xidmətləri ilə qarşılıqlı fayda əsasında apardığı əməkdaşlıq yeni minillikdə də öz bəhrəsini verməkdədir. Beləki, 15-18 yanvar 2001-ci il tarixində Azərbaycan və İran gömrük xidməti rəhbərləri arasında danışıqlar aparılmış, hər iki ölkənin iqtisadi, ticarət, maliyyə və ictimai maraqlanmn müdafiəsi məqsədilə gömrük orqanlan arasında əməkdaşlığın gələcək inkişafına olan maraq diqqət mərkəzinə çəkilmiş və İran - Azərbaycan işgüzar münasibətlərinin möhkəmləndirilməsi yolunda atılan addımlar və xüsusilə, gömrük xidməti arasında imzalanan bir sıra mühüm sənədlər müzakirənin mövzusuna çevrilmişdir.

Qarşılıqlı razılaşmaya əsasən, Masud Karbasianın 6-9 avqust 2003-cü İl tarixdə Bakıya səfəri zamanı gömrük işi sahəsində qarşılıqlı maraq kəsb edən məsəlolər ətrafında fikir mübadiləsi edil-

uiş, ikitərəfli danışıqlar aparılmış və həmçinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük İdarəsi arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

Azərbaycan Avropa və Asiyanın kəsişməsində yerləşdiyini və hələ qədim zamanlardan bu ərazidən Böyük İpək Yolunun kəsişməsi faktı Azərbaycanın coğrafi mövqeyinin strateji əhəmiyyət kəsb etdiyini sübut edir. Avropa-Qafqaz-Asiya inkişafı üzrə beynəlxalq nəqliyyat barədə əsas çoxtərəfli Sazişin (TRASfCA) müd- dəalanna uyğun olaraq gömrük orqanlan malların keçdiyi bu marşrutun bərpa olunması tranzit vasitələrin lüzumsuz ləngimələrinin qarşısının alınması məqsədilə gömrük nəzarətinin sadələşdirilməsi və harmonizə edilməsinə diqqət yetirilir.

Son iki min i İ ərzində Böyük İpək Yolu vasitəsilə Şərq və Qərb arasında mövcud olmuş əlaqələr Azərbaycanın tarixində əsas ənənəvi Avrasiya nəqliyyat dəhlizi kimi əhəmiyyətli rol oynamışdır.

Lakin xarici-iqtisadİ əlaqələrin genişlənməsi və dərinləşməsi əməkdaşlığın ancaq bir tərəfidir.

Hər bir dövlətin gömrük xidmətinin qarşısında duran ilkin vəzifə - ölkənin iqtisadi təhlükəsizliyinin və maraqlarının qorunmasından ibarətdir. İstənilən təhlükəsizliyə nəzarətin gücləndirilməsi sərhəddən başlayır - gömrük xidmətinin fəaliyyət göstərdiyi ənənəvi yerdə. Gömrük orqanlarının fəaliyyətinin əsas istiqaməti qlobal miqyasda beynəlxalq terrorizmə qarşı mübarizə məsələlərində gömrüyün rolunun gücləndirilməsi və ölkələrin mövcud Konvensiyalara qoşulması, fəaliyyətin bütün sahələrində regional təhlükəsizliyin göcləndirilməsinden ibarətdir. Azərbaycan Respublikasının gömrük orqanlan terrorizmə qarşı mübarizə fəaliyyətlərində Ümumdünya Gömrük Təşkilatının prinsip və tövsiyələrini əsas tuturlar. 2002-ci ilin yanvar ayında Azərbaycan Respublikasının Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzinin yaradılması barədə Memorandum imzalanmışdır. 30 sentyabr 2003-cü il tarixdə isə onun təntənəli açılış mərasimi keçirilmişdir. Beynəlxalq terrorizmlə mübarizənin aktuallığını nəzərə

alsaq, bu mərkəzin yaradılmal regionun gömrük xidməti əməkdaşlarının ixtisaslarının artırılmasına yardım edəcəkdir, belə ki, xüsusi gömrük personalının hazırlanmasına imkan verəcəkdir.

Narkotiklərin qanunsuz ticarəti də daxil olmaqla, qaçaqmalçılıq və gömrük qaydalarınm pozulması ilə mübarizə Azərbaycan Respublikasının gömrük orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. 19 fevral 2002-ci il tarixdə Azərbaycan “Gömrük hüquqpozmalannın qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında” Beynəlxalq Konvensiyaya (Nayrobi Konvensiyası) qoşulmuşdur. Bundan başqa, 1998-ci ilin may ayında mövcud hüquqpozmalarla mübarizə sahəsində İqtisadi Əməkdaşlıq Təşkilatının bütün ölkə lori “İƏT-in üzv ölkələri arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizəyə dair Qarşılıqlı Anlaşma Memorandumu” imzalanmışdır. Həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalında istifadə olunan prekursorların beynəlxalq ticarətinin nəzarətinin gücləndirilməsi haqda qətnamənin qəbul olunması təqdirəlayiqdir.

Dövlət Gömrük Komitəsi bu sahədə aktiv iş apanr və müsadirə ilə bağlı məlumatları Ümumdünya Gömrük Təşkilatının məlumat bazası hesab olunan Gömrük Hüquqmühafızə Şəbəkəsinə göndərir. 9 may 2002-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ÜGT-nin hüquqmühafızə işləri üzrə MDB üzvü olan ölkələrin Regional Məlumat əlaqələndirmə İdarəsi - RILO - Moskvaya qoşulmuşdur.

Qeyd etmək lazımdır ki, son zamanlar gömrük əməkdaşlarının peşəkar səviyyədə hazırlanması, bilİk və təcrübələrin bölüşdürülməsi, gömrük nəzarət məntəqələrinin gücləndirilməsi, onların yeni texniki avadanlıqla, axtarış cihazlan və əlaqə vasitələri ilə təminatı sahəsində mühüm işlər görülmüşdür. Bu işdə BMT İnkişaf Proqramı, Avropa Birliyi və Amerika Birləşmiş Ştatları tərəfindən yardım edilmişdir.

Hal hazırda Azərbaycan Respublikası “Mallann Təsviri və Kod-laşdınlmasmın Harmonik Sistemi haqqında” Beynəlxalq Konvensi

yaya (2 may 2002-ci il), həmçinin “Gömrük Prosedurlarını Sadələşdirilməsi və Harmonizə edilməsi haqqında” Beynəlxalq Konvensiyanın protokoluna və dəyişdirilmiş redaksiyasına (9 dekabr 2003-cü il) qoşulmuşdur.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən Mərkəzi Asiya Gömrük Əməkdaşlıq Komitəsinin üzvüdür. Gömrük Əməkdaşlıq Komitəsi hər bir iştirakçı ölkənin gömrük təşkilatını təmsil edir, strateji siyasi tövsiyyələri verir, gömrük orqanlan üzləşdiyi problemləri həll etmək məqsədilə təkliflər və planlar hazırlayır.

Asiya İnkişaf Bankı çərçivəsində fəaliyyətimiz son nəticədə Ölkənin milli iqtisadiyyatının səviyyəsinin yüksəldilməsində rolu olan tranzit mallarının maneəsiz keçirilməsi üçün şəraitin yaradılmasına yönəlmişdir,

GUÖAM üzv dövlətlərinin hökumətləri arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Son illərin iqtisadi reallığı onu göstərir ki, GUÖAM üzv ölkələrinin ümumi inkişafı prosesində inteqrasiyanın və kooperasiyanın rolu getdikcə artmaqdadır və bu prosesdə gömrük orqanlannın özünəməxsus yeri vardır.

Bildiyimiz kimi 2001-ci il iyulun 29-da Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyi arasında “Cənubi Qafqazda Narko-tiklərə Nəzarət (SCAD)” Yardım Proqramı imzalanmışdır və SKAD proqramı çərçivəsində Dövlət Gömrük Komitəsinə texniki yardım göstərilmişdir və gömrük orqanlannın bilik və bacarıqlan- mn artırılması üçün seminar keçirilmişdir.

İƏT çərçivəsində gömrük sahəsində əməkdaşlıq və fəaliyyətin başlıca istiqamətlərindən biridir. Burada İƏT-in üzv ölkələr arasında regional əməkdaşlığın möhkəmləndirilməsinə və ticarətin sadələşdirilməsi və genişləndirilməsinə yönəldilmiş Tranzit Ticarət və Tranzit Daşımaları üzrə Çərçivə Sazişinin vacibliyini qeyd etmək lazımdır.

Bu sənədlər ilk növbədə, ticarət dövriyyəsinin genişləndirilməsi üçün şəraitin yaradılması məqsədilə, İƏT üzv dövlətlərin ərazisində

ləcək inkişafı, kənd təsərrüfatı, üzv-ölkəlorin sənaye və bank İşinin, turizm, həmçinin üzv ölkələrin özəl sektor nümayəndələri arasında sıx əlaqələrin yaradılmasına və regionun ölkələrində birgə investisiyaların yaradılması üçün vacibdir. Azərbaycan Respublikası Dölət Gömrük Komitəsi İƏT üzv dövlətləri Gömrük Xidmətləri Rəhbərləri Şurasının üzvüdür.

14 yanvar 2003-cü il tarixdə Dölət Gömrük Komitəsində BMT İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsi cənab Marko Borsotti və DGK-nin Sədri BMTİP və DGK arasında birgə həyata keçirilən “Azəıbaycan Respublikası Dövlət Gömrük Komitəsi Potensialının Gücləndirilməsi və Məlmutların ötürülməsi Şəbəkəsinin Yaradılması” layihəsinin üçüncü mərhələsinin başlanmasına dair sənəd imzalanmışlar.

Azərbaycan Respublikası Dölət Gömrük Komitəsi ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik arasında əməkdaşlıq əlaqələri son illər ərzində daha da genişlənmişdir. DGK tərəfindən sərhəd- keçid məntəqələrinin lazımi texniki nəzarət vasitələri ilə təchiz edilməsi ilə bağlı hazırlanmış layihə Agentliyə təqdim edilmiş və AEBA tərəfindən hazırlanan 2003-2004-cü illər əızində texniki əməkdaşlıq proqramında bu təkliflər Öz əksini tapmışdır. Eyni zamanda respublikanın sərhəd-keçid məntəqələrində fəaliyyət göstərən gömrük əməkdaşları üçün seminarlann təşkil olunması, sərhədlərin təhlükəsizliyinə yönələn tədbirlərin həyata keçirilməsi üçün Agentlik tərəfindən 2003-2004-cü illər üçün vəsait ayrılmışdır.

Həmçinin, MDB Ölkələri ərazisində fəaliyyət göstərmək üçün yaradılmış, gömrük nəzarəti və xarici ticarət sahəsində praktik tədbirlər vo əməkdaşlığı həyata keçirən orqan, Gömrük Xidməti Rəhbərləri Şurasının yaradılmasını qeyd etmək vacibdir. Biz, əsasən, gömrük işinə aid olan, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin yerinə yetirilməsində bizim regional birlik çərçivəsində əməkdaşlıqdan irəli gələrək islahatlann həyata keçnilməsi tədbirlərinin beynəlxalq vəzifələrimizin yerinə yetirilməsinə qoşuluruq.

Bundan başqa, islahatlar Ümumdünya Gömrük Təşkilatmm konvensiya və sazişlərində öz əksini tapmış, qəbul olunmuş və beynəlxalq təcrübəni özündə əks etdirməlidirlər.

Qeyd etmək lazımdır ki, MDB üzvü olan dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının əməkdaşlığı çərçivəsində gömrük orqanlan bir-birinə gömrük əməkdaşlannın hazırlanması və biliklərin artınimasi məqsədilə yardım göstərirlər. O cümlədən, Dövlət Gömrük Komitəsi Rusiya Gömrük Akademiyası ilə əməkdaşlıq edir və əməkdaşlarımız öz biliklərini artırmaq üçün Akademiyanın təhsil imkanlarından faydalanırlar. Bundan başqa, Azərbaycanın gömrük əməkdaşlan Macanstan Respublikasındakı Beynəlxalq Hüquq Mühafizə Akademiyası tərəfindən keçirilən tədris seminarlarında mütamadi olaraq iştirak edirlər.

Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 24-26 iyun 2002-ci il tarixdə keçirilmiş 47-ci Sessiyasının işçi sənədləri və Komitə rəhbərliyinin adı çəkilən sessiyalarda, eləcə de UGT- nin yaradılmasının 50-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimlərdə iştirakı ilə bağlı, eyni zamanda, tədbir zamanı "Belçika Krallığı Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında Saziş" razılaşdırılmışdır.

Qeyd etmək lazımdır ki, xarici ölkələrin gömrük xidmətləri ilə əməkdaşlığın genişləndirilməsi məqsədilə son illər ərzmdə gömrük işi sahəsində aşağıdakı beynəlxalq əhəmiyyətli sənədlər imzalanmışdır:

1) "Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım haqqında Saziş" (Bakı şəhəri, 30 yanvar 2002-ci il tarixdə imzalanmışdır);

2) "Azərbaycan Respublikası Hökuməti və Niderland Krallığı Hökuməti arasında gömrük qmıunverictliyinm düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalannın qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım haqqında Sazişin tətbiq edilməsi üçün Qaydalar" (Bakı şəhəri, 6 mart 2002-ci il tarixdə imzalanmışdır);

3) “Azerbaycan Respublikası Hökuıııoti və İran İslam Respublikası tlökuməti arasında gömrük məsələlərində əməkdaşlıq və qarşılıq- ][ yardım haqqında Saziş” (20 may 2002-ci il tarixdə imzalanmışdır);

“Rusiya Federasiyası Dölət Gömrük Komitəsi və Azərbaycan Respublikası Dölət Gömrük Komitəsi arasında xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya üzrə qarşılıqlı fəaliyyət haqqında” və “Rusiya Federasiyası Dölət Gömrük Komitəsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında mədəni sərvətlərin qeyri-qanuni apaniması və gətirilməsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında” Protokollar (9 aprel 2002-ci il tarixdə imzalanmışdır);

4) “Azərbaycan Respublikası Hökuməti ilə Avstriya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş” (20 noyabr 2002-ci il tarixdə imzalanmışdır); ,

5) “Fransa Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Saziş” (22 yanvar 2004-cü il tarixdə imzalanmışdır).

Azərbaycan gömrük xidmətinin düyanın bir sıra nüfuzlu beynəlxalq qurumları və digor dövlətlərin gömrük idarələri ilə əməkdaşlığın getdikcə möhkəmlənməsi və genişlənməsi gömrük işi sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərin Respublikamızda təşkil olunmasına zəmin yaratmışdır. Belə ki, 22-23 yanvar 2004- cü il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkil etdiyi “Böyük İpək Yolu” vasitəsilə Narkotiklərin Qanunsuz Dövriyyəsinə dair Beynəlxalq Konfrans keçirilmişdir.

Tədbirin yekununda, “Böyük İpək Yolu” vasitəsilə Narkotiklərin Qanunsuz Dövriyyəsinə dair Beynəlxalq Konfransın iştirakçıları tərəfindən qəbul edilmiş “Bakı Bəyannaməsi” günümüzün aktual problemlərindən biri olan Narkotiklərin Qanunsuz Dövriyyəsinə qarşı mübarizədə mühüm rol oynayacaq beynəlxalq sənəddir.

ÜGT-yə üzv olan region ölkələri arasında narkotiklərin qanunsuz dövriyyəsinə qarşı islahatçı ölkələr, tranzit ölkələr yaxud, İstehlakçı Ölkələr olmadığından asılı olmayaraq həmin ölkələrdə bu sahədə effektiv mübarizə aparılması üçün beynəlxalq birgə mübarizə əməliyyatlarının gücləndirilməsi və həyata keçirilməsidir. “Bakı Bəyannaməsi”nin qəbul edilməsi ümumbəşəri bəlaya qarşı birgə mübarizə aparmaqla mühüm əhəmiyyət kəsb edir.

18 may 2004-cü ildə Azərbaycan Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə Dünya Gömrük Təşkilatının Brüssel şəhərindəki İqa-mətgahmm qabağında “Dədə Qorqud“ abidəsinin açılışı oldu. Abidənin açılışında Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz H. Əliyevin ləyaqətli davamçısı İlham Əliyev, DGT-nin baş katibi Mişel Dane və Oljas Süleymanov çıxış etdilər.

“Dədə Qorqud” abidəsinin Avropanın “siyasi paytaxtı” olan Brüssel şəhərində qoyulması həm ümummilli liderimiz H.Əliyevin müvafiq fərmanınm icrası, həm de Azərbaycan Respublikası prezidenti İ.Əliyevin Azərbaycanın milli sərvətinə olan xüsusi hörmətinin bariz nümunəsi kimi başa düşülməlidir.

Mərasimdən sonra DGT-nin iqamətgahında Dünya Gömrük Təşkilatı ilə Azərbaycan Respuİikasınm Dövlət Gömrük Komitəsi arasında niyyət protokolu imzalandı. Azərbaycan prezidenti İlham Əliyev imzalanma mərasimində iştirak edirdi.

# Tövsiyə edilən ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. B.: 1995
2. Azərbaycan Respublikasının Gömrük Məcolləsi. B.: 1997
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. B.; 1999
4. Azorbaycan Respublikasının Cinayət Məcəlləsi. B.: 2000
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. B.: 2000
6. Azərbaycan Respublikasının inzibati Xətalar Məcəlləsi. B.: **2000**
7. “Valyuta tənzimi haqqında” Qanun. B.: 1994
8. “Gömrük tarifi haqqında” Qanun. B.: 1995
9. “Girov haqqında” Qanun. B.: 1998
10. “Əməliyyat-axtanş fəaliyyəti haqqında” Qanun. B.: 1999
11. “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 25 iyul 1997-ci il tarixli 616 saylı Fərmanı.
12. “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu və Əsasnaməsi”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 20 oktyabr 1998-ci il tarixli Fərmanı.
13. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli Fənnanı.
14. “Azərbaycan Respublikası regioniannın sosial-iqtisadi inkişafı Dövlət ProqramCnın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı.
15. “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlan üzrə gömrük rüsum İannın dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlannın miqdan haqqında” AR Nazirlər Kabinetinin 22 dekabr 2003-cü il tarixli 161 saylı qərarı,

16. Heydərov K.F. Gömrük işinin əsasları. 4 cilddə. B.: 1998-2000

17. Heydərov K.F., İbrahimov T.T. Gömrük işi-iqtisadi suverenlik və təhlükəsizlik. B.: 1999

18. Nuriyev C.Q. Gömrük hüququ. B.: 2002

19. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi. B.: 2003

20. Nuriyev C.Q., Şəkərəliyev A.Ş., Əliyev A.Ə., Əhmədov S.T. Gömrük ekspertizası. B.: 2003

21. Драганов В.Г. Основы таможенного дела. М.: Экономика. 1998

22. Международная Конвенция о Гармонизировании системе описания и кодировании товаров: Словарь-справочник. 1994

23. Алиев А.А. Таможенное дело и развитие мировой экономики. Б.: 2002

24. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. (Qəbul olunub: 5 mart 2004-cü il. Dərc olunub: 1 aprel 2004-cü il. "Azərbaycan" qəzeti. N-75 (3690).

25. K. Heydərov, C. Həsənov. Azərbaycan gömrük xidməti yeni dünya-təsərrüfat münasibətləri şəraitində. B.: Azərnəşr, 1998

26. Шреплер Х.А. Международные организации: Справочник. М.: Междуранодные отношение, 1995

27. Экономика внешних справочник России / Под ред. А.С. Булатова: М.: БЕК, 1995

28. Шмитггоф К.М. Експорт: право и практика междураноднего торговли. М.: Юридическая литература, 1993

29. Шалашов В.П., Шалашова Н.Т. Новое в валотном регулировании и учете валотных операции. М., 1996

30. Ходов Л.Г. Основы государственно экономического политики. М.: БЕК, 1998

31. Ховард К., Журавлева Г. Принципи экономики свободного рыночного системы. М.: Златоуст, 1995

32. Федоров М.В. Практика внешнеэкономического деятели ности. М.: РАИМ, 1995

33. Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономикс. М.: Де ло, 1993

34. Таможенный кодекс Россиского Федерации от 18.06.9

35. Теория, методология и практика таможенного дела. Част 1-2: М.: РТА, 1996

36. Предприятия на внешних рынках: Внешнеторговое де ло /Под ред. С.И. Долгова, И.И. Кретова. М.: БЕК, 1998

37. Пресняков В.Е. Современная зарубежная практика регу лирования внешне торговли: таможенное аспект. М.: РТА, 199

38. Пресняков В. Таможенная политика Россия на современ ном этапе. М.: РТА, 1996

39. Преступления в сфере экономики. М.: Кросна-Лекс, 199

40. Проблемы адаптации внешнеэкономических связе Росси к условиям открыто экономики /Под ред. М.Н. Осммово М.: Ди алог - МГУ, 1997

41. Право и внешне торговли /Под ред. Поздинкова М.: Меж дународные отнощении, 1987

42. Междураноднные перевозка грузов. М.: ПРИОР, 1996

MUNDƏRICAT

**Redaktordan**.........................................................................3
**Tarixi arayış** .........................................................................6

**1 BÖLMƏ. GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ TEXNOLOGİYASI**

**Mövzu 1. Heydər Əliyev Azərbaycan Respublikasında gömrük siyasətinin banisidir** ..................... 9

**Mövzu 2. Azərbaycau Respublikasında gömrük işinin təşkili** ..................... 16

*1.1. Gömrük işinin mahiyyəti V3 gömrük qanunvericitiyi*........................................16

*2.1. Gömrük qanunvericliyinin zamana v3 məkana gör& qüvvəsi*................................ 24

*2.2. Gömrük orqanlarının vahid sistemi*.......................................26

*2.3. Gömrük infrastrukturu, onun gömrük işinin təşkili və inkişaf etdirilməsində rolu*............................32

**Mövzu 3. Gömrük nəzarəti**........ .......................................35
*3.1. Gömrük nəzarəti anlayışı* ...................................................... ^5
*3.2. Gömrük nəzarəti məqsədləri üçün tələb olunan sənəd və məlumatlar*..........................................37
*3.3 Gömrük nəzarəti formaları və onların tətbiqinin əsas xüsusiyyətləri*...............................................42
*3.4. Gömrük nəzarətinin həyata keçirilməsi prosesində gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətləri*.......................................48

*3.5. Xarici şnxshrin ayrj~ayi'i kateqoriyaları üçün gömrük güzəştləri* ....54

**Mövzu 4. Azərbaycan Respublikasının gömrük sarbədindən malların və nəqliyyat vasitələrimıt keçirüməsinə gömrük nəzarətinin təşkiUnuı əsas xüsusiyyətləri. Gömrük rejimləri** ....68

*4.1. Ə.sa.s prinsiplər* ....68

*4.2. Gätwük rejimi anlayışı. Gömrük rejimlərinin xüsusiyyətləri* .... 70

*4.2.1. Sərbəst dövriyyə üçün buraxılış* ....74

*4.2.2. Təkrar idxal* ....76

*4.2.3. Tranzit Rejimin təyinatı. Ondan istifadə etmənin hüquqi əsası* ....78

*4.2.4. Gömrük anbarı Gömrük anbarı anlaytşı* ....84

*4.2.5. Ri{sum.suz ticarət mağazası rejiminin xüsusiyyətləri* ....88

*4.2.6. Gömrük ərazisində malların emalı* ....89

*4.2.7. Gömrük nəzarəti altında malların emalı. Rejimin məzmunu və istifadəsinin hüquqi əsasları* ....93

*4.2.8. Müvəqqəti idxal (ixrac) rejimin iqtisadi məzmunu* ....96

*4.2.9. Sərbəst gömrük zonası. Sərbəst anbar* ....}Q4

*4.2.10. Gömrük ərazisindən kənarda malların emalı rejiminin məzmunu və istifadə edilməsinin hüquqi əsası* ....108

*4.2.11. Malların ixracı rejiminin mumunu və istifadə şərtləri* .... 11}

*4.2.12. Malların təkrar ixracı ..... 112*
*4.2.13. Malların məhv edilməsi və dövlətin xeyrinə maldan imtina ..... 115*
*4.3. Azərbaycan Respublikasının gömrük sərhədindən nəqliyyat vasitələrinin və malların ayrı-ayrı növlərinin keçirilməsi ..... 122*
*4.4. Beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti .. ..... 123*
MÖVZU 5. Gömrük rəsmiloşdirilməsi ..... 126
*5.1. Əsas prinsiplər ..... 126*
*5.2. Xarici ticarət əməliyyatlarının tənzimlənməsinin spesifik xüsusiyyətləri ..... 129*
*5.3. Xarici ticarətdə hesablaşma və məsuliyyət ..... 138*
*5.4. Xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi ..... 139*
*5.4.1. Ümumi müddəalar ..... 139*
*5.5. BYD (Beynəlxalq yük daşımaları) kitabçası tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının tətbiqi ..... 145*
*5.6. Gömrük rəsmiləşdirilməsində ilkin əməliyyatların rolu ..... 150*
*5.7. Gömrük brokeri ..... 1'4*

## II BÖLMƏ. GÖMRÜK ORQANLARININ İQTİSADİ FƏALİYYƏTİ

**Mövzu 6. Gömrük rəsmiləşdirilməsi əməliyyatlarında xarici iqtisadi fəaliyyətin mal nomenklaturasmın rolu ......**159

***6.1.* *Mal nomenkiaturası anlayışı və malların təsnifatı*......159**

***6.2.* *Beynəlxalq təcrübədə istifadə edilən təsnifat sistemləri və mal nomenklaturaları*......161**

***6.3.* *Malların təfsiri və kodlaşdırümasınm ahəngdar sistemi*...... 164**

***6.4.* *Xarici iqtisadi fəaliyyətin vahid mal nomenkiaturası*......168**

**Mövzu 7. Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi...................... 173**

***7.2.* *Gömrük tarif tənzimləmələrinin h üquqi əsaslan*......175**

***7.3.* *Gömrük rüsumları və rüsum dərəcələrinin növləri*......176**

***7.4.* *Gömrük rüsumunun hesablanmasında "mənşə ölkəsi" anlayışı*......177**

**Mövzu 8. Gömrük dəyəri və onun təyin edilməsi üsulları....................................182**

***8.1.* *Gömrük dəyəri anlayışı* və *onun funksional təyinatı*......183**

***8.2.* *Malların gömrük dəyərinin təyin edilməsinin normativ-hüquqi bazası*......185**

***8.3.* *Gömrük dəyərinin təyin edilməsi üzrə dünya təcrübəsi*......187**

***8.4. Gömrük dəyərinin təyin edilməsi sistemi*** ........ ***188***

***8.4, L Gömrük dəyərinin gətirilən malların sÖvdəl^mə qiymәti ilə müəyyən edilməsi üsulu (I üsul)*** ........ ***190***

***8.4.2. İdentik (eyni) malların sövdələşmə qiyməti üsulu (11 üsul)*** ........ ***200***

***8.4.3. EynicinsU malların sövdələşmə qiyməti üsulu (111 üsul)*** ........ ***201***

***8.4.4. Dəyərin çıxılması üsulu (IV üsul)*** ........ ***202***

***8.4.5. Dəyərin toplanması üsulu (V üsul)*** ........ ***204***

***8.4.6. Ehtiyat üsul (VI üsul)*** ........ ***205***

***8.5. Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsi*** ........ ***209***

***8.6. Gömrük dəyər bəyannaməsinin doldurulması qaydası...*** ........ ***215***

**Mövzu 9. Gömrük ödənişləruiin hesablanması və ödənilməsi** ........ **219**

9.1. ***Gömrük ödənişlərinin növləri*** ........ ***219***

9.2. ***Gömrük ödənişlərinin hesablanması*** ........ ***221***

***9.2.1. Aksizlərin hesablanması qaydası*** ........ ***223***

***9.2.2, Əlavə dəyər vergisinin tutulması xüsusiyyətləri*** ........ ***224***

9.3. ***Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi və ödənilməsi*** ........ ***225***

9.4. ***Gömrük ödənişlərinin ödənilməsi üçün möhlət verilməsi və vaxtın uzadılması*** ........ ***227***

9.5. ***Gömrük ödənişlərindən azad olunma*** ........ ***229***

9.6. ***Müxtəlif gömrük rejimlərində vergi və rüsumların tətbiq edilməsinin xüsusiyyətləri*** ........ ***232***

9.7. *Gömrük ödanişlərinin yük gömrük bayannamohrinds əks etdirilməsi* ........ 236
9.S. *Gömıiik mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük ödənişlərinin alınması qaydaları* ........ 243
9.9. *Gömrük Ödənişlərinin tutulması və ödəyicihrin məsuliyyəti* ........ 247

**Mövzu 10. Valyuta nəzarəti ........ 249**
10.1. *Valyuta tənzimlənməsinin əhəmiyyəti* ........ 249
10.2. ***Azərbaycan Respublikasının*** *valyuta sistemi* ........ 250
10.3. *Valyuta nəzarəti* ........ 252

**MÖVZU 11. Gömrük işində qeyri-tarif tənzimləmələr 261**
//. /. *Qeyri-tarif məhdudiyyətlərinin təsnifau* ........ 261
11.2. *Dünya təcrübəsində QTM və onların tətbiq sahələri* ........ 274

**Mövzu 12. Gömrük statistikası ........ 277**
12.1. *Xarici ticarətin gömrük .'itatistikasınm metodologiyası* ........ 282
12.2. *Gömrük statistikasının göstəriciləri* ........ 285
12.3. *Gömrük .statistikası göstəricilərinin mənbəyi* ........ 287
12.4. *Gömrük statistikası göstəricilərinin* ***araşdırılması və işlənmə üsulları*** ........ **289**

**Mövzu 13. Gömrük sistemində iqtisadi təhlii........ 295**
13.1. *İqtisadi təhlilin məzmunu* ........ 295

*13.2. Göstəricilər sistemi və təhlil üsulları ......................297*
*13.3. Gömrük orqanlarının maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması ..........................................299*

**Mövzu 14............... ___ .........................____ .............. 305**
*14.1. Hüquq-mühafizə fəaliyyəti anlayışı ............................305*
*14.2. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin formaları ...............................................311*
*14.3. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin inzibati-hüquq formaları ........................312*

**Mövzu 15. Gömrük orqanlarının hüquq>mühaflzə fəaliyyətinin cinayət-höqoqı va cinayət-prosessual formaları.........................323**
*15. L Gömrük işİ sahəsində cinayətlər ................................323*
*15.2. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən təhqiqatın və istintaqın aparılması ............................325*
*15.3 Narkotik vasitələrin və psixotrop maddələrin nəzarət altında göndərilməsi ..................332*
*15.4 Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətində narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə ............................................................335*
**15.4.1.** *Narkotik vasitələr anlayışı ...........................335*
**15.4.2.** *Sui-istifadə predmeti olan narkotiklərin təsnifatı ............................342*

**Mövzu 16. Gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyəti...... ---------........ 371**
*16.1, Əməliyyat-axtarış fəaliyyəti anlayışı..........................371*
*16.2. Əməliyyat-axtarış tədbirləri ......................................374*

/6,5, *Azsrhaycan Respublikası gömrük orqanlannm pməliyyat-axtanş fəaliyyəti*......................*377*

**MÖVZU 17. Gömrük mühaüzə xidməti__ ................_ 382**

/ 7. /. *Gömrük mühafizə xidmətinin məqsəd və vəzifələri* ................................................... *382*

*17.2. Gömrük mühafizə strukturlarının xidməti hərəkətlərinin prinsipləri, forma və üsulları*.........................................................*383*

*17.3. Gömrük orqanlarının mühafizə xidmətlərinin qüvvə və vasitələri* .................................*385*

*17.3.1. Mühafizə xidmətinin quruluşu və bölmələrinin təyinatı*.....................*385*

*17.3.2. Qüvvə və vasitələrin təyinatı və istifadə qaydası* ...............................*386*

*17.4. Mühafizə naryadlarının növləri və xidmətin təşkili* ...........................................*389*

*Mühafizə naryadlarının növləri*........................*389*

*İ 7.4.2. Mühafizə naryadlarının xidməti* .................... *391*

*17.5. Mühafizə bölmələrinin idarə edilməsi*........................*405*

*17.5.1. Mühafizə bölməsinin təyinatı və əsas vəzifələri*.................................*406*

*17.5.2. Mühafizə bölmxinin işinin təşkili* ...................*407*

*17.6. Silah və xüsusi vasitələrin tətbiqi*...............................*407*

*17.6.1. Odlu silahın tətbiqi*........................................*407*

*17.6.2. Xüsusi vasitələrin tətbiqi*...............................*408*

**Mövzu 18. Azərbaycan Respublikasının gömrük orqanları dövlət qulluğu sistemində............................ 410**

*18. l. Dövlət qulluğunun hüquqi tənzimlənməsində beynəlxalq təcrübə*.........................*410*

*18.2. Gömrük orqantarmın vəzifə və funksiyaları ................................................417*

**Mövzu 19. Gömrük orqanlurında İdarəetmənin əsasları....... .......................... 423**

*19.1. İdarəetmə anlayışı ....................................................423*

*19.2. İdarəetmə qanunları ..................................................427*

*19.3. İdarəetmənin prinsipləri ............................................429*

*19.4. İdarəetmənin funksiyaları.. ........................................432*

*19.5. İdarəetmənin metodları ............................................439*

**Mövzu 20. Gömrük ərqanlan sistemində idarəetmənin təşkilati strukturları .............445**

*20.1. İdarəçilik münasibətlərinin və idarəetmənin təşkilati strukturlarının növləri ..................................445*

*20. 2. İdarəetmə strukturlarına eriİən tələblər..........................................................453*

*20.3. Azərbaycan Respublikasında gömrük sisteminin idarə edilməsinin xüsusiyyətləri ...............456*

**Mövzu 21. Gömrük orqanlarında xidmət____ _ ........ 4öl**

*21.1. Gömrük orqanlarında xidmət anlayışı ......................461*

*21.2. Gömrük orqanlarında xidmətə qəbul ........ . .............463*

*21.3. Xüsusi rütbələrin verilmə qaydası.............................465*

*21.4. Gömri^ orqanlarında xidmət....................................468*

*21.5. Xidməti intizam .......................................................472*

*21.6. Gömrük orqanlarında xidmətin şərtləri ........................................................475*

*21.7. Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyası ................................477*

*21.8. Gömrük orqanlarının vəzifəli şəxslərinin xidmətinə xitam verilməsi üçün əsasları....................478*

**Mövzu 22. Gömrük orqanları**
**5i§ten]ində idarəetmə prosesi _____ .......... 482**
*22. i. İdaraetms prosesinin*
*mahiyy&ti* va *məzmunu* ............................................*482*
*22.2. İdaraetmə prosesinin tnşkili* ....................................... *486*
*22.3. İdarnetm^ prosesinda*
*q^rar qsbul cdilmosi* .................................................. *487*

**Mövzu 23. İdarəetmənin psixoloji aspektləri................ 495**
*23. l. Gömrük orqanı rəhbərinin idarəçilik*
*düşüncəsinin ümumi xarakteristikası* ......................... *495*
*23.2. Gömrük orqanı rəhbərinin*
*idarəçilik fəaliyyətində ünsiyyət*
*psixologiyası və xidməti etika* ..................................... *504*

**Mövzu 24. Gömrük orqanlarında**
**kargüzarlıq ............. ___ ............................ 510**
*24. L Sənədlərin qeyxiiyyatı,*
*uçotu və göndərilməsi qaydası* ................................... *511*
*24.2. Struktur bölmələrdə sənədlərin*
*hərəkəti və nəzərdən keçirilməsi* ................................ *512*
*24.3. Xidməti sənədlərin tərtibi*
*və rəsmiləşdirilməsi* ................................................... *515*
*24.4. Dövlət gömrük komitəsinin əmrlərinin,*
*göstəriş və təUmailanmn hazırlanması, rəsmiləşdirilməsi*
*və göndərilməsi*................................................*521*
*24.5. Sənədlərin icrasına nəzarət*......................................*524*
*24.6. İşlərin nomenkiatura tərkibi,*
*formalaşdırılması və arxivləşdirilməsi* ....................... *525*

**Mövzu 25. Gömrük sisteminin inkişafı ............................ 529**
*25.1. Azərbaycan Respublikasında*
*gömrük sisteminin təkamülü* ...................................... *529*

*25.2. Gömrük sisteminin inkişafında kadr potensialı ........................................ 536*
*25.3. Müasir mərhəİDdə gömrük işinin idara edilməsinin təkmilləşdirilməsi məsələləri ........................................................................ 544*
*25.4. Dövlət gömrük komitəsinin xarici ölkələrin gömrük İdarələri ilə beynəlxalq əlaqələri ............................................. 545*

**Tövsiyə edilən ədəbiyyat................................................ 554**

**GÖMRÜK İŞİNİN ƏSASLARI**

*(Azərbaycan dilində)*

**NAŞİR:**
*Şahbaz XUDUOĞLU*

**KOMPÜTER TƏRTİBATI:**
***Sahib QƏNİYEV***

**YIĞICI:**
***Xəyalə MİKAYILOVA***

**KORREKTOR:**
***Mehparə ƏSƏDOVA***
***Anar ƏLİYEV***

Çapa imzalanmışdır: 10.07.2004
Formatı 60x90 1/16.
Fiziki ç/v 35,5; ş.ç/v 33.01.
Tirajı 1000, Sifariş 108.
Qiyməti müqavilə ilə

QANUN NƏŞRİYYATI

***Bakı, Azərbaycan, 370033,***
***Ağa Nemətulla küçəsi 44.***
***Tel:** 67-79-56;* ***Faks:** 67-88-87*
***E-mail:** ms@azdata.net*
***Web:** qanun-az.com*